AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
DƏDƏ QORQUD ADINA
FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

**VII kitab**

**(QARAQOYUNLU FOLKLORU)**

BAKI – "SƏDA" – 2002

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Az
A-39

**Azərbaycan Respublikası MEA
Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzi
Elmi Şurasının qərarı ilə çap olunur**

**TOPLAYIB
TƏrtib edƏNLƏR:** f.e.n. Hüseyn İSMAYILOV,
Qurban SÜLEYMANOV

**ÖN SÖZÜN, QEYD VƏ
İZAHLARIN MÜƏLLİFİ:** f.e.n. Hüseyn İSMAYILOV

**REDAKTORu:** f.e.d., prof., Qara NAMAZOV

**RƏ'YÇİLƏR:** f.e.d., prof., İsrafil ABBASOV,
f.e.n. Oruj ƏLİYEV

**NƏŞRİNƏ MƏS'UL:** f.e.n. Əziz ƏLƏKBƏRLİ

**Azərbaycan folkloru antologiyası, VII kitab (Qaraqoyunlu folkloru), Bakı, "Səda" nəşriyyatı, 2002.**

**Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzinin nəşr etdirdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən nəşr edilən bu cilddə Azərbaycanın əzəli, əbədi torpaqlarından olan Qaraqoyunlu mahalının zəngin və təkrarsız folklor inciləri toplanmışdır.**

**ISBN-586874-032-7**

**©"Səda" nəşriyyatı,2002**

## ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

1. AFA, I. Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön sözü"ün müəllifi İsrafil Abbasov, rəyçilər; Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.
2. AFA, II. İraq-Türkman cildi, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər; filologiya elmləri doktoru, professor Azad Nəbiyev filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ", 1999.
3. AFA, III. Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər; fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.
4. AFA, IV. Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov elmi redaktoru və "Ön sözü"ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər; filologiya elmləri namizədi H.İsmayılov, Sənətşünaslıq namizədi F.Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.
5. AFA, V. Qarabağ folkloru, toplayanlar İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön sözü"ün müəllifi filologiya elmləri doktoru professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2000.
6. AFA, VI. Şəki folkloru, tərtib edəni Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, "Ön sözü"n müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi H.İsmayılov. Bakı, "Səda" nəşriyyatı, 2000.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QÜRBƏT VƏTƏNİN SÖZ YADDAŞI – QARAQOYUNLU FOLKLORU

Xalqın mənəvi və mədəni varlığını ən mükəmməl şəkildə özündə cəmləşdirən folklorun öyrənilməsi, bu dəyərləri daşıyan mətn materiallarının toplanıb nəşr edilməsindən başlanır. Nəzərə alsaq ki, cəmiyyətin bütün mədəni fəaliyyəti folklorda öz əksini tapır, tarix də, ədəbiyyat, da etnoqrafiya da, inam və din də öz nikbin ifadəsini onda, onun epoxal zaman qəliblərində və sosial emosiyaları ifadə edən motivlərində reallaşdırır, onda bu materialn əhəmyyəti haqqında bir qədər də ciddi düşünməliyik. Folklor mətnlərinin toplanmasını operativ və intensiv şəkildə aparılmasını hazırkı sosail-siyasi situasiya da diqtə edir. Dünya xalqlarının qabaqcıl hissəsi öz folklor materiallarını, əsasən, son iki əsrdə elmi prinsiplərlə toplayıb nəşr etdiriblər. Bu çağdaş milli-mədəni tərəqqi dövründə bizim müstəqil dövlətimiz olmadığından bu nəhəng və möhtəşəm iş bizim nəslin payına düşüb.

Dövlət müstəqilliyimizin bərpasınadək olan dövrdə Azərbaycan yad rejimə və yabançı ideologiyaya tabe edildiyindən Azərbaycan folklor işi də siyasi şəraitə uyğun olaraq keyfiyyətsiz şəkildə aparılıb. Bütövlükdə Sovet dönəmində görülən işin daha çox və həm də bütün hallarda tam sağlam olmayan kəmiyyət göstəricisindən danışmaq olar. Bir çox hallarda saxta ideologiya şəraitində işləyən folklorçular külli miqdarda xalqın folklor yaddaşında omayan saxta mətnlər düzəldib və ya folklor üslubunda yazdıqları əsərlərini folklor adı ilə təqdim ediblər. Saxta mətnlərdən təşkil olunmuş folklor materialları üzərində aparılan tədqiqatların da, hətta professional səviyyədə hazırlansa belə, elmi dəyərindən və əhəmiyyətindən danışmaq mümkün deyil. İndi bizim fəaliyyətdə olan yaşlı nəsil folklorçularımızın bu sahədə "zəngin və çoxistiqamətli yaradıcılıq" təcrübəsi vardır.

Əlbəttə, bizim tənqidlərimiz XX əsrin əvvəllərində fəaliyyət göstərmiş fədakar folklorçu nəslinin Firidun bəy Köçərli, Salman Müşnaz, Hümmət Əlizadə, Vəli Xuluflu, Əmin Abid, Hənəfi Zeynallı kimi nümayəndələrini nəzərdə tutmur. Biz, əsasən, zümrəvi represiyadan (1937-1938), kütləvi deportasiyaya(1988) qədər olan dövrü nəzərdə



tuturuq. Represiyada milli ruhu elmi dövriyyəyə daxil edən ziyalılar məhv edildi, deportasiyada isə milli ruhun mühafizəkar şəkildə saxlandığı etnik-milli (xalis türk) kütlə öz ilkin və təbii məkanından, doğma yurdundan itkin salınmaqla ciddi deformasiyaya məruz qaldı. Türk ruhuna və özgürlüyünə yönəlmiş terror aktı nəticəsində kütlə mənəvi deqradasiyaya uğradıldı. Əski dünyanın sahibinə öz, sahiblik hüququnu və haqqını bərpa etməyə heç zaman dost olmayan qarı düşmənlər tərəfindən imkan verilmədi. Çünki o düşmən bilir ki, ruhunu özünə qaytaran Türk milləti yenilməzdir. Bizim ruhumuz isə zaman-zaman sözə köçürülüb, onda köçəri cisimdən fərqli olaraq əbədi həyat qazanıb.

Mə'lumdur ki, Azərbaycan folklor arealı həmişə onun siyasi sınırlarından çox geniş olub. Azərbaycanın özündən qoparılan, əslində isə bütün mədəni-mənəvi keyfiyyətləri ilə onun özü olan, özünu, ruhunu, qəlbini, könlünü, canını və qanını təşkil edən Qərbi Azərbaycan xalqının geniş kütləsinin söz, inam və sənət yaddaşında yaşayan Azərbaycan folkloru da təkcə biganəliyin və laqeydliyin qurbanı olmayıb; o həm də folklor maarifçiliyinin çox aşağı səviyyədə olamsı ilə böyük mə'nada iniyədək isə heç kiçik mə'nada da aparılmayan funksional mahiyyətinə görə müqəddəs folklor işindən kənarda qalıb. Qərbi Azərbaycan folklorunun öyrənilməməsi Qərbi Azərbaycanın torpaqlarının itirilməsinin səbəblərindən biri kimi çıxış edib. Biz Milli Ruh kateqoriyasını təsadüfən işlətmirik. Milli Ruh məhz milli duyğu və düşüncələrdən keçən, işlənən, daşlaşan, sabitləşən, yaddaşlaşan informasiya minimumu – folklor yaddaşı sakral enerjdi ilə tə'min edir. Tanrı ilə mistik və estetik təmas, insanın və təbiətin poetik semantikası, toplumal emosiyalar, kodlaşmış zövqlər yalnız folklorda və onun vasitəsilə reallaşır. Folklor qorunanda Vətən də, vətəndaş da qorunur, folklor unudulanda Vətən itirilir, insan hörmətdən düşür, dövlət dağılır, mədəni institutlar sıradan çıxır. Dünyanın sayılan millətlərindən biri olan ingilislərin folklora hətta dövlətdən də yüksək bir dəyər verdikləri, folkloru qorumaq üçün dövlət səviyyəsində bütün zəruri tədbirləri həyata keçirdikləri məlumdur. Bu, optimal təcrübədir. İngilis millətinin müasir dünyadakı mövqeyi və statusu da bu münasibətin nəticəsi kimi örnək olaraq göstərilə bilər. Qeyd edim ki, vaxtilə M.Kaşqarlının yazıya aldığı folklor örnəklərindən birində "El qalır, törü qalmaz" atalar sözündə çox geniş mə'na ifadə olunub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çağdaş türkcədə bu xalq deyiminin mümkün mə'nalarından biri və başlıcası "dövlət dağılar, ən'ənə dağılmaz"dır". Çünki dövlətçilik ən'ənəsi varsa, dövləti yenidən qurmaq, bərpa etmək olar. Amma ən'ənə dağılanda, folklor unudulanda onu heç kəs, heç nə əvəz edə bilməz. Bu, milli-mənəvi varlığın məhvi deməkdir.

Biz tarixin və zamanın ağır sınaqlarına məruz qalmış qürbət vətənimizin folklor ehtiyatını operativ şəkildə toplayaraq nəşr etməyimiz də öncə qeyd etdiymiz milli-mə'nəvi məs'uliyyətdən irəli gəlir. İndiyədək bu iş sistemli şəkildə təşkil edilməmişdi. Bir azdan sonra isə bu, gec olacaqdı. Çünki Şimali Azərbaycanın hər yerinə səpələnmiş Qərbi Azərbaycanlıların söz yaddaşını yaşadan folklor informatorların lokal və regional şəraitdən asılı olaraq fərqli coğrafi mühitə düşdüklərindən, ən'ənəvi məişətdən uzaqlaşır, yaddaşlar getdikcə zəifləyir. Çünki folklor öz regional mühitində funksional ola bilir. Mühitdən qopandan sonra isə o, çox sür'ətlə passiv fonda keçir.

Azərbaycan xalqının siyasi və mədəni tarixində şərəfli və parlaq səhifələr yazmış Göyçə mahalının Qaraqoyunlu əhalisinin söz yaddaşı da indiyədək öz elmi nəşrini tapmayıb. Qaraqoyunlu tayfasının mə'lum və eyni adlı dövlətçilik tarixi var. Qaraqoyunlular tarixən böyük və güclü bir tayfa olub, indi də Azərbaycanın Qərbində, Cənubunda və Şimalında yaşayırlar. Onların böyük hissəsi Qərbi Azərbaycanda əskidən məskun olub. 1988-ci ildə erməni işğalçıları tərəfindən doğma yurdlarından didərgin salınıb. "Belə ki, XI rus ordusu "Ermənistan"da sovet respublikası qurduqdan sonra, 1920-ci ilin dekabrında Göyçə və Qaraqoyunlu Azərbaycandan alınaraq "Ermənistan"a qatıldı. Bu, 6 min. kv. km.-lik bir ərazi idi. 1938-ci ildə Azərbaycanın Gədəbəy rayonunun Köhnə Başkənd kəndi də yenicə rayon statusu almış Çəmbərək rayonuna tabe edildi."[1] Çəmbərək rayonunun bir hissəsini də Qaraqoyunlu ərazisi təşkil edir. Əsas hissəsi Çəmbərək rayonunun tərkibinə daxil olan Qaraqoyunlu dərəsi, Dilican dərəsi ilə Soyuqbulaq yaylağının arasında yerləşir. Çar Rusiyası dövründə bunlar da Gəncə quberniyasının Qazax qəzasına daxil olub. Qaraqoyunlu dərəsi Haqqıxlı, Alaçıxqaya, Murteyil, Ağkilsə, Polad, Salah, Qaraqaya, Yanıqpəyə, Çaykənd, Bəryabad, Əmirxeyir, Gölkənd, Cıvıxlı kəndlərindən ibarətdir. Qaraqoyunluların Azərbaycan Respublikası ilə əlaqəsi Murğuz dağları vasitəsi ilə olmuşdur. Bu yerlərdə "Ermənistan"ın başqa əraziləri kimi, "Dədə Qorqud"la xeyli səsləşən məqamlar kifayət qədərdir. Murğuz dağlarında müqəddəs bir ocaq, ocağın yaxınlığındakı düzənlikdə çoban, qoyun sürüsü, it, daş heykəlləri var. Bu yerlərdə Qazandüşən yurdu, Qazandüşən dərəsi var, Murğuz dağlarında qayaların arasında Ağca Qala adlı bir qala da var. Xalq arasında bu qala haqqında rəvayət yaşayır. Qaçaq Kərəmlə İsrafil Ağa haqqındakı rəvayətlərin bir çoxu da məhz Qaraqoyunlu dərəsi ilə bağlıdır. Bu da təsadüfi deyil. Kərəm bir neçə il Qaraqoyunlu meşələrində sığınacaq tapıb. Bu meşələrdə Kərəmin adını yaşadan xeyli toponim var – Kərəm cələsi, Kərəm körpüsü, Kərəm meydanı, Kərəm qayası, Kərəm gülləsi və s. Baş Qaraqoyunlu dərəsində, Soyuqbulaq yaylasında Yanıqpəyə ilə Əmirxeyir kəndləri arasında yerləşən Kərəm qayası Qaraqoyunlunun ən tanınmış abidələrindən biridir. Bu yer Qaçaq Kərəmlə yanaşı, başqa el qəhrəmanlarının – Pirvəlinin, İsmayılın, Qandal Nağının, Bozalqanlı Qaçaq Tanrıverdiniin, ona arxa olan Qaraqoyunlu Dövlət xanın və b. qaçaqların adı ilə də bağlıdır.

-----------------

1. Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan" B., 1994, s. 175-176).



Qaraqoyunlu əhalisinin folklor yaddaşında el qəhrəmanlarına möhtəşəm abidə ucaldılmış, onların həyatı və fəaliyyəti əfsanələşdirilmişdir.

Qaraqoyunlu adının qoyun totemindən yaranması ilə bağlı elmdə mə'lumatlar var. Minorski qeyd edir ki, Qaraqoyunluların bayraqlarında qara qoyun rəsminin olması və eyni zamanda onların bu adı alması bə'zi Qərb müəlliflərin heç bir əsası olmayan iddialarından irəli gəlmişdir. Qaraqoyunlu oymağının haradan əmələ gəlməsini, onların hansı boya mənsub olmalarını XV yüzilliyin Osmanlı tarixçisi Mövlanə Şükürullah Dəniz xan oğullarından əmələ gəldiyini bu xanədanın böyük hökmdarlarından biri olan Cahan Şahdan eşitdiyini nəql etmişdir. Deməli, Qaraqoyunlu türkləri Dəniz xanın İva (Yeva) adlı oğlundan törəmişlər." *(E.Hacılı. Qaraqoyunlular. B., 1999. S. 19-20).* Bu, Qaraqoyunluların turk-oğuz genoloji sxemində mövqeyini müəyyənləşdirir. Qaraqoyunlu dövlətinin yaranması və fəaliyyəti bu tayfanın tarixində mühüm bir hadisə olduğu kimi, Azərbaycan dövlətçilik tarixində də əhəmiyyətli bir faktdır. XV yüzilliyin ikinci yarısında, yəni 1457-ci ildə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mərdində Cahan Şahla Ağqoyunlu Uzun Həsən arasında qanlı döyüşlər oldu. Bu döyüşdə Uzun Həsən qalib gəldi. On ildən sonra xristianlar onu yenidən Cahan Şahla savaşa təhrik etdilər və bu müharibədə Qaraqoyunlu şahı öldürüldü. Onun yerinə oğlu Həsənəli keçdi. Lakin aradan heç iki il keçməmiş Təbriz taxt-tacı və bütün Azərbaycan Uzun Həsənin əlinə keçdi. Qaraqoynluların sonuncu hökmdarı Həsənəli Mirzə Əmir Qaramana pənah gətirdi. Beləliklə, 1459-cu ildə bir əsr fəaliyyət göstərən Qaraqoyunlu xanədanı və onun varisi olan Qaraqoyunlu dövləti süquta uğradı." (E.H. S. 58). Qaraqoyunlunun sosial-siyasi varlığı tarixdə geniş şəkildə öz əksini tapıb. Qaraqoyunlunun mə'nəvi dünyası və dünyaya ədəbi estetik münasibəti onun folklor yaradıcılığında reallaşıb. Nəşrə hazırladığımız "Qaraqoyunlu folkloru", "Azərbaycan folklor antologiyası" seriyasının növbəti (VII) cildidir. Qürbətdə qalan Vətənimizin söz yaddaşı da, sevinci və göz yaşı da burada toplanmış xalq yaradıcılığı nümunələrinin Qaraqoyunlu variantlarında öz əksini tapıb. "Qaraqoyunlu folkloru"nda "Ovsunlar", "Əmək nəğmələri", "İnanclar", "Sınamalar", "Yasaqlar", "Alqışlar", "Qarğışlar", "Andlar", "Əfsanələr", "Rəvayətlər", "Türkəçarələr", "Nağıllar", "Lətifələr", "Bayatılar", "Atalar sözləri və zərb məsəllər", "Yanıltmaclar", "Cırnatmalar", "Düzgülər", "Nazlamalar", "Laylalar", "Tapmacalar" müasir folklorşünaslıq elminin nəzəri prinsiplərinə uyğun şəkildə təsnif edilib, Qaraqoyunlu haqqında mə'lumat, informatorların siyahısı və qeydlərlə təmin edilib.

Nəşrə təqdim edilən material Qaraqoyunluların söz yaddaşını tam dolğunluğu ilə əks etdirir.

HÜSEYN İSMAYILOV



# I. İLKİN NÖV VƏ JANRLAR

## İNANCLAR

Su aydınnıxdı. Ulu bavalarımız, nənələrimiz həməşə suya inanıflar, suyu müqəddəs sayıflar. Yer üzərində olan bütün cannı və cansızların hər birinin öz əyələri var. Suyun da öz əyəsi var. Gərək bunnarın hamısına salam verəsən.

Suya salam verməsən, su sənə qarğış eliyər. Səhər-səhər axar çayın üzərinə gedif salam verməlisən, yoxsa su sənə xətər toxuyar.

Bulax başına gedərkən bulağa səcdə etməli, suyunu içməmişdən əvvəl bir ovuc götürüf üzünə səpməli və salavat çevirməlisən. Belə edəndə işin uğurru olar.

Su gətirməyə gedən hər bir qadın suya çatan kimi salam verməli, dua etməlidi. Səhəngini dolduruf gələndə yenə də razılığını bildirməli, "Salamat qal" deməlidi.

İnsan sudan addıyanda salam verməlidi, yoxsa su onnan inciyər, qarğıyar.

Meyvə verən ağacı kəsməzdər, günahdı. Onu kəsəndə dua etməli, səvəvini deməlisən. Üzrxahlıq edif sonra kəsməlisən.

Evdən çıxanda da deyəllər kin, salamat qal, mən getdim, genə qayıdajam.

Xırman sovuranda deyillər kin, a Yel baba, Yel baba, gəl atına saman apar. Onda yel əsər, xırman yaxşı sovrular.

İlin axır çərşənbəsində ürəyində niyyət hava qaralannan sonra xəlvətcə gedərsən qonum-qonşunun qapısına. Qapı dalında duruf, ayağıyın altına açar atıf içəriyə qulaq asırsan: eşitdiyin ilk kəlmə niyyətiyin yerinə yetif-yetmədiyinə nişan verir. İlk kəlmə xoş mətləbə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyətin baş tutacaq. Əgər içəridən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə eşidirsənsə, onda istəyinə çatmaq çətin olajax.

İlin axır çərşənbəsində su dolusu kasa götürüf onun ucuna pambıx dolammış iki iynə atırlar. Əgər iynələr bir-birlərinə yaxınlaşır, görüşürlərsə, onda ürəyinizdə tutduğunuz niyyətə çatajaqsınız.

Axır çərşənbə gecəsi iki alma götürüf birinə xəlvətcə bir nişan qoyursan. Sonra ürəyində bir niyyət tutarsan, gəlif evdəki ən xırda uşağı çağırırsan kı, gəlif almalardan birini götürsün. Əgər nişanladığın almanı götürsə, onda diləyinə çatarsan.

Axır çərşənbə gejəsinin səhəri sübh tezdən duruf axar su üstünə getmək, suya salam verif üstünnən üç dəfə atdanmaq, sonra da həmən sudan bir qab gətirif həyət-bacaya, evin dörd bucağına səpmək gərəkdi. Deyirlər kin, belə edəndə ilin xoş gələr, ağrı-acı görməzsən.

Axır çərşənbə gejəsinin səhəri evin damına buğda atarlar kın, bərəkət artıx olsun.

Axır çərşənbə gejəsində un çuvalın ağzını açıx qoyarlar kın, bərəkət paylananda bağlı qalmasın.

Axır çərşənbə gejəsi ərqən qızlar xeyli aralı arxası qapıya duruf ayaqlarındakı ayaqqabının birini qapıya tərəf atır. İşdi ayaqqabının burnu qapıya tərəf düşsə, demək, ərgən qız yaxın vaxtlarda ərə gedəjək.

İlin axır çərşənbəsində axar suyun qabağını kəsmək olmaz, onda sənə sədəmə toxunar, işlərin dolaşar.

Axır çərşənbə axşamının səhərisi evdə uşaqdan böyüyə nə qədər adam varsa, gedif hamısı axar su üstündən üç dəfə atılar, sonra da həmin axar suyun əl-ayaqdan uzax bir səmtində saxsıdan olan bir qab sındırıf deyəllər: "Nə ki, ağrı-ajımız, qada-balamız varsa hamısı bax bu suynan getsin".



Axır çərşənbə axşamında yandırılan tonqalın üstünnən adamlar atdanıf qurtarannan sonra mal-qaranı, qoyun-quzunu da addadırlar ki, çillədə qalmasınnar. Çillə köhnə ilin ağrı-acısı, qada-balasıdı, ojaxdan addayanda hamısı tökülüf odla yanır. Addıyıf keçəndə olur anadangəlmə.

Axır çərşənbə axşamında ov tüfənginə giliz qoyuf boşuna atallarkı, çillədən çıxsın. Əgər həmin məqamda tüfəngi dolduruf atmasan, çilləyə düşüf il boyu müdam düz vurmaz, ovdan, quşdan yayınarsan.

Axır çərşənbə axşamında yandırılan tonqalın üstünnən atdanıf deyəllər:

Ağırrığım, uğurruğum,
Ağrım, ajım,
Qadam, balam -
Hamısı tökülsün, bu odda yansın.

Bayram axşamında, ya da bayram günündə qalanan tonqalın üstünnən atlananda bu sözləri deməzdər. Eləcə tonqalın başına yığışıf ondan bərəkət istərlər.

Bayram axşamında, ya da bayram günündə qalanan tonqala ajı tüstülü ağac atmazdar. Ancax quru ağacı bayram tonqalında yandırallar, yaş ağacı həmən ojağa atsan, sənə sədəmə toxunar, bərəkətin çəkilər.

Bayram tonqalı yanıb axıra yetəndə ojaqdakı gözlərin üstünə üzərrik səpif deyəllər: "Odumuza, ojağımıza kəm baxanın gözdəri bax beləjə partlasın, özü də oda düşüf çatlasın".

İlaxırı çərşənbənin axşamında baltanın küpüynən meyvə ojaqlarının kötüyünə bir-iki dəfə yüngülcə vuruf deyəllər: "Nə yatmısan, oyan, bərəkət payını götür". Deyəllər belə edəndə həmən il ağacların bəhəri bol olar.

Səməni saralıf solanda onu zibilliyə atmazdar. Bu zaman belə səmənini çaya atıf dalıncan da şəkər atarlar. Belə olanda evə xeyir-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bərəkət gələr.

Çox yağış yağıf kəsmək bilməyəndə yağış suyunnan bir qazan götürüf quruyuncaya qədər qaynadıllar. Su tamam quruyuf çəkilənnən sonra həmən qazanı isti-isti aparıf ağzı aşağı qoyallar. Yağışın damcıları isti qazana dəyif cızıldıyanda tez-tez belə deyəllər.

Qayna, qazanım, qayna,
Oyna, qazanım, oyna.
Bəsdi daha buğlandın,
Bəsdi daha dağlandın.
Yaxış çıxıf gedəjək,
Saçın yığıf gedəjək.

İnanıflar kın, belə edəndə yağış kəsər.

Əgər öydə bir torvada, ya bir xəlvət yerdə qurdun aşıx sümüyünü saxlasalar, o öydə həməşə bollux, bərəkət olar.

Bir heyvan itəndə qurd ağzını bağlayallar kın, ona canavar dəyməsin. Amma heyvan tapılanda gərəh qurd ağzını açasan. Yoxsa günahdı, qurd aj qalar.

Əyər qurd dişi tapıf civinə qoysan gejə hara gedirsən get, heş nədən qorxmazsan.

Qarağac, dağdağan ojaxdı, onnarı qırmax, kəsmək günahdı; adama qarğıyar, işi düz gətirməz.

Hansı həyətdə bayquş ulasa ev yiyəsi qorxar. Bu zaman tezcənə duz-çörək gətirif quşun qavağına qoyuf deyəllər: "Səni and verirəm bu çörəyə-duza, çıx burdan get, bizdən uzax ol". Quş həmən yerə bir də gəlməz.

Yazda birinci dəfə sel gələndə, onda kim haman selin qavağına çıxıf onnan bir kasa dolduruf içsə onda olan pütün xəsdəliklər yox olar, çıxıf gedər.

Ölü öləndə onu tək qoymazdar, yoxsa şeytan gəlif ölünün imanın



aparar, ölü o dünyaya imansız gedər.

Ölü basdırılanda üç gün keşik çəkmək lazımdı, həm də şam yandırıllar kın, ölünün ruhunu şər qüvvələr apara bilməsin.

Ölü yuyulan yerdə üç gün çırax yandırıllar, ya da şam yandırıllar.

Ölünü basdırıf qayıdanda ölü qalxır, başı əhlət daşına dəyəndə çığırır. Onun səsini bir molla, bir qara qoyun, bir də xoruz eşidər.

Ölü ölən zaman meyidin üsdünə daş qoyallar. Torpağa basdırılanda həmən daşı dalınca atallar kın, xata-balanı özü ilə aparsın, evdə bir də ölü düşməsin.

Qəbir üsdünə gedəndə bir daş götürüf baş daşına taqqıldadallar kın, ölü adamın gəldiyini bilsin, həm də bu zaman adını deməlisən.

Adına axşamı qaş qaralanda ölülər paya gəlir. Gərək öydə yağlı yemək pişə kin, ölü də doyuf getsin. Hər ölü öz ojağının başına gəlir.

Şər vaxtı su içməzdər, çünki şər vaxtı ölülərə su verillər. Hər kim şər vaxtı su içirsə, öz yaxın ölülərinin suyunu kəsir.

Uşağın adını bələkdə və ya beşikdə qulağına deməsən, uşax yekələndə yalançı olar.

Qırxlı uşağın üsdünə qızıl üzük, sırğa, bilərzik taxan adam gəlsə, uşağı sarılıq tutar. Belə adam gələndə uşağı qaldırıf baş üsdünə tutallar. Həmin adam uşağın altınnan keçər. Belə edəndə uşağa heç zad olmaz.

Uşağın başının altına pıçax, çaxmax daşı qoyallar, onda uşax böyüyəndə qoçax olar.

Uşağı bələyənnən sonra əlini yerə toxunduruf kürəyinə vurallar, deyərsən kin, yuxum sənin olsun. Bu zaman uşax rahat yatar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uşax yıxılanda barmağı basallar onun yıxıldığı yerin torpağına, sürtəllər uşağın damağına. Əyər belə eləməsən torpağın sahabı uşağa sədəmə toxundurar.

Öydə oturuf çörək yeyəndə gərək "bismillax" deyəsən. Çünkün yeylər bu zaman siznən baravar oturuf, onnar da yeyillər. "Bismillax" deyəndə onnar çıxıf gedillər, siz də çörəyinizi rahat özünüz yeyirsiniz.

Gejə vaxdı ağac altında durmazdar, xarabaxanalıq yerdən keçməzdər. Yoxsa adama cinnər şətəli toxunar.

Xəsdəyə nar meyvəsi verəllər. Xəsdənin dərmanı o narın bir dənəsindədi. Xəsdə narın dənələrini gərək elə yesin kin, bir dənəsi də yerə düşməsin, Onda xəsdə tez sağalar.

Xəsdənin yanına duz, kömür, çörək qoyallar.

Öyə gəlin gətiriləndə qaynana çörəyi ovuf gəlinin başına tökər, onda gəlinin urzusu bol olar. Hər kəs bu çörək ovuntusunu yığıf yesə sağlam olar, heş vaxdı xəsdələmməz.

Çörəyi ayax altına atmazdar, yoxsa çörək çəkilər göyə, insannar ajınnan qırılar.

Bağı bədnəzərdən qorumax üçün ya at, ya da öküz kəlləsini payıya taxıf qoyallar bağa.

Əsniyəndə, gərnəşəndə gərək yönünü başqa səmtə çevirif əsnəyəsən. Bir adama tərəf əsniyəndə, ya gərnəşəndə ağırrığın –uğurruğun onun üsdünə tökülər, onun başına iş gələr. Belə eləmək olmaz.

Sıçan donuzun burnunnan düşüf, ona görə də o, murdardır, amma pişik pələngdən əmələ gəlif, o, təmizdi.

Baş –ayax pişirəndə göz yağını yemək pisdi. Əyər iki gözün hərəsini bir adam yesə, onnar bir – birləri ilə düşmən olallar.



İki adam bir birinnən yola getmiyəndə dəllərkin, bunnar göz yağı yeeflər.

At nalını ağzı yuxarı öyün qapısına vurallar kın, xoşbaxtlıx gətirsin. Əyər ağzı aşağı vurularsa, bədbəxtlik gətirər.

Keçmişdə bir oğlan bir qızı isdiyəndə oğlanın ya atası, ya da anası gedərdilər xəlvətcə qızgilin həyətlərinnən bir daş götürüf gətirərdilər. Həmən daşı atardılar öz həyətlərinə. Bir həftə, on gün gözdüyərdilər. Xeyir görsələr, qızı alardılar oğullarına.

Cümə axşamı kimi torpağa tapşırsalar ona sorğu –sual olmur.

Ölünü basdıranda qəbirin üsdünə güzgü, qayçı və ya pıçax qoyallar.

Hansı öydə ılan varsa o öydə xeyir – bərəkət olar, ona öyılanı dəllər. Öy ılanını öldürməzdər. Öldürəndə öydən xata –bala əysik olmaz. Öy ılanı adamı çalmaz, ılanı vurmasan adamı çalmır.

Deyəllər kin, öy ilanı yeddi qardaş olur. Biri fərəhdi, biri mələkdi, qalan beşi evə dirəkdi. Fərəh ilan ziyannıx eliyər, mələk ilan isə köməklik eliyər, qalannarı da evə bərəkət, urzu gətirər. Ziyannıx eliyən ilanı öldürmək lazımdı. Onda evdə həməşə xoşbəxtlik olar. Əmbə o birilərini öldürsən evin bərəkəti qaçar.

Ağacın, otun, çiçəyin, hər şeyin murazı var. Onnarı yaşıl vaxdı qırmax, kəsmək olmaz. Bu vaxdı onnar muraz üstə olullar, qıranda, kəsəndə onnar murazdarına çatmıllar, onda onnar onnarı kəsən adama qarğış edillər.

İlan yatan yerdə xəzinə olur.

Boş öyə salam verənnər Allaha salam verillər.

Kəndimizin lap yaxınnığında iki palıd ağacı varıydı. Kənd adamları ona "qoşa qardaş" deyərdilər. Hamı bu ağaşdara səjdə edərdi, nəzir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qoyardı. Deyərdilər kin, kim bu ağacı kəssə o adam bədbəxt hadisəyə düçar olajax. Kəndə elektrik xətti çəkiləndə xətt haman ağaşdara düşmüşdü. Ağaşdar kəsilməli idi, amba kənd adamlarınnan heş kəs cəsarət edif ağaca balta vurmadı. İş belə olanda xəttin rəhbəri erməni Apuşavan nəhəng palıd ağaşdarınnan xeyir götürəcəyini güman edərək ağacı özü kəsməli olur. Erməni ağaca bir neçə balta endirəndə birdən ağacın başınnan iri bir pudax qırılıf ermənnin başına düşür. Ermənini qan götürür, xətti oradan kənara dəyişillər. Ağacın kəsilən yerinnən qan axmağa başdıyır. Bu hadisədən sonra adamların "Qoşa qardaşlara" inamı daha da artır.

Murğuz sınaxlı pirdi. Ona kim niyyətlə getsə əliboş qayıtmır. Elə oldu ki, bu sınaqlı Pirə mən də gedəsi oldum. Buraya bir məşhur oğuru da gəlmişdi. Mən onnara dedim ki, bu ziyarətdən sonra kim yenə oğurrux eləsə, Pir ona qənim olajax. Aradan on gün keçmiş həmin adam ağaşdan yıxılıf qolu, qıçı sındı. İnama şəkk edənlərin aqibəti belə olur.

Kəndimizin qəbristannığında adi bir baş daşı varıydı. Baş daşının başında da  ayrıca sığal yüngül bir daş qoyulmuşdu. Bu baş daşı Usif Əfəndinin qəbri üzərində idi. Ona inanannar baş daşının başına pul qoyar, balaca sığal daşı da onun üsdünə qoyardılar. Kənddə bu cür inamlara şəkk eliyən, ona inanmayan cavan bir kommunist varıydı. Bu şəxs həmən daşın pusqusundan durur, daşa nəzir qoyuf gedənnərdən sonra, həmən adam özünü yetirif pulları götürüf kəndin içinə gəlir. Pulu burada olannara göstərif deyir ki, indi bu pula mən arax alıf içəjəm, görəx mənə nolajax. Kənd adamları nə qədər yalvar –yaxar edillərsə əlac olmur. Elə həmən gün şər vaxtı həmən şəxsi maşınla rayon xəstəxanasına çatdırıllar, cərrah həkim xəstəni yarır, dolaşmış bağırsaqları açır. Xəstə sağalır, səhvi üçün qəbrin üzərinə gəlir, duva verdirif nəzir qoyur.

Kəndimizin adamları uzun müddət Xıdır Nəviyə inam bəsləyif, ona inanıflar. Xıdır Nəvi çillədə olur. Xıdır Nəviyə inanannar Xıdır Nəvidən üç gün qavax yaxşı taxıl qoyurullar, onnan qoyut çəkillər. Həmən qoyudu və qoyurğanı bir sinidə ya avışqanın ağzına, ya da şfanerin başına qoyullar. Bunnarın yanna həm də bir dolça su və bir



güzgü də qoyullar. Bunu qoyannar niyyət edillər; deyillər kin, ay qurvanın olum, atına su da qoymuşux, gələndə payına bir iz qoy get. Əyər Xıdır Nəvi gəlifsə, suyu atına içirdif, özü də qovurğuya, qoyuda iz qoyuf gedif.

Həmən bu izə inanannar deyirdilər: Qurvanı olduğum qovurğama – qoyuduma çəliyinin ucunu basıf gedif. Belə olanda həmən adam niyyətinə çatırdı. Onda həmən adam qonşulara qurvan payı paylayırdı.

Xıdır Nəvi ilə bağlı bir inam da varıydı. Xıdır Nəvi bayramında qızdar axşamnan çoxluja duzlu xörək yeyər, su içməzdilər. Gejə yuxuda Xıdır onnara su verərdisə, deməli qızdar niyyətlərinə çatardılar. Belə olanda qızdar səhər açılanda tay-tuşlarına pay verər, şənnənərdilər.

Xıdır bayramında hamilə qadınnar niyyət edərdilər kin, əyər oğlum olsa adını Xıdır qoyajam. Aradan keçən günlərin birində həmən qadının oğlu olduğu üçün adını Xıdır qoyur, adamlara niyyət payı paylayır.

İlaxırı gejəsi ilə bir sıra inamlar var. Bunnardan biri belədir: İlaxırın səhərisi o başdan gedillər çaya. Suyun üstünnən tullanırllar, sora suyun içinnən xırdaja daşdar götürüllər, ağaşdardan xırdaja çöpləri də bağlayıf gətirillər öylərə. Həmən daşdarı qoyardılar çuvaldakı buğdanın içinə, unun içinə, çörək taxtasına, yağ qabına, ya pul kisəsinə. Ağac çöpləri də qoyardılar öyün küncünə, bucağına. Bu cür icralar evə bərəkət gətirərdi.

İl təhvil olanda bir yumurta, onun da yanında bir qırmızı, bir də bir qara qarandaş qoyuf aparırsan çayın qırağına. Ürəyində niyyət tutursan, əyər yumurtanın üzərində qırmızı xətt çəkilifsə niyyətinə çatırsan, yox qara xətt çəkilifsə onda niyyətinə çatmırsan.

Qırxlı uşağı öydə tək qoymaq olmaz, onda cinnər gəlif uşağı dəyişə bilər. Belə olanda uşax gümrah böyümür, çəlimsiz olur, onda belə uşağa cin balası deyillər.  Belə hadisənin baş verməməsi üçün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

uşağın paltarına və qundağına sancax sancarlar, belə edəndə cinnər ona yaxınnaşa bilməzdər.

Uşax dişlərini dişəyəndə, yəni dişi düşüf yeni diş gətirəndə uşax çıxan dişini götürüf öyün güncünə atmalı və deməlidi: a siçan, balta dişimi sənə verirəm, sən də incə dişini mənə ver.

Körpə uşağın dişi çıxanda, yəni yeni diş gətirəndə ona hədik pişirər və onu qonşulara paylayardılar, pay verdiyi adamlar da onun qabını boş qaytarmazdı. Belə olanda uşağın dişi bərkiyər, xoşbəxt olar.

Gejə vaxtı göydəki ulduzlara çox baxmazdar. Çünki hər kəsin göydə bir ulduzu var. Ulduza çox baxanda adamın ulduzu axar, adam da ölər.

Gün düşən yer mundar olmaz, günün işığı düşən yer təmiz olar, murdar olan yerrər də təmizlənər. Günəşə səjdə etmək, ona salavat çevirmək lazımdı.

Çörək bişiriləndə ilk çörəyi arvaddı adam yeyərsə, onda onun arvadı ölər. Buna görə də haman çörəkdən bir parça qırıf itə atmalı, qalanını yemək lazımdı.

Sağsağan gəlif qapıda səslənirsə, deməli öyə qonax gələjək.

Təzə nışannanmış qız sağ əlini hansı qızın başına vursa, o qızın baxdı açılar.

Yatan adamın başının üsdündə hər iki əlində daş olan adam daşları yavaş-yavaş biri-birinə vursa, yatan adam daha ağır yatar.

Yuxudan duran adam səhər tezdən əl-üzünü yuduxdan sonra güzgüdə öz-özünə baxıf salavat çevirməlidi. Üçünkün Allah – taala insannarı öz camalında yaradıf. İnsan bununla Allaha öz məhəbbətini izhar edir.

Deyəllər kin, əli ağır olan qız dul kişiyə, əli ağır olan oğlan isə dul



arvada qismət olar.

Kim ayağını suya sallıyıf Allah – taaladan dilək istəsə o, istəyinə çatar.

Nişannı qız nişan parçasını gizli yerdə saxlamalıdı. Üçünkün qızı isdəmiyənnər onun parçasının saflarını götürüf, baxdını bağlada bilər.

Hər hansı adam paltarı soyunmadan öz əynində tikirsə, deyəllər kin, haman adam şərə düşər. Bunnan qorunmax üçün tikiş tikən adam ağzına çöp almalıdı.

Nehrə çalxıyanda nehrənin içinə palıd qozası atsalar, onda nehrənin yağı bol olar.

Dolu yağanda onun bir dənəsini nehrəyə atsalar bərəkətdi olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SINAMALAR

Səhər tezdən evdən çıxıf gedəndə qavağınıza it çıxsa uğurunuz xeyirri olajax.

Ova gedən zaman qavağınıza tülkü çıxarsa uğurunuz xeyirri, dovşan çıxarsa uğurunuz uğursuz olajax.

Hər hansı yerə gedərkən qarşınızdan pişik keçirsə, bir qədər gözləməli və papağınızı çevirməlisiniz, sonra yolunuza davam etməlisiniz.

Qapınızda toyuq banlasa, şər işlər, bədbəxt hadisələr gözləyir sizi. Həmən toyuğu kəsməli, dua etməlisiniz kin, şər işlər sizdən uzaq olsun. Meşədə palıd qozaları boldursa və cüt-cüt sıxdırsa, deməli qış sərt gələjək.

Qış vaxtı qarğalar qar yağmamışdan qabax havada fırranıf sonra yerə otursalar, onda hava xoş olajax, qış mülayim keçəjək.

Qış gəlməmişdən əvvəl əyər qarğalar havada fırranıf, dövrə vuruf öylərin üsdünə, ya da ağaşdarın putağına qonsalar, onda qış sərt gələjək.

Əyər şabalıd ağacının gövdəsinnən yapışqan süzülürsə, onda arasıkəsilməz, şıdırğı yağış yağajax.

Əyər qaranquşlar alçaqdan uçuşur və civildəşillərsə, onda qış tez gələjək, həm də qış sərt keçəjək.

Tozağacının, ağcaqovağın yarpaqları bütünnüknən, tamal-kamal tökülürsə, demək, bu il yüngül keçəjək, ruzu da bol olajax.

Yazda sarı çiçəkli yasəmən ağacı çiçəkləyif şirə buraxırsa, hər yanı şirənin iyi bürüyürsə, bir azdan yağış yağacağı gözlənilir.

Əyər Günəşin üzündə qara halə əmələ gəlirsə, deməli, bu il yağmurlu keçəjək.



Yemək vaxdı duz tökülsə, ehtiyatlı olmaq lazımdı, evdə dava düşə bilər, bu zaman duzun üzərinə şəkər qoymaq lazımdı.

Bir oğlanın əli ağırdırsa, yəni vurduğu şillə, şapalax zərbəlidirsə, deyəllər kin, oğlan qohumnan öylənəjək.

İki qaşın arasında anadangəlmə yarıx, çapıx olmax xoşbaxtlıx əlamətidi.

İt axşam vaxdı uluyanda vay gətirər, buna qarşı hazır olmaq lazımdı.

Arılar örüşdə arasıkəsilmədən yeşiklərə qaçırsa, deməli, güclü yağış gözlənilir.

Əyər yay vaxdı qoyun-quzular gürnaşa yığılır, başlarını gizlədillərsə, onda yağış yağajaq.

Kərtənkələnin quyruğunu kim qırıf civlərində gəzdirirsə, onda o adam pul tapajax.

Adamın əlinin içi qaşınırsa, onda deyəllər kin, pul gələjək.

Əyər adamın ayağının altı qaşınarsa, onda haman adam yol gedəsi olajax.

Pişik əlini yalayırsa, demək, evə qonaq gələjək.

Əyər evdə qadının əlinnən qaşıx düşərsə, evə qadın qonağı, pıçax düşərsə, kişi qonağı gəlməyi gözlənilir.

İt uluyanda bəla gətirər, bayquş uluyanda ev yıxılar, toyux bannayanda öy yiyəsi ziyana düşər.

Həyətdə at kişnəyəndə xeyirri olar.

Əyər kəndin itdəri, pişikləri kənddən çıxıf qaçıllarsa, həmən yerdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zəlzələ olajağı gözlənilir, ehtiyatlı olmaq lazımdı.

Əyər toyuğunuz kürd yatmırsa, onda əlinizə ələk alıf toyux yumutduyan zaman onun yanna gəlif belə deməlisiniz: Mən sənnən küsüf getdim. Bu zaman toyux kürd yatar.

Meyit götürülən zaman mərəkədə olan adamlardan heş biri geri dönüf baxmamalıdı, onda deyəllər kin, ölünün dalısınca yenə adam ölər.

Meyit götürülənnən sonra evi kim süpürsə, gərək üş gün süpürsün. Əyər süpürməsə, onun öz evində ölü düşə bilər.

İnək doğanda qatıx çalıf qonum-qonşuya aparallar. Qonşu da gərək onun qavına şirinnik qoya, qoymasa, inəyin südü azalar.

Səhər doğulan adamın ayağı yüngül, gejə doğulanın ayağı ağır olar. Çörək yananda, xana toxuyanda səhər doğulan adam gəlif "İşiniz irəli" deməlidi. Bu zaman iş avand olar.

Təzə doğulmuş uşağın dişi varsa, gərək ona qurvan kəsilə, dua yazıla. Yoxsa, evdə bədbəxt hadisə baş verə bilər.

Qulax cingildəyirsə onda kimsə sənin bədinə danışır, onda "bismillah" deyif onun nəfəsinin qarşısını almalısan.

Əyər hamilə qadın qız doğarsa, onda qapının girəcəyinnən ələk asmalı, oğlan doğarsa ya tüfəng, ya xançal, ya da ox asmalı.

İlan qurvağanı udanda gərək ilanı öldürüf qurvağıyı ağzınnan alasan. Kim belə eliyif ılanın ölüsünnən qurbağanın arasınnan getsə əli tüşümlü olar. O ,ələrinnən boğazı ağrıyan adamın boğazını sığasa, sağalar.

Hamilə arvadın nəyi olajağını bilmək üçün kəsilmiş qoyun başının çənəsini ayırırsan, əyər çənə sümüyünün ujdarı təmizdirsə, onun üzərində ət qalmayıfsa, deməli, qadının oğlu, yox çənə sümüyünün



ujdarında ət qalıfsa, saçax kimi asılıfsa, onda qızı olajax.

Hamilə qadının nəyi olajağını bilmək üçün ikinci bir sınama da var. Xalçanı toxuyuf qurtarannan sonra güjü ağacını götürüf, bir uşax at kimi minif kəndin içinə çıxır. Əyər onun qavağna ilk dəfə oğlan uşağı çıxarsa, onda qadının oğlu, yox qız uşağı çıxarsa, onda qadının qızı olajax.

Yalan danışan adam dilinin altına çöp qoyuf danışırsa, demək, günaha batmır.

Birinci dəfə göy guruldayanda yerdən torpax götürüf öyün bucağına, tavlıya atallar kın, öy bərəkətdi olsun.

Ələ tüşmüş ziyili qurtarmax üçün on beş günnüy ay doğanda ziyili kəsif yerə tullayallar, sonra onu süpürgə ilə süpürüf deyəllər:

Ayım, səni xoş görüm,
Ziyilin yerin boş görüm.
Ay göründü xoş oldu,
Ziyilin yeri boş oldu.

Birinin oğlu, birinin qızı olan zahı arvaddar ırasdaşanda, bir –birinə iynə verməlidilər, yoxsa uşaxları həmməşə xəstə ola bilər.

İt tükünnən uşağın üsdünə tikillər kin, uşağa göz dəyməsin.

Uşax həmməşə ağlağandısa onun ağzına duz töküf başmax, ya da çarıx tayınnan vurmax lazımdı.

Uşağı olmuyan qadını içinə ilan qabığı, qurd kəlləsi salınmış su ilə çimizdirəndə onun uşağı olar.

Əyər bir adam üsdünə ilan qavığı, kərtənkələ quyruğu asıf gəzsə ona heç vaxt it hürməz.

İlanın qavığını, ya da qurudulmuş cəmdəyini öyə qoyanda, o öyəşər qüvvələr gələ bilməz, həm də evdə bərəkət olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tez-tez yuxuda qorxuf diksinən adamın yatanda başı altına pıçax qoyallar.

Təzə evə köçəndə lap birinci dəfə ora çırax, bir də güzgü aparallar.

Qara basan adamın üsdünə iynə taxallar, qara qazannan su içirəllər, taa onu qara basmaz.

Otağa su töküf söndürəndə gərək "bismillah" deyəsən, yoxsa cinnər səni boğar.

Göy otu yandıranda onda yağış yağar.

Yağışı kəsməkdən ötrü duz-çörəyi daşın üsdünə qoyun və belə deyin:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Mən kəsdim, sən də kəs,
Kəs yağışım, sən də kəs.

Yağış yağdırmax üçün mis qavları odda qızdırıf sonra suya atmax lazımdı.

Yağış yağdırmax üçün Daşdəmir qətlə yetirilən yerdən torpax gətirif qoyurur, sonra qoyrulmuş torpağı suya töküllər.

Yazda göy guruldamamış nə qulançar, nə süntürük, nə də heş bir yabanı pencər yeməzdər, göy gurulduyan kimi uşaxlar bir yastı daşı, ya da kərpic qırığını başdarına qoyuf, bir ayağının üsdündə hoppana-hoppana deyillər:

Tişim-başım ağrımasın,
Tişim-başım ağrımasın.
Bizimkilərdən ölməsin,
Düşmənnərdən biri də qalmasın.

Uzun müddət yağış yağırsa, onda on-on iki yaşlı uşaxlara çömçəni qırmızı bəzəyif "Qodu-qodu" nəğməsi oxudullar.



Qırxlı uşağın bələyinə dovşan tükü, üzərrik, dağdağan, iynə sancıllar kın, bəd-nəzər toxunmasın. Həm də belə uşağın başının altına sarımsax, çörək, iynə qoyullarkın, uşağa sədəmə dəyməsin zərəl, toxunmasın.

Gəlin aparılanda qabağında şam, ya da çırax yandırallar, ətrafında güllə atallarkın, pis ruhlar ona yaxın düşməsin.

Gəlin öyə gətiriləndə ayağının altında qoç kəsəllər, başınnan pul, şirni tökəllər, ayaqları altına boş qavlar atallar, gəlin qabları sındırıf öyə daxil olar.

Hamilə qadın oğlan uşağı doğduqda onun beşiyinin yanına kəmər, qamçı, papaq, xəncəl qoyulmalı.

Qadın qız uşağı doğduqda onun beşiyinin başında qayçı, iynə, üskük qoyulmalıdı.

Uşağın qırxı çıxmamış ona ad qoyulmalıdı, yoxsa uşax yalançı olar.

Uşax anadan olan kimi ana onun dilinə bal çəkməlidi, onda uşax şirindil olar.

Uşağa zahılıx dövründə ad qoyanda höcətliyə yol verməməli, onda uşax da höjət olar.

Sağ gözün səyriməsi adama xeyir gətirər, sol gözün səyriməsi isə qəm, kədər gətirər, buna görə də sol gözün üstünə qırmızı yapışdırıllar.

Əllər gicikəndə deyəllərkin, pul gələcək.

Səpin vaxdı buğdanı qovursan məhsul az olar, amba yarma çəkif pişirsən məhsul bol olar.

Çox ov eliyənin öyündə bərəkət olmaz, onu gec-tez xata tutmalıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çörəyi ayaxlamazdar, çörəyi zibilliyə atmazlar, onda evin bərəkəti kəsilər.

Deyəllərkin, qulağı uzun olanın ömrü də uzun olar.

Ojaxda kösöy tısıldıyanda, cırıldayıf səsə salanda, deyəllərkin, bizim bədimizə danışıllar. Bu zaman kösöyün yerini dəyişdirif deyillər: dilin, ağzın qurusun.

Üzərində üzərrik, göz muncuğu gəzdirənnərə bədnəzər dəyməz.

Yeni olmuş çağanın birdən-birə üsdünə girmək olmaz, bu zaman çağanı bələkdə evdən çıxarıf, gələn adam əvvəlcə evə daxil olur, sonra da çağanı gətirillər.

Qoz ağacının tingilərini qoja adamlara basdırıllar, belə deyillər kin, qoz ağacının tingilərini basdırannar onun barını yeməyə qalmır.

Pis yuxu görəndə səhər axar suyun üzərinə getməli və yuxunu ona söyləməlisən.

Elə-obaya hophop quşu erkən gələndə ulularımız deyərdilər: Bu il yaz tez gələjək, hophop tez qayıtdı.

Boz ayda göy guruldayanda deyəllərkin, il qulun saldı, yaz tez gələjək, həm də ildə bollux olajax.

Ayın ujdarı iti olarsa, deyəllər kin, il qurax keçəjək, əmbə ayın ujdarı qalın olanda deyəllərkin, il yağmurlu keçəjək.

Axşamüstü bulut qızarırsa, deməli, yağış yağajax. Göyün üzü açıqsa, gün olajax.

Süfrəni yığışdıranda əyər masanın üstünü kağıznan silirlərsə, onda öydə dava olar.

Nehrə çalxanan zaman uğurru olsun deyə nehrənin altına balta,



köhnə süpürgə atallar.

Öydə ən çox qara toyux saxlallar, deyəllər kin, qara toyux xeyirridi, qara toyux deerkin, sahibimin qara günü mənə gəlsin, ağ toyux isə deerkin, sahibimin ağ günü mənə gəlsin.

Uşaxda çox xal varsa, deyəllər kin, uşax xoşbəxt olajax.

Uşağın üzündə, ya da çənəsinin altında iri xal varsa, deyəllərkin, ana həmilə olan zaman heyvan dalağı yeyif.

Savax tezdən qapıyı açıx qoyallar kin, öyə ruzu gəlsin.

Tüfəngin üsdünnən addamax pisdir, belə olanda geri qayıtmax lazımdı.

Sarımsağı ələ verməzdər, yerə tullayıllar, gələn onu yerdən alıf aparır.

Qadının pişirdiyi xörək duzdudursa, deyəllər kin, qadın ərini çox istiyir.

Bədnəzər, pisniyyətdi və gözüdəyməlli adamlar görəndə yanları, paçasının arası qaşınmalıdı kin, belə adamların nəfsi qırılsın.

Boş beşiyi yırğalamax olmaz, bu, öydə bədbəxt hadisəyə səvəb olar.

İki qadının arasınnan keşmək olmaz, deyəllərkin, şərə düşəjəksən.

İlin axır çərşənbəsində gejə yarısı yuyunuf paklanannan sonra axar suyun qırağında oturuf niyyətini ona danışsan, öz niyyətinə çatarsan. Dərdini, azarını, ağrını suya söyləsən, su gejə vaxdı hamısını özü ilə aparar.

Aramsız olaraq hıçqıran adamı dərhal qorxutsan, onun hıçqırığı kəsilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Solaxay adam naqis, kor adam nadürüst, keçəl adam əməlvaz, kosa adam çox bilən, dişi seyrək adam kələkvaz olar deyəllər.

Xörək yeyərkən kim qavını təmiz silib yeyirsə, deyəllər kin, qadını göyçək olajax.

Güjdü dolu və yağış yağan zaman çöldə olan adamı yağışdan və doludan qorumax üçün deyyəllər:

Yağma yağış, bitmə qamış,
Balaca balam çöldədi,
Yapıncısı evdədi.

Yağma yağış, bitmə qamış,
Atam, anam evdədi,
Danacığı çöldədi.



## YASAQLAR

Zahı qadın şər vaxdı aynaya baxmamalıdı.

Zahı qadın zahılığı çıxmamış başqasının evinə getməməlidi.

Zahı qadın çağanı yanında yatırtmamalıdı.

Uşağı əmziyə öyrətmək olmaz.

Ölünü qapıdan çıxararkən geriyə baxmaq olmaz.

Hüzr yerində Qur'an oxunarkan danışmax olmaz.

Axar suya murdar şey tullamax olmaz.

Bir gündə eyni vaxda iki-üç ölünü birdən dəfn etmək olmaz.

Qoyun sürüsünün yanınnan su dolusu səhəngnən keçmək olmaz, səmtini dəyişif başqa yolla getməlidi, yoxsa qoyun sürüsü su kimi axıf gedər.

Çərşənbə günü nəsdi, həmin günü nə toy eləməzdər, nə də səfərə çıxmazdar.

Arı ailəsinin pətəklərinə haram əl toxunmamalıdı, bu zaman arılar məhv olar.

Yeni olmuş çağanın birdən-birə üstünə girmək olmaz, çağanın üsdünə pis niyyətnən, göy muncuxnan gəlmək çağaya zəfər törədər.

Gejə vaxdı dırnaxları tutmazdar, onda ruhlar adamnan inciyər.

Gejə vaxdı güzgüyə baxmazdar, yoxsa adamın baxdı bağlanar.

Gejə vaxdı saç daramazdar. Çünkün hər adamın başında bir baxt tükü var, o düşə bilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gejələr ağlamax olmaz, çünkün ağlıyanın səsi göydə bir məleykə var onun xoşuna gəlir. O isdiyir kin, ağlıyan adam həmişə ağlasın.

Gejə vaxdı dırnax tutmax, gündüz vaxdı isə nağıl demək günahdı. Onnarı cəhənnəmdə oddu kösöylə döyəjəklər, həm də döyə-döyə ölülər oxuyajaxlar:

Gejə dırnax tutannar,
Gündüz nağıl deyənnər
Həyə bura gələrsiz,
Oddu kösöy yəərsiz.

Gejə vaxdı qonşuya süd verməzdər, yoxsa öyün bərəkəti qaçar.

Qırxı çıxmamış uşağın üsdünə çiy ət aparmax olmaz, belə eliyəndə uşağın bədəni ət kimi olar.

Üzə tüpürmək günahdı, çünkün Allah-taala insanı öz sifətində yaradıf.

Heyvana qarğamaq olmaz, onda heyvan sənnən küsər.

Şər vaxdı qapı ağzında oturmazdar. Çünkü bu vaxdı cinnər keçir burdan, adama sədəmə toxudallar.

Günəş batannan sonra evdən başqasına heş nə vermək olmaz. Yoxsa öyün bərəkəti qaçar.

Axşamlar öyü süpürmək olmaz. Süpürəndə də zivili çölə atmax olmaz. Yalnız öyün güncünə qoyuf işıqlaşannan sonra atmax lazımdı.

Axşam naxır gələnnən sonra başqa adama həyətdən su verməzdər, yoxsa öyün bərəkəti qaçar.

Gejə vaxdı axar suya əl basmazdar, çünkü su gejələr mələhlərin olur. Onnarı narahat eləsən sana zəfər toxuyallar.

Gejə vaxdı ağacın altına, suyun başına getməzdər, yoxsa adam



qorxa bilər.

Ana nənəm deyərdi kin, bir gün öydə su yoxuydu. Su gətirməkdən ötrü gejə vaxdı itimizi də götürüf bulağa getdim. Səhəngi dolduruf geri gəlməli olanda bir səs eşitdim. Ora-bura boylandım heş şey görmədim. Amma gedərkən belə səs eşitdim: "Qurvan olasan yannındakı itə. Əyər o olmasaydı, bilərdim sənə neynirəm. Bu vaxdı suya gələllər?" Bunnan sonra heş kəs gejə vaxdı suya getmədi.

Mal gələn vaxdı töyləni süpürmək olmaz, yoxsa malın damazdığı kəsilə bilər.

Gejə vaxdı ələyi, aşsüzəni, xəlviri öydən kənara verməzdər.

Gejə vaxdı öydən ələk, xəlvir, aşsüzən versəniz, gərək mütləq əvəzində bir şey alasınız.

Gejə vaxdı cavan adam barrı ağacın altına getməz, çünkü ona toxunnallar.

Göy guruldamasa, göyərti, per-pencər yemək olmaz.

Göy otu yandırmax olmaz, yoxsa arasıkəsilməz yağış yağa bilər.

Gejə tək yatmax olmaz, çünkü tək yatan adama şər qüvvələr sədəmə toxuya bilər. Gejə tək yatanda başının altına xam iynə, ya da iti polad parçası qoymax lazımdı.

Başı qırxdırannan sonra saçdarı və tükləri yandırmax, nə də ayax altında qoymax olmaz, yoxsa başı qırxılan adamı baş ağrısı tutar.

Bar ağaşdarını murdarramax olmaz, yoxsa onun barı kəsilər.

Qavırı əlnən gösdərmək olmaz, onda ölü adamı çəkif yanna aparar. Belə olanda gərək barmağını dişdiyif ayağıyın altına qoyasan.

Öydən başqasına gül verməzdər, axı gül övladdı, övladı vermək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olmaz.

Ojağı suynan keçirtmək olmaz, çünkü ojax sahıvı həmişə ojağın yanındadı, o sizə zəfər toxuda bilər.

Yemişanı və ağ gülü öyə gətirmək olmaz, onda xata baş verə bilər.

Yerə qaynar su tökmək olmaz, ona görə ki, yerin altında cinnərin balaları olur, qaynar su onnarı yandırar. Belə olanda cinnər su tökənə qarğıyar.

Çinar və əncir ağacını kəsmək olmaz, bunnar sınaxlıdır, kəssəniz sizə xata toxunar.

Yolnan gedərkən hansı şey taparsansa, onu başqasına vermək olmaz. Axı bu pay sizə qısmat göndərilif, bu qısmatı başqasına versəniz, sizin qısmatınız kəsilər.

Uzanmış adamın üsdünnən keşmək olmaz, onda haman adam ölər. Addıyanda gərək geri qayıdasan.

Uşağı, mal-heyvanı, heş nəyi hündürdən tə'rifdəməzdər. Belə şeyləri tə'rifliyəndə ya haman şeyə cin toxunar, ya da göz dəyər.

İki adamın bir yerdə öy süpürməsi günahdı, belə eliyəndə öydən ölü çıxar.

Adamı süpürgə ilə döymək olmaz, şərə düşər.

Pay verilən qavı boş qaytarmax olmaz, gərək haman qava ya şəkər, ya duz qoyasan.

Şər vaxdı yatmax olmaz, çünkü bu vaxdı öyün qara-qurası yatanın üsdünə tökülər.

Sınanmamış adama çalası vermək olmaz, onda öydə bərəkət olmaz.



Hamzatdı qadınnarın bilə-bilə zahı qadının üsdünə getməsi düzgün olmaz, çünkü hamzatdı qadının hamzatı zahı qadına keçə bilər. Belə olanda arada duşmançılıq yarana bilər.

Hər öyün bir ojax ilanı var. Onnar öyün, yurdun bərəkətidi. Haman ılanı qovmaq, öldürmək olmaz. Ojax ılanı inciyif gedəndə bərəkəti də özü ilə aparar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

OVSUNNAR

ÇÖMÇƏXATUN

Uzun müddət yağış yağmayanda uşaxlardan bir neçəsi bir çömçəni qara bəzəyif qapı-qapı gəzdirərmişdər. Onnar hər qapıda nəğmə oxuyardılar, öy sahıvları onnara pay verər, xeyir-duva edəllərmiş. Gəzinti qurtarannan sonra uşaxlar payı öylərinə aparar, çömçüyə də su töküf onu ağaşdan asardılar. Çox keçməzdi kin, yağış yağardı. Bu oysuna "Çömçəxatun" oyunu deyərdilər.

Uşaxlar qapılarda belə oxuyardılar:

Çömçəxatun nə isdər,
Tanrıdan yağış isdər.
Qoyunnara süd isdər,
Məə, məə, məə, məə.

Çömçəxatun nə isdər,
Allahdan su isdər.
Ağaşdarı bol isdər,
Çovannara quzu isdər,
Məə, məə, məə, məə.

Çömçəxatun nə isdər,
Göylərə bulud isdər.
Mallara çoxlu ot,
Dağlara da ot isdər,
Məə, məə, məə, məə.

Çömçəxatun su isdər,
Qavları dolu isdər.
Nənələrdən pay isdər
Civləri dolu isdər,
Məə, məə, məə, məə.

Ay nənə, get pay gəti,
Çörəyə pendiri yay gəti.



Çömçəxatun qızına
Məhsulu bol yay gəti.
Məə, məə, məə, məə.

Uzun müddət aravermədən şıdırğı yağış yağanda yenə bir dəstə uşax bir çömçəni qırmızı bəzəyif qapı-qapı gəzdirər. "Qodu-qodu" nəğməsini oxuyardılar. Adamlar onnara pay verif duva eliyərdilər. Uşaxların bu nəğməsinnən sonra yağış kəsər, qırmızı gün gələrdi:

Qodu-qodu gördünmü,
Qoduya salam verdinmi?
Qodu burdan keçəndə
Qırmızı gün gördünmü?
Qara toyux qanadı,
Kim vurdu, kim sanadı?
Mən Göyçəyə getmişdim,
İt baldırımı daladı.
Yağ verin yağlamağa,
İp verin bağlamağa.
Yağ verənin oğlu olsun,
Vermiyənin qızı olsun.
Təndirə düşsün, qırmızı pişsin,
Bir gözü də kor olsun.

* * *

Öydə qav-qaşığa it-pişik dəyəndə, yaxud da murdar olanda yumaxnan təmiz olmaz, gərək haman qavları yuyanda salavatdıyasan. Salavatdıyanda belə deyəllər:

Mis-misdən arı gərək,
Mis sudan duru gərək,
Mis haxdan isdiyərəm,
Həmməşə arı gərək,

Belə edəndə haman qav təmizdənir, onun içində xörək yemək olar.

Qırxlı uşağı həftədə bir dəfə çimizdirir, ona bədnəzər toxunmasın deyə suyu onun başınnan tökür, - "bismillah" deyif oxuyullar:

Ağırrığı, uğurruğu,
Çay aşağı, çay yuxarı.
Çöldəki qayalara,
Köklü meşələrə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üzərrik çox dərddərin dərmanıdı. Bədnəzər dəyən adamı bədnəzərdən qurtarmax üçün üzərriyi yandırıf onun tüstüsünü bədnəzər dəyən adama verif oxuyullar:

Üzərriyəm, havasan,
Hazar dərdə davasan.
Sənə göz yetirənin,
Gözdərini oyasan.

Atın göydü, üzərrik,
Donun göydü üzərrik.
Şiş batsın pis gözdərə,
Tez onu oy üzərrik.

Hər həftə suynan çimif təmizlənərsənsə, axırıncı suyu başınnan töküf "qüsul suyu" deyilən sözü oxuyarsansa, onda daha pak olarsan.

Qüsul qüsul üçün,
Qüsul müsəlmana.
Qüsüllanıram
Bütöy bədənim
Pak olmax üçün.

* * *

Gözə gəlmiş adamı bədnəzərdən uzax eləmək üçün bir qaşıx duzu onun böşına doluyuf ojaxda yandırır, deyillər:

– Bədnəzər gözü yandırdım.

Uşağı bədnəzərdən qorumax üçün, həm də ona göz dəyməsin deyə yanında üzərrik yandırıf deyillər:

Üzərriksən, hovasan!
Yetmiş dərdə davasan!
Yandırıram özünü üzərrik,
Göstər hökmünü üzərrik.
Çırtasın, partdasın,
Yaman gözlər pırtdasın.

* * *

Nehrə çalxanan zaman bədniyyət adam ora gələrsə, onun nəfəsini qırmax üçün nehrə çalxayan qadın belə bir mahnı oxuyur:

Yavım yıxıldı daşa,
Qorxuram dağdan aşa,



İki yumrux bir başa,
Çalxıyın, qızdar, çalxıyın.

Yavım yıxıldı gölə,
Qorxuram göldə ölə.
İki yumrux bir belə,
Çalxıyın, qızdar, çalxıyın!

Yavım düşdümü yola?
Gör ilişdimi kola?
Göz dəyməsin qola,
Çalxıyın, qızdar çalxıyın!

* * *

Yaz havası buluddu-dumanlı olanda adamlar Günəşin çıxmasını səbirsizliknən gözdüyüllər. İki-üç gün buludun, dumanın arxasında qalan Günəşi görən kimi onnar səs-səsə verif oxuyullar:

Gün düşdü, ha düşdü,
Göydən piyala düşdü.
Bizim ağa qızının
Keçələ gözü düşdü.

* * *

Günahlardan təmizlənmək üçün çimənnən sonra qırx qaşığ suyu qüsul edif başdan tökər, deyəllər: günahdan təmizləndim.

Xırman döyülən zaman samanı soyurmax isdiyəndə, yel olmuyanda adamlar "Yel baba" addı nəğməni oxuyuf yel gətirillər, xırmanı soyruf dənnəri ayırıllar:

Heydər, Heydər, əsə gəl,
Yeddi xırman basa gəl.
Qırıldı oğul-uşax,
Dəsmal götü yola gəl.

Heydər, Heydər əs gəti,
Yarpaxlara səs gəti.
Qız bajımın toyuna
Bir sərin külək gəti.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ƏMƏK NƏĞMƏLƏRİ

Qara kalım naz eylər,
Quyrux bular, toz eylər.
Ay qarannıx gejədə,
Kotanı pərvaz eylər.

Öküzün hodaxları,
Sallanıf dodaxları.
Tez əkin yer qutarsın,
Qayıtsın hodaxları.

Qara öküz aranda,
Çıxar gün qızaranda.
Hodax murada çatar,
Torpağdan baj alanda.

Öküzüm gedər işə,
Qorxuram bağrı pişə.
Nola bir bulud gələ,
Göydən yerə nur düşə.

Gün düşdü qar üsdünə,
Bağçada bağ üstünə.
Tənbəl yatan öküzün,
Quşdar bular üsdünə.

Qurvan öküz xanına,
Qaşoy çəkin canına.
Hodax şumda yatınca,
Bələnəydi qanına.

Sürün-sürün əkəyin,
Arpa, buğda əkəyin.
Şumda yatan öküzün
Gözlərini tökəyin.



## ALQIŞLAR (DUALAR)

A

Allah ömrünü uzun eləsin.
Atın yüyrək olsun.
Atdığın daş xeyirri olsun.
Allah imdadına çatsın.
Allah amanında olsun.
Allahın kölgəsi üstündə olsun.
Atanızın canı sağ olsun.
Atanızın kölgəsi üstünüzdən kəsilməsin.
Ananızın ömrü uzun olsun.
Allah bütün xətadan sizi hifz etsin.
Azuqənizi Allah versin.
Allah sizi namərdə möhtac eləməsin.
Allah həmişə yolunuza işıx salsın.
Allah ata-ananı saxlasın.
Ananızın işığı kəsilməsin. Ana südü sənə halal olsun.
Allah diləyini versin.
Allah sağ əli sol ələ möhtac eləməsin.
Allah bu gözü o gözə möhtac eləməsin.
Allah qardaşı qardaşa möhtac eləməsin.
Atın yüyrək olsun.
Ata-ana yanında üzün ağ olsun.
Azardan-bezardan uzax ol.
Allah sizi nazardan saxlasın.
Allah səni üstümüzdən əskik eləməsin.

B

Başın həmişə uca olsun.
Baxtınız kəsərri olsun.
Bərəkət evinizdən əksik olmasın.
Bəxtinizə gün doğsun.
Bajıyın toyunu görəsən.
Babayın adı ilə yaşayasan.
Babana Allah rəhmət eləsin.
Başınız xatadan uzax olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başın salamat olsun.
Balaları sağ olsun.
Balalarıyın xeyrini görəsən.
Bal kimi şirin olasan.
Bağın barlı-bərəkətdi olsun.
Bədnəzərdən uzax olasan.
Balaların başını uca etsin.
Birin min olsun.
Balaların dayağın olsun.
Bala dərdi görməyəsən.
Başın el yanında uca olsun.
Böyükləriyin yanında sözün yerə düşməsin.
Bərəkətin əlinnən üzülməsin.

C

Civinə Allah bərəkət versin.
Canın sağlam olsun.
Canın bəla görməsin.
Cənabi Əmir sənə dayaq olsun.
Canım canına qurvan olsun.
Civin həmişə dolu olsun.
Cavan canım sənə sadağa olsun.

Ç

Çırağın başatan yansın.
Çörəyi bol olsun.
Çırağın sönməsin.

D

Dərdin alım.
Dədəm sənə qurvan olsun.
Dərddən, azardan uzax ol.
Düşmən üzünə gülməsin.
Dağlar dayağın olsun.
Darda qalanlara kömək ol.
Dodağınnan təbəssüm əksik olmasın.
Dalımın dağı, ürəyimin yağı ol.
Dostun şad olsun, düşmənin kor.



Dar günündə Allah köməyin olsun.
Dar gün görməyəsən.
Damında mal-qaran salamat olsun.
Düşmənin istəyinə çatmasın.
Dilin hər yerdə uzun olsun.
Dost-düşmən yanında başın uca olsun.
Dilin-dişin salamat olsun.
Dünya durduqca durasan.
Dırnağına daş dəyməsin.

E

Eviniz avand olsun.
Evinizin işığı sönməsin.
Eldən əksik olma.
Evinizdə həmişə şənlik olsun.
Elin, günün novrağını görəsən.
Eldən-günnən əysik olma.
Elin gözünnən dirimə.
Evinizdən bərəkət üzülməsin.
El içində söz keçənlərdən ol.
Evin tikilsin.

Ə

Əllərin var olsun.
Əlinnən verdiyin qavağına gəlsin.
Əli ələ möhtac eləmə.
Əlin-qolun ağrımasın.
Əlinnən halal malın üzülməsin.
Əməyin övladlarına qismət olsun.
Əlin əldən üzülməsin.
Əkdiyinin barını görəsən.
Əmdiyin süd halalın olsun.
Əməyinin bəhrəsini görəsən.
Əl vurduğun torpaq qızıl olsun.

F

Fərman verənnərdən ol.
Fağır-füqaraya dayaq ol.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

G
Gecəniz xeyirə qalsın.
Gününüz-güzəranınız şən keçsin.
Gülər günün olsun.

H
Həmişə adın uca olsun.
Həmişə şadlıqda olasan.
Hara getsən uğurla qayıt.
Həzrət Əli dayağın olsun.

X
Xata sənnən uzaq olsun.
Xalqın yanında sayılanlardan ol.
Xoş xəbər sahibi ol.

İ
İlan yerisin balası da dalınca.
İlahi sənin dayağın olsun.
İlahinin kölgəsi üstünnən əskik olmasın.
İlin-günün xoş keçsin.
İlahi işığını söndürməsin.
İlin ildən xoş gəlsin.
İlahinin gözünnən düşmə.
İki dünyada üzün ağ olsun.

K
Kəndin abad olsun.
Kəndirin kəsilməsin.

Q
Qavağında ölüm.
Qarşına həmişə xeyirri işlər çıxsın.
Qadadan-baladan uzaq olun.
Qardaşların sağ olsun.
Qadan alım, qadan mənə gəlsin.
Qurbanın olum.
Qurbanın qəbul olsun.



Qadir Allah pənahında olsun.
Qismətini Allah versin.
Qazancın artıq olsun.
Qələmin həmişə xeyirriyə işləsin.
Qapın həmişə açıq olsun.
Qonaq yanında üzün ağ olsun.
Qavın dolu olsun.
Qılıncın kəskin olsun.

M
Murazına çat.
Murazını Allah versin.
Mərdüməzara rast gəlmə.

N
Nəvəli-nəticəli olasan.
Nehrən yağlı olsun.
Naxırın sağlam olsun.
Nə qayrım, nejə eliyim demə.

O
Odunuz sönməsin.
Ojağınız şən olsun.
O dünyada yerin cənnət olsun.
Oğullu-qızdı olasan.
Oğul evləndirif, qız köçürdəsən.
Oğlannarıyın barını görəsən.
Oğlannarın sağ olsun.
Ovun qannı olsun.

Ö
Ömrüm-günüm sənə qurvan olsun.
Öküzün yorulmasın.
Ömrün-günün şən keçsin.
Ölülərinə Allah rəhmət eləsin.
Ömrün uzunu xoş günnər görəsən.
Ömrünə nur çilənsin.
Övladlarıyın xeyrini görəsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

P
Pir olasan.
Payın çox olsun.
Payını Allah versin.

R
Ruzunuz bol olsun.
Rəngin solmasın.

S
Savağın xeyir olsun.
Sağ əlin sol ələ möhtac olmasın.
Sağ əl verdiyini sol əl bilməməlidi.
Savağın xeyirriknən açılsın.
Sırfan dolu olsun.
Saqqalın ağarsın.
Sağ-salamat ol.
Səni həmişə qonaq-qaralı görüm.
Səni istəmiyənin dili tutulsun.
Sənə gələn qada-bala düşmənə gəlsin.
Səni istəmiyən kor olsun.
Səni görüm, Kə'bənin qulpun tutasan.
Səni görüm, heç dara düşməyəsən.
Səni həmişə bədnəzərdən uzaq olasan.
Sözün həmişə ötgün olsun.
Səni görüm arzuna çatasan.
Sağ gözüm sənə qurvan olsun.
Sənə gələn dərd-bəla mənə gəlsin.
Sözün ötgün, qılıncın kəsgin olsun.

Ş
Şərdən-xətadan uzaq olasan.
Şanin-şöhrətin uca olsun.

T
Tanrı payını versin.
Tur dağı olasan.
Toyunuz mübarək olsun.



Tanrı sənə yar olsun.

U
Uğurun xeyir olsun.
Umacın küt düşməsin.
Uzun illər yaşayasan.
Uşağın atalı-analı yaşasın.
Urvan bol olsun.

Ü
Üzüm ayağıyın altında qalsın.
Üzün hər iki dünyada ağ olsun.
Üzün ata-ana yanında ağ olsun.
Üstünnən acı yellər əsməsin.
Üstünə işıq düşsün.
Ümidim, dayağım ol.
Üzünə gün doğsun.
Üzü ağ bəndələrdən ol.

V
Varınızı Allah bol eləsin.
Varınız həmişə xeyirri işə xərclənsin.
Verən əlin var olsun.
Var-dövlətin başınnan aşsın.
Varın tükəmməsin.
Varın başını uca eləsin.

Y
Yaşında heç bir xataynan qarşılaşma.
Yarıyannardan olasan.
Yaman deyənin olmasın.
Yeyənin olsun, deyənin olmasın.
Yediyin bal-qaymaq olsun.
Yaşın boyu şad günnər görəsən.
Yolun xeyirri olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ALQIŞ BAYATILARI

Eləmi, ala dağa,
Yol gedər ala dağa.
Elə qurban gedənə,
Canım olsun sadağa.

Əzizinəm, dara sən,
Tellərini dara sən.
Arzum budu: - a dildar,
Düşməyəsən, dara sən.

Bu ellər bizim olsun,
Dörd yanı üzüm olsun,
Evə gələn gəlinin
Ömrü uzun olsun.

Qızılgülsən, tərəsən,
Saçın qoşa hörəsən,
Tanrıdan arzum budu:
Nəvə toyu görəsən.

Dağlarda qala görüm,
Bürc görüm, qala görüm,
Gələn ilin yazında
Qucağında çağa görüm.

Əldə həna olasan,
Boyu mina olsan,
Gəlin getdiyin evdə
Qalıb nənə olasan.

Ocağın,
Daim yansın ojağın
Övladın qeydinə qal,
Kor qalmasın ojağın.



Dağ dumansız olaydı,
Dünya qansız olaydı.
Bir də sizi  görəydim,
Ömür sonsuz olaydı.

Əzizinəm, bu dama,
Bu eyvana, bu dama.
Həm yedik, həm də işdik,
Nurlar yağsın bu dama.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QARĞIŞLAR (BƏDDUALAR)

A

Allah başına daş salsın.
Allah başını qoyuf ayağına daş salmasın.
Allah səni çörəyə möhtac qoysun.
Allah səni yetim qoysun.
Allah yanında üzün ağ olmasın.
Allah səni ağ günə həsrət qoysun.
Allah kökünüzü kəssin.
Allah sinəni dağlı qoysun.
Allah səni gözü yaşdı qoysun.
Ağzın ağı dadısın.
Anana oğul olma.
Anan saçını yolsun.
Anayın əlləri qoynunda qalsın.
Anan mələr qalsın.
Anan ərsiz qalsın.
Atana lə'nət.
Atan ölsün.
Ata yanında üzün ağ olmasın.
Ağ günə həsrət qal.
Ağzını qara molla yumsun.
Ata-anayın çörəyi burnunnan gəlsin.
Atan donuz dərisinə bükülsün.
Ağzın ayrıx, gözün çöyrük qalsın.
Arvadın dul qalsın.
Ağzında dilin qara kösöy olsun.
Axırın xeyir olmasın.
Azarın güjdü gəlsin.
Azardan-bezardan qurtarma.
Axşamın-savağın qara gəlsin.
Avrını Allah töksün.
Adın adlara qoyulsun.
Adını anan olmasın.



B

Başına kül olsun.
Başın qalmaqaldan açılmasın.
Başın uca olmasın.
Basaratın bağlansın.
Baxtın qara gəlsin.
Barmağım gözünə girsin.
Başına daş düşsün.
Balaların tüklənməsin.
Balaların ağlar qalsın.
Balalarıyın xeyrini görmə.
Bala dərdinnən qurtarma.
Barmaxların qırılsın.
Bajın qardaş deyif ağlasın.
Bajın sinəsi dağlı qalsın.
Bağın bar verməsin.
Barmaxlarım gözünə girsin.
Belin sınsın.
Boyuna boz ip ölçüm.
Boynun altında qalsın.
Burnun daşa dəysin.
Burnun uzunu gün görmə.
Boğazın tutulsun.
Buyurmağa züryət tapma.
Bir elə dərdə düşkün, dərmanın tapılmasın.
Böyrəklərin çürüsün.

C

Cəhənnəm oduna yan.
Cəhənnəm əzabı çəkəsən.
Cənnətin qapıçı üzünə bağlansın.
Canınnan azar çıxmasın.
Cavan canın çürüsün.
Cənazənə yapışan olmasın.
Ciyərin yansın.
Civin boş qalsın.
Cavan öləsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cinnərə yoluxasan.
Ciyərinə dağ çəkilsin.
Cəhənnəmlik ol.
Cəzanı Allah özü versin.

Ç

Çarxın çönsün.
Çardağın yatsın.
Çətin dərdə düş.
Çıran keçsin.
Çörəyə möhtac qal.
Çörək səni tutsun.
Çörəyim burnunnan gəlsin.

D

Damın yatsın.
Dava-dalaşdan başın açılmasın.
Davarını qotur qırsın
Davanın dağlansın.
Dilin-ağzın qurusun.
Dilin tutulsun.
Dilin lailəllah tutmasın.
Dilin ağzında qara kösöy olsun.
Dilin yansın.
Dilin lal olsun.
Dilini ilan çalsın.
Dilinə düyün düşsün.
Dədən ölsün.
Dədənə oğul olma.
Dərinə saman təpilsin.
Dəli ol, dərələrə düş.
Dərdinə dərman tapılmasın.
Dərin quyya düşəsən.
Dərini boğazınnan çıxarsınnar.
Dərdin boğazınnan aşsın.
Dardan qurtarma.
Darda-damanda qal.



Dərdiyin üstünə dərd gəlsin.

E

Evini su aparsın.
Evin-eşiyin dağılsın.
Evin başına uçsun.
Evin talan olsun.
Evinə od düşsün.
El içində xəcalət ol.
El yanında üzün ağ olmasın.
El-oba yanında gözü kölgəli ol.
El səni ağlasın.
El gözünnən düş.
El yanında üzün qara olsun.

Ə

Əlin qurusun.
Əlin ələ yetməsin.
Ələmlərə qal.
Əlin əldən üzülsün.
Əlinlə bejərdiyinnən yeməyəsən.
Əməyim gözünnən gəlsin.
Əlimnən verdiyim haramın olsun.
Əlin hər şeydən boşa çıxsın.
Əkdiyini yemiyəsən.
Əməyin itgin, dizin sıyrıx olsun.
Əmdiyin südə lə’nət olsun.
Əməyin zay olsun.
Əməyim dustağı ol.
Ətin ərisin, gönün çürüsün.
Ətin kəfənə yığılmasın.
Əzrayıl sinənə qonsun.
Əzizin ölsün.
Əllərin daş altında qalsın.
Əlidən də ol, Vəlidən də ol.
Əlin-dilin qurusun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

G
Gözün çıxsın.
Gözünə güllə dəysin.
Gözünə mil batsın.
Gözünə qara su ensin.
Gözünə ilan dadansın.
Gözün kor olsun.
Günün göy əysiyə dönsün.
Günün qara gəlsin.
Günün ahı-vayla keçsin.
Görünməz bəlaya düşəsən.
Günün ax-vaynan keçsin.
Gəlin gətirən günün olmasın.
Görünməz cəzaya düçar olasan.
Gülər günə həsrət qal.

X
Xoş günə həsrət qal.
Xanimanın xarava qalsın.
Xeyrin şərə dönsün.
Xirtdəyinə yara çıxsın.

İ
İlan səni çalsın.
İlin qara gəlsin.
İşığın başatan yanmasın.
İmanın kamil olmasın.
İldırım səni vursun.
İtiyin tapılmasın.
İman yiyəsi olma.

K
Kündən küt düşsün.
Kül başına olsun.
Kəndin dağılsın.
Köməyin kəsilsin.
Köçün qara gəlsin.



Köndələn yat.
Kökünüz kəsilsin.
Kökünüzə süpürgə çalınsın.

Q
Qarnın cırılsın.
Qara torpağa qarış.
Qarnın doymasın.
Qazancın qanına bulansın.
Qazancın itə qəsmət olsun.
Qazancın darı olsun, qavın xəlvir.
Qazandığın yemiyəsən.
Qarğış səni tutsun.
Qara günün ağ olmasın.
Qarnına girgi dolsun.
Qısmatın kəsilsin.
Qapın bağlı qalsın.
Qapında it ulasın.
Qapın quru qalsın.
Qadadan, baladan qurtarma.
Qada səni tutsun.
Qanın daşdara dağılsın.
Qanına boyan.
Qanın qotura dərman olsun.
Qavığın çaya olsun, dalın qılınc.
Qulaqların tutulsun.
Qoturun olsun, dırnağın olmasın.
Qolun yanına düşsün.
Qırmızı günə həsrət qal.
Qan qus.
Qamətin əyilsin.
Qardaşın ölsün.
Qavın quru qalsın.
Qaşınan oxlan.

M
Malların ellərə qalsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Murazın gözündə qalsın.
Murazına çatma.
Mübarək günün olmasın.
Matın-mutun qurusun.

N

Namərd gülləsinə düçar ol.
Namusun yerə girsin.
Namərdə möhtac ol.
Nəvə buyurmağa qalma.
Nə üzün gülsün, nə könlün şad olsun.
Nehrəni çalxayan olmasın.

O

Otun bitməsin, suyun axmasın.
Oxun hədəfə dəyməsin.
Oğul-uşax yanında üzün qara olsun.
Oğlun-uşağın ölsün.
Oğul evləndirif, qız köçürmə.
Ojağın sönsün.
Ojağın qaralsın.
Ojağına su düşsün.
Ovun qannı olmasın.
Oxşadığına lə'nət gəlsin.
Oxxək deməyəsən.
Oğlun öylük, qızın göylük olmasın.

Ö

Ömrüm-günün puç olsun.
Ömrün uzunu ağ gün görmə.
Ömrünnən xeyir görmə.
Ömrün uzun olmasın.
Ömrün gödək olsun.
Ömür yolun qısa olsun.
Özün öl.
Özgələrə möhtac ol.
Ölüyün goruna lə'nət gəlsin.



P

Papağın boş qalsın.
Payın buza dönsün.
Payın palçığa dönsün.
Payını yemiyəsən.
Payın kəsilsin.
Payızın qara gəlsin.
Pərənin pozulsun.
Parçana iynə batmasın.
Puçun burulsun.
Papağın qadınıyın başına olsun.
Payını Allah kəssin.

S

Savağın xeyirriknən açılmasın.
Sağ gözün çıxsın, solun umuduna qal.
Salamat günün olmasın.
Savağın, axşamın qara gəlsin.
Sümüyün çürüsün.
Səsin tutulsun.
Səni sel gəlsin, su aparsın.
Sən içdiyin südə lə'nət.
Səni görüm zəlil ol.
Səni ilan vursun.
Sənin dilin tutulsun.
Sənin gözün çıxsın.
Səni elə dərdə düşkün, dərmanın olmasın.
Səni həmişə xəcalətli görüm.
Səni allah ziryət üzünə həsrət qoysun.
Sənə xeyirri gün qısmat olmasın.
Səni görüm oğul toyu görmüyəsən.
Sənin qara günün ağ günündən çox olsun.
Sənin arzun gözündə qalsın.
Səni ağlayan olmasın.
Səni xeyrə qismət olma.
Sonunda qalan olmasın.
Sözün hər yerdə yerə düşsün.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

T
Təpənə daş düşsün.
Tanrı başına daş salsın.
Tale üzünə gülməsin.
Torpağa qismət olma.
Talein qara gəlsin.

U
Uğurun xeyir olmasın.

Ü
Üzün ağ olmasın.
Üzün qara olsun.
Üzünə gün doğmasın.
Üzün iki cahanda qara olsun.
Üzün gülməsin.
Ürəyinnən oxlan.
Ürəyinə güllə dəysin.
Ürək ağrısına düçar ol.
Üstündə Qur'an oxunmasın.
Üzün gülüf, qaş-qavağın açılmasın.
Üzünü Azreyil görsün.

V
Vayna oturum.
Vurğun səni vursun.
Vurğun gözünü çıxartsın.
Vuran qolun qırılsın.
Varın-mülkün ellərə qalsın.
Vərəsən üzünə ağ olsun.
Vardan-dövlətdən əlin boşa çıxsın.

Y
Yazın qara gəlsin.
Yatanın qalxmasın.
Yanın-yançağın boş qalsın.
Yaxşı günün diş ağrısı,



Yaman günün baş ağrısı olsun.
Yaylım gülləsinə tuş gələsən.
Yaman dərdə düşəsən.
Yarın dul qalsın.
Yazın qara yazılsın.
Yalmana-yalmana qal.
Yarana məlhəm olmasın.
Yaxşı günün olmasın.
Yolun yomrulsun.
Yəhərin qannan dolsun.
Yurdun, yuvan boş qalsın, yeyər yerin çürüsün.
Yat qalxma, get gəlmə.
Yatanın qalxmasın, gedənin gəlməsin.
Yuvan dağılsın.
Yuvana su düşsün.
Yurdunda keçi başı tutan qalmasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QARĞIŞ BAYATILARI

Eləmi, dağlar səni,
Qar gələr bağlar səni.
Elə bir gün olaydı,
Görəydim ağlar səni.

Mən aşiqəm gün üzü,
Duman tutdu gün üzü.
Düşmən bir dərdə düşsün,
Heç görməsin gün üzü.

Köynəyin gülü yansın,
Od duşsun gülü yansın,
Səni məndən edənin,
Ağzunda dili yansın.

Köynəyin biçən olsun,
Yaxasın tikən olsun,
Sənə tək göz dikmişdim,
Başqa göz dikən olsun.

Əzizim günə düşdüm,
Kölgədən günə düşdüm.
Evin yıxılsın fələk,
Sən deyən günə düşdüm.



## ANDLAR

A

Allah haqqı!
Allahın birdi, birliyi haqqı!
Allaha and olsun!
Allahın başı haqqı!
Allahın nuru haqqı!
Atamın goru haqqı!
Atamın tökülən qanı haqqı!
Atamın qəbri haqqı!
Atamın getdiyi ziyarət haqqı!
Anamın südünə and olsun!
Anamın müqəddəs qəbri haqqı!
Ata-anamın ruhları haqqı!
Açılan sabah haqqı!
Arada olan salam-məlik haqqı!
Anamın saçı-birçəyi haqqı!

B

Başın haqqı!
Başıma and olsun!
Balalarımın canı üçün!
Balalarımın ölmüşü haqqı!
Bərəkət haqqı!
Babamın cəddi haqqı!
Babamın getdiyi ziyarət haqqı!
Bu qəndin tamı haqqı!
Babamın oxuduğu Qur'an haqqı!
Bayrağımıza and olsun!
Bu Əli yolu haqqı!

Ç

Çörək haqqı!

D

Dədəmin canı üçün!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dayımın əziz canı üçün!
Daşdəmirin tökülən qanı haqqı!
Duz-çörək haqqı!

E
Evimizdə yediyin çörək haqqı!

G
Günəş haqqı!
Gor haqqı!
Günəşin işığı haqqı!
Göy haqqı!

H
Həzrət Abbas haqqı!
Hajı Əfəndinin qəbri haqı!
Həzrət Əlinin qılıncı haqqı!
Həzrət Əlinin Kə'bədə tökülən qanı haqqı!

İ
İmam Hüseynin tökülən qanı haqqı!
İmam Hüseynin müqəddəs ruhu haqqı!
İmam Əlinin Zülfüqarına and olsun!
İmam Həsənin müqəddəs inamı haqqı!
İgid Koroğlunun müqəddəs ruhuna and olsun!
İtginlərimizin ruhu haqqı!
İnandığımız haqqı!

K
Kəbə haqqı.
Kəsdiyimiz duz-çörək haqqı!
Kitab haqqı.

Q
Qur'ana and olsun! Qiblə haqqı!
"Qur'ani Kərim"ə bağışla məni!
Qardaşımın gəlməz canı haqqı!



Qağamın canı haqqı!

L
Lələmin canı haqqı!

M
Mirəli Ağanın cəddi haqqı!
Mir Yaqub ağanın cəddi haqqı!
Məkkə-Mədinə haqqı!
Mir İsmayılın ojağı haqqı!

N
Nənəmin oxuduğu Qur'an haqqı!

O
Ojaq haqqı!
Otuz üç cüt Qur'ana and olsun!
On iki imam haqqı!
O gözə görünməz haqqı!
Od haqqı, od kimi yanımkın!

Ö
Özümün canım üçün!
Özümün ölümünə and olsunkun!
Ömrüm-günüm kəsilsinkin!
Ömrümnən-günümnən xeyir görməyimkin!

P
Pir haqqı!
Peyğəmbər haqqı!
Peyğəmbərin me'racı haqqı!
Papağıma and olsunkun!
Papağım arvad ləçəyi olsunkun!

S
Su haqqı!
Suyun mələkləri haqqı!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seyid Bayramın ojağı haqqı!
Sənnən kəsdiyim çörək haqqı!
Sənin əziz canına and olsunkun!
Sənin əziz başın haqqı!

Ş
Şəhidlərimizin tökülən günahsız qanı haqqı!
Şəhid anasının göz yaşları haqqı!

T
Türbə haqqı!
Tanrı haqqı!
Torpax haqqı!

U
Ulu tanrı haqqı!
Ulularımızın yatdığı qavır haqqı!

V
Var haqqı!
Vətən haqqı. Vətən uğrunda ölənnərin ruhu haqqı!



## YALVARIŞLAR

Anana, atana qurvan olum.
Allaha qurvan olum.
Allahın varrığına qurvan olum.
Atam-anam sənə qurvan olsun.
Ayağıyın altında ölüm.
Başına dönüm, başına dolanım.
Başına qurvan olum.
Başım sənə qurban olsun.
Başım sənə sadağa olsun.
Bavayın ojağına qurvan olum.
Boyuna, buxununa qurvan olum.
Balalarına sadağa olum.
Balalarıyın başına dönüm.
Bavalı mənim boynuma olsun.
Varım-dövlətim sənə qurvan olum.
Bavana qurvan olum.
Biliyinə, bilginə qurvan olum.
Babayın ruhuna qurvan olum.
Bər-bərəkətinə qurvan olum.
Qadan, balan alım.
Qurbanın olum.
Qavağında ölüm.
Qoçax oğlun qadasın alım.
Qardaşına qurvan olum.
Qeyrətinə qurvan olum.
Qurvan olum Məhəmmədin şəryətinə.
Qurvan olum Məhəmmədin nuruna.
Qurvan olum Ulu Tanrıya.
Qanacağına qurvan olum.
Qapınnan qovma məni.
"Qur’ani-Kərim"ə bağışla məni.
Qardaşımın qara gözlərinə qurvan olum.
Dədənə qurvan olum.
Dilinə qurvan olum.
Dişini yeyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dinim-imanımsan.
Dövlətim-malım sənə qurvan olsun.
Dalımın dağısan, ürəyimin yağısan.
Dar günümün gərəyisən.
Əlimi əldən üzmə.
Əl mənim, ətək sənin.
Məni balalarıyın başına hərrə.
Məni itinə piy elə.
Malım-mülküm sənə qurvan olsun.
Nənəm sənə qurvan olsun.
Namusuna qurvan olum.
Nənəm-bavam sənə qurvan olsun.
Oğlannarına qurvan olum.
"Oğul-oğul" deyən dilinə qurvan olum.
Ömrüm-günüm, sənə qurvan olsun.
Ölüyün goruna qurvan olum.
Ömrüm ömrünə calansın.
Ömrüm sənə sadağa olsun.
Gözdərinə qurvan olum.
Gözdəriyin qadasın alım.
Gözdəriyin giləsinə qurvan olum.
Gözdərini yeyim.
Kəsdiyimiz çörəyə bağışla.
Kərəminə qurvan olum.
Kölgənə qurvan olum.
Tanrıya qurvan olum.
Tellərinə qurvan olum.
Torpağına-daşına qurvan olum.
Xətt-xalına, gül camalına qurvan olum.
Xanım, canım sənə qurvan olsun.
Üzüm ayağıyın altında qalsın.
Üzündəki qoşa xallarına qurvan olum.
Ulusuna, elinə qurvan olum.
Umudum, dayağım ol.
İtin, pişiyin olum.
İmam Hüseynin türbəsinə bağışla.
İmam Əlinin yarasına qurban olum.



Səxavətinə qurvan olum.
Saqqalına qurvan olum.
Sənin başına dönüm.
Sənin başına dolanım.
Sənə qurvan olum.
Səbrinə qurvan olum.
Səni yaradana qurvan olum.
Canım canına qurvan olsun.
Elinin xeyrinə yarayanın ağrısını alım.
Ağrın-acın canıma gəlsin.
Canıyın ağrısı canıma gəlsin.
Cavan canım sənə sadağa olsun.
Zənninə qurvan olum.
Zəhmətinə, əziyyətinə qurvan olum.
Fərmanına qurvan olum.
Zəhmətə qatlaşan oğlunun qadasın alım.
Halal qazancına özüm qurvan.
Cəsarətiyin qadasın alım.
Şəhid canına qurvan olum.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II. ƏNƏNƏVİ JANRLAR

### ƏFSANƏLƏR

### MOLLA QAYASI

Qazax-Dilican şose yolu İcevanı keçənnən sonra dərin dərə yuxarı hər iki tərəfdən sıx meşələrlə əhatə olunmuşdur. Yolun kənarında başı göyə ucalan sal qayalar görünür. Bu qayalardan birinə "Molla qayası" deyillər. Bu qaya haqqında xalq arasında belə bir əfsanə hələ də yaşamaxdadı:

Keçmiş əyyamda bu yolun sağ və sol tərəfində olan talalara Qazax mahalının adamları Ermənistan aldanan Qərbi Azərbaycan dağlarınnan avqust - sentyabr aylarında arana köç gətirəndə burada payız binələri salarmışlar.

Həmin talalarda dəyələr, alaçıxlar qurularmış, mal-qara naxırrarı, qoyun sürüləri bir-iki ay bu meşəlikdə məskunnaşarmış. Bu sıx meşələrdə, dərin dərələrdə, şiş qayalarda çoxlu vəhşi heyvannar yaşıyarmış. Buralarda ayı, canavarrar yuva salarmış. Deyilənə görə, obada olan bir nəfər Molla alaçıxdan aralı pünhan yerdə hər gün namaz qılarmış. Bir gün namazdan qalxanda qayadan ona tərəf gələn nəhəng, qıllı bir ayını görür. Tamam əlacsız qalan molla üzünü qıvlıya tutuf Allaha yalvarır:

-Ey ulu tanrı, məni daşa döndər, yaşımın bu vaxtında məni vəhşiyə yem eləmə! Sana yalvarıram, ay Allah.

Deyilənə görə, Allah onun yalvarışını eşidif onu daşa döndərir. Həmin qayanın alt hissəsində, çökəyində ağ rəngli Mollanın həkk olunmuş şəkli indi də qalmaxdadı. Buradan bir az aralıda olan qayada isə ayının daşa dönmüş heykəli aydınca görünür və indi də qalmaxdadı.

O vaxtdan həmin qaya "Molla qayası" adlanıf. Qazaxdan Dilicana gedən avtobuslar ora çatanda dayanır, sərnişinnər bu qəribə mənzərəyə tamaşa etmədən keçmillər.

### QARI QAYASI

Deyilənə görə, bir arvadın üç igid, pəhlivan cüssəli oğlannarı varıymış. Ana oğlannarını, oğlannar da ananı çox sevəllərmiş. Bir gün ana ağır xəstələnir, ayağa qalxası olmur. O, qojalıf, əldən düşürdü. Oğlannarını başına cəm eliyif belə vəsiyyət eliyir:

- Mənim igid balalarım, məni torpağa basırmıyın. Deyillər nə qədər dərin olsa da, torpaq qəbrə ilannar girir, ölünün gözdərini yeyir. Məni elə əlçatmaz bir qayada dəfn eliyin ki, oraya ilannar çıxa bilməsin.

Bəli, qarı vəsiyyətini eliyənnən sonra ömrünü oğlannarına bağışdıyır.

Qarının ölümünnən sonra oğlannarı belə bir qaya axdarıllar. Onnar gəlif yol kənarında olan belə uca bir qaya tapıllar. Qarının qəbrini haman qayada qazmalı olullar. Bəs bu əlçatmaz qayada onnar qəbri necə qazsınnar.

Qardaşdardan biri deyir ki, siz məni möhkəm bir sicimlə qayaya sallıyın, mən orada qəvir düzəldəjəm.

Belə də elyillər. Oğlan qəbir düzəldir, analarının cəsədini bu deşilmiş qayada yerləşdirillər. Hətda cəsədi apardıxları ardıc ağacınnan düzəldilmiş cənazəni də cəsədin üstünə qoyullar. O vaxtdardan bu qaya "Qarı qayası" addanır. Qazax Dilican şosesinin İcevana yaxın yerindəki qayada həmin qəvir, qarının sümükləri və cənazə indi də qalmaxdadı.

### DAŞA DÖNMÜŞ ÇOVANLA QOYUNNAR

Qaraqoyunnu dərəsində uzun illərdən bəri xalqın inam yerrəri, sitayiş etdikləri bir neçə Pir var. Bu Pirrərdən ən məhşuru Murğuz piridi. Bu pir Murğuz dağının ən uca zirvəsində uca bir qayada yerrəşir. Qayadan parçalanıf düşmüş daşdarın yerində qara mərmərə oxşar və həmişə yağlı görünən bir yer var.

Bu Pir haqqında belə bir əfsanə söylənir. Əfsanədə deyilir ki, qızmar yay günnərindən biriymiş. Çovan sürüsünü tezdən bu yaylaxlarda otarıf günorta vaxtı bu qayanın yaxınlığındakı talaya yığır. Çovan bərk susayıfmış, yaxınnıxda bulax yoxuymuş. Qoyun sürüsü də istidən gürnəşə yığılıbmış, onu tərpətmək mümkün deyilmiş. Çovan ora-bura tüyunursə də heç yerdə bulaq, ya axar su tapmır. Çovanın istidən bağrı bişir. Nə edəcəyini bilmir. O, uca bir daşın üstündə oturub fikrə gedir. Birdən ağlına gəlir ki, Allaha yalvarım, bəlkə burada bir su



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaratdı. Çoban aşağı düşüb üzünü qibləyə tutaraq Allaha yalvarır:

- Ey yeri-göyü, ərşi-gürşü yaradan, sana qurban olum, əgər rəhmin varsa mana yazığın gəlsin, burada bir bulax yarat. Qoy həm mən, həm də qoyunnarım doyunca su işsin. Mən sənə bir qara və bir ağ qoç qurvan kəsəjəm.

Deyilənə görə Allah-taala elə o andaca bir sərin bulaq yaradır. Çovan sudan doyunca içir, çörəyini çıxarıb yeyir, rahatdanır. Qızmar gündə paltarını soyunuf bitdənir. Bitdənən zaman bir qara və bir ağ bit tapıf öldürür və deyir:

- Ala, bu da sənə qurvan.

Deyilənə görə qurvan olduğum onu elə oradaca qoyunnarınnan baravar daşa döndərir. Pirə ziyarətə gələnnər bu mənzərəyə tamaşa edir, çovana nifrət oxuyullar...

Haman mənzərə hələ də durur, qoyun sürüsü, keçilər, çovan, yanında da itdəri. Hamısı da daş şəklində. Ziyarətə gələnnər pirə pul və müəyyən əşyalar qoyur, onu öpür, muraddarını diləyir və mənzərəyə yaxınlaşıb deyirlər:

- Allaha inanmayan, onun yanında əhdinə əməl etməyənin aqibəti belə olar. Allah, sana qurban olum, sənnən qeyri yaradan yoxdu...



# RƏVAYƏTLƏR

## KƏRƏM CƏLƏSİ

Dillərdə dastan olan Qaçaq Kərəm haqqında çoxlu rəvayətdər yaşamaxdadı. Hamıya mə'lumdu ki, Kərəm qaçaxçılığının xeyli hissəsini Dilican və Qaraqoyunnu meşələrində, Göyçə və Marallıca yaylaxlarında keçirmişdi. Kərəmin bu tərəflərdə sığındığı yerrərdə hələ də xalq arasında yayılmış bir sıra rəvayətdər söylənməkdə, yaşamaxdadı. Belə əhvalatdardan biri də "Kərəm cələsi" adınan məşhurdur. Belə söylüyüllər ki, Dilicannan dövlətə məxsus fayton pul aparırmış. Kərəm öz dəstəsinnən həmən cələdə pusquda durur. Nə Dilicannan Qazağa gələni, nə də Qazax tərəflərdən Dilicana gedənnəri getdikləri səmtə buraxmır, hər iki tərəfə gedənnəri bu cələdə saxlatdırır. Kərəm onnara e'lan edir ki, əməliyyat qurtaran kimi onnarı buraxajax, heş kəs də sizə sataşmır, arxayın ola bilərsiz. Adamlar cələnin kənarrarında oturub gözdüyüllər. Bu adamların içində bir cındır paltarında, üzünnən-gözünnən kasıflıx yağan bir şəxs yaman narahatıydı, heş duruf dincələ bilmirdi. Tez-tez Kərəmin yanına gəlib ona yalvarırkın, qurban olum sana, mən bir kasıf bəndəyəm, İrandan gəlmişəm, heç kəslə əlaqəm yoxdu, burax gedim. Kərəm də ona deyirkin, a qardaş, heç narahat olma, səbr eylə bir-iki saata hamını buraxajam.

Mümkün olmur, tat dincəlmir ki, dincəlmir. Rahatlanmır, bir yer seçib oturmur. Kərəm Allahverdini çağırıb belə göstəriş verir:

- Ay Allahverdi, bu tatdan gözüm su içmir, onda nəsə var, onu çağır yoxla.

Allahverdi tatı çağırıb, üst-başını yoxlamağa başlayır. Allahverdi haman tatdan bir kisə qızıl pul müsadirə edir. Bu hadisədən sonra tat gedib bir daşın dibində rahatlanır. Kərəm Allahverdidən soruşur kun, ayə, sən tata neylədin kin, tat belə dincəldi. Allahverdi əhvalatı Kərəmə söylədi. Kərəm nazik bığlarının altınnan gülüf dedi:

- Ayə, sən öləsən, yazıx tatı rahat buraxmayan qızılıymış, sən Allah əməliyyat qurtarannan sonra onun qızılını özünə qaytar.

Allahverdi belə də etdi. Ancaq bu hadisə xalq arasında bir zərb–məsələ çevrildi. Özünü kütlə içərisində narahat aparan adamlara həmən hadisəni misal çəkirlər: - "Ayə, Kərəmin tatı kimi niyə dincəlmirsən?"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## KƏRƏM QAYASI, GÜLLƏLİ

Qaraqoyunny dərəsindəki Əmirxeyir addı bir kəndin ərazisində dağlara söykənmiş, həmişə başı duman-çiskin olan bir qaya var. Bu qayanın arxası Soyuxbulaq yaylağı, onnan aşağısı isə Göyçə gölünə söykənən yerdi. Kərəm haman bu qayada vaxtaşırı olarax sakin olurdu. Qaya indi də "Kərəm qayası", ya da "Gülləli" addanır. Bu qaya haqqında söylənənnərdən: Çar hökuməti Qafqazın bütün idarələrinə göstəriş vermişdi ki, Qaçaq Kərəmi kim diri tutuf hökumətə təfil versə ona çoxlu mükafat veriləjək. Çarın bu sərəncamına qoşulannardan biri də Dilican polis rəisiydi. Onun göstərişinən tez-tez Qaraqoyunnu dərəsinə atdı dəstələri gəlirdi. Xalq isə onnarın hər gəlişini Kərəmə çatdırırdı.

Belə bir dəstənin gəlməsini Əmirxeyirdə olan Kərəmə çatdırıllar. Kərəm öz dəstəsinnən kənddən çıxmalı olur. Kərəmin dəsdəsi haman qayaya çatanda silahlı dəstələrlə qarşılaşıllar. Kərəmnən adamları qayada özdərinə səngər düzəldillər. Kərəmin üsdünə gələn silahlı qoşuna knyaz Çavçavadze başçılıq eliyirdi. Bələdçisi isə Səid bəyiydi. Qaçaxların qayaya dolduğunu silahlılar görmüşdü, ona görə də silahlılara knyaz Çavçavadze qayaya atəş açmağı əmr verir. Silahlıların gülləleri qayaya dolur dəhşətli səs salırdı.

Kərəm öz adamlarına atəş açmamağı tafşırır. Knyazın yanındakı itin səsi dərəni ağzına götürmüşdü, Kərəm iti yerə sərdi. Knyaz yaman pərt oldu. Qayanı yenidən güllüyə basdılar. Bu zaman Kərəmin gülləsi knyazın zərli şapkasını başınnan yerə saldı...

Knyaz dəhşətə gəldi, dəstəyə Kərəm sığınan qayanı mühasirəyə almağı tapşırdı. Elə bu ara duman hər yeri bürüdü. Kərəm bu fürsətdən istifadə edərək dəstəni tanış olduğu Amanyetər dərəsinə çatdırdı...

Kazaklar nə Kərəmi öldürə, nə də tuta bildilər. Kərəm bu döyüşdən də salamat çıxdı. Odur kun, xalq haman qayanı "Gülləli" adlandırdı. Yaşlılar hər bu qayaya çıxanda Kərəmi yada salır, ona rəhmət oxuyullar...

## KƏRƏ KƏRƏM

Atəş qarı bircə baş inəyini çatılıyıf, Qazax bazarında satıf körpələrinə ac-yalavaşdıx almağa aparırdı. O, Kərəm cələsinə çatanda bir



dəstə atdı onu yaxaladı. İnəyi qarının əlinnən alıf özünü də geri qaytardılar. Qarı nə qədər yalvardısa aman vermədilər, özdərinin də Qaçaq Kərəm olduğunu bildirdilər...

Atəş qarı kor-peşman əliboş Polad kəndinə qayıtdı. Ertəsi günü qarı Qaçax Kərəmin dəstəsinin Polad ərazisində olduğunu eşitdi. Çətinniknən də olsa Atəş qarı Kərəmnən görüşə bildi. Atəş qarı əhvalatı Kərəmə söylədi. Həm də qarı baxıf gördü kü, onun inəyini əlinnən alan bu adama oxşamır, ağbənizli, gülər üzlü, nazik bığlı, şux bədənli Kərəm, o cod, qarayanız, lopa bığlı o inək alana heç oxşamır.

Kərəm qarıyı gülərüznən qarşıladı, onu axıradək dinnədikdən sonra gülərək dedi:

- Qarı nənə, heç narahat olma, bir neçə günnən sonra haman adamı sənin hüzuruna gətirrəm, tanıya bilsən sonrası mənim işimdi...

Kərəmin dəstəsi "Molla qayası"nda pusquda durmuşdular. Bir azdan sonra burada bir neçə atdı peyda oldu. Kərəm atdılar içindəki Vəliyi görüf tanıdı. Vəli Qazax mahalınnanıydı. Kərəmin təşkil etdiyi adamlar da Qaraqoyunnu dərəsinnən axışıf həmin yerə çatdılar. Atdılar bir göz qırpımında onnarın qarşısını kəsdilər. Onnara mal-qaranı təhvil verif geri qayıtmalarını əmr elədilər. Kərəm İsmayılı bir neçə atdıynan arxaya, Allahverdini isə yenə də bir neçə atdıynan irəli tərəfə göndərdi, özü isə atını yedəkləyə-yedəkləyə atlılara tərəf yeridi. Onlar Kərəmi görərkən donuf qaldılar. Heş bir yerə tərpənə bilmədilər. Kərəm fit çalıb uşaxları harayladı. Kərəmin atdıları dörd bir tərəfdən tökülüşüf onları tərkisilah elədilər...

Kərəm Vəliyi irəli çağırıf dedi:

- Ayə, məni tanıyırsanmı?

- Niyə tanımıram, Kərəm qağa döysənmi?

- Yaxşı tanıyıfsan, amma sənin qağan döyləm. Söylə görüm, bu kasıf camaatdan nə isdəyirsiniz, sizə kim deyifkin, belə yolkəsənnik, quldurrux eliyəsiniz?

Vəli yalvarmağa başdadı, Kərəm dedi kin, a Vəli, düzünü de, sən buralarda hansı adnan tanınırsan? Niyə mənim adımı bədnam eliyirsən? Mənim adım bütün Qavqazda Qaçax Kərəm adı ilə məşhurlaşıb, bə sənin adın nə olub?

Vəli dedikin, a Kərəm qağa, bir qələtdi eləmişəm, igid basdığını kəsməz, məni bağışla.

Kərəm dedikin; a Vəli, səni öldürmüyəjəm, buraxajam. Amma bizi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dəyişik salmasınnar deyə, qulağıyın birini kəsəjəm ki, mənə Qaçax Kərəm, sana da Kərə Kərəm desinnər. Bəli, uşaxlar Vəlinin qulağının birini kəsif yola saldılar. Ancaq onu bütün Qazax elində və Qaraqoyunlu dərəsində hamı Kərə Kərəm yox, Kərə Vəli deyə tanıdılar.

Bəli, Kərəm belə Kərəmiydi. O, qaçaxlığı dövründə bir nəfəri də incitməmiş, heş kimə sataşmamışdı. Vəlidən törəyənnər sonradan Qara Vəlilər addandılar. Xalq isə əsil həqiqəti yaxşı bilirdi...

## QƏBRƏ SANCILMIŞ XƏNCƏR

Qaraqoyunnu dərəsində igid, qorxmaz, mərd adamlar çox olub. İgiddər bir-birlərini sınamax üçün bir sıra tədbirrərdən istifadə edillərmiş. Günnərin bir günü igiddər Molla Nəvinin evinə toplaşmışdılar. İgiddərin başbiləni Allahverən Molla Nəviyə üzünü tutub dedi:

- Ay Molla Nəvi, sənin yanına bir işdən ötəri gəlmişik.

Bax bu kəndin igiddəri buraya toflaşannardı. İndi bunnarın hamısı özdərini öyüllərkin, igid mənəm. Mən də sizin şahiddiyiniznən bu döşünə döyənnəri bir-bir imtahannan keçirməliyəm. Bu işə sən nə deyirsən?

- Ay bala, mən sizin işinizə qarışa bilmərəm. Gedin bir meydana yığışın, güləşin, öz igiddiyinizi sübuta yetirin. Çox xayış edirəmkin, məni belə işə qatmıyın, məni el içində biabır eləmiyin.

İgiddər Allahverdigilə toflaşdı, artıx gejəydi. Bunnar tədbir fikirrəşdilər. Birdən Əmirverdi Allahverənə dedikin, mən bir fənd bilirəm. Kim qoçaxdısa mənim bu xəncərimi aparıf Vəli Əfəndinin qəvrinə sancıf gəlsin. Onda biz də biləjiyik ki, bu laf igid adamdı. Təklifi bəyəndilər. Biləndər xəncəri alıf yola düzəldi. Artıx gejəydi, ova yatmışdı. Qəvirstannıx kənddən bir qədər aralıydı. Həm də qavırsannığın ortasınnan yol keçirdi. Şərtə görə Biləndər xançalı qavıra sancıf bura gəlməliydi. Səhər açılanda hamılıxnan gedif xançalı yoxlamalıydılar...

Çox gözdədilər. Biləndər gəlmədi, igiddər arasında şaiyələr yayıldı. Kimi dedi kin, Vəli qorxusunnan gedə bilmədi. Hərə bir şey fikirrəşdi...

Gejə gejədən keçirdi. Amma Biləndərdən xavar yoxuydu. Xülasə savax açıldı. Toplaşannardan iki nəfəri qavırsannığa göndərdilər. Onnar gəlif gördülərkin, Biləndər Vəli Əfəndinin qəbri üzərində uzanıf



qalıf. Gələnnər onu yoxlayarkən gördülərkin, xəncər Biləndərin şinelinə sancılmış vəziyyətdə qalıf. Aydın oldukun, Biləndər əyilif xançalı qavıra sancanda şinelini də qavıra sancıfmış. Yuxarı qalxarkən orada sancılı qalıf. Bu hadisədən sonra heş kəs gejə vaxtı bu qavırsannıxdan keçə bilməzdi...

## ƏLİNƏ BƏRKCƏ DƏYDİMİ...

Qaraqoyunnu dərəsinin sirrli-sehirli bir qavırsannığı varıydı. Onun haqqında elə sehirri əhvalatdar danışırdılar kın, haman qavırsannıxdan gejə vaxdı heş kəs keçə bilmirmiş. Belə əfsanələrin birində belə bir əhvalat danışılırdı:

-Kəndin mö’təbər, qorxu bilməz bir çovanı varıymış. Bu çovan qonşu Gölkənd kəndinnən gəlirmiş. Qonağ olduğu evin sahibləri deyillər kin, vaxtsızdı getmə, qavırsannıxdan eymənərsən. Çovan deerkin, mən bütün gejə-gündüzü çöllərdə keçirirəm, nədən qorxajam? Kəhər at məni bir nuvuda kəndə çatdırajax.

Bəli, çovan atına suvar olub yola düşür. Atı sür’ətnən sürərək qavırsannığa gəlif çatır. Heş şeydən tiksimmədən atı sürüb keçməli olur. Bir qədər gedənnən sonra baxıf görür kün, atın qavağında bir çəpiş məliyə-məliyə gedir. Atın başını saxlayır, əyilif haman çəpişi götürüf qucağına alır. Bir az gedənnən sonra əlini atıf çəpişin arxa paçasını əlləyir kin, görsün bu keçi balası erkəkdimi, yoxsa dişidimi? Çovan əlini çəpişin paçası arasına salanda belə bir səs eşidir:

- Əlinə bərkcə dəydimi?

Çovan keçi balasını yerə tulluyuf atın başını buraxır. Kəndə çatannan sonra bu əhvalatı kəndin sınaxlı mollasına söylüyür.

Molla deyir kin, a bala, qorxulu olufsan, heş şey olmaz, qorxma. Mən bir dua yazaram, ötüf keçər. Bu əhvalat bütün elə-ovaya yayılır. Onnan sonra daha heş kəs gejə vaxdı o qavırsannıxdan keşməyə cürət eləməzdi.

## HƏLƏ DOYMAYIFSAN?

Bu əhvalatdan sonra cavannar arasına yaman qorxu düşdü. Elə hər yerdə bunnan danışırdılar. Kənddə tat Məcid adında igid bir cavan varıymış. Həm də xeyirxah adamıymış. Bir gün yenə də söhbət bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qavırsannıxdan düşür. Tat Məcid deyir kin, nədən mərc gəlirsiniz, mən haman qavırsannıxda gedim gejəliyim. Belə şərtdəşirrər kin, bir erkəyi apar haman qavırsannığın içində kəs bişir. Tat Məcid razılaşır. Cavannar fikirrəşillər kin, ayə, bu qoçax adamdı, nejə deyir elə də eliyəjək. Gəlin bizdən iki nəfər onu qorxuzax, əvvəlcə gedif ordakı uçux künbəzə girək. Əti bişirəndə ağ xalatla üsdünü kəsək kin, bizə də pay ver. Belə də edillər. Məcid eşşəyinə bir erkək, bir xeyli odun, qav-qacax qoyuf qavırsannığa yollanır.

Onnar dediyi uçux kümbəzin yanında erkəyi kəsif soyur, ocağı qalıyır, əti doğruyuf ojağın üsdünə asır. Ət bişəndə bir qav çəkib yeməyə başdıyır. Elə bu zaman uçux kümbəzdən iki əl uzanır. Tat Məcid çömçüyü ətnən dolduruf uzanmış əllərə tökür! Aradan bir az keşmiş haman əllər bir də uzanır, Məcid yenə ət verir. Haman əllər üçüncü dəfə qazana tərəf uzananda Tat Məcid əllərdən bərk-bərk yapışarax xançalı çəkif deer kin, ə siz hələ doymuyufsunuzmu? İndi mən sizin mana uzanan əllərinizi kəsərəm...

Elə bu zaman Məcidin cavan yoldaşdarı gülüşüf uçux kümbəzdən çıxıllar kın, ə, əlimizi kəsmə, bizik.

Beləliklə, Tat Məcid öz qoçaxlığını göstərdi. Bu sehirri qavırsannığın tilsimini qırdı. Bu hadisədən sonra adamlar bu qavırsannıxdan qorxmadan ötüf keşməyə başdadılar.

## AĞNAVAD (Ax navad)

Ağnavad Qaraqoyunlu dərəsinin Güney səmtində yerrəşən ən dərin və uzun bir dərədi. Dərənin başında, qurtaracağında Murğuz sıra dağları yerrəşir. Qaraqoyunnu dərəsindəki Salah kəndinin əhalisi yay və payız vaxtı Murğuz dağlarında məskunlaşırdılar.

Salah kəndindən bu dağa yol dərin dərədən sıx və qalın meşəlikdən keçir. Bu meşələrdə vəhşi heyvanlar çox olub. Burada ayı, canavar, çaqqal, tülkü, bəbir, pələng varıydı. Payız vaxtı kənd adamları mal-qaranı bu qalın meşələrin içindəki talalarda yerləşdirirdilər. Buna payız binəsi deyirdilər. Payız binələrində kişilər qadınlara nisbətən az olardılar. Çünki onnar taxıl döyməknən, məhsul toplamaxnan məşğul olurdular. Binədə yerrəşən arvad-uşaxlar, naxırçılar heç şeydən qorxmurdular. Onnar elə bil ki, vəhşi heyvannara isnişmişdilər...

Bir axşam çağı binədən Navad addı bir gəlin kəndə gələsi olur.



Binədəkilər nə qədər eliyillər ki, vaxtsızdı, getmə qorxu olar. Navad isə höcətlik edir, deyir ki, çoxdandı evdəkilərə ağartı, yavannıx getmir, qaçarax gedəjəm, heş nə olmaz.

Xülasə, Navad xurcunu çiyninə alıf, sərinci də götürüf yola düşür. Meşənin sıx yerində yolun tam ortasında dayanmış bir iri qıllı ayıya rast gəlir. İrəliyə yol yoxuydu. Geriyə də qayıda bilməzdi. O yerdən bir ağac götürüf ayıya tərəf atdı. Ayı hirsdənif onun üzərinə cumdu. Navad özünü ayının pəncəsinnən qurtara bilmədi. Ayı onun üzgözünü cırıf öldürdü, cəsədini sürüyüf öz mağarasına tərəf apardı...

Səhər açıldı, binə adamlarından bir neçəsi kəndə gələsi oldular. Onnar yolun ortasında sərinci, cırılmış xurcun qalıxlarını görüf qaçaraq kənd adamlarına xəbər verdilər...

Kənddən bir neçə əli silahlı adamlar hadisə yerinə gəldilər. Ayının izinən axtarıf Navadın cəsədini odun qalağının altınnan tapdılar. Kənd adamları onu göz yaşdarınnan dəfn etdilər.

Binə adamları isə ağlıyarkən deyirdilər: Ax, Navad, niyə sözə baxmadın, Ax, Navad, özünə necə qıydın, niyə vəhşiyə yem oldun? Elə o günnən bu dərəyə Ağnavad deyildi.

## AXTAMAR

Göyçə gölün Çuvuxlu (Sovadguğ) kəndinin yaxınnığında dəniz sahilində uca bir qaya var. Qayanın başında gözəl, yaraşıxlı, tuf daşından hörülmüş bir bina ucaldılmışdır. Bu bina "Axtamar" restoranıdır. Keçmişdə dənizin ləpələri bu qayanın yanlarını döyəcləyirdi. İndi dəniz çox uzaqlarda qalmışdır, dənizin suyu çəkilif, burada geniş sahə açılmış, iki tərəfli şose yolu salınmışdır...

Rəvayətə görə bu dənizin sahilində, həmən bu müdhiş qayanın divində iki sevgili həmişə görüşərdi. Bu qaya onnarın görüş yerrəri idi. Tamar adlı qız hər axşam çağı qayanın o biri tərəfindən üzüf gələr, sevgilisi Qafarnan görüşər, şirin söhbətdər eliyər, yenə də geri qayıdıf evlərinə gedərdi. Qafar hər gün qayanın dibində dənizin sahilində Tamarı gözləyərdi. Tamar isə yenə də dalğalar qoynunda qanad çala-çala sevgilisinə tərəf üzərdi. Onlar yenə görüşər, öpüşər, şirin söhbətlər edərdilər. Tamarın bu gəlişi adi gəlişə çevrilmişdi. Sevgi-məhəbbəti onu hər təhlükədən qoruyardı. Neçə illərdir ki, sevgililər beləcə görüşər, xoşbaxt günnər keçirərdilər...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Günnərin bir günü bu şən günnər pozuldu. Tamar dənizə yenicə gəlmişdi ki, dəniz kükrədi, quduz dalğalar şahə qalxdılar. Dalğalar Tamarı öz qucağına alıb qayalara çırpdı. Tamarın yolunu gözləyən sevgilisi isə çığırırdı: Ax, Tamar, ax, Tamar, geri dön! Dalğalar quduruf, Qafarın ucadan dediyi bu hıçqırtılarını uduf aparır, Tamara çatdırmırdı. Nəhayət, Qafar da özünü dalğalar qoynuna atdı. Sevgilisi Tamarı qucaqlayıb sahilə çıxartdı. Ancaq artıq gejiydi. Tamar keçinmişdi. Tamarı həmən qayanın ətrafında dəfn elədilər. Sevgilisi Qafar hər gün gəlib bu müqəddəs qəbri ziyarət eliyər, "Ax Tamar, ax Tamar" deyə-deyə göz yaşı tökərdi. Elə o gündən bu müqəddəs görüş yeri Axtamar adlandı. Yerli əhali bu səmimi sevgi sahiblərini unutmadılar, Onu müqəddəsləşdirdilər. Çox heyif, bu müqəddəs yer də kafirlərə qaldı.

## KÜNBƏZ

Qaraqoyunnu ərazisində çox səfalı dağlar var. Bu səfalı, könül oxşayan, bəhməz dadıyan sərin bulaxlı dağlarda yay vaxtı aran ellərinin: Qazax, Ağstafa, Tovuz ağaları, bəyləri alaçıxlar qurar, yayın üç ayını burada keçirərmişlər. Güneyli-quzeyli bu dağlar Aran ellərinə baxarmış. Murğuz, Gözəl dərə, Hatı Abbas, Künbəz, Marallıca, Yumalaq, Soyuqbulaq... yaylaqlarında 1953-cü ilə qədər də üç rayonun bir sıra Aran kolxoz və sovxozlarının qoyun sürüləri yerrəşirdi. Hazırda dağların adı eyni adlarla yaşıyır, ancaq təpənin Aran sakinləri, hətta Qaraqoyunnular da artıx bu yerrərdən didərgin düşüflər...

Yayın cırhacır vaxtıydı, yenə də Ağstafa elinin addı-sannı ağalarından biri - Hatı Abbas qəflətən ağır xəstələnir. Binədə yaşıyannar qəm-qüssəyə düçar olur. Hamı fikirləşir ki, bu uzax yerdən biz bu xəstəni öz elinə, yurduna nejə apara bilərik. Qaraqoyunnunun yaxın kənddərinnən, Göyçə elinnən addı-sannı ara həkimlərini Hatının yanına gətirdilər. Amma Hatını sağaltmax mümkün olmur...

Bir gün Hatı Abbas öz adamlarını, çovan və naxırçılarını yanına çağırıf deyir: - Ay mənim istəklilərim, görürəm, əziyyət çəkirsiniz. Heş bir fikrə düşməyin, amandı məni bu dağlardan, bu gözəl mənzərədən ayırmıyın, bax elə o çökəhdəjə dəfn edin. Deyərlər ki, vəsiyyət yüngüllükdür.

Qaraqoyunnunun və Göyçə ellərinin addı-sannı adamları Hatı Abbası bu səfalı yerdə - Çökək yurdda dəfn etdilər. Onun istəkliləri Hatı Abbasın qəbri üzərində günbəz qurdular. Bura "Günbəz" yaxud, Hatı Abbas yurdu adlandırıldı. Hər il yaylağa köçən qaraqoyunnular bu məşhur xeyirxah ağanı - Hatı Abbası yad edir, ona dualar oxuyardılar. Tarixin elə bir günü gəldi ki, indi Qaraqoyunnular da bu axarrı-baxarrı yaylaqda uyuyan Hatı Abbasdan uzax düşdülər. İndi bu möhtəşəm Künbəz düşmənnərimizə qaldı...



## GƏLİNBOĞAN

Dünyagörmüş aqillər belə bir nağıl danışırdılar. Deyilənə görə, bir zalım qaynata varıymış. Evə gələn təzə gəlini bu qaynata müxtəlif imtahannardan keçirirmiş. Bir gün ortancıl oğluna gətirdiyi gəlini bu qaynata imtahandan keçirmək xəyalına düşür. Kişi çox şey fikirrəşir, bir şey tapa bilmir. Bu zaman öz arvadı içəri girif kişisinə deyir:

- Ay kişi, uşaxlar erkək kəsif, de görək nə cür xörək hazırlıyax?

Kişi düşüncədən ayılır: ay arvad, erkəyin içalatı, qarın-bağırsağı dururmu?

- Boy, ay kişi, o boyda erkəyin ağ ətini qoyuf, qarın-bağırsaxmı yeyəjəksən?

- Yox, arvad, mən içalatı xoşduyuram, özünüz üçün nə hazırrıyırsınız hazırrıyın. Amma içalatı, qarın-bağırsağı təzə gəlinə ver, qoy təmiz-təmiz təmizdəsin.

Arvad getdi, əhvalatı uşaxlara söylədi, üstəlik təzə gəlinə dedi ki, böyük sinini götür, erkəyin qarın-bağırsaxlarını içinə yığ, apar çayda təmiz–təmiz yu gətir. Qaynatan bişirif yeyəjək. Gəlin qarını, nazik bağırsaxları, qatqatını (gəlinboğanı) siniyə yığıf çaya apardı, ömründə bağırsax, qarın, qatqatı təmizdəmiyən gəlin indi nə edəcəyini bilmirdi. Utandığından da qaynanasınnan bunları nejə təmizdəməyi soruşmadı. Bunnarı bir-bir aralayıf təmizdəməyə başladı, qarnı da yuyuf təmizlədi. Təmizdədiyi bağırsağı və qatqatını bir də təmizdədi. Gəlin bilmədi ki, qatqatının pərdələri arasındakı çirkləri dönə-dönə təmizdəmək lazımdı.

Təmizdədiyi bağırsaxları, qarını və qatqatını sinidə gətirif qaynanasına verdi. Qaynana da kişisinə buyurdu ki, bağırsax, qatqatı təmizdənif indi onu nejə bişirməliyik. Kişi dedi ki, təmizdənən qarın-bağırsağı bura gətir. Kişi birinci növbədə qatqatını yoxladı. Onun pərdə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lərini bir-bir aralayıb baxdı. Ay arvad, bunu təmizləyən gəlini bura çağır. Gəlin qaynatasının hüzurunda müntəzir dayandı. Kişi qatqatının çirklərini bir-bir gəlinə göstərdi. Gəlin baxıf gördü ki, qatqatı tamam çirklə doludu. Kişi gəlinə deyir ki, a gəlin, bu sadə işi bajarmayan gəlinə mən nə deyim...

Gəlin utanıf-qızarmış halda qaynatasının hüzurunnan mürəxxəs oldu. Bu hadisə təzə gəlini yamanca utandırmışdı. Utandırmışdı demək də azdı, bu hadisə gəlinə ölümnən betər olmuşdu. Fürsət gəzirdi ki, özünü öldürsün. Belə fürsət ələ keşdi, arada evdə kimsənin olmamasınnan istifadə eliyən gəlin mal damına keçif özünü asdı. Gələnnər gəlini özünü boğuf öldürmüş gördülər. O günnən qoyunda olan qatqatıya gəlinboğan adı verildi.

## CANTƏPƏ

Cantəpə Çaykənd kəndinin örüşündə yerrəşən bir yaylağın adıdı. Bu yaylax yeri iki yaxın təpəni əhatə edir. Hər iki təpənin kökündən göz muncuğu kimi axan bir neçə şərbət sulu bulaxlar var. Bura yay dövründə Qazax, Ağstafa, Tovuz ellərinnən də gələnnər çox oluf. Bu rayonnarın adamları uzun müddət Murğuz, Cantəpə, Soyuq bulax, Gözəldərə, Marallıca yaylaxlarında yaylayıblar. Xalıl ağanın inəkləri də bir zaman burada yerrəşir. Bir gün Xalıl ağa yaylağa gəlir, inəklərinin vəziyyətini və məhsulunu yoxluyur. Xalıl ağa aşıf-daşan süd məhsulunu görüb deyir: - Can, təpə, bu sənin hünərindi. Mən heş yerdə inəklərdən bu qədər süd götürməmişdim. Xalıl ağanın bu sözündən sonra bərəkətli yaylağın adı Cantəpə qalır. Hamı bu dağı Cantəpə kimi tanıyır.

## YARALI

Yaralı adının yaranması haqqında bir rəvayət dolaşmaqdadı. Bu dağ Murğuz sıra dağına məxsusdur. Bura güneydə yerrəşir, suyu boldu, ancax yamaşdarı bir qədər daşdıdı. Yay dövrü yenə də qonşu Aran xalqı bura köçür. Əlbəttə, dağa çıxannar iki məqsədlə dağa çıxır: Biri mal-qaradan bol süd almax, biri də sərin hava, sərin su içmək. Buralara köçən ağalar bir-birinnən soruşullar, o yaylaxda vəziyyət nejədi? Buralara tanış olan ağalar tanış olmıyan ağalara bildirillər ki, havası,



suyu çox yaxşıdı, ancax örüşü bir qədər daşdıdı. Onnar soruşullar ki, bəs süd nejə? Cavav verillər ki, malın südü çox olur, həm də yağlılığı yaxşıdı. Ağalar yaylağın belə iqlimini eşidif deyillər, bura yararlı yerdi. Elə o gündən bura yararlı (yaralı) addanır; buranın dərələrinə də "Yağlı dərə" adı verillər. O vaxtdan buralar bu adla tanınıfdı.

## DAŞDƏMİRİN QƏTLİ

Daşdəmir 13-14 yaşdı cavan bir oğlanıydı. O, Qara Əhməddi tayfasında ən iyid cavan sayılırdı. Bu nəsildən olan gənşdərin əksəriyyəti təsərrüfat işdərinnən, mal-qaraynan məşğul olurdu. Gənc Daşdəmir isə tamam başqa yol tutmuşdu. O, savad öyrənməyə, molla yanında əlifbanı, yazı-pozunu öyrənməyə həvəs göstərirdi. Bu işə olan həvəs onu kənddə addı-sannı ruhani mollası Molla İrvahamın yanına gətirdi. Molla İrvaham Daşdəmirin elm öyrənməyə olan dərin həvəsini görüf onnan ciddi məşğul olmağa başdıyır. Daşdəmir yaxın qohumu Molla İrvahamın gündəlik tələblərini yerinə yetirir, əməl edirdi. Öyrəndiyi mövzuları böyük həvəsnən əzbərriyir, hər yerdə, həm evdə, həm də quzu otaranda öz-özünə danışar, yada salar, təkrarrıyırdı. Bir neçə ay müddətində Daşdəmir ərəb əlifbasını yazıf-oxumağı öyrəndi. Molla İvrahım ona indi çərəkədən dərs deyirdi. Daşdəmirin "Qur'an"ı belə həvəsnən öyrənməsinə sevinirdilər.

Bir qış axşamı Daşdəmirin atası Alı kişi oğlunu yanına çağırıf dedi:

- Ay oğul, neçə aydı kı, Molla İvrahımın yanına gedif gəlirsən. Öyrəndiyindən bizə də danışsana, bizə də oxusana, görək nejə bilirsən.

Daşdəmir belə fürsəti çoxdan gözdüyürdü. Ona görə də üzünü qivləyə tutub öyrəndiyi "Kəlmeyi-şəhadət"i əzbərdən gözəl bir səsnən ujadan oxudu. Sonra onu dinnəyənlərə izah etdi ki, "Kəlmeyi şəhadət" islam dininin əsas şərtdərinnən birincisidir. Bunu özünü müsəlman adlandırannarın hamısı bilməlidi. Bu, mütləq və vacifdir. Alı kişi "Kəlmeyi-şəhadət"i bilirdi, ancax oğlunun bu surəni xoş bir avazla oxuması onu hədsiz dərəcədə sevindirdi. Daşdəmir "Kəlmeyi-şəhadəti" elə bir avaznan, elə bir məharətnən oxudu və oxuduğu zaman onun üzündə, bədənindəki titrəyişdər atasını heyran elədi. Daşdəmir Qur'ana belə bağlılığını, özünün Allaha sadiqliyini atasına belə izah etdi.

- Ata, ən əziz və vacib surələrdən biri də "İxlas" surəsidi. Bu su-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rədə belə buyrulur: "Bismillahir rəhmanir rəhim, Qulhuvallahu əhəd əllahussəməd. Ləm yəlid vələm yuləd vələm yəkul ləhu kufuvən əhəd" yə'ni "Allah birdir, hər kəs ona möhtacdı. Onun kimsəyə ehtiyacı yoxdu. Doğulmamışdır. Onun tayı-bərabəri yoxdur".

Ata oğlunnan bu kəlamları eşidəndə sevincinnən gözlərinnən yaş gəldi. Oğlunu qujaxlıyıf öfdü.

- Əhsən sana, səni öyrədən Molluya...

Aradan bir neçə gün keşmişdi. Keçən günnərdə ata oğlu Daşdəmirin Qur'an surələrini insanı valeh edən tərzdə, xoş avazla oxumasının tə'sirinnən ayrıla bilmirdi. Ona görə Daşdəmiri yanına alıf Molla İvrahımın evinə yollandı. Molla İvrahım Alı kişiyi xoş üznən qarşılıyıf evə də'vət etdi. Hər üçü evin ortasında salınmış xalçanın üzərində bardaş quruf oturdular. Hamıdan əvvəl Molla İbrahim sözə başdadı:

- Hə, üzünü görək Alı kişi, nə yaxşı, heş görünmürsən, - deyə Alı kişinin gəlməkdə məqsədini öyrənmək istədi.

- Xoş gününə gəlmişəm, Molla İvraham, məni sənin hüzuruna gətirən bax bu başına döndüyüm Daşdəmirdi. Ay molla İvraham, mən heş inanmazdım ki, Daşdəmir belə avaznan, belə həvəsnən Qur'an oxuya, sana qurvan olum, ay Molla İvraham! Daşdəmiri hərtərəfli öyrət, minnətinnən çıxmağa hazıram.

- Ay Alı kişi, Daşdəmirin gözəl avazı var. Bu Allah vergisidi, hələ mana belə avaznan oxuyan rast olmuyuf. Bu uşaxda həm də möhkəm hafizə var, bir dəfə oxuduğunu yadda saxlıyır və dərhal əzbərriyir. Mənim zəhmət haqqımı Daşdəmir özü verəjək, hələ tezdi. Daşdəmir hələ "Çərəkə" oxuyur, "Çərəkə" öyrənir, Allah qoysa Qur'anı oxuyuf çıxanda sənnən bir inək alajam.

- İnək sana qurvandı, Molla İrvaham. İsdiyirsən günü sabahdan gətirim.

- Yox, elə olmaz, Qur'anı başa çıxmamış mən səndən heş nə alan deyiləm.

Alı kişi Molla İrvahamın evinnən xoş əhvalnan çıxdı. Yolda gələrkən Daşdəmirə dönə-dönə tafşırdı ki, hər gözügötürməzin yanında oxuma, özünü pis gözdərdən qoru.

Daşdəmir "Çərəkə"ni tam öyrənif qurtardı. İndi onun üçün heç bir çətinnik yoxuydu. Mollası da onnan çox razıydı. Növbəti məşğələdə Molla İrvaham Daşdəmirə dedi:



- Oğul, "Çərəkə"ni çox yaxşı öyrəndin.

Allah sənin avazına, həvəsinə müdəm kömək olsun. İndi Qur'anı oxumağa başdıyırıx. Qur'an, İslamın din kitabıdı. Ulu Peyğəmbərimizə Allah tərəfinnən göndərilmiş müqəddəs kitabdı. Bu kitabı təmiz ürəknən, mə'nəvi və fiziki təmizliknən oxuyullar. Sən hər şeydən əvvəl bədəni daxili və xarici təmizdiyə öyrətməlisən. İndi sənin ürəyində bir damla da olsun kin-küdurət olmamalıdır.

Surələri öyrəndikcə Daşdəmir yerə-göyə sığmırdı. Elə həvəs, elə istəknən, elə avazla oxuyurdukun Daşdəmir, göydəki quşlar da bu həvəsə qanad saxlıyırdı. Hər surələri avaznan oxuyan Daşdəmirin həvəsi yerə-göyə sığmırdı...

Baharın ilk vaxtlarıydı. Daşdəmir quzularını meşədəki talada otarırdı. Quzular otdayıb yatışdılar, Daşdəmir də bir iri daşa söykənif "Çərəkə"sini açıf oxumağa başdadı. Elə bu zaman yolnan bir neçə adam qavaxlarında bir neçə mal-qaranı dağa tərəf qovub otarırdılar. Onnar o tərəf bu tərəfə boylana-boylana gedirdilər. Mal-qara otarannar Daşdəmiri görüf dayandılar. Fikri-zikri kitafdaydı, heç onnara fikir də vermirdi. Sən deməynənmiş, bunnar malları oğuruyuf aparıllarmış. Onnar bir-birinə işarə edillərkin, bu gədə bizi satajax, gəlsənə bunu o dünyalıx eləyək, kəsik baş söyləməz deyiflər. İki nəfər Daşdəmirə tərəf gəlir, heş bir sorğu-sual etmədən boğazını kəsif yola tüşüllər...

Qaş qaralır, şər qarışır, Daşdəmir gəlmir. Qohumları onu axdarmağa başdıyıllar. Adamlar meşədəki talada onun meyidini tapıllar. Daşdəmirin qanı Qurana bulaşmışdı. Gələnnər donuf qaldılar...

- Ay Allah, bu uşax kimə neynəmişdi, hələ heş bir xeyir-şər görməmiş bu körpüyü kim qanına qəltan eliyif?..

Qaraqoyunnu dərəsinin adamları, tamam matəm içindəydi. Bu cavanın faciəli ölümü hamını kədərrəndirirdi...

Ananın naləsi yerə-göyə sığmırdı.

Elə nalə çəkir, elə ah-fəğan edirdikin, ağaşdardan yarpax tökülürdü. Ana deyirdi:

- Ay Allah, balamı bu günə salanın yurdunu-yuvasını darmadağın elə, onun, Qur'ana tökülən qanını yerdə qoyma.

Qojalarımız Daşdəmiri qətlə yetirildiyi yerdə torpağa qoydular. Onun qəbri inam-sınax yeri oldu. Adamlar yağmurrux olanda bu qətl yerinnən torpax aparıf qoyurur, quraxlıx olanda isə yenə də torpax



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aparıf qoyurur, suya tökürdülər. Bu sınaxlı işlər onnarın arzularını həyata keçirirdi. Heş bir günahı olmuyan bu şəhidin nişangah yeri hamının inam yerinə çevrilif nəsildən-nəslə keşdi.

Deyilənə görə, bu haqsız cinayəti edənnərdən bir nəfəri həmin yerdən keçərkən qışları və qolları tutulmuş, quruyuf qalıfmış. Hamı onu qəbirstannan kənar yerdə dəfn eliyif, qəvrinin üstünə lə'nət damğası vuruflar.

## MOLLA HASANIN DUASI

Kolxozdaşma illərində Molla Hasanın mallarını damğalıyıf kolxoza qatdılar. Molla Hasanın qapısında bir naxır inəkdən, beş yaşlı iri buynuz cöngələrdən indi bir boyun öküz, bir araba və iki inək qalmışdı. Bir gün iş bitirən-bitirici Hasan kişiyə çatdırırdı kı, idarədə kolxoz sədri səni çağırır.

Hamıya hörmət edən, hamının işinə yarıyan Molla Hasan sədrin hüzuruna getdi. Sədr Molla Hasanı tənbeh edərək dedi:

- Ay Molla əmi, sən niyə kolxoz işinə getmirsən? Gözləyirsən ki, işin rayona düşə, bu qoja vaxtında sürgünə gedəsən.

Molla Hasan:

- Ay sədr, günü sabahdan gedəjəm.

Molla Hasan qayıdıf üzünü qıvlaya tutuf deyir:

- Ey ulu Tanrı, ömrüm boyu sənə ibadət etmişəm, mənim andımı müstəcəf eylə.

Ey ulu Tanrı, sənə yalvarıram, nə mənə, nə də mənim ziyarətlərimə kolxozun mal-dövlətini qismət eyləmə. Məni kolxoza möhtac eləmə.

Evin bütün ailə üzvləri yıxılıb yatdılar. Səhər açıldı, hamı mal-qaranı, qoyun-keçilərini naxıra qatdılar. Ancaq Molla Hasangildən bayırda görünən olmadı.

İşi belə görən qonşular öz-özlərinə deyinə-deyinə Molla Hasanın evinə doğru gəlir. Qonşu gəlif görür kün, Mollanın evinin üstü tamam yatıf. Qonşu kənd camaatına haray salır.

Kənd adamları yığılıb Molla Hasanın ailə üzvlərini torpağın altınnan çıxarıf, göz yaşdarı ilə dəfn edillər. Onlar üzünü qıvlaya tutuf deyillər:

- Allah, sənə qurvan olaq, kişinin arzusunu gözündə qoymadın.



Allah hamınıza rəhmət eləsin, ay kolxozun şəhidləri. Bax, sovet hökumətinin belə haqsız işləri çoxuydu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIR DƏLİ OLDU

Aşırın var-dövləti aşıf-daşmışdı. Həyət-bajasında nə yoxuydu; mal-qarası bir naxır, qoyun sürüsü, qoşa arabaları, hektarlarla torpağı...

Aşır İsgəndər oğlu çox firavan dolanırdı. Kişinin uşaxları hələ kiçik idi, işə yaramırdı, amma özü işinin öhdəsinnən gəlirdi.

Bir gün Aşır kişiyə xavar gəldi ki, kəndə kolxoz gəlif. Aşır kişi Hajı Mirzədən soruşdu:

- Ay getdiyin Haja qurvan olum, deyillər kəndə kolxoz gəlir, o kolxoz nə olan şeydi.

Hajı Mirzə dünyagörmüş adamıydı, hər şeyi bilirdi. Aşır kişini belə başa saldı:

- Aşır kişi, qapındakı mal-qaranın, qoyun-quzunun kökünü kəsən, torpağını əlinnən alana kolxoz deyilir.

- A Hajı, a ziyarətinə qurvan olum, elə də şeymi olar, qapımı boş qoyan dövlət mənim nəyimə lazımdı.

- Aşır kişi, elə deyil, dövlətnən dövlətlik eləmək olmaz. İndiki dövlət bax belə dövlət olajax: Hamı mal-qarasını, qoyun-quzusunu, əkin yerlərini bir yerə toplayıf, bir yerdə işdiyif, bir yerdə bölələjəklər.

Aşır kişi öz işindəydi. Mal-qaranı otarır, əkin-biçinini edirdi.

Payız ayıydı. Aşır xırmanda taxıl döyürdü. Kişi xırmanda işini yenicə qurtarmışdıkın, bir neçə adam həyətə doldu. Gələnnər Aşır kişini harayladılar. Aşır kişi gələnnərin yanına gəldi. Gələnnər məqsədlərini Aşır kişiyə bildirdilər.

Aşır kişini qəhər boğdu:

- A kişilər, siz nə danışırsınız, kolxoz mənnən mal-qoyun ortağıdırmı, mənim kolxoza borcum yoxdu.

- Ay Aşır kişi, işi çətinə salma, sən nə danışırsan. Bu qanundan çıxmaq olmaz. Sən heç vermə, biz özümüz istədiyimizi aparıjıyıx.

Gələnnər qoyun sürüsünnən qoyunnarı, naxırdan da mal-qaranı seçib apardılar. Onnar Aşır kişiyə bir boyun öküz, iki inək qoyuf getdilər. Aşır gejəni yata bilmədi. Səhəri Aşır kişi sayıqlamaqla açdı.

O gündən Aşır kişi dəli olub əqlini itirdi.

## BİR GEJƏDƏ AĞARAN SAÇLAR

Həmid Pirverdi oğlu öz halal zəhmətiynən dolanan muzdur adamıydı. Kənddə belə halal, nizam əkinçi ola bilməzdi. Kolxozlaşma



ilində Həmid kişiyə də zərbə dəydi.

Yaz əkini başlamışdı. Kolxozu qurannar kotan-cüt qoşduruf yer əkir, səpirdilər. İndi camaatın cütü, kotanı, qoşqu heyvannarı kolxoza birləşdirilmişdi. Əkinin qızğın vaxtında kolxozun yaz əkini üçün toxumu çatmırdı. Kolxoz başçılarına çatdırmışdılar kin, bilməzsənmi Həmid kişinin bolluca yazlıq toxumu var. Nolajıydı, kolxoz işçiləri qızılquş kimi Həmid kişinin öyünü dövrüyə aldılar. Evi atım-atım etdilər, axırda evin içində qazılmış quyunu tapdılar. Adamlar taxılı quyunun içinnən çıxarmağa başladılar. Onnar Həmid kişinin yalvarışlarına məhəl qoymayarax taxılı bütövlükdə quyudan boşaltdılar. Adamlar üstəlik Həmid kişinin bir boyun öküzünü, arabasını da apardılar. Həmid kişiyə də bildirdilər kin, kəndi tərk etməlidi. Boş qalmış evə, yeddi nəfər ailə üzvlərinin yanına üzü qara gələn Həmid kişini dərd götürmüşdü. Əkdiyi şuma nə səpməlidi, aj-yalavac qalan uşaxları nejə dolandırmalıdı. "Bu nə haqsızlıxıydı, mənim başıma gəldi" fikri ilə yatmaq istəyən Həmid kişini dərd bürümüşdü, yata bilmirdi ki, bilmirdi. Həmid kişi səhəri yatmadan, göz qırpmadan aşdı. Arvadı Həmid kişinin üzünə baxanda onun saç-saqqalını ağarmış gördü.

## RÜSTƏM KİŞİ BOĞAZINI KƏSDİ

Kolxozlaşma kəndə vəlvələ salmışdı; kimi malını qaçırdır, kimi ot tayalarını yandırır, kimi dərd-xiffət çəkirdi. Kənd biri-birinə qarışmışdı, nejə deyəllər, it sahibini tanımırdı. Kolxoz qurannarsa meydan oxuyurdular. Kəndi mühasirədə saxlıyırdılar. Çəkindikləri adamların evlərinə milislər nəzarət edirdilər. Zorla adamların mal-qarasını, qoyun-keçisini, taxılını daşıyıf kolxoz adına talan edirdilər. Dillənənnəri, müqavimət göstərənnəri də dərhal həbs etdirir, gözünü qorxuzurdular. Belə ağır günnərə tab gətir görüm, nejə tab gətirirsən.

Rüstəm kişi yamanca vurnuxurdu, kişinin rahatlığı yoxuydu. Birdən hıçqıraraq dedi:

- Ağız, hanı mənim malım, dövlətim? Hanı mənim kotanım, cütüm?!

Kişi dəli olmuşdu, öz-özünə hey deyinir, göz yaşı tökürdü:

- Hanı, hanı mənim mağarnan topladığım taxıllar? Ay Allah, mən kimə neyləmişdim? Mənim halal malımı niyə talan eliyillər? Ağız, bu kolxozdu, nədi mənnən taxılmı bejərmişdi?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bə mənim balalarım nə yeyəcək? Kişi bağıra-bağıra birdən pıçağı boğazına çəkdi. Arvad-uşaq pıçağı zorla onun əlinnən aldılar. Ağlaşma, vay-şüvən kəndi bürüdü. Kolxoz qurannar Rüstəm kişini apardılar. Rüstəm kişi ömrünün axırına kimi bir gün də olsun kolxoz işinə getmədi. Rayondan gələnnərə "mənim yerimi özümə qaytarın, mənim mal-qaramı verin" - deyə şikayətlənirdi.

Çox heyif ki, bu haqsız dünyanın yıxıldığını Rüstəm kişilər görmədi. Xalqın göz yaşı, zopa ilə qurulan quruluşun dağılmasının şahidi olmadılar.

## PADŞAH ÖZÜNƏ VƏZİR SEÇİRDİ

Belə söyləyirlər ki, keçmiş əyyamda bir padşah özünə vəzir seçmək istəyir. O, belə şərt qoyur ki, mən özüm hər bir adama üç sual verəcəm. Kim ona düzgün cavab versə, onu özümə vəzir götürəjəm. Bəli, padşah belə də edir. Hamı sualdan keçirilir, ancaq heç kəs padşahın suallarına düzgün cavab vermir. Padşah soruşur ki, şəhərdə heç adam qaldımı? Ona xəbər verdilər ki, dağda təkcə bir çovan qalıbdı. Əmr verdi ki, həmən çovanı gətirsinnər. Çovanı gətirtdilər, geyindirib, padşahın hüzuruna göndərdilər. Çovan padşaha baş əyib, onun göstərdiyi yerdə əyləşdi. Padşah dedi:

- Ay çovan, mən özümə vəzir seçirəm, əsas şərtim budu. Sənə üç sual verəjəm, ona düzgün cavab versən, özümə vəzir götürəcəm. Çovan dedi:

- Padşah sağ olsun, məsləhət sizindi. Padşah tək bir barmağını havada yellədir, çovana cavab verməyi tapşırır. Çovan isə iki barmağını havada yellətdi. Padşah razı qalıb, əli ilə havada bir dairə cızdı. Çovan isə əli ilə havada bir dairə cızdı və dairənin ortasında bir mil də göstərdi. Padşah buna da razılaşdı. Padşah üçüncü lal sualında əli ilə havada bir düz xətt cızdı. Çovan tez hirsli-hirsli havada bir düz xətt çəkib, bir düz xətt də təpəsi üstə cızdı. Padşah çox razı qaldı. Çovana dedi ki, sən mənim suallarıma düzgün cavab verdin, indi mənim vəzirimsən. Çovan yalvarıb-yaxardı kı, padşah sağ olsun, mən qoyunlarımı buraxıb heç yana gedə bilmərəm Çovan hara, vəzirlik hara. Məndən vəzir olmaz. Xülasə, çovan çomağını götürüb dağa getdi.

Şəhərin aqil, çoxbilmiş adamları padşahdan soruşdular ki, siz çovana nə suallar verdiniz ki, o bu suallara düzgün cavab verdi? Necə



oldu ki, sənin alimlərinin bilmədiyi sualları çoban bildi?

Padşah izah etdi ki, mən çobana sual verdim ki, Allah birdi? Çovan cavab verdi ki, səhv eləmə. Allahın yanında peyğəmbərləri də var. Mən çovana sual verdim ki, dünya iki yerə bölünür, çovan cavab verdi ki, dünya dörd cəhətlidir. Mən çobana sual verdim ki, kürreyi-ərz dairədə yerləşir, çovan cavab verdi ki, səhv eləmə, onun bir oxu da var.

Padşahın çovanla olan əhvalatını çovandan soruşdular. Çovan cavab verdi ki, padşah mənə dedi ki, barmağımı gözünə soxaram. Mən cavaf verdim ki, sən barmağını soxacaq olsan, mən iki barmağımı sənin gözünə soxaram. Padşah mənə dedi ki, səni iki parça edərəm, mən də cavab verdim ki, sən məni iki parça edirsənsə, mən də səni dörd parça edərəm. Ən nəhayət, padşah mənə dedi ki, sənə quyu qazaram, mən də cavab verdim ki, mən də səni quyuya basaram.

Aqil və müdriklər bu qəribə sual-cavaba gülüşüb, çovandan ayrıldılar.

## SƏFXANIN HİYLƏSİ

Çaykəndli Mikayıl oğlu Məmməd Yanıxpəyə kəndinə Səfxan addı bir kişinin baldızlarınan birinə elçi gedir. Səfxan öz cavan dosdunu layiqli qarşılayır. Ona hər cür hörmət edir. Məmmədin gəlməkdə məqsədini soruşur. O, fikrini dosduna açır. Səfxan onu arxayın salır kın, laf yaxşı fikirrəşifsən, onsuz da biz qohumux, dosdux. Qızı sənnən yaxşısına vermiyəjəm. Mənim iki baldızım var. İndi sən hansını isdiyirsən? Məmməd deer kin, a Səfxan mən qızın o göyçək tayını - Gülsənəmi isdiyirəm. Səfxan dosdunu gülərüz qarşılayaraq məsləhət gördükün, bir gecə gəlin qızı qaçırın, mən hər işi nizamlayacam. Sən də, mən də kasıf adamlarıx, toy eliyə bilmərik. Məmməd razı halda dosdunun evinnən çıxıf Çaykəndə yola tüşdü.

Öylərində ata-analarına da məsləhət edib razılaşdı. Mikayıl kişi üsdəlik dedi kin, Səfxan qohumumuzdu, düz məsləhət görür, oğul, onsuz da toy eləməyə gücümüz çatmaz. Eytivar etdiyin oğlannardan bir neçəsini götür, get gətir. Bir erkək kəsif onnarı yola salarsan...

Məmməd yaxın dosdarınnan bir neçəsini də götürüf şər qarışan kimi meşə yoluynan Yanıxpəyə kəndinə yola düşdülər. Onnar gəlif kəndin kənarındakı dərədə gizləndilər. Evi tanıyan iki gənc oğlan Səfxanın evinə gəldilər. Səfxan çirkin qızı bəzəyif-geyindirif onnarın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qavağına qatdı. Oğlannar qızı götürüf gəldilər. Hamısı birrəşif səsiz-səmirsiz Çaykəndinə yetişdilər.

Erkək kəsildi, kabab bişirildi, araqlar süzüldü, bəyin şərəfinə tostlar deyildi, keflər duruldu... Bütün gejəni yeyif-içən cavannar səhəri Məmmədin evində aşdılar.

Səhər açıldı, qonaqlar Məmmədi çağırıb onu təbrik edib, getmələrini bildirdilər. Məmməd süfrəyə yaman bikef gəldi. Onun qaşı–qavağı açılmır, üzü gülmürdü. Qızın qolunnan yapışıf gətirən oğlan üzünü Məmmədə tutuf dedi:

- Ayə, Məmməd, niyə qaşın-qavağın yer süpürür, bir erkəyini yedik, yeməmiş olaq, irəli gəl süfrədə əyləş, qoy toyunu təbrik edib, dağılaq. Məmməd üz-göznü turşudaraq qonağa dedi:

- Ayə, a qız gətirən, a gözdərin kor olsun, a mübarəkin qara gəlsin, qızı dəyişik gətirifsiniz.

Məclis iştirakçıları donuf qaldılar. Məmmədin bu ilk baxdına gülməkmi olardı. Qız gətirən oğlan Məmmədə ürək-dirək verib dedi:

- A Məmməd, kefini pozma, çirkin olanda nə olar, ağıllı olsun. Artıq iş işdən keçif, bu bizim günahımız döy, bu Səfxanın kələyidi. Canın sağ olsun bu məsələni də heç yanda açma.

Amma bu təzə gəlin çox ağıllı, qeyrətdi gəlin oldu. Məmmədin həmin qadınnan 4 oğlu və 2 qızı oldu. Mehriban ailə qurdular, mehriban da yaşadılar.

## LƏTİF QIZIL TAPIR

Onnar dörd qardaşıydılar, içlərində Lətif bir qədər biveciydi. O, əsgərriyini də qurtarmışdı. Evdə heş kəs Lətifi hörmətdi tutmurdu. Ata-anası ölmüşdü. Böyük qardaşı Vəlinin yanında qalırdı. Evdə heş kəs Lətifin öyləmməsinnən söhbət salmırdı. Ona hər işi gördürürdülər. Nə başınızı ağrıdım evin pütün ağır işini Lətif görürdü...

O, bir gün qoyun otarmağa getmişdi. Qoyunnarı otarıb günorta vaxtı bir düzgaha yığmışdı. Günorta vaxtıydı, qoyunnar yatışır. Lətif də iri bir daşın dibində oturuf, torvasını çıxarıf azuqəsini qavağına qouf yeyirdi. Yeməyini qurtardı, əlindəki ağacla daşın divini qurtdalayırdı. Torpax yumşax olduğu üçün hasand qazılırdı. Belə olanda Lətif həvəsə gəlib daşın divini hər tərəfli qazıb daşı çıxarıf təpəsi üsdə dığırradı. Daşın yerini genə ağacınnan qurtdalamağa başdadı. Birdən



ağac nəyəsə dəydi. Lətif buranı gen qazmağa başdadı. Elə bu zaman qızıl küpəsi çıxdı. O, nə edəcəyini bilmədi, gözdərinə inanmadı, tez-tez küpənin içindəki qızılları əli ilə qarışdırır, onlardan bir neçəsini əlinə alıb, atıb-tuturdu. Qazdığı torpağı küpənin üzərinə eliyf daşı manşırrıyıf qoyunnarı otlağa yaydı. Başı bə'zən gicəllənir, bə'zən də bədəni əsirdi. Civinə qoyduğu dörd-beş dənə qızıl pullar onu rahat qoymurdu. Xəyalında min cür arzular keçirdi. Axşamın düşməsinə, qoyunnarın kəndə aparılmasına Lətif nə qədər tələsirdi. Nəhayət, vaxt gəlif çatdı. Qoyunnarı kəndə tərəf qovdu. Qoyunnarı sahiblərinə paylayıb öylərinə gəldi. Çoxbilmiş yengəsi Nazdı Lətifi sevərək onu xörəyə də'vət etdi. Xörəyini yeyən zaman yengəsi ona yalvarır, dilə tuturdu. Elə bil ki, Nazdı onun qızıl tapbasını bilirmiş, ona elə şirin dil tökürdükün, Lətfin lap ürəyin alırdı. Nazdı tez-tez "a mənim qızılım", "a mənim gümüşüm", "a mənim evim-eşiyim Lətif", "Gör yengən sənə nə qız alajam, a mənim qızıl Lətifim" Nazdı Lətifin çöhrəsindənki şaddığı, sifətindəki allığı görüb nə isə baş verməsini elə bil kin, bilirdi. Xörəyini yenicə yeyib qurtarmışdı kın, Nazdı dedi:

- A Lətif, bu gün sən mənə yaman doğma əziz görünürsən, heç özüm də bilmirəm nədəndi. Gəlsənə bir iki yüz qram konyak içəsən? Lətif razılıq verdi.

Nazdı cəld o biri otağa keçif yağ, bal, konyak şüşəsi gətirdi. Bakala konyak süzüf, qarşısına qoydu. Lətif konyakı içib, daha da şaddandı. Üzünü Nazdıya tutuf, dedi:

- Ay yengə, sən nədən bilirsən ki, qızıl tapmışam, mənə nə yaman hörmət edirsən? Nazdı naz-qəmzəsini işə salıf, Lətifə yaxınnaşdı. Onu qucaxlayıb, marça-marçla öppəyə başladı. A Lətif, mən səni həmişə çox isdəyirəm, sən mənim əziz qaynımsan, belə qızılımsan, qızılım. Şirindil Lətifi lap dəli-divanə etmişdi, nə etdiyini bilmirdi, özündən asılı olmayarax cibindəkini genə də əlində oynatmağa başdadı.

Nazdı az aşın duzu döydü. O, hər şeyi bilirdi, çox qızıllar görmüş, saxlamış, xarşdamışdı. Lətifin əlindəki qızılları Nazdı dərhal tanıdı. A Lətif, a sana qurban olum, bu əlindəki qara pullar nədi, deyif, pulları əlinnən alıf ona yenə konyak süzdü. Lətif daha da keflənmişdi, tez-tez deyirdi: "Ev alajam", "Maşın alajam", "öylənəjəm". Nazdı özündə olmuyan Lətifi soyunduruf yerinə uzandırdı. Pencəyində olan qızılları da alıf saxladı. Lətif səhər qalxıf cibindəki qızılların yerində beş dənə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üsdündə beş rəqəmi olan qara pullar gördü. İsdədi nəsə desin, amba Nazdı ona majal vermədi:

- A Lətif, sana qurvan olum, get əl-üzünü yu, axşam da bir şey yemədin, gəl xörək ye.

Lətif süfrədə nələr görmədi, şıxan balıx soyutması, toyux qızartması, yenə də konyak. Nazdı bakallara konyak süzüb birini özünün, birini də onun qarşısına qoyuf dedi:

- Ay mənim qızıl Lətifim, bunnarı sənin sağlığına içirəm. Sən də iç. Qadan alım iç. O, bakalı başına çəkif toyux ətinin qızartmasını bir-bir dişinə çəkdi. Yemək bitməmiş, Lətif yengəsi Nazdıya dedi:

- Ay yengə, bu evi mənə satsanız.

Nazdı onsuz da hər şeyi bilirdi, özünü bilməməzliyə vuruf dedi:

- A Lətif, evi nəynən alırsan, arvad almamış evmi alırsan?

- Ay yengə, hər şeyə pulum var.Sən məni desən, hər şeyimiz olajax.

- A Lətif, sən isdəsən o da olajax, ev də sənindi, pütün mal-dövlət də səninidi. İndi Lətif Nazdıya tamam inanmışdı. İki günnük Lətifə etdiyi qayğıkeşliyin nəticəsi qızılları yengəsi Nazdıya verməsi ilə yekunnaşdı. İlanı yuvasınnan çıxaran Nazdı qızılların əvəzinə köhnə evlərini də ona "bağışladı". Bir qız da alıf Lətifi yola saldı. Tafdı amba yeyə bilmədi. Nazdı şeytan dilini işə salıf beləcə başa çatdırdı. Ancax deyillər kin, qızılı olan qızılı xarşdıya bilmir. Bu qızıllar Nazdıya da xeyir gətirmədi, əri öldü. Nazdı da bu ağır itkilərə dözəmmiyif özü də pis vəziyyətə düşərək, həyatla vidalaşdı.

## OĞRUNUN KƏRAMƏTİ

Qara Əhməd bir neçə günüydü kün, yaman vurnuxurdu. Əlinə bir şey keşmirdi. Əşşi, yaxınnarı dənniyif qurtarmışdı. Əlinə nə keçəsi idi kin. Oydu kun ağzını Qazax tərəfə tutmalı olur. Məxsədi də at gətirməymiş. Gəlif kəndə çıxıf, gedib kəndin ujqarında bir evə qonax olmax isdiyir. Bu evin kişisi olmur. Bir qadın Qara Əhmədə deer kin, ay qardaş, qonax Allah qonağıdı, amba evin kişisi yoxdu. Mən səni nejə qonax eliyə billəm? Qara Əhməd deerkin, ay bajı, mən də sənə simsar, bir gejəliyinə pünhannanıf gedəjəm. Mənnən qısqanma, qərif adamam, neyləyəsiyəm kin, xülasə, qadın ırazılaşır. Qara Əhməd qarannıx tüşən kimi kəndin ətrafını gəzif dolanıf, hörükdə attarı vələ-



diyif genə həmin evə qayıdır. Gəlin otağda bir qazan asmışdı. Sən deməynənmiş, qazanda heş şey yoxuymuş, uşaxlar da tez-tez qıtnaşarax deellərmiş:

- Ay ana, bə pişmədimi, bə nə vaxd bişəjək?

- İndi bişəjək. Bir az da səbr edin, deyə uşaxlar, yubandırırdı.

Qara Əhməd görür kün, qadın qazanın ağzını açmır, o elə başa düşür kün, buna görə qazanı açmır, Qara Əhməd ayağa qalxıf qadına deer:

- Ay bajı, görürəm mənə qısqanırsan, mən çıxıf gedirəm, sən Allah uşaxların yeməyini ver yesinnər.

Qadın deer kin, a qardaş qazanda heş şey yoxdu, sən narahat olma.

Qara Əhməd işi başa düşüf evdən çıxır. Kəndin ətrafında günüzdən bələdlədiyi qoyun yatağından bir erkək gətirif, bu qadının öyündə kəsir, ətinnən qazana dolduruf, bişirif, uşaxlara yedizdirir. Gejənin bir vaxdında Qara Əhməd gedəsi olur. Qadın deer kin, a qardaş ətinin qalanını da apar. Qara Əhməd deer kin, a bajı, mən əti uşaxlara gətirmişəm, amba məni nə görmüfsən, nə mən bura gəlmişəm...

Qara Əhməd qadınnan vidalaşıf kəndi tərk edir. Amba Qara Əhməd Qaraqoyunnuya adsız qayıtmadı, Qara Əhməd belə səxavətti oğruymuş...

## GÖRERƏM, A FƏRZALI

Qaraqoyunnu dərəsində Fərzalı adında məşhur bir oğru varıymış. Aran adamları dağa çıxanda qoyunnarını həmişə Fərzalıdan qoruyallarmış. Onnar Fərzalını görsə də, görməsə də öz–özlərinə ucadan dəəllərmiş:

- Görerəm, a Fərzalı. Bir gün sürünün baş çobanı Fərzalıynan qarşılaşır.

Çovan Fərzalıya deer kin, sən mənim sürümnən qoyun aparammazsan. Fərzalı deer kin, bəlkə apardım, onda nejə olsun. Çovan deer:

- Apardığın halalın olsun.

Fərzalı gejə ağıla yığılmış qoyunnardan aparmağa gəlir. Sürünün baş çovanı deerkin, ay çovannar, Fərzalının bizim sürüdən qoyun aparmasına imkan vermiyək, o, mənnən şərt bağlıyıfkın, mən sizin qoyunnardan qoyun apararam. Bu vaxt baş çovan çovannarı sürünün kənarlarna düzür. Baş çovan ojaxda xörək pişirirdi. Çovannardan biri deer:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ə pişmədimi, acınnan ölmədikmi?
Baş çovan deer:
- Ə gətirərəm.
Elə bu zaman Fərzalı yanında olan pişmiş əti-çörəyi çovanın qavağına qoyuf deer:
- Ye, doğurdan da səni ajdırdım.
Çovan yeməyə məşğul olarkən Fərzalı sürüdən cəld bir baş qoyun aparıf aradan çıxır. Çovan bir xeyli yemişdikin, baş çovan çovana təzə yemək gətirir. Keşikdə duran çovan deer:
- Ayə, a qardaş, yeməyi indijənə gətirməmişdinmi, bu nə yeməkdi? Baş çovan qışqıraraq deer:
- Ayə, qoyma, Fərzalı qoyunu apardı.
Fərzalı isə işini görüf qurtarmışdı.
Qoyunnarını yığdığı arxacın ortasında olan nəhəng palıd ağacının günüzdən başına çıxıf gizlənir. Çovannar qoyunnarı otarıf günorta vaxdında gətirif haman ağacın divinə yığıllar. Gedif ojağın yanında xörəklərini yeyif dincəlillər. Amma tez-tez deellər:
- Görörəm, a Fərzalı, görörəm.
Fərzalı ağacın başında bunnara nəzər salırdı. Gördükün, xörəklərini yeyif uzandılar. Fürsəti əldən verməyən Fərzalı yenə ağacdan düşüf bir erkək apardı.
Fərzalı bu gejə də haman sürüdən qoyun aparmağa gəlmişdi. O, mütləq əliboş qayıtmamalıydı. Bir də fikirrəşdikin, özünü uznuna eşşəyin belinə bağlıyıf sürüyə girmək lazımdı. Belə də edir. Eşşək Fərzalını düz ojağa, çovannarın yanına aparıf çıxarır. Cavannardan biri çomaxnan eşşəyi vuruf, qoyunnarın içinə qovur. Fərzalı hər əlində bir qoyun tutuf oradan uzaxlaşır. Beləliknən Fərzalı bu sürüdən beş baş qoyun aparır. Bir gün Fərzalı eşşəyin minif həmən sürüyə qonax gəlir. Çovannar Fərzalıyı hörmətnən qarşılayıf ona qoyun kəsmək isdiyillər. Fərzalı qoymur, deer kin, mən bura iş üçün gəlmişəm. Çovannarın başçısı deer:
- Ay Fərzalı, nə məqsədin var de, sən əziz qonağımızsan.
Fərzalı deer:
- A qardaş, yadındamı, sən mənə dedin ki, bizim sürüdən neçə baş heyvan aparsan, halalın olsun. İndi deyin görüm, mən sizdən neçə qoyun aparmışam.
Çovannar dedilər kin, a Fərzalı qağa, o nə sözdü, sən dosd adamsan. Sən bizə sataşarsanmı?
Fərzalı çovannara bildirdi kin, zarafat öz yerində, mən sizdən düz beş qoyun aparmışam, gəlin gətirin, mənə haram lazım döy. Bir də yadınızda saxlıyın, eşşəyi gejə qarannıxda vuranda baxın görün belində nə var, nə yox. Çovannar mat-məətəl qalmışdılar, nə edəcəklərini bilmirdilər. Fərzalının dedikləri düz idi. Fərzalı belə Fərzalı idi...

## LOĞMAN QULU

Loğman Qulu Qaraqoyunnu dərəsində addı-sannı nəslə mənsub bir kişi idi. O, öz əkinçilik, maldarlıq işlərinnən yanaşı ara həkimliyi ilə də məşhurraşmışdı. Elə yara, azar, xəsdəlik olmazdıkın Qulu kişi onun dərdini-dərmanını bilməsin. Qaraqoyunnunun dağlarında, güney və quzeylərində min bir dərdin dərmanı olan bitkilərdən hazırradığı yüzlərcən dərmanlarla Qulu kişi adamları müalicə edirdi. Onun yanına xəstə gələnnər sağ qayıdardılar. Belə işinə görə hamı ona Loğman Qulu deyərdi.
Qazağın Qıraq Kəsəmənni kəndinnən olan Qaçaq Kərəm Qaraqoyunnu dərəsindəki bütün kəndlərə, oradan da Göyçə mahalına getmiş, uzun müddət bu yerlərdə qalmışdı. İstər Qaraqoyunnu dərəsinin adamları, istərsə də Göyçə elinin camaatı Qaçaq Kərəmə böyük hörmət edir, onu qoruyur, hökumət adamlarınnan saxlayırdılar. Qaçaq Kərəmin Qaraqoyunnu dərəsində olmasınnan xəbər tutan divan adamları xeyli qoşunnan Qaraqoyunnu dərəsinin kənddərini mühasirəyə alıllar. Qəza rəisi Qançeli hökumət əsgərrərinə bələdçilik edirdi. Tiflisdən gələn qoşuna Çavçavadze başçılıq edirdi. Kərəm Əmirxeyir kəndinin yaxınlığında olan "Kərəm qayası"nda yer tutmuşdu.
Çavçavadzenin qoşunu Soyuqbulaqdan "Kərəm qayası"na tərəf yeriyirdi. Çavçavadze itini tumarlaya-tumarlaya meşədən aşağı enirdi. Kərəm iti nişan alıb vurdu. Çavçavadze əzizi ölmüş kimi iti qucaqlayıb hönkürdü.
- Tutun, atın, buraxmam-deyib güllə atılan tərəfə güllə yağdırdılar.
Kərəm və onun yoldaşları zağada gizlənmişdilər. Divan adamlarının atdığı güllələrdən Pirvəli yaralanmışdı. Kərəm məsləhət görür kün, qoşun çox, biz azıq, aradan çıxmaq lazımdı. Bu zaman Kərəmin dəstəsi dumanın gəlməsinnən istifadə edib aradan çıxıllar. Conra Əmirxeyir kəndinə gəlir, burada Namazalı kişi Pirvəlini Loğman Qu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lunun yanına gətirir. Loğman Qulu Pirvəlini özünün dəyərri dərmanları ilə sağaldır.

Pirvəli sağaldı getdi. Ancaq Loğman Qulu cəzaya möhtac oldu. Onu Kərəmin adamının yarasını sağaltdığı üçün divan adamları sürgün etdirdi. Loğman Qulu ikinci il idi ki, sürgündə idi. Bir gün belə bir hadisə ilə qarşılaşdı Loğman Qulu. Bir gün gözəl bir qız uşağı küçədən keçəndə Qulu kişinin diqqətini cəlb etdi. Çox gözəl qamətə malik olan, öz gözəlliyi ilə qəlbi oxşayan bu qız omadan axsayırdı. Loğman Qulu bu gözəl, göyçək, yaraşıqlı qıza canı yandı. Maraqlandıkın, görəsən bu kimin qızıdı. Öyrəndi ki, bu qız sürgündə olannarın böyüyünün qızıdı. Loğman Qulu yoldaşlarına bildirdi kin, başçıya çatdırın ki, onun qızını bu bəladan mən qurtararam. Növbəti günnərin birində Loğman Quluya çatdırdılar kın, başçı səni hüzuruna çağırır. Xəbəri eşidən kimi başçının hüzurunda hazır oldu.

Başçı birbaşa mətləbə keşdi:

- Qulu kişi, eşitmişəm, sizin həkimliyiniz də var. Mənim qızıma köməklik edə bilərsinizmi?

Qulu kişi başçını dinləyib ahəstəcə dedi:

- Hörmətli başçımız, hər bir insan öz bacarığını heç kəsdən əsirgəməməlidi. Mən sizin qızınızı küçədən keçəndə görmüşəm. Əgər mən görən qızsa, onu mütləq sağaldar, axsaqlıqdan qurtararam.

Əlqərəz, Loğman Qulu qızı müalicə etməyə başdadı. Qoyun quyruğunu qızın omalarına yaxdı. Bu iş bir ay davam etdi. Sonra bir camışı içəridə bir neçə gün yedizdirdi, ancaq su vermədi. Vaxt tamam olanda Loğman Qulu qızı camışın belinə mindirib ayaqlarını camışın qarnının altına çatdı. İş tamam olannan sonra camışı suya buraxdı. Neçə gün idi ki, su içməyən camış sudan doymaq bilmirdi, su içdikcə qarnı şişir qızın çatılmış qıçları genişlənirdi. Axırda qızın omalarından bir şaqqıltı eşidildi. Loğman Qulu qızı camışın üstünnən açıb yatağına apardı. Beləliknən Loğman Qulu iki aya qızı sağaltdı. Başçı onun bu xeyirxah işinnən çox razı qaldı. Onu sürgünnükdən azad edib öz yerrərinə yola saldı. Bu hadisədən sonra Loğman Qulunun hörməti daha da artdı.

## QANDAL NAĞIYNAN HACI SAXAN

Qaraqoyunnu dərəsi Qazax, Ağstafa, Tovuz elləri ilə Göyçə mahalı arasında böyük dostluq mənbəyi olub. Çar hökumətinin və



yerli xan-bəylərin ədalətsiz rəftarları və yerli əhaliyə etdikləri zülmə dözməyənlər həm Qazax-Tovuz mahalınnan, həm də Göyçə mahalınnan burda çoxlu qaçaqlar pənahlanıblar. Bütün Qafqazda məşhur olan Qaçaq Kərəmin Qaraqoyunnu dərəsinin kənddərində səmimi, e'tibarlı dostdarı olmuşdu. Qaçaqların bu regiona axını XIX əsirin ikinci yarısında daha da genişlənmişdi. Qandal Nağı, Qaçaq Tanrıverdi, Dövlətxan, Topal Rza belə qaçaqlardan olub. Onları bütün el saxlayıf, heş kəs dövlət mə'murlarına satmayıf. Qaçaqlar da yerli camaata dəyif toxunmuyuflar. Onlardan biri də Qandal Nağı oluf. Qandal Nağı Murğuz dağının beşikkeçməz qayalarında, dərə və zirvələrində özünə məskən salıf, öz adamlarınnan gah aşıf Tovuz-Gədəbəy meşələrində, gah da Qaraqoyunnu meşələrində dolanarmış. Amma deyilənə görə külfəti və ailəsi Murğuz dağının ətəyində gözəl mənzərəli bir talada Hacı Saxan addı bir varrı-karrı adamın yurd yerində yerləşifbiş. Qandal Nağının qamətli, çəpərsiz bir qadını varmış. Hacı Saxanın bu yurdda sürülərlə qoyunnarı, mal naxırrarı, camış gallahı varıymış. Hacı Saxan dövlət mə'murlarına vergi verirmiş. Bu səxavətinə görə dövlət tərəfinnən ona dəyib-dolaşan olmazmış. Bu səbəbə görə Qandal Nağı öz külfətini-ailəsini e'tibar edib Hacı Saxanın binəsində yerləşdirmişdi. Qandal Nağı bə'zən aylarla bu səmtlərdə olmazdı. Bir gün bir hadisə baş verir. Qandal Nağının arvadı bulaxdan su apararkən, Hacı Saxan onun arxasınca belə bir söz deyir:

- Buna bax buna, gör bu dalın sahibi də qaçax düşərmi?

Qadın bu sözü eşidir, amma eşitməzliyə vuruf heş nə demir. Alaçığa çatanda ağlamaq onu tutur. Qaynanası soruşur kun, a bala, bu səhər tezdən nə oldu sənə. Gəlin deyir:

- Ay ana, Nağı gələndə dəəjəm. Heş nə olmuyuf. Nağı yadıma tüşdü, görən başına nə iş gəldi, niyə gəlif çıxmadı.

Qaynanası gəlinə ürək-dirək verdisə də, öz ürəyində fikirrəşdi kin, yox burada bir əmmamə var.

Bu gəlin arvadı rahat buraxmırdı. Arvad gejə-gündüz eləjə bu fikirnən əlləşirdi.

Xülasə, Qandal Nağı bir yay günü gəlif çıxdı. Nağı hamıdan əvvəl anasıynan görüşüf, öpüşüf rahatlandı. Nağı nə qadınının, nə də anasının baxışınnan almadı. Əvvəlcə anasınnan soruşurdukun, ay ana, niyə belə bikefsən, sizlərdə nəsə var. Qadınnarın hər ikisi Nağıyı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

arxayın saldılar kın, narahat olma. Səhər açılanda gəlin o biri alaçıxdan qaynanasını Nağının yanına çağırdı. Gəlin dedi:

- Ay Nağı, daha mən burada qala bilmərəm. Sənin qadının olmuşam. Qoy innən sonra qohum olaq, tanış olaq, məni boşa çıxım gedim, biabırçılığa dözə bilmərəm.

Nağı soruşdu kun, nədi, nə iş baş verif, niyə belə deyirsən. Ana özözünə dedi:

- Aha, indi gəlin kələfi açajax.

- Ay Nağı, o sənnən keçirdiyim mehriban günlər haqqı, namusqeyrət üçün isti yorğan döşəyə, el-obaya həsrət qalan o əziz başın haqqı sənin e'tibar etdiyin, ümid bağladığın Hacı Saxan o gün mən bulaxdan gələndə ardımca belə söz dedi:

- Buna bax, buna, gör bu dalın sahibi də qaçaqlıq edərmi?

Gəlinin sözünü eşidən Nağı səbr və təmkinnən soruşdu:

- Yoxsa, nanəcif sənə sataşdı, sənə söz atdı. Düzü nə var onu mənə de. Sən bilirsən ki, bu iş varsa, olubsa qannan qurtarajax.

- Ay Nağı, ananın südünə and olsun kun, bu sözdən başqa mənə heş bir namussuz hərəkət edilməyib. Həmən günü ağlaya-ağlaya evə gəlmişəm, anam nə qədər soruşuf deməmişəm. Heç yanda, heş kəs bu sözü eşitmiyif, indi ilk olaraq sənə deyirəm.

Qandal Nağı gəlini və anasını diqqətlə dinlədikdən və dönə-dönə sözü öntərif həll edənnən sonra anasına dedi:

- Ana, doğrudan da, bizim daha burada yaşamağımıza dəyməz, mən uşaxları çağırım yüngül barxana ilə çıxıf gedək. Mən bilərəm, Hacı Saxan bilər. Bir Hacı Saxannan ötrü sizi bada verməərəm.

Köç yola düşdü, Qandal Nağı anasını və qadınını yerləşdirənnən sonra bir səhər tezdən Hacı Saxanın alaçığının qarşısında atından enif onu səslədi. Hacı Saxan alaçıxdan çıxıf Nağını səmimi qarşıladı, ona əl uzadıb salam vermək istədi.

- Mənə sənin kimi nanəcivin salamı gərək deyil, ay şərəfsiz, hesaflaşmağa gəlmişəm. De, görək səni nə vadar etdi ki, mənim arvadımın dalını ölçdün. Budurmu sənin e'tibarın, dost ilqarın.

- Ay Nağı, ara vuran sözünə baxma, belə məsələ olmayıb.

- Denən o getdiyin Həcc haqqı belə söz olmayıb.

Hacı Saxanın gözləri döyükdü, kəkələyə-kəkələyə:

- Əşi, burda nə böyük söz var kın, mən Həccə and içim, ayıf deyilmi?



Qandal Nağı Hacı Saxanın sifətinin allandığını görüf əlini tapançasına atdığı ilə Hacı Saxanın ağzına dirədiyi bir oldu. Aç ağzını, bax bu ağızlamı dedin o sözləri, deyib gülləni Hacı Saxanın ağzına boşaltdı:

- Bax dosta xain çıxannarın aqibəti budu. İt də sürüyə xain çıxanda çovan onu gəbərdir. İndi sən ölmədin, gəbərdin, get o dünyadakı xanımların da dalını ölç, – deyib Qandal Nağı quş kimi Boz atın belinə sıçrayıf obadan uzaqlaşdı.

Hacı Saxanın Qandal Nağı tərəfinnən güllələnməsi bütün binəyə yayıldı. Elə buradaca dəfn etdilər. Həmən qəbir yenə də buradadı. Hər qəbrin yanınnan keçənnər deyillər:

- Dil başa bəladı, xəyanət isə barışılmazdı. Dostun xəyanətini ancaq ölüm ödəyə bilər.

## MƏHƏMMƏDİN KOXANI DÖYMƏSİ

Koxalıq dövrü idi. Qaraqoyunnu dərəsində bir əzazil koxa varıydı. Adamlara göz verif, işıx vermirdi. İstədiyini eliyirdi, əli qamçılı kənddərdə səlliminə gəzir, hər kənddə bir arvad alır, ulamçılıx eliyir, başına quldurrarı yığıf cövlan edirdi. Heş kəs ona bata bilmir, qavağınnan dinmirdi. Axı divan onun əlindəydi, onun qavağınnan dillənənnər gedər-gəlməzə gedillərdi. Elə buna görə də, heş kəs dimmirdi.

Çaykənddə Molla Süleyman oğlu Məhəmməd addı cavan, qoçaq, mərd bir oğlan varıydı,

Məhəmməd hələ öylənməmişdi. Əkinçiliknən, maldarrıxnan məşğul olan adamıydı. Evin böyüyü olduğuyçun bütün ağır işlər onun üzərinə düşürdü. Hamı onun sakitliyinnən, mərd və mübarizliyinnən razıydı. Məhəmmədin vayısçılıxnan, oğurrux və quldurruxnan işi olmazdı.

Kəndin koxası onu çağırıf qoçulara, quldurrara qoşuluf işi görməyi məsləhət görür, ama Məhəmməd boyun olmur. Koxaysa əl çəkmir kin, çəkmir. Bir gün koxa genə Məhəmmədi çağırdıf adamların yanında dannayır, onu məzəmmət eliyif der kin, ay Məhəmməd, mənim bir sözümü iki eliyən olmuyuf, sən niyə tərsdik eliyirsən.

Məhəmməd koxaya deer kin, a koxa, mənim öydə ağsaqqal molla atam var, öymüzdə ona baxan kimdi kin, mən ömrümü kənddərdə, çöllərdə keçirəm. Vallax imkanım yoxdu, mənnən incimə.

Bu görüş də belə keşdi, ama, Məhəmməd bilirdi kin, koxa onnan bir gün fürsət tapıf qarşılaşajax. Oydu kun, həməşə ayıx-sayıx gəzirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaz ayı idi, Şeşə Əhməd Məhəmmədi çağırıf dedi kin, səni koxa çağırır. Məhəmməd işi bilirdi, Şeşə Əhmədə dedi kin, ay Əhməd ikimiz də tay-tuşuq, koxanın məni nəyə çağırdığını bilirəm. Aramızda hörmət-izzətimiz var. Get deynən tapmadım, yuxumu da qarışdırmı-şam, məni orya apartma...

Şeşə Əhməd atının başını çevirif getdi. Məhəmmədi fikir götür-müşdü, əli işə varmadı, öküzü açıf buraxdı. Elə bu zaman başqa birisi gəlif Məhəmmədi çağırdı kın, koxa səni gözdüyür.

Məhəmməd koxalığa gəldi, koxa irəli yeriyif söydükdə palıd kötü-yü kimi cəsədi ayaqları altına yuvarrandı. Məhəmməd bir neçə təpik də vuruf üzünü oradakılara tutuf dedi:

- Xoşdurmu sizə, bu palıd kötüyü nə vaxta qədər başınıza olmazın oyunnarını açajax. Hə qoy indi də məni sürgün etdirsin, görüm sizin vəziyyətiniz yaxşılajaxmı.

Orada olan Müxdər İsmayıl oğlu dilləndi:

- Bir köpək oğlu Məhəmmədə əl qaldıra bilməz. Bizim namuslu balamızdı. Adamlar koxanı sakitləşdirdilər.

Məhəmmədi də Müxdər kişi aparıf getdi. Aradan bir neçə gün keçdi...

Bir gün Müxdər İsmayıl Oğlu Molla Süleymanın həyətində görün-dü. Müxdər İsmayıl oğlu məsləhət gördükün, ay Məhəmməd bu koxalara ehtivar etmək olmaz, mən sənin haqqında çox fikirrəşirəm.Bu mərdiməzarın başındakı qaçax-quldurrardan ağlım bir şey kəsmir. Sən bir-iki illiyinə kəndi tərk etməlisən. Biz buranı dolandırarıx, sən elə bu gejə çıxıf getməlisən...

Məhəmməd yaxın qohumumuz olan Müxdər İsmayıl oğlunun məsləhətiynən elə haman gejə kənddən çıxdı. İki il harda olmasınnan heş xavar-ətər olmadı. Kənd adamları sözü keçən, tanınan qohumları koxadan tələb etdilər kin, Məhəmmədi üzə çıxartmasan axırı yaxşı olmayajax. Koxa kənddə çox yüksək nüfuza malik olan Müxdər kişi-ni çağırıf dedi:

- Mən sənə kişi kimi söz verirəm kin, Məhəmmədnən işim olmu-yajax, get hər hardadısa Məhəmmədi tap gəti.

Müxdər kişi Məhəmmədi Gürcüstanın Qaraçöp addı bir mahalında tapdı. Onu kəndə qaytarmağa gəldiyini bildirdi. Bir neçə günnən sonra Məhəmmədin ikiillik zəhmətinə görə Xalıl kişi ona otuz qoyun, üç inək və bir at verif yola saldı. Kənd adamları Məhəmmədin kəndə



böyük mal-qara ilə gəldiyini görəndə dedilər:

- Məhəmməd qoçax oğlandı, harya getsə qazanc gətirər, qazanc onun başarığıdı.

Məhəmmədi koxa ilə barışdırdılar. Ömrünün sonuna kimi burada əkin-biçinnən məşğul oluf yaşadı.

## HACI MİRZƏYNƏN SƏMƏD VURĞUN

Hacı Mirzə Qaraqoyunnu dərəsində böyük nüfuza malik bir xey-riyyəçi idi. Hacı Mirzə Qaraqaya kəndində yaşayırdı. Öz xeyriyyəçi-liyi ilə hamının hörmətini qazanmışdı. Qaraqaya kəndinin illik vergi-sini özü verirdi. Hacı ona əl açannarı əliboş qaytarmazdı. Həm də çox savadlı, tədbirli, hər şeyin öhdəsinnən gələn bir şəxs idi. Qaraqo-yunnu dərəsində onun yanna gələnnərin sayı-hesavı yoxuydu. Bu gələnnərin müxtəlif məqsəddəri varıydı. Bütün dini bayramları, dini günnəri Hacıdan öyrənməyə gəlirdilər. Bə’ziləri heyvan xəstəliklərinin dərmanına, bə’ziləri də onun maraqlı söhbətlərinə gəlirdilər. Hər gələni Hacı Mirzə hörmətnən, izzətnən yola salardı.

1923-cü ilin baharı idi, bahar öz gözəlliyini bu yerrərə gətirmişdi. Səhər tezdən Hacı Mirzəni iki cavan oğlan həyətdə qarşıladı. Gənclər Hacıya ədəb-ərkanla salam verif, hal-əhval soruşdular. Hacı gələnnərə göz gəzdirif birini tanıdı: Ayə, sən Vəli Əfəndininmi oğlusan? - deyə oğlannardan birinə müraciət etdi.

- Bəli, ay bava, Əfəndilərdənəm, Nəsibəm.

- Çox yaxşı, bə bu arıx, süddən yanıx balamız kimdi?

- Ay bava, bu oğlan Qazaxdandı, Usuf ağanın oğlu Səməddi.

- A Nəsif, Allah irəhmət eləsin Usuf ağaya, yaxşı tanıyıram. Xeyir ola, onun oğlunun buralarda nəyi var?

- Ay bava, Səməd Vurğun bizim rayonlarda gənclər arasında komsomola cəlb etmək işi aparmağa gəlifdi.

- Bə, siz burya nə yaxşı təşrif buyurufsunuz?

- Ay bava, Səmədin sənə işi tüşüf?

- Əyə, a Nəsif, komsomolun mənə nə işi düşə bilər, buyurun görüm.

Bu zaman onnarı bayaqdan bəri dinləyən sakitcə söhbətə qulaq asan Səməd dilləndi.

- Ay bava, mən Göyçə kənddərinə getməliyəm, xayış edirəm kin,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atını bir neçə günnüyə verəsiniz.

- Ayə, a qadan alım, komsomola necə at verim, ehtivarım varmı?

- Ay bava, komsomola vermirsən, mənə verirsən, əvəzində bir yaxşı xalam var, onu sənə verəjəm.

- Ay bala, xalana bala dəysin, mənim xala-malaynan işim yoxdu. Ama burası var kın, qonaxsan hörmət lazımdı. Ancax komsomola ehtivar eliyif at verə bilmərəm.

İşə Nəsif Əfəndiyev də qarışdı. Hacıya söz verdilər kin, yüyəni sağ-salamat qaytaracağıq.

Xülasə, Hacı Mirzə uşaxları çağırıf tapşırır kın, a bala, yəhəri də, atı da Nəsivə ver, qoy bu xalası göyçəyə versin.

Səməd və Nəsif atı Hacı Mirzədən alıf kənddərə getdilər. Bir neçə gün Göyçə rayonunun kənddərini gəzib gənclərlə iş aparıf geri qayıtdılar. Xatalı kimi Hacının atının qantarğasını itirdilər, odu kin, Hacının üzünə çıxmağa utanırdılar. Hacı cavannarı yanna çağırıf dedi:

- Ayə, a xalası göyçək, mən deməddimmi kin, komsomola ehtivar etmək olmaz, qantarğanı neynədiniz?

Səməd irəli yeriyib qocanı qucaqladı, əllərini ağzına yaxınnaşdırıf öpüf dedi:

- Xalam sənə qurvan olsun, ay bava, pisliyi üzümüzə çəkmə, gələn dəfə sənin üçün bir yaxşı qantarğa gətirəjəm.

Hacı Mirzə Səmədin tellərini ovuclayaraq dedi:

- A bala, bu dayalandı, qantarğa sənə qurbandı, ama, cavansınız, yalan danışmaqdan qıraq gəzin. Komsomol yalan danışmamalıdı...

Səməd bir daha geri qayıtmadı. Hacı Mirzə kəndə gələndə Nəsifdən Səmədi soruşurdu. Nəsib Hacıya çatdırdı kın, ay bava, indi Səməd tanınmış şair oluf. Hacı Mirzə Nəsibə: – Olasıydı, a bala. O addısannı nəslə mənsub olub, həm də uşaq çox zirək idi. Görəndə məndən salam yetir.

## MOLLA NƏVİ

Molla Nəvi Qaraqoyunnu dərəsində tanınmış kişilərdən biri olub. O, Qaraqoyunnu dərəsinin Haqqıxlı (Vurğun) kəndində yaşamışdı. Molla Nəvinin mənsub olduğu tayfanın çox qədim tarixi var. Bu tayfanın kökü Türkiyədən gəlir. Feodal müharibələri dövrü talanın və işğalın zülmündən azad olmaq üçün adamlar pərən-pərən olmuş, hərə



bir səmtə düşmüşdür.

Molla Nəvi Haqqıxlı kəndinin Dilican Qazax şose yolunun hər iki tərəfində Cələ adlı yerdə özünə məskən salmışdı. Cələdə Molla Nəvinin yaşayış evindən başqa bir dükanı, bir draxdını (yeməkxanası) və bir dəyirmanı olmuşdu. Bunun hər üçü təkcə Haqqıxlı kəndinin sakinlərinə deyil, Qaraqoyunnu camaatına yolnan gedib-gələnnərə xidmət edirdi.

Molla Nəvi dövrünün oxumuş adamıydı, o, həm də mükəmməl ruhani təhsili almış şəxs idi. Molla Nəbi dövrünün hərtərəfli biliyə, bacarığa malik bir el ağsaqqalı olmuşdu. Bütün sahələrdə peşəkar, işgüzar, qonaqpərvər, bacarıqlı təsərrüfat adamı kimi tanınmışdı. Həqiqi molla olmuşdu. Onun şarlatannıxnan, riyakar və fırılaqçılıqnan işi olmamışdır.

O əsil Allah adamı, həqiqi İslam dininin paklığına inanan bir ruhani olmuşdu. Bütün işlərində Allahın doğru yoluna xidmət etmişdi. XX yüzilliyin əvvəllərində - ictimai quruluşun zəifliyi və mürəkkəb bir dövründə də Molla Nəvini müntəzəm olaraq öz xalqının taleyi düşündürmüşdü. O, həm mollalığında, həm tacirliyində, həm dəyirmançılığında, həm də draxdın qulluğunda həmişə bütün yenilikləri, vacib hadisələri xalqına çatdırır, mürəkkəb hadisələri təmkinlə dəf etməyi öyrədirdi. Onun bu xeyirxahlığının nəticəsi idi ki, o dövrün məşhur qaçaqları da Molla Nəvinin draxdınına, dəyirmana pənah gətirir, aylarla burada gəzib dolanırdılar. XX yüzilliyin əvvəllərində Çar hökumətinin qatı millətçilik və müstəmləkəçilik siyasəti dövründə Molla Nəvinin saydığımız bu lazımlı sahələri xalqın dayağı, köməyi olmuşdur. Onun draxdınına kimlər yığılmırdı. Zəmanəsinin qabaqcıl fikirri adamları, çar hökumətinin zülmkar, müstəmləkə və millətçi siyasətinin əleyhinə tabe olmayıb, inad göstərən qaçaqlar, məşhur din xadimləri Molla Nəvinin qonaxları olmuşlar. Molla Nəvi həssas, dərin düşüncəli, ağıllı bir şəxsiyyət idi: o hər adamın yanında siyasətbazlıq edib, dövlət əleyhinə söz açmazdı. Dindarlar onu mö'min bir dindar kimi, azadlıq hərəkatının iştirakçıları mübariz bir şəxs kimi , millətpərəstlər bir millət vəkili kimi, ermənilər isə ermənilərin yaxın dostu kimi tanıyırdılar. Bütün bu hərtərəfli fəaliyyətində onun köməyinə, kütlələr arasında artan nüfuzuna xeyirxahlığı səbəb olmuşdu...

1919-cu ilin bahar fəsli Qaraqoyunnu dərəsinə bir bahar təravəti



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yox, bir qara güruh havası gətirmişdi. Kəndlərdə gedən dedi-qodular günü-gündən genişlənirdi. Hər yerdə söhbət erməni xəyanətinnən gedirdi. İndi Molla Nəvinin yeməkxanasında ən çox iştirak edənnər ermənilər və rus yasovullarıydı. Molla Nəvi bu izləmələri, ermənilərin bə’zən zarafata salıf danışdıqları bu milli zəmindəki söhbətləri azərbaycanlılara çatdırırdı. İndi burada həm daşnaklar, həm də bolşeviklər fəaliyyət göstərirdi. Karvansara (indiki İcevan) daşnakların yuvasına çevrilmişdi. Molla Nəvi çox gərgin bir vəziyyətdə qalmışdı. O, öz həmkəndlilərinə çatdırdı ki, daha mənim yanıma heç kəs gəlməsin, çalışın özünüzü Qaraqoyunnu kəndlərinə çatdırın, siz burada təksiniz, sizi qıracaqlar. İndi həm bolşeviklər, həm də daşnaklar milli qırğın təşkil etməyin tərəfdarlarıydılar. Bolşeviklərin də, daşnakların da əsas icraçıları ermənilər idi. Ermənilərin əlinə əlverişli fürsət düşmüşdü. Nə hesaba olur-olsun, Haqqıxlı azərilərini qırmaq lazımdır. Bolşevikləri inandırmışdılar ki, Haqqıxlı türkləri (azərbaycanlıları) azadlığın əleyhinə iş aparır, regionda olan türklərlə əlaqə saxlayır; Daşnakları inandırmışdılar ki, Haqqıxlı türkləri bolşeviklərin tərəfdarıdır. Belə mürəkkəb şəraitdə Molla Nəvi camaatına çatdırdı ki, ayıq olun, çəkiyə getmən, heç kəsə ümidli olub sir açmayın...

1919-cu ilin mart ayı idi. Hava qarannıq və dumanlı idi. Molla Nəvi dükanda təkiydi. Bir azdan buraya bir neçə silahlı atlı gəldi. Molla Nəviyə çatdırdılar ki, on nəfərrik xörək hazırlasın, komandirlərimiz qonağınız olacaq. Atlılardan üç nəfəri Haqqıxlıya getdi, üç nəfəri isə burada qaldı...

Aradan bir neçə saat keçmiş Karvansara tərəfdən beş-on silahlı atlı dəstəsi gəldi. Onlar birbaşa Molla Nəvinin dükanının həyətində atdan endilər. Atlıların başçısı:

- Qoca, bizə nə qonaqlıq verəcən? Molla Nəvi:

- Cənab komandir, hər nə istəsəniz hazırdı, byurun əyləşin.

Atlıların başçısı gələnnərə işarə edib içəri keçmələrini buyurdu. Molla Nəvi silahlı dəstəyə xidmət göstərməyə başladı: Əvvəlcə kababdan başlayaq, yoxsa bozartmadan, yoldaş komandir,-deyə başçıya müraciət etdi.

- Ha, ela sizin kabablarınız da, bozartmanız da dadlı olur. Kabab gətirt, görək qocanın kababı nə dader,- deyə nəçənnik böyük bir əda ilə boğuq səslə Molla Nəviyə cavaf verdi.

Molla Nəvi atlılara basdırma kababı verdi, sonra erkək ətinin



ləzzətli bozartmasını mis qablara çəkərək süfrəyə düzdü. Atlıların başçısı razılığını bildirdi və üsdəlik dedi kin, ha qoca, biz ela Dilcan gedir, axşam qaydacağıq. Axşama da yaxşı xörək hazırlayarsan, gələndə heyvanı verərik.

Atlılar Dilicana tərəf yola düşdülər. Molla Nəvini fikir götürmüşdü, bədəni tir-tir əsirdi; bunnarın belə gəlişinnən yaman üşürgələmmişdi, nəsə sümüyünə sancmışdı.

Molla Nəvi belə xəyaldaykən Dilicana tərəf gedən atlılardan ikisi geri qayıtdı. Atlıdan biri atın üstündə:

- Qoca, eşitmişik sənin bir yaxşı atın var, onu naçalnik istəyir, - deyə Molla Nəviyə əmr etdi. Molla Nəvi:

- At odur, çayın o tərfində hörükdədir, gedin aparın. Atlılar Molla Nəvi göstərdiyi səmtə tərəf boylandılar. Yox, biz ora gedə bilmərik, get özün gətir. Molla Nəvinin dizləri tutulmuşdu, nə edəcəyini bilmirdi. Bu zaman açılan güllə onu yerə sərdi.

Həmən gün Haqqıxlı kəndində qalannarı yığıncaq adıynan bir dama toplayıf hər tərəfdən neft töküf od verdilər, üsdəlik daxmaya ardıcıl olaraq bomba ataraq onnarı məhv etdilər. Ermənilər "axber, dosd, dosd" deyib Haqqıxlı azərbaycanlılarını beləcə qətlə yetirdilər.

## MOLLA SÜLEYMANIN QƏTLİ

Molla Nəvinin qətlə yetirilməsi və Haqqıxlı camaatının tövləyə doldurulub, od verilif məhv edilməsi ildırım sür’ətilə bütün Qaraqoyunnu dərəsinə yayıldı. Daha bu vəhşilikdən sonra Qaraqoyunnu dərəsində hərtərəfdə ermənilərlə əhatədə olan tərzdə yaşamaq mümkün deyildi. Koxa Mehralı Hasanxanoğlu hər tərəfə əli silahlı keşikçilər düzdü. Özü də Çayqarışan tərəfə at sürüf xavar gətirdi kin, Karvansara yolu bağlı və qorxuludur, camaat yalnız Çəmbərək-Topaşan səmtinnən Azərbaycan torpağına keçə bilər.

Əmr verildi, atlı at yükü ilə, arabası olan araba ilə yüklənif Əmirxeyir - Tazıuçan yolu ilə karvana düzüldülər. Bütün kəndlər yalnız bu yol ilə getməyə başladı...

Molla Süleyman əslən Haqqıxlı idi, o, 1905-ci il hadisəsi zamaı Çaykənd kəndinə düşmüşdü. Onun burada nə qardaşı, nə əmisi, nə də heç bir yaxın qohumu yoxuydu. Haqqıxlı hadisəsi onu rahat buraxmırdı. Tazıuçanda hər tərəfi uca dağla əhatə olunmuş bu dərə arxacda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

karvan gecələməli oldu. Molla Süleyman adamları yuxuya verif geri qayıtdı. O, öz-özünə deyinirdi:

- Yaxşı, mənim doğmalarım Haqqıxlıda qalıf, mən harya, kimin yanna gedirəm?

Kişi bu fikirlə bütün gecəni meşə yolu ilə Çaykəndə gəldi. O, kəndin ucqarında bir palıd ağacının divində əyləşib kəndə tamaşa etdi. Kənddə yaşayış yoxuydu, evlərdən tüstü gəlmirdi, kəndin arasında tək-tək əli silahlı adamlar görünürdü. Molla Süleyman yorulmuşdu. Fikirrəşdi kin, özümü yaxınnıxdakı evə salım, orada dincəlim, qarannıx basanda Haqqıxlıya gedərəm. Kişi sinə-sinə özünü yaxınnıxda olan evə saldı. Kişinin bu gedişi kəndin mərkəzində olan gözətçilərin nəzərinnən yayınmadı. Oradakılardan bir nəfəri həmin yerə göndərdilər. Gələn adam əli silahlı Molla Süleymanı qavağına salıf kəndin ortasında yerrəşən ştaba apardı. Oradakılar qəh-qəhə çəkif Molla Süleymanı məsxərəyə qoydular. Sonra çayın kənarındakı uca bir yerə aparıf orada güllələdilər.

## HASANXANIN VURULMASI

Mehralı keşikçilərə tafşırmışdı kin, karvan Toxlucaya çatanda sizə işarə verəjəm cəbhəni buraxıf gələrsiniz. Dilicanda yerrəşən daşnak Andranikin qoşunu iki istiqamətdən Qaraqoyunnu dərəsinə hücum etməliydi: birinci hücum şose yolu ilə - buraya həm də topla gəlirdilər. İkinci istiqamətdən isə Polad kəndinin şərqinnən meşə ilə gəlməli idilər. Hər iki tərəfdə möhkəm keşikçilər dayanmışdılar. Şose yolu ilə irəliləyən ermənilərə pusquda durannar "urra" çəkərək güllə yağdırdılar. Ermənilər topu qoyuf qaşdılar. Keşikçilər daşla topu sındırır, lüləsinə daş doldurur və onu yararsız hala salıllar.

Bu istiqamətdən edilən hücumun qarşısı alınır, ermənilər itgi verərək geri çəkilillər, ancaq azərbaycanlı keşikçilər itgi vermillər. Bu döyüşdə Müxdər İsmayıl oğlu, Məhəmmməd İsgəndər oğlu, Rüsdəm Məmməd oğlu iyidlik gösdərir, ermənnəri geri oturdur...

Şərq istiqamətindəki vuruşmada Hasanxan səngərdən çıxıf yerini dəyişən zaman ermənilər tərəfinnən vurulur. Dəstədə vuruşannardan bir neçəsi onun cəsədini Qaraqaya kəndinin üsdündəki Qarayoxuşdan Çaykəndə gətirillər. Mehralı koxa əmr verirkin, durmax vaxdı döy, müvəqqəti olarax tez qazın basdırın, bu döyüşdə Asdalalılar Qurvanı



da ermənnər vurullar. Bu zaman Qara Əhməd, Məhəmməd Əsəd oğlu həmin ermənini vuruf öldürüllər. Bu istiqamətdə bir neçə itgi verən keşikçilər erməniləri geri oturdullar. Döyüşdə – Hoppadandan ermənilərin qovulmasında Pirməmməd Mahmud oğlu, Qasım Mahmud oğlu, Binnət Süleyman oğlu, Hasan Sərdar oğlu, Talıf Abdulla oğlu, Alaxançal İsgəndər oğlu qəhrəmannıx göstərif əhalini erməni qırğınından qurtarmışdı.

## ZEYNAFLA NƏSİVİN VURULMASI

Qaçqınnar üç gün yol gəldikdən sonra gəlif Tapaşana çatdılar. Qaçqınnar elə bilirdilərkin, erməni hücumunnan qurtardılar. Göyçə iyiddəri də Göyçə istiqamətində qəhrəmancasına əhalini qırğınnan qurtarmışdılar. Tapaşanda həm əhali, həm də öküzdər yorulmuşdu. Elə burada dincəlmək qərarına gəldilər. Bu zaman Müxdər İsmayıl oğlu burada bu çökək yerdə yox, təpiyi aşıf Gədəbəy səmtində dincəlmək lazımdı dedi. Bu məsləhəti eşidif karvan tərpəndi...

Ermənnər həm Qaraqoyunnuda, həm də Göyçədə müqavimətə rast gəlmədiklərini görüf boşalmış kəndlərə doluf, talana başdadılar. Amba onnara belə bir əmr verildi: -qaçannarı haxlamax. Qaçqın karvanı yenicə Tapaşanın yalını aşmışdılar kın, xavar gəldikin, ermənilər Zeynafnan Nəsivi vurdular. Qaçqınnar silahlı adamları keşiyə düzdülər, amba ermənnər sərhəddi keçməyə cəsarət edif irəliləyə bilmədilər. Bacı-qardaşın meyidini də burada yerə tafşırdılar.

## XINNA DƏRƏSİNDƏ

Atamın söylədiklərinnən:

Haman ili gəlif Xınna dərəsində məskunlaşmışdıx. Burada Göyçədən, Qaraqoyunnu dərəsinnən xeyli aylələr yerrəşmişdi. Bu Xınna dərəsində (Kovlara gedən dərədədir) Əsgər ağa addı bir ağa varıydı. Əsgər ağa qaçqınnara qarşı yaman əzazıl adamıydı. Əsgər ağanın üç oğlu varıydı, bu oğlannar əllərində berdança gəlif gedənnəri soyurdu. Bir gün mən mal otardığım yerdə haman Əsgər ağanın oğlannarı üsdümü kəsdilər. Xoş-beş etmədən çiynimnən tüfəngimi aldılar. Dedim kin, ay ağrınız alım, mən qaçqın adamam, gəlif sizə sığınmışam, mənim tüfəngimi niyə alırsınız?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsgər ağanın oğlannarı mənə dedilər kin, a kişi, qaçqına tüfəng lazım döy, qaçqın hara, tüfəng hara?

Naxartan yalvardım tüfəngi vermədilər, çıxıf getdilər. Müxdər İsmayıl oğlu tüfəngimin Əsgər aldığını eşidif məni yanna çağırıf soruşurdu kin, deyilənnər düzdümü? Söylədim kin, düzdü.

Müxdər kişi çox iyid adamıydı. Məni qavağna salıf düz Əsgər ağanın qapısına apardı. Müxdər kişi həyətdə Əsgər ağanın adamlarına dedi kin, ağıya de kin iki qaçqın var onnar səni görmək isdiyillər.

İçəridən Əsgər ağanın gur səsi eşidildi:

- Ə, qaçqının nəyşi var mənimlə, deynən rədd oluf getsinnər.

Müxdər kişi qapıçını itəliyif məni darta-darta içəri apardı. Əsgər ağa yun döşəyin üsdündə yasdığa dirsəklənmişdi:

- A kişi, sənin mənnən nə alış-verişin var, səlliminə də gəlif başa keçirsiniz? – deyə bizi qaş-qavaxnan qarşıladı.

Müxdər kişi sözə başdadı:

- Ağa, kişi öyünə kişi gələr. Qaçqın olanda nolar, mən koxa Mehdioğlu Əhmədin qardaşı oğluyam. Bu balaca kişi də addı-sannı Molla Süleymanın oğludu. Vax belə gətirif kin, yurdumuzdan naxələf ermənilər tərəfinnən didərgin salınmışıx. İndi sənin yurdunda sənə pənahlanmışıq. Bizi saxlamaq əvəzinə bizə dəyif toxunursunuz. Bunu Allah götürərmi, ay Əsgər ağa.

Əsgər ağa bir az yumşaldı, başını qaldırıf bir Müxdər kişiyə, bir də mənə baxıf dedi:-

- Nə oluf, a qaçqın qardaş?

- Əsgər ağa, sənin uşaxların dünən bu yazığın tüfəngini əlinnən alıflar. Çox xayış edirəm kin, denən versinnər.

- Ayə, görün o qırılmışdar hardadı, tezcə burya göndərin, bu kişilərə də çay gətirin.

Əsgər ağa qalxdı, bizim oturmağımızı buyurdu. Oturdux, bizə Əsgər hörmət etdi. Uşaxlar gəlif çıxdılar: Ə, a qırılmışdar, güjünüz çatana da, çatmıyana da sataşırsınız. Bunlar sataşılası adamlar döy, get kişinin tüfəngini gətirif ver. Əsgər ağa uşaxlara tapşırdı kın, əmilərinə sataşmasın, əmilərilə işi olmasın.

Müxdər belə qoçax adamıydı. O, orada olmasaydı, bizə divan tutardılar. Payıza qədər biz orada qaldıx.



## YENİDƏN VƏTƏNƏ

Ermənistanda Şura hökuməti yarandı. Ermənistan və Azərbaycan hökumət başçılarının danışığına əsasən bizi yenə də öz doğma obamıza getməyə razılıq verildi. Əsgər ağanın uşaxları bizi layiqli yola saldı. Gədəbəy yoluynan gəlif kəndimizə çatdıx. Evimiz yerindəydi, kənddə ermənilər çox azıydı. Biz gələn kimi ermənnər öz yerrərinə getdilər.

Mən xalılarımızı taxıl quyusunda gizlətmişdim. Quyunu açıf xalıları sağ-salamat çıxartdım. Quyunun birində də buğda varıydı. Bunu da salamat tafdım. Müxdər kişi ilə bölüf qışı keçirdik.

Bolşeviklər yaz ayında bizə toxum verdi, dolanmamızı nizama saldı. Vətəndə yavaş-yavaş güzəranımızı yaxşıladıb dolandıq.

## BİZ DƏ VƏTƏNDƏN QOVULDUX

Həmən hadisə Qaraqoyunnu dərəsində qaçqınnıx illəri adlanırdı. Bu illəri biz görmədiyimiz üçün bə’zən inanmırdıq. Sovet hakimiyyəti illərində atalarımızın keçirdiyi bu illəri xatırladıqca təəccüflənirdik. O dövrün belə haqsızlığına nifrət edirdik. Nə biləydik ki, belə bir gün bizim də başımıza gələjək. Belə bir gün-qaçqınnıx, məcburi köçgünnük ili 70 il sonra, 1988-ci ilin payızında oldu. Sovet hökuməti yaşaya-yaşaya, Sovet ordusu, Kommunist partiyası hökmranlıq etdiyi bir dövrdə bizi kütləvi surətdə Vətənnən məcburi surətdə qovdular.

1988-ci ilin noyabr ayının 25-dən dekabrın 5-nə qədər 15 gün müddətində bütün Ermənistan Respublikasında olduğu kimi, Qaraqoyunnu kəndlərində yaşayan azərbaycanlıları kütləvi surətdə Vətənnən didərgin saldılar. Bu vəhşi hərəkəti təşkil edən və ona rəvac verən rus dövlət başçılarına, kommunist partiyasına bəslədiyimiz ümid puça çıxdı.

70 il müddətində qurduğumuz, yaratdığımız evlər, mal-qaramız, bütün məişət avadanlıqlarımız ermənilər tərəfinnən talan edildi...

Atalarımızın araba karvanı indi avtomobil karvanı ilə əvəz edildi. Avtomobil karvanında biz yalnız yüngül məişət avadannığı, yatıfduracax, yorğan-döşəklər gətirə bildik. Göz yaşları ilə yüz illərlə-yaşadığımız doğma Vətənnən bizi inandığımız, həmişə qardaş, dost sandığımız ermənilər bax beləcə qovdular. Atalarımız gələn yolla -



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çaykənd Krasnoselo, Krasnoselo-Gədəbəy yoluynan Azərbaycanın müxtəlif şəhər və rayonlarına gəldik. Yenə də qaçqın, köçkün, didərgin adları qoşuldu adımıza.

Bizi bu günə salan Kommunist partiyasına e'timad göstərmədik, özünü nüfuzdan salan Sovet hökuməti də dağıldı.

Deyirlər tarix təkrar olur. Bəli, ağlımıza gəlməyən başımıza gəldi. Ermənilər atalarımızın başına açdıqları oyunnarı övladlarının da başına gətirdi.

## ELƏ ELƏ Kİ, MƏNƏ RƏHMƏT OXUSUNNAR

Musa kişi dəyirmançı işləyirdi. O, ömrünün çoxunu dəyirmanda keçirmiş, saç-saqqalını burada ağartmışdı. İşlədiyi müddət elin-obanın hörmətini qazanmışdı. Eldə hamı onnan razı danışırdı. O, ağır külfətini bu dəyirmanın şahadı ilə dolandırırdı. Kim onnan dolanmasını soruşanda Musa kişi deyərdi:

- Allah dəyirmanın daşına bərəkət versin, dolanırıq, yaxşı dolanırıq. Mən daşa, çaxçağa qulluq edirəm, onlar da mənə çörək verir. Şükür olsun İlahinin varlığına, elimiz-obamız şən olsun. Elin hesabına dolanırıq.

Musa kişi çox xeyirxah, rəhmli adam idi. O çox zaman kasıblardan üyütdüyü taxıldan şahad da almazdı.

El-oba Musa kişinin ölənlərinə həmişə rəhmət oxuyardı...

Günlərin bir günündə Musa kişi ağır xəstələnir, dəyirmana gedəsi olmur. Belə olanda böyük oğlu Əlqəzəbi yanına çağırtdırır. Musa kişi dəyirmanın açarını ona verib deyir:

- Ay oğlu, dəyirmanı işlədəcəksən, buna inanıram, amma elə işlə ki, hamı mənə rəhmət oxusun. Eli dolandır, el amanatı.

Əlqəzəb atasına söz verir ki, ay ata, arxayın ol, elə eliyəcəm ki, hamı sənə rəhmət oxuyacaq.

Əlqəzəb açarı atasınnan alıf birbaşa dəyirmana gələnnəri başa salır ki, mən şahadı dəyirmana girməmiş, dəyirmanın bayırında alajam. Əlqəzəb belə də edir. Tərəzini bayıra çıxarır, taxıl gətirənnərdən dəni üyütməmiş şahadını yığır. Bir neçə günə Əlqəzəbin bu işi, təkcə kəndə yox, qonşu kəndlərə də yayılır. Hamı Əlqəzəbin bu hərəkətinə ağız burur, gülüşə qoyurlar. Eşidənnər deyillər ki, Allah atasına rəhmət eləsin, ondan niyə belə övlad törəyib.



Xülasə, əhvalat ölüm yatağında olan Musa kişiyə gəlif çatır. Əhvalatı eşidəndə Musa kişi od tutub yanır, oğlunu yanına çağırtdırıb onu töhmətdəyir. Əlqəzəb isə bu nankorluğun qarşısında atasına deyir ki, ay ata, bəs özün demədin ki, elə elə ki, hamı mənə rəhmət oxusun. Mən də, sənin arzunla belə elədim.

## DOVŞANIN SUYUNUN SUYUDU

Göyçə mahalında kirvəlik ən əziz, ən hörmətdi qohumlux sayılır. Adamlar kirvəni əmioğlunnan, xala oğlunnan daha üstün tuturlar. Ən əziz günnəri qohumlar kirvəsiz keçirmirlər. Kirvə hörməti, kirvə nüfuzu çox hörmətlə qarşılanır. Təsadüfü deyil ki, el arasında deyirlər: "Kirvə kirvənin damının üsdə çıxmır ki, torpaq tökülər". Bəli, Göyçə elində kirvələrə belə hörmətlə yer verilir. Əbdüləzim bir gün kirvələrigilə getməli olur. O, yol ilə gedərkən bir dovşan vurur. Dovşanın başını kəsib, kirvəsigilə gətirir.Kirvə olduğu ev sahibləri Əbdüləzimi çox hörmətlə qarşılayırlar, ona layiqli süfrə açırlar. Əbdüləzim bir neçə gün kirvələrigilin evində qalır, dovşanın axırıncı şorbasını da içib evlərinə qayıdır.

Bir neçə gün keçmiş Əbdüləzim bir dostu ilə yenə kirvələrigilə gedir.Kirvələri yenə də onlara beləcə hörmət edirlər.Bu minvalla bir neçə dəfə kirvələrigilə müxtəlif adamlarla qonaq gedir. Həm də hər gedəndə dovşan əti bişirməyi tələb edir.Kirvələri düşünürlər ki,bu gedişlə Əbdüləzim onları avırdan salajax.

Ev sahibləri bir-birinə deyillər ki, əşi, biz nə xatıya keçdik, bu kirvənin əlindən necə can qurtaraq. Axırda kişi arvadına məsləhət gördü ki, o da gəlsə süfrəsinə qav yaxantısı qoy. Soruşsa ki, a kirvə, bu necə xörəkdi? Deyərsən ki, a kirvə, bu dovşanın suyunun suyudu.

Bəli, kirvə yenə də gəldi. Arvad xörək yığıntılarını qaba çəkib kirvənin süfrəsinə qoydu. Əbdüləzim qaşığı "xörəyə" salıb qarışdırdı. Baxıb gördü ki, əşşi burada xörək nə gəzir, bu sadəcə yıxantıdı.

Kirvəni təlaş götürdü, üzü tutar-tutmaz soruşdu:

- A kirvə, bu necə xörək idi.

Arvad özünü o yerə qoymadı. Dedi ki, a kirvə, neçə gündü ki, saxlayırdım, bu dovşanın suyunun suyudu.

Əbdüləzim işi başa düşüb, durub xudahafizləşib evi tərk etdi. İllər, aylar keçdisə geri dönmədi. Kirvə o gedən getdi...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HAMBAL OĞLU DUA YAZIR

Qaraqoyunlu dərəsinin kəndlərində yaşayan adamların əksəriyyəti yay mövsümündə aran elinə-qonşu Qazax, Tovuz rayonlarının kəndlərinə biçinə gedərdilər. Qaraqoyunlu kəndləri dağ şəraitində olduğu üçün burada taxıl biçini sentyabr-oktyabr aylarında başlanır.

Hər il olduğu kimi Hambal oğlu, Qələndər oğlu Vəli yenə də arana biçinə gəlmişdilər. Onlar Salahlı kəndində bir Allah bəndəsinə qonaq oldular. Səhərlər biçin edirlər, gecələr bu evdə qonaq qalırdılar. Onlar bir ay müddətində işlədiklərinin haqqını alıb ev sahibi ilə hallalaşıb kəndlərinə qayıdanda ev sahibinin arvadının ağladığını görüllər. Hambal oğlu İsa soruşur ki, ay bacı, biz bir aydı ki, burada qaldıq, səni belə qəmgin görmədik, indi niyə ağlayırsan, yoxsa bizim dilimizdən incik sözlər eşidibsən, sən Allah, bizi nigaran qoyma, niyə ağlayırsan?

Arvad cavab verir ki, ay qardaş, heç birinizdən inciməmişəm, amma mən on ildi ki, bu evin gəliniyəm, sizdən də üzüm qara hələ züryətim olmayıbdı. İndi ərim məni boşayır. Mən ona görə ağlayıram.

Hambal oğlu İsa çox təkəbbürlə qadına deyir:

- Ay bacı, bundan ötrü fikir eləmə, ağlama, indi mən bir dua yazaram.

Allah qoysa gələn il biçin vaxdı bu evə gələndə səni qucağı uşaxlı görərəm. Mən seyid nəvəsiyəm, dədə-baba bizim ocağımıza nəzir salıblar...

Hambal oğlu həyətdən iki qoyun qığısı alıb bir parça kağızı üç künc edib bükür, üzünə parça çəkir, müşəmbələyir və qadına verir ki, boynundan as. Bax sənə inamla deyirəm ki, Allah qoysa gələn il gələndə duamın qüvvəsini görərəm. Ərinə də deyərsən ki, a kişi, on il gözləyibsən, bir il də gözlə...

Hambal oğlu duanı verib ev sahibləri ilə xudafizləşib yola düşür. Yol gedərkən Qələndər oğlu Vəli deyir:

- Ə, a Hambal oğlu, bu nə hərəkət idi sən elədin, bə elə də dua yazmaq olardıkı?

- A Qələndər oğlu, narahat olma, mən o duanı sidq ürəklə yazmışam, qadın da inanajax, duaya inamı olajax. Verən Allahdı, Allaha qurvan olum, mən kiməm ki, Allaha umuddu olub yazmışam...



## DUANIN HİKMƏTİ

Hər il olduğu kimi bu il də Hambal oğlu yoldaşları ilə yenə də arana biçinə getməli idi. Vaxt gəlib çatdı. Hambal oğlu yoldaşları ilə yola düşdülər.

Yol gedərkən Hambal oğlu Qələndər oğluna məsləhət görür kin, yenə keçən ilki qonaxcımızda qalax.

Qələndər oğlu deyir kin, a Hambal oğlu, əşi, bəlkə heç onnarın uşağı olmuyuf, kişi də arvadı boşuyuf. Axı biz o evə nə üzlə gedə bilərik? Gəl qonşu kəndə gedək, orada onların əhvalını soruşub öyrənək, biz deyən olsa, onda gedərik.

Onlar belə də edirlər, qonşu Orta Salahlıya gedillər, iş yeri tapıb rahatlaşırlar. İşin üçüncü günündə axşam süfrəyə toplaşanda Qələndəroğlu qonşu kənddəki tanışlarının vəziyyətini ev sahiblərindən soruşur.

Ev sahibinin qadını onnara deyir kin, ağrın alım, xavar aldığınız qadının qucağında indi bir cüt oğlan uşağı var. Arvad gecə-gündüz ona bu oğlannarı verən seyidi axtarır. Ağrın alem, o sınaxlı seyidiymiş...

Qələndər oğlu haman Seyid ojağının sakini bax bu kişidi, çox sınaxlı ojax sahibidi bu kişi. Bunun ojağına qurban olum. Nolasıydı, bu biçin vaxdı da Hambal oğlunun baxtı belə gətirir. Əşi, indi qoymurlar ki, kişi biçinə gedə, hərə bir tərəfdən nəzir-niyaz gətirirlər. Biçinçi qəriblər duanın hikməti ilə bu il də öz kasıblığını belə ödəyirlər...

## A TAVAR, NİYƏ AĞLAYIRSAN?

Hambal oğlu çox baməzə kişiydi, həm də çox təmiz adamıydı. Onun dilinə yalan gəlməz, şər işlərnən işi olmazdı. Fırıldaq adamlara salam verməz, onları hörmətdən salardı...

Bu kəndə hər il Tavar adlı bir kasıb gələr, "ya Omarın cəddi", "Omarın eşqinə bir pay verin" deyə dilənərmiş. Hamı da varınnan, yoxunnan pay verərmiş. Tavar topladığı payı uzunqulağına yükləyib obaya xeyir-dua verə-verə gedərmiş.

Hambal oğlu bir gün başqa bir kənddə qonaq olarkən haman Tavar kişinin "Ya Əli, ay camaat, Əli eşqinə mənə pay verin" deyə-deyə yığındığını görür. Bu əhvalat Hambal oğlunu yaman mə’yus edir. Özözünə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ə, a qardaş, bu, neçə məssəvə qulluq edir, Omar kimdi, Əli kimdi? Bu Tavar bunnarı bir-birinnən niyə ayırır?

Hambal oğlu yanıb tökülür ki, ay Allah, sənə qurban olum, elə elə ki, bir Tavarnan qarşılaşax.

Bəli, gün o gün olur ki, Tavar Hambal oğlu ilə qarşılaşır. Hambal oğlu qonşu kənddən araba ilə öz kəndlərinə qayıdırdı. Yolda öz eşşəyi ilə Hambal oğlunun kəndinə gələn Tavarnan rastlaşır. Hambal oğlu Tavara deyir ki, a Tavar, eşşəyini arabanın qoluna bağla, sən də bizimlə otur, söhbət edə-edə gedək. Tavar razılaşmır ki, a Hambal oğlu siz gedin, mən yavaş-yavaş gedəjəm. Hambal oğlu arabanı saxlayır, yoldaşı Əhmədcana göz vurur ki, diri eşşəyi möhkəmcə aravanın qoluna bağla. Əhmədcan arabadan düşür, arabanın sicimi (bağı) ilə eşşəyi möhkəmcə arabaya bağlayır. Hambal oğlu Əhmədcana göz vurur ki, belə fürsət ələ keçməz, öküzləri qamçıla, qoy qaçsınnar.

Dəliqanlı Əhmədcan öküzlərə elə qamçılar endirir ki, gəl görəsən. Araba götürülür. Araba iti sürətlə dərəyə enəndə eşşəyin dərisi soyulmuş, al-qan içində gördülər...

Tavar ağlayırdı, Hambal oğlu ona ürək-dirək verərək deyirdi:

- A Tavar, niyə ağlayırsan?

Bə sən bilmirdinmi bələnin bu üzündə Əlini çağırıb, o biri üzündə Omarı çağıranda eşşək bu günə düşəcək.Get, bir daha Qaraqoyunnu dərəsinə üz çevirmə.

## GƏLİN, ÖLÜNÜZÜ BASDIRIN

Hambal oğlu İsənin bir əzazıl iti varıymış. Hambal oğlunun evi də kəndin girəcəyində yolun üsdündəymiş. Qonşu kəndə oxumağa gedənləri həm səhər tezdən, həm də dərsdən qayıdanda boş buraxmazmış, uşaxları incidərmiş. Bir gün məktəblilər məktəbdən qayıdarkən it yenə də uşaxların üstünə cumur. Uşaxların içində Cahan addı bir qoldan qüvvətdi cavan varıymış. Bu itin xasiyyətini bildiyi üçün əlinə daş yığıbmış. İtə ilk zərbəni də bu Cahan vurur. Cahanın daşı açılan kimi iti yerə sərir. Uşaxlar Hambal oğlunun qorxusunnan hərə bir yana qaçır. Hambal oğlu evdən çıxanda iti ölmüş görür. Birbaşa Cahanın atası evinə gəlir. Cahanın atası Saçlı arvad sacda çörək bişirirdi. Hambal oğlu isə özünü hövlank içəri salır: A Saçlı bacı, oğlun nejoldu, - deyə soruşur.



- Ay İsə qağa, xoş gəlifsən, içəri buyur, çörək kəs.Oğlumu neyləyirsən?

- A Saçlı bajı, neyləməliyəm, belə bəəndə bir əziz ölünüz düşüb onu basdırmax lazımdır, gecikmən sonra gec olar.

- Boy Allah, xeyir ola, a İsə qağa ölən kimdi?-deyə Saçlı arvad soruşur.

- Kim olajax, a Saçlı bajı, belə oğlun qapımda itimi vurub öldürüf, bə əziz ölünüz döymü?

- A İsə qağa, sənə qurvan olum, uşağa qoşulma, biz od-gor qonşusuyuq. Sən allah, məni bağışla. Qurvan olum, gəl çörək kəs.

- Yox a Saçlı bajı, ölüyü bayırda qoyuf mən çörək kəsə bilmərəm...

Cahan bir həftə İsənin qorxusunnan məktəbə getmədi.

## ÇARIĞA BİR OTAQ TİKİN

Qaraqoyunnu dərəsində varrı-dövlətdi adamlardan biri də Çaykənddəki Hacı Məmməd imiş. Mal-qara naxırı, qoyun sürüsü, əkin sahəsi, dağ binəsi, otaraq-biçənəyi boluymuş. Qapısında nökərrəri də varıymış. Bu kişi həm də çox bajarıxlı, tədbirli, qoçax, həmişə hökümət adamları ilə durub otururmuş. Gəncə quberniyasında, Qazax qəzasında onu tanımayan yoxuymuş. Hambal oğlu İsə də ona nökəriymiş. Bir gün Hajının evinə hökümət adamları qonax gəlillər.

Hajı nökərrərə tapşırıq verir, plov qazannarı işə düşür, erkəklər kəsilir, kabab hazırranır. Qonaxlar yeməyə oturanda nökərrər xörək gətirillər. Amma Hambal oğlu içəri girmir, həmişə qapının dəhlizinnən Hajını çağırıf xörəyi ona verir. Hajı deer kin, ayə, a Hambal oğlu, gətirdiyini niyə içəri gətirmirsən? Hambal oğlu deer kin, a Hajı əağım çarığlıdı, utanıram. Hajı deer kin, a Hambal oğlu, oğlum Həmidi bura çağır. Bir azdan Həmid atasının qarşısında şax dayanıb cavab gözdüyür. Hajı oğluna deer:

- Oğul, a Həmid ayıfdı Hambal oğlunun çarığına bir otax tikin. Kişi çarıxlarını qoymağa yer tapmır...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HAJIYLA MƏŞƏDİ MƏCİD

Hajını tanıyannar çoxuydu, onun hər yerdə dostu-tanışı varıydı. Belə dostlarınnan biri də Ağbulaqlı Məşədi Məcid idi. Məşədi Məcidə xəbər gəlir ki, bəs deməzsənmi sənin dostun Hajı Məmməd qonağı işlətməmiş buraxmır. Məşədi Məcid bu xəbərnən razılaşmır ki, əşi, mən dəfələrnən onun qonağı olmuşam, elə şey yoxdu, Hajı qonağı işlətməz. Eşidənnər and-aman edillərkin, a Məşədi, inad eləmə, yalan söz söyləməz. Məşədi Məcid atını yəhərlədib Çaykəndə gəlir. Hajı Məşədi Məcidi yaxşı qarşılayır. Sifariş edir ki, Hajı bizim xəngəli xoşduyur, xəngəl hazırlayın. Qonağa kiçik bir nahar verilir.

Hajı Məmməd Məşədi Məcidə deyir ki, a Məşədi, xəngəl hazır olana kimi dur gedək bayırda açıq havada bir qədər gəzək. Onnar bayıra çıxıllar. Hajı mal-qaraya yeni tövlə tikdirmişdi, damın üsdünə də yenicə torpaq tökdürmüşdü. Hajı Məşədini haman təzə tikilmiş damın üsdünə aparır və deyir kin, a Məşədi, yumşaq torpağın üsdündə gəzməyin ayaqlara yaman xeyiri var. Onnar damın üsdünə tökülən torpağı ayaqlamaqla məşğul olurlar. Hər ikisi xeyli müddət torpağı ayaqlayır və orada söhbət edirlər.

Xülasə, xəbər gəlir ki, xörək hazırdı, gəlsinnər. Onnar qonaq otağına gəlir, qoyun qovurması ilə bişmiş xəngəli yeməyə məşğul olullar. Xörək yeyilir, çay içilir. Məşədi getməyə hazırlaşanda Hajı Məmməd soruşur:

- A Məşədi, xeyir ola, bəs sən nə üçün gəlmişdin. Bəlkə gəlişiyin başqa məqsədi var, sən Allah utanma, danış.

Məşədi cavaf verir kin, a Hajı, vallah elə məqsədim yoxdu. Belə bizim eldə danışıllarkin, Hajı Məmməd öyünə gedən qonaqları işlədir. Elə onu öyrənməyə gəlmişdim, evin şən olsun, getməyim məsləhətdi.

Hajı Məmməd soruşur kun, a Məşədi, bəs sən indi nə xavarnan qayıdırsan, o deyilənlərə nə cavaf verəjən?

Məşədi Məcid Hajıya deer kin, a Hajı mən gəlməmişdən əvvəl də onnara dedim ki, Hajı elə iş eləməz. Mən görürəm ki, bunnar yalan sözdü.

Hajı Məmməd gülərək dedi:

- A Məşədi, düz demirsən, necə deyillər eləjə də var. Bəs sən səhərdən damın kövərini nədən ötrü ayaqlıyırdın. Hajı qonağı işlətməmiş buraxarmı? Get uğurun xeyir olsun.



## A HAJI, ÇOXDAN BAŞINA SADAĞA OLUB

Deyilənə görə Aşıq Bəsdi Qaraqoyunnu dərəsində bir neçə günüymüşkün, məclis qurub söhbət edirmiş, qonşu kəndlərdən də Aşıq Bəsdinin məclisinə gəlmişdilər. Adamlar Aşığ Bəsdinin söhbətinnən doymurdular. Hajı Məmməd də bu məclisdə idi. Hajı Aşığın şux bədəninə, gözəl qamətinə, boy-buxununa, sazına-söhbətinə məftun olmuşdu. Arada bir "sağ ol, a aşıq, əhsən sənə"deyərək Aşıq Bəsdini alqışlayırdı. Hajı Məmməd yanında oturmuş kalvayı İvrahımı dümsükləyib deyir kin, a kalvayı bu Aşıq Bəsdiyə bir şey demək istəyirəm. Kalvayı da "Ə, işində ol, aşıqla işin olmasın, nə deyəjən ə, qonağ adamdı, yaxşı da oxuyur" deyə cavaf verir. Amma deyəllər kin, aşıq nəsli çox ayıq olur, məclisin hər yerinə diqqət yetirirlərmiş. Aşıq Bəsdi bunnarın danışıqlarına fikir verir, onnarı izdiyirdi. Hajı Məmməd Kalvayı İvrahıma pıçıldayırdı kin, ə görəsən, Aşıq Bəsdi "qonağı atdırıfmı?"

Aşıq Bəsdi hamının eşidəcəyi tərzdə ucadan deyir: "Ay Hajı, çoxdan başına sadağa olub".

Bütün məclisi gülüşmə götürür. Kalvayı İvraham dostuna deyir:

- Aha, aldınmı payını, ə, mən sənə demədimmi otur oturduğun yerdə.

Aşıq Bəsdi Kalvayı İvrahıma deyir kin, a Kalvayı narahat olma, öyrənən ağıza qadağa qoymaq olmaz. Nəysə, söhbətə qulaq asın, bikef olma, Aşıq Bəsdi xam ha döy...

## AVI, TORPAQ AMANATI

Hajı Məmməd çox əyyar, çox bilən, tədbirli, ayıq-sayıq adamıymış. Özü də dədə-baba torpağını çox sevirmiş, torpağa bağlı adamıymış. Qaraqoyunnu mahalında hamı Hajının hazırcavablığını yaxşı bilirdi...

Hajının qızı Nazəvəti Avı götürüf qaçmışdı. Oğlannarı hirsli halda Hajıya çatdırmışdılar kın, ay Hajı, Avı qızı qaçırdıb. İzin ver atlanax.

Hajı çox təmkinni, siyasətcil adam idi. Oğlannarına üzünü tutub deyir:

- Ay bala, pis yerdə axşamlamışıx. Meydan indi Avınındı, şura sədridi, hökumət o deyəni dəəjək. Yerinizdə arxayın oturun, heş şeyə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

fikir verməyin, özünüzü güdaza verərsiniz. Aradan ay, il keçir. Hajının qapısına neçə adamlar gəlir, Hajı barışmır, həm də şikayət eləmir.

İş o yerə gəlir ki, Hajı ağır xəsdələnir, yorğan-döşəyə düşür. Hajının qohumları hər gün ona baş çəkməyə gəlillər. Bir gün Hajı oğlu Həmidə deer kin, a bala get Avu burya çağır gətir.

Hamı təəccüflənir kin, xeyir ola Hajı Avıyı nə sayaq çağırır. Çağırılmış qonaq evə gəlir, salam verif Hajının halını soruşur. Hajı arxasını Avıya tərəf çöyürüf deyir:

- Ayə mənim, halımın sənə dəxli yoxdu. Səni mən çağırtmışam, bu kənddə heç kəsə umuddu döyləm. Sən bilirsən kin, mən torpağı qorudum, heç kəs torpağımıza burnunu soxa bilmədi. Mən daha gedirəm, torpaq amanatı, torpağı sana tafşırıf gedirəm.

Hajının bu vəsiyətinə Avı kişi axıratan əməl etdi.

## AXIRI YAXŞI OLAR

Hajı Məmmədə xavar gətirillər kin, Gölkəndin baş bilənnəri bir arava yağ, bal, erkək yükləyib, Gəncəyə qubernatorun qəbuluna gediflər. Məqsədləri də Çaykəndin torpağınnan özdərinə almaxdı...

Hajı təmkinini pozmadan bu xavar gətirənnərə deyir kin, yaxşı, nə edə bilərik, kişilər qubernatın yanına, paylı gediflər. Bizim sözümüz keçməz axı.

Hajının dostu kalvayı İvrahım deyir kin, a Hajı, bu işi sənnən başqa heç kəs aşıra bilməz. Aman günüdü, yubanma, özünü Gəncəyə sal.

Hajı atını yəhərlədib yola düşür...

Hajı qubernatorla yaxın idi. Gəncədə onu tanıyırdılar. Buna görə də onu qubernatorla görüşdürürlər. Qubernator Hajını səmimi qarşıladı:

- Xeyir ola, Hajı, nə əcəb bizi yad edibsən?-deyə qubernator Hajıdan soruşur.

Hajı şirin dilini işə salır:

- Qubernator həzrətləri sağ olsun, elin sənə göndərdiyi payı gətirmişəm. Allah səni bizim üsdümüzdən əskik eləməsin. Bir də bizim elin adamları qubernator həzrətlərinnən xahiş edillər kin, bizim torpağımızın sərhəddini həmişə saxlayın, ona toxunanlara imkan verməyin, o Gölkəndlə mübahisəli yeri bizə verin. Sizin payınızı da



gətirib gəlmişəm, bir nəfərə tapşırın arabaya bələdçilik edib sizə aparsın.

Qubernator hər şeyi Hajının xeyrinə həll etməyə söz verdi.

Hajı qubernatorun yanınnan gülərüz çıxdı. Qubernatorun göndərdiyi adamı arabanın yanına aparıb işarə etdi ki, apar...

Gölkəndlilər arabanı boşaldıb geri qayıtdılar. Onnar karvansarada tanışları Mucuğun evində gecələdilər. Mucuq kişi soruşur ki, ay dostlar, hardan gəlirsiz? Gölkəndlilər əhvalatı Mucuqa danışırlar, üsdəlik Mucuqdan soruşurlar kın, ay Mucuq kişi, ağlın nə kəsir bu işdən? Mucuq da cavaf verir kin, axırı yaxşı olar. Xülasə aravaçılar gəlif kəndə çatdılar. Kənd adamları aravaçıları dövrüyə alıf soruşurlar kın, ayə, nooldu, nə dedilər?

Aravaçılar deerlər:

- Vallah, Gəncədə bizə bir şey demədilər, amma karvansarada Mucuq dedikin, axırı yaxşı olar.

Bir neçə günnən sonra qubernatorun göndərdiyi nümayəndələr haman davalı yeri Çaykənd adamlarına verib qayıtdılar. Bax Hajı Məmməd belə Hajı Məmmədiydi. Bu hadisə bütün Qaraqoyunnu mahalına yayıldı. Eşidənnər gülüşə-gülüşə deerdilər:

- Ayə, Hajının qoçaxlığına bax, Gölkəndin yağı, balıynan torpağı özdərinə aldı...

## MƏN GEDİRƏM, SƏN BACAR GƏLMƏ...

Mehralı koxa ilə Hajı Məmməd arasında düşmənçilik varıymış. Bu iki tayfanın adamları arasında əlaqə pozulmuşdu. Mehralı koxa eşidir ki, Hajı Məmməd ağır xəsdədi, ölüm yatağındadı. Onunla vidalaşmağa gəlir, Hajının vəziyyətini ağır görüf deyir:

- Ay Hajı, deyəsən gedirsən?

Hajı yenə söz altda qalmır, koxaya belə cavaf qaytarır:

- Mən gedirəm, a koxa, oğulsansa, sən dalımca gəlmə. Elə bilirsən bu torpaq hamıya qismət olur...

Sovet hakimiyyəti gələndə koxanın harda, nə vaxt öldüyü heç kəsə bəlli olmadı...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

NAĞILLAR

## HEYVANLAR HAQQINDA NAĞILLAR

### TÜLKÜNÜN HİYLƏSİ

Tülkü yolnan gedirdi. Yolda əlinə bir bel keşdi. O, kəndçinin yanına gəlif yalvardı:

- Ay ev sahibi, icazə ver, sənin yanında gejəliyim.

Kəndçi dedi:

- Ay tülkü, yerim yoxdu, darısqallıxdı!

- Axı mana çox da yer lazım deyil. Mən elə burda kürsünün üstündə yataram, quyruğumu da kürsünün altına qoyaram.

Ona icazə verdilər ki, gejələsin. Tülkü onnara dedi kin, mənim belimi toyuxların yanında qoysunnar.

Beli toyuxların yanına qoydular. Tülkü gejə duruf beli götürdü, bir tərəfə tulladı. Səhər hamısı durdu. Tülkü belini istədi. Ev sahibləri dedilər:

- Ay tülkü, bel yoxa çıxıf!

- Onda əvəzinə mana bir toyuq verin.

Toyuğu alıf, başqa bir evə gəlif xahiş elədi kin, onun toyuğunu qazdarının yanında qoysunnar. Gejə tülkü toyuğu götürüf gizdədi, savah onun əvəzində bir qaz aldı.

Tülkü yenə bir evə gəldi. Gejələməyə icazə istədi, xahiş elədi ki, onun qazını qoyunnarın yanına qoysunnar; tülkü yenə bijdiyə əl atdı, qaz əvəzinə bir qoyun alıf, bu dəfə də başqa bir evə getdi.

Burada gejələməyə icazə alıf, xahiş elədi kin, onun qoyununu öküzdərin yanına qoysunnar. Gecə tülkü qoyunu da oğurradı, səhər tələb elədi ki, qoyunun əvəzində ona bir öküz versinnər.

Tülkü onların hamısını - həm toyuğu, həm qazı, həm qoyunu, həm öküzü boğuf öldürdü, bunnarın ətini gizdətdi, öküzün dərisinin içinə isə saman basıf, yolun ortasına qoydu.

Bir canavarnan bir ayı gəlirdi. Tülkü onnara dedi:

- Gedin bir xizək oğurruyun, minif gedək gəzməyə.

Onnar gedif bir xizək, bir də bir boyundurux oğurradılar. Öküzü xizəyə qoşdular, hamısı xizəyə oturdu. Tülkü yalannan haray-həşir qopartdı:



- Ho, ho, öküz, aman öküz! Xizək özgənin, boyundurux özgənin, yeri get dayanma!

Öküz yerinnən tərpənmirdi.

Tülkü xizəkdən atılıf yerə düşdüvə dostlarına dedi:

- Qalın burada, axmaxlar!

Özü isə çıxıf getdi. Ayıynan canavar əllərinə keçən qənimətdəri görüf sevindilər, öküzü parçalamağa başdadılar. Öküzü dağıdıf gördülər kin, bir dəridi, bir də saman, başlarını buluya-buluya çıxıf evlərinə getdilər.

### TÜLKÜİLƏ CANAVAR

Bir qojaynan bir qarı vardı. Bir gün qoja qarısına deyir:

- Qarı, sən köppəjə bişir, mən də gedim balıx tutum. Qoja çoxlu balıx tutuf aravanı doldurur, evə gətirməyə başdıyır. Aravıyı evə tərəf sürüf gəlirmiş, bir də görür kün, yolun ortasında bir tülkü meyidi var. Aravadan düşüf qoja tülkünün cəmdəyini o tərəfə, bu tərəfə çevirərək deyir kin, elə yaxşı oldu bunun dərisini arvada hədiyyə verərəm. Qoja tülkünün dərisini aravıya tulluyıf yoluna davam eliyir.

Tülkü fürsət tapıf balıxları aravadan tulluyır, sonra da özü düşüf tökdüyü balıxları bir yerə tofluyur.

Qoja evə çatır, sevincək qarısına deyir:

- Ay qarı, bir bax gör sənin üçün necə qəşəng arxalıx gətirmişəm. Qarı soruşur kun, a kişi, hardadı?

Kişi deyir kin, tülkünün dərisi də, balıxlar da aravadadı, get hamısını gətir. Qarı aravanın yanına gəlif dedi:

- Ay səni heç yarımayasan, məni niyə alladırsan? Hanı burada nə balıx var, nə də dəri. Kişi indi başa düşür kün, tülkü ölü deyilmiş, balıxları da tülkü töküf.

Tülkü balıxları oturuf yeyirdi. Bu zaman burya bir canavar gəlif, tülküyə deyir:

- Ay tülkü kirvə, mana də balıx ver yeyim.

Tülkü deyir:

- Mən özüm üçün balıx tutmuşam, sana niyə verirəm. Odu, ey balıx nə çoxdu çayda. Get nə qədər istiyirsən tut. Canavar dedi:

- A kirvə, axı mən tuta bilmirəm, mən heş bilmirəm balıx nejə tutulur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ay kirvə, balığı tutmağa nə varkın, get çaya, quyruğunu sal çaya, bütün gejəyi otur gözdə, amma tərpətmə, sənin quyruğuna o qədər balıx yığılajaxkın, heç dartıf çıxarda bilmiyəjəksən.

Canavar çaya enir, quyruğunu çaydakı gölməçəyə salır, bütün gejəyi oturuf gözdüyür. İstiyir qalxıf getsin, amma nə qədər eliyir quyruğunu dartıf qopara bilmir. Bu zaman arvaddar çaya suya gəlillər. Gəlif boz canavarı çayda görəndə kəndə haray salıllar. Kəndin kişiləri əllərində yava, balta gəlif canavarı öldürüllər.

## TÜLKÜ, DOVŞAN, XORUZ

Biri varıydı, bir tülküynən bir dovşan varıydı. Onnar qonşuluxda yaşıyırdılar. Tülkünün öyü buzdan, dovşanınkı isə ağac qavığınnan idi. Yaz gəldi, buzdar əridi. Tülkü evsiz qaldı, gəlif dovşana dedi kin, ay qonşu, qoy mən də siznən baravar yaşıyım. Dovşan razılaşır. Tülkü bir müddətdən sonra dovşanı evdən qovur. Dovşan küçələrə düşüf, ağlamağa başdıyır. Bu zaman yoldan keçən itdər ona deyillər:

- A dovşan, niyə ağlıyırsan?
- Niyə ağlamıyım, tülkü məni evimnən qovdu.

İtdər ona deyillər:

- Yaxşı, biz ona indi göstərərik, qovulmaq nejə olur.

İtdər dovşannan gəlif tülküyə dedilər:

- Ey tülkü, çıx get dovşanın evinnən.

Tülkü itdərə dedi:

- Burdan çıxıf elə hoppanaram kın, ev tamam uçuf tökülər.

İtlər çıxıf getdilər. Dovşan yenə yolun ortasında oturuf ağlamağa başdadı. Bu zaman buradan bir ayı keçirdi. Dovşanın ağlamığını görüf soruşdu:

- Ay dovşan, niyə ağlıyırsan?
- Niyə ağlamıyım, tülkü məni evimnən qovuf.

Ayı dedi:

- Mən gedif onu qovaram. Dovşan dedi:
- Ay ayı, qova bilməzsən, heç itdər qova bilmədilər.

Ayı dovşannan gəlif öyə çatdı. Ayı tülküyə dedi:

- Ay tülkü, çıx dovşanın evinnən.

Tülkü dedi:

- Mən sobanın üstünnən elə tullanıf çıxaram kın, ev parça-parça



olar.

Ayı da bir şey eliyə bilmiyif çıxıf getdi.

Dovşan yenə yolun ortasında oturuf ağlamağa başdadı. Bu zaman buradan bir öküz keçirdi, gördü kün, dovşan ağlıyır. Öküz dovşannan soruşdu:

- Ay dovşan, niyə ağlayırsan?
- Niyə ağlamayım, tülkü məni evimnən qovdu.

Öküz dedi kin, indi mən gedif onu qovaram.

Öküz gəlif tülküyə dedi:

- Ay tülkü, çıx dovşanın evinnən, səni ayaxlıyajam.

Tülkü dedi:

- Mən də bu sobanın üstünə çıxıf elə tullanajam kın, koma parça-parça olajax.

Öküz də çıxıf getdi.

Dovşan yenə yola çıxıf ağladı. Bu zaman əli dəhrəli bir xoruz gəlif burya çıxdı. Dovşannan soruşdu:

- A dovşan, niyə ağlayırsan?
- Niyə ağlamıyım, tülkü məni evimnən qovdu.
- Gəl gedək, mən onu çıxardaram.
- Əşşi başımı ağrıtma, it, ayı, öküz bir şey eliyə bilmədi, sən necə çıxardajan?

Xoruz birtəhər dovşanı götürüf evə gəldi. Səsinin yoğun yerinə salıf tülküyə dedi:

- A tülkü, çıx dovşanın evinnən, yoxsa əlimdəki dəhrəynən səni öldürəjəm.

Tülkü xoruzun səsini eşidif dedi:

- Çıxıram, a xoruz lələ, çıxıram.

Tülkü komadan başını yenicə eşiyə çıxartmışdı kın, xoruz dəhrəynən onun başını bədəninnən üzdü. Tülkü elə oradaja cəhənnəmə vasil oldu. Xoruz dovşannan birgə şad-xürrəm bu komada yaşadılar.

Göydən üç alma düşdü, biri mənim, biri nağıl danışanın, biri də özümün.

## TÜLKÜNÜN TÖVBƏSİ

Bir dəfə tülkü bütün günü aj-ajına meşədə gəzirdi kin, görsün əlinə bir şey keçirmi. O, hər yeri gəzdi, heş bir şey tapammadı. Axırda ələş-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

siz qalıf səhər tezdən özünü kəndə verdi. Gözdən oğurranıf bir dama girdi. Burda çoxlu toyux varıydı. Tülkü çıxıf toyuğun tarında əyləşdi, İstədi kin, toyuğun birini tutuf yesin, elə yenijə ağ toyuğa yanaşmışdı kın, birdən xoruz qanaddarını şaqqıldadarax bannamağa başdadı. Xoruzun bu şaqqıltısınnan, ucadan bannamasınnan tülkü ağaj tardan yerə elə sərildi kin, üş gün özünə gələ bilmədi...

Bir gün xoruz meşəyə gəzməyə getmişdi. Tülkü də onun pusqusunda durmuşdu. Xoruz gəzif evə qayıthaqayıtda tülkü gözünə sataşdı. Öz-özünə dedi:

- Görəsən, bu hiyləgər burada nə gəzir?

Xoruz ağacın budağına çıxdı. Tülkü Xoruza dedi:

- Salam, ay köhnə dost! Sən ağaca niyə tez qaçıf çıxmısan, onsuz da mən toyuxları yeməyə tova demişəm. Düş birrikdə gəzək, dostluq eliyək. Özü də sənin əlli arvadın var, çox günaha batıfsan, sən də tova eləməlisən. Mən sənin xeyrinə deyirəm, düş sana tova ağılı öyrədim.

Xoruz tülkünün bu yağlı dilinə inanıf ağajın budağınnan yerə düşdü. Tülkü onu tutuf dedi:

- İndi mən sana həddini göstərrəm!

Sən bütün əməllərin üçün mana cavab verməlisən. Sən azğınsan, alçaxsan. Bütün çirkin əməllərinə görə mən sana cəza verəjəm. Yadındamı payızın qarannığında qoymadın bircə toyux da yeyəm. O vaxt mən düz üç gün ölü qaldım...

- Eh tülkü! Tülkü! Sən çox ağıllısan, sözlərin də nejə şərafətdir! Bil ki, bu yaxınnarda çil toyuğun toyudu, mən səni orda fəsəli bişirməyə qoyajam. Yağlı fəsəlini sən çox xoşduyursan. Bir də sən toyun masabəyisi olajaxsan. O vaxt bütün toyuxlar da orda olajax. Sən hansını gözaltılasan mən onu sana verəjəm.

Bu sözdəri eşidən tülkünün pəncələri boşaldı. Xoruz onun əlinnən çıxıf palıd ağacının budağına əyləşif dedi:

- A tülkü, mən tova dərsimi öyrəndim. İnnən sonra sən özün bilərsən.

## KƏNDLİ, AYI, TÜLKÜ

Bir kəndli tarla şumluyurdu. Ayı onun yanına gəlif dedi:

- Ay kişi, mən səni xırtma-xaşıl eliyəjəm.

- Gəl, mana toxunma. Görürsən ki, mən turp əkirəm, yetişəndə



kökü mənim olar, yarpağı sənin.

- Qoy belə olsun, amma məni aldatsan, onda meşiyə odun qırmağa gəlmə, gözümə görünən kimi səni parçalıyajam.

Vaxt gəlif çatdı, kişi turpu qazıf çıxarırdı. Ayı gəlif dedi:

- Kişi, gəl payımızı bölüşdürək.

- Yaxşı, ayıcan! Mən sənin payını gətirərəm.

Kişi turpun yarpaxlarını gətirif ayının qavağına tökdü. Ayı kəndlinin belə düz bölgüsünnən razı qalıf getdi.

Bir gün kişi turpu arabaya yığıf şəhərə satmağa aparırdı. Ayı yolda ona rast oldu, kişidən soruşdu:

- A kişi, hara gedirsən?

- Bazara turp satmağa.

- Birini ver, dadına baxım.

Kişi ayıya bir turp verdi, ayı turpu yeyif bağırmağa başdadı:

- Aaa, kişi, sən məni aldadıfsan! Sənin kökün şirindi. İndi sən meşiyə gələndə mən hayıfımı sənnən alajam.

Kəndlini dərd götürmüşdü, meşiyə gedə bilmirdi. Yandırmağa da odun yox idi. Axırda kişi əlaşsız qalıf haravanı yavaş-yavaş sürüf meşiyə yollandı. O, yolda bir dovşana rast gəldi. Dovşan kişidən soruşdu:

- A kişi, haravıyı niyə belə yavaş sürürsən?

- Ayıdan qorxuram, onun mana ajığı tutub. Mana deyif kin,harda əlimə keşsən səni parçalıyajam.

Dovşan dedi:

- A kişi, qorxma get, mən burda bütün heyvannarnan haray-həşir salajam. Ayı soruşsa kı, o nə haraydı? Onda deyərsən kin, meşədən ayıları və canavarrarı yığıllar.

Kişi meşiyə çatdı, odun qırıf haravasını yükləyirdi. Qəflətən ayı onun başını üsdünü aldı, kişidən təşviş içində soruşdu kun, meşədə bu haray-həşir nədi? Kişi cavaf verdi kin, meşədən ayıları və canavarrarı yığıllar. Ayı ağlıyıf dedi:

- A kişi, məni odunnarın altınnan haravıya qoy, həm də məni haravıya bağla. Elə biləjəklər ki, kötüyəm.

Kişi belə də elədi. Ayıyı möhkəmcə haravıya bağlıyıf, baltanı əlinə alıf ayının başını əzdi. Bu vaxt tülkü gəlif burya çıxdı, kəndlidən soruşdu:

- Ayını öldürdünmü?

- Bəli, öldürdüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- İndi sən mənə bir qonaxlıx verməlisən.

Kişi razılaşıf dedi:

- Mən haravaynan gedirəm, sən də düş qavağıma. Gedək sənin qonaxlığını evdə verim.

Kişi haravanı sürüf meşədən kəndə tərəf yollandı. Tülkü haravanın qavağında atıla-atıla gedirdi. Onnar gəlif çatdılar. Kişi dedi:

- A tülkü, burda dur, itləri çağırım sənin qonaxlığını versinnər.

Kişi itləri çağırmağa başdıyanda tülkü qaçıf meşiyə girdi. Hamıya hiylə işlədən tülküyü insan beləcə allatdı. Bütün heyvannar insannan qorxur, insan hamıdan ağıllıdı.

## KƏNDLİYNƏN PƏLƏNG

Bir kəndli xışnan yer şumluyurdu.

Bir də baxıf gördü kün, bir pələng yanında bir pişik ona tərəf gəlir. Pələng kişiyə yaxınnaşıf dedi:

- Ay kişi, mən səni parçalıyajam.

Kişi pələngə dedi:

- Mən sana nə yamannıx elimişəm kin, sən məni parçalıyırsan?

Pələng dedi:

- Sən mana çox yamannıx eliyifsən?

- Ay pələng, axı mənim sana güjüm çatarmı kın, bir yamannıx da eliyəm. Vallah mənim sana heş bir pisdiyim keçmiyif, öldürürsən öldür!

- Bax, bu pişik bizim nəsildəndi. Siz insannar bunu döyüf niyə belə hala salıfsınız? Bax elə buna görə mən səni bu saat parça-parça eliyəjəm. Kişi dedi:

- Çox yaxşı, amma sən silahlı, mən silahsız.

Bu sənin kimi bir iyidə yaraşan iş deyil. Qoy gedim mən də evdən silahımı gətirim, döyüşək. Pələng razı oluf dedi:

- Mən razı, get gətir, gözdüyürəm.

Kişi dedi:

- Axı mən gələnə qədər sən qaçarsan, gəl səni öküzün yerinə qoşum, sonra gedim.

Pələng razılaşdı.

Kişi öküzü aşdı, pələngi öküzün yerinə qoşdu, çuvuğu əlinə alıf dedi:



- Ay pələng, indi vuruşa hazıram.

O, çubuxnan pələngi o qədər döydü kün, pələng axırda şuma uzandı. Kişi dedi:

- Necəsən, yenə döyümmü?

Pələng dedi:

- Amandı, məni öldürmə, burax gedim.

- Yox, səni bu yanındakı pişiyə döndərməsəm, əl çəkmərəm. Onu bil ki, səni insan pişikdən də balaja edəcək, meşəni xəlvət görüf belə böyüyüfsən, hələ insan əlinə keçməmisən.

Pələng yalvarıf dedi:

- Ay insan, mən meşənin insan ayağı dəymiyən yerinə gedəjəm. Allaha and olsun ku, bir daha insana görünmərəm. Məni burax gedim.

Kəndli pələngi aşdı və dedi:

- İndi bil ki, insan kimdi, di get bir də insana sataşma.

Elə o günnən pələng meşənin sıxlığına getdi, insana görünmədi.

## PİŞİK, XORUZ, TÜLKÜ

Biri varıydı, biri yoxuydu. Bir pişiknən bir xoruz varıydı. Onnar mehribancasına bir yerdə yaşıyırdılar. Pişik bir meşəyə getməli oldu. O, xoruzu çağırıf dedi:

- Əgər tülkü gəlif, səni qonax çağırıf aparmax istəsə,başını çıxarıf ona göstərmə.Əgər göstərsən özün bil o, səni götürüf qaçajax.

Pişik yenicə çıxıf getmişdi kin, tülkü gəldi:

- Ay xoruz, xoruz! Gedək xırmanda qızıl alma diyirrədək!

Xoruz başını çıxaran kimi tülkü onu götürüf qaşdı. Xoruz çığırdı:

- Ay pişiyim, can pişiyim! Apardı tülkü məni, sıldırımlı dağlara, gurultulu çaylara!

Pişik xoruzun səsini eşitdi, qaçıf gəlif xoruzu tülkünün əlinnən aldı. Pişik yenə meşiyə getməli oldu. O, xoruza dedi:

- Qulaq as, bu dəfə mən lap uzağa gedəjəm. Əgər tülkü gəlif səni alladıf qonax aparmax isdəsə, boylanma, boynunu eşiyə çıxarma, əgər çıxarsan, o səni yenə götürüf qaçajax.

Pişik getdi, tülkü yenə gəldi:

- Ay xoruzum, qəşəng xoruzum, gəl gedək mənim balalarımnan bir yerdə oyna, sənə də bağda qonaxlıx eliyəjəm.

Xoruz başını çıxaran kimi tülkü onu götürüf qaçdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xoruz çox çığırdı, amma harayına çatan olmadı. Tülkü onu evinə gətirdi, istədi onu qızardıf yesin. Bu vaxt pişik gəlif çıxdı. O, quyruğunu pəncərədən sallıyarax dedi:

- Tülkü can, öz evində ailənnən yaxşıca yaşa. Mən sənin bütün uşaxlarını qırıf qurtarajam.

Bu zaman tülkünün balaları pişiyin qavağına yüyürdülər. Pişik tülkünün balalarını bir-bir tutuf boğdu. Tülkü eşiyə çıxan kimi pişik onu da öldürdü, xoruzu xilas elədi. Onnar evə qayıtdılar, kefi kök, damağı çağ ömür sürməyə başdadılar.

## XORUZUN ÖLÜMÜ

Bir xoruznan bir toyux xırmanda gəzişir, dənnənirdilər. Birdən xoruzun boğazında bir paxla dənəsi qaldı. Xoruz nə qədər elədi paxla dənəsi boğazınnan keşmədi. Toyuğun ona yazığı gəldi. Çayın yanına gedif onnan su istədi. Çay toyuğa dedi kin, get cökə ağacına deynən sana bir yarpax versin, gətir gəl mana, sana su verim. Toyuq gəlib cökə ağacına dedi:

- Cökə, ay cökə, bir yarpax ver, aparım çaya verim, çay mana su versin, suyu aparım xoruza verim, içsin paxla boğazınnan keşsin.

Cökə dedi:

- Get qızın yanına, sap istə, sapı gətir mana ver, mən də sana yarpaq verim.

Toyux gəlif qıza dedi:

- Qız, ay qız! Bir az sap ver, cökəyə aparım, cökə mana yarpax versin, yarpağı çaya verim, çay mana su versin, suyu da aparım xoruza verim, işsin paxla boğazınnan keçsin.

Qız dedi:

- Get inəkdən süd al, gətir mana ver, mən də sana sap verim. Toyux gəlif inəyə dedi:

- İnək, ay inək! Mana bir qədər süd ver, aparım qıza verim, qız mana sap versin, aparım cökəyə verim, cökə mana yarpax versin, yarpağı aparım çaya verim, çay mana su versin, suyu aparım xoruza verim, içsin paxla boğazınnan ötsün.

İnək dedi:

- Ay toyux, get ot biçənnərin yanına, onnardan ot istə, onda sana süd verərəm.



Toyuq gəlif ot biçənnərə dedi:

- Ay ot biçənnər, ay ot biçənnər! Bir az mana ot verin, aparım inəyə verim, inək mana süd versin, sapı aparım cökəyə verim, cökə mana yarpax versin, yarpağı aparım çaya verim, çay mana su versin, suyu aparım xoruza verim, xoruz işsin boğazındakı paxla keşsin.

Ot biçənnər dedilər:

- Ay toyuq, get dəmirçinin yanına, qoy sana dəryaz qayırıf versin, dəryazı gətir bizə ver, biz də sənə ot verək.

Toyuq dəmirçilərin yanına getdi.

- Ay dəmirçilər, ay dəmirçilər! Siz mana bir dəryaz verin, mən dəryazı ot biçənnərə verim, ot biçənnər mana ot versinnər, mən otu aparım inəyə verim, inək mana süd versin, südü aparım qıza verim, qız mana sap versin, sapı aparım cökəyə verim, cökə mana yarpax versin, yarpağı aparım çaya verim, çay mana su versin, suyu aparım xoruza verim, xoruz da suyu içsin boğazında qalmış paxla keşsin.

Dəmirçilər dedilər:

- Ay toyux, get kömürçülərdən kömür al gətir, biz də sana dəryaz verək.

Toyux gəlif kömürçülərə dedi:

- Kömürçülər! Ay kömürçülər!

Mana bir qədər kömür verin, aparım dəmirçilərə verim, dəmirçilər mana dəryaz versinnər, dəryazı aparım ot biçənnərə verim, ot biçənnər mana ot versinnər, otu aparım inəyə verim, inək mana süd versin, südü aparım qıza verim, qız mana sap versin, sapı aparım cökəyə verim, cökə mana yarpax versin, yarpağı aparım çaya verim, çay mana su versin, suyu aparım xoruza verim, işsin paxla boğazınnan keçsin.

Kömürçülər toyuğa kömür verdi, toyux kömürü dəmirçiyə verdi, dəmirçi kömürdən dəryaz qayırıf toyuğa verdi, dəryazı ot biçənnərə verdi, ot biçənnər ona ot verdilər, otu inəyə verdi, inək ona süd verdi, südü gətirif qıza verdi, qız ona sap verdi, sapı gətirif cökəyə verdi, cökə ona yarpax verdi, yarpağı gətirif çaya verdi, çay ona su verdi. Toyuq suyu Xoruza apardı. Xoruz uzanmışdı, artıx ölmüşdü.

Vaxtsız çatan dərman ölüyə qismət olar. Xoruz da su dərdinnən beləcə öldü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AYI İLƏ QIZ

Biri varıydı idi, biri yoxuydu, bir qojaynan bir qarı varıydı. Onnarın Mələk addı bir qızı varıydı. Bir gün qızın rəfiqələri Mələkgilə toplaşıllar. Mələyə də deyillər kin, gəl bizinən meşiyə morux yığmağa gedək. Valideynnəri Mələyin meşiyə getməsinə icazə verdi. Ona tafşırdılar kın, rəfiqələrinnən dalda qalmasın. Qızdar meşiyə getdilər, moruğ yığmağa başdadılar.

Mələk bir kolun dalına girdi, yoldaşdarınnan dalda qaldı. Meşədə gəzdi, dolandı, yoldaşdarını tapa bilmədi, meşədə azdı. O, gəzə-gəzə gəlif meşədə bir daxmıya rast oldu. Daxmanın qapısını döydü, amma heş kim cavaf vermədi. Qapını itələdi, qapı açıldı. Mələk daxmıya girif kürsünün üstündə oturdu.

Daxmada bir ayı yaşıyırdı, amma Mələk daxmıya gələndə ayı orda yoxuydu. Axşam ayı evə gəldi, qızı görüf sevindi, ayı qıza dedi:

- İndi mən səni heç yana buraxmıyajam, daha sən mənim yanımda qalajan.

Mələk çox ağladı, amma bir şey çıxmadı. Qız meşədə ayıynan bir daxmada yaşamalı oldu.

Ayı bütün günü meşiyə gedirdi. Mələyə deyirdi kin, icazəsiz heş bir yana getməsin. Əgər qaçıf getsən, fərqi yoxdu, səni tapajam, tapan kimi də yeyəjəm.

Mələk fikirrəşdi kin, ayının əlinnən nejə qaçıf qurtarsın. Axırda ayıya dedi:

- Ay ayı, mən ata-anamdan ayrı yaşıya bilmərəm, axı. Heç olmasa sən kəndə get, ata-anama da hədiyyə apar, ata-anamnan icazə al.

Ayı razılaşdı. Mələk daxmada olannan böyük bir zənbil düzəldif ayıya verdi. Sonra ayıya dedi:

- Sən bir qədər gözdə, mən zənbilə morux da qoyum. Bu zaman qız zənbilə girdi, üzərinə də daxmadan qoyduğu şeyləri yerrəşdirdi. Ayı qayıdıf gəldi kin, zənbil hazırdı. Ayı zənbili çiyninə götürüf kəndə getdi.

Ayı bir xeyli gedənnən sonra yoruldu. O, bir kötüyün üsdündə oturuf dincini aldı. İstədi kin, zənbildən morux yesin. Bu zaman qız zənbildən deyirdi kin, görürəm, moruğu yemə, anama apar.

Ayı o tərəf, bu tərəfə boylandı, qızı görə bilmədi. Duruf yenə zənbili dalına alıf kəndə tərəf getdi. Bir qədər gedənnən sonra yenə



yoruldu, bir kötüyün üstə əyləşif morux yemək istədi. Bu zaman yenə qız dedi:

- Görürəm, görürəm, moruğu yemə, anama apar!

Ayı dedi:

- Ay hiyləgər, gör bir necə uzaxdan görür.

Ayı duruf yola düşdü, o, kəndə çatdı. Mələyin ata-anasının yaşadığı evi tapdı. Qapıyı taqqıldadıf dedi:

- Qapını açın, qızınızdan sizə hədiyyə gətirmişəm.

Bu zaman itdər ayının üsdünə cumdular. Ayı itdərdən qorxuf, zənbili darvazanın ağzında qoyuf meşiyə qaçdı. Qojaynan qarı da darvazanın ağzına gəldilər, zənbili götürüf evə apardılar. Zənbili açanda Mələyin zənbilin içində güldüyünü gördülər. Öpüşüf görüşdülər. Qız gülərək dedi:

- Mən ayıya belə kələk gəldim.

Göydən üç alma düşdü: biri nağıl danışanın, biri nağıla qulaq asannarın, biri də kənardan baxannarın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QILLICA

Biri varıymış, biri yoxuymuş, Allahın bəndəsi çoxuymuş. Bir kişi varıymış. Bu kişi çox kasıflıxnan dolanırmış. Kişinin arvadı bir gün ölür. Kişinin bir qızı qalır. Qız da çox kasıflıxnan yaşıyırmış. Qonşu arvaddarı bir gün çay kənarında qaynar asıbbışdar, paltar yuyurmuşdar. Kişinin Qıllıca addı qızı gəlif burya çıxır. Qıllıca qaynar asıf paltar yuyan arvaddara derkin, xeyriniz olsun, nə gözəl qaynar asıfsınız, nə qəşəng paltar yuyursunuz. Mənim də paltarım olsaydı siznən yuyardım. Arvaddar Qıllıcaya deyillər ki, get anayın paltarını geyin gəl, sən də burda biznən baravar paltar yu. Qıllıca onnara deerkin, atamdan qorxuram, atam bilsə məni döyər. Arvaddar hamısı bir yerdən deellərkin, ay qız, öz doğma anayın paltarını geyinməkdən ötəri atan səni döyməz, get geyin gəl. Qız arvaddarın sözünə inanıb, gedif anasının al qumaş, qızıl, gümüş paltarını geyinib gəlir. Arvaddar derlərkin ay bərəkallah, sən nə qəşəng, nə gözəl oldun. Anayınkı belə paltarı varmış, bə sən indiyənətən niyə geymirdin. Soyunma, sana yaxşı yaraşır.

Qız anasının paltarı ilə öylərinə gəlir. Atası qızı görəndə arvadı yadına düşür, arvadıma necə də oxşuyur. Paltar ona nejə də gözəl yaraşır . Ona görə də qızına derkin, ay qız, daha innən belə sən mənim arvadımsan. Qız deerkin, ay ata, axı sən mənim atam döysənmi, elə də şey olarmı, el sana nə deyər. Kişi deer kin, sana kim dedi kin, get anayın paltarını geyin, mən əhd eləmişdimkin, arvadımın paltarını kim geysə, arvadıma oxşasa, mən onnan evlənəjəm.

Qız naəlac qalıf gejəykən bir keçi dərisinə bükülüb evdən çıxır, gedif bir bəyin həyətindəki küllüyə girir...

Bəyin qaravaşdarı səhər zivilləri zivilliyə tökərkən burada keçi dərisində qızı görüllər. Onnar evə dönərkən xanıma xavar verillərkin, zivillikdə keçi dərisində qıllı bir şey var. Onnar külü eymənddikləri üçün küllüyə tökə bilməyif geri qayıdıflar. Əhvalatı xanıma belə nağıl eliyillər:

- Xanım sağ olsun, küllükdə bir eyvənd (əcayib) şey var, tamam qıllıdı, nə inni-cinnidi.

Xanım geyinif qaravaşlarla küllüyə gəldi. O, küllükdəki Qıllıcaya



dedi:

- Ey, de görüm, sən nə inni-cinnisən, kimsən, nə karəsən, sən burda nə eliyirsən?

Qıllıca dillənif dedi:

- Xanım, sənə qurvan olum, kimsəsizəm, heç kimim yoxdu. İndi sənin küllüyünə sığınmışam. Mana bir qarın çörək ver, yal ver içim, məni burda saxla.

Xanım cavaf verdi:

- Yox, mən səni burda saxlaya bilmərəm. Gəl evə gedək, mən səni orada saxlıyım.

Qıllıca razılaşır. Xanım Qıllıcanı evə gətirir. Evin bir küncündə ona yer verir. Qıllıca burada yaşamalı olur. Beləcə Qıllıca bir müddət burada yaşayır.

Günnərin birində kənddə toy olur. Xanım və qaravaşdarı toya gedəsi olullar. Onnar Qıllıcıya derlərkin, ay Qıllıca, gəl sən də biznən toya gedək. Qıllıca xanıma derkin, ay xanım, sana qurvan olum, mənim toylu günümmü var? Mənim toyda nə işim var, hərə bir tükümü çəkər, mən qılsız qalaram. Qıllıca getmir toya, xanım və qaravaşdar geyinif-gejinif toya gedillər.

Onnar gedənnən sonra Qıllıca qıl paltarını soyunub zər-ziba, gümüş-zər paltarını geyinif toya gedir. Qıllıca toyda oynuyur. O, oynuyarkən kişilər tərəfə qızıl, qadınnar tərəfə gümüş səpir. Oyunu qurtarannan sonra tez evə qayıdır. Qıllıca qıllı paltarını geyinif xanımı və qaravaşdarı gözdüyür. Xanım və qaravaşdar toydan gəlillər. Qıllıcanı dannıyırlar kın, ağlın qara gəlsin, toya niyə getmədin? Qiyamət oldu. Qızıl-gümüş paltarrı bir qız toyda oynadı. Qız kişilər tərəfə qızıl, arvaddar tərəfə isə gümüş səpdi.

Qıllıca köksünü ötürüf dedi:

– Eyy, neynim, mənim toylux günümmü var. Xanım, siz xoşbaxt olun, elə mənə yer elədiyin bəsdi. Çox sağ olun, sizdən razıyam.

Ertəsi günü genə toy varıydı. Xanım və qaravaşdar bəzənif-bərtənif toya getdilər. Qıllıca genə də zər-gümüş paltarını geyinif toya getdi. O, genə toyda oynadı. Bu dəfə oynuya-oynuya kişilər tərəfə qızıl, arvaddar tərəfə kül səpələdi.

Bir azdan xanım və qaravaşdar toydan qayıtdılar. Qıllıca onlardan soruşdu:

– Ay xanım və qaravaşdar, bu gün gününüz necə keşdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xanım dedi:
– Eh bir baxtafarın biri oynadı.
İndi kişilər tərəfə qızıl, arvaddar tərəfə kül səpələdi. Ancaq oldukun, gözümüzü oxaladıq, heç şey görmədik.
Bir gün qaravaşdar nökərlər üçün çörək bişirirdilər. Qıllıca qaravaşdara yalvarırkın, qoyun mən də çörək bişirim. Qaravaşdar irazı olmullarkın, sən bişirə bilməssən. Qıllıca yalvar-yaxar elədi kin, əşi niyə bişirə bilmərəm. Nolar, qoyun birini də mən bişirim. Axırda qaravaşdar razı oldular.
Qıllıca üzüyünü barmağınnan çıxarıf çörək xamırının içinə qoyuf bişirdi. Qaravaşdar çörəyi nökərlərə apardılar. Nökərlər çörəyi qırıb yeyəndə çörəyin içindən bir qızıl üzük çıxdı. Nökər başa düşdükün, bu Qıllıcanın işi olacaq. O, qaravaşdara dedikin, qoy çörəyi bir dəfə də Qıllıca gətirsin. Qaravaşdar irazılaşdılar.
Bu dəfə qaravaşdar çörəyi-xörəyi Qıllıcaya verif dedilərkin, apar nökərə ver. Qıllıca çörəyi gətirib nökərə verdi, amma qapıdan içəri girmədi. O, nökəri dannadı ki, niyə çörəyi mana gətirdirsiniz, mənnən nə isdəyirsiniz?
Nökər nə qədər elədi, Qıllıca içəri girmədi. İşi belə görən nökər hoppanıf xancalla Qıllıcanın qıl paltarını cırım-cırım elədi. Bu vaxt nökər nə görsə yaxşıdır. Qıllıcanın zər gümüş paltarı. Nökər qızın bu zər-gümüş paltarını görəndə özünnən getdi, yerə yıxıldı.
Qaravaşdar xeyli gözlədilər, amma Qıllıca geri qayıtmadı. Qaravaşdardan biri Qıllıcanın dalısınca getdi. Qaravaş gəlib gördükün, ey dili qafil, Qıllıcanın qıl paltarı cırılıb, alt paltarı da par-par parıldayır. Nökər də süst düşübdü yerə. Qaravaş tez xanıma xavara qaşdı. Nökər ayılıb Qıllıcanı genə burda gördü.
Xanım gəlif Qıllıca ilə nökəri bir yerdə gördü. Əhvalatı belə görən xanım nökərlə Qıllıcanı evləndirmək qərarına gəldi.
Xanım toy eləyib Qıllıcanı nökərə aldı. Qıllıca nökərlə şad-xürrəm yaşadılar. Onnarın toylarınnan aylar, illər keşdi. Qıllıca hamilə oldu. Doqquz ay, doqquz gün keçənnən sonra Qıllıca yükünü yerə qoydu. Onun nökərdən bir oğlu oldu. Beləcə günnər gəlib keçirdi.
İndi sizə kimnən xəbər verim, Qıllıcanın atasınnan. Kişi ayılıb qızını evdə tapmadı. Ora qız, bura qız, heç yerdə qızdan soraq tuta bilmədi. Kimdən soruşdu "Gördüm" deyən olmadı. Hər yerdə ümidini kəsdi. Elə olurkun, Qıllıcanın atası xanıma qonağ olur. O, burada, qızını tanıyır. Xudbin, şərə susamış kişi gejə hamı yatannan sonra ülgüclə Qıllıcanın oğlunun başını kəsir, ülgücü də Qıllıcanın qoynuna soxur.



Səhər açılır, hamı yuxudan oyanır. Baxıf gördülərkin, Qıllıcanın oğlunun başını kəsiflər. Xanım kişinin üsdünü kəsif deerkin, a kişi bu sənin, sənin işindi. Kişi and-aman edirkin, mənim elmi gümanım gəlməz. Vallah-billah mənim xavarım yoxdur. güman anası qoynuna. Qıllıcanın qoynunu axtaranda qanlı ülgücü ordan tapıllar. Xanım və nökər Qıllıcanın gözdərini çıxardıb ovcuna qoyullar, oğlunu da qucağına bələyib evdən qovullar.
Qıllıca dəvdənə-dəvdənə ahu-zar eliyə-eliyə kənd yuxarı gedir.
Gedif bir qovax ağacının divində oturuf Allaha yalvarır.
- Ay Allah, mən yetimin başına bu xataları niyə gətirirsən, mən sana neyləmişdim? Məni şərə salannara, günahsız olarax gözdərimi çıxardannara niyə qənim olmursan? Məni bu zulumnan qurtar, ay Allah!
Bu zaman göydən bir quş enif gəlif Qıllıcanın yaxınına qonub dedi:
- Bala,nə istəyirsən, sənin gözlərini kim çıxarıb, balanın başını kim kəsif? Fikir eləmə, hər şey düzələr. Al bu lələyi gözdərinə sürt, qoy gözdərin sağalsın.
Qıllıca quşdan lələyi alıb gözdərinə sürtdü, qızın gözdəri sağaldı. Quş bir lələk də verif dedikin, bunu da oğluyun boğazına sürt qoy oğluyun boğazı qurtarsın. Qız lələyi oğlunun boğazına sürtdü, oğlanın boğazı da qurtardı. Quş bir lələk də verib dedi:
- Al, bu lələyi də isdədiyin gözəl yerdə dairəvi hərlə arzu etdiyin qədər, sənə gözəl, yaraşıqlı bir otaq hazır olacaq, həm də bütün avadanlıqlar da olacaq.
Qıllıca oğlunu da götürüb kəndin kənarındakı mənzərəli bir yerə çatdılar. Orada quşun verdiyi lələyi dairəvi fırradı. Gözəl, göyçək, yaraşıxlı bir bina peyda oldu. Aylar, illər keşdi, Qıllıcanın oğlu getdikcə böyüyürdü. O həmişə oğluna, "böyü, boy at, get mənim qisasımı al, qayıt"–deyə sevələyirdi. Qıllıcanın oğlu böyümüşdü. Bir gün o, anasınnan soruşdu:
- Ay ana, mənim atam kimdi, biz burda niyə tək yaşayırıx?
Qıllıca oğlunun başını sığallıyıb onu öfdü, dedikin, oğlum, hələ tezdi, böyü, boya-başa çat mən hamısını sənə deyəjəm. Sənin adın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tanrıverdidi, özünnən məşğul ol, başqa iş lazım deyil.

Tanrıverdiyi tənhalıx üzürdü, o, uşaxlarla gəzmək, gün keçirmək istiyirdi. Anasınnan hər gün soruşurdu kun, bizim heç qohumumuz, qonşumuz yoxdurmu? Anası da onu həmişə ovundururdu. Bir gün Tanrıverdi evə gələndə anası gördü kün, onun belində xançal var. Qıllıcanın matı-qutu qurudu. Oğlunnan soruşdukun, ay Tanrıverdi bu xançalı hardan aldın? Tanrıverdi anasına çatdırdı ki, kəndin yaxınnığında çoxlu uşaxlar varıydı. Onnar orada dövrə vurub oynaşırdılar. Mən də onnara qarışdım. Sonra güləşəngiyə başdadılar. Onnarın içində bir bəy oğlu varıydı. O, uşaxlara dedikin, kim məni yıxsa, bax bu belimdəki xançalı ona verəjəm, həm də onnan qardaş olajam. Uşaxlar birbir onnan güləş tutdular, amma heş biri onu yıxa bilmədi. Axırda tək mən qaldım:

– Bəy oğlu, mən qəribəm, təkəm, sənlə güləş tuta bilmərəm.

Bəy oğlu əl çəkmədi. Güləşdik, mən onu yıxdım, yenə güləşdik. Düz üç dəfə güləşdik, üçündə də onu yıxdım. O, məni qujaxlayıb öpdü, xançalı da belimə bağladı. Özü də dönə-dönə dedi kin, şərtimiz şərtdir, daha innən belə sən mənim qardaşımsan. Özü də bizə gələjəksən. Ana, ona hörmət elə, qoy mənim qardaşım olsun.

Səhəri bəy oğlu bir neçə cavannan gəldi. Qıllıca onnarı mehriban qarşıladı. Bəybala Qıllıcaya bildirdikin, Tanrıverdi Bəybalanın qardaşıdı. Qıllıcanı fikir götürmüşdü. Ay Allah, görəsən bu hansı bəyin oğludu.

Bəybalanın adamları gəlif çıxdılar. Onnar yerbəyer oldular. Qıllıca gələnnər içində xanımı tanıdı, özünü onun üstünə atdı. Xanım gözdərinə inanmadı. Qıllıca oğlunun başının kəsilməsinnən xəbəri olmadığını və onu qonağın elədiyini xanıma söylədi. Xanım Qıllıcanın başına gələn bütün hadisələrnən yaxınnan tanış oldu. Oğlannarını yanına çağırıf dedi:

- İndi hamınız bilin ki, ananızın başına bu fəlakəti açan onun atası oluf. Hər ikiniz ananızın qisasını almalısınız.

Bəybalaynan Tanırverdi Qıllıcanın atasını cəhənnəmə vasil etdilər.

Şər işdər Qıllıcanın evinnən yox oldu. Nökər də gəlib Qıllıcaynan birrikdə xoş günnər keçirdilər. Nağılı eşidənnərə də belə xoş günnər qismət olsun.



## ÇAL AT, QONUR AT

Biri varıydı, biri yoxuydu, bir qoca varıydı. Bunun da üç oğlu varıydı. Oğlannarın ikisi qoçağıydı, üçüncü kiçik oğlu Əliş isə vecsiz idi. Heç bir işə yaramırdı. Bütün günü sobanın qırağında oturuf burnunu eşirdi. Günnərin bir günündə kişi oğlannarının üçünü də başına yığıf dedi:

- Balalarım, daha mən ölürəm. Elə kin mən öldüm, basdırannan sonra növbə ilə gəlif qəbrimin üsdündə üç gün keşik çəkərsiniz. Bunu deyif qoca gözlərini yumdu. Oğlannarı kişini dəfn etdilər.

Gecə düşdü, böyük qardaş qəbrin üstə gedif orada gecələməli oldu. Ancax tənbəllikdənmi, qorxudanmı kiçik qardaşa dedi:

- Axmax Əliş, dur get atamın qəbri üzərində mənim əvəzimə keşik çək. Sən kin, burda heç bir işə yaramırsan.

Axşam Əliş duruf getdi, atasının qavrına keşik çəkməyə başladı. Gecənin yarısı olmuşdu, birdən atasının qəbri yarıldı, qoca qəbirdən çıxıf soruşdu:

- Kimdir, burda keşik çəkən, böyük oğlumdurmu?

- Yox, ata, Əlişəm.

- Niyə böyük oğlum gəlməyif?

- Ata, o məni göndərdi.

- Görünür, oğlum, sənin bəxtin gətirif?

Qoca bərkdən fit çaldı, qulaqbatıran bir səslə haraylıdı:

- Ey çal at-qonur at, ey bilici quzğun!

Kişinin bu qışqırığınnan sonra çal at elə qoparaq gəldi kin, ayağının altında yer titrədi, gözlərinnən od tökülürdü, burnunnan buğum-buğum tüstü tökülürdü.

- Oğlum, bu da sənin köhlən atın. Ey çal at, mənə necə qulluq etmisən, oğluma da elə qulluq eləyərsən?

Qoca bunnarı deyif qəbrə çəkildi. Axmax Əliş çal atı tumarladı, oxşayıf buraxdı, sonra qayıdıf evə gəldi.

Evdə qardaşları soruşdu:

- Axmax Əliş, nejə oldu, yaxşı gejəliyə bildinmi?

- Çox yaxşı keşdi, qardaşdarım.

O biri gejə gəldi. Ortancıl qardaş keşik çəkməyə başdadı. Ancax bu da işi yarımçıx qoyuf evə qayıtdı. Axmax Əlişə dedi kin, get bu gejə də mənim əvəzimə keşik çək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axmax Əliş bir söz deməyib duruf qəbrə tərəf getdi, keşik çəkif, gejənin yarı olmasını gözlədi. Gejə yarı olanda yenə qavır yarıldı, atası ordan çıxıf soruşdu?

- Kimdi keşik çəkən, ortancıl oğlumdurmu?

- Yox atacan, yenə mən gəlmişəm.

Qoca yenə fit verif çağırdı:

- Ey çal-qonur at, ey bilici quzğun!

Qojanın bu fitinnən sonra yenə də çal at gəldi, ayaqlarını altında yer titrədi, gözlərinnən od parladı, burnunnan buğum-buğum tüstü püskürdü.

- Ey qonur at, ey bilici quzğun mənə necə qulluq eliyifsiniz, oğluma da eləjə qulluq eliyərsiniz! - deyif qoja yenə qavıra girdi.

Axmax Əliş qonur atı tumarlıyıf buraxdı, özü də evə gəldi.

Qardaşları soruşdu:

- Ay axmax Əliş, nejə gejələdin?

- Yaxşı gejələdim, qardaşlarım.

Üçüncü gejə növbə axmax Əlişin özünün idi. O, heç nə soruşmayıf getdi. Qavrın üsdünə uzanıf yatdı. Gejə yarı yenə qoja gəldi. O, bildi kin, indi keşik çəkən axmax Əlişdi. O, yenə fit çaldı, qışqırıf dedi:

- Ay çal-qonur at, ey bilici quzğun!

Kişinin çağırışınnan sonra yenə çal-qonur at, bilici quzğun hazır oldu. Kişi dedikin, ay çal-qonur at, ey bilici quzğun mənə necə xidmət eliyifsiniz, bu oğluma da elə xidmət eliyərsiniz. Kişi axmax Əlişnən də görüşüf getdi.

Axmax Əliş atı da, bilici quzğunu da tumarlayıf çölə buraxdı, özü də evə gəldi. Qardaşları yenə soruşdular kın, nejə gejələdin? Axmax Əliş cavaf verdi kin, yaxşı gejələdim.

Onnar beləcənə dolanmaxda oldular. Genə böyük qardaşdar işə gedir, axmax Əliş isə genə də boşbikar gəzirdi...

Günnərin bir günündə padşah belə bir car çəkdirdi: Kim imarətin başındakı padşahın qızının şəklini qopartsa, padşah qızını ona verəcək!

Qardaşdar gedif haman tirə baxmaq istədilər, görsünnər kin, bu nejə tirdi, onu keçmək olarmı? Belə olanda axmax Əliş dedi kin, ay qardaşlar, qoyun mən də gedim baxım. Qardaşları buna rişxənd edif güldülər:

- Kəs səsini, ora sənin yerin deyil, gedif camaatı üsdümüzə güldürəcəksən.



Axmax Əliş əl çəkmədi, dedikin, mən də bir at minif gedəjəm.

Qardaşları onun öhdəsinnən gələ bilmədilər, yenə gülüşüf dedilər:

- Yaxşı, Allah sənin bəlanı versin, get o çolax yabını min get. Qardaşdar çıxıf getdilər. Axmax Əliş də onnardan sonra çolax atı minif bir çəmənniyə gəldi, yabıdan düşdü. O, yabını öldürdü, dərisini soyuf otlağa sərdi, ətini də tulladı. Sonra başdadı bərkdən fit çalmağa, qışqırıf haraylamağa:

- Ey çal-qonur at, ey bilici quzğun!

Bir göz qırpımında çal-qonur at, bilici quzğun budu gəldi. Gəldi nə gəldi; ayağının altında yer titrədi, gözlərinnən od töküldü, burnnan buğum—buğum tüstü püskürdü. Axmaq Əliş atın qulağına nəsə dedi. Birdən burda böyük bir süfrə açıldı. Axmax Əliş yedi-işdi. Sonra axmax Əliş atın o biri qulağına nəsə dedi. Bu zaman gözəl paltarlar geyindi, oldu gözəl göyçək bir oğlan.

İndi bu paltarda qardaşdarı da onu tanıya bilməzdilər. Axmax Əliş çal-qonur atı minif getdi kin, şəkli qopartsın. O, atı minif meydana gəldi. Burda camaatın sayı-hesabı yox idi. Bu gələn qəşəng oğlanın hamı tamaşasına durdu. Heç kəs onu tanıya bilmədi. At sıçradı, üç tir qalmışdı kin, şəkli qopartsın, ancax qopara bilmədi. Doğrudur, onun haradan gəldiyini gördülər, ancax hara getdiyini görmədilər.

Axmax Əliş gəlif haman çəmənniyə çatdı. Atı buraxıf evə gəldi. Bu zaman qardaşlar gəlif çıxdılar. Onnar arvaddarına dedilər:

- Ay arvaddar, bu gün ora elə bir qəşəng oğlan gəlmişdi kin, biz ömrümüzdə belə qəşəng oğlan görməmişdik. Atı minif istədi kin, şəkli qopartsın, ancaq qoparda bilmədi. Onun hardan gəldiyini gördülər, ancax hara getdiyini görmədilər. O, bir də gələjək...

Axmax Əliş qardaşdarına dedi:

- Qardaşdarım, orda olan mən deyildim kin?

- Buna bax, buna. Ay axmax sən hara, ora hara? Sən otur, sobanın yanında, burnunu eşməyə başda, ora sənin yerin deyil. Bir vaxt keçdi, padşah genə car çəkdirif dedirti kin, kim şəkli qopartsa, qızımı ona verəjəm.

Qardaşdar genə getməyə hazırraşdılar. Bu zaman axmax Əliş qardaşdarına dedi kin, ay qardaşdar, mənə də bir at verin, gedim mən də baxım. Onnar cavaf verdilərkin, kəs səsini axmax, gedif o biri atın da axırına çıxajaxsan, get otur sobanın yanında burnunu eş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qardaşdar getdilər, axmax Əliş gedif çolax madyanı minif haman çəmənniyə gəldi. O, atdan düşüf onu kəsdi, dərisini çəmənniyə sərdi, ətini də tulladı. Genə qışqırmağa, haraylamağa başladı:

- Ay çal-qonur at, ey bilici quzğun!

Qonur at çapıb gəldi, ayağının altınnan yer titrədi, gözlərinnən od töküldü, burnunnan burum-burum tüstü püskürdü.

Axmax Əliş genə atın sağ qulağına nəsə dedi. O saat növbənöv xörək hazır oldu. Axmax Əliş xörəklərdən doyunca yedi. Sonra atın sol qulağına nəsə dedi. Bu dəfə qəşəng paltarrar yarandı. Axmax Əliş bu gözəl, qəşəng paltarrarı geyif, ata süvar oldu. Gedif haman meydana çatdı. Ata bir qamçı vurdu, at şahə qalxıf tirə tərəf gəldi, at tirə dırmaşdı, iki tir qalmışdı kin, şəkli qopartsın, ancax qopara bilmədi. Genə də sobanın yanında oturuf qardaşdarını gözdəməyə başdadı. Qardaşdarı gəldilər, arvaddarına genə ordakı əhvalatı danışdılar. Axmax Əliş onnara dedi:

- Ay qardaşdar, orada olan mən deyildim kin?

Qardaşdar genə ona gülüf dedilər:

- Otur yerində axmaq, sən hara, ora hara?

Bir neçə vaxtdan sonra padşah genə car çəkdirdi. Qardaşdan genə orya getməyə hazırraşdılar. Axmax Əliş onnara yalvardı kın, mənə də bir at verin, gedim mən də baxım. Qardaşdar dedilər kin, Allah bəlanı versin, arıx madyanı min get. Özləri də getdilər. Axmax Əliş arıx madyanı minif çəmənniyə gəldi. Atı kəsif dərisini sərdi, ətini də tulladı. Genə qışqırmağa başdadı:

– Ey çal at-qonur at, ey bilici quzğun!

Quzğun uçuf gəldi, çal at çaparaq gəldi, aşağıda yer titrədi, gözlərinnən od tökülürdü, burnunnan buğum-buğum tüstü püskürürdü. O, axmax Əlişi doyunca yedirtdi, içirtdi. Sonra təzə qırmızı irəngdə olan paltarnan geyindirdi. Sonra axmax Əlişi dalına mindirif meydana yola düşdü. Gedif padşahın meydanındakı tirrərin hamısını qopartdı, onun hardan gəldiyini gördülər, ancax getdiyi yeri görə bilmədilər.

Axmax Əliş evə gəldi. Qardaşdar da gəlif çıxdılar. Olan işi danışdılar. Qardaşdara axmax Əliş dedi:

– Ay qardaşdar, orada olan mən deyildimkin?

Qardaşdar yenə qəhqəhə çəkib güldülərkin, ay axmax bəs ora sənin yerin idi?

Günnər keçdi, padşah böyük bir məclis qurdu. Hamı ora yığıldı,



yeyib, içməyə başladılar. Padşahın qızı oturannara şəraf payladı. Axmax Əliş də burada idi. Hamı yedi-içdi, ancax heç kəs dəsmalı çıxarıf ağzını silmədi. Məclis dağıldı, qız adaxlısını tapa bilmədi.

Padşah ikinci gün də məclis qurdu. Genə də gəldilər, yedilər, içdilər, ancax heç kəs dəsmalı çıxarıf ağzını silmədi. Məclis dağıldı. Padşahın qızı fikirrəşə-fikirrəşə qaldı. Axı bu nə cür işdi, bəs bu dəsmalı aparan niyə üzə çıxmır?

Nəhayət, padşah üçüncü gün də bir məclis qurdu. Hamıya yemək paylandı. Axmax Əliş də burada idi. O, heç kəsin tanımadığı paltarda sobanın yanında əyləşif xörək yeyirdi. Padşahın qızı hamıya şəraf payladı, genə heç kəs ağzını dəsmalla silmədi. Bu zaman padşahın qızı ətrafa göz gəzdirdi, baxıf gördü kün, sobanın yanında nabələd bir şəxs var. Padşahın qızı buna da şəraf süzdü. Axmax Əliş şərabı içif, dəsmalı çıxarıf ağzını sildi. Padşahın qızı dəsmalı tanıdı. O, axmax Əlişi atasının yanına apardı.

- Ata, budu mənim nişanlım!

Bunu eşidəndə elə bil qardaşların ürəyinə bir bıçaq sancıldı, fikirrəşməyə başladılar: "Görən padşahın qızı dəli olufdu, deyir kin, axmax Əliş mənim nişanlımdı".

Burada mətləf bitdi. Padşah böyük toy məclisi qurdu, qızını axmax Əlişə yox, ağıllı, tədbirli Əlişə verdi. İndi hamı onu tanıdı. Elə bu vaxt qardaşdarı başa düşdülər kin, gedif ata qavrının üsdündə yatmaq nə demək imiş!

Göydən üç alma düşdü: biri nağıl danışana, biri onu dinləyənnərə, biri də kənarda mat qalıf duran qardaşdara.

## SEHRLİ KÖYNƏK

Bir vilayətdə bir varrı tacir yaşayırdı. Bir vaxtdan sonra tacir öldü. Onun üç oğlu qaldı. Bunnar yaşa dolmuşdular. Oğlannarın iki böyüyü bir gün ova gedirdilər. Günnərin bir günündə onnar analarınnan icazə alıf kiçik qardaşlarını da özləri ilə meşiyə ova apardılar. Böyük qardaşdarı kiçik qardaşdarını meşənin qalın yerində azdırdılar. Onnar belə fikir elədilərkin, ata varisliyini iki qardaş öz aralarında bölsünlər. Beləcə də kiçik qardaşlarını meşədə qoyuf evə qayıtdılar.

Kiçik qardaş meşənin sıxlığınnan gəlif bir talıya çıxdı. O, burada bir ev gördü. Onun hər tərəfini yoxladı, sonra otağa daxil oldu. Otağı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəzdi, otaq səliqə ilə təmizlənif süpürülmüşdü. Evin otaqları boran-boş idi. Təkcə bir otaqda üç nəfərlik xörək hazırlanmış və xörəyin qarşısında bir şüşə şərab qoyulmuşdu. Tacir oğlu bu xörəklərin hərəsinnən bir tikə götürüf yedi, şərabın da hərəsinnən bir qədər içdi, sonra qapının dalında gizləndi. Bu vaxt göydən bir qartal uçuf gəldi. O, yerə endi, çırpındı, bir oğlan oldu. Bunun ardınca bir şahin gəldi, o da çırpınıf bir oğlan oldu. Şahinnən sonra bir sərçə gəldi. O da çırpınıf bir oğlan oldu. Onnar yığışıf yemək otağına gəldilər.

Qartal dedi:

- Kimsə xörəkdən, şərabdan bir az dadıb.

Şahin də, sərçə də dedilər kin, düz deyirsən, bizimkinnən də dadıblar. Onnar belə qonağı axtarıf dedilər:

- Ay qonax, əgər qoja kişisənsə, atamız ol. Qoja qadınsansa, anamız ol, cavan bir pərisənsə bacımız ol, oğlansınız qardaşımız ol, üzə çıx bizimlə yaşa.

Tacir oğlu çıxıf onnara qarışdı. Qartal ona dedi kin, bax innən belə sən də bizim qardaşımız, sən desən biz hazırıq.

Bir gün qartal tacir oğluna dedi:

- Bax, sənə bir qulluq, biz bir illlik burda olmayacağıq, sən evləri saxla. Biz gələn günü xörək hazırla. Ancaq yadında saxla, bax bütün qapıları açarsan, bu köhnə açarla bu qapını açmazsan.

Onnar belə deyif çıxıf getdilər. Tacir oğlu bir gün həyətdə gəzinirdi. Birdən möhkəm qıfıllanmış bir qapı gördü, istədi kin, ora baxsın. Bütün açarrarı gətirif qapıyı açmax istədi. Ancax açarrarın heç biri qapıyı açmadı. Tez otağa girdi. Divardan asılmış açarı götürüf, qapını qaldırıf, gördü kün, zirzəmidə yəhərri, yüyənni bir at var. Yəhərin üstündə bir xurcun asılıf. Xurcunun bir gözü dolu qızıldı, bir gözü də gümüşdü. O, atı tumarladı, köhlən at onu döşünnən təpik vuruf yıxdı.Tacir oğlu düz on-on beş metr atdan aralı düşdü.Tacir oğlu düz bir il burda şirin yuxuya getdi. Bu gün yoldaşları gələsiydi. Tacir oğlu yuxudan oyandı. O, yoldaşlarına xörək bişirib hazır qoydu. Bir azdan yoldaşlar gəldilər. Salamlaşdılar, yeyib-içif yatdılar.

O biri gün tacir oğlunnan şahin xahiş eləməyə başdadı, sən bir il də qulluq elə. Tacir oğlu razılaşdı. Qardaşdar uçuf getdilər, tacir oğlu yenə həyəti gəzməyə başdadı, gəlif bir qapı gördü, həmin açarnan bu qapını da açdı. Gördü kün, burda da yəhərri-yüyənni bir köhlən at var. Atın yəhərinnən bir xurcun asılıf, xurcunun bir gözü qızılnan, bir



gözü də al-əlvan daş-qaşnan dolufdu, tacir oğlu atı tumarlamağa başladı, at gənə onun döşünnən vuruf, uzağa tulladı. Oğlan düz bir il burda yuxuya getdi. Tacir oğlu qardaşların gəldiyi günü oyandı. Xörək hazırlayıf qavlara qoydu. Qardaşdar gəldilər, salamlaşdılar, yedilər-içdilər, yatdılar. Onnar bir neçə gün burda bir yerdə oldular. Qartal bir gün tacir oğluna dedi kin, sən bir ildə burda qal, bizə qulluq elə. Tacir oğlu razılaşdı, növbəti günü qardaşları yenə də quş donuna girif uçuf getdilər. Tacir oğlu bir il də evdə tək-tənha burada qaldı. Vaxt gəlif çatanda tacir oğlu yenə xörəkləri hazırrayıf qavlara düzdü. Qardaşdar gəldilər, mehribannıxnan görüşüf, oturdular. Yedilər, içdilər. Onnar bir neçə gün burda, bir yerdə yaşadılar. Bir gün Qartal tacir oğluna dedi:

- Tacir oğlu, qulluğuna görə çox sağ ol, bax bu köhlən atı yəhərri-yüyənni, qızıllı, daş-qaşlı sənə bağışlıyıram. Ortancıl qardaş-şahin dedi kin, mən də bu köhlən atı yüklü-barxanalı sana bağışlayıram. Kiçik qardaş - sərçə dedi kin, mən də bu sehirri köynəyi sənə bağışlayıram.

Tacir oğlu köynəyi geydi, atı mindi, elinə-obasına gəldi. Bir neçə vaxt şad-xürrəm dolandı. Sonra dünya gözəli mələykəni almax üçün onun atasının evinə elçi getdi. Mələykənin atası dedikin, qızı vəzirin oğlu isdiyir. Kim qalib gəlsə qızımı ona verəjəm. Tacir oğlu vəzirin oğlu Şəmsəddinin qoşununu dağıtdı. Bu zaman vəzirin oğlu Şəmsəddin özünü tacir oğlunun ayaqları altına atıf yalvarmağa başdadı:

- Amandı, tacir oğlu, öldürmə, məni özünə xidmətçi götür, sənə sadiq nökər olaram.

Tacir oğlunun rəhmi gəldi, öldürmədi, dünya gözəli Mələykə ilə evləndi. Vəzirin oğlunu isə özünə aşpaz götürdü. Ancaq dünya gözəli Mələykənin ürəyi Şəmsəddədinin yanında idi. Günnərin bir günü tacir oğlu ova getdi, vəzirin oğlu Mələykəni yoldan çıxardı, ona əmr elədi kin, öyrən gör tacir oğlunun gücü, həm də ağıllığı nədədi? Vəzir oğlu sərt arax düzəltdi. Mələykə həmən arağı ərinə içirtdi, sonra onnan soruşdu kun, de görüm ay tacir oğlu, sənin ağlın hardadı? Tacir oğlu dedi kin, mənim ağlım süpürgədədi. Mələykə süpürgəni bəzədi, onu götürüb gizzətdi. Bir gün tacir oğlu ovdan gələndə süpürgəni bəzəkli görüb Mələykədən soruşdu kun, bu süpürgəni nəyə görə belə bəzəyifsən? Mələykə cavaf verdi kin, sənin ağlın orada gizlənif qalıf, ona görə mən ona qullux edirəm. Tacir oğlu dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ah sən, necə də səfehsən. Məgər mənim ağlım, gücüm süpürgədədi?

Məleykə soruşdu:

- Əzizim bəs sənin ağlın hardadı?

- Mənim ağlım öküzün buynuzlarındadı.

Məleykə əmr elədi kin, öküzün buynuzlarını qızıla tutsunnar. O biri günü tacir oğlu ovdan qayıdanda, öküzün buynuzunu qızıllı görüf Məleykədən soruşdu:

- Öküzün buynuzlarını nəyə görə qızıla tutufsan?

Məleykə cavaf verdi kin, bəs sənin ağlın orada gizlənifdi. Tacir oğlu dedi:

- Ah sən, nə qədər səfehsən. Bəs mənim ağlım, gücüm öküzün buynuzlanıda necə gizlənə bilər.

Dünya gözəli Məleykə əri yenə də sərt arağa qonağ elədi, sonra soruşdu kün, sənin ağlın, gücün haradadı? Tacir oğlu sirri açıf dedi:

- Mənim ağlım, gücüm köynəkdədi. Bunu deyənnən sonra o, məst oluf yuxuya getdi. Məleykə fürsəti fövtə vermədi, köynəyi tacir oğlunun əyninnən çıxardı, sonra onu xırda-xırda doğradı. Əmr elədi kin, bu parçanı aparıf düzənniyə töksünnər.

Tacir oğlunun bədəni üç gün idi ki, səpələnif düzənnikdə qalmışdı. Bir vaxt qarğalar onu dimdikləyif, deşirdilər. Bu zaman yaxınnıxda qartal, şahin və sərçə uçuf keçirdilər. Onnar qardaşlarını ölmüş gördülər, qərara gəldilər ki, ona köməy eləsinnər. Şahin dərhal özünü aşağı atdı. Havada bir qarğa balasını öldürdü. Qoca qarğaya dedi:

- Tez ol, get dirilik suyu gətir.

Qarğa uçuf gedib, dirilik suyu gətirdi. Qartal, şahin, sərçə tacir oğlunun bədənini bitişdirdi. Üzərinə dirilik suyu səpdilər. Tacir oğlu ayağa qalxdı. Onnara təşəkkür elədi. Onnar tacir oğluna bir qızıl üzük verdilər. Tacir oğlu qızıl üzüyü barmağına taxan kimi dönüf at oldu. Qaçıf düz dünya gözəli Məleykənin həyətinə gəldi. Bu zaman vəzirin oğlu Şəmsəddin onu tanıdı. Əmr elədi kin, atı tutsunnar. Tövləyə salsınnar, o biri gün səhər isə onun başını kəssinnər. Məleykənnin yanında bir qulluqçu qız olurdu. Bu gözəl ata onun rəhmi gəldi. Tövləyə girdi, acı-acı ağlayıf dedi:

- Ay yazıq at, səni sabah öldürəcəklər.

At dil açıf dedi:

- Gözəl pəri, sabah mən öldürülən yerə gəl. Elə ki, gördün qanım



sıçrayıf yerə töküldü, sonra bu qanı torpaqla bərabər bir yerə yığ. Götürüf sarayın dörd tərəfinə səpələ.

Səhərsi atı öldürməyə aparırdılar, onun başını kəsdilər, qanı sıçrayıf ətrafa töküldü, gözəl pəri ayağı ilə onun üsdünnən basdı. Sonra onu torpaxnan birrikdə bir yerə yığdı. Aparıf sarayın dörd tərəfinə səpələdi. Elə həmən gün sarayın dörd tərəfində gözəl meyvə ağacları bitdi. Vəzirin oğlu Şəmsəddin əmr elədi kin, bu ağacları kökündən kəssinnər. Hamısını yandırsınnar.

Qulluqçu qız genə ağladı, bağa getdi kin, burada axırıncı dəfə gəzif tamaşa eləsin. Ağaclardan biri dilə gəlif dedi:

- Mənə qulaq as, gözəl pəri. Bağı kəsməyə başlayanda, sən bir budax götürüf, gölə at.

Gözəl pəri elə də elədi, ağaclardan bir parçasını gölə atdı. O, dönüf bir ördək oldu. Göldə üzməyə başladı.

Vəzirin oğlu Şəmsəddin bu gölün yanına gəldi, ağlına ov etmək düşdü, qızıl, yaşılbaş ördəyi gördü. "Qoy onu diri-diri tutum!" deyə fikirrəşdi. Sehrli köynəyi əynindən çıxardıf, özünü gölə atdı. Yaşılbaş ördək də getdikcən uzaqlaşdı. O, vəzirin oğlunu aparıf uzağa çıxardı. Ördək çırpınıf sahilə çıxdı. Dönüf gözəl bir oğlan oldu. Sehrli köynəyi geyindi. Göldə ördək axtaran vəzirin oğlunu öldürdü. Bunnan sonra tacir oğlu saraya gəldi. O dünya gözəli Məleykə xanımı da öldürdü. Tacir oğlu xidmətçi qızla evləndi. Onnar xoş günnər keçirməyə, xoşbəxd dolanmağa başdadılar.

## SEHRLİ ÜZÜK

Biri var idi, biri yox idi, bir məmləkətdə bir qoja ilə bir qarı yaşıyırdı. Onnarın Mahmud adında bir oğulları var idi. Qoja bütün ömrü boyu ovçuluxla məşğul idi; heyvan, quş ovluyurdu. O, oyçuluxnan ayləsini dolandırırdı.

Günnərin bir günündə qoja xəstələnif öldü, Mahmudnan anası qaldı. Onnar kişidən ötəri dərd çəkif ağladılar, ancax gedəni geri qaytarmax olmazdı.

Onnar bir həfdə yaşadılar. Axırda öydə olan bütün ərzaq ehtiyatları qurtardı. Qarı gördü kün, daha öydə yiməyə bir şeyləri qalmayıf. İndi öydə olan pulları xərcləmək lazımdı. Qojadan onnara iki yüz manat pul qalmışıdı. Qarının pula əl vurmağa ürəyi gəlmirdi. Ancaq acından



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ölməyəcəkdir ha. Odur kun, yüz manat verif oğluna dedi:

- Mahmud, al bu yüz manatı, get qonşudan bir at al, şəhərə get. Şəhərdən taxıl al gətir, bir təhər qışı çıxardaq, yazda da özümüzə bir iş taparıq.

Mahmud qonşudan bir at alıb, haravaya qoşuf, şəhərə apardı. O, haravanı sürə-sürə ət dükanın yaxınnığınnan keçəndə, gördü kün, yaman qalmaqal var. Demə ki, qəssavlar bir ov iti tutuflarmış, onu dirəyə bağlayıf ağacnan döyüllər, it kəndiri qırmax isdəyir, mırıldayıf dişlərini qıcırdadırdı. Mahmud cəld həmin qəssavların yanına gəlif soruşdu:

- Qardaşdar, bu iti niyə döyürsünüz?

- Niyə də döyməyək, əti korlayıfdı.

- Həmin bu heyvana rəhminiz gəlsin. Onu döyməyin, bunu mənə satın.

- Buyur al, əvəzində yüz manat ver.

Mahmud əlini qoltux cibinə salır, yüz manatı çıxardıf onnara verdi. İti alıf özü ilə apardı. Mahmud gəlif, öyə çatdı. Qarı onun qavağına çıxıf soruşdu:

- Ay Mahmıd, nə alıf gətirdin?

- Ay ana, ilk xoşbəxdliyimi almışam.

- Ayə, xoşbəxtliyi hansı Allah bizə verdi?

- Budu, ay ana, bir it almışam.

Başqa nə almısan?

- Pulum ha yoxuydu, eləcə yüz manat varıydı, eləcə itə vermişəm.

Qarı deyinməyə başladı:

– Özümüzün yeməyə bir qismət çörəyimiz yoxdu, gedif it alırsan? O biri gün qarı öydəki pulu götürüf, oğluna verif dedi:

- Ay oğul, al bu pulu, get bazardan taxıl al. Pulları havayı şeyə xərcdəmə.

Mahmud haravanı sürüf yenə şəhərə  getdi. Birdən onun gözünə yaramaz bir oğlan göründü. Həmin uşax bir pişik tutmuşdu. Boğazına da bir ip salmışdı. Onu sürüklüyüf çaya tərəf aparırdı.  Mahmıd onu dayandırıf soruşdu:

- Bu pişiyi niyə döyürsünüz?

- Öydən oğurruğ eliyif.

- Onu suya atma, mənə sat.

- Yaxşı yüz manat ver, apar.



Mahmıd əlini qoltuq cibinə salıf, yüz manatı verif, pişiyi alır. Daha aravanı şəhərə deyil, evlərinə sürür. Anası soruşur kun, ay oğul nə aldın?

- Ana, bu dəfə də pişik aldım.

- Bəs yeməyə nə aldın?

- Pulum qalmadı, yüz manat vermişdin, onu da pişiyə verdim.

Qarı hirslənərək dedi:

- Ay axmağın biri axmax, evdə çörək olmadığı halda sən pulu itə, pişiyə verirsən. Rədd ol burdan, get özgə adamlardan pul dilən.

Mahmıd evdən çıxdı. O, qonşu kəndlərə üz tutdu, iti də, pişiyi də dalınca getdilər. Mahmıd bir kənddən keçəndə bir nəfər varrı adam onnan soruşdu:

- Ay oğul, hara gedirsən?

- Ay ata, iş axtarmağa gedirəm.

- Gəl mənim yanımda işlə. Bax kim mənim yanımda üç il halallıqla işləsə, mən onun xəcalətinnən çıxaram.

Mahmıd bu kişi ilə evə gəldi. Yorulmadan, tənbəllik etmədən, üç il, üç qış, üç yay bu kişinin həyətində işlədi. Kişi haqq-hesaf vaxdı Mahmıdı yanına çağırıf dedi:

- Gəl haqqını al, bax bu bir kisə qızıl, bu da bir kisə qumdu. Hansını isdiyirsən götür apar, halalın olsun.

Mahmıd fikirrəşdi kin, bu qum havayı qum olmaz. Yə’qin burada daha qiymətti şeylər var, baxtımı sınayıf qumu aparajam.

– Ata, qumu aparıram.

– Oğul, kef sənindi, halalın olsun.

Mahmıd qum kisəsini dalına alıf, kişi ilə halallaşıf yola düşdü. Xeyli gedənnən sonra, bir meşəliyə rast oldu. Meşənin içində bir tala varıydı, burda ojax yanırdı. Ojaxdan çıxan alovun üstündə bir pəri oturmuşdu. Bu pəri o qədər gözəliydi kin, daha yemə-içmə bu gözəlin gül camalına tamaşa elə. Gözəl pəri dedi:

- Ay Mahmıd, ay dul arvadın oğlu, əgər xoşbəxt olmax isdiyirsən-sə, məni burdan xilas elə, dalındakı qumnan aloyu keçir.

Mahmıd fikirləşdi kin, düz deyir, mən bu ağırrıxda qumu harıya aparajam? O, qumu aloyun üsdünə səpməyə başdadı. Mahmıd aloyu söndürdü. Pəri aloydan azad oldu. Gözəl pəri özünü yerə çırpdı. Pəri nəhəng bir ilan oluf, Mahmıdın boğazına dolandı, Mahmıda dedi:

- Qorxma, indi çox uzaqlarda mənim atam var, məni oraya apara-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

jan. Çoxdandı atamdan ayrı düşmüşəm. Atam sənə çoxlu qızıl-gümüş, qıymattı şeylər verəjək. Sən onların heç birini götürmə, atamın çeçələ barmağında bir qızıl üzük var, bax isdə, onu al.

Qoçaq oğlan yola düşüf getdi. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Nəhayət, gedif gözəl pərinin atasının yanına çatdılar. İlan oğlanın boğazınnan sivrilib, yerə düşdü. Nəhəng bir daşın altına girdi. İndi o əvvəlki kimi gözəl bir qız oldu. Gözəl pəri oğlana dedi kin, mənim dalımca gəl. Onnar yeraltı yolla xeyli getdilər. Getdillər, işıqlı bir yerə çatıllar. Burada onnar geniş bir düzə çıxdılar. Bu düzdə gözəl bir saray ucalırdı. Pərinin atası da bu sarayda yaşayırdı. O, yeraltı sərvətin padşahı idi. Onnar gəlif imarətə daxil oldular. Padşah onnarı mehribancasına qarşıladı:

- Salam, əziz qızım, sən bu vaxda qədər harda gizlənmişdin?

Qız dedi:

- Ateyi-mehriban, əgər bu oğlan olmasaydı, mən tamam məhv olub, getmişdim. O məni dəhşətli ölümnən xilas elədi. Bax, bu doğma yurduma gətirdi.

Padşah dedi:

- Çox sağ ol, igid oğlan. Bu xeyirxahlığa görə səni mükafatlandırmax lazımdı. Bax bu xəzinədən nə qədər isdəyirsən qızıl, daş-qaş götür. Mahmıd dedi:

- Əlahəzrət, mənə daş-qaş lazım deyil, əgər mənə mükafat vermək isdəyirsənsə, o çeçələ barmağındakı qızıl üzüyü ver. Mən subay adamam, mən hər üzüyə baxanda nişanlımı xatırlayıram.

Mahmıd belə deyən kimi üzüyü kişi barmağınnan çıxardıf ona verdi:

- Al, bu da sənə üzük. Halalın olsun! Ancax nəbadə bu üzük haqqında bir kəsə bir söz deyəsən, onda öz başına bəla açarsan!

Mahmıd qızıl üzüyü də, bir qədər xərclik götürüf padşaha və gözəl pəriyə təşəkkür eliyif yola düşdü. Mahmıd gəlif vətənə çatdı. Gətirdiyi xərcliknən dul anası ilə dolanmağa başdadı.

Mahmıd bir gün anasına dedi:

- Ana, evlənmək isdəyirəm. Get padşahın qızına elçi düş.

Anası dedi kin, ay oğul padşah qızını biz kasıva verməz axı. Bu nə xıyaldı sən düşüfsən. Mahmıd dedi:

- Ana, sən get de, padşah da nə desə eləcənə sən mənə de, dalıncan işin olmasın.



Qarı duruf getdi, padşahın sarayına. Həyətə daxil oldu, baş pilləkənin yanına gəldi, istədi icazəsiz içəri girsin. Bu zaman gözətçi dilləndi?

- Dayan, qoja kaftar, hara soxulursan?

- Ay fılan olmuşlar, mən padşahın yanına xeyir işdən ötəri gəlirəm, elçiyəm. İsdəyirəm, onun qızını oğluma almağın razılığını alam. Siz də ətəyimnən tutuf məni saxlayırsınız!

Qarı elə bir hay-həşir qopartdı kın, bunu içəridə padşah da eşitdi. Padşah əmr etdikin, onu içəri buraxın!

Xülasə, qarı içəri daxil oldu. Padşaha baş endirif dedi:

- Ay padşah, Allah sənin cah-cəlalını daha da artırsın! Yanına gəlmişəm kin, mərhəmət göstərəsən. Bir söz deyim, ajığın tutmasın. Məndə bir tacir var, səndə də mal. Bu tacir mənim qoçaq oğlum Mahmıddı, mal isə sənin gözəl qızındı. Sən bu qızı mənim oğluma ərə verərsənmi?

Padşahı hirs götürdü:

- Sən nə deyirsən, dəlimi olufsan?!

- Adil padşah, mən nə dəli olmamışam, nə də ağlımı itirməmişəm. El adəti ilə üstünə gəlmişəm, sən də el adətincə mənə cavaf ver.

Padşah elə o saat vəziri yanına çağırdı. Onnar götür-qoy elədilər ki, qarıya nə cavaf versinnər. Axırda belə qərara gəldilər:

– Qarı mən razıyam, bir şərtlə. Bax bir sutka ərzində oğlun burada böyük bir saray tikdirsin, həmin saraydan padşahın sarayına büllur bir körpü saldırsın, körpünün hər iki tərəfində ağaclar saldırsın, o ağacların üstündə cürbəcür quşlar oxusun, bir də bir qülləli bir baş məscid tikdirsin, burada da kəbin kəsdirsin, toy edilsin. Əgər oğlun bu işlərin hamısını görsə, onda padşah qızını ona verər. Əgər eliyə bilməsə, sənin də, oğluyun da boynu vurulajax.

Padşahla vəzir qarıyı beləjə yola saldılar. Qarı evə gəldi, ağlıya-ağlıya oğluna dedi:

– Ay oğul, mən sənə dedim kin, bu işə məni göndərmə, başınnan böyük iş görmə. İndi biz bir sutka ərzində bu işləri görə bilərikmi? Ay bala, məhv olduq!

– Ana, yaxşı, yaxşı yat! Axşamın şərinnən savağın xeyri yaxşıdı. Qarı yıxılıf yatdı.

Mahmıd gejənin bir vaxtı oyanıf həyətə endi, üzüyü əlinə aldı, bu əlinnən ol əlinə, o əlinnən bu əlinə götürdü. Dərhal burda on iki pəhlivan hazır oldu, hamısının da sifəti bir, tükü bir, səsi bir idi. Mahmıda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dedilər:
– Ay dul arvad oğlu, sənə nə lazımdı?
– Qardaşlar, səhər açılana kimi, burada zəngin bir saray ucalsın, bu saraydan padşahın sarayına bir körpü salınsın, körpünün də hər iki tərəfində ağaclar quşlar ötüşsün, bir də bir qülləli məscid tikilsin!
On iki pəhlivan cavab verdi:
– Səhərə hamısı hazır olajax!
Səhər açılanda Mahmıd artıq köhnə daxmada yox, təzə tikilmiş sarayda idi. Sarayda hər şey yerində idi. Padşah nə demişdi, eləcə də hər şey öz zövqünə uyğun olaraq yerinə yetirilmişdi.
Bu vaxt padşah da eyvana çıxmışdı. Durbinlə baxıf gördü kün, hər şey dediyi kimi görülübdü. Padşah qızını yanna çağırıf dedi:
– Mənim gözəl qızım, yatanda yuxumda da görməzdim kin, səni kasıf bir oğlana ərə verəm. Ancax nə edim, iş işdən keçifdi. Get nigaha hazırraş!
Şahzadə qız yuyunuf darandı, geyindi. Şahzadə qız bərli-bəzəkli halda gətirilmiş faytona minif kəbin kəsilən yerə gəldi. Şəhərin bütün adamları məscidi dövrəyə almışdılar. Mahmıd da bərli-bəzəkli bir faytonda burya gəldi. Molla onnarın kəbinini kəsdi. Hamı xeyir-dua verdi. Padşah da qızına zəngin cehiz verdi. Toy edib onu Mahmıdın evinə yola saldı. Kürəkəninə də böyük rütbə verdi.
Cavannar bir ay, iki ay, üç ay yaşadılar. Mahmıd elə gün olmurdu kun, yeni saraylar tikdirməsin. Ancax şahzadə qız yamanca xiffət edirdi. O, deyirdi kin, mən niyə kasıf oğluna ərə gəldim, niyə şah oğluna, vəzir oğluna ərə getmədim...
Padşahın qızını fikir götürmüşdü. Bilmirdi necə etsin ki, Mahmıd onnan üz döndərsin. Mahmıd ona çox mehriban idi. Qız Mahmıdın sirrini öyrənməyə çalışırdı. Bir gün padşah onnarı qonax çağırdı. Padşah onnara yaxşı bir süfrə açdı. Mahmıd burda bolluca içdi. Evə qayıdanda şahzadə qız onu oxşamağa, öpməyə başladı. O, özünü Mahmıdda o qədər mehriban, o qədər xoş göstərdi kin, Mahmıd da onun bu nəvazişinnən çox razı qaldı. Şahzadə qız Mahmıdın o üzünnən, bu üzünnən öpə-öpə dedi:
– Ay Mahmıd, heç bilirsən mən səni nə qədər sevirəm. Bəs sən sirrini niyə mənnən gizlədirsən?
Mahmıd onun qucağında olan bu şahzadə qıza çeçələ barmağında olan üzüyün sirrini bütünlüknən açıf söylədi, özü də hədsiz sərxoş



olduğu üçün yuxuya getdi.
Şahzadə qız dərin yuxuya getmiş Mahmıdın çeçələ barmağınnan qızıl üzüyü çıxartdı. Şahzadə qız bir xəlvət yerə gəlif üzüyü bu əlinnən o əlinə, o əlinnən bu əlinə keçirdi, atdı, tutdu. Elə bu zaman on iki pəhlivan hazır oldu:
– Gözəl şahzadə qız, sənə nə lazımdı, nə isdiyirsən?
– Uşaqlar, qulaq asın! Siz gərək səhərəcən bu qurğunu yerləyeksan edəsiniz. Qoy o köhnə daxma olsun, məni də dünyanın o başındakı siçanlar padşahlığına aparasınız.
– Məmnuniyyətlə, dedikləriyin hamısı yerinə yetiriləjək!
Elə o saat külək götürüf şahzadə qızı dünyanın o başına sıçanlar padşahlığına atdı.
Səhər padşah yuxudan oyandı, baxıf gördükün, kürəkəninin sarayı yerində yoxdu. Padşah fikirrəşdi kin, bu nə olan şeydi, tez ə’yannarı çağırıf ora göndərdikin, bu məsələni yerində öyrənsinnər. Onnnar gəlif padşaha xavar verdilər kin, padşah sağ olsun, sarayın yerində indi köhnə bir koma durur, orada sizin kürəkəninizlə anası yaşayır. Şahzadə qızın isə nə izi var, nə tozu.
Padşah böyük bir şura çağırdı. Orada belə hökm çıxardılar kın, padşahın kürəkəninə cəza verilsin. Belə qərara alındıkın, kürəkənin uca bir dağın başına atsınnar, heç nə verməsinnər.
Həmən təpəyə bənnalar göndərildi, bir örtülü bina tikdilər, qapısız, bacasız. Kürəkəni ora qoyub, üstünü də örtdülər.
Kürəkən burada bir gün, iki gün, ac-susuz oturdu. Üçüncü gün acı göz yaşı tökdü...
Mahmıdın iti bu bəladan xəbər tutdu. O, Mahmıdın evinə gəldi. Gəlif gördükün, pişik sobanın üstündə mışıl-mışıl yatır:
– Ay sənə nə deyim, ay e’tibarsız pişik! Sən yaxşılığı nə tez unutdun, yüz manat verif səni qurtaran oğlan indi dardadı. Əgər o olmasaydı, indi qurda-quşa yem olmuşdun. Ayağa qalx, var gücümüzlə gərək sahibimizə kömək edək! Pişik sobanın üstünnən hoppanıf yerə düşdü. Onnar sahiblərini axtarmağa getdilər. Gəlif dağın başına çıxdılar. Pişik dırmaşıf yuxarı çıxdı, kiçik pəncərədən özünü içəri saldı:
– Salam, sahib! Sən sağsanmı?
– Ey, hay-hayım gedif, vay-vayım qalıf! Neçə gündü acam, acınan ölürəm!
– Fikir eləmə, biz indi sənə yemək gətirərik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pişiklə it şəhərə gəldi, şəhərdə hərlənif bir bulku dükanına girdilər. İt bulku satanın ayaqları altına yaxıldı, pişik tez bir neçə bulku çırpıdı. Beləliklə, pişik bulkalardan oğurlayıf sahibinə apardı. Onnar bu qərara gəldilər kin, dünyanın o başına gedif sıçannar padşahının vilayətində şahzadə qızı tapıf sehrri üzüyü gətirsinnər. Bunun üçün onnar Mahmıdın yanna çoxlu suxarı daşıdılar, butulka ilə su yığdılar.

– Ay sahib, ye, iç! Amma elə eləkin, biz qayıdanacan sənə bəs eləsin!

İtnən pişik sahibləri ilə sağollaşıf yola düşdülər. Onnar gedif bir dənizə çatdılar. İt pişiyi dalına mindirif dənizin o biri tərəfinə üzməyə başdadı. Onnar gedif sıçannar padşahın vilayətinə çatdılar. Burada sıçannardan başqa bir bəni adam yox idi. Hara baxırdın sıçan idi. İt dedi kin, sən sıçannarı qırıf bir yerə yığ, mən də onnarı basdırım. Pişik sıçannardan o qədər qırdı kın, onnarı leşi böyük bir dağ yaratdı. Axırda sıçannar padşahı yerin üstünə çıxıf itə və pişiyə yalvarmağa başladı:

– Axı mənim adamlarımı qırıf qurtardınız, belə olmaz. Siz nə istəyirsinizsə mən sizə kömək edə bilərəm. Təki mənim adamlarımı qırmayasınız.

İt ona dedi:

– Sənin sarayına təzə gələn padşahın qızı bizim sahiblərimizin üzüyünü oğurlayıf gətirif. Əgər həmən üzüyü bizə versən, sən azad olarsan, yoxsa sənin özün də məhv olacaqsan.

Sıçannar padşahı sıçannardan soruşdukun, bizim sarayda belə bir adam varmı? Sıçannardan biri dedikin var? Padşah söz verdi kin, bir neçə günə istədiklərini eliyəcək. Padşaha söz verən sıçan gecə gəlib otağa girdi. Gördü kün, şahzadə qız bərk yuxuya gedif, sıçan sürünüf yorğanın üstünə çıxdı. Quyruğunu şahzadə qızın burnuna soxdu. Qız asqırmağa başdadı. Bu zaman üzük qızın ağzınnan yerə düşdü. Sıçan tez üzüyü dişləri arasına alıf öz padşahlarına verdi. Padşah da üzüyü gətirif itnən pişiyə verdi. İt və pişik padşaha təşəkkür eliyif geri döndülər. Pişik üzüyü ağzında gətirirdi, onnar gəlif yenə haman dənizə çatdılar. Pişiyi it dalına alıf dənizin o tayanı aparırdı. Onnar dənizin ortasında olarkən göydən bir qarğa uçuf gəlif pişiyin başını dimdikləməyə başladı. Pişik nə qədər dözdüsə də olmadı. Axırda dözə bilməyif qarğanı tutmaq istədi. Bu zaman üzük pişiyin ağzınnan dənizə düşdü. İt dənizin o tərəfinə çatdı. İt tezcənə üzüyü soruşdu. Pişik ağlayaraq dedi kin, qardaş əməyini itirdim, üzük dənizə düşdü. İt möhkəm



hirsləndi, pişiyə dedi kin, ya dənizin altına gir üzüyü gətir, ya səni məhv eliyəjəm.

Pişik dedi kin, məni məhv etməknən iş olmaz. Qoy tədbir tökək. Gəl indi də xərçəngləri yeyək, yoxsa başqa çarə yoxdur. bu zaman dənizdən bir böyük xərçəng çıxdı. O sahildə gəzinərkən, itnən pişik onu yaxaladılar. Xərçəng nə qədər elədi, itin pişiyin əlinnən qurtara bilmədi. Axırda o dedi:

- Ey qüdrətli pəhlivanlar, mən bütün xərçənglərin padşahıyam, nə desəniz mən yerinə yetirərəm. Məni öldürməyin.

İt dedi:

- Bizim dənizə bir üzüyümüz düşüf, əgər həmən üzüyü tapıf gətirsən, biz sənə mükafat verərik.

Xərçəng padşahı öz əyanlarını çağırıf əhvalatı dedi. Padşahın əyanı dedi kin, haman üzüyü ağ balığ uduf. Mən onu tutum gətirim, siz onun qarınnan üzüyünüzü çıxarın. Xərçəng özünü dənizə atıf haman ağ balığı gətirdi, bu da sizin ağ balığ, indi didişdirin. O üzüyü uduf. İtnən pişik ağ balığı didib parçalamağa başladı. Pişik üzüyü tapıb qaçdı. Pişik belə fikirləşdi kin, sahibimə deyəcəm ki, bütün işləri mən görmüşəm. İt pişiyin dalınca yola düşdü. Gəlif, bir düzənnikdə ona çatdı. Gördü kün, itin əlinnən qurtara bilməyəjək, hündür bir qoz ağacının başına dırmaşdı. İt gəlif qoz ağacının altında dayandı və pişiyə dedi:

- Ay hiyləgər, sən nə vaxtadək qoz ağacın qalajaxsan? Onu bil kin, mən burdan bir addım da kənara getmiyəjəm. Beləliknən pişik qoz ağacının başında, it də yerdə üç gün qaldılar. Axırda hər ikisi möhkəmcə acdılar. İşi sülhnən görməyə razılaşdılar. Pişik qoz ağacının başınnan yerə düşdü, barışdılar. Hər ikisi birlikdə üzüyü gətirif dağın başına çıxartdılar. Pişik dırmaşıf divarın başına çıxdı. Balaca pəncərədən içəri düşüf sahibinə dedi:

- Sahib, sən sağsanmı?

- Sağam, mehriban pişiyim!

Pişik sehrkar üzüyü ona verdi. Mahmıd gecə yarını gözlədi. Vaxt gələndə üzüyü bir əlinnən o biri əlinə keçirdif atıf tutmağa başdadı. Bu zaman on iki min pəhlivan hazır oldu: Xoş gördük, ay dul arvad oğlu, söylə sənə nə lazımdı?

- Uşaxlar, mənim əvvəlki sarayımı, büllür körpümü, bir qülləli, məscidimi, vəfasız qadınımı büsbütün götürün, bura gətirin. Elə edin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, bunnar səhərə kimi hazır olsun!

- Deyildi, eşittik! Deməli, görülməlidi!

Səhər padşah yuxudan oyandı, durbinlə baxdı. Komanın yerində indi uca saraylar qurulmuşdu. O saraydan padşahın sarayına kimi billur körpü salınmışdı, körpünün hər tərəfində ağaclar əkilmişdi. Padşah əmr etdikin, faytonu qoşsunnar, gedif yoxlayıf görsün, doğurdanmı hər şey əvvəlki kimidi. Padşahı Mahmıd darvazanın yanında qarşıladı. Onu bəhzəkli-düzəkli otağa apardı. Başına gələn bütün əhvalatı ona danışdı. Üstəlik dedi, görürsənmi bu şahzadə qız başıma nə oyunlar açdı. Padşah da hökm verdi kin, qızı e'dam etsinnər. Paşahın əmrinə əsasən qızı bir atın quyruğuna bağlayıf, atı düzə buraxdılar. Padşahın qızı cəhənnəmə vasil oldu. Xəyanətkarların, mərdiməzarların, aqibəti beləcə sona çatdı. Mahmud da xoş günnər keçirdi.

## QIZIL-GÜMÜŞ İÇİNDƏ

Biri vardı, bir yoxdu, uzaq məmləkətdə bir dövlətdi padşah var idi. Onun da çox gözəl, yaraşıqlı bir oğlu var idi. O, həm də çox ağıllı və xeyirxah oğlan idi. Hamı onnan razı idi. Adamlar ona nəğmə qoşur, barəsində nağıllar danışırdılar. Qızların yuxusuna girirdi. Şahzadə belə şahzadə idi, onu görənnər, bir də görmək isdiyirdi. O, günnərin bir günündə atasına dedi kin, mehriban ata, mənə icazə ver, gedim bir ölkəmizin gözəl yerlərini gəzim, gəlim. Atası ona icazə verdi.

Şahzadə Əlişir atasınnan xeyir-dua alıf yola düşdü. Uzun müddət yol getdi, çoxlu yaxşılıq, yamanlıq, cürbəcür şeylər gördü. Nəhayət, uca, gözəl daş bir imarətə gəlif çıxdı. Gördü kün, artırmada üç gözəl bacı oturuf söhbət edillər:

- Əgər şahzadə Əlişir mənimlə evlənsəydi, ona nazik, zərif bir köynək toxuyardım, elə bir köynək ki, bütün dünyada tayı-bərabəri olmazdı.

Bunu böyük qız deyirdi. Şahzadə Əliş bunnarı eşidirdi.

Ortancıl bacı isə deyirdi kin, əgər şahzadə Əlişir məni alsaydı, ona gümüşdən, qızıldan elə bir çuxa tikərdim kin, o, Sümürq quşu kimi parıldayardı.

Kiçik bacı isə deyirdi kin, əgər o məni alsaydı, ona elə şahinlər doğardım kın, onnarın peysərində, alınlarında, böyürlərində ulduz



parlayardı.

Şahzadə Əlişir bunnarın hamısını eşitdi, hamısını yadında saxladı. Geri qayıdıf atasının yanına getdi, evlənmək istədiyini bildirdi. Atası ona icazə verdi, o, kiçik qızla evləndi. Onnar canbir, çox istəkli yaşadılar. Böyük bacının bu işə yaman paxıllığı tutdu. Onnara pislik etmək qərarına gəldi. Bir zaman şahzadə Əlişirin qadını uşağa yatdı. Böyük bacı uşağı oğrratdırıf onun yerinə pişik balası kimi xırda bir çağa verdilər. Şahzadə uşağı görüf kədərləndi. Axı bu uşaq ulduz kimi parıldamırdı. İkinci uşağı gözləməli oldu. Dayələri böyük bacı ələ almışdı. İkinci uşaq olanda da dəyişdilər. Şahzadə Əlişir dərddən-qəmdən xəstəliyə düşdü. O, qızı çox sevirdi, həm də o, çox gözəl, par- par parıldayan bir uşağın olmasını isdiyirdi.

Nəhayət üçüncü uşaq da oldu. Bu da adi uşaq idi, bu da parıldamırdı. Şahzadə buna dözə bilmədi, arvadının talağını verdi.Onu məhkəməyə verdi. Müdrik qocalar hər yerdən yığışıf gəldilər. Onnar belə şərtləşdilərkin, şahzadə qızın boynu vurulsun.

Baş hakim dedi:

- Yox, istəyirsiniz məni eşidin, istəyirsiniz eşitməyin, fikrim belədi: – O qadının gözləri çıxarılsın, uşağı ilə birlikdə çəlləyə salınsın, qətranlansın, dənizə atılsın. Günahkarsa batacaq, günahkar olmasa üzüf çıxacaq.

Bu, hamının xoşuna gəldi. Şahzadə qızın gözlərini çıxardılar, uşaqla birlikdə onu çəlləyə qoyub-qətranladılar, dənizə atdılar. Şahzadə Əlişir böyük bacı ilə evləndi. Həmən böyük bacısı uşaqları oğurlayıf atasının bağında saxlatdırırdı.

Uşaqlar orda boya-başa çatdılar, doğma analarını görməmişdilər, onu tanımırdılar. Həmin bədbəxt ana isə atılmış uşaqla bərabər dənizdə üzürdü. Amma onun yanındaki uşaq gündən günə deyil, saatdan-saata böyüyürdü. Çox keçmədi ki, o hər şeyi anlamağa başladı, ağıllı-kamallı bir oğlan oldu.

O, bir gün anasına dedi:

- Xanım, anacan, Allahdan buyruq, ağzıma quyruq. Biz sahilə yan almalıyıq!

Çəllək dayandı.

- Xanım, anacan, Allahdan buyruq, ağzıma quyruq, çəlləyimiz özözünə partlasın!

Bunu deyən kimi çəllək iki yerə parçalandı. O, anası ilə sahilə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxdı.
- Xanım, anacan! Bura necə əyləncəli, necə gözəl yerdi. Hayıf kın, sən nə günəşi görürsən, nə də yaşıl ottarı. Allahdan buyruq ağzıma quyruq, burada bir hamam hazır olsun.
O saat yerin içinnən bir hamam çıxdı, qapıları öz-özünə açıldı, sobaları öz-özünə yandı, su qaynamağa başladı. Hamama girdilər, oğlan süpürgəni götürüf, ılıq su ilə anasının xəstə gözlərini yumağa başladı.
- Allahdan buyruq, ağzıma quyruq, anam görsün.
- Oğlum, görürəm, görürəm, gözüm açıldı.
- Allahdan buyruq, ağzıma quyruq, anacan, sənin atayın bağı, sarayı uşaqlarınla bizim olsun!
Birdən hardansa bir saray çıxıf hazır oldu. Qabağında geniş bir bağ vardı, ağacların budaqlarında quşlar oxuyurdu, ortada bir çardaq quruldu, çardaqda üç qardaş yaşayırdı.
Atılmış uşaq duruf onnarın yanına getdi. İçəri girdi, gördü kün, burada üç adamlıq süfrə açılıf. Oğlan tez evə gəldi.
- Əziz ana, öz südünlə mənə üç fəsəli bişir.
Anası onun sözünə qulaq asdı, fəsəlilər hazır olan kimi oğlan onnarı aparıf hərəsini bir boşqaba qoydu, özü isə bir küncdə gizləndi. Gözlədi, gözlədi kin, görək kim gələcək?
Birdən otaq işıqlandı. Üç qardaş günəşlə, ayla, ulduzla gəlif stolun başında oturuf fəsəliləri yedilər. Analarının südünü tanıdılar.
- Bu fəsəliləri bizə kim gətirif? Əgər özünü göstərif anamız barəsində bizə danışarsa, biz onu qucaqlayıf öpərik, əzizlərik! Biz onu özümüzə qardaş edərik!
Oğlan künşdən çıxdı, onları analarının yanına apardı. Bir-birini görəndə qucaqlaşdılar, öpüşdülər, ağlaşdılar. Onlar yaxşı yaşamağa başladı, yaxşı adamları da qonaq etməyə hər cür imkanları var idi. Bir dəfə sarayın yanından bir neçə dilənçi qoca keçif gedirdi. Onnarı çağırdılar, doyunca yedirdib-içirtdilər, duz-çörək verif yola saldılar. Belə bir hadisə də oldu, həmin qocalar şahzadə Əlişirin sarayı yanından keçif gedirdilər. Şahzadə artırmada durmuşdu, onnardan soruşmağa başladı:
- Ey qoca dilənçilər! Siz harda olmusunuz, harda qalmısınız, nə görmüsünüz?
- Biz bax o sarayda olmuşuq, orada əylənmişik, onu görmüşük. Orada əvvəllər ancaq yosun bitirdi, indi isə orada bir saray ucalır, ondan danışdıqca qurtarmaz, onu qələmlə təsvir etmək olmaz, orada



bir bağ var, bütün məmləkətdə belə bağ olmaz, orada adamlar var-bu işıqlı dünyada elə adam tapılmaz; Biz orada olduq, orada qaldıq ki, üç doğma qardaş bizi qonaq elədi: onların alnında günəş, peysərində ay, böyürlərində ulduz vardı, onlarla birgə anaları-şahzadə qız yaşayır, onlara baxıf sevinirdi. Şahzadə Əlişir bunları dinləyif fikrə getdi... sinəsi sancmağa, ürəyi döyünməyə başladı, o öz sadiq qılıncını divardan aldı, sərrast vuran oxu götürdü, köhlən atını yəhərlədi, arvadına "xudahafiz" demədən həmin saraya getdi, o, saraya ki, ondan danışdıqca qurtarmaq olmazdı, onu qələmlərlə təsvir etmək olmazdı.
Şahzadə Əlişir saraya gəldi,uşaqlarına baxdı, arvadına baxdı, onları tanıdı, şadlığınnan özünü itirdi, qəlbi işıqlandı.
Burada hamı şadlıq içində idi. Bir adam isə xiffət içində idi. Bu böyük bacı idi. O, gördüyü işlərin peşimanlığını çəkirdi. Onu çəlləyin içinə qoydular, qatranladılar, çəlləyi dənizə atdılar, ancax bu çəllək əvvəlki çəllək kimi salamat qalmayacaq, dənizə batıf cəhənnəmə vasil olacax.
Bu gözəl, göyçək balalar öz doğma ana və ataları ilə xoşbəxt yaşadılar.
Xeyirxah adamlar qoy həmişə mehriban və xoşbəxt yaşasınnar.

## AĞILLI PƏRİ İLƏ YEDDİ QULDUR

Biri vardı, biri yoxdu, bir kəndli vardı. Onun da iki oğlu varıydı. Kiçik oğlu səfərdə, böyük oğlu isə evdə idi. Günnərin bir günündə ata ömrünü başa vurdu, ölərkən bütün mirasını evdəki oğluna tapşırdı, səfərdəki oğluna isə heç nə vermədi. Düşündü kün, qardaş-qardaşı mağmıt qoymaz. Ata öldü, böyük oğlu onu dəfn etdi, bütün var-dövləti özü götürdü.
Günnərin bir günü kiçik qardaş gəlif çıxdı. Atasını sağ görmüyüf acı-acı ağlamağa başdadı: Böyük qardaş ona dedi:
- Atam bütün var-dövlətini mənə qoyuf getdi!
Böyük qardaşın uşağı yoxuydu. Kiçik qardaşın bir oğlu və qızlığa götürdüyü bir qızı var idi. Böyük qardaş bütün mirasa sahib oldu, varlandı, başdadı qiymətdi mallarla alver eləməyə. Kiçik qardaş isə çox kasıf idi, meşədə odun qırır, arabaya yükləyir, gətirif bazarda satırdı. Qonşularının ona yazığı gəldi, onun yanına gedif dedilər kin gəl sənə biz borc pul verək, apar alver elə, əlinə maya sal, sonra bizim pu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lu qaytararsan. Amma kasıf qardaş razı olmadı kın, bəlkə əlim gətirmədi, borca düşdüm, bəs mən sizin pulunuzu necə qaytara bilərəm?

Qonşulardan ikisi sözü bir yerə qoydular ki, bir fənd işlədib pulu ona versinnər. Bir dəfə kasıf oduna gedəndə, qonşulardan biri dolayı yolla gəlif onu haqlayıf dedi:

- Qardaşım, mən uzaq bir səfərə çıxmışam, yolda mənə borclu üç yüz manat pulu sənə verim, apar xərclə, amma mən çox gec gələjəm. Gələnə kimi sən bu pulnan alver elə qazan. Mən qayıdanda da sənnən pulu az-az istiyəcəm, arxayınca xərclə.

Kasıf pulu götürdü, evə gətirdi, qorxdu kun, itirər, birdən arvadı tapar. Axırda pulu gətirif külün içində gizlədif çölə getdi.

Kişi meşəyə gedənnən sonra kəndə bir neçə tacir gəldi. Kəndə haray saldılarkın, ay satan, kül alırıq. Kasıvın arvadı külü qablarıynan baravar tacirrərə verdi. Kasıv kişi axşam evə qayıdanda soruşdukün, kül hanı? Arvad cavaf verdi kin, kül almağa tacirlər gəlmişdi, külü onnara satdım. İşi belə görəndə kişi dərd-qəmə batdı. Qaş-qavağı açılmadı. Amma bunu heç kəsə deyə bilməzdi. Bilmədi kin, nə etsin, dərdinə nə çarə qılsın.

Arvad gördü kün, kişi günü-gündən dərdləşir, üzü-gözü gülmür. Odur kun, onnar soruşdu:

- Ay kişi, sənə nə oluf, niyə belə xiffət eliyirsən?

Kasıf naəlac qalıf dedi kin, külün içinə pul qoymuşdum, o da özgənin idi. Arvad bunu eşidən kimi hönkür-hönkür ağlamağa başdadı, kişiyə dedi:

- Ay kişi, niyə mənə vermədin, mən sənnən yaxşı saxlardım, niyə mənə eytivar eləmədin?

Kasıf yenə meşiyə getdi kin, odun gətirif satsın. Bu dəfə onu o biri qonşusu haqladı, həmin sözləri bu da deyif, kasıva beş yüz manat verdi. Kasıf kəndli pulu almırdı, ay canım, mən sənin beş yüz manatını qaytara bilmərəm. Amma qonşusu güclə pulu onun civinə soxuf getdi. Bu dəfə kasıv kağız pulu papağının astarına qoydu.

Kasıf gəlif meşiyə çıxdı, papağını küknar ağacının budağınnan asdı, odun qırmağa başdadı. Bu dəfə də bədbəxtlik üz verdi, bir ala qarğa uçuf gəlif papağı götürüf apardı.

Kasıf yenə qəm-qüssəyə batdı. Fikirrəşdi kin, bu elə belə olmalıymış! O,yenə əvvəlki kimi yaşayır, hər gün meşiyə gedir, odun qırır və satırdı. Qonşular görürlər kin, çox vaxt keçməsinə baxmayaraq kasıv



heç nə eləmiyif. Bəs bu pulları neylədi? Bunu öyrənmək üçün ömürgün qonşuları ondan soruşdu:

- Hə, nə olub qardaş? Sən niyə belə pis alver eliyirsən? Yoxsa bizim pulları xərcləməkdən qorxursan? Əgər belədirsə, onda bizim pulları qaytar geri.

Kasıf ağlamağa başdadı. Onnarın pullarını necə itirdiyini söylədi. Qonşuları inanmadılar, onu məhkəməyə verdilər. Məhkəmə kasıv kəndlinin dindirdi. Kasıv başına gələni olduğu kimi hakimə danışdı. Həm də ağlaya-ağlaya hakimi inandırdıkın, mən yalan danışmıram, inan.

Hakim çıxılmaz vəziyyətdə qalmışdı. Kasıva inanırdı, amma hey fikirrəşirdi kin, bu işə necə əncam çəkməli? Pulları qaytarmağa kasıvın imkanı yoxdu, dustaq edilsə də acından öləcək. Hakim beləcə dərin fikrə getmişdi, nə edəcəyini bilmirdi. Hakim pəncərədən bayıra baxarkən gördü kün, bir neçə uşaq küçədə oynaşırlar. Onnardan bir diribaş uşaq bir daşın üsdünə çıxıf dedi:

- Ay uşaqlar, mən hakim olacam, indi yanıma gəlin, kimin şikayəti varsa mənə deyin. Uşaqlardan biri gəlif dedi:

- Bax, mən bu kişiyə (uşağa) borc pul vermişəm, indi ala bilmirəm.

Hakim uşaq soruşdu:

- A kişi, sən ona borclusanmı?

- Bəli, borcluyam.

Bəs niyə qaytarmırsan?

- Bacara bilmirəm, kasıvam, əlimə düşəndə verəcəm.

- Qulaq asın, şikayətçi! Görürsənmi, o sənin pulunu danmır, borcu qaytarmağa gücü çatmır, odur kun, sən pulu qaytarmağa ona beş il möhlət ver, ola bilər ki, bu beş il müddətində o sənin pulunu artıqlaması ilə qaytarar. Hə, indi siz razısınızmı?

Uşaqlar razı qaldıqlarını bildirdilər. Hakim uşaqların bu hərəkətini görür və eşidirdi. Odur kun, dedi:

- Bu uşaqlar mənim başıma ağıl qoydu. Mən də şikayətçilərimə deyərəmkin, kasıva möhlət verin.

Hakim dedinmi kasıva üç il möhlət verməlisiniz. Qonşular möhlət verdilər...

Kasıf yenə öz işi ilə məşğul oldu. Bir gün yenə meşəyə getdi, elə arabanı yenicə doldururdu kun, qarannıx düşdü. Kasıv fikirrəşdi kin, nolar gecə burda qalaram, səhər arabanı bütöv odunnan dolduruf apar-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ram. Sonra fikirrəşdikin, bəs gecə harda qalacax. Meşədə vəhşi heyvannar onun atını, ya da özünü yemiyəcəkmi? O, belə fikirnən meşənin ən dərin yerinə getdi, iri bir ağaca çıxıf orda gejələməli oldu. Gejə düşdü, burya yeddi nəfər quldur gəldi. Onnar birlikdə dedilər:

- Qapılar, qapılar, açılın!

Onnar belə deyəndə yeraltı mağaranı qapıları açıldı. Quldurrar əldə etdiklərini mağaraya doldurannan sonra dedilər:

- Qapılar, bağlanın!

Qapılar bağlandı, quldurlar isə yenə də çalıf-çapmaq dalınca getdilər. Kasıv bunnarın hamısını gördü, ətraf tamam sakitləşənnən sonra ağacdan düşdü. Kasıv yerə düşən kimi quldurrar deyən kimi "Qapılar, açılın" dedi. Elə bu zaman qapılar açıldı. Kasıv mağaraya girdi, baxıf gördü kün, burda çoxlu qızıl-gümüş, başqa qiymətli şeylər var. Kasıv çox sevindi, başladı pul kisələrini arabanın yanına yığmağa. Arabanı qızılla, gümüşlə yükləyif evə gətirdi.

Arvadı onun gəlməsinnən sevinib dedi:

- Eh, mənim zavallı ərim, bu gecə yata bilmədim, hey fikirrəşdim kin, görəsən harda qaldı, başına nə iş gəldi, niyə gəlmədi?

Kişi də sevincək dedi:

– Ay arvad, fikir eləmə! Allah bizə xoşbəxtlik nəsib edib, mən dəfnə tapmışam, gəl kömək elə kisələri daşıyaq.

Onnar kisələri daşıyıf qurtardılar. Kasıf səhərisi gün varrı qardaşının yanna gedif bütün əhvalatı ona danışdı, üsdəlik dedi kin, səhər mənnən gedək sən də qızıl kisələrinnən gətir. Bəli, böyük qardaş da meşiyə getdi. Hər ikisi qızıl, gümüş kisələrini daşıyıf arabaya doldurdu. Kasıv, daha bəsdi-deyə az götürdü. Amma varrı qardaşın gözü doymurdu. Odur kun, o, kasıv qardaşa dedi kin, sən get mən də gələcəm. Kasıv qardaş razılaşdı, dedi kin, işi qurtaranda "Qapılar, bağlanın" sözünü deməmiş gəlmə. Varrı qardaş mağaradan çıxmaq bilmirdi. Axı buradakıların hamısını aparmaq mümkün deyildi.

Nolasıydı, axşam düşdü. Quldurrar gəlif böyük qardaşı burda tapdılar. Quldurrardan biri onun başını kəsif leşini gətirif arabaya qoydular.

Arabadakı kisələri də daşıyıf mağaraya gətirdilər. Quldurrarın başçısı böyük qardaşı öldürəni danladı ki, sən onu niyə tez öldürdün, axı, bizim çox şeyimizi aparıflar, qoymadın görək bizə ziyan vuran bu adam hara gedir. Amma indi biz oğrumuzu tapa bilmərik.

Quldurrardan biri dedi:



– Qoy onu kim öldürüf, o da getsin bizim oğrumuzu tapıb gətirsin.

Çox keçmədi kin həmin qatil kəşfiyyata çıxdı, qızılların harda gizlədildiyini axdarmağa başladı. O, gəlif kasıv qardaşın dükanına çıxdı. Buradan bir neçə şey aldı, amma bu adam zənn etdikin, dükançı yaman bikefdi. Belə olanda o, kiçik qardaşdan soruşdu:

- Qardaş, niyə bikefsən?

Dükançı dedi:

- Mənim böyük qardaşım var idi, bizə bədbəxtlik üz verdi, onun kimsə başını kəsib burya tulluyuf, indi onun üçüydü, onu dəfn eləmişik, ona görə bikefəm.

Quldur başa düşdü kün, izə düşüf. Odurkun, onu sorğu-suala tutdu. Böyük qardaşın evini soruşdu, evi ona tanıtdılar. Quldur həmin qapıya qırmızı rəng vurdu. Kasıv soruşdu kun, niyə belə eliyirsən? Quldur cavaf verdi kin, dul arvada kömək edəcəm, ona görə qapını nişanlayıram kın, asan tapım.

Kasıv qardaş dedi:

- Ay qardaş, bizim gəlnimizin heş nəyə ehtiyacı yoxdu. Allaha şükür, onun hər şeyi boldu.

Quldur kasıvdan soruşur kun, bəs sənin evin hansıdı? Kasıv öz evini ona tanıtdı. Quldur bu evə də nişan qoydu. Soruşdu kun, bəs bu nə üçündür?

Quldur dedi:

- Sən mənim xoşuma gəldin. Gecə gəlib sənin evində qalacam. İnan mənə, bu sənin xeyrinədi.

Quldur öz yoldaşlarının yanına qayıtdı. Dedi kin, qızıllarımızı aparannarı tapmışam, hər ikisinin qapısına naxış vurmuşam. Quldur gedənnən sonra kasıv evə gəldi və gördüklərini evdəkilərə danışdı. Qız atasını dinləyənnən sonra dedi:

- Atacan, sən dost tapmayıfsan, özünə düşmən tapıfsan. Bəs niyə təkcə əmim evi ilə bizim evimizə nişan qoyuflar.

Bəlkə bunnar qızılını gətirdiyiniz quldurlardı. Bax bilin kin, bu quldurrar bu gejə gəlif bizi talan eləyəcəklər.

Kişi donub qaldı:

- A qızım, sən ağıllı söhbət eliyirsən. Bəs indi biz neyləyək?

Qız dedi:

- Get bütün qonşuların qıpılarını həmin rənglərlə rənglə. Bəli, kişi göy rəngli boyağı götürüb bütün qapıları nişanladı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gecənin bir vaxtında quldurrar kəndə daxil oldular. Hansı qapıya getdilər rənglənmiş gördülər. Axı burda iki yox, bütün qapılar rənglənmişdi. Kor-peşman geri qayıtdılar. Onnara xəbər verən qulduru doyunca döydülərkin, bizi niyə aldatdın.

Kəşfiyyatçı quldur səhv etməmişdi.

Kasıvdan qisasını almaq üçün yeni tədbir hazırladı. O, öz yoldaşlarına dedi kin, mən sizi aldatmadım, oğru bizə kələk gəldi. İndi gəlin yeddi çəllək hazırlayaq. Bu çəlləklərin birini yağ ilə dolduraq, qalanında isə özümüz yerləşək. çəlləkləri günüzdən aparıf kasıvın evində yerləşdirək. Gecə isə çıxıf onnarı öldürüf qızılları gətirək. Onnar belə də edirlər. Həmən kəşfiyyatçı quldur çəlləkləri arabaya dolduruf kasıvın evinə gətirir və kasıva deyir kin, hamısı yağdı, səhər satajam. Kasıv da razılaşdı.

Qız yenə atasına deyir kin, ata, burada yenə kələk var, qoy mən gedim çəlləklərin yanında yatım. Atası razı  olur, qız çəlləklərin yanında yatır. Çəlləyin birinin ağzını açır, baxıf görür kün, həqiqətən bu çəlləkdəki yağdır. O biri çəlləkləri aça bilmir. Qız qulağını çəlləklərə yanaşdırır, baxıf görür kün, bu çəlləklərdə nəfəs duyulur. Odur kun qız suyu qaynadıf həmən çəlləklərə tökür. Gecənin bir vaxtı kəşfiyyatçı quldur fit çalır, ancaq gələn olmur. Gedif çəlləkdəki yoldaşlarını oyatmaq istəyir. Onnar isə isti sudan bişmişdilər. Quldur işin nə yerdə olduğunu bildi. Atları qoşuf, çəlləkləri arabaya yığıb apardı.

Qız gördüyü işi evdəkilərə danışdı.

Atası dedi:

- Qızım, sən bizim həyatımızı xilas elədin, gəl sən oğlumun qanunu arvadı ol. Mən sənnən ağıllı, sənnən başarıxlı qızı hardan tapajam.

Qız razılıx verir, kasıv kişi toy büsatı qurdurur, böyük qonaxlıx verdirir, qızı oğluna alır.

Cavan gəlin bir gün qaynatasına deyirkin, atacan, sən gəl köhnə evi sat, təzə ev alıb orya köçək. Mən bu quldurrardan qorxuram. Onnar gec-tez bizdən qisas alacaqlar. Atası razılaşır. Onnar köhnə evi satıllar, təzə gözəl evlər qurdururlar. Hamısı bu təzə evə köçür, burda yaşayıllar.

Aradan bir qədər keçənnən sonra bunnara zabit paltarında bir qonaq gəlir. Kasıv kişiyə deyin kin, məni bir gejəliyinə qonax elə. Kişi ırazılaşır. Bu zaman gəlin kişiyə deyir:

- Ata, bu həmən quldurdu, bunnan bizə xata gələjək, sən bunu niyə evə qoydun?



Kişi deyirkin, indi tək adam bizə nə edə bilər?

Xülasə, yeyib-içib yatırlar. Amma gəlin qonaxdan şübhələndiyi üçün yanına iti balta qoyur və ayıq qalır. Gəlinin gözü qonaxdaydı. Gejənin bir vaxtında hamının yatdığını hiss edən qonax yerinnən qalxıb gəlin yatan tərəfə gəlir. Gəlin buna hazır idi, qonax xançalı gəlin yatan yerə soxanda gəlinin baltası onun başına enir, ikinci zərbə ilə gəlin qonağın başını baltaynan üzür.

Kasıv kişi indi inandı ki, gəlin çox ağıllıdı. Hamı onun sözünə baxmalı, onun dediyinə əməl etməlidi. Bəli, ağıllı pəri yeddi qulduru öldürdü, özlərinə yeni ev tikdirdi, ağıllı, tədbirlə firavan yaşamağa başladılar.

Onnarın belə firavan dolanmaları zamanı borclular qapıda göründülər. Kişi onnarı yaxşı qarşıladı.

- Paho, siz hara, bura hara?

- Gəlmişik borcumuzu almağa.

- Çox yaxşı, gəlin mənim təzə evimlə tanış olun.

- Paho, mübarək olsun, nə yaxşı evlər tikdiribsiniz, indi görünür siz varlısınız, bəs bizim borcumuzu niyə qaytarmırsınız.

- Bəli, indi mənim pulum çoxdu, sizin borclarınızı iki qat ödəyə bilərəm.

Kişi borcluların pulunu qaytardı, amma onnarı getməyə qoymadı. Borclulara yaxşı bir süfrə açdı, yedilər, içdilər, yola düşdülər.

Bəli, ağıllı pəri kasıv kişini kasıvlıxdan belə qurtardı. Nağılımız burda bitdi. Qoy düşmənin ömrü də beləcə bitsin.

Göydən üç alma düşdü: biri nağıl danışanın, biri nağıl sahibinin, biri də qulaq asannarın.

## ŞAHZADƏYLƏ ƏMİSİ

Biri vardı, biri yox idi, bir kişi vardı. Onun da üç oğlu var idi. Onnarın ikisi ağıllı, üçüncüsü axmaq idi. Evin kişisi geniş bir sahəyə noxud əkdi. Noxudu becərdilər, çox yaxşı bitki verdi. Noxud sahəsi yetişməyə başlayanda namə'lum bir adam onun noxuduna dadandı. Kişi sahəni gəzəndə gördü ki, sahə ayaqlanıb,əkin yerində nə varsa hamısı yerə sərilib. Evə gəlib oğlanlarını başına toplayıf dedi:

- Mənim əziz balalarım, keşik çəkib bilmək lazımdır ki, noxud sahəmizi puç edəni biləк.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Birinci böyük qardaş keşik çəkməyə getdi. Bir qədər gözlədi, amma gecənin bir vaxtı onu yuxu apardı. Yenə həmən namə'lum adam noxudu çıxnayıb tökmüşdü, böyük qardaş heç nə görmədi. İndi ortancıl qardaş keşik çəkməli oldu. Bu da bir iş görə bilmədi. Noxud sahəsi yenə də çığnandı, amma ortancıl qardaş bir şey görmədi.

İşi belə görən üçüncü - axmaq qardaş atasına dedi:

- İndi mən gedəcəyəm, mənim gözümnən heç nə yayınmaz!

- Sən nə danışırsan? Sənin əlinnən nə gəlir?-deyə qardaşları ona cavaf verdilər. Axmaq qardaş onnara fikir verməyif keşik çəkməyə getdi. O, özü ilə bir araba ağac qabığınnan hörülmüş ip və xeyli tütün apardı. Yuxu onu basanda tüstünü iyləməyə başladı.

Zorba pəhlivan həmişəki kimi atını çapıb gəldi. Atı noxud sahəsinə buraxdı, özü də yıxılıb yatdı. Zorba pəhlivanın yuxuya getməsini görüf axmaq gətirdiyi ipnən onu yuxulu-yuxulu möhkəmcə sarıdı. Axmaq oğrunu sarıyıf qurtarannan sonra yanına gəlif dedi:

- Axırıkın oğrunu yaxaladım!

Atası dedi:

- Axmaq, sən bu Zorba pəhlivanın kürəyini necə yerə vurdun?

Bu xəbər padşaha gedif çatdı. Padşaha dedilər kin, çox güclü pəhlivan ələ keçib. Padşah soruşdu:

- Onu kim tutub?

Padşaha dedilər kin, onu hansısa bir axmaq tutub. O saat padşah əmr elədi kin, axmağı yanıma gətirin.

Axmağı padşahın yanna apardılar. Padşah axmaxdan soruşdu:

- Axmax, bu nə əhvalatdı, sən o Zorba pəhlivanı yıxıf sarıdın? Onu bura necə gətirmək olar?

Axmaq padşaha dedi:

– Zorba pəhlivanı bura yalnız on iki at, altmış igid və dəmir araba ilə gətirmək olar.

Nolajıydı Zorba pəhlivanı padşahın yanına gətirdilər. Padşah baxıf gördü kün, doğurdan da belə bir pəhlivanı axmaq necə yıxıf sarıyıf. Padşah axmaqdan soruşdu:

- İndi de görüm, bunu harda yerləşdirmək olar, ona nə bağlıyaqkın, qırıf qaçmasın?

Axmaq dedi:

- Əmr etkin, iyirmi arşın yer qazsınnar, dəmir divarrarı uçurduf bunnardan döşəmələr hazırrasınnar, ora qoyuf üstünü də torpaxnan



örtsünnər, bu çox möhkəm olar!

Dəmir divarrarı uçurtdular, yan-yana döşəmələr hazırradılar. Zorba pəhlivanı haman çalaya salıf döşəmələrlə örtdülər, üstünə də bir neçə əsgər keşikçi qoydular. Axmaq qarmaq götürüf ipləri qırdı, pəhlivanı sarınmış iplərdən azad etdi. Padşah bəxşeyş verif evinə yola saldı. Günnərin bir günündə padşahın oğlannarı bağda gəzirdilər, qızıl ox atırdılar. Bu zaman kiçik qardaşın, şahzadənin oxu Zorba pəhlivanın pəncərəsinə dəydi.

-Ay Zorba pəhlivan, mənim oxumu ver-deyə şahzadə ona yalvardı.

Zorba pəhlivan ona dedi:

- Sən mənə kömək elə, əmr et, heç olmasa yan-yana düzülmüş dəmirin birini qopartsınnar. Mən onda sənin oxunu verərəm, həm də üstəlik özümün üç oxumu da sənə bağışlayaram!

Şahzadə gücünü toplayıf döşəmələrdən birini çıxartdı. Zorba pəhlivan qızıl oxu ona verif dedi:

- Qulaq as, şahzadə, sən nökər olacaqsan, çoban, aşbaz olacaqsan, sonra yenə şahzadə olacaqsan.

Bunu deyənnən sonra Zorba pəhlivan öz zindanını dağıtdı, ordan çıxdı, bütün keşikçiləri qırıf qurtardı. Padşah gəlif bunu görüf dəhşətə gəldi.

- Pəhlivanı azadlığa kim buraxdı-deyə qışqırmağa başladı. Döyülmüş, əzilmiş qol-qıçı qırılmış əsgərlər dedilər:

- Padşah sağ olsun, Zorba pəhlivanı şahzadə azadlığa buraxdı.

Padşah hirsləndi, müxtəlif vilayətlərdən şah, şahzadələri yanına də'vət elədi. Onlar cəm oldular, padşah qonaqlıq verdi, onnarnan məsləhətləşməyə başladı. O dedi:

- Oğlum şahzadə mən nə tədbir töküm? Özünüz bilirsiniz ki, padşah uşaqlarını nə e'dam elətdirir, nə də asdırır.

Gələn qonaqlar padşaha belə məsləhət verdilər:

- Şahzadəyə bir xidmətçi verilsin, qoy haraya istəyir çıxıf getsin!

Şahzadə atasının yanınnan çıxıf getdi. Az getdi, üz getdi dərə-təpə düz getdi. Axırda şəhərdən, kənddən çıxdı. O, su içmək istədi. Bir quyunun başına gəldi, gördü kün, burda su var, ancax çox dərindədi. O qədər dərindədirkin, orya əl çatmaz, içmək də mümkün deyil. Şahzadə öz xidmətçisinə dedi:

- Ay İmaməli, biz burdan nejə su çıxarda bilərik. Buna bir çarə qıla bilərsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xidmətçi dedi:
- Ay şahzadə, sən mənim ayaqlarımdan tut, aşağı salla mən doyunca içim. Bundan başqa çarəmiz yoxdu.
Bunu deyənnən sonra şahzadə xidmətçinin ayaqlarınnan tutuf aşağı salladı. Xidmətçi doyunca su içdi. Sonra da şahzadənin ayaqlarınnan tutuf aşağı salladı. O da doyunca su içənnən sonra dedi:
- Ay xidmətçi İmaməli, məni yuxarı çək.
Xidmətçi dedi:
- Səni bir şərtlə yuxarı çəkəjəm, şərtim budur kun, sən gəl xidmətçi ol, mən də şahzadə.
Şahzadə dedi:
- Ay axmaq, sən nə danışırsan, nə axmaxlıq eliyirsən?
- Axmaxlığı sən eliyirsən, əgər razı deyilsənsə, onda buraxıram aşağı, suya batıf, boğuluf ölərsən.
- Yaxşı, yaxşı Allah bəlanı versin, mən olum xidmətçi, sən də ol şahzadə. Aman günüdü məni yuxarı çək, suya salıf öldürmə.
Belə də razılaşdılar. Onnar yollarına davam etdilər. Gəlif bir şəhərə çatdılar. Şahzadə olan xidmətçi düz şəhərin padşahının imarətinin qarşısına gəldi. Yalançı şahzadə qavaxda, əsl şahzadə isə onun dalınca gedirdi. Yalançı şahzadə tə'zim etmədən, əsl şahzadə isə ehtiram göstərərək gedirdilər. Padşah onnarı böyük həvəslə qəbul etdi. Onnara dedi kin, mənim yanımda qalın. Yalançı şahzadə dedi:
- Heç bilirsən, mənim necə xidmətçim var, heyvannarın keşiyini necə yaxşı çəkir. Hansı atı minif sürərsə, o saat onun quyruğu qızıl olur, yalı qızıl olur, yanaqlarında ulduzlar parlayır; inəklər də onun kimi, buynuzları qızıl olur, yanaqlarında ulduz parlayır.
Padşah ona atları verdi kin, gözətləsin. Şahzadə atları qovub çəmənliyə apardı. Atların hamısı onun yanınnan dağılıf qaçmışdı. O, oturuf acı-acı ağladı.
- Ax, ay nankor Zorba pəhlivan, sən mənim başıma nə oyun açdın? İndi mən başıma nə çarə qılım?
Birdən Zorba pəhlivan hardansa gəlif onun hüzurunda hazır oldu. O, dedi:
- Ey şahzadə, sənə nə kömək lazımdı?
Şahzadə öz dərdini ona danışdı. Pəhlivan dedi:
- Eyb eləməz! Gəl mənimlə gedək, atların hamısını bir yerə yığaq, balaca bajımın yanına aparaq. Balaca bajım padşahın sənə verdiyi



əmrlərin hamısına əməl eləyər.
Onnar ilxını qovub balaca bacının yanna gətirdilər. Balaca bacı doğrudan da hər şeyə əməl elədi. Qonaxları da yedirib, içirtdi, onnarı öylərinə yola saldı. Şahzadə atları sürüf padşahın sarayına gətirdi. Atların hamısının quyrğu qızıldan, yanaxlarında ulduz parlayırdı. Özünü şahzadə adlandıran xidmətçi isə pəncərənin qavağında əyləşmişdi. Bunu belə görən padşah onnara əmr elədi kin, indi də inəkləri aparsınnar. Ancax həmən şeylər, yenə təkrar olsun. Əgər olmasa sizi eləcə darvazıya çatmamış öldürtdürəcəyəm.
Şahzadə yenə ağlıya-ağlıya inəkləri qavağna çatıf çölə apardı. Şahzadə bütün günü inəklərə keşik çəkdi. Gördü kün, inəklərin quyruqları qızıla dönmür. Tez bir guşəyə çəkilif dostunu köməyə çağırdı.
- Ah, nankor pəhlivan hardasan köməyimə gəl.
Aradan heç bir dəqiqə keçməmişdikin, bir də Zorba pəhlivan budur gəldi. Hə, mənə görə bir qulluq- deyə şahzadəyə müraciət etdi. Şahzadə padşahın əmrini ona çatdırdı. Zorba pəhlivan inəkləri də, şahzadəni də balaca bacısının yanına apardı. Balaca bacı bunnarı yedirtdi, içirtdi yola saldı. Şahzadə axşamüstü inəkləri qavağna qatıf padşahın evinə gətirdi. Padşah qah-qah çəkif gülməyə başladı. O, dedi:
- Qəribə çobandı! Görün bir atları, inəkləri necə qiymətə mindirdi, adam baxmaqnan doymur.
Yalançı şahzadə dedi:
- Padşah sağ olsun, o hələ çox ləzzətli xörəklər də hazırlayır.
Bunnan sonra padşah onu aşpazlığa göndərdi. Şahzadə aşpazların yanna gəldi, onnarın ixdiyarında oldu, ancax acı-acı ağladı.
- İlahi, mənimkin, əlimnən heç bir şey gəlmir, mənə deyilənlər hamısı böhtandı.
İndi mən başıma nə çarə qılım?
Bunu eşidən Zorba pəhlivan yenə hazır oldu. Şahzadə padşahın əmrini ona çatdırdı. Pəhlivan balaca bacısını çağırıb əhvalatı ona danışdı. Balaca bacı qollarını çırmalayıf gözəl, dadlı xörəklər hazırradı. Padşah çox razı qaldı...
Günnərin birində belə qərara gəldikin, qızını özünü şahzadə adlandıran xidmətçiyə versin. Elə bu vaxtı bir üçbaşlı ilan gəlif padşaha dedi:
- Əgər sən qızını mənə verməsən, onda sənin bütün qoşununu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qırar, özünü də əsir alaram.

Padşah ilanın bu sözünü yalançı şahzadəyə dedikin, indi mən nə etməliyəm?

Padşah yalançı şahzadənin məsləhəti ilə onun qavağna qoşununu çıxartdı. Bu zaman əsil şahzadə aşpazlara dedikin, əmilər, mənə icazə verin, gedim vuruşmaya mən də baxım. Heç ömrümdə vuruşma görməmişəm. Aşpazlar ona icazə verdilər. Şahzadə bir düzənniyə gəlib: – Dostum Zorba pəhlivan, hüzurumda hazır ol!-dedi.

Zorba pəhlivan Şahzadənin hüzurunda hazır oldu. Şahzadə dedikin, necə edə bilərikkin, üçbaşlı ilanın qoşununu məhv edək. Zorba pəhlivan gülərək dedi:

- Bu çox xırda şeydi, narahat olma, düzələr.

Bir azdan böyürdən bir qoşun çıxdıkın, ucu-bucağı görünmədi. Bu qoşun üçbaşdı ilanın qoşununu qırıf qurtardı. Padşah yenə razı qalıf dedi:

- Bunnarın hamısı yaxşı oldu, indi toy eləmək lazımdı. İndi də altıbaşdı ilan padşahın hüzuruna gəlif dedi:

- Əgər sən qızını mənə verməsən, onda bütün qoşununu qıracağam, özünü də əsir alacam.

Padşah yenə yalançı şahzadədən kömək istədi. Yalançı şahzadə dedi kin, yenə qoşun çıxaraq, bəlkə, Allah bizə kömək elədi. Bəli, hər iki tərəf qoşun çıxardı. Bu zaman aşpazlardan icazə alan şahzadə bir daldeyə çəkilif dedi:

- Ay mənim dostum Zorba pəhlivan, tez yanımda hazır ol! Az çəkmədi Zorba pəhlivan Şahzadənin hüzurunda hazır ol! Əhvalatı ona danışdı. Zorba pəhlivan yenə: bu hasand işdi,-deyib çıxıf getdi. Bir azdan arxa tərəfdən elə bir qoşun yeridi kin, heç sayı samballı yoxuydu. Haman qoşun altıbaşdı ilanın qoşununu darmadağın etdi.

Bunu görən padşah dedi:

- Bəli, indi toy eliyə bilərik.

Bu zaman on iki başdı ilan gəlif padşaha dedi:

- Əgər sən qızını mənə verməsən, onda qoşunuyun hamısını qaracağam, özünü də əsir alacağam! Padşah əhvalatı yalançı şahzadəyə dedi. Yalançı şahzadə dedi kin, yenə qoşun çıxarmax lızımdı. Padşah dedikin, əgər ilan üstün gəlsə, onda razılıxnan qızımı ona verəjəm, təkin səltənətimə toxunmasın.

Yalançı şahazadə dedi:



- Qoşun çıxardaq, Allah bizə kömək edər. Bəli, qoşunnar qarşı-qarşıya çıxdı. Bu zaman Şahzadə aşpazlardan icazə alıf qoşunnar olan yerə gəldi. Bir düzə gəlif Zorba pəhlivanı köməyə çağırdı. Zorba pəhlivan hazır oldu. Şahzadə əhvalatı ona danışdı.

Bu zaman Zorba pəhlivan Şahzadəyə dedi:

- Ay şahzadə, mən sənin yolunda hər şeyə hazıram. Qulaq as, indi mənim qoşunum hazırdı. Bax, bu atın birinə mən minəjəm, birinə də sən. Mən qavaxda gedəjəm, sənsə arxada gedəjəksən. On iki başdı ilanın qoşununu qırıf tökəjiyik. De, durma gəl başlayax.

Şahzadə bir ata, Zorba pəhlivan da bir ata süvar oluf qoşunnan vuruşa girdilər. Onnar on iki başdı ilanın qoşununu qırıf tükətdilər. Döyüş zamanı Şahzadənin qolunu yaraladılar. Bu zaman padşahın qızı başındakı şalı iki cırıf onun yaralı qolunu sarıdı. Döyüş başa çatdı. Şahzadə aşpazxanıya gəldi. Ancaq yaman yorulmuşdu, yıxılıf yatdı. Sarayda toy tədarükü görülürdü. Birdən aşpazlar dedilər kin, gedin xidmətçi aşpazı qaldırın, gəlsin xörək hazzırrıyax. Aşpazın biri gəldikin, padşahın göndərdiyi xidmətçi aşpazı qaldırsın. O yatan şahzadə aşpazı nə ədər dümsüklədisə də qaldıra bilmədi. Axırda yoldaşlarını çağırıf dedi:

- Ay yoldaşlar, bu qalxmır! Nə qədər vururam oyammır.

Aşpazlardan biri bir toxmaq götürüf şahzadə yatan yerə gəldi.

- İndi bu toxmaqnan elə vurajamkın, yerində ölü qalajax! Ayə bu niyə qalxmır?

Bu zaman şahzadə yuxudan oyanıf qalxdı.

- Ay əmilər, mən nə yaman çox yatmışam. Siz Allah, çox yatmağımı padşaha deməyin.

Aşpazlar dedilər:

- Axmax, dur tez ol, tezcə gedək kin, sənnən ötrü bizi danlamasınnar.

Onu mətbəxə gətirdilər. Məcbur elədilər kin, qazannarı yuyub təmizləsin. Şahzadə qollarını çırmalayıf işə başdadı. Bu zaman qız şalını onun qolunda tanıyıf soruşdu:

- Sən bu şalı hardan almısan, sən kimsən?

Əsil şahzadə əhvalatı boynuna alıb dedi:

– Mən əsil şahzadəyəm, ilannarın qoşununu da qıran mənəm. Atayın yanındakı isə mənim xidmətçimdi. O həqiqi şahzadə deyil. İşi belə görən şahzadə qız onun qoluna girərək atasının yanına gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əhvalatı olduğu kimi atasına danışdı. Padşah əhvalatnan tanış olannan sonra dedi:

- Yalançı şahzadə e'dam edilsin! Mən isə qızımı əsil şahzadəyə verirəm

Beləliklə, toy edib şahzadə qızı şahzadə oğlana verdilər. Mən də toyda iştirak etdim. Mənə ayrıca xidmət etdilər. Bir neçə bakal şərab verdilər, içdim, ancax bığlarım isdandı, qarnıma bir şey getmədi. Qavağıma bir toyux budu qoydular. Üç gün, üç gejə ancax yeyif qurtardım, ancax yenə aj qaldım. Mən də, toyu olannar da xoşbəxt yaşadıq, sizləri də həmişə xoşbəxt yaşayasınız.

Nağılımız da burda bitdi. Göydən üç alma düşdü, bunu da özünüz bölün.



## MƏİŞƏT NAĞILLARI

### FATI

Biri varıymış, biri yoxuymuş, bir yoxsul kişi varıymış. Bu kişinin də vas-vası,dedi-qodulu, axşama kimi vırt-vırt ötən Fatı addı arvadı varıymış. Kişi ordan-burdan yığıf gətirər, kasıflıxnan dolanırmış. Əmbə nə qədər qazanc gətirsə də, Fatı hey deyinir, kişini dannayır, elə hey qarğayırdı. Arvad gününü qara eləmişdi, ona göz verir, işıx vermirdi. Kişi arvadın bu cansıxıcı rəftarınnan cana doymuşdu. Nə edəcəyini bilmirdi. Arvadnan nə qədər yumşax davransa da yenə də fərq eləməmişdi.

Bir gün kişi Fatıya deyir:

- Ay Fatı, daha mən dözə bilmirəm, sən məni cana doydurdun.

Bax indi başımı götürüf gedirəm. Təki sən innən belə xoşbaxt yaşa.

Fatı gülə-gülə kişiyə dedi:

- Belə cəhənnəmə get, gora get. Elə get ki, dalınnan da bir qara daş getsin. Desənə sənnən ötrü ağlıyıf, göz yaşı tökəjiyik. Dur, elə bu saat cəhənnəm ol burdan.

Kişi daha dözmüyüf evdən çıxdı. Üz tutdu getməyə. Fağır, məzlum kişi hara getdiyini də bilmirdi. Başını sallıyıf yol uzunu gedirdi. Yolda onnara bir nəfər qoşuldu. Bu yol yoldaşı kişidən soruşdu:

- Ay kişi, indi biz yol yoldaşı olduq. Biz birimizin dərdini, vəziyyətini öyrənməli, tanış olmalıyıx. De görüm, sən haralısan, hara gedirsən?

Kişi dedi:

- Ay qardaş, Allahdan danmadığımı sənnən nə danım. Mən nə qədər çalışıram, əlləşirəm, evə qazanc gətirirəm, arvad yenə mənnən yola getmir. Hey deyinir, məni söyüf biyavır eliyir. Sənnən nə danım, bax məni təngə gətirən haman arvadın əlinnən baş götürüf qaçıram. Kişinin yol yoldaşı onun əhvalatnan tanış olannan sonra kişiyə bir qızıl pul verif deyirkin, a kişi, sana yazığım gəlir. Bu qızılı apar arvadına görkəz, deynən ki, ay arvad, yaman qızıl tapmışam. Arvadı aldadıf bax o dörd yol ayrıcında dərin bir quyu var, salla haman quyuya, qoy qalsın orda. Deynənkin, bax orda bir küpə qızıl var. Mən düşsəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sən məni çıxara bilməssən. Amma sən düşəndə həm qızılın hamısını gətirərsən, həm də səni dartıf çıxarda bilərəm. Amma olmuya-bilmiyə onu çıxardasan, yazıxsan bəlkə sən bir gün görəsən. Di durma, get.

Kişi haman adamnan qızılı alıb kəndə tərəf gəldi.

Kişi gəlif evə çatdı. Qapıyı nə qədər döydü arvad açmadı. Arvada nə qədər yalvar-yaxar etdi arvad eşitmədi. Axırda qızılı qapının deşiyinnən göstərif dedi:

- Ay arvad, Allaha bax tərslik eləmə. Allah bizə qismət verif, yaman qızıl tapmışam, qapıyı aç birrikdə gedək qızılı gətirək. Sənin əlinnən özümü quyuya salmax istədim. Bir də baxıf gördümkün, künşdə bir küpə qızıl var. Bax bircəsini üstünnən almışam. Onu da sənə göstərməyə gətirmişəm. İndi bir qav bir az da kəndir aparax, qızılı çıxardıf gətirək.

Arvad qızılı görən kimi sevinə-sevinə qapıyı açdı. Evdən qav da , kəndir də götürüf yola düşdülər. Onnar az getdilər, üz getdilər, gedif quyunun başına çatdılar. Kişi dedi:

- Ay arvad, indi quyuya kim düşəcək? Bax, mən düşsəm sən yenə dava salajaxsan, deyəjəksən ki, qızılın hamısını gətirmiyifsən. Həm də sən məni çəkif çıxara bilməyəjəksən, yaxşısı budu ki, sən düşəsən.

Fatı dedi:

- Ay kişi, sən nə danışırsan, mən özüm düşəjəm, kəndiri belimə bağla, məni quyuya salla.

Kişi kəndiri Fatının belinə bağlıyıf, onu quyuya salladı. Bir qədər gedənnən sonra kişi Fatının kəndirini kəsdi. Fatı gupbultuynan ilə quyuya düşdü. Fatı qarannıx quyunun divinə düşən kimi bağrı partdamağa başdadı. Bunnan başqa bir qızıl ilan fısıldıyaraq onun üsdünü aldı. Fatı quyudan kişiyə yalvarıf-yaxardıkın, ay kişi, amandı, məni burda qoyma. Vallah, daha səni incitmiyəjəm, ancax kişi onu eşitmədi, Fatını quyuda qoyub evinə qayıtdı. Kişi evinə qayıdıf uşaxlarını başına yığıf, Allahına şükür edif, dolandı.

İndi sizə kimnnən xəvər verim, Fatıdan. Fatı quyuya düşən kimi başdadı ötməyə; yenə qarğış, söyüş, nal-nifrət aləmi başına götürdü. Quyudakı şahmar ilan Fatıya tərəf gəlif, onu çalmax istədiyi zaman qırt-qırt ötməsini görüf, geri yuvasına çəkildi. Fatının qırt-qırt ötməsi ilanı təngə gətirir. İlan çıxmağa yer axtarır. Qoy Fatı quyuda zarıya-zarıya qalmaqda olsun, görək kişi nə iş gördü. Bir müddət öz balaları ilə şirin dolanırdı. Eyni yenicə açılmışdı. Ancax bir gün Fatını yoxlamax fikrinə düşdü. Öz-özünə fikirrəşdikin, gedim axtarım, görüm sağdımı. Ona görə də uzun bir kəndir də götürüf quyuya tərəf üz tutdu. Kişi gəlib quyuya çatdı. Bir neçə dəfə "Fatı, ay Fatı" deyə çağırdı. Fatı quyudan kişiyə yalvardıkın, amandı, məni burdan çıxart, qələt eləmişəm, daha səni incitməyəjəm, məni balalarıma çatdır, ölənə kimi qulun olajam.



Kişinin ürəyi yumşaldı, kəndiri quyuya salladı, kəndir quyuya düşən kimi şahmar ilan fısıldayaraq kəndirə dolandı. Kişi kəndiri çəkif quyunun başına çıxartdı. Ancaq Fatı yox, quyudan ilan çıxmışdı. İlan quyudan çıxan kimi dilə gəlif, kişiyə dedi:

- Ay kişi, eşit, gör sənə nə deyirəm, bax bu quyudakı Fatını çıxarsan, səni tas-tas eləyəjəm. Ancaq çıxartmasan sana xeyir verəjəm. Mən gedif bir patşahın qızının boğazına dolanajam, kim gəlsə nə tədbir etsələr də düşməyəjəm. Ancaq sən gələndə düşəjəm. Onda sən də padşahdan istədiyin qədər bəxşeyş alarsan. Nə başını ağrıdım, kasıf adamsan, padşahdan dünyaviliyini alarsan. İndi isə qayıt, geri get, qoy Fatı da burda qalsın. Bax yenə deyirəm, eşitsəmkin, Fatını çıxarıfsan, səni harda olsan, çalajam.

İlan bunu deyif, kəndirdən çıxıf, kişidən uzaqlaşdı.

Kişi quyudan uzaxlaşıf evinə tərəf üz tutdu. İlanın bu söhbətindən sonra kişi daha Fatını axtarmaxdan vaz keçdi. Oğlannarı ilə bir müddət qulağı dinc dolandı. Ancax kişinin qulağı səsdəydi, tez-tez kəndin içinə gedir, yeni əhvalatdar öyrəmməyə çalışırdı.

Bir gün kişi eşitdikin, bilməzsənmi, bir padşahın qızının boğazına ilan dolanıf. Padşah nə qədər həkim, loğman gətirdifsə, heş kəs ilanı qızdan aralaya bilməyif. Axırda padşah e'lan edifkin, kim qızımı ilandan azad etsə, onu dünya malından qane edəjəm. Bu xəbəri eşidif, kişi soraxlaşa-soraxlaşa gəlif padşahın şəhərinə çatır. Kişi özünü padşahın imarətinin həyətinə yetirif, məqsədini qapıçıya bildirir. Qapıçı onu padşahın iqamətgahına aparır. Padşah kişini qəbul edir. Deyir:

- A kişi, mən çağırmamış adam qoymadım, indi sən öz ayağınla gəlif çıxıbsan. Əgər mənim qızımı qurtarsan, səni dünya malından doydurajam. Yox, qurtarmasan, səni dar ağacınnan asajam.

Kişi dedi:

- Padşah sağ olsun, mən sənin qızını qurtarajam. Ancaq əhdinə inanmıram, qorxuramkın, əhdi pozasan. Bu şərtnən qurtarajam ki, sən mana və'd etdiklərini əvvəlcədən adamlar qarşısında ayırd elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah razılaşır. Vəzir-vəkili yığıf kişiyə çatan qızılı, malı-mülkü ayırd edir. Kişini qız olan otağa aparıllar. O, "bismillah" deyif otağın qapısını açıf içəri girir. Qıza yaxınnaşanda ilan sıyrılıf, onun boynunnan düşür və kişiyə deyir ki, bax mən əhdimə düz çıxdım, yenə başqa bir padşahın qızının boynuna dolanajam, olmuya-bilməyə bir daha ora ayax basasan, onda səni tas-tas eliyəjəm. Boğazına dolandığım qızı başqasına verəjəm.

İlan çıxıf, getdi. Padşaha muştuluxçu xəbər apardıkın, padşah sağ olsun, kişi qızını qurtardı. O, qızının azad olmasına böyük ziyafət verdi, kişini də razı yola saldı. Kişi padşahın bağışdadığı qızılnan, daş-qaşnan gözəl ev tikdirdi. Balalarıynan xoş güzaran keçirdi. O, bir müddət beləjə rahat və xoş günnər yaşadı.

Günnərin bir günü yenə aləmə yayıldı ki, bilməzsənmi, fılan padşahın qızının boğazına bir ilan dolanıf. Bu padşah da hər yerə car çəkdirdikin, kim mənim qızımı qurtarsa, onu dünya malına doydurajam. Hər yerdən həkim, loğman gəldi, amma heş kəs ilanı qızdan azad eliyə bilmədi ki, bilmədi. Bir zaman padşaha xəvər verdilər ki, fılan padşahın qızını ilannan xilas edən bir şəxs oluf. Sən həmin adamı padşahdan soraxlaş. Bəli, bu padşah həmin padşahın yanına öz adamların göndərif onnan həmin adamın yerini öyrənir. Kişi bir yay günü evin həyətində ağaj kölgəsində dincəlirdi. Baxıf gördükün, iki atlı düz onun yanına gəlir. Bəli, atdılar çatıf kişiyə salam verif, atdan düşdülər. Onlar padşahın təklifini kişiyə çatdırdılar.

Kişi naəlac qalıf, bunnarnan padşahın şəhərinə yollandı. Padşahın vilayətinə çatır, padşah onu qəbul edir və kişiyə deyirkin, mənim sözüm sözdü. Əgər qızımı qurtarsan, ömürrük var-dövlətnən tə'min edəjəm. Kişi padşaha deyirkin, qızını qurtarmağına qurtarajam, amma bu dəfə ilan məni çalajaq. Uşaxlarım amanatı. Padşah söz verirkin, arxayın ola bilərsən, kişi çox bikef halda, qorxa-qorxa özünü qız olan otağa salır. İlan kişini tanıyıf tez sivrilib üzərinə atılıf onu vurmax istəyəndə kişi deyir:

- A sağ olmuş, elə bilirsən mən xeyir götürməyə gəlmişəm. Belə mənim sənə yazığım gəldi. Bilməzsənmi, Fatı quyudan çıxıf, səni axtarır. Bax mən bunu xəbər verməyə gəlmişəm, indi sən bilirsən, isdiyirsən məni öldür, isdəmirsən də özün bil.

İlan qızın boynunnan düşdü və kişiyə dedi:

- Amandı, Fatını dilə tut, mən qaçım.



İlan bir göz qırpımında gözdən itdi.

Kişi padşahdan nəmərini alıb, evinə qayıtdı, balalarınnan başı sakit, rahat və şən yaşadı. Onnar yedilər, işdilər, xoş güzəran keçirdilər. Allah sizlərə də xoş günnər bəxş eləsin. Göydən üç alma düşdü, biri bu nağılı düzüf qoşanın, biri nağıla qulax asannarın, biri də mənim özümün.

## TACİR MEHDİNİN NAĞILI

Biri varıydı, biri yoxuydu. Keflinin kefi kök, kasıvın dərdi çoxuydu. Keçmiş əyyamda Azərbaycan torpağında addı-sannı, şan-şöhrətdi Mehdi adlı bir tacir var idi. Mehdi tacirin mal-dövləti, qızıl-gümüşü sərvəti aşıb-daşmışdı. El-obada, mahalda hamı onun səxavətinnən İranda, İraqda dünyanın çox yerində olan nüfuzunnan danışardılar. Tacir Mehdinin mal-dövləti nə qədər çoxuydusa, onun səxavəti, hamıya olan qayğısı onnan da çoxuydu. Allah bu kişiyə hərtərəfli xoşbəxtlik bəxş etmişdi. Mehdi tacir düz qamətli, enli kürəkli, ağbəniz , qara göz, qara qaş, uca boylu bir şəxs imiş. Hamı onun yerişinnən, duruşunnan davranışınnan danışarmış. Söyləyillər ki, kişinin şirin söhbətinnən, baxışınnan, duruşunnan doymaq olmazmış. Onun danışdıran bir də danışdırmaq istəyirdi. El onu, o eli çox sevirdi. Mehdi tacir uzaq ölkələrə səfər edərkən, şəhər əhalisinə daş-qaş paylayırdı. Ehtiyacı olanları sevindirir və onlardan tələb edirdi ki, xeyir-dua verin bu uzaq səfərdən uğurla qayıdım. Bu uğurda sizin də payınız var. O, həm səfərə çıxanda, həm də səfərdən qayıdanda şəhər əhalisini beləcə sevindirərdi. Onun şöhrəti hər tərəfə yayılmışdı. Mehdi tacir kimsəsizlərin dayağı, kasıvların köməyi idi.

Onun Gülbadam adlı bir qadını, Əli adlı bir oğlu varıydı. Qadını da, oğlu da özü kimi adamlara qarşı mehriban, ləyaqətli idilər. Tacir Mehdinin şəhərdə onlarca dükanı var idi. O, uzaq şəhərlərdən gətirər, tacir köməkçiləri də satardılar. Bir gün tacir Mehdi yenə uzaq səfərə çıxmalı olur. O, həm şəhər əhalisi ilə, həm də öz ailə üzvləri ilə halallaşmalı olur. Onlarla mehribancasına görüşür, karvanıyla yola düşür. Mehdi tacirin belə səfərləri 3-4 ay çəkirdi. Kişinin Şərq ölkələrində tanıyanları, tacir dostları çoxuydu. Hara gedirdi, uğuru həmişə olurdu. Yollarda ona dəyib dolaşan olmazdı. Bu səfərdən də tacir Mehdi çox xeyirlə qayıtdı. Səfərdən qayıtması şəhərdə toy-bayrama çevrilərdi. Günlərlə Mehdi tacirin yanına gedib-gələnlərin arası kəsmirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tacir Mehdinin oğlu Əlinin evlənmək vaxdı çatmışdı. Şəhərin adlı-sanlı adamları tez-tez onun yanına gələr və ondan xahiş edərdilər:

- Ay elimizin-obamızın şərəfi, səndən təvəqqe eləyirik, icazə ver, Əlinin toyunu edək.

- Sizi həmişə hörmətli olasınız, Əliyə qız seçin. Nə vaxt isdəyirsiniz, edək.

Bu söhbətə evin qadını Gülbadam da qoşuldu. Gülbadamın təklifinə görə tacir Mehdinin tacir yoldaşının qızı Gülcamalı Əliyə layiq bildilər. Şəhərin sayılan adamlarınnan tacir Mehdi bir xoş gündə Gülcamalın atası Mirdamətin həyətində göründü. Mirdamət gələnnəri xoş qarşılayıb, onları evə də'vət etdi.

Mehdi tacir və adamları Mirdamətə gəldiklərinin məqsədini belə açıqladılar:

– Mirdamət tacir, sənə mə'lum olsun ki, biz buraya həmişəki kimin qonaq gəlməmişik. Bizim bugünkü məqsədimiz başqadı. Belə ulu Allahın adı ilə, Peyğəmbərin buyruğu ilə şəriətimizin qanununa əsasən sizin öhdənizdə olan bir daşı sizin divarınıza qoymaq istəyirik. İstəyirik ki, qızınız Gülcamal Mehdi tacirin oğlu Əlinin evinə bəzək olsun.

Mirdamət:

- Çox əcəb edibsiniz, bir qız bir oğlanındı. Həndəqala mən Mehdi tacir kimi addı-sannı bir şəxslə qohum olmaq şərəfinə nail oluram. Qız sizə qurbandı. "Hə"si mənnən, icrası sizdən.

Elçilər xörək yeyib, çay içib təmannaşdılar. Onnar birbaşa toy gününü müəyyənnəşdirdilər. Hamı xeyir-dua verib, məclisdən mürəxxəs oldular.

Əli şəhərdə tanınmış cavannardan idi. Maşallah kişinin oğlunun qanacağına, qəddi-qamətinə, tərbiyəsinə. Tacir Mehdi var-dövlətdən daha əziz, daha vacib Əlini tuturdu. Pərvanə çırağın başına dolanan kimi o da, Əlinin başına dolanırdı. Allahın ona bəxş etdiyi bu tək oğulu vardan, dövlətdən artıq tuturdu.

Bəli, və'də gəlib çatdı. Tacir Mehdi Əlinin toyuna başladı. Yeddi gün, yeddi gecə yeyən içən, oynayan-gülənlər Gülcamalı böyük bir izdihamla Əlinin evinə köçürdülər. Toy iştirakçıları toyun bu son günündə tacir Mehdiyə gözaydınlığı verib, ayrıldılar.

Əli ilə Gülcamalın evlənməsinnən üç gün sonra onnarın hər ikisini hüzuruna çağırıb, onnara belə xeyir-dua verdi:

- Mənim balalarım, həm mən, həm də siz murazına çatdınız.



Allah sizi xoşbəxt eləsin, qoşa qarıyasınız. Mən sizin yaşayışınız üçün hər şəraiti yaratmışam. Heç bir ehtiyacınız yoxdu. Sizə ən böyük məsləhətim budur, mehriban yaşayın, səmimi yaşayın, indi isə gedin işinizdə olun.

Tacir Mehdi indi arxayınlaşmışdı. Yeganə oğluna toy edib atalıq borcunu yerinə yetirdiyi üçün Allaha şükür diləyirdi. Özünü bir növ borcdan qurtarmış adam kimi azad hiss edir, daha uzaq səfərə çıxmağa ehtiyac duymadığını düşünürdü. Öz-özünə deyirdi ki, əşi, bəsdi. Daha qocalmışam, oturum arxayın qazancımdan yeyim dolanım. Mənim nəyim çatışmır ki, bu şəhər mənim, o şəhər sənin deyib gəzirəm.

Tacir Mehdi belə də etdi, rahatlanıb xoş gün keçirməklə məşğul oldu. Bir müddət tacir Mehdi beləcə dolandı.

Günnərin bir günü bəd bir hadisə tacir Mehdinin üstünü kəsdi. Ömrü boyu sağ-salamat yaşayan kişi xəstələnib yatağa düşdü. Ailəni qara günlər yasa döndərdi. Şəhərdə elə bir adam qalmadı ki, tacir Mehdiyə əlindən gələn köməyi əsirgəməsin. Ancaq tacir Mehdi yaxşılaşmırdı kın, yaxşılaşmırdı. Kişi getdikcə ağırlaşırdı.

Bir gün tacir Mehdi oğlunu yanına çağırdıb belə nəsihət verdi:

- Oğul mən daha yaxşılaşmıram. Deyirlər vəsiyyət yüngüllükdü. Sənə üç şeyi vəsiyyət edirəm.

Birincisi odu ki, olmaya-bilməyə mənim bu var–dövlətimə haram qatasan, qumarbazlığa qoşulub xanimanımı dağıdasan.

İkincisi odu ki, mənim dostlarımla əlaqəni kəsmiyəsən. Qoy deməsinnər kin, tacir Mehdidən sonra onun qapısını açan olmadı.

Üçüncüsü odu ki, ailənnən mehriban dolanasan, arvadbazlığa uymayasan, ailə yanında üzü qara olmuyasan. Məni də yaxşı dəfn elə, adıma layiq işlər gör.

Kişinin bu söhbəti zamanı qaravaşlardan biri içəri girib tacir Mehdiyə belə bir xoş xəbər gətirdi:

- Ey başımızın tacı, gözün aydın olsun, oğul nəvən oldu.

Tacir Mehdinin üzü güldü, qaravaşa xələt verif yola saldı. Oğlu ilə söhbəti yenə davam etdirdi:

- Allah sənə qurban olum, bir əhdimə də çatdım. Oğul, uşağın adını Mehdi qoydum.

Tacir Mehdinin dostları onu hər gün yoluxmağa gəlir və ən əsası dünyaya gəlmiş nəvəsi üçün ona göz aydınlığı verirdilər. Son günlər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kişinin əhval-ruhiyyəsi qismən yaxşılaşmışdı. Kişinin sevinci aşıb daşmışdı. Ancaq xəstəlik öz işini görürdü. Bir gün tacir Mehdinin halı xarablaşdı. O, bir daha ayağa qalxmadı. Tacir Mehdi gözünü yumub dünyadan köçdü.

Əli atasına ehsan verdi, onu hamının ürəyindən olan kimi götürdü, dəfn etdi, başdaşı düzəltdi, gözəl bir kümbəz qurdurdu.

Əli atasının ölümündən sonra tükanlara baş çəkir, onlara rəhbərlik edirdi. Xoş xasiyyət, həlim təbiətiylə hamı tərəfinnən hörmətlə qarşılanırdı. Amma sən demə, qara gün geridəymiş, acınacaqlı günlər gəlib Əlinin ailəsinə daxil olacaqmış.

Bir gün Əli işdən qayıdanda onu bir neçə tay-tuşdarı qarşıladı. Onnar Əliyə böyük ehtiram göstərərək yaxındakı binaya apardılar, ona hörmət edib şirindillik etdilər. Həmişə ona hörmət edib, tək qoymayacaqlarını bildirdilər. İndi Əli hər gün işdən qayıdanda bura dönür. Gecədən xeyli keçənə qədər bunnarnan yeyib-içir, gününü əyyaşlıqda keçirirdi. Bir gün belə, beş gün belə. Əli daha qumarbazlığa da qurşandı.  Gülcamalın günü qara olmuşdu. Əli hər gün evə sərxoş halda gəlirdi. Ev öz normal həyatını itirmişdi. Gülcamal Əlinin bu xoşagəlməz hərəkətlərinə dözürdü. Bir gün Gülcamal eşitdi ki, Əli dükanları uduzub. Beləliklə Əli atasının mülkünü də uduzdu. İndi ailə çətin vəziyyətdə qalmışdı. Tacir Mehdinin qurğu-büsatı, sərmayəsi tamam dağılmışdı. Ailə ağır vəziyyətə düşmüşdü. Gülcamal atası evindən gətirdiyi qızıl əşyaları satıb onun hesabına ailəni dolandırırdı.

Bir gün Əli evə yornuq halda gəlmişdi. Halı pərişan idi. Gülcamal hələ indiyə qədər bir dəfə də olsun Əlinin xətrinə dəyən söz deməmişdi. İndi Əliyə müraciət edib dedi:

- Ay Əli, mən indiyə kimi sənin hərəkətinə dözmüşəm. Ancaq indi sənə bir məsləhət vermək istəyirəm. Mən belə məsləhət görürəm kin, mərhum atayın çox  e’tibarlı dostları var. Sən  gəl həmişə atan ağızdolusu razı danışdığı tacir Həsənin yanına get. Daha burada bizə heç kəs kömək edə bilməz. Onu bilkin, belə getsə bütün şəhərdə biyavır olacağıq. Əli dedi:

- Ay Gülcamal, mən hər şeyi alt-üst etdim. Mən o dostların yanına nə ilə gedə bilərəm.

Gülcamal:

- Əli, mən sənin yol xərcini verəcəm. İşin tutar, yaxşı olar, qalarsan. Mən  bir il, iki il, Mehdi ilə dolanacam. Mənim haqqımda fikir



eləmə.

Əlinin başqa əlacı yox idi, razılaşdı.

Gülcamal onu günnərin bir günü İrana gedən bir karvannan  yola saldı.

İndi Gülcamalnan Mehdi burada qalsın sizə kimnən xəbər verim, Əlidən.

Əli gəlib İrana çatdı, soraqlaşıb tacir Həsənin evini tapdı. Tacir Həsən Əlinin gəlməsinnən çox şad oldu, ona hörmət etdi. Dostunun ölümünnən isə bikef oldu. Bir axşam süfrə zamanı  tacir Əhməd Əlidən soruşdu:

- Oğul, indi söylə görüm, fikrin nədi?

Əli atasınnan sonrakı vəziyəti olduğu kimi tacir Həsənə danışdı. Tacir Həsən dedi:

- Əli, sən narahat olma, itirdiklərini  tapacaqsan. Bir iş var kın, bir daha etdiyin yaramazlıqları təkrarlamayasan. Mən burdan ora kömək etmiyəcəm. Günü sabahdan bazardakı dükannardan birini sənə bağışlayıram. Ağılla işə başla, çevik ol, təmizkar ol.

Tacir Həsən Əlini bazara gətirdi 39-cu dükanı ona bağışladı, üstəlik söz verdi kin,  indi gələn karvanı bütünlüklə ona verəjək. Tacir Həsən Əlini bazarbaşı ilə tanış edib qayıtdı.

Əlini indi bütün bazarda olannar tanıyır, ona hörmət edirdilər. Bir neçə gün içərisində Əlinin ayağının sayasınnan alış-verişi uğurlu gedirdi. Hamı onun bu xeyirxahlığına ehtiram bəsləyirdi. Bir gün Əli bazarbaşına dedi:

- Sən gəl mənə yaxşılıq elə, 40-cı otağı mənə sat, ailəmi gətirim orada yaşayaq.

Bazarbaşı Əlinin mə’rifətinə xoşu gəlirdi, ona görə də razılaşdı. Əli qırxıncı otağa gəldi, otağı nizama saldı və orada qaldı. Yenicə yuxuya getmişdi ki, otağın tavanından səsə gəldi:

- Ay Mehdinin oğlu tacir Əli, sənə nə qədər qızıl tökək?

Əli səsə ayıldı, ətrafa baxdı, heç şey görə bilmədi. Ancaq qorxmadı. Yenə yatmaq istərkən həmin şəxsin səsi eşidildi:

- Ay Əli, sənə nə qədər qızıl tökək?

Əli özünü itirmədən dedi:

- Siz bilən qədər tökün.

Birdən yuxarıdan qızıl pullar cağıltı ilə otağa töküldü. Yuxarıdan yenə səs gəldi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ay tacir Mehdinin oğlu Əli, Allah sənə uğur versin, işin həmişə xeyirri olsun, bu qızılları halallıxnan işlət.

Əli qızılları yerləşdirib yatağa girdi. Səhər tezdən durub əl-üzünü yudu, dükanı açıb işə başladı. Bir neçə günnən sonra bazarın bağlı qapısında bir karvan dayandı. Karvan başçısı car çəkib e'lan etdi ki, tacir Mehdinin oğlu Əlinindi bu karvan. Karvanı qəbul edin. Əli karvanın yükünü boşaltdırdı. İndi Əlinin işləri xod gedirdi. Əli əhvalatı tacir Həsənə söylədi. Tacir Həsən Əli ilə Əlinin aldığı qırxıncı otağa gəldi. Əlinin qızıllarını görüb dedi:

- Əli, mənə heç bir şey lazım deyil. Mən məsləhət görürəm kin, bu qızılın bir hissəsinə bir karvan yükü mal alıb öz vətəninə apar, qoy deməsinnər kin, tacir Mehdinin yurdu boş qaldı, var-dövləti dağıldı. Mən öz dəvələrimi, adamlarımı göndərərəm.

Tacir Həsən Əli ilə halallaşıb onu dəvə karvanı ilə yola saldı. Əli dəvə karvanı ilə öz şəhərrərinə daxil olanda hər yerdən "Tacir Əli gəldi, tacir Mehdinin oğlu tacir Əli gəldi" - deyə qışqırışmağa başladılar. Əli karvanı Gülcamalın qarşısına çıxdı. Əli oğlu Mehdini bağrına basıb öpdü. Malları dəvələrdən boşaltdırdı. İndi Əli atasının sadiq və e'tibarlı dostu Həsənin köməyi ilə belə bir var-dövlətə çatdı. Əli bu var-dövlətin hesabına şən və xoşbəxt yaşadı. Onlar yaşadılar, ömür sürdülər, xoşbəxt oldular, xeyirxah adamlara duaçı oldular. Sizi də xoşbəxt və xeyirxah olun.

Göydən üç alma düşdü, biri nağıl danışana, biri nağıla diqqətlə qulaq asannara, biri də özümə.

## KEÇƏLİN NAĞILI

Sizə kimnən danışım, kimnən söylüyüm Allahın min bir bəlasına düçar olmuş bir qarıdan. Bu qarının varı-yoxu üç qazı, bir də bir nəvəsi varıydı. Qarı kasıflığınnan dolanırdı. Gündə neçə dəfə üzünü qibləyə tutub Allaha dua edər, azdan-çoxdan yeyib yatardı. Hər səhər açılanda üzünü qibləyə tutuf dəərdi:

- Ey Allah, sən bu məzlum qarıya bir qapı aç, mənim bu keçəl balama bir xoşbəxt gün qismət elə!

Keçəl hər gün üç qazını qavağına qatıf otarmağa aparardı. Bir gün Keçəl qazdarı yenə paççağın iqamətgahının həyətindəki yolla otarmağa aparırmış. Elə bu zaman paccağın qızının başına toplaşan qaravaşdar pəncərədən bayıra baxanda keçəli görüllər. Paccağın qızına deellər kin, icazə ver gedək keçələ kələk gələk, qazın birini gətirək kəsək yeyək. Paccaxın qızı deer:



- Ay qızdar, deellər kin, keçəl əməlvaz olur, siz ona kələk gələ bilərsinizmi?

Qızdar paccaxın qızını inandırdılar ki, sənin işin deyil, sən icazə ver.

- Yaxşı, icazə sizindi, gedə bilərsiniz, – deyə paccaxın qızı onnarı yola salır. Qızdar qaça-qaça gəlif keçələ çatıllar. Qızdarın biri Keçəli dilə tutuf deer:

- Ey Allahın sevimli bəndəsi, cah-cəlallı bəndəsi, rəhimli bəndəsi, Keçəl! Paccaxın qızının konluna qaz əti tüşüf, bizi göndərdikin, qazıyın birini verəsən ona aparax.

Keçəl dedi:

- Ey Allahın mələkləri, ey bir-birinnən gözəl-göyçək, qızdar! Mən qazı sizə verdim, bəs əvəzində siz mənə nə verərsiniz? Axı, mən kasıf, fağır bir bəndəyəm, siz isə paccax sarayında kefnən dolanannarsınız.

Qızdar dedilər:

- Ayə, ay Keçəl, sənin heş ağlın yoxdur. Ayə, sən paccaxın qızınnan dosd olursan, bunnan böyük mükafat olarmı?

Keçəl dedi:

- Ay qızdar, belə yerdə deeflər "Keçəl suya gedən deyil", çıxın gedin, mən əvəzsiz sizə qaz verən deyiləm.

Qızdar görüllər kin, Keçəldən qaz qoparda bilməyəcəklər, onöyrə də soruşullar kın, ay Keçəl, indi sən qazın əvəzinə paccaxın qızınnan nə isdəyirsən?

Keçəl cavab verir:

- Ay qızdar, vallah mən paccaxın qızınnan nə daş-qaş, nə qızıl, nə də at, dəvə istəmirəm, indi kin, paccaxın qızı mənim qazıma müştəri çıxıf, qoy doyunca ona baxım, vəssalam.

Qızdar ırazılaşdılar. Keçəl qazın birini tutuf, qoltuğuna basıf, qızdarın qavağına tüşüf, paccaxın qızının hərəmxanasına gəldi. Paccaxın qızı baxıf gördü kün, qızdar budu gəlir, Keçəl də yannarında. Qaravaş başçısı özünü paccaxın qızının yanna salıb dedi:

- Ay xanım, Keçələ yaman kələk gəlmişik, rübəndini aç, qoy baxsın, getsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ay qızdar, mənə bir dəfə baxmağa Keçəl bir qaz verməz, burda bir kələk var, axı - deyə paccaxın qızı razı olmadı.

Qızdar dedilər:

- Ay xanım, Keçəl nədi kin, nə də kələyi ola, qoy nəxərtən baxır baxsın, onda nə var.

Xülasə, paccaxın qızı ırazılaşdı. Qızdar Keçəli çağırdılar. Paccaxın qızı rübəndini açıb gülümsəyərək dedi:

- Bax, ay Keçəl, mənim camalıma.

Keçəl paccaxın qızının sifətinin solundakı qara xalı manşırrıyıf dedi:

- Xanım, camalınız da qamətiniz kimi gözəldi, Allah sizə xoşbəxtlik versin.

Keçəl burdan mürəxxəs oluf qazdarını otarmağa apardı. Axşam Keçəl evlərinə iki qaznan gələndə qarı soruşdu:

- A Keçəl, qazın biri hanı?

Keçəl nənəsinə dedi kin, ay nənə yuxu məni aparmışdı, qızıl quş qazın birini qaçırtdı, naxartan qaşdım çatammadım, aparıf getdi.

Qarı Keçəli danladı, üstəlik dedi kin, ay Keçəl, sən bilirsənkin, var-döylətimiz üççə qazdı, bunu da qızıl quş yesin, bəs bizim axırımız necə olajax?

Keçəl:

- Ay nənə, Allaha pənah, hər şey yaxşı olajax. Allahdan umudunu üzmə.

Noolajıydı, bu günü də bu kasıf ailə belə keçirdi.

Genə Keçəl adəti üzrə hər gün qazdarını qavağına salıf otarmağa aparırdı.

Bir gün Keçəl paccaxın qızının aynabənd otağının qarşısınnan keçərkən qaravaşdar paccaxın qızına dedilər:

- Ay xanım, Keçəlimiz genə gəlir, icazə ver, gedək qazın birini də gətirək.

Paccaxın qızı qaravaşdara genə dedi kin, ay qızdar, siz bu Keçəldən əl çəkin, bu Keçəl bizim başımıza oyun açajax.

Baş qaravaş:-Ay xanım, Keçəl bizə nə kələk gələ bilər.Sən bizimləsən, bizimlə iş görürsən, biz sənə sadiqik.

Qaravaşdar genə qaça-qaça Keçələ çatdılar, onu dilə tutub qazın birini də verməsini xayış etdilər. Keçəl onnara dedi kin, paccaxın qızı qurşaxdan yuxarı hissəsini mənə göstərməsə vermərəm qazı sizə.



Qızdar ırazılaşdılar. Keçəl qazın birini tutuf qoltuğuna basıf, qızdarın qavağına tüşüf paccaxın qızının otağının eyvanına gəldi. Qızdar məsələni paccaxın qızına anlatdılar. Paccaxın qızı qurşaqdan yuxarı soyundu. Keçəl paccaxın qızının sol məməsinin ucundakı qara iri xalı da manşırrayıf otaxdan çıxdı. Qaz indi tək qalmışdı. Keçəl tək qalmış qaznan evlərinə gələndə qarı genə donquldana-donquldana Keçəli danladı. Keçəl də nənəsinə ürək-dirək verib deyirdi:

- Ay nənə, axırı yaxşı olar, darıxma.

Bu minvalla paccaxın qızının qaravaşdarı Keçəlin üçüncü qazını da əlindən aldılar. Keçəl qızın sol kürəyində olan xalını manşırradı. İndi Keçəl evə harram-hoş, əliboş gəldi. Qarının cin vurdu beyninə, Keçəli qarğamağa başladı:

- Ay nəvəsiz qalım, qazdarı neylədin, sən başıma nə oyun açırsan? Ay qazancın qanına bulansın.

Qarı dişinə gələni Keçəlin üzünə dedisə də, sonra peşman oldu. Beləcə günlər günü, aylar ayları qova-qova illərə qovuşdu. Bir gün paccaxın iqamətgahının həyətində belə bir e'lanı eşitdi. E'landa deyilirdi kin, paccaxın qızına arası kəsilməyən elçilər gəlir. Bunnarın qarşısını almaq üçün paccax belə şərt qoyub: "Kim qızımın bədənindəki əlamətləri düzgün desə, qızımı ona verəjəm". Keçəl bu xəbəri eşidəndə bəxtinin açılmasının yaxınnaşmasına ümid bəsləyib şıllaq atmağa başdadı. Keçəl öyrəndi ki, vəzirin oğlu paccaxın qızınnan ötrü nə ölüdü, nə diri. Nəyin hesavına olursun olsun paccaxın qızını almalıdı. Amma əlini harya atdısa da, əliboş qaldı. Axı paccax qızını qaravaşdardan da ayırmışdı. Qız bağlı qapıda saxlanırdı, heç kəs ora gedə bilməzdi, nəzarət güclü idi. İndi Keçəl vəzirin oğlunu ələ almalıydı. Keçəl əhvalatı nənəsinə söylədi. İnandırdı ki, paccaxın qızının bütün əlamətlərini bilir. Qoy vəzirin oğlu haqqımı versin əlamətləri ona deyim.

Qarı özünü vəzirin yanına saldı. Əhvalatı ona çatdırdı. Vəziri arxayın saldı kın, ona inansın. Keçəl qızın pütün əlamətlərini bilir. Mənim adım olmasın, Keçəli çağır, ona pul ver, əlamətləri öyrən.

Keçəlin qulağı səsdəydi. Bir gün bir neçə atdı Keçəlin qapısında göründü. Ona xəbər verdilər ki, vəzir səni çağırır. Keçəl onnara qoşuluf vəzirin yanına gəldi. Vəzir onu hörmətnən qarşıladı. Soruşdu:

- Ay Keçəl, eşitmişəm kin, sən paccaxın qızının əlamətlərini bilirsən, bu düzgündürmü?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Keçəl vəzirə bildirdikin, mən vəziri aldatmağa ixtiyarım yoxdu. Kasıf adamam, onsuz da paccax qızını mənə verməz. Paccaxın qızının pütün əlamətlərin bilirəm. Buna inanın. Bu əlamətləri saysam da, paccax qızını mənə verməz. Mənə dolanmax lazımdı. Mənə xərşdik ver, qoy qız sənin oğluyun olsun. Vəzir Keçələ inanıf ona xeyli qızıl pul verif yola saldı.

Keçəl vəzirdən pulu alıf özünü bazara saldı. Gözü tutan qiymətdi paltarrardan alıf öylərinə gəldi. Qarı Keçəli tanımadı, soruşdu kun, ay Keçəl, bu nə həngamədi, bu gün hardan doğdu. Keçəl dedi:

- Ay nənə, üç qazdan ötrü məni bu dünyaya dar eləmişdin, həmin qazların hesavıdı, açıfdı.

Keçəl bəzənif, bərtənif özünü mehtər oğlu kimi qələmə verərək siyahı tərtib edənnərin yanına gəldi, paccaxın qızının əlamətlərini yazdırıb getdi. Siyahı tamam oldu. Siyahıdakı əlamətləri yekunlaşdırıb paccaxın sərəncamına verdilər. Paccax əlamətləri öyrənib yekunlaşdırdı.

Aydın oldu ki, iki nəfər qızın əlamətlərini düz tapıb, bunnardan biri Mehtər oğlu, biri də vəzirin oğludu. Ancaq daha düzgünü Mehtəroğlunun qeydləridi. Paccaxın fikri qızı vəzirin oğluna vermək idi. Ancaq paccaxın şərtinə görə vəzirin oğlu əlamətlərin sağda olduğunu demişdi. Vəzir oğlunun cavabı şərti ödəmirdi. Bu zaman belə qərara gəldilər ki, hər ikisini qaranlıq otaqda taxtda yerləşdirsinnər, qız hansının yanına getsə, onun olsun. Bununla da qalmaqala son qoyulsun. Belə də etdilər. Mehtər oğlu əvvəlcədən ətir əldə etmişdi, noğulşəkər hazırramışdı. Yerə girən kimi ətri taxta səpələdi, qənnadını, noğulu da onun kimi. Qız qaranlıqda vəzirin oğlu səmtə gələndə pis iy hiss etdi, o səmtini çevirib o biri taxta tərəf gəldi. Qızı ətir iyi bürüdü. Qız zənn etdi ki, elə vəzirin oğlu yatan taxt budu, özünü onun qoynuna atdı. Mehtəroğlu kamına çatdı. Nağılımız burda bitdi. Göydən üç alma düşdü: Biri nağıl danışana, biri qulaq asannara, biri də bu əhvalata inanannara.

## ƏSGƏRLƏ PADŞAHIN NAĞILI

Biri varıydı, biri yoxuydu, bir varrı kişi varıydı. Munun da iki oğlu varıydı. Vaxt gəlif çatanda onun böyük oğlunu əsgər apardılar. O, padşaha sədaqətlə, can-başla qullux eliyirdi, o xartan xoşbaxtıydıkın, padşah onu bir neçə il ərzində general eləmişdi.



Elə olur kun, genə padşah əsgər yığmağa başdıyır. Bu dəfəm də haman varrı kişinin öydə qalan oğlunu əsgər aparıllar. Oğlanın başını qırxdırıf yola salıllar. İş elə gətirir kin, oğlan öz qardaşı olan alaya düşür. Oğlan general olan qardaşını tanıyır. Əsgər sevincək generala yaxınnaşırkın tanışlıq versin. Amba genaral onu yaxına buraxmır, tanış da olmur. Əsgərə də deyir:

- Mən səni tanımıram, sən də məni heç tanıma!

Bir dəfə əsgər generalın mənzili yanında poçt qutusu yanında keşikdə durmuşdu. Bu vaxt general böyük bir qonaxlıq verirdi. Onun evinə çoxlu qonaxlar gəlmişdi. Əsgər gördü kün, hamı kef içindədi. Onun isə yeməyə heç nəyi yoxuydu. Odur kun, acı-acı ağlamağa başdadı. Həyətdə olan qonaqlardan birindən soruşdu:

- Əsgər, de görək niyə ağlıyırsan?

- Axı, niyə ağlamayım, bax o böyük qonaxlıx verən mənim qardaşımdı. Görürsünüzmü, o, sizlərlə yeyib-içib, amba, mən burda acam.

Qonaxlar bu əhvalatı generala deyillər. Genaralın bu işə acığı tutur. O, qonaxlara deer kin, siz onun dediklərinə niyə inanırsınız. O, tamam yalan söyləyir...

Belə olanda general əmr verir kin, onu keşik çəkməkdən götürsünnər, həm də ona yüz şallax da vursunnar. Belə də edillər. Bu hadisə əsgərə çox pis tə’sir edir. Qərara gəlir kin, əsgərrikdən qaçsın. Əsgər fırsat axdarırdı. Bir gecə paltarrarını geyif burdan qaçır.

O, az getdi, çox getdi, axırda gəlif qalın bir meşəyə çıxdı. Əsgər başdadı burda gününü keçirməyə. O, gündüzləri meşədə olan meyvədən yeyir, gecələri də meşənin qalınnığında yatmağa gedir. Bir gün padşah böyük bir müşayətçi dəstəsi ilə ova çıxır. Onnar gəlif gözəl bir çəmənniyə çatıllar. Ov itdərini buraxıllar, təbillər çalınır, meşəliyə doluşuf ov eliyillər.

Birdən hardansa gözəl bir maral peyda olur. O, iti sür’ətlə qaçıf özünü padşahın qavağınnan çaya saldı. Maral çayın o tərəfinə keşdi. Padşah atını maralın arxasınca sürdü. Maral qaşdı, padşah da onu qovmağa başdadı. Ancaq padşah marala çata bilmədi, maral uzaxlaşdı, gedif qalın bir meşəliyə girdi. Padşah baxıf gördü kün, maral daha gözdən itdi, oyçular da çox uzaxda qalıf. İndi o qalın, qarannıx bir meşənin içindəydi, hara getdiyini bilmirdi. Hara baxırdı sıx meşəlik idi, cığır da tapa bilmirdi. Padşah qarannıx düşənəcən gəzib azdı. O, bərk yorulmuşdu. Birdən qaçağ əsgər onun yanına çıxdı.-Salam, ay yaxşı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adam! Necə olufkun, gəlif burya çıxıfsan? -deyə padşahdan soruşdu.
- Elə, belə, ova çıxmışdım, meşədə azmışam. Qardaşım, məni yola çıxar, mənə kömək et.
- Bəs sən kimsən, nəçisən?
- Mən padşahın xidmətçisiyəm.
Qaçağ əsgər onu başa saldı ki, indi qarannıx düşüf, yaxşısı budur kun, gedif bir xəndəkdə gejələyək. Mən sabah səni yola çıxardaram.
Padşah nə edə bilərdi, ırazılaşdılar. Onnar meşənin içinnən getdilər kin,bir yer tapıf daldalansınnar. Axırda gedif bir talanın içində bir komaya ırasd gəldilər, burda bir qarı varıydı.
Qarıya salam verif əyləşdilər. Əsgər qarıdan soruşdu kun, ajıx bizə yemək ver yeyək. Qarı dedikin, mən yeməyi hardan alıram, özüm də ajam?
Əsgər qarıya inanmadı, sobanı, rəfləri axdardı. Baxıf gördü kün, yeməyə hər şey var. Yeməklərdən stolun üsdünə dözdü. Onnar bu yeməklərdən dryunca yedilər. Yatmağ üçün çardağa çıxdılar. Əsgər padşaha dedi:
- Ehtiyat iyidin yaraşığıdı, gəl bizim birimiz dincələk, birimiz də keşik çəkək. Onnar öz aralarında püşk atdılar. Püşk birinci padşaha düşdü. Bir qədər yatmışdılar kın, bir də əsgər fikərrəşdi kin qapının ağzında yatan padşah birdən yatar, buna umuddu olmax olmaz, durum özüm keşik çəkim. Əsgər baxıf gördükün, padşah yatıf. Əsgər padşaha ajıxlanıf dedi kin, bəs belə etmək olarmı, bura haradır kın, sən yatırsan, gəl bu tərəfə keç. Qaçağ əsgər qılıncını yanna qoyuf sərvax dayandı. Birdən baxıf gördükün, komuya üç quldur gəldi, soyundular, əyləşdilər.
Qarı onnara dedi:
- Bizə gecələməyə qonaxlar gəlif.
Quldurrar dedilər kin, yaxşı oluf, bə indi onnar hardadılar? Qarı dedi kin, çardaxda yatıllar.
- Yaxşı, hələ bizə yemək ver yeyək, sonra mən onnarnan danışaram.
- Nə yemək varıydı hamısını onnar yedilər.
- Əşşi, bunnar nə cür qonaxdılar kın, belə özbaşınalıq edillər. Bir o pıçağı mənə ver görüm bunnar kimdi kin, gəlif izinsiz-mizinsiz bizim xörəyimizi yeyir.
Quldurrardan biri belə deyif çardağa çıxmağa başdadı. Quldur ba-



şını qapıdan yenicə içəri salmışdı kın, əsgərin qılıncı onun başını üzüf yerə saldı, bədəniniysə çəkif çardağa çıxartdı. İndi duruf gözdəməyə başdadı. Gözlədi kin, görək bu işin axırı nejə olajax...
Komada qalan quldurrar çox gözdədilər, çardağa gedən gəlmədi. Odurkun, quldurun biri də duruf çardağa çıxmalı oldu. Qaçağ əsgər bunu da cəhənnəmə vasil etdi, genə meyidi çəkif çardağa atdı. Beləliknən qaçağ əsgər quldurların üçünü də öldürüf çardağa yığdı...
Sübh tezdən padşah yuxudan oyandı, qalxıf meyidləri görüf əsgərə dedi:
- Ay əsgər, biz hara gəlmişik?
Əsgər gecə baş verən bütün hadisələri olduğu kimi padşaha danışdı. Onnar çardaxdan aşağı endilər. Əsgər qarının üsdünə cumuf dedi:
- Ay kaftar qarı, sən bu quldurrarı saxlıyıf neynirsən? Bu sahat onnarın qarət etdikləri qızılları bura çıxart.
Qarı donuf qalmışdı, quldurrarın hamısını əsgər qırıf qurtarmışdı. Oydu kun, müqavimət gösdərmədən sandıxçanı əsgərin qarşısına qoydu. Əsgər sandıxcanı açıf qızıllardan civlərinə dolduruf padşaha dedi:
- Sən də payını götür.
- Yox, mənə lazım döy, mənim padşahımın qızılı çoxdu.
- Yaxşı, qoy sən deyən olsun, gəl indi səni yola salım. Onnar meşədə bir cığırla gəlif daş yola çıxdılar. Əsgər padşaha dedi:
- İndi yola çıxıfsan, bir saata şəhərdə olarsan. Get, sənə uğurlar olsun!
Padşah əsgərə dedi:
- Sən mənə kömək etdin, şəhərə gəl, mən sənin yaxşılığıyın əvəzini çıxım.
Əsgər dedi kin, mən səni aldada bilmərəm, mən qaçağam, şəhərə gəlsəm məni tutallar. Padşah əsgərə söz verdi kin, bizim padşah çox yaxşı adamdı, həm də mənim yaxın dostumdu. O, sənin bu igidliyini eşidəndə sənə böyük hörmət edəcək. O, səni nəyinki tutdurar, hətda sənə böyük mükafat verər.
Əsgər dedi:
- Bəs mən səni hardan tapım?
- Sən düz saraya gəl.
- Yaxşı, sabah gələrəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah əsgərlə xüdahafizləşif, daş yol ilə getdi. Padşah gəlif şəhərinə çatdı. Yubammadan bütün qapıçılara, qaravulxnalara, qaravulçulara belə bir əmr verdi kin, fürsəti əldən buraxmasınnar; bir nəfər əsgər görünəndə dərhal ona generala salam verdikləri kimi salam versinnər. Hamı padşaha baş əyif çıxdı.

O biri gün əsgər gəlif çıxdı. Əsgər saray qapısında görünən kimi bütün qaravulçular yüyürüf, ona genaral salamı verdilər. Əsgər bu hadisədən təəccüflənir soruşdu:

- Siz kimə salam verirsiniz?

- Biz sizə salam veririk!

Əsgər onnara bir ovuc qızıl verif saraya getdi. Padşaha çatdırdılar kin, əsgər gəlif, Padşah onu qəbul etdi. Əsgər padşahın iqamətgahına daxil olanda gözünə inanmadı. Dünən gecə keşik çəkdiyi adam başında qızıl tac taxtda əyləşif padşahlıx edirdi.

Padşah əsgəri mehribannıxnan qarşıladı, onu özünə yavər edib yanında saxladı. Əsgərin də bəxti belə gətirdi. Allah həmişə, hər yerdə yaxşıların Allahıdı. Nağılımız da burda bitdi.

## XƏZİNƏ

Biri vardı, biri yoxdu, uzax bir vilayətdə qoca ilə bir qarı yaşayırdı. Onlar çox kasıf dolanırdılar. Bir müddətdən sonra, şaxtalı, boranlı qış günlərinin birində qarı vəfat etdi.

Qoca tanış-bilişlərinin yanına gəlib xahiş elədi ki, qarı üçün ona qavır qazmaqda kömək etsinnnər. Onun çox kasıf olduğunu bilən tanış-bilişlərinin hamısı kömək etməkdən boyun qaçırdılar. Qoca əlacsız qalıf mollanın yanına getdi. Ancax bu molla çox tamahkar idi.

Kasıf kişi mollaya dedi:

- Ay molla, mənə kömək elə, qarı ölüf, onu dəfn eləyək.

- De görüm, dəfn eləməyə dəfn xərci varmı, sən bilirsən ki, pulu əvvəlcə ödənməlidi.

- Allahdan gizlətmədiyimi sənnən nə gizlədim, evimdə bir qəpik də olsun pulum yoxdu. Bir qədər gözlə, qazanaram gətirrəm. Vallah artıxlamasınnan verəjəm. İndi qarıyı basdırmaq lazımdı.

Molla qocanın üzünə tərs-tərs baxıf dedi:

- Əgər pulun yoxdusa, onda nə cür’ət edif bu qapıya gəlifsən? Pulsuz burya gəlmə.



İndi başıma nə çarə qılım, mən kimin qapısına gedim- deyə-deyə qoja fikrə getdi. Yox başqa əlacım qalmadı, gedim qavırı asta-asta özüm qazım?

Qoja evə gəlif bir balta, bir bel götürüf qavırsannığa, qavırı qazmağa başdadı. Əvvəlcə donmuş torpaq qatını balta ilə kəsdi, sonra bel götürüf qazdı. Qoja fikirri-fikirri bir xeylax qazmışdı kın, bir də qazdığı yerdən bir küpə qızıl çıxdı. Baxıf gördükün, küpə onluxlarnan ağzınatan doludu, qızıllar par-par parıldıyır. Qoja qızıla baxıf sevindi:

- Allah, sənə şükür! İndi həm qarını basdırmaq, həm də qarıya ehsan verməyə pulum var.

O, qızılla dolu olan küpəni götürüf evə getdi. Nolajıydı, daha pulu varıydı. Kim olsa gəlif qavırı qazardı. Oydu kun, qoja adamlardan qavır qazmağa göndərdi. Bir neçəsi də pul götürüf bazara getdi. Qojanın özü də bir qızıl onnux götürüf Mollanın yanına getdi. Qoja qapıda görünən kimi molla cinatına mindi:

- Qoja kaftar, sənə deməmişəmmi pulsuz bu qapıya gəlmə, sən yenə gəldin.

- Ay molla, ajığın tutmasın, pulsuz gəlməmişəm, al bu qızıl onnuğu, mənim qarımı dəfn elə, sənin mərhəmətini unutmaram!

Molla pulu aldı, əl-ayağa düşdü, biləmdi kin, qojaya nejə hörmət eləsin, onu harda oturtsun, hansı sözlərnən onun konlunu alsın:

- Həə, qoja, narahat olma, arxayın ol, hər şey ediləjək -deyə molla onun qaraltısına danışmağa başdadı, arvadına dedi:

- Sən bu qoja kaftarın işinə bax! Deyirdi kin, kasıvam, əlimdə heş nəyim yoxdu! İndi görürsənmi, qızıl onnux çıxarır. Mən ömrümümdə çox addı-sannı adamlar dəfn etmişəm, amba heş kəs mənə bu qədər pul vermiyifdi. Molla öz ruhani mollalarını yığıb qarını dəfn elətdi.

Dəfn qurtarannan sonra qoja molladan xayış elədi kin, eysana gəlsin. Hamı eysana gəldi, yedilər, içdilər, rəhmət oxuyuf getdilər. Qoja eysanı lap dəbdəbəli vermişdi, hər cür xörək vermişdi. Hamı qojanın qarıya verdiyi eysannan danışırdı.

Hamı gedənnən sonra Molla qojuya yaxın oturuf soruşdu:

- Əzizim, məni dinlə! Boynuna al, qoy ürəyində bizdən gizlin bir günahın qalmasın, fərqi yoxdu, isdər Allahın yanında, isdər də mənim yanımda. Heş kəsin ixdiyarı yoxdu Allahdan gizlin şey saxlasın. Sən kasıf bir kəndçi idin, nejə oldukun, birdən-birə belə varrandın?

- Mollacan, axı sən nə danışırsan! Səndən, Allahdan gizlin şeymi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

saxlamaq olar. Mən həqiqəti boynuma alıram kın, oğurrux eləməmişəm, heç kəsin evini talamamışam, xəzinə öz ayağı ilə gəlif əlimə çatdı.

Beləliknən qoca olan işi pütünlüknən Molluya danışdı. Kasıf kişidən munu eşidən Mollanın canına titrəmə düşdü. O, evə qayıtdı. Amba Mollanı fikir götürmüşdü. O, öz-özünə fikirrəşirdi kin, nejə eliyə billəm kin, ondakı pulu əlimə keçirəm.

Oydukun, arvadınnan soruşdu:

- Arvad, qulaq as! Axı, bizim gərək bir keçimiz var?

- Bəli, var,ay kişi!

Axşamdan xeyli keçənnən sonra molla keçini dartıf evə gətirdi, onu kəsdi, dərisini soydu, buynuzları da, saqqalı da dərinin üstündə qaldı. Tezcə keçinin dərisini əyninə keçirdi və arvadına dedi:

- Arvad, bir sap götür, bir də bir iynə, hər tərfdən dərini tikin, əynimdən düşməsin. Mollanın arvadı iri bir iynə, bir də yoğun bir sap götürdü, dərini hər tərəfdən tikdi.

Molla gecə yarısı xəlvətcə düz qocanın komasının yanına getdi, pəncərəni döyməə, cırmaqlamağa başladı. Qoca səs eşitdi, cəld ayağa qalxdı, soruşdu:

- Kimsən, kimi istəyirsən?

- Şeytanam.

- Mən Allahın mö'min bəndəsiyəm, məndən nə istəyirsən?

– Qoja, mənə qulaq as! Nə qədər Allaha dua eləsən də, özünü mö'-min bilməyəcəksən, yaxşısı budu mənim qızılla dolu küpəmi özümə qaytar, qaytarmasan səni özüm öldürəcəyəm! Görürsənmi, halına acıyıf, mənim sənə yazığım gəldi, xəzinəni sənə göstərdim, düşün-düm kün, dəfn üçün bir az götürərsən, sən iysə məni qarət etdin!

Qoja pəncərədən baxıf gördü kün, keçi buynuzları, saqqalı tərpənir. Qoja öz-özünə dedi:

- Bu xalis şeytandı, əşşi indiyətən pulsuz yaşayırdım nə olurdu, indən belə də nə olajax. Lə'nət gəlsin belə pula.

Qoja qızılla dolu küpü götürüf bayıra çıxdı, onu yerə tulladı, özü isə tezcənə öyə qayıtdı. Molla qızılla dolu küpəni götürüf öynə getdi. Söyüncək arvadına dedi:

– Hə, arvad, indi gördün nə iş gördüm. Al bu qızılla küpəni tezcə gizlət, daha pullar əlimizdədi, kavtar qoja onu yəə bilməzdi. Həm də iti bir pıçax gətir, tez ol safları kəs, məni keçi dərisinnən azad et.



Arvat, küpəni gizlədif geri qayıtdı, iti bir pıçağı götürüf safları kəsməyə başdadı. Arvat safları kəsdikcən pıçağı vurduğu yerdən qan axırdı. Bu zaman molla qışqıraraq arvada deer:

- Arvat, amandı, kəsmə, ağrıdır!

Bu dəfə arvat mollanın o biri tərəfinə keçərək, oradan kəsməyə başdadı. Amba arvat pıçağı harya vururdusa,, genə ordan qan çıxırdı. Keçi dərisi başdan başa hər tərəfdən onun bədəninə pitişmişdi. Molla çığıra-çığıra qaldı. "Allah, bu nə bəlaydı, mən düşdüm, aman günüdü, mənə kömək elə". Bu zaman qayıfdan səs gəldi:

- Ay axmax, tamahkar molla, neçə kin sənin öyündə haram var, Allah sənə kömək etməyəjək.

Molla tez arvadına yalvarıf dedi:

- Arvat, aman günüdü, o gizlətdiyini tezcənə burya gəti, nə qədər gej döy, aparıf o kaftar qojuya verim, yoxsa mən bu bəladan qurtara bilmiyəjəm.

Arvat qızılla dolu olan küpəni gətirif mollanın qavağna qoydu. Molla küpəni götürüf qojanın komasının qarşısına gəlif genə qapını döyüf, pəncərəni cırmaxlamağa başdadı. İçəridən kişinin səsi gəldi. Molla dedi:

- A qoja, mən səni sınıyırdım, küpəni gətirdim, al halalın olsun.

Molla küpəni qoyuf geri qayıtdı.

Arvat genə pıçağı əlinə alıf safları kəsməyə başdadı. Amba genə keçinin dərisini mollanın bədəninnən aralıya bilmədi. Onnar naxartan əlləşdilər, nə xartan çalışdılar, mümkün olmadı. Beləjə də keçinin dərisi mollanın belində qaldı. Bəli, Allah onu hədsiz tamahkarlığına görə beləjə cəzalandırdı. Molla öz tutduğu əməlinə görə cəzasını aldı. Çalışın haqq yolunnan dönməyin.

Nağılımız burada bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri nağıla qulaq asannarın, biri də özümün.

## VƏFALI DOSTLAR

Biri vardı, biri yoxdu. Bir ovçu Əşrəf vardı. Ovçu Əşrəfin də qoca anası vardı. Bir gün Əşrəfin dünyalar qədər sevdiyi ağ saçlı mehriban anası oğlunu yanına çağırıf dedi:

- Ölürəm, oğlum, sənə üç tapşırığım var. Birinci odur kun, mənim kəmərimi əbədi yadigar saxla, hər dəfə məni yadına salanda toqqanın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qaşına bax.
İkinci tafşırığım budur kun, Qızıl itin səsi gələndə qulaq as, onu izlə.
Üçüncüsü budur kun, ayağı qumrovlu qızıl quşun xətrinə dəymə. Qızıl itlə qızıl quş bizim vəfalı dostlarımızdı.
Ovçu Əşrəf canından əziz bildiyi anasının bu vəsiyyətinə hər yerdə, hər dəqiqə hazır olduğuna and içdi. O, anasını el adəti ilə dəfn edib vidalaşdı...
Ovçu Əşrəf çoxdandı ova çıxmırdı. Oydu kun atını minif Qızılı da yanına alıf qızıl quşnan ova gedəsi oldu. İsti yay günü idi. Hava elə istiydi kin, adamı pişirirdi. İsti Əşrəfi elə təntitmişdi kin hətta atda da düz otura bilmirdi. Ovçu Əşrəf atını məhmizliyif çox sevdiyi, həmişə sərin havasında gəzdiyi dağa tərəf sürdü. Ovçu belə hesaf eliyirdikin, dağın sərinliyinə çıxar. Amba sən deməynəmmiş buralar da istiymiş. Ovçu Əşrəf çox mahir ovçuydu. O, məşhur atıcı, bacarıxlı miniciydi. İsti hava ovçuya da, itinə və quşuna da tə'sir eləmişdi.Ovçu susamış, at tərləmiş, it ləhləyir, quş isə qanadlarını salıb mürgü vururdu. Susuzluq onu lap təntitmişdi. Yadına anasının su fincanı düşdü. Onu soyuq bulaq suyunnan dolduruf başına çəkər, ləzzət alardı.
İndi bu yerrərdə bulaq nə gəzirdi...
Əşrəf atı bərk-bərk sürür, ətrafa nəzər salır, hər səsə diqqətlə qulaq asır,su şırıltısınnan ötrü ürəyi əsirdi. Susuzluq ovçuya yamanca əsər eləmişdi, heç nə hiss eləmirdi. Hətta anasının ona yadigar verdiyi kəməri qoydğu xurcunu da unutmuşdu.
Xurcunu atın tərkinə bağlamışdı. Bir müddət yol gedənnən sonra atın tərkində olan xurcun sıvrılıf yerə tüşdü. Qızıl it istədi xurcunu qapıf atlıya çata, ancax xurcun ağır olduğunnan götürə bilmədi. İt hürə-hürə ovçu Əşrəfə çatdı. Nə qədər hürüf uladısa da sahibini başa sala bilmədi. İndi hoppanıf ovçu Əşrəfin ayaqlarını dartışdırmağa başladı. Oyçu Əşrəf yenə də bir şey başa düşmədi, bu zaman it onun şalvarını cırdı. Ovçuysa hey xəyaldaydı, it onu xəyaldan ayıra bilmirdi. İt yenə də onun şalvarını cırmaqdan əl çəkmirdi. Birdən oyçu Əşrəf xəyaldan ayrıldı. Baxıf gördü kün, it onun şalvarını parçalayıfdı. O, itə gücü çatınca dəli bir qamçı vurdu. İt yıxıldı, zingildədi. Ancax bir azdan qalxıf genə atlının dalınca qaçdı. Genə Əşrəfin şalvarını cırmaqlamağa başdadı. Bu dəfə Əşrəfin başına belə bir fikir gəldi: "Deyəsən it qudurub, Allah eləməsin, it məni yesə axırım nejə olar?" Bu fikirdə



olan Əşrəf genə də itə ajıxlandı, onu kənara itələdi. Amma it yenə də etdiyini edirdi. Əşrəf itin qudurduğunu yəqin edib çiynindəki ov tüfəngini götürüf iti vurdu. İt dərhal yerə yıxıldı, çabalayıb uzandı...
Əşrəf atını məhmizləyib buradan uzaxlaşdı. Ağır yaralı it güc-bəla ilə qalxıf zingildəyə-zingildəyə xurcuna tərəf getdi. İt xurcuna çatıf, onu qucaqladı. Bir qədər də xurcunun üstündə zingildəyib öldü.
Ovçu Əşrəf ətrafa nəzər sala-sala gedirdi. Fikri xəyalı suydu, ümidini kəsmir, su axtarırdı. Qızılquş buralara tanış idi. O, buralarda çox ov etmişdi. Hər tərəf- dağ da, qaya da ona tanış idi. Heç yerdə ov görünmürdü. Əşrəf fikirli-fikirli at sürürdü. Gah öz-özünə deyinirdikin, iti niyə vurdum? Axı, anam mənə vəsyət eləmişdi kin, it hürəndə ona fikir ver. Oyçu bu fikirdəykən, onu su şırıltısı ayıltdı.
Baxıf, "Acı su" bulağını gördü. O, buna çox sevindi. Ürəyində dedikin, yaxşı oldu bir doyunca su içərəm. İti vurduğunnan peşmançılıq çəkən Əşrəf atdan endi, əlini atdıkın xurcunnan fincanı çıxartsın, amma xurcunu yerində görmədi. Hirsi vurdu başına. Atı bir ağaca bağlayıf bulağa çatdı. Hirsinnən onu tər basmışdı. İstədi civinnən dəsmalı çıxartıf üzünün tərini silsin, bir də əlinə dəyən fincanı alıf su ilə dolduruf başına çəkdi. Elə bu zaman qızılquş şığıyıb fincanı oyçunun əlinnən yerə saldı. Fincan daşlara dəyif çilik-çilik oldu...
Oyçu Əşrəf bir qızılquşa, bir də çilik-çilik olmuş fincana baxdı. Oyçunu dərd götürmüşdü. O, bir də quşa baxdı. Quş Əşrəfə pis nəzərlə baxırdı, tükləri pırtdaşmış, görkəmi kədərli idi. Quşun bu hərəkəti oyçunu oxartan coşdurmuşdu kun, su yadınnan çıxmışdı. Oyçu quşu tutuf boğazını üzmək, qanını belə işməyə hazır idi. Amma anasının ona dediyi "Quşun xətrinə dəymə" sözü yadına tüşdü.
Oyçu quşu yerə buraxıf su içmək istədi. Əllərini qoşalayıf bulaxdan su doldurub ağzına aparmaq istədikdə quş yenə şığıyıf oyçunun ovuclarınnan suyu yerə tökdü. Hirs yenə oyçunun başına vurdu. Quşu tutuf boğazını üzdü və başı aşağı axıf gedən suya tulladı. Oyçu çox fikirriydi, bu gün başına gələn bu xoşagəlməz hadisədən kədərlənmişdi. Nə edəcəyini bilmirdi. Hirsinnən su içməyi də unutmuşdu. O, anasının yadigarlarını itirdiyi üçün bikef olmuşdu. O, "Acı suyun" gözünə çatanda bulağın başında, qayada söykənif qəlyan çəkən bir nurani qoja gördü. Başını qaldırıb bu nurani qocaya salam verdi. Nurani qoja onnan soruşdu:
- Oğul, xeyir ola?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ata, bulağın başınnan su içməyə gəlmişəm.
- Sənətin nədi, oğul?
- Ovçuyam.
- Bəs itinlə quşun, tüfənginnən xurcunun hanı?
- Hamısı aşağıdadı, atlıyam.

Qoca fikirli-fikirli qəlyanını arxalığının cibinə qoydu, sonra dönüb oyçuya baxdı. Bu nurani Qoca genə üzünü oyçuya tutuf deer:

- Atını bağlayıfsanmı?
- Bəli.
- Bəs itnən quş hardadı?

Oyçu bilmədi kin, nə desin.

- Oğlum, ayalımın canı var, birdən it dalına düşüf gələr, bilməz arxın suyunnan içər, heyvannar qırılar.

Nurani qocanın bu sözü oyçunu təəccüfləndirdi.

- Ata, niyə?
- Axı bulağın suyu zəhərridi, hər kəs dilinə vurarsa o dəyqə partdayar. Bədbəxt hadisə baş verməsin deyə mən suyun başında dayammışam kın, gəlif-gedənə xavardarrıx eliyəm. Bax, görürsənmi, cürdəyim suynan doludu, susayanda içirəm. Oyçu qojadan soruşdu?
- Ata, sənətin nədi?
- Oğul, indiki sənətim "Acı su"yun qaravulçusuyam, Cavannıxda mən də oyçuluğa gedərdim. Bir qızılquşum varıydı, alıcı tərlan idi. Onu bir dostuma bağışladım. İndi oyçulux eləmirəm.

Əşrəf anladı kın, bir az bunnan əvvəl boğazını üzdüyü qızıl quş bu qocanın onun atasına bağışladığı qızıl quşuymuş...

Oyçunun başı gicəlləmmiş, gözləri qaralmışdı. Bir gündə iki nahaq qan elədiyi üçün xəcalət çəkirdi. O, gəlif itin yanına çatır, qızıl quşu da itin böyrünə qoyuf, xeyli ayaqüstə dayanıf fikir eliyir. Anasının vəsiyyətinə əməl etmədiyi üçün özünü tənbeh edir. Belə yerdə deyiflər: – "dostu ilə düşmənini tanımayanlar, ən bədbəxt məxluqdurlar". Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri nağıl danışanın, biri nağıla qulaq asanın, biri də kənardan baxanın.



## ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

A

Abır harda, haya orda.
Abdalınkı huydan keçib.
Avırı kimdən aldın?- Avırsızdan.
Ağıl ağıldan süyütşüklü olar.
Ağılın çox olsa da ağılsıza da genəş.
Ağılsız başa söz nəyə gərək.
Ağıllı kamal axtarır, cahil mal.
Ağıl qızıldı, fikir - gümüş.
Ağıllı işləyər, axmaq baxar.
Ağzım nə yeyib, üzüm utana.
Ağız deyəni qulaq eşitməlidi.
Ağır qazan gej qaynar.
Ağac kökü ilə güjdüdü.
Ağac yeyən sıpa xırmana gəlməz.
Ağzına çəpər çək.
Ağıllı özünü qınayar, ağılsız yoldaşını.
Ağ üzü var öpməli, dərisinə saman təpməli.
Azacıq aşım, ağrımaz başım.
Adam ağzınnan söz, qazan altınnan göz.
Ağızdan çıxan söz geri qayıtmaz.
Allah bilən yaxşıdı.
Allahsız yerdə otur, böyüksüz yerdə oturma.
Allah kasıbların dostudu.
Allah inamsızların qənimidi.
Allah min dərd verib, bir dərman.
Allah ilanın əməlinə baxıb ayağını qarnında yaradıb.
Allah ömrümdən kəssin, bəxtimə versin.
Alaçatılıq etmə.
Aldığını bilmir, udduğunu bilir.
Ana südü əvəzsizdi.
Ana südünə haram qatmaq olmaz.
Anasız kainat qısırdı.
Anılan qurd yolda qalar.
Ananın ərköyün oğlu hambal olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

And içdim, xatıya düşdüm.
Andın iki başı var.
Ananın günü balaya sərvətdi.
Ara sözü ev yıxar.
Ara açmağamı gəlifsən, ayran  içməyəmi?
Arı yeyib, avırı da belinə şələləyib.
Arvadın ağılı topuğunda olar.
Arvadın saçı uzun, ağılı gödək olar.
Arvad evin dirəyidi.
Arvadı əri saxlar, pendiri – dəri.
Arvad aldın bir bəla, uşağı oldu iki bəla, ondan sonra ha çabala, ha çabala.
Arvad demə, bervat de.
Ay oyaqda, çoban yataqda.
Ayı meşədən küsüf, meşənin xəvəri yox.
Ay qoçaq gəlin, qaynanan ölsün görüm.
Ay təmiz gəlin, uşağın olsun görüm.
Atım var, qanadım var.
At mıxı qoparar, bir yerə, beş özünə dəyər.
Atın siyənə qədər qamçını mənə ver.
Atdığını vuruf, tutduğunu qoparıf.
Atılan daş geri dönməz.
Ata qarğışı övladı tez tutar.
Ata-palan, eşşəyə-yəhər yaramaz.
Ata çörəyi- meydan çörəyi,
Oğul çörəyi-zindan çörəyi.
Axar su murdar götürməz.
Axmaz su iylənər.
Ailə kiçik dövlətdi.
Ailə xoşbəxliyin açarıdı.
Ajı dil qılıncdan itidi.
Ajın amanı yox, toxun imanı.
Aşın yaxşı aşdı, başın baş deyil.
Aş daşannan sonra çömçə gətirir.
Aşıq bildiyini ayağı altına yığsa başı buluda çatar.



B

Bağban eşşəyi bir ildən artıq saxlamaz.
Bağ çəpərsiz olmaz.
Bar verən ağacı kəsməzdər.
Bayquş xarava sevər.
Bayquş kimi ulama.
Bal yedim, balıya düşdüm.
Balaca balta ilə böyük ağac da yıxılar.
Balaca açarla böyük qıfıl açılmaz.
Baxtı satın almaq olmaz.
Baxtını götür bazara çıx.
Bacı qardaşdan ötrü canını oda yıxar.
Başın çıxmayan yerə   bədənini soxma.
Başın bədənə ağırlıq edir.
Baş bədəndən ayrı heçdir.
Baxtı gətirənin xoruzu da yumurtar.
Boş çanaq dolu çanağı da tökər.
Boş və’dlərlə iş düzəlməz.
Boş tüfəng ikisini qorxuzar.
Borc odlu köynəkdi.
Boş sünbülün başı yuxarı olar.
Baş ayağa rahatlıq verməz.
Başını qılıncla kəssələr də düz danış.
Borca düşən ailənin yuxusu olmaz.
Borcun səsi çıxmır, ancaq yatmağa da qoymur.
Borca düşən ailə ayağa qalxa bilməz.
Boyunu görməmiş, xalatını biçmə.
Bir de, bir eşit.
Bir ağızdan söz min ağıza yayılar.
Bir yandan bağlayan bir yandan açar.
Bir doğru ki, yalana oxşar, onu danışma.
Bir dəli gölə daş atdı, yüz ağıllı  çıxara bilmədi.
Birənin qanını aldın, canını aldın.
Bir baş idi, bir ayaq,
Bir cavan oğlan, bir cındır yorğan.
Bir buğda əkməsən, min buğda götürməzsən.
Bir könüldə iki məhəbbət olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir qoyun ağ da doğur, qara da.
Bilmədiyin bildiyinnən çoxdu.
Bilən bir söz deyər, amma düz deyər.
Biləkli birini yıxar, bilikli minini.
Böhtan insanı öldürür.
Böyüyünü tanımayanın qibləsi olmaz.
Buyuran yorulmaz.
Boş qab səs salar.
Bulamanı bulama, buladıxca yalama.
Basdırdığı ölü özünnən qavax gəldi.
Bir budağa minif, min budax silkələmə.
Bərk gedən tez yorular.
Bütün sərvət torpaqdan çıxır.
Burnun suyu gözə damır.
"Bəli"də söz düzəldər, "yox"da.
Bilməzin dəyirmanın Allah işlədər.

C

Cavannıx sultanlıxdı.
Cavannıx geri qayıtmaz.
Cavanla daş daşı, qocayla ye aşı.
Cavan qocaya, qoca cavana bel bağlar.
Cavanlar yeyənnən sonra, qocalar yatannan sonra sağlam olar.
Cavan işə, qoca aşa.
Cavan əvvəl göyü görür, sonra yeri.
Cavannıxda bəzəmmədim, hayıf mənə, qojalıxda bəzənirəm, ayıf mənə.
Cahil dirilərin ölüsüdü.
Cahil özünün düşmənidi.
Canlıdan qada əskik olmaz.
Cahilin ağlı başında yox, gözündə olar.
Camaat sevəni Allah da sevər.
Can deməknən cannan can əskik olmaz.
Civin boşsa, sözün keçməz.
Cin atına minmə.
Cəhd çarıx yırtar.
Cəhənnəmdə də adamın olsun.



Cəsur olana çomax da silahdı.
Cəsurları el sevər.
Cəfa çəkməsən, səfa sürməzsən.

Ç

Çatana çatır, çatmayana da daş atır.
Çağırılmamış qonaq ev yiyəsinə yükdü.
Çay daşı hamar olar.
Çay da öz yatağını dəyişər.
Çayın daşı, çölün quşu.
Çay quşu çay daşında yuva qurar.
Çeynəməmiş udmax olmaz.
Çəkişməsən, bərkişməssən.
Çirki yumaqla təmizləmək olar.
Çəyirtgədən qorxan taxıl əkməz.
Çəkmə, yaxam cırıldı, oynama.
Çovan çomaqsız, qadın qılıxsız olmaz.
Çovanı özünnən olanın qoyunu ekiz doğar.
Çomağın iki başı var.
Çox yaşayan çox bilər.
Çox iş gör, ancaq az daşın.
Çox bilən tez qojalar.
Çox gülmək asandı, çox susmax çətin.
Çörək süfrənin şahıdır.
Çörək Qur'andan əvvəl yaranıf.
Çörək alın təriylə qazanılır.
Çör-çöplə yanan ocağın istisi olmaz.
Çox danışan adamnan ev tikmək olmaz.
Çörəyi ayaqlamazdar.
Çuvux divi şirin olar.
Çığırmasan qonşu haya gəlməz.
Çınqı balacadı, odu böyük.

D

Dağ səfasız, gözəl vəfasız olmaz.
Dağ başına qar yağar.
Dağarcıx çuvaldan böyük oluf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağı külək yeyər, insanı böhtan.
Dağı daş bəzəyər, insanı baş.
Dadammışdan al, tamarzıya ver.
Dalaşan bir-birinə sözü satın alıf deyir.
Dartıf yıxmağa nə var, qaldırıf tikmək çətindi.
Dedi-qodu öy yıxar.
Dedim ki, eşidəsən, demədim ki, öyrənəsən.
Deyirəm, xədiməm, deyir, neçə oğlun var?
Dəmiri isti-isti döyəllər.
Dəmiri kürədən dəmir çıxarar.
Demirəm misəm, özümə cinisəm.
Dəliyə gündə bayram.
Dəlinin başında palıd ağacı olmaz ha,
Dəlinin dilini dəli bilər.
Dəli üçün qanun yoxdu.
Dəliyə zaval yoxdu.
Dəliyə gülməzdər, ölüyə güləllər.
Dərdi kim çəkər-kəməcər, söyüşü kim deyər-eybəcər.
Dəvəçiynən dost olanın darvazası gen gərək.
Dəyirmanın boğazınnan ölü salsan, diri çıxar.
Dərdi dağa verdilər, götürmədi, ancaq insan götürdü.
Dərdi çəkənə verəllər.
Dərd əlinnən dağa çıxdım.
Dərin çaylar səsiz axar.
Dərin mə’nalar qısa sözdə olar.
Dilini dinməzinə qoy.
Deməyə sözün yoxdu - danışma.
Deyəsən dilotu yeyif.
Dil ürəyin açarıdı.
Dil eybəcərliyi bədən eybəcərliyindən betərdi.
Dilinə gələni deyir, əlinə gələni yeyir.
Dilbilməz əlinə düşmüşəm.
Dil insanın mə’nəvi şöhrətidi.
Dilini dinc qoyanın başı bəlasız olar.
Dili bir, əli bir olax.
Dildən bal da damar, zəhər də.
Dil başa bəladı.



Dirini ölüyə dəyişməzdər.
Dostu düşünməyən, düşmənə dönər.
Dostu çox olan güclü olar.
Doğru dil daş yarar.
Dosdu el olanın, dövləti bol olar.
Əyri dil baş yarar.
Döy qurvağıya aşığ oluf.
Dövlətli öldü - hamı bildi, kasıf öldü – heç kəs.
Düz divar uçmaz.
Düz danışanın dostu az olar.
Dünyanın quyruğu uzundu.
Dünyanın axırı döykün?
Düz söz poladı kəsər.
Düz söz daşdan  da keçər.
Düşmana canını ver, sirrini vermə.
Düşmanın böyüyü, kiçiyi olmaz.

E

El duası müstəcəf olmaz.
El atan daş uzax gedər.
El içində, öl içində.
Elnən gələn qara gün toy bayramdı.
El elə sığar, öy öyə sığmaz.
Elin gözü tərəzidi.
Elini hürküt axsağınnan yapış.
El haraya, sən də oraya.
El qarğıyan ağac bar verməz.
El ağzına düşən xeyir görməz.
El ağzı fal ağzı.
El ağzına düşmə.
Eldən ayrı düşəni tülkü də yeyər.
Elə qoşulan eldən ayrılmaz.
El tikəni aləm yıxa bilməz.
El sevəni aləm sevər.
El sözü yalan olmaz.
El qədrini el bilər.
Elsiz adam gücsüz olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elti əyrisi, balta əyrisi.
Elmsiz adam, gərəksiz ağacdır.
Elmin açarı - səbrlə oxumaqdır.
Elm xərclənər, artar, sərvət xərclənər, azalar.
Elmdə qısa yol yoxdur.
Elm əqlin çırağıdır.
Elə yerdə oturkun, altınnan su çıxmasın.
Evin ürəyi-ocaq, elin ürəyi-bulaq.
Ev qalıb əyriyə, həm yeyə, həm səyriyə.
Evdən yaxşı yurd yoxdur.
Evi arvadın gözəli yox, ağıllısı saxlar.
Evdə danışılan çöldə keçməz.
Evin yaraşığı-uşaq, süfrənin yaraşığı-qonaq.
Evin dar olsa da, ürəyin geniş olsun.
Ehtiyac igidi də sarsıdar.
Ehtiyat ehtiyacdan doğar.
Ehtiyatlı oğulun anası ağlamaz.
Ehtirasın həyası olmaz.
Eşşək eşşəyi borc qaşıyar.
Eşşəyin başını yumaqla yağış yağmaz.

Ə

Əvvəl meçidin içi, sonra çölü.
Əvvəl fikirləş, sonra danış.
Əbləhə cavab-susmaqdı.
Ədavət evə də kasıflıx gətirər.
Əyilən başı qılınc kəsməz.
Əyri ağac ojaqda düzələr.
Əyri ol əyriynən, düz ol düzüynən.
Əli haramdı.
Əli qızıldı.
Əli boş, üzü qara.
Əli daş altındadı.
Əl yananda ağıza soxallar.
Əliuzunnux eləmə.
Əli gətirər, dili itirər.
Əli kösöylü sən, otu yanan mən.



Əl oğurruyur, ürək əsir.
Əldən-ələ keçən dünya.
Əlidən də oludu, Vəlidən də.
Əlimlə verdiyim qavağıma gəldi.
Əli ilə qoyan Allahdan irəli bilər.
Əkin əkmiyən biçin vaxtı ağlıyar.
Ən ağır iş özünü dərk etməkdi.
Ən asan iş başqasına öyüd verməkdi.
Ən yaxşı müəllim-təcrübədi.
Ən yaxşı yol - düzlükdü.
Ən böyük sərvət tərbiyədi.
Əmək insana şöhrət gətirir.
Əməklə becərilən acı sarımsax baldan şirindi.
Əməl sahibidi.
Əmi qızı, əmi oğluna yarı kəbindi.
Əmzik quzu iki ana əmər.
Ərişin ələyib, arğacın keçif.
Ər divarın çölü, arvad divarın içidi.
Ərsiz qız - sükansız gəmidi.
Ərsiz qız solan çiçəyə bənzər.
Ərin ölümü sədaqətli qadın üçün ölümdü.
Əjəl qapını döyməmiş gəlir.
Əjəl atını minif köndələn tutur.
Əslində olan dırnağında bildirəjək.
Əslini danan haramzadadı.

F

Fağıra əl qaldırma.
Fağır-fağır oturma.
Falçı fala baxar, canını oda yaxar.
Fağırı kim olsa, döyər.

G

Gejə otağa, gündüz yatağa.
Gedənin dalısınca danışmazdar.
Gejikən qonaq nahax tələsir.
Gəlin sındıran qavın səsi çıxmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlini evdən qoruyarsan oğru olar.
Gəlin toya, oğlan toyuna.
Gələcəyə umudla baxıllar.
Gənclik təzə paltar kimi gözəldi.
Gənclik sultanlıqdı.
Gəvəzə adam ağzının sözünü bilməz.
Gəzəyən ayağa daş dəyər.
Günahı olanın yuxusu olmaz.
Günahkarın dili qısa olar.
Günülü günə gün düşməz.
Gün var il dolandırar.
Günü günə satan iş görə bilməz.
Günəşsiz kainat zülmətdi.
Günəş and yerimizdi.
Günəş havanı isidər, dostluq qəlbi.
Günahsız adam yoxdu.
Gündüzlər qarğa qovlayır, gecələr çarıx yamayır.
Güc yiyəsi haqlı deyil, düz yiyəsi haqlıdı.
Gücün çatmayan daşa əl atma.
Güclü əli öp, qoy gözünün üstünə.
Gülüş sağlamlıqdı.
Gül zivillikdə də bitər.
Göz görmək üçündür.
Göz gördüyünü sevər.
Göz sevən göyçək olar.
Gözəllik toy-düyündə gərək olur.
Gözəllik axşama kimi, yaxşılıq ölənə kimi.
Göz çıxaran tikanı məhv edəllər.
Göydən bəla ensə, vay təkin halına.
Gödək adamın könlünnən üç dəfə koxalıq keçər.
Görünən dağa tələsmək lazımdı.
Göz nə qədər uzağı görsə, ağıl qədər görə bilməz.
Gözəl eybsiz olmaz.
Gicitikan xasiyyətli olma.
Gör-götür dünyasıdı.
Gölü qamış bəzəyər.



H

Haram malın dadı olmaz.
Halal mal əldən üzülməz.
Halva, halva deməknən ağız şirin olmaz.
Haqq iş batmaz.
Heyvanı buynuzunnan, adamı dilinnən.
Hər yetənə ürək açma.
Hərə bir cüt yalan danışır.
Hər quşa öz yuvası istidi.
Hər kəs özünə cavabdehdi.
Hər meyvənin bir dadı var.
Hər ürəkdə bir aslan yatır.
Hərə öz ölüsünü ağlıyır.
Hər yağan qar olmaz.
Hər deyilənə qulax verməzlər.
Hər şeyin təzəsi, dostun köhnəsi.
Hər kəs öz bildiyi oylaqda ova çıxır.
Hər kəs öz arşınıyla ölçür.
Hərəkət varsa, bərəkət də var.
Həftəsinnən motal olmaz.
Həm məni döyürsən, həm də ağlamağa qoymursan.
Həm darımı yiyirsən, həm də ağlamağa qoymursan.
Həm darımı yiyirsən, həm də üstümə xortdayırsan.
Həccə gedən gəldi, saca gedən gülmədi.
Hələ başı qoltux altı görmüyüf.
Hirs düşməndi, ağıl dost.
Hirsdi adam tez qocalar.
Hirs gələndə göz qızarar, hirs soyuyanda üz.
Höyüş odun satıf.

X

Xalqa ədatdı, bizə bedat.
Xatadan qaç.
Xatadan bərəkət.
Xata xatadan utammaz.
Xain xoflu olar.
Xeyir söyləməsən, şər gəlməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xeyir  verən yalannan ziyan verən doğru yaxşıdı.
Xeyirxah adam yaddan çıxmaz.
Xeyir vermiyən qohumnan  yad yaxşıdı.
Xəsisin dostu olmaz.
Xəsis bazarda vicdanını da satar.
Xəsisin barmağınnan da qan çıxmaz.
Xəsisin qarnı doysa da gözü aj olar.
Xəsisin malı ölənnən sonra bəlli olar.
Xəlbir sudan nə çıxardar?
Xəbərçi dosta da  böhtan atar.
Xəncər yarası gedər, söz yarası getməz.
Xəncərin ən e'tibarlı yeri qındır.
Xəncər bir nəfəri kəsər, dil min nəfəri.
Xətir  üstə xəstə  yatır.
Xəstəlik putnan gələr, mısqalnan çıxar.
Xoflu adam qısqanc olar.

İ

İyidin  sözü bir olar.
İynə batıranın sağı-solu olmaz.
İki əl ilə bir başı saxlaya bilmir.
İki göz istəyir kin, ağlıya.
İki arvadlının qulağı, eşşək minənin də qıçı dincəlməz.
İl ildən pis gəlir.
İl qulun saldı.
İlanla dostlux eləmək olmaz.
İlanın başını tutallar.
İlan uyuyar, düşmən uyumaz.
İlana balası qənim olar.
İlan ulduz görməsə ölməz.
İnsanın gözünü bir ovuc torpax doyurar.
İnamsız olmaq ən böyük günahdı.
İnsanı qayğı qurudar, dərd qocaldar.
İnsan inamnan yaşayır.
İnək sağan inək sağanı aldada bilməz.
İnsanı torpax doyurar.
İt itin dişinnən qorxar.



İt dişinə it dözər.
İt itin ayağını basmaz.
İtin payını yel gətirər.
İtə daş atmazlar sahibinə görə.
İtin ayağını köçdən kim əsirgər?
İt də duz -çörəyi itirmir.
İşi iş görənə verəllər.
İş düşəndə anır, aşı bişəndə danır.
İşin düşdü arvada, ölən gününü sal yada.
İşi həjətlə görəllər, höjətlə yox.
İşıx gələn yerə papağını tıxayar.
İş dediyin eşşək cinsidi, bizləməsən, getməz.
İri yağış tez kəsər.
İp uzun, dil gödək lazımdı.
İşçi keçəl qız ərə gedər, pinti gözəl qız gora gedər.

K

Kasıvın halın soruşan az olar.
Kasıvın əli heş nəyə çatmaz.
Kasıvın – uşağı, varrının quzusu çox olar.
Kasıv işi güc-qüvvətlə, varrı var-dövlətlə.
Kasıvı atdıx öldürər, varrını qorxu görər.
Kamil ovçu boşuna güllə atmaz.
Kağız dözür, qələm yazır.
Keçən gün quşa bənzər, uçdu, qayıtmaz.
Keçən günə heyfsilənmə.
Keçi qaçmaxda ceyran olmaz.
Kəsək daşın gününü düşünər.
Kəndçinin istəyi torpaqdı.
Kəhkir at kimi yana çəkmə.
Kədərlə sevinc qardaşdı.
Küləklə gələn küləklə gedir.
Kəl ilə kəllələşən buğa buynuzsuz qalar.
Kəndin əhvalını böyükdən soruş.
Kor atı minif köndələn çapar.
Kim çox and içirsə, o, yalançıdı.
Kimini asır, kimini kəsir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi qojalar, fikri yox.
Kişi çöldən gətirər, arvad içdən tikər.
Kişinin sözü bir olar.
Kimi yaxa cırır, kimi yuxa.
Kim eşşək olsa, biz ona palanıx.
Kitabsız elm yoxdu.
Kitaba həvəs azalıb.
Külək otu qurudar, qayğı insanı.
Köhnəsiz təzə yoxdu.
Köksüz ağac tez yıxılar.
Köhnə qar ancaq uca dağlarda qalar.
Korlar məhəlləsində güzgü satır.
Köpəyin karıxanı ojağı bulayar.
Kündəni küt salaram.

Q

Qarğa leşə qonar.
Qartal zirvədə, qarğa zivillikdə gəzər.
Qar yerin yorğanıdı.
Qarnıyın qurdu var.
Qara qoyunun südü şirin olar.
Qara gün adamı qaraldar.
Qaradan artıq rəng olmaz.
Qara baxtım oyanmadı.
"Qa" deyənə "qu" düşmür.
Qavağım qoyurğa qoyurur, dalım saman soyurur.
Qaramal doyanda torpağı başına soyurar.
Qarın qardaşdan irəlidi.
Qazanc quduruf mayanı basar.
Qız gərək, tez gərək.
Qız dediyin ağaşda almadı, hər yetən bir daş atar.
Qızılı olan adam dinclik tapmaz.
Qız qarıyanda atası öyündə qalar.
Qız qızdığını şaha da verməz.
Qatır cinsinnən ayğır törəməz.
Qəribin üzü gülməz.
Qəmiş qoyma.



Qəm qəm gətirər, dəm də dəm.
Qızıl hər yerdə qızıldı.
Qızıldan taxtın oluncan, qızılca baxtım olsun.
Qısqırmasan, hürməz.
Qısır inəkdən yumurtdar toyuq yaxşıdı.
Qırxını ormanda, əllisini xırmanda qoyuf.
Qısqanc gözə çöp düşər.
Qızıl pas tutmaz.
Qıznan qızıl gizli gərək.
Qoja öyün dirəyidi.
Qoja atnan hündür barını aşmax olmaz.
Qoja at arpa yemir?
Qojalanın ağlı azalar.
Qojalıb uşax həddinə düşüf.
Qonaq qonağı sevməz, ev yiyəsi heş birini.
Qonağa ağzına görə aş bişirəllər.
Qohuma qaltax, yada yaltax.
Qonşu qızı güjcənni olar.
Qonağın payını Allah yetirər.
Qonşudan gələn odla isinmək olmaz.
Qonağa zaval yoxdu.
Qoyun deyər: -Ay məni, güney pəyə məni.
Qoyunu çox olanın səbri gen olar.
Qoyma xaldan xal olmaz.
Qorxulu baş bəla görməz.
Qoturun olsun, dırnağın olmasın.
Qurd ürəyi yeyif.
Qeyrət ismətə qalxandı.
Qurtdu-qurtdu danışma.
Qurbannıx qoçu qurd yeməz.
Qürbətdə olan Vətən qədrini daha çox bilər.
Qurt dedin, qulağı çıxdı.
Quraxlıxdan ajdıx olmaz, yağarrıxdan olar.
Qurd ağzına quyruq verif.
Qışdan qorxma qavaxdan yaz gəlir.
Qılınc qında paslanar.
Qılınc qınını kəsməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quş  var ət yeyir, quş var əti yeyilir.
Quşqunu boşdu.

L

Laçın da Günəşdən yuxarı uça bilməz.
Lalın dilini yiyəsi bilər.
Lax yumurta suda batmaz.
Lağ eləmə atama, lağ edəllər atana.
Lap sabah ölsən də, bu gün öyrən.
Lələ köçüf, yurd ağlayar.
Lələ şələni basıf.
Ləbləbi yemiş tat kimi.
Lə'nət şeytana.
Leş olsa, qarğa tapılar.
Lütün yuxusuna köynək düşər.
Lotudan bir, qatıdan iki.

M

Mayası çıxdısa, qazancına bənd olma.
Mal qojalanda ucuz, ağıl qojalanda baha olar.
Mən oğru oldum, ay dana qaldı.
Məni həm döyürsən, həm qoymursan ağlamağa.
Mənnən oluf mənə oxşamıyan.
Mən mal satdım, örüş ha satmadım?
Mənnən sənə öyüd - dənini özün üyüt.
Mənə Qarayazıdan ilxı tökəjək.
Mən getdim gəlin görməyə, gəlin getdi çəmən dərməyə.
"Mənəm", "mənəm"  deyənin dünən qırxı idi.
Mərd sözünnən dönməz.
Mərd düşmən namərd dostdan yaxşıdı.
Məsləhətli don gen olar.
Məhəbbət sönməz oddu.
Məhəbbətsiz ailə köksüz ağaca  bənzər.
Məhəbbətin yaşı yoxdu.
Məsləhət dananı qurda verəjək.
Milçək qana qonar.
Miyoldayan pişik siçan tutmaz.



Min yeyənin olsun, bir deyənin olmasın.
Min xala yığılsa, bir ana yeri verməz.
Meymun baxdı güzgüyə, adını qoydu özgüyə.
Müəllimin çubuğu güldəndi.
Mülayimlik həm dövlətdi, həm ləyaqət.
Mığmığı xırda olsa da, adamı dişdəyir.
Molla çörəyi ilə ilan ayağı görünməz.
Mollanın qarnı beşdir, biri həmişə doludur.
Məsəl güldü, söz çiçək.

N

Namərdə möhtac oluncan dəryada qərq ol.
Namus insanın cövhəridi.
Namərdə bel bağlama.
Namərdin civində pul olmaz.
Namərdi qovma, mərd edərsən.
Namərdin körpüsünnən keçmə.
Namusu cavannıxdan qoru.
Nənə nəvənin oyuncağıdı.
Nəvə pul sələmidi.
Nəvə qiymətdi döylətdi.
Nə hır qanır, nə zır.
Nə xalqa dayaxdır, nə palaza yamax.
Nə ətdir, nə sümük.
Nə aza qane olur, nə çoxa.
Nə pulum var, nə dilim.
Nəhs adamla dost olma.
Nəciblik canda deyil, qandadı.
Nədi deyiflər: Dəli qız oyunçudu.

O

Odu pambığa bükmək olmaz.
Oda su tökməzdər.
Odu elə söndürkün, tüstüsü çıxmasın.
Odla oynamax olmaz.
Od sönər, ad yox.
Od, gor qonşusuyux.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Odla, suyla, yağışla dostlu eləmək olmaz.
Od olan yerdə tüstü də olar.
Odu söndürüb külü ayaqlamazdar.
Odu iki yerə bölmək olar, suyu yox.
Odu odla söndürmək olmaz.
Oğru elə dindi ki, doğrunun bağrı yarıldı.
Oğru öz yatağında ölməz.
Oğru oğrunu tanıyar.
Oğru papağınnan da qorxar.
Oğru özü varranmaz, özgəni vardan çıxardar.
Oğurluq çörəyin dadı olmaz.
Oğru işıxdan qorxar.
Oğru özünü nə qədər gizli etsə, yenə də açılar.
Oğula görə atanı tanıyarrar.
Oğulun igidliyi ananı cavannaşdırar.
Oğulu qızdan üstün tutma.
Oğul-düşmən çəpəridi.
Oğlan doğdum-oydu məni, qız doğdum-soydu məni.
Oğul sevən qucaxda, ana sevən bucaxda.
Oğul ailənin çəpəridi.
Oğlum öylükdü, qızım göylük.
Oynaş da baxtnandı.
Oynaş yanından gəlif, ər başı yarır.
Oyçu Əhmədin  dağarcığıdı, sən də dığıldat.
Olanı dilə gətirməzdər.
Oynaşa umuddu olub ərindən soyuma.
Olan oldu, torva doldu.
Ocaq anamızdır, müqəddəsdir.
Oxunu atıb yayını gizlətməzdər.
Orddan çıxıf, orda yapışar.
Ox bədəni, dil ürəyi yandırar.
Ot çox olanda öküz kökələr, ölü çox olanda molla.

Ö

Öz əlimdi, öz başım.
Öz yumurtana görə qığılda.
Öz anasını sevən, özgə anasını söyməz.



Özü özünə eliyənə, el yığılsa eləyə bilməz.
Özüm özümə elədim, gözü gözümə elədim.
Özgə özgənin ölüsünü "Holo"laynan ağlar.
Özü deyir, özü eşidir.
Özgüyə umuddu olan şamsız qalar.
Özgə malına göz tikmə.
Özü yıxılan ağlamaz.
Öz qədrini bilməyən, özgənin qədrini bilməz.
Özgə qanadı altında yuva salma.
Özünə umac oyammır, başqasına əriştə kəsir.
Özümüz özümüzə hörmət etməsək, özgə etməz.
Özün özünü tə’rifləmə, qoy başqası tə’rifləsin.
Ölülər elə bilir, dirilər halva yiyir.
Ölüyə gülmək olar.
Ölüsü ilə ölüyəm, dirisi ilə diri.
Ölüm ahıla, cahıla baxmır.
Ölünü şahid gətirməzdər.
Ölünü özbaşına qoysan, kəfəni cırıf qaçar.
Ölünün atı yüyrək olar.
Ölünün əli daş altındadı.
Ölüm köhnə şeydi, amma həmişə təzə görünür.
Ölüm-ömrün hesabatı,
Qəbir-sonsuzluğun qapısı.
Övlad borcu ödənilməz.
Övladına cəza vermiyən, özü cəza alar.
Öküzü soyuf quncuğunda bıçağı sındırmazdar.

P

Padşahın da dəmirçiyə işi düşür.
Paxıl xoflu olar.
Paxılın qapısı həmişə bağlı olar.
Paxıla Allah da uğur verməz.
Paxıllar ölürsə, paxıllıx qalır.
Paxılın bağı göyərməz.
Paxıl mə’nəvi bədbəxtdi.
Paxılı qurd içinnən yeyər.
Palıd vüqarlı ol!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Palaza bürün, elnən sürün.
Pay paylayana pay düşməz.
Payız cücəsinnən xoruz olmaz.
Qanacaqlı toyux dərisinnən, xəbəri yoxdu gerisinnən.
Paxır qazanda xörək bişməz.
Pazı paz çıxardar.
Paltar yumağın qayğısı var illik, yumağı var bir çimdik.
Paltarın kirini yumax olar, ürəyin kirini yumax olmaz.
Palan qızıldan olsa da, adı palandı.
Pələng meşənin qoruqçusudu.
Pələngi qılıqla öyrədəllər, qılıncla yox.
Pələng olmayan meşədə dovşan da şahdı.
Pələng qəfəsdə də pələngdi.
Pis kişidən yaxşı oğul.
Pis gün yaxşı olar, pis adam yaxşı olmaz.
Pis adamnan borc alma, toyda da, vayda da istəyər.
Pis işçinin əlində dəzgah da pisdi.
Pis olmasa, yaxşının qədri bilinməz.
Pis oğulun ujbatınnan ataya söyəllər.
Pul cəhənnəmdə də güclüdü.
Pul olsa, minnət olmaz.
Pulsuz adam ətirsiz gül kimidir.
Pul doğrunu da susdurur.
Pul məhəbbətin qayçısıdı.
Pulun gözü yoxdu.
Pulsuz ol,namussuz olma.
Pul azsa, qayğı da azdır, pul çoxsa, qayğı da çoxdu.
Pul dağı da yerinnən oynadar.
Pul məni qazanmayıb, mən pulu qazanmışam.
Pul girməyən yer yoxdu.
Pul hər şeyi həll edir.
Pinti arvada kor kişi lazımdı.
Piyada ilə atlınınkı tutmaz.
Piyada atlıya gülər.
Pis odur ki, yoxdu.
Polad sınar, əyilməz.
Polad poladı, almaz almazı kəsməz.



S

Sağlıx ən böyük varlıxdı.
Savab iş – bulaq, yol, körpü salmaqdı.
Saza söyməzdər.
Saqqalım yoxdu, sözüm keçmir.
Səbrli adam çox yaşayar.
Saqqalıma soğan doğrama.
Səbrə dərman yoxdu.
Səbr hirsin dayağı, sevincin açarıdı.
Səbr bir ömürlük xəzinədi.
Səbr qızılsa, söz eşitmək gümüşdü.
Səbr salamatlıqdı.
Sənət qanaddı.
Sənətsiz kişi, qanadsız quş.
Sənə daş atana, sən çörək at.
Səni tə’rifləyənə çox e’tibar eləmə.
Səndən kiçik olana mehriban ol.
Səni suya aparıf, susuz qaytararam.
Sən qulluğu gəzmə, qoy qulluq səni gəzsin.
Səfeh qadın sağlam uşaq doğa bilməz.
Sərvəti insan yaradır.
Səhvini düzəltməyə utanma.
Sərxoşun ağılı kor olar.
Səfeh baş ağılın düşmənidi.
Sərvət arvad əlində məhv olar.
Sərt olma, mərd ol.
Sərçənin adı nədi, budu nə ola?
Sərxoşu vurma, özü yıxılajax.
Su murdar götürməz.
Su aydınnıxdı.
Su çoxdu, ancaq miqdarı gərəkdi.
Suya tüpürməzdər.
Su səhəngi suda sınar.
Su dama-dama daşı dələr.
Su başından bulanar.
Su suya qarışar, yağ yağa.
Su çox olsa, daşı da oyar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Su inəyə süd gətirir, ilana zəhər.
Su bədəni təmizdər, göz yaşı ürəyi.
Su suya qovuşanda qüvvətdi olar.
Suyun şırıltısınnan şirin nəğmə yoxdu.
Suların yaxşısı – yağış suyu, güjün yaxşısı - el güjü.
Suyun qədrini susuzlar bilər.
Suda  boğulan əlini saman çöpünə atar.
Suyun dərinniyini bilmək olar, ancaq insanın ürəyini bilmək olmaz.
Südünə görə mələ.
Südsüz inək mələyən, hünərsiz arvad söyləyən olar.
Sümüyü yox, südü lazımdı.
Sürüdən qalan qoyunu qurd yeyər.
Süd ilan zəhərini gücləndirir.
Süddü yağ xeyirlidi, öz barmağına yağla.
Sünnü aşura günü kefdə, damaqda.
Sirr açannan el qaçar.
Sitəmkarın çırağı həmişə yammaz.
Sirrini dosta açsan da, açılajax.
Siçan üçün ən güclü heyvan pişikdi.
Seyidin duası tutmaz, ancaq qarğışı tutar.
Sevgi sönməz atəşdi.
Sonulayan ya kora, ya keçələ.
Soyux məzarın zinəti insandı.
Soruşa, soruşa həccə getmək olar.
Sorğu-sual göydə deyil, yerdədi.
Sözün sərhədi yoxdu.
Söz olmasa, dünya kasıv olar.
Söz yerində işlənməsə, qiymətdən düşər.
Söz xalqın xəzinəsidi.
Söz bəzəksiz də gözəldi.
Söz dünyanın bəzəyidir.
Söz deyilməyibsə – sənindir, ağzından çıxıfsa – sənin deyil.
Sözü heç bir qiymətdi şey əvəz edə bilməz.
Sözü çox desən, qiymətdən düşər.
Sözü heç bir qiymətli şey əvəz edə bilməz.
Sözü söz qanana deyəllər.
Sözün atası-ağıl, anası-dildi.



Söz var ki, kəsdirir başı, söz var ki,kəsər savaşı.
Sözə usta, işə xəstə.
Sözün ayağı yoxdur, amma gəzir hər yanı.
Söyüd bar verməz.
Söz sözü gətirər, arşın bezi.
Söyüşə adət edən ağızı yummax olmaz.
Sözdə qılış güjü var.
Söz həm məlhəmdi, həm də yara.
Söz sahibi ölsə də, söz ölmür.
Sözü bişir, sonra düşür.
Sözün zahiri zərif, batini lətif olmalıdı.

Ş

Şahidin qazancı söyüşdü.
Şamın həyatı onun yanmağındadı.
Şair dincə qoyulmuş torpaqdı.
Şair xalqın vuran qəlbidi.
Şaddığa gejik, ehtiyaca yox.
Şeytana papış tikir.
Şeytannan əvvəl yaranıf.
Şeytan şeytannığında qalır.
Şələ lələni basdı.
Şərab ağlı da alır, hörməti də.
Şən qonax heş kəsə yük olmaz.
Şəffaf suda balıq yaşamaz.
Şərəf, şöhrət puldan şirindi.
Şər yaşamır, xeyir ölmür.
Şərəfsiz yaşamaq ölümdən betərdir.
Şir qəfəsdə də şirdi.
Şiri caynağından tanıyallar.
Şirin dil dəmir qapını da açar.
Şirin yalannan acı həqiqət yaxşıdı.
Şirin yuxuma haram qatma.
Şeytannan Allah özü də bacara bilməz.
Şor yeyən adam bulağa tez-tez gedər.
Şirin dil ilanı yuvasınnan çıxardar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

T

Tamahkarı yalançı aldadar.
Tar çalan simi gözdər.
Tanımadığın adamnan zarafat eləmə.
Tanımadığın atın arxasına keşmə.
Tapdanmış yerdə ot bitməz.
Tənbəl çörəksiz qalar.
Tənbəl bir işi iki dəfə görər.
Təkədən çovan olamaz.
Təndir çörəyi şirin olar.
Tər tökməsən bejərməzsən.
Tərbiyə hamıya lazımdı.
Tək Allahın adıdı.
Tək odun ojaxda yanmaz.
Təbiəti sevmək lazımdı.
Tənbəllik kasıvlığın açarıdı.
Tənbəlin işi bitməz.
Tənbəllik bütün eyiblərin açarıdı.
Tənbəllik sağalmaz xəstəlikdi.
Tək ağacı külək tez yıxar.
Təsəlli insan ömrünün çırağıdı.
Təzə süpürgə yaxşı süpürür.
Təki bağın olsun, bar özü gələjək.
Tə’rifli söz kifli olar.
Tənqid sağlam olsa da ajıdı.
Tərəfkeşlik etmə.
Tülkünün dərisi özünə düşməndi.
Tülkünü quyruğuna görə tanıyallar.
Tülkü yuxusunda da toyuq görər.
Tülkünü hiyləsi dolandırar.
Türk əsarət sevməz.
Tüpürdüyünü yalama.
Torpaqdan pay olmaz.
Torpağa pis deməzlər.
Torpağı qorumursansa əkmə.
Torpağa dən atmasan, götürməzsən.
Torpağın sahibi insandı.



Torpağa hamı borcludu.
Torpaq müqəddəsdi.
Torpaq  çiçək də bitirər, zəhər də.
Toxun ajdan xəvəri olmaz.
Toy gileysiz olmaz.
Toyda donunu tanıdı.
Tutduğu işdən baş aça bilməzsən.

U

Uman yerdən küsəllər.
Umuddu olmaqdan yemək yaxşıdı.
Unutqannıq faciədi.
Unutsan, unudulajaxsan.
Uzun kösöy əl yandırmaz.
Uzaq yerin qonağı şirin olar.
Uzaq yerin qazancı "holo"loynan yeyilər.
Uzun dil ömrü gödəldər.
Urvası  olmayanın kündəsi küt düşər.
Ustad şilləsi şirin olar.
Ustad ustadın pisliyini  istəməz.
Ustad öyüdü  ata məhəbbətinnən qiymətlidi.
Ustad görməyənin işi xam qalar.
Usuvalının  savağına döndərdim.
Ucuz-ucuz danışma.
Ucuzluqda o qədər yemişəmkin, bahalıqda vejimə döy.
Uca dağ başına qar yağar.
Uçan quşa güllə atmazdar.
Ululardan dərs alıb.
Utan utanmazdan, qorx qorxmazdan.
Uşaqları sevməyən heç kəsi sevməz.
Uşaqsız ev-məzar, uşaqlı ev-bazar.
Uşaq sirr saxlamaz.

Ü

Üz qarası könülə də qara salır.
Üzük iki qəlbin qıfılıdı.
Üz verdin, astar da istəyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üz ürəyin güzgüsüdür.
Ümidsizlik ən böyük günahdı.
Üzgörənlik ən böyük günahdı.
Üzgörənlik eləmə.
Ürək yanmasa, gözdən yaş çıxmaz.
Ürək canın işlək saatıdı.
Ürək sırfa deyil, açasan.
Üz üzdən utanır.
Üç şey xoşdur: pul səsi, zənən gülüşü, bulaq zümzüməsi.

V

Varın var ikən işini gör.
Var vaxtı coşma, yox vaxtı çaşma.
Var vara söykənər, kasıf dağa söykənər.
Var-dövlət tükənər, elm tükənməz.
Varlı qu tükündə yatammaz, ancax kasıf saman üstündə də yatar.
Varını özünə çəpər eləmə, xərcdə.
Varlı vardan danışar, kasıf ehtiyacdan.
Varlı borcuna mal verər, kasıf tər.
Var-dövlətin tacı sağlıqdı.
Varını verən utanmaz.
Varlıqdan arxa olmaz.
Varlı yoxsula gülər.
Varlıya mal, kasıva uşax əzizdi.
Varsa əgər hünərin, hara getsən var yerin.
Verən əldən Allah kəsməz.
Verənin üzü ağ olar, verməyəninki qara.
Verifsənsə alarsan, səpifsənsə biçərsən.
Verən əli kəsməzdər.
Vətən cənnətdi, doğma anadı.
Vətənsiz yaşamax ölümə bərabərdi.
Vaxtsız banlayan xoruzun başın kəsəllər.
Vaxtı itirmək olmaz.
Vaxt qızıldan qiymətlidi.
Vaxt olar qoyunun ayağı uzanar, vaxt olar keçinin.
Vaxtında hay verən qonşuya baş qurvan.
Vaysa bel  bağlama, sonra şamsız qalarsan.



Vaysın qapısı bağlı, başı boş olar.
Vayıs etdiyi vayıslığınnan utanar.
Vurağan inəyin südü qalmağallı olar.
Vur deyirsən vurmur, burax deyirsən buraxmır.
Vurağan öküzə Allah buynuz verməz.
Vijdan insanın cövhəridi.
Vijdan əzabı qamçıdan güclüdür.
Vətənə ağ olanın gözlərinə ağ gələr.
Vəfasızda həya, həyasızda vəfa olmaz.

Y

Yağar yağış, bitər qamış.
Yağmadı yağış, bitmədi qamış.
Yada  yalax, qohuma dolax.
Yax əlimə, yaxım üzünə.
Yaxın qonşuya yaman söz demə.
Yaxşılıqsız pislik yoxdu.
Yanlışlıx da bir naxışdı.
Yar yarnan qaşqalaşdı, onun ləzzəti qaşdı.
Yaşına baxma, başına bax.
Yalançının yaddaşı olmaz.
Yaxın yerə bir kəlmə söz,
Uzaq yerə bir barmaq kağız.
Yara var sarıyallar, yara var dağlıyallar.
Yaş odun kimi nə tısıllıyırsan.
Yaxşı çobanın dörd gözü olar.
Yaxşı ovçunun tüfəngi pas tutmaz.
Yaxşı qonşu qardaşdan irəlidi.
Yaxşı arvad üz ağardar.
Yaxşılıq suda batmaz.
Yaxşı qoja olmuyan yerdə yaxşı cavan da olmaz.
Yaxşı çobanın dörd gözü olar.
Yalançı Allahın düşmənidi.
Yalan söz üz qızardar.
Yayını atıb, oxunu gizlətmə.
Yayda başı bişənin, qışda aşı bişər.
Yaman gözdən özünü qoru.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yamanlıq edibsənsə yaxşılıq gözləmə.
Yaxşını çıxartma, hayıfdı, pisi çıxartma, ayıfdı.
Yatanı ilan çalmaz.
Yaxşı yoldaş, yaxşı at, yaxşı arvad igidin başını ucaldar.
Yalanın kökü çürükdü.
Yalvarmaxnan donuz darıdan çıxmaz.
Yaralı yatar, ac yatmaz.
Yaşayışı pis olanın ölümü də pis olar.
Yer oturanındı, söz götürənin.
Yeyif halvanı, minib eşşəyi.
Yeyin yeriyirəm "dəli"deyillər, asta yeriyirəm "ölü".
Yersiz gəldi, yerri qaç.
Yersiz gülməyin axırı ağlamaqdı.
Yeməyə gejik, əkinə gejikmə.
Yemək adamı iki eləməz, yekə edər.
Yetənə yetir, yetməyənə də daş atır.
Yüyürən yıxılana baxmır.
Yurdu yurd edən kişidi.
Yuxu ikinci ölümdür.
Yumulu ağıza milçək düşməz.

Z

Zatı qırıx olan adamnan dostdux eləmə.
Zarafat məhəbbətin qayçısıdı.
Zaman hər cür yalanın üsütünü açır.
Zarafatın axırı xeyir olmur.
Zarafatın da sərhəddi var.
Zarafat həqiqətin yarısıdı.
Zəhməti sevəni hamı sevər.
Zəhmətin axırı rahatdıxdı.
Zəhmət bəxt gətirər.
Zəhmətdən qorxma, minnətdən qorx.
Zəhmət çəkməyənə zəhmətkeş deməzdər.
Zəhmət dost gətirər, qeybət düşmən.
Zəhmətlə yaşa, zillətlə yox.
Ziyannığın yarısınnan qayıtmaq da kişilikdi.
Zorla  iş görmək olmaz.



Zoruna güvənmə, ağlına güvən.
Zorla açılan gülün ətri olmaz.
Zəhər zəhəri kəsər.
Zər atan neyləsin ki, bir şeş də vermir?
Zərbə həməşə ağrıyan yerə dəyər.
Zivildən təpə olmaz.
Zoğal dərənimiz də var, səvət hörənimiz də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DEYİMLƏR

Ağıl dəryasıdı.
Ağzınnan quş tutur.
Ağzının kəsəri yoxdu.
Aşını bişiriflər.
Avırını ətəyinə püküf.
Adama oxşamıyan.
Adamının adamıdı.
Ağzına su alıf.
Ayağı yalındı.
Ağzı açıx, gözü çöyrək.
Ağzına çullu dovşan sığmır.
Ağzınnan qan iysi gəlir.
Ağzı soyuxdu.
Alaçatılıq eləmə.
Alaşa dəyişən, ala şeytan.
Ala itdən manşırdı.
Ala-vələ adamdı.
Beşik kərtməsidi.
Başı qoltux görmüyüf.
Bir daş altda, bir daş üstə.
Burnumun ucu göynəyir.
Bərk gedəndi. Bağrım sancdı.
Bir içim sudur. Başı pambıxnan kəsir.
Bağrı badaş adamdı.
Başı daşdan daşa dəyir.
Burnunun ucunnan uzağı görmür.
Baş qoşma.
Başımda qoz qırma.
Boşboğazdı.
Başını bağla.
Daş üstündə daşı qalmıyıf.
Dilə-dişə düşüf.
Dişimə vurmuşam.
Daşı ətəyinnən tök.
Dirəyi yatıf.



Dəvə şordan qayıdıf.
Dil pəhləvanıdı.
Dəfi zurnaya basma.
Damı dirək saxlar.
Dəvəsi ölmüş ərəbdi.
Dar günün dayağıdı.
Dəlidən doğru xavar.
Dabaxda gönünü tanıyıram.
Dəymədüşər adamdı.
Daşın atıfdı.
Dilotu yemək.
Dilinnən dil kirəsi isdiyirsən.
Dönərgəsi dönüf.
Dağarçıxlanma.
Qatır cinsidi.
Qəmin qoyma.
Quş qoyma.
Quşum qonuf.
Quyruğu ələ verməz.
Qulağı darı dəlir.
Qaz yolmaq.
Qarğa, məndə qoz var.
Qaşıx çömçədən böyük oluf.
Qələm düşmən əlindədi.
Qəribi burda ağlamaq tutur.
Qılınc müsəlmanıdı.
Qurdu ulayıf.
Quş qanadnan uçar.
Qulağımnan qut oldum.
Quşqunu boşdu.
El sözü, el gözü.
El adətidi.
El gözü tərəzidi.
El içində, öl içində.
Əlimin quşudu.
Əli gətirir, əli gətirmir.
Əli daş altdadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əliuzunluq eləmə.
Əli qızıl kəsir.
Əmmə qoyma.
Əngini əzmək.
Əl tutmax.
Əlimin içi kimi tanıyıram.
İnanmırsan kərtə bax.
İpi mənim əlimdədi.
İlminə, qulğuna adamdı.
İç üzünü tanıyıram.
İçi boşdu.
Od parçasıdı.
Ot kök üstə bitər.
Ovu bərəsində.
Kürkünə bit düşüf.
Keçəl suya getməz.
Kəpəyi tüklənif.
Kələyini kəsmişəm.
Kor otaxdılar.
Kor baxtlıdılar.
Kor atı minif köndələn getmə.
Gözü dəyməllidi.
Göz dəyif.
Kökünə süpürgə çək.
Göznən atdılar.
Gül axıtdı.
Gözaltımdır.
Saman altdan su yeridəndi.
Sapı özümdəndi.
Sönmüş çıraxdı.
Sən nə qaz boğazdıyırsan.
Saqqızı çürüyüf.
Su gələn arxdı.
Saqqalım yoxdu, sözüm keçmir.
Sümüyümü it sümüyünə calamaram.
Səhərin gözü açılmamış.
Sənsiz savax açılmaz.



Mızraq olma.
Mıs-mıs deyincə Mustafa de.
Malxara məssəf qoruyur.
Təpə dəənnən kökə dəənə kimi.
Pərpətöyün toxumu kimi səpələnif.
Papax altda oğlannar yatır.
Fağır döy, yeri dardı.
Yıxılı öyün dirəyidi.
Yaş odun satıf.
Yaş gizlədif.
Yaraya məlhəm edən döy.
Çöp altda dəyirman tikir.
Çardağı yatıf.
Çörək ağacımız.
Cəhənnəm oduna yanmax.
Çanax qalay tutmaz.
Urusun zavtrasına döndərmə.
Usuvalının savağı kimi.
Urvası bizdən olmasa, kündəsi küt düşər.
Fasıxlıx eliyir.
Fal salıf.
Fala baxmışam.
Falçı Fatı - alaçatı.
Ötdümü, götdümü.
Ölüsünnən ölüyəm, dirisinnən diri.
Ölü oğlu ölüdü.
Ödünü qusmaq.
Ürəyimə dammışdı.
Ürəyim üzüldü.
Nuhu taxtda görüf.
Nuhdan qalmadı.
Nuhun gəmisi kimi.
Nəfəsini cilovla.
Şeytana papış tikir.
Şeytanlama.
Tora düşüf, tora salıflar.
Toy tutuluf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tülkü dərisinə girif.
Tösə düşüf.
Xamır çox su aparajax.
Xətir üstə xəstə yatmaq.
Xamır yəənin fağırı olmaz.
Xavarçı Xallının arvadı.
Xatakun adamdı.
Xeyirri xuda döy.
Xeyrə-şərə yaramaz.
Ayağı yalındı.
Şeytanın dal ayağıdı.
Şeytannan əvvəl yaranıf.
Günü doğuf.
Göz yağı yeeflər.
Gözümnən alıfdı.
Gözü görənnən göz kirəsi isdiyir.



## ÖYÜD-NƏSİHƏTLƏR, MƏSLƏHƏTLƏR

Ağzını təmiz saxla.

Ağzın qan olsa da yadlar içində tüpürmə.

Ağzına gələni danışma, ağzına çəpər çək.

Allahını danma, ona həmişə itaət et.

Allahla iş gör, Allahsıza yoldaş olma.

Arvatdara zülm etmə, onnarnan mehriban ol.

Ara vuran, vasvası, xavarçı, əliuzunnux eliyən arvaddara bel bağlıyıf, onnarın yağlı çörəyinə, yağlı dilinə uyub xata çıxartma.

Arı ailəsinə haram gözlə baxmayın, arıçılığı genişləndirin,. Arınızdan aldığınız baldan arısı olmayannara pay verin, qoy onnar xeyir-dua versinnər. Onda məhsulunuz bərəkətli olar.

Bayramları şən keçirin: Novruz bayramını, Oruşdux və Qurban bayramını hər il keçirin. İmkanı olmayannara pay verin, kömək edin, qohumlarınıza, eloğlanlarınıza arı damazdığı verin, onu çoxaldın hamının ojağınnan tüstü çıxsın, qazan asılsın, xörək iyi gəlsin. Yetimləri sevindirin, ac qarınnar doyurun. Onnarın xeyir-duaları bərəkətinizi artırır.

Allahın qanunlarına itaət edin, namaz qılın, oruc tutun, malınızdan zəkat verin. Bərəkətinizdən imam ehsanı verin. Qonşuları özünüzdən razı salın. Mal-qaranıza, əmlakınıza haram qatmayın. Haram toxum cücərməz, bar verməz.

Avırsızlarla ağılla rəftar edin. Onnara qoşuluf avırınızı, həyanızı ləkələməyin. Ağıllılar avırı avırsızlardan öyrəniflər.

Amanata xəyanət etməyin, hər bir amanat göndərən adamın ümidi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

arzusu, xeyirxahlığı, köməyi həmin amanatın içində qalır. Onu sahibinə çatdırmamax amanat göndərən adamın ümidini qırır; sizi onun yanında etibardan salır. Çalışın əmanəti sahibinə çatdırın, hörmət qazanın.

“Alma arvadın dulunu, dalıncan gətirər qulunu“ kəlamını babalarımız havayı deməyiflər. Arvadı ölən kişi evdə uşaqlarının içinə narazılıx salmamaq üçün subay arvad gətirsə daha münasibdi. Ailəni dağıtmaq olmaz.

Bacarmadığın işə qol qoyma.

Başqasının ayvına gülmə.

Başqasının işinə qarışma.

Bağını gözdən salma, bağını çəpərləməsən, ağacları heyvannardan qorumasan, bağdan bar götürə bilməzsən. Bar verən ağaşdarı öz oğlun, qızın qədər sevməlisən.

Qadınlara əl qaldırma, onlara zülm etmə, onnarnan mehriban davranın, qadın ürəyini sındıran ən insafsız adamdı.

"Qarın qardaşdan irəlidi" -deyif qardaşa laqeydlik göstərmə, qardaş dayaqdı.

Qan düşmənçiliyinə içinizdə yer verməyin, xoşbəxt o kənd, o diyardıkın, orada qan düşmənçiliyi, tayfa düşmənçiliyi yoxdu. Qaraqoyunnu dərəsində bu pis adət, bu intiqam hissi olmayıf, qoy heç zaman olmasın.

Qaraqoyunnu dərəsinin 14 kəndində ayrı-seçkilik olmayıf. Bu dərənin adamları ölümüzlə ölü, dirimizlə diri oluflar. Bu birliyi, bu səmimiliyi axıra qədər qoruyuf saxlayın.

Qohumun nöqsanını, ən böyük eybini də yadlara açmayın. Qohumluğun qədrini bilin.



Qoyun Qaraqoyunnu dərəsinin əzəli bərəkətidi. Qaraqoyunnu dərəsinin səfalı dağlarını, yağlı güneylərini, yaşıl-yamaclarını qoyunsuz qoymayın.

Düşmənə qarşı mülayimlik, ehtiyatsızlıq sizə xeyir gətirməz. Sizi məhv etməyə çalışan düşmənlərə qarşı amansız olun.

Dağlar Qaraqoyunnu dərəsinin fəxri, şöhrəti və şərəfidi. Dağlar elinizin ikinci məskənidir. Güneyli, quzeyli dağlarımız Gəncə, Şəmkir, Qazax elləriin yaylaqları olmuşdu. Burada Qaçaq Kərəm, Qaçaq Nağı, Qaçaq Tanrıverdi, Qaçaq Dövlətxan yağılara qarşı amansız mübarizə aparmışdır. Dağlarımız bu qəhrəmanlarının sığınacağı, səngəri olmuşdur. Qoruyun Səngər dağını, Murğuzu, Cantəpəni, Bölələni, Marallıcanı, Soyuqbulağı, Hatı Abası. Yadellərin mərdlər məskəni olan dağlarımıza ayaq basmağına imkan verməyin.

Ermənilər bizim qədimi düşmənimizdi. Bu fitnəkar, satqın, yaltaq millətin şirin dilinə, qılığına umuddu oluf ağacınızı yerə qoymayın. Onnarın hər cür hiylələrinə qarşı laqeyd olmayın. "Ehtiyat iyidin yaraşığıdı" -demişlər, qoy onnarın başı olsun, sizin isə vuran qollarınız.

Ermənilərdən küçük tutmayın, bu küçüklər gələcəkdə sizin baldırınıza daraşajaxlar. Erməniyə etdiyiniz hörməti öz eloğlanlarınıza edin. Göyçək erməni qızları sizin hissiyatlarınızı, mənliyinizi əlinizdən ala bilər. Bu gürzələrdən, kirpi donuna girmiş bu bəd heybətlərdən özünüzü qoruyun.

Elmin öyrənilməsini övladlarınıza peşə edin, övladlarınızın və bütün Qaraqoyunnu mahalının gələcəyinin daha uğurlu olması üçün elmin qulpundan bərk yapışın. Elimizin işıxlı gələcəyi elmdədi.

Evlərinizi abadlaşdırın, qarannıx daxmalardan uşaqlarınızı işıqlı, yaraşıqlı otaqlarda, yaşayış binalarında yerləşdirin.

Oğrulara, oğraşlara yoldaş olmayın, içərinizdə belələrinə yer vermək, oğruları müdafiə etmək, onların əl-qol açmalarına imkan ver-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məyin. Unutmayınkın, oğurruxnan tikilən evi yel, mal-dövləti isə sel aparar. Oğruların evlərində bərəkət olmaz. Elimizin halal bərəkətini saxlayın.

Ovçuluq Qaraqoyunnu meşələrində, dağ-dərələrində geniş yayılmışdı. Meşələrimizin, dağlarımızın təbii sakinlərini tükətməyə çalışmayın. Meşələrimizi maralsız qoyduğunuz kimi, cüyürsüz, dovşansız, turacsız, kəkliksiz də qoya bilərsiniz.

Onu bilinkin, günahsız qanı tökülən, ziyanverməyən bu təbiət gözəllərinin qanı, ahı sizi tuta bilər. Meşəmizin bu təbii sakinlərini qoruyun, onları artırın.

Güneyimiz Qaraqoyunnu dərəsinin həm aranı, həm də dağıdı. Bütün il boyu bu sahədə mal-qara, qoyun-quzu otarmax, saxlamaq olur. Güney bütün ellərimizin qışlağıdı. Bu qışlağı boşlamayın, babalarımızın ruhu bunu bizə bağışlamaz.

Günah iş tutmayın, etdiyiniz hər bir günah üçün sizi xəcalət gözləyir; etdiyiniz günahı yumağa çalışın. Günah iş görənnərə qarşı laqeydlik göstərməyin.

Gəlmələri çox sevirsiniz, hətta Mehdi oğlu Əhməd deyifkin, Qaraqoyunnuya gəlmə gələsən ki, sənə hörmət edələr. Qaraqoyunnu dərəsində ən çirkin, ən eybəcər işləri də törədənnər gəlmələrdi. Özünüz-özünüzə hörmət edin, Vətənin yerli vətəndaşlarına inamla hörmət edin.

Gəlinlərinizlə öz övladlarınız kimi rəftar edin, tez-tez arvad boşayannara yol verməyin. İkiarvadlılıx Qaraqoyunnu dərəsində yox dərəcəsindədi. Çoxarvadlılıx kimi eybəcər hadisəni elimizə gətirməyin. Adamlarımız arasında olan səmimi münasibəti yaşadın.

Meşə bizim ən tükənməz təbii sərvətdi, bu təbii sərvəti qorumax lazımdır. Meşə sizin keşikçiniz olduğu kimi, siz də meşəmizin keşikçisi olmalısınız.



Meyvə verən ağacları həm öz həyətinizdə olan bağlarda, həm də meşələrdəki yabanı meyvə ağaclarını kəsməyin, onları mühafizə edin.

Mal-qara saxlamax üçün Qaraqoyunnu dərəsində geniş imkan olduğunu nəzərə alaraq mal-qara saxlamağa geniş yer verin. Malsızlara "dəli", mallılara "bəli" deyəllər.

Mal-dövlətə çəpər olmayın, təkcə onu artırıf məişətinizə xərcləmirsinizsə, belə mal-dövlət kimə lazımdır? Məişətinizi yaxşılaşdıran, ailə üzvlərinizə xərcləməkdə xəsislik etməyin.

Əməyi özünüzə peşə edin, bərəkətli torpaqlarımızda buğda, arpa, qarğıdalı, kartof əkini etməklə özünüzü ərzaqla tə'min edin.

Torpaq babalarımızın namusu, qeyrəti, qalası, səngəri, bərəkətidi. Torpağı qoruyun, onun yadlar tapdağı olmasına imkan verməyin. Torpağa dərin məhəbbətlə yapışın, onun hər qarışı doğmadı. Pis torpax yoxdur, pis əkinçi var. Torpağı özünüzdən küsdürməyin.

Tamahkarlıq etməyin, bu dünyada ən böyk qoçaqlıx öz əyalını hər tərəfli tə'min etmək, öz məişətini yaxşılaşdırmaqdı. Tamaha meydan verən, tamaha küsənif özünüzü uçuruma aparmayın. Unutmayınkın, babalarımız yaxşı deyiflər. Tamah yıxmayan ev illərcən tikili qalar.

Xeyirxahlıq ulu Peyğəmbərimizdən qalıf. Xeyirxah işlər, xeyirxah əməllər həmişə yadda qalandı. Kəndimizi ikiyə bölən Tərsəçay, Bəryabad, Xanımbəyi çayları üzərinnən körpülər salmaq, bu çay suları üzərində su dəyirmannarı tikmək babalarımızın bizə irs qoyduğu xeyirxahlığıdı. Bu xeyirxahlığı davam etdirin.

Çörək evin bərəkətidi, çörəksiz ev xarabaya bənzər. Allah heç birinizi çörəklə imtahana çəkməsin. Çörək ilk andımızdı. Süfrənizi çörəksiz, çuvalınızı taxılsız qoymayın. Övladlarınızı ürəkli, mərd, qorxmaz görmək istəyirsinizsə, onların qarınnarını tox eləyin.

Üzüyola oluf bilmədiyin, tanımadığın adamlarla iş görməkdən çəkin. Yumşaqlıq, mülayimlik, üzüyolalıq çox zaman uğursuz nəticə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lənir.

Kasıblara, ehtiyacı olannara kömək etməyi unutmayın. Müsəlmannarın əziz bayramlarını şən keçirməkdə kasıflara kömək edin.

Hər işdə, hər yerdə Qaraqoyunnu adətlərini, səmimiliyini, istiqanlılığını, xeyirxahlığını, ismətini, namusunu yaşadın.



## GÜLMƏCƏLƏR

### HAMBALOĞLU BAZARDA

Qaraqoyunnu dərəsi əhalisinin əsas alış-veriş yeri Qazax şəhəri oluf. Qazax dədə-baba qaraqoyunnuların ticarət elədiyi, daima əlaqə saxladığı şəhər oluf. Bu şəhərin adamlarınnan Qaraqoyunnu camaatı ilin bütün fəsillərində əlaqədə olmuşlar. Qaraqoyunlu kəndlərinin Qazağa ən yaxın yerrərinin 50 km, ən uzaq yerrərindəki kənddərin isə 80 km. məsafəsi var idi. Bütün kəndlərin adamları mal-qaralarını və qoyun-quzularını, əsas məhsullarını burada satardılar. Onnardan biri də Hambaloğlu İsəydi. Hambaloğlu payız vaxtı bura dörd-beş cöngə gətirir. Cöngələri bazarda satır, pullarını şalvarının arxa cibinə qoyuf, bazardan yenicə uzaxlaşarkən bir-neçə bığıburma oğlannar kişinin üstünü kəsdirillər. Oğlannardan biri irəli yeriyif ədəb-ərkanla Hambaloğlu İsəyə baş əyir, salam verif deyir:

- A İsə əmi, xoş gördük, nə vaxt gəlifsən, bə belə hara gedirsən, bizə niyə gəlmirsən?

- A bala, olmuya sən Hajı Əhmədin oğlusan?

- Bəs necə, İsə əmi, düz tanıyıfsan, atam sənnən həmişə bizə maraxlı söhbətdər eliyir.

- Ə, atan nejədi, vallah işim tələsikdi, kəndə qayıdasıyam, atana mənnən salam söylə.

- Çox yaxşı, İsə əmi bəs necə, mütləq salamını çatdıraram. Salam söylüyən sağ olsun-deyif oğlan aralandı. Bunun o biri yoldaşdarı artıx işdərini görmüşdülər.

Hambal oğlunun bu oğlannan sümüyü sancmışdı, aralananda əlini civinə atdı. Civmi varıydı, yoxuydu, pulnan baravar civi də kəsif aparmışdılar.

Hambaloğlu ora-burasını axtara-axtara şəhərin ortasına gəldi. Nə qədər axtardısa da pulu tapa bilmədi, gözdərinə qaranlıx çökdü. Başını qaldıranda gördü kü, daş üzərində uzun bir adam əlini buna tərəf uzadıf. Hambal oğlu elə bildi bu da pay istiyir.

- Hə, əlini niyə uzadıfsan, mənim nəyim var sana nə verəm? Çək əllərini özünə, haramzada.

Bu zaman yaxındakı milisoner Hambaloğlu İsəyə yaxınnaşıf dedi:

- A kişi, sən nə danışırsan, kimə söyürsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hambaloğlu elə bil yuxudan ayıldı, qarşısındakı milisoneri görəndə dizdəri titrədi.

A başına dönüm, kim qavağımı kəsif mənnən pay isdiyirsə, bax ona söyürəm.

- A kişi, bu Lenindi. Sən Leninəmi söyürsən?

- Ə zarafat eləmə, Lenin çoxdan ölmüyüfmü, onun burada nə azarı qalıf.

- A kişi, bu Leninin heykəlidi. O, əllərini uzadıf səni azaddığa çağırır.

- Ay oğlan, yeri işinə get, daşdan da Lenin olarmı? Onun azadlığını indicə bazarda lotular mana verdilər.

- A kişi, bazarda nə oldu?

- Nolajıydı, 4-5 cöngə satmışdım, pullarımı lotular apardı, getdi...

Hə, Lenin, Lenin... kolxoz, kolxoz deyə-deyə Hambaloğlu korpeşiman Qaraqoyunnuya tərəf yollandı...

## BƏDXASİYYƏT OLDUĞUN ÜÇÜN...

Hambaloğlu aranda – biçində olanda bərk susuyır. Buralarda bulax yoxuydu. Hambaloğlu bilirdi ki, yaxınnıxdakı taxıl zəmilərinin adamları iri ağac boşkalarında su gətirillər. Odu ku, gəzif tapır. Nəhəng boçkanın o tərəf, bu tərəfinə hərrənir, ancax heş yerində deşik tapmır. Baxıf görür kü, boşkanın aşağı hissəsində bir paz var. Zor eliyif bir təhərnən pazı çıxarır. Elə bu zaman deşikdən fəvvarə ilə çıxan su Hambaloğlunu vuruf yıxır. Bir qədər su içənnən sonra pazı deşiyə çalıf deyir:

- Elə bədxasiyyət olduğun üçün sana paz çalıflar.

## OXXƏY

Hambaloğlu Noylu bulağına ağzını söyküyüf doyunca su içif: - “oxxəy“, “oxxəy“ deyir.

Qələndər soruşur kun, a Hambaloğlu, nə yemişdin ki, belə “oxxəy“ salıfsan?

- A Qələndər, a Qələndər üzdü qoyun pendiriynən buğda fətirinin dürməyini yemişəm.

Qələndər də ağzını noya tutuf doyunca içif bu da "oxxəy", "oxxəy"



– deyir.

Hambaloğlu soruşur:

- Ayə, sən nə yemişdin?

- Kərə yağıynan beçə balının dürməyini.

Hambaloğlunu gülmək tutur. Ə, başın batsın bəs bilmirsənmi, atalar nə deyib?

– Nə deyib, a Hambaloğlu?

- Atalar deyib ki, "Pendir-çörək yedin, su işdin – gətirdin. Bal yeyif su işdin – itirdin".

## SƏN GEJƏ KİMƏ OXŞUYURSAN?

Hambaloğlu bağ oğrusunu tuta bilmirdi. Bir neçə gün pusquda durur. Bir axşam yaxın dostu Qələndəri tamam başqa bir paltarda görəndə gözdərinə inanmır. Səhər Qələndəri həmişəki paltarında görüf soruşur:

- A Qələndər, sən gejə kimə oxşuyursan?

Qələndər işi başa düşür, gülümsəyərək deyir:

- A Hambaloğlu, sən kimə oxşatsan, bax ona oxşuyuram.

## KOXAMIZ KOVXADI

Mehralı koxa Qaraqoyunnuda 25 il koxalıq eliyif. Hər seşkidə Qələndərə bir hədiyyə verif kənddərə salarmış. Qələndər də əraziyə düşüf "koxamız koxadır" deyə-deyə koxuyu təbliğ eliyərmiş.

Bir gün Müxtər İsmayıl oğlu Qələndərdən soruşur ku, Qələndər, Mehralı koxa bu zəhmətin əvəzində sana nə verir? Qələndər bir çuxa aldığını deyir. Müxtər İsmayıl oğlu üzünü turşuduf Qələndərə deyir:

- Ə, a başın batsın, bir çuxadan ötrü özünü niyə sındırırsan?

## QARNIM GÖTÜRMÜR

Yenə koxa seşkisiymiş, Qələndər də adəti üzrə qışqıra-qışqıra kəndi başına götürüfmüş. Elə bu zaman kəndin aşağı məhəlləsinnən Müxtər İsmayıl oğlunun "Qələndəri qışqırdan kovxanın çuxasıdı, ona inanmıyın" sədası eşidilir. Kovxa Müxtər İsmayıl oğlunu çağırıf deyir:

- A Müxtər kişi, mən sizə nə pisdik eləmişəm, niyə mənim



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bədimə danışırsan?

Müxtər İsmayıl oğlu mərd kişi idi, heç kəsdən qorxan deyildi. Ona görə kovxaya cavab verir ki, ay kovxa, vallah mənim də səninnən elə ədavətim yoxdu, amma qarnım götürmür.

## HƏNİFƏNİN CAVABI

Mehdilərdə  Hənifə addı boylu-buxunnu, gözəl-göyçək bir gəlin varıymış. Gözəl camallı bu gəlin həm də çox hazırcavaf bir gəlin iymiş. Evləri də kəndin ortasında, yol kənarındaymış. Hənifə yer xanası quruf mal toxuyurmuş. Bu zaman yoldan keçən atdı bəylərdən biri yoldaşına deyir ki, bu gəlinə söz atajam. Yoldaşı da deyir ki, a yoldaş, yolunnan düz get, sənin nə işin var yad qadınnan.

- Mən elə söz deyəcəm ki, o cavab tapa bilməyəcək.
- Özün bilirsən.

Bəy Hənifəyə deyir:

- Ay bajı, onun ağzına nə bərk döyürsən?

Hənifə cavaf verir:

- Onun ağzı da sənin kimi  xarafdı, döyürəm ki, gəlif-gedənə sataşmasın.

Bəy qızarıf-bozarır. Yoldaşı ona deyir ki, ayə, bura Qaraqoyunnu dərəsidi, bunnarın kişiləri kimi qadınnarı da qoçax, mərd, hazırcavafdılar. Mən sana dedim ki, işində ol, aldınmı payını?!

## AYRISEÇKİLİK

Avdulla kişinin yeddi gəlini varıydı. Onun yeddisi də bir öydə yaşayırdı. Bir gün kişi görür kün, axırıncı gəlin əlində duz aparıf, naxırın içində öz ata malı olan bir düyəyə duz verir. Avdılla kişi arvadına deyir:

- Arvad, mən səhər Qazax bazarına gedəjəm.
- A kişi, sənin bazarda nə işin var?
- Gələndə dəəjəm.

Avdılla kişi gəlinin ata malı olan həmən düyəni qavağına qatıf Qazax bazarına aparır. Düyəni satıf gəlinnərin hərəsinə bir dəst paltar alır. Avdılla kişi qayıdıf gəlir, paltarrarı gəlinnərə paylıyır. Kiçik gəlini yanına çağırıf deyir:



- Ay gəlin, bu naxır sana bəs elədimi ki, aparıf öz düyənə ayrıca duz verirsən. Bə sən bu böyük naxırda niyə ayrıseşgilik eliyirsən. Bax bu paltar həmən düyənin pulu ilə alınıf.

## AĞACI TULLA

Qara kişinin Nazdı adlı bir qadını varıydı. Bir gün Nazdı arvadın qardaşdarı qonşularınan dava salıllar. Nazdı çayın bu tayınnan əlinə bir yekə ağac alıf çayın o tayında dalaşan qardaşdarına köməyə  gedəsi olur. Qara kişi arvadını əli ağaşdı görəndə deyir:

- A Nazdı, ağacı tulla, geri qayıt. Əyər gedirsənsə, bir daha geri qayıtma.

Nazdı ərinin sözünə qulax asmır.

Qara kişi arvadının dalınca deyir:

- Nazdı, bax üç dəfə tüpürürəm, tfu sənə, üç dəfə yox, yeddi dəfə tfü sana, yeddi dəfə deyirəm: sənin talağın boşdu.

Qara kişi arvadını geri qaytarmadı. Nazdı arvad o gediş gedən oldu.

## Ə, SƏN DƏ ADAMSANMI?

Nadir kişi bir ilidikin, kolxozun bütün işlərində işləyir, gejəni gündüzə qatarax evdə çıl-çılpax qalmış altı qızların dolanmasına ümid bəsləyirdi. Budur il başa çatır, amma Nadir kişi əmək gününə hələ də bir şey almayıfdı. Bunu öyrəmmək üçün Nadir kişi səhər tezdən kolxozun idarəsinə getdi. Hesabdar stolunda oturan Hajıya içəri girəndə salam vermədi.  Pərt olan Hajı Nadir kişiyə deer:

- Ay Nadir əmi, adama niyə salam vermirsən?

Nadir kişi narazı və qəzəbliydi. Onöyrə də Hajıya belə cavaf verir:

- Ayə, sən də adamsanmıkın, adamsansa bir mənim hesavıma bax görüm, alajağım nədi?

Hajı kişi şkafı açıb bir kitaf çıxarıf oxuyub deer:

- A Nadir əmi, hər şeydən borşdusan, sənə heş bir natura tüşmür.

Nadir kişi deer:

- Ayə, indi adamsan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AVI, ŞURA HÖKUMƏTİ PUL KƏSMİRMİ?

Şura sədri Avı Əhmədov kəndçilərdən müxdəlif vergilər yığırdı. Kasıf kəndçilər vergiləri vaxdında verə bilmirdilər. Növbəti dəfə də Avı kimi Yanıxrəyə kəndində vergini vermiyənnəri idarəyə çağırıf vergi niyə verməmələrini soruşur. Bu zaman qoca kişi Şeləmən Avı kişiyə deer:

- Avı kişi, şura hökuməti pul kəsirmi? – Ay bala, bunnan çox kəssiyə, bunun gözdəri niyə əldə qalıf.

Avı kişi hirslənir və Şeləməni danlayır. Şeləmən qorxusunnan dinmir, çıxıf gedir.

## YA TANRI, QAÇ HARAVA SƏNİ BASAR.

Çox çətin yollarla kolxoza dərz daşıyan bir kişi genə haravaynan bu dar, bu çətin yolnan gedirdi. Kişi çətin yolda haravanı tutuf: "Ya Həzrət Abbas, sən saxla, ya Tanrı, sən saxla" deyirdi. Birdən harava aşır. Kişi çığıraraq deer:

- Ya Tanrı, qaç, harava səni basajağ.

## AY DƏDƏ, CANIM SAĞ OLSUN!

Mehdilər tayfasında Fili addı ağıldan kəm bir kişi var idi. Mehdilərin Xalıl ağanın Cələsində çoxlu arı ailəsi-arıxanası varıydı. Mehdi oğlu Əhməd Əyrisu addı sahədə taxıl biçinindəydi. Buradan baxıf gördükün, Xalıl ağa cələsində tüstü duman kimi göyə ujalıf. Mehdi oğlu Əhməd öz-özünə dedi: – Vallah, Fili arxanıyı yandırdı. Mehdi oğlu Əhməd işdən sonra evə qayıdıf arxananı yanan gördü, oğlu Filiyi danlayıf dedi:

- Ayə, a Fili, arxanıyı niyə yandırdın?

Fili cavaf verir:

- Ay dədə, canım sağ olsun, bir iş iydi oldu.

Mehdi oğlu Əhməd Filinin cavabına gülərək deyir:

- Ay Fili, arxana külə dönənnən sonra sənin sağlığın kimə lazımdı?



## ARISI DA ÖZÜ KİMİ DƏLİDİ

Mehrallar tayfasında da Piri addı bir kişi varıydı. Bir gün Gülməmməd kişi Piriyə deerkin, ay Piri Hajı Ivraham bizə bir arı ilə dolu höər verif, get gətir. Piri bir dəst çatı da götürüf gedir. Hajı Ivrahım arı dolu höərin hər iki tərəfini bağlayıf Pirinin dalına şələlədi. Piri kişi bir qədər höəri belində gətirdi. Axırda yoruldu, höəri belindən yerə saldı, çatını höərə keçirif sürüməyə başdadı. Bir qədər gedənnən sonra höərin hər iki başının qapaqları açıldı. Höərin içində olan arılar pütünnüknən çıxıf ətrafa yayıldı. Acılanmış arılar Pirinin cəmdəyinə doldu. Piri çatını buraxıf özünü sıx meşədə gizlədir. Gözü, üzü şişmiş halda Piri öylərinə gəldi. Gülməmməd kişi soruşdu kun, ayə, a Piri, arı höərini neynədin?

Piri kişi üz-gözünü göstərif deyir:

- Ay Gülməmməd qağa, yaman da qohumun var, arısı da özü kimi dəlidi. Bax, gör məni nə hala salıf.

- Ayə, sən arı höərini necə gətirdin?

- Necə gətirəjəydim, belə çatını başına salıf gətidim.

- Yaxşı ki, sən hələ salamat gəlirsən.

## AYRIM DEER

Bir ayrım camaatın yığınağında deer:

- Ay insannar, mən böyük Tanrını gördüm.

Adamlar soruşdular:

- Ayə, Tanrını nejə gördün?

- Gördüm kün, Tanrı bir nərdivan quruf, kimini qaldırır, kimini də endirir.

## AYRIM ORUŞ TUTUR

Oruşdux bayramının qızğın çağında bir ayrım da oruş tutmalı olur. İşin, güjün aşıf-daşan vaxdıydı. Ayrım ajdığa dözəmmir. On gün oruş tutannan sonra daha tutmur.Onnan soruşullar kın, ayə, niyə oruşunu yarımçıx tutdun, bə oruşdux otuz gün döymü? Ayrım Qaraqoyunnu dərəsində məşhur olan, sınaqlı ruhani Hajı Mirzənin yanına gəlif, soruşur:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- A Hajı, a Hajı, a getdiyin haja qurvan olum, oruşdux neçə gündür?
- Hajı cağab verirkin, otuz gündür.
Ayrım Hajıya deer:
- A sana qurvan olem, nəmənə yüz öylü Qaraqoyunnuya da oruşdux otuz gün olsun, otuz öylü ayrıma da?

## QILMA DEERSƏN, QILMEEM!

Ayrım namaz qılmağa da məjbur olmuşdu. Hamı namaz qılırdı, mollalar namaz qılmayannarı yezid sayırdılar. Tarlada əkin edən ayrım, günorta namazını qılmaq üçün axar çaya enir, əl-qolunu yuyur, bir düzənnikdə namaz qılmağa başdıyır. Ayrım bir-neçə dəfə əyilif canamazı öpərkən birdən yerdə olan çöp onun gözünə toxunur, sifətini yaralayır.
Ayrım gözünün ağrısını hiss edif, deer:
- A Tanrı, qılma deersən, qılmeem, bə nəmənə vuruf gözümü tökürsən?

## KİMNƏN DANIŞIRSAN, AY KİŞİ!

Qurban kişi uzun müddətdi kin, müəllim işləyirdi. O, çox zaman gejələr oxuyuf, yazır, işləyirdi. Bir gecə yenə də kitab oxuyarkən qonşu çarpayıda yatan qadını yuxudan kal qalxıf kişisinnən soruşur:
- Ay kişi, kimnən danışırsan?
Kişi qadının yuxudan yarımçıx qalxmış, təntənəkliyini görüf cavab verir:
- Əzrayılla!
- A kişi, nə danışırsan, o nə isdəyirdi?
- Gəlif kin, vaxtdı, canını alajam.
- Bə sən nə dedin?
– Nə deməliydim, dedim kin, ay sana qurvan olum, Əzrayıl! Bax mənim canımı alan o yatan Əzrayıldır! Mən elə bilirsən ağ gün görürəm?
- O, sənə nə edir ki?
- Nə etmir ki, ay sənə qurban olum!
– Sən bir dəfə can alırsan, bax o yatan hər gün canımı alır! Canımı gecə də alır, gündüz də. Çıx get, sənə qurban olum, yoxsa səni də incidər.
- Bə necoldu?
- Necə olajax, sənin adını eşidən kimi çıxıf getdi.



## Ə, ADAM ALDIĞINI VERMƏZMİ?

Qələndərnən Ramazan xalauşağıymışlar. Qələndər kasıf dolanırmış, amma Ramazanın pulu çoxuymuş. Bir gün Qələndər Ramazana deer:
- A xala oğlu, bu pulları niyə təkcənə xərşdiyirsən, məndə ha qalmıyajax, versənə biz də xarşdıyax, mənə bir yüz tümən pul ver, amma qaytarajam.
Ramazan ürəyi yumşax adamıydı. Qələndərin nəfsini qırmır, ona yüz tümən pul verir. Ay keçir, il keçir, Qələndər pulu qaytarmır. Ramazan gedif gəlməkdən cana doyur. Axırda bir gün Ramazan əlaşsız qalıf gəlir Qələndərin evinin qarşısına, ağzına gələni, dişinnən çıxanı Qələndərin başınnan tökür. Qələndər deer:
- Ə, a xaloğlu, niyə söörsən, pulun hazırdı, gəl apar.
Ramazan sevincək evə keçir. Elə yenicə rahatlanmışdı kın Qələndər əlində nəhəng bir zopa ilə içəri girir.
- Ə, a belə-belə oğlu, nə vaxta qədər avırımızı tökəjəksən, ə bilmirsən kin, məndə pul yoxdu, – deyib zopanı endirir. Başı, gözü əzilən Ramazan: – Ə, xınzır oğlu, xınzır, vermirsən, vermə, daha məni niyə öldürürsən?
- Ay sağ ol, bax indi başa düşdün, di çıx get.

## Ə, VURMAYIN, QIZIL BELİMƏ BATDI

Ramazan kişinin deyilənə görə çoxlu qızılı varıymış. Elə buna görə Avdılla uşağı qızdarı olan Müğəddəni Ramazana ərə verillər. Həm də Müğəddəni öyrədillərkin, Ramazannan qızılın yerini öyrənsin. Amma Müğəddə naxartan izdiyir Ramazanın qızılı hara qoymasını öyrənə bilmir.
Bir gün Avdılla uşağı sözü bir yerə qoyullarkın, təklikdə olanda Ramazanı döyüf qızılın yerini öyrənsinnər. Belə də edillər. Ancax naxartan qılığa tutullarsa da mümkün olmur. Ramazan qızılın yerini demirkin, demir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axırda Avdılla uşaxları zopa ilə Ramazanı döyməyə başdıyıllar. Birdən qəflətən zopa Ramazanın belində gizlətdiyi qızıla dəyir. Qızıl zərbədən Ramazanın ətinə batır. Ramazan qışqırıf deyir:

- Ə, vurmayın, qızıl belimi dəldi.

## QUYRUĞU QIRXIX OLMASA...

Oğru  Nəsif Ramazanın atını oğurruyuf aparıf minir. Amma atın yalmanını qırxır, qavax ayaxlarına da parça sarıyır. Aradan bir neçə il keçir. Oğru Nəsif atı minif Ramazan olan kəndə gedir. Elə olur ki, kəndin ortasında oğru Nəsif Ramazannan rastlaşır. Ramazan oğru Nəsivin yedəyində olan ata yaman təfərincnən (diqqətnən) baxır. Oğru Nəsif soruşur kun, ay Ramazan kişi, ata nə çox baxırsan?

- A Nəsif kişi, atın yalmanı, quyruğu qırxıx, ayaqları səkil olmasa, vallah deyərdim kin,  at mənimdi - deyir.

Oğru Nəsif də deer kin, a kişi, at ata oxşuyar, sənin atın məndə nə gəzir?

## SİZDƏ ÖLÜNÜ NEÇƏ-NEÇƏ BASDIRILLAR?

Oğru Nəsif bir gün Ramazan kişigilə qonaq gəlir. Yeyirlər, içirlər, söhbət edillər. Ramazan kişi diqqətnən baxıf görür kün, oğru Nəsif qəndi ağzına iki-iki, üç-üç salır. Bunu üzə vurmax üçün Ramazan oğru Nəsifdən soruşur:

- A Nəsif kişi, sizlərdə ölünü neçə-neçə basırırlar?

- Ay Ramazan kişi, xırdasını iki-iki, irisini də tək-tək basırırlar.

## ÖZÜMÜZ GÖRMƏSƏK İNANMARIX

Oğru  Nəsivi oğurrux üstündə Qazax şəhərində həbs edif Şəkər qalasına salıllar. Çox gözdüyüllər oğru Nəsif Qaraqoyunnuya qayıtmır. Qaraqounnuya xavar çatır kın, oğru Nəsivi Şəkər qalasına salıflar. Onun əmisi oğlu oğru Nəsivin dalıncax Qazağa gəlir. Bir neçə gün tanış-bilişnən oğru Nəsivi zamına alır. Amma əmisi oğlunu onun yerinə Şəkər qalasına salıllar. Elə olur kun, oğru Nəsif xəsdələnif ölür. Adamlar gəlif xavar verillər kin, oğru Nəsif ölüf, adamımızı buraxın, aparax. Qala rəysi və cəza rəysi razılaşmıllar kın, bizim nümayəndə



gedif öz gözdəriynən Nəsivin ölüsünü görməsələr buraxa bilmərik. Qəza rəysi öz nümayəndəsini Qaraqoyunnuya göndərir. Nümayəndə oğru Nəsivin cəsədinə diqqətnən baxır, onu tanıyanlardan öyrənir kin, həqiqətən ölən oğru Nəsifdi. Nümayəndə qayıdıf gedir, əhvalatı rəysə söyləyir. Rəyis Allaha dua edir kin, şükür, oğru Nəsifdən canımız qurtardı.

## GÖR MƏN NEYLİYƏJƏM

Birisi bazarda alış-veriş edərkən qəflətən çiynindəki heybəni götürüf aradan çıxıllar. Heybəsi gedən adam haray-həşir salır, tez-tez hədə-qorxu gələrək deyir:

– Əgər heybəmi qaytarmasalar gör mən neyliyəjəm! Gör mən neyliyəjəm! Kim aparıfsa tezcə qaytarsın, sonra pis olajax.

Heybəni çırpışdıranlar onun belə çığır-bağır salmasını eşidif qaytarıllar. Onnar heybəsini itirənnən  soruşurlar kın, de görək, neyləyirsənkin, belə arxayın danışırsan?

Heybə yiyəsi gülüf deyir:

- Əşşi, neyləyəsiydimkin, öydə köhnə bir heybəm varıydı, gedif onu götürəjəydim.

## AĞLI VAR, ANCAX...

Həmişə hər şeyi bildiyini, deyən hazırcavab olan oğlunu yoxlamax üçün Əlyar kişi arvadına deer:

– Arvad, oğlumuzun ağlı var, amma dərrakəsi yoxdu.

Arvad mat-mat kişinin üzünə baxıf deer:

- Ay kişi, necə yəni ağlı var, dərrakəsi yoxdu. Oğlumuz kun, hər şeyi bilir.

Əlyar kişi deer:

– Mən indi sənə dəərəm, hələ üzüyünü mənə ver görüm.

Arvad üzüyü çıxarıf Əlyara verir. Əlyar oğlunu yanına çağırıf deer:

– Bax, oğlum, əlimdə ortası dəlik bir şey var, taf görüm o nədi?

Oğlan cəld cavaf verdi:

– Dəyirman daşı.

Molla gülüf arvadına deer:

– Gördün, ay arvad, oğlumuzun ağlı var, o bilir kin, dəyirman daşı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nın ortası dəlikdi. Ancax dərrakəsi çatmır ki, dəyirman daşı mənim ovcuma sığmaz.

## GETSƏYDİ, GEDƏRDİ...

Bir gün bir qadın dükana gəlif parça almaq isdiyir. Dükançı onu həvəsləndirmək üçün deyir:

- Xanım, bu parçanı təzə gətirmişəm, məsləhət görürəm kin, bu parçanı alasınız?

Qadın bir qədər tərəddüd edir:

- Ay oğul, qorxuram kın, rəngi solar.

Dükançı özü də bilmədən deyir:

- Xalacan, iki aydır kın, bu parça günün qabağında qalıf, rəngi getsəydi indiyə qədər gedərdi.

## Ə, KƏS, ÖZÜMÜZÜNKÜNDƏNDİ!

Kolxozun arı ailəsinə baxan bir kişinin oğlannarınnan biri kolxozun arı ailəsinin birinin beçə verdiyini görüf uzaxda, kəndin ortasında olan atasını ucadan haraylıyır:

- Ay ata, tez gəl, arı beçə verdi.

Atası soruşur kun, ayə, hansı yeşik arıdandı? Oğlu cavab verir:

- Ay ata, kolxozun arısınnandı.

- Ə, kəs, özümüzünkünnəndi.

## ÖLƏNİN QANI BATIR

Qaraqoyunnu dərəsinin əhalisi erməni təcavüzü zamanı bir neçə dəfə Türkiyəyə axın etmişdi. Çaykənd kəndinin sakinnəri Arıx Əhməd oğlu ilə Qəşəm Abdulla oğlu da cavan vaxtları Türkiyəyə düşüflərmiş. Türklər onlara mühacir deyirmişlər. Bir gün bunların hər ikisi bir kənddə gəzirlərmiş. Kəndin ortasında çoxlu toplanmış adamlar görürlər. Onlar ora gəlirlər. Arıx görür kün, adamlar toplanan yerdə bir sininin içində bir onluq qızıl pul var. İki nəfər pəhlivan güləşməli imiş. Kim yıxsa qızıl onluq ona veriləcəkmiş. Pəhlivan soyunub meydanda var-gəl edir, ancaq heç kəs onunla güləşməyə çıxmır...

Arıx Qəşəmə məsləhət görür kün sən də soyun meydana çıx, şükür



Allaha, sənin boy buxunun pəhlivanınkından daha gözədəyəndi. Sən qorxma, mən elə eliyəjəm ki, sən qalib gələjəksən. Qəşəm soyunuf meydana çıxır. Pəhlivanlar güləşməli olanda Arıx tez əllərini qaldırıf deyir:

- Ay camaat, siz qol kağızı yazılmadan güləşə necə razı olursunuz? Heç bilirsinizmi mənim bu pəhlivanım Toqatda kaç nəfər kayb edifdi. Qol kağızı yazılsın ki, kim ölsə, onun qanı batsın, heç kəs günahkar sayılmasın.

Bu zaman pəhlivan deyir:

- Canım, biz güləş yapırıq, qovqa yapmırıx.

Arıx isə deyir:

- Şu pəhlivan çox hirsdidi, güləş yapdığı şəxsi kayb etməmiş əl çəkmir!

Pəhlivan güləşdən imtina edir. Arıx cəld onluq qızılı sinidən götürüb aradan çıxır. Meydan sahibi güləşdən imtina edən pəhlivana deyir:

- Ay əbləh, o adam güc pəhlivanı deyildi, o, dil pəhlivanıydı. O, sizi dilnən yıxdı.

## ŞİNDİ-MİNDİNİN POÇTU GƏLDİ

Hajı Məmməd Türkiyədə olarkən bir sıra hadisələrlə qarşılaşır. Bunlardan biri türklərin poçtu ilə əlaqədar olan hadisədi. Hajı bir neçə adamnan küçədə olarkən zınqırovlu kiçik arabada poçt işçiləri gəlib dayanır. Hacı bu arabaya qoşulmuş itdəri görərkən gülüf və deyir:

- Paho, şindi-mindinin poçtu gəldi.

Bu zaman poçt işçiləri onu tutuf polis idarəsinə aparıllar. Hajının adamları minnətə, yalvarmağa başlayırlar. Hajını cərimələyif, zaminə buraxıllar.

## DƏDƏM DƏ ÜZÜNÜ NƏ UCUZ QIRXDIRDI.

Hajı Türkiyədə olarkən üzünü qırxdırmalı olur. Dəllək üzünü qırxıb qurtarannan sonra deyir ki, Hajı bir manat da verməlidi. Hajı inadcıllıq edir ki, vermərəm. Hajı ilə dəllək arasında çəkişmə olur. Dəllək Hajını, Hajı da dəlləyi vurur. Bu qalmaqalı görən polis işçiləri onu tuturlar. Hajını tanıyanlar polis işçilərinnən bağışlamağı xahiş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edillər. Polis rəhbəri deyir:

- Əfəndilər, mühacir qanunu pozuf, dəlləyi döyüb, bunun üçün o, ən azı on manat cərimə verməlidir.

Bəli, on manat cərimə verif Hajını qurtarırlar. Küçə ilə gedərkən Hajının oğlu atasına deyir:

- Dədəm də üzünü nə ucuz qırxdırdı.

## ÖLÜNÜ YEDİK

Qaraqoyunlulardan bir qrup adamlar Türkiyədə mühacir olarkən türklərin bir cöngəsini oğurlayıllar. Kəndin adamları cöngənin izinə düşüllər. Onlar qapıya gəlib mühacirlərdən soruşurlar ki, bəlkə, sizin adamlar bizim cöngəmizin yerini bilələr. Mühacirlər də Allah, Allah görməmişik deyirlər. Xülasə, mühacirlər cöngəni kəsirlər. Ancax türklər onlardan şübhələndikləri üçün nəzarəti əldən vermirlər. Belə çətinlikdə qalan qaraqoyunlu mühacirlər cöngənin ətini evin içində taxtın üstünə toplayıf üsdünə ağ çəkif ağlaşmağa başlayıllar. Evə gəlmiş kəndxudanın adamları üzr istiyif geri qayıdıllar. Hadisədən bir neçə gün keçir. Türklər görürlər kin, mühacirlər ölünü basdırmadılar. Məcbur oluf gəlib soruşullar kin, mühacir əfəndilər, siz ölünüzü harda dəfn etdiniz? Bu zaman mühacir Qaraqoyunnular deyirlər:

- Əfəndim, bizim adətimizdi, biz ölüyü basdırmırıx, yeyirik.

Məsələni sultana çatdırırlar. Sultan deyir:

- Türklərə belə millət lazımdı, onlara toxunmayın.

Belə biabırçılıq edəndən sonra Qaraqoyunlular gecə ikən Türkiyəni tərk edillər.

## ATAYIN EHSANINDA OLSUN!

Qaraqoyunnu kəndlərindəki kolxozlar öz qoyun sürülərini Azərbaycanın Ceyrançöl adlı aran yerində yerləşdirirdi. Bu ərazi kənd və şəhərdən aralıda idi. Çovannar Ağstafa, Tovuz şəhərlərində bazarrıx eliyirlərmiş. Bazarda onnarın başına min bir oyun açırlarmış, üstəlik hələ çovana hər gələndə "bir çovan qovurması gətirsənə, yeyək“ deyərmişlər. Bir gün çovannarın bir eşşəyi ölür. Bazara gedən çovan deyir:

- Ay yoldaşlar, eşşəyin ətini qovuruf mana həmişə sataşan bazarkoma satajam.



O, eşşəyin ətinə bir qoyunun ətini də qatıf qaynadıf qovurma edir. Bazara gətirif həmən bazarkoma satır. Bazarkom deyir kin, qovurmadan əvvəlcə sən ye, sonra da biz yeyək. Əlaşsız qalan çovan qovurmadan yeməyə başlayır. Bazarkom çovana baxıf qovurmadan xeyli yeyir və deyir:

- Allah atana rəhmət eləsin, atayın ehsanında olsun, yaxşı qovurmadı.

## DÜŞMƏN EVİMİ PARTLATDI

Son zamanlar Qaraqoyunnu dərəsinin adamları Rusiyanın müxtəlif rayonlarına işləməyə gedirdilər. Onlar mövsümlə əlaqədar olarax 4-5 ay işləyif qayıdırdılar. Orada gördükləri bə’zi işləri öz kəndlərində tətbiq edirdilər. Bu işlərdən biri də povidlo hazırlamax idi. Bir il bağda bol alma olduğunu görən kişi qadınına deyir:

- Arvad, biz çox geridə qalmışıx, almanı povidlo bişirərəm.

Kişi belə də edir. Bağdakı almaları yığıf boçkalara doldurur və ağızlarını möhkəmcə bağlayır. Hamıya tapşırır ki, heç kəs əl vurmasın. Aradan 10-15 gün keçir. Bir gün səhər tezdən qonşu otaxda partlayış səsi eşidilir. Evin adamları bayıra qaçırlar. Evin kişisi haray salır ki, ay qonşular, kömək edin, evimə dinamit qoyuf partlatdılar. Yaxın qonşular hadisə yerinə gələrkən yenə də daha bir partlayış olur. Gələnlər də qorxuya düşürlər, heç kəs cəsarət edif qonşu otağa girə bilmir. Bir qədər gözlədikdən sonra gələnlərdən biri deyir ki, ay yoldaşlar, bu, dinamit partlayışı deyil. Otaq sağ-salamatdı, bir gəlin içəri keçək görək bu nə həngamədi. Onnar qapını açıf içəri girərkən otağın hər yerinə dağılmış alma cejələrini görüf gülüşməyə başlayırlar. İrəli gedif partlamış boçkaları görən kişi xəcalət çəkif deyir:

- Ay camaat, sizə qurvan olum, bunu heç yerdə açıqlamayın, rusun öyü yıxılsın, bə onnar povidlonu necə hazırlayırlar?

Adamlardan biri deyir:

- Zərəl yoxdur. O əməli də bu il gedəndə öyrənərsən, deyillər.

## DOĞRAMA YEYİRDİ

Mığdat ağıldan kəm bir şəxs idi. Əfəndilər tayfasında hamı onu ehtiyatla dindirər, xətrinə dəyməzdilər. Bir gün Mığdat Lətifin sözünə baxmır. Lətif hövsələdən çıxıf Mığdatı döyür. Mığdat ağlıya-ağlıya kəndin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

içinə qaçır. Əfəndilərin ağsaqqalları Mığdatın qarşısına gedif soruşullar:
- A Mığdat, niyə ağlayırsan?
- Niyə ağlamıyım, Lətif öldü.
Adamlar Lətifgilə tərəf qaçışıllar. Ağsaqqallardan biri deer:-Ayə, siz burda dayanın, mən Mığdatdan bir əməlli-başdı soruşum.
Həmən adam Mığdatdan soruşur.
- A Mığdat, sən gələndə Lətif nağayrırdı?
- Canına azar qayırırdı, doğrama yeyirdi.
Adamlar gülüşə-gülüşə geri qayıdıllar.

## MIĞDAT QATIĞIN HAMISINI İÇİR

Mığdatın qohumlarınnan biri ölübbüş. Evin arvaddarının hamısı ora gedillər, amba Mığdata tafşırıllar kin, qazandakı qatıxlara göz-qulaq olsun. Arvaddar gej gəlillər. Mığdat qazanda olan qatığı pütünnüknən içir. Arvaddar gələndə Mığdat ağlıyırdı. Evin arvadı boş qazana baxıf Mığdata deer:
- A Mığdat, qazandakı qatıx hanı?
Mığdat ağlıya-ağlıya deer:
- Mən bunun ölüsünü ağlıyıram, bu da mənnən qatıx görür.

## BAŞINA MANŞIR QOYSANA

Yığan kənddə məhşur oğrulardan biridi. Amma, mərd adamdı, oğurradığını danmır, boynuna alır. Yığanın maması oğlu Qaranın bir kök qoçu varıymış. Yığan fırsatdıyıf bunu aparır. Qara nəxərtən gəzir qoçu tapbır. Axırda Yığannan soruşur:
- A Yığan lələ, üç gündür kün axtarıram, qoçu tapammıram, bəlkə, sənə rast olmuş ola?
- A Qara, qoçuyun manşırı varıydımı?
- A Yığan lələ, varıydı, bə nə, kərəydi.
- Ə, kərə nədi, başının ortasına "Qara" yazmışdınmı?
- Yox, ay Lələ, yazmamışdım.
Yığan hirslənərək deer:
- Ə, mən sənə neçə dəfə demişəm, malıyın başına adını yaz, sən nə qammaz adamsan. İndi get tap.
Qara dimməz-söyləməz uzaxlaşır.



## TÜLKÜ VURUF, XORUZ İSDİYİR

Abdulla Yığanın qonşusuydu, evi də meşiyə yaxınıydı. Tülkü Avdıllanın toyuxlarına dadanmışdı. O, həm də ovçuydu. Oydukun, Avdılla Yığana deer kin, a Yığan, toyuxları aparan tülkünü vur, sənə bir xoruz verəjəm.
Yığan meşədə gəzərkən bir tülkü vurur. Tülkünün dərisini gətirif Avdıllıya göstərir:
- Avdılla kişi, bax tülküyü vurdum, di xoruzu ver.
Avdılla kişi bir tülküyə baxır, bir Yığana. Axırda deer kin, yox, a Yığan, keçəl suya gedən döy. Sən Cantəpədə tülkü vuruf, kənddə Avdılladan xoruz ala bilməssən.

## Ə, BƏ DANA?

Bir il əvvəl Yığan Əhmədin danasını cimbildətmişdi. Əhməd neçə dəfə Yığannan soruşsa da boynuna almamışdı.
Bir gün meşə işçiləri peşə bayramı keçirillərdi. Hamı yeyir, içir, şaddığ eliyirdi. Bu ərəfədə Əhməd Yığanın sağlığı üsdündə deer:
- A Yığan lələ, mən də sənin sağlığına badə qaldırıram, sən çox qoçax adamsan, mərdsən, hammızın sevimlisisən.
Bu zaman Yığan Əhmədə deer:
- Yox, ay lələ, danıyı halal eliyə bilmiyəjəm, sən ərişdə kimi doğran.

## ADIMI VER, İŞİN DÜZƏLƏJƏK

Meşə idarəsinin direktoru Aftandilin Yığannan arası yoxuydu. Yığanın adı gələndə cin atına minirdi. Yığan bir gün meşə idarəsinin həyətində gəzinirdi. Bir də baxdı kın, Bəryabaddı Məhəmməd tələsikləmə idarəyə gəlir. Yığan tez Məhəmmədi qarşılayır:
- A Məhəmməd, xeyir ola, belə səhər tezdən nə var?
- A Yığan, bir ağacım var, görüm Aftandil icazə verərmi gətirdəm.
– Hə, çox düz eliyirsən, sən Aftandilə deynən məni Yığan göndərdi, daha dalısınnan işin olmasın, elə mənim adıma bənddi.
Aftandil idarədə təkcə idi. Məhəmməd içəri daxil oluf salam verdi.
Aftandil soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- A Məhəmməd, söylə görüm, nəyşə gəlifsən?
- Nə bilim,a qadan alım, məni də Yığan göndərif sənin üsdünə.
- Ə, Yığannan sənin nə işin? Hədərən-pədərən danışma, de görüm nə isdiyirsən?
- A Aftandil qağa, Yığan dedi kin, o ağacı icazə ver gətirək.

Aftandil hövsələdən çıxdı, Məhəmmədi dannıyıf yola saldı. Buna bax, Yığana bax, ağacına bax, oğrubaşına bax, deyə-deyə Aftandil idarəni başına götürmüşdü.

Məhəmməd qızarıf, pörtmüş halda bayıra çıxdı. Yığan tezcənə Məhəmmədin qavağneydif soruşdu:

- A Məhəmməd işin düzəldimi?
- Eh, sən düzəldən işi Allah kəssin! Ə, Aftandil məni biyavır etdi.

## O, MƏNİM DAYIM DÖY

Yığan meşəbəyi işləyirdi, hamı da xatirini isdiyirdi. Bir gün qonşu kənddən gələn bir nəfər səhər tezdən Yığanın bacısı oğlu Qaçaydan Yığanı soruşur. Qaçay da anasını haraylıyıf dayısını soruşur. Anası deerkin, ağrın alım, dayın içəridə yatır. Qaçay anasına deer:

- Yox, ay ana, o mənim dayım döy. Mənim dayım bu vaxda qalmazdı.

## AY ƏMİ, O SƏNİNİYMİŞMİ?

Yığan boş duran deyildi. Adını meşəbəyi qoyuf, gejəni gündüzə qatıf, əlinə gələni dədə malı kimi aparıf yeermiş. Bir gün meşəni gəzərkən bir neçə sahibsiz qoyun, toğlu görür. Majal vermədən Yığan bu bölükdən bir kök toğlu tutuf aparır. Əmisi Muxdar kişi, qoyunnarın dalıncax gedif toğlunu tappır. Axşam Yığanın yanna gəlif soruşur kun, ayə, a Yığan, toğluyu qavağımnan apardılar...

- Əmi, sənin toğlunu kim apara bilər?
- Ə, canın haqqı, aparıflar, yoxdu.
- Əmi, ay əmi, qaşqasına bir şey yazmışdınmı?
- Ə, a qurumsax, yoxsa sən aparıfsan?
- Ay əmi, elə həməşə özgədən aparram daa...



## Ə, MƏN FƏXR ELİYRƏM...

Meşə işçilərinin hamısı Yığana rişxənd edillər kin, görürsənmi, Aftandil sənə göz verif, ışıx vermir. Yığan da onnara gülə-gülə deərdi:

- Ayə, ay gidilər, mən fəxr eliyirəm kin, əmim oğlu hamınızı qamışa dolduruf. A yazıxlar, qamçı bizim əlimizdədi.

## YAMAN ƏYSİYİMİZ VAR

Keçəl Usuf kolxozun baş çovanıydı. Ömrü boyu cavannıx eliyirdi. Adamların kasıf vaxdıydı. Nəsif addı birisi gəlif deer kin, ay Usuf dayı, qardaşım əsgər gedir, onun şaddıx kampaniyasını yola salmağa heyvanımız yoxdu. Anam dedi kin, bir heyvan versin, onu yola salax. Usuf kişi deer kin, oğul, yaman əysiyimiz var, düzəldə bilmərəm. Bunu eşidən Çoban oğlu Bayram deer:

- Ay dədə, indi Nəsif sənə borc ödəməyəmi gəlif, ver gessin. O kimin üsdünə gessin, qohumu sənsən, sənin üsdünə gəlif.
- Ver, oğul, ver! Sən mənnən ağıllıymışsan.

## DEDİYİNİZ NOOLDU?

Keçəl Usufun arvadı ölmüşdü. Aradan bir neçə il keçirdi. Uşaxları kişinin öyləmməsi haqqında heç düşünmüllər. Kişi nəxərtən gözdüyr, olmur. Axırda böyük oğlu əvəzi Musdafıya deer:

- Oğul, bə mən nağartan arvadsız qalajam.

Mustafa əlajsız qalıf deer:

- Ay əmi, elə biz də arvaddarımızı boşuyjurux, neynirsən arvadı.

Kişi heş şey demir.

Aradan çox keçir. Amba kişi hər evə gələndə görür kün bunnarın arvaddarı hələ də öydədi. Oydukun, kişi deer:

- A qardaş oğlu, bə dediynizi niyə eləmirsiniz?

Mustafa razılıx verif deer kin, ay əmi, özün seç öylən, biz heş nə demirik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XAŞIL YEMİŞƏM

Usuf kişi arı saxlamırdı, heç arının səmtini, sorağını da bilmirmiş. Bir gün kənddə Mühüd addı birisinin arxasınnan bal çıxardıf aparıllar. Milis işçiləri gedif baxıllar kin, doğurdan da kişinin ona qədər arı yeşiklərinin balını aparıflar. Onnar guman etdikləri adamları axtarıllar. Milis işçiləri kəndin arasında gəzərkən Usuf kişiyə rast olullar. Usuf kişi sahə müvəkkili ilə salamlaşanda əlinə bal bulaşır.

- A kişi, əlini bir bəri uzat görüm, - deyə sahə müvəkkili, milis işçisi Usuf kişini idarəyə aparır. Sovet sədrinə deer kin, bal oğrusunu tapbışam. Sovet sədri Usuf kişini görüf gülür:

- Ay sahə müvəkkili, bu kişi oğru adam döy, arıdan da başı çıxan adam döy. Burax gessin.

Xülasə, Usuf kişinin evini axdarıllar. Qonşudan gələn bir az balnan bişən xaşıl tavasına baxıf gülüşüllər. Hamı təəssüflənirkin, iki çay keçən adam əllərini niyə yumuf.

## GÖYDƏN GƏLƏNDƏ DAŞI GÖRDÜM

Mustafa Mahmudovu kənddə hamı tanıyırdı. O, müəllim idi, açıq ürəkli, hər hadisəyə girişən, özünnən razı adamıydı. Yığanın bir xeyirgur atı varıymış. Bir gün atı yəhərri–yüyənni qantarğasınnan darta-darta kəndin aralığına gətirirmiş. Yığan adamların yığnağına gətirəndə Mustafa müəllim Onnan soruşur kun, ayə, niyə atı minmirsən?

Yığan deer:

- A dayı oğlu, yaman bəd xasiyyətdi, tək minə bilmirəm.

Mustafa tez Yığanın əlinnən qantarğanı alıf deer:

– Ə, bəri ver görüm, bu nə zivildi kin, munu minə bilmirsən?

Yığan deer kin, ə başına dönüm, məni xatıya salma, vallah at səni yıxajax. Olmur, at atılıf tüşür; Mustafanı yerə çırpır. Adamlar Mustafanın yıxıldığı yerdə olan böyük göy daşa dəymədiyinə sevinirlər. Mustafa başının qanı axa-axa deer:

- Mən göydən gələndə daşı gördüm.

Yığan gülə-gülə kişiyə belə deer:

- Qələt eləmə, o sən gələn yerdən mən də gəlmişəm. Ordan gələndə daş görümmür.



## BİR DƏFƏYƏ 20 LİTR SÜD VERİR

Mustafa kişi malağannan bir cüt nəhəng inəy almışdı. Mustafa müəllimnən, bu arıx inəyin nəyinə pul verirdin, deyə soruşurlar.

Mustafa müəllim özünü o yerə qoymuyuf deer:

- Ağrın alım, munun arıxlığna baxma, bir öynədə 20 litr süd verir. Hamı duruf deerkin, ayə bunun özü nədikin, bir o qədər də süd verə?

Bunu adamlar Qurvan müəllimə çatdırıllar. Qurvan müəllimnən Mustafa müəllimin zarafatı tuturdu. Qurvan müəllim yeni aldığı bir düyəni Mustafanın qapısınnan örüşə aparanda soruşur kun, ə bu düyə nəxərtən süd verir?

Qurvan cavaf verirkin, 21 litir.

Mustafa işi başa düşüf Qurvannan soruşur:

- Ə, mənim neçə uşağım var?

- Yeddi.

- Çox yaxşı, yeddi doğrama sabah, yeddi doğrama günorta, yeddi doğrama axşam. Bu yeddiləri üçə vursan neçə eliyər?

- Yeddi dəfə üç, eylər iyirmi bir.

- Bə mənnən nə isdiysən, di düz yolunnan çıx get.

Məsələ hamıya çatır. Hamı Qurvan müəllimi görəndə deerr:

- Ay Qurvan müəllim, yeddi dəfə üç neçə elər?

## MƏNİM ADIMA YAZ

Qurvan müəllim fürsət gözdüyüf hayfını almax isdiyirdi. Bir gün eşidir kin, Mustafa müəllimi maşın vuruf yıxıf, yatır. Onun yanna gedif gələnnərdən soruşurkun, kişinin vəziyyəti nejədi?

Dedilər kin, yüngüldü, xatalı bir şey yoxdu. Qurvan müəllim belə eşidəndə civinə bir iyirmi beşliyi qoyuf özünü Mustafa müəllimin yanna salır. Yataxda olan dostunun üstünnən yorğanı açıf bədəninin ağrıyan yernə baxıf ürək-dirək verir. Sonra qadını Hilaldan soruşur kun, kişinin iştəhası nejədi, nə yeyib içir? Qurvan görür kün, doğrudan da kişini heş şeyi yoxdu, elə-belə yatır. O, Hilal müəllimə yaxınnaşıf deer:

- Ay Hilal bajı, bəlkə mən burda olmadım, al bu iyirmi beş manatı əvəzimnən yazıl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə bu zaman Mustafa müəllim cəld çarpayıdan qalxıb:

- Ağız alma qaytar deyif Qurvan müəllimin üsdünə cumur. Qurvan müəllim isə artıx qaçıf aradan çıxmışdı.

## DANA BOĞAZDI?

Kənddə hamı Mustafanı yalançı Mustafa kimi tanıyrdı. Doğru söz də desə inanmırdılar. Bir gün kəndə yayıldı kın, bilməzsəmmi Mustafa müəllimin danası boğazdı. Bu xəbəri genə Qurvana çatdırıllar. Qurvan müəllim müəllimlər otağında Mustafanı görəndə deerkin, ayə, ay ətin tökülsün, o nədi çıxardıfsan, dana boğazdı. Ayə, iki yaşda da dana boğaz olarmı?

- Yaxşı, indi heş nə demirəm, vaxdı gələndə görək kimin əti töküləjək.

Bir gün Mustafa uşax göndərif Qurvanı çağırtdırır. Qurvan evə çatanda Mustafa kişi onu mal damına aparıf deer:

- Ə, bax bu nədi?
- Buzov.
- Bəs bu nədi?
- Bax bu buzov bu ardı çaralı dananındırmı?
- Deyəsən elədi.
- Ayə elədir nədi, bə bu buzoyu mən doğmuşam - deif Qurvana bir yağlı sillə ilişdirir. İndi o kor gözdərin gördümü kün, dana boğazdı yoxsa yox. Qurvan müəllim heş şey bilmir. Mustafa müəllim onu öə aparıf arax qonaxlığı da verir. Mustafa müəllim belə bir açıq qəlbli adamıydı. Allah ona qəni-qəni rəhmət eləsin!

## QƏBİRSTANLIQDADI

Mustafa müəllim məktəb direktoru işlədiyi zaman bir şagirdi nə qədər çalışırsa məktəbə cəlb edə bilmir. Bir gün məktəbi yoxlayan maarif işçisi həmən uşağın harada olmasını soruşur. Mustafa müəllim cavaf verir kin, həmən uşax ölüf, inanmırsan gedək qəbristannıxda bax. Maarif inspektorunu Mustafa müəllim qəbirstannığa gətirif təzə ölmüş başqa bir uşağın qəbrini göstərir. Maarif inspektoru inanır kin, doğurdan da kişi düz deyir. İnspektor soruşur kun, yoldaş direktor, bəs baş daşı niyə yazılmayıb? Mustafa müəllim inspektoru inandırır kin,



bizim adətdə xırda yaşdı uşaxlara baş daşı qoyulmur.

## İNƏYƏ BAX GÖR BOĞAZDIMI?

Mustafa kişi neçə ay idi kin, kolxoz sədri işdiyirdi. Mal ferma müdiri Mustafanın xamlığınnan istifadə edib ona bir baş boğaz düyə göndərir ki, ay dayı oğlu, apar öz malın kimi damına bağla, işin olmasın, öz malımnandı. Düyəni gətirif kişinin damına bağlıyıllar. Bir neçə günnən sonra Mustafa müəllim qonşusunu çağırdır, inəyə baxdırır kın, görsün boğazdımı? Gələn adam düyənin qulağındakı birkanı görür. Lazımı yerə xavar verir. Bir neçə günnən sonra milis şö'bəsinnən gəlif düyəni aparıllar. Həmən hadisə adamlara çatan kimi şəvədiyə qouf gülüşüllər kin, ayə filankəsin düyədən yaman başı çıxır, həm də eytivarrıdı.

## ALAĞ OTU ÇƏKİLLƏRMİ?

Musdafa müəllim kolxoz sədri olan zaman rayon partiya komitəsinin birinci katibi kəndə gəlir. İdarədə bir neçə işlə tanış olannan sonra Musdafadan soruşur kun, yaz alağ otunun çəkilməsinə başlayıfsınızmı, bu sahədə vəziyyət nejədi? Tarlaya bir nəfər də olsun adam çıxarmayan Musdafa müəllim cavab verirkin, bəli, yoldaş katib, alağ otunun çəkilməsinə başlamışıq və bu iş çox mütəşəkkil gedir. Katib buyurur kun, tarlaya getmək olarmı? Gedək-deyə Musdafa müəllim katibi tarlaya aparır. Sən demə qonşu erməni kəndinnən onlarca qadın gəlif kolxozun taxıl tarlasınnan tuluça toplayıllarmış. Tarlıya çatanda yollarda qalaq-qalaq yığılmış tuluça yığımı görüf katib soruşur kun, Musdafa müəllim bunnar nədi? Musdafa müəllim katibi başa salır kın, alağ otunu taxılın içinnən kənara apardırıq, taxılı zibilləmirik. Katib uzaqda taxılın içində tuluça yığan qadınnarı görüf Musdafa müəllimnən razılıq edir. Musdafa müəllim belə Musdafa müəllim idi.

## İNCİTMƏ, QOY YATSIN

Musdafa müəllim məktəb direktoru işləyən zaman maarif şö'bə müdürini evinə qonaq aparır. Musdafa müəllimin yerinnən qalxmaz, qoja bir iti varıymış. İt qapıdan uzaqda bağlıymış. Müdir tualetə getməli olanda Musdafa kişi onnan baravar həyətə enir, bir haray



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həşirlə "ay it", "ay it, kənara dur" deyə-deyə itə təpinir. Amba it nə başını qaldırır, nə də qımıldanır. Bir neçə belə edənnən sonra müdir Musdafaya deer:

- Musdafacan, yazıxdı, incitmə, qoy yatsın!

## EŞŞƏYİN QOHUMLARI

Bayram Minə oğlu kəndin ən zarafatcıl, baməzə, hamı üçün mehriban bir adamıydı. Heç kəs onun sözünnən inciməzdi. Bayram kişi bir gün eşşəyini çulluyuf qavağna qatıf meşiyə oduna gedir. Kəndin kənarında, meşənin ətəyində olan Pirqələm bulağının ətəyində qonşu Qaraqaya kəndinin bir qrup cavannarı süfrə quruf yeif-içillərmiş. Onnar Bayram kişini də süfrüyə də'vət edillər. Bayram kişi razılıx edir, əyləşmək isdəmir. Ancax uşaxlar əl çəkmillər, Bayram kişiyə sataşmax məqsədiylə bakallarını dolduruf deerlər:

- Bu tostumuz Bayram kişinin eşşəyinin sağlığınadı, içək eşşəyin sağlığına.

Bayram kişi gülür, cavannara yalvarıf deer:

- Ayə, sizə qurvan olum, mən elə bilirdim kin, Qaraqoyunnu dərəsində mənim heç kimim yoxuymuş. Çox şadam kın, mənim eşşəyimin sizin kimi qohumları varıymış. Sağ olun, ağrınız alım, için.

Cavannar qızarıf, bozarıllar.

## QƏMSƏRDƏ İKİSİ VAR

Kənddə Qriqor addı bir boyaxçı varıydı. Kəndlərin əhalisi bütün iplərini ona boyadırdı. Bir gün Qriqor Bayramnan soruşur kun, a Bayram kələm turşuya qoyajam, mənə bir ağac çəllək lazımdı, görən kimnən tapa bilərəm?

Bayram deer:

- A Qriqor, Qəmsərdə iki iri boşka var, gör ala bilərsənmi? Yaman yaxşı boşkalardı. Qəmsər sənnən tanışdı verər, heş nə deməz.

Qriqor Qəmsəri tapıf onnan xayış eliyr kin, a Qəmsər eşitmişəm, səndə iki yaxşı boşka var, birini mənə ver, müvəqqəti işlədif yenə özünə verəjəm.

Qəmsər işi başa düşür, Qriqora deer kin, a Qriqor o boşkadan səndə də var. Öz boşqan yaxşıdı, içinə nə qoyursan qoy. Qriqor başa düşür kün, Bayram onu doluyuf.

## TEZ QAYIT İNDİ

Çaykənd kəndində Aşıq Qurvan addı bir aşıx varıymış. Elin-obanın şaddığını Aşıx Qurvan yola verərmiş. Aşığın Zərri addı bir qadını varıymış. Zərri Aşığı təngə gətirif deer kin, mənə bir tikiş maşını al. Aşıx Qurvan arvadın tələbini ödəmək üçün bir dıvır alır, arvadına deer kin, bax bu dıvırı bəsdə, irilət, sat özünə bir tikiş maşını al. Zərri arvad bir təknə xamralı pişirif evdə qouf meşiyə fıstıx yığmağa gedir. Zərri meşiyə gedənnən sonra dıvır özünü verir təknədəki xamralıya. Dıvır xamralıdan o xərtən yeer kin, qarnı şişif dağa dönür. Aşıx Qurvan içəri girəndə dıvırı çavalıyan görür. Aşıx dıvıra yaxınnaşıf görür kün dıvır ölür. Bayıra çıxıf qonşu İsmayılı haraylayır. İsmayıla dıvırı kəsdirif, soydurur. Qurvan İsmayılı yola salannan sonra sazını köynəyinnən çıxardıf dıvıra belə bir şe'r qoşur:

Xamralı bişirirdin, döndərdin cada,
Axşamı, sabahı salmadın yada.
Bir atdıx dıvırı sən verdin bada,
Qazanc mayıyı basdı tez qayıt indi.

Ağlar qalsın Cantəpənin yolunu,
Enib çıxmaq olmur yoxuş yolunu.
Kəsib İsmayıla verdim qolunu,
Qazanc mayıyı basdı tez qayıt indi.

Zərri dıvırı ölmüş görüf təəssüflənir.

## KEÇƏL ƏHMƏD, ÇİTA FƏXRƏT, BİR DƏ MƏN

Çaykənd əhalisi meşəlikdən qış mövsümündə yandırmaq üçün yanacaq hazırlayıllar. Meşədən odun hazırramax işinə payız fəslində başlıyıllar. Bu məqsədlə üç yoldaş: Çita Fəxrət, Tırtad Hacı və Keçəl Əhməd meşəyə gedillər.

Bular meşənin sıxlığında odun doğruyuf hazırrıyıllar. Səs-küyə meşə işçisi Alxan Kərimov gəlif burya çıxır. Odun hazırrayannar Alxanı süfrəyə də'vət edillər. Ancax Alxan əyləşmir. O, deyir kin, direktor aşağıda – yolda məni gözdüyür. Səs-küyə gəlif. Məni göndərdi ki, get gör kimdi, tut bura gətir. Mən dayana bilmirəm, tezcə ora qa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yıtmalıyam. Alxan tələsik meşə təsərrüfatının direktoru Aftandilin yanına getdi.

Bu xəbər odun hazırrayannarı qorxuya salır, süfrəni tələsik yığışdırıf burdan uzaxlaşıllar.

Alxan onnarı aldatmışdı. Onnarın qorxuya düşüf meşədən qaçmalarını, süfrəni yarımçıx yığışdırmalarını gəlif kənd şairi Salehə təfsilatınnan mə'lumat verir. Şair Salehə də belə məzəli əhvalat lazımıydı. Alxanın mə'lumtını diqqətnən dinliyən şair görək hadisəni nejə qələmə alajax. Bizdən deməkdi, sizdən eşitmək:

Biz üç yoldaş oluf mindik maşına,
Keçəl Əhməd, Çita Fəxrət, bir də mən.
Məskən saldıq Fıstıqlının qaşına,
Tırtad Hajı, Keçəl Əhməd, bir də mən.

Bədən alışarmı, oda düşməmiş?
Maşın tərpənərmi, xoda düşməmiş?
Əl çəkərmi meşədən suda düşməmiş?
Çita Fəxrət, Tırtad Hajı, bir də mən.

Alxan gəldi bu xəbəri verməyə,
Majal tapmadıq odunnarı bölməyə.
Deşik gəzdik hər üçümüz girməyə,
Keçəl Əhməd, Çita Fəxrət, bir də mən.

Aradan bir neçə gün keçmiş kənddə olan toy şənniyində bir sıra cavannar həmin hadisəni xornan məclis iştirakçılarına çatdırdılar. Söz ağızdan çıxıf bütün Qaraqoyunnu dərəsinin kənddərnə yayıldı.

## ÖZ MEYVƏMDƏNDİ

Uzax kənddən gələn bir seyid həmişə Sayad müəllimə qonaq olurdu. Qonaq hər il payız fəslində alma-armud yığılan vaxt gələrdi. Sayad müəllim ona bir alma ağacı da pay demişdi. Elə olur ki, həmən il alma ağacı quruyur. Sayad müəllim indi də başqasını nişanlıyır, bu ağac da quruyur. Sayad müəllim görür kün, belə getsə bağ tamam quruyub qurtarajax...

Bu il bağı yaxşı məhsul gətirmişdi. Sayad müəllim qonağı bağa gətirmədi. Evdə ləzzətli yeməyə qonağ elədi. Yeməyin şiddətli vaxtında



üzünü seyidə tutuf dedi:

- Ay seyid, cəddinə qurvan olum, arax içmək haramdımı?

Seyid müəllimə cavab verdi:

- Əlbəttə, haramdı.

- Bir sualım da var.

- Buyur, görüm nə deyirsən?

- Cəddinə qurban olum, bax öz bağımdan təmiz alma və gavalıları öz əlimlə təmiz-təmiz boçkalara doğrayıb tökür, əzirəm. Bir-iki aydan sonra da özüm bu təmiz əllərimlə, bax bu təmiz qazanımda qaynadır, arax süzürəm. Bax bu haramdımı?

Seyid Sayad müəllimin tez-tez təkrarladığı "təmiz" sözünü, "öz bağımdandı" sözünü eşidəndə dedi:

- Sayad müəllim, dediyin düzdüsə, aldığın məhsul halaldı.

Sayad müəllim:

- Ay cəddinə qurban olum, onda gəl bir vuraq.

Bu sözdən seyid dik atıldı və e'tiraz etdi. Səhər açılar-açılmaz seyid Sayad müəllimin evini tərk etdi və bir daha geri dönmədi.

## ZİYADDININ "HƏKİMLİYİ"

Qaraqoyunnu dərəsində yeganə həkimxana Çaykənd kəndində idi. Bu həkimxanada Xələtyan addı bir həkim işliyirdi. O, adamlarla çox kobud rəftar edirdi, onnarı incidirdi. Kənd adamları Xələtyandan çox narazıydılar. Elə olur kun, bir gün Xələtyan xəstələnir. Bir-iki gün həkim od içində yanır, nə dərman qəbul edirsə də, xeyir vermir.

Bunu eşidən Dəli Ziyaddın onun yanına gəlir, vəziyyəti ilə tanış olannan sonra deyir:

- Xələtyan, gəlsənə səni öz türkaçarəmizlə müalicə edək. Həkim razı olur. Dəli Ziyaddın samanı bişirib Xələtyanın bədəninə bükür, onu bərk-bərk sarıyır. Həm də tapşırırkın, bir sutka açma.

Səhər açılır, Dilicannan gələn həkim Bahadurov Xələtyanın bədənindəki sarığı görüb təəccüb edib, soruşur:

- Həkim, bu nə həngamədi, samanın dərman olmasını kim icad etdi?

Xələtyan sağaldı, amma onunla rastlaşan hər bir adam onu güləgülə qarşıladı. O, belə vəziyyətdə kənddən uzaxlaşdı. Kənd adamları deyirdilər:

- Dəli Ziyaddının saman müalicəsi olmasaydı, Xələtyan buradan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

getməzdi.

## HAMBALOĞLU VƏ PƏRZAD "HƏKİM"

Hambaloğlu İsə özünü güj-bəla ilə ora, həkim Pərzad arvadın yanına salır.

- Ay mamam qızı, amandı, kömək elə, qarnım cırılır, partdayıram.

Pərzad arvad Hambaloğlunun köpmüş qarnını sığallayıf, soruşur:

- Ay dayım oğlu, nə yeyifsən?

Hambaloğlu İsə zorla, hıqqana-hıqqana deer:

- Ay mamam qızı, nə var idikin, nə yeyəm: bir baydan koramazına bir xamralı doğrayıf yedim. Sonra da Məsmə bajın yarpızlı doyğa pişirmişdi, bir baydan da onnan horradım. Əşşi, bir şey yeməmişəm, hə, bir də bir xamralının yağ döyməncini yemişəm.

Pərzad arvadı gülmək tutdu:

- Ay dayım oğlu, sənin yeməyin adam yeməyinə oxşamır. Sən özünü tə'cili mal həkiminin yanına sal, mən sənə əlac edə bilmərəm.

## ÖPƏRİK, DAYNA

Vəhmiş addı bir əryən oğlanı yenicə toy edib, evləndirmişdilər. Vəhmiş təzə gəlinin yanında qalmır, onunla əylənmir, öz işində-güjündə olur. Bir gün belə, beş gün belə, gəlin dözə bilməyib əhvalatı qaynanasına söyləyir. Vəhmişin anası onu danlayır:

- A canın yansın, gəlini niyə dindirmirsən? Niyə onnan əylənmirsən?

Vəhmiş soruşur kun, ay ana, neyləməliyəm kin?

- Ayə, a heyvan, nejə neyləməliyəm, belə öpbəli, dindirməli, məşğul olmalısan.

- Eh, mən də deyirəm, anam nə deer, öpərik, oynıyarıx dayna, gəlin qaçmır ha, qış var, yaz var.

Bu əhvalat kəndin pütün cavannarına çatır, Vəhmişi görəndə onnar deerlər:

- Öpərik, dayna.

Yeni evlənən oğlannara deərmişlər:

- Ə, ə, Vəhmiş kimi eləmə haa...



## O MƏNİM BOYNUMA

Arazalı mal-qaranı saxlamax üçün bir mal damı tikmək isdiyir. Usda çağırıf ölçdürür. Arazalı ölçülmüş yerrərin torpağını çıxarır. Ona deerlər kin, ortanın torpağını damı dirəkləyib, pərdələyib döşəyənnən sonra çıxardarsan. Arazalı belə də edir. Damı dirəkləyib, milləri düzür, pərdələyib qurtarır. Bu işi qurtarannan sonra damın içindəki torpağı qazıb atmağa başdıyır. Xatalı kimi damın içinnən nəhəng bir qaya çıxır. Arazalı nə edəcəyini bilmir. Bu işi yaxın qonşusu Bilala danışır. Bilal iş yerinə gəlir. Nəhəng daşa baxıf, Arazalıya deer:

- Kefini pozma, bu nəhəng daşı dağıdıb, puç eləmək mənim boynuma. Arazalı Bilala minnətdar olduğunu bildirir kin, elə indi başdasın. Bilal ammunal gətirir, şunur və katul gətirif daşın üsdündə yerləşdirir. Ammunal qurğusunun üsdünü palçıxla örtür, şunura od verir və hamıya damın arxasınnan qaçmağı tapşırır. Bir neçə dəqiqədən sonra güclü partlayış damın döşəmmiş pərdilərini göyə sovurur. Yaxındakı qonşular partlayış yerinə axışıf gəlirlər. Yeni tikilmiş damın pərdi və dirəklərinin yaxındakı gölün üzündə üzməsini görüf, gülüşüllər. Diksinmiş Arazalı Bilala deer:

- Ə, a Bilal, sən nə iş gördün, bə tikili pütün dağıldı.

- A kişi, mən daşı parddatmalıydım, onu da partdaddım, mənim pərdi, dirəklə nə işim var idi.

Bu iş kənddə böyük atalar sözünə çevrildi. Hər yeni tikinti aparılanda ev sahiblərinə kənd ağsaqqalları deyirdilər:

- Kömək lazım olsa, Bilalı aparın.

## İKİ EHSANNAN DA OLDUQ

1918-1920-ci illərin qaçqınnığınnan Qaraqoyunnu dərəsinin kənddəri yenicə yurd-yuvalarına qayıtmışdılar. Əhali çox kasıf dolanırdı. Adamların güzaranı pis keçirdi. Yoxsul və əlacsız kəndçilər az-maz hüzr yerində ət, halva yeyirdilər. Bu illərdə ehsanı ölünün qırxında verirdilər.

Çaykənddi Hasan və Alı eşiddilər kin, sabah həm Qaraçayda, həm də Gölkənddə ehsan verilir. Bunnar sözü bir yerə qoyullarkın, ikisinə də gedək. Hasan və Alı əvvəlcə uzaxda olan Gölkəndə gedillər, am-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ma bədbəxdikdən burada ehsan verilib qurtarıfbış. Onnar tələsik qaçaraq Qaraçay kəndinə qayıdıllar. Burada da ehsan yeyilif qurtarıfbış. Hasan və Alı iki ehsanın heş birinnən yeyə bilmirrər. Bunu eşidənnər onnara: - "ay iki ehsan yeənnər" -deyə şəvədə edillər.

## İNANMIRSAN, KƏRTƏ BAX

Qara Əhməd Malağanın qoyun sürüsünü otarırdı. İrəli əyamı yazıpozu yoxuydu. Malağan qoyunnarın hesabını bir neçə ağajdan kərtar etmişdi. Malağan həmən kənddə ağajdarı evin tavanında gizləmişdi. Qara Əhməd çox ayıq adam idi. Gözü Malağanın qoyunnarında qalmışdı. Bir gün Qara Əhməd Malağanın qoyunnan on başın seçif bazarda satır. Sonra fürsət deyif Malağanın evinin tavanında olan ağajdan on kərt kəsir, günnər keçir, Qara Əhməd daha qoyuna gedəsi olmur. Malağana deer kin, mənim hesabımı kəs, mənim evim sahibsizdi, evə qayıdıram.

Xülasə, Malağan qoyunnarı sayıf, başqa çovana verərkən on başı əysik olur. Malağan Qara Əhməddən qoyunnarı tələb edir. Qara Əhməd Malağana deer kin, a xozeyin, mən sənin malına haram qatmaram. Mənə inanmırsan, gətir öz kərtinə bax, Malağan kərtti ağacı gətirir. Hesablayıllar kın, Qara Əhməd düz danışır. Bu hadisədən sonra Qara Əhmədə rast gələnnər gülə-gülə "inanmırsan kərtə bax"- deyib keçirrər. Bu məsəl Qaraqoyunnu dərəsinin kənddərində belə yaranmışdı.

## TÜFƏNG OĞRUSU

Qara Əhməd Motvey Malağannan dostuydu. Onun evində olan mavzer tüfəng olduğunu, hətta onun yerini də bilir. Qara Əhməd Malağanın tüfəngini oğurramax isdiyir, amma fırsat tapa bilmir. Qara Əhməd bir gecə Matvey Malağana qonaq olur. Yeyib-içillər, Qara Əhməd kürsünün üsdündə yatası olur. Qara Əhməd fırsatdan istifadə edib, Malağanı yuxuya verif, tüəngi oğurruyuf, aparıf Gözəldərədə gizlədib, gejə ikən yenə də yerinə girir. Səhər açılar-açılmaz Malağan tüfəngi yoxluyur. Onun yerində olmadığını görür. Bunu Qara Əhməd apardı deyə kürsüyə tərəf gəlir, Qara Əhmədin ağır yuxuda olduğunu görüf, təəccüflənir. Qara Əhmədi qaldırıf, soruşur:



- Ehey, qara pişik, tüfəngi neynədin?

Qara Əhməd gözünü oxalaya-oxalaya Malağana əl-aman eliyir kin, ay znakom, tüfəng mənim nəyimə lazımdı, bə mən görürsən ki, yerimnən tərpənməmişəm. Bəli, Qara Əhməd belə qoçaq adam idi.

## QARA ƏHMƏD ÖKÜZÜ OĞURRUYUR

Qara Əhmədin evi şose yolunun qırağında idi. Dağa-arana köç bu yolnan gedif-gəlirdi. Qara Əhməd bir gün əliboş qalmışdı, yaman vurnuxurdu. Bir də baxdı kın, arannan bir dördtəkər harava gəlir. Haravanı sürən yaman yorulmuşdu. Yuxulu-yuxulu sürürdü. Qara Əhmədin baxtı açılmışdı. Dəəllər "kor yapalağın qısmatını Allah qapısında verir". Qara Əhmədin gözü haravadakı kök öküzdərdə qalmışdı. Tez cılız Quluya xavar etdi. İkisi də haravanın qaraltısınnan gedillər. Qara Əhməd deer kin, mən yuxarkı öküzü açıf, boyunduruğa girəjəm. Sən tezcə öküzü meşəyə sür. Qara Əhməd beləcənə də edir; enişə düşən haravanı Qara Əhməd aparır, yoxuşa dirənəndə qoyub qaçır.

## OĞLUN ÖLSÜN, AY KÜRƏN

1918-ci ilin yaz ayı idi. Türk əsgərləri kənddə yerrəşmişdi. Onnarın əsas məqsədi azərbaycanlıları ermənnərdən müdafiə etmək idi. Türk qoşunnarına Alı çoyuş addı birisi başçılıq edirdi. Alı çoyuş kəndin ortasında "Zayet" deyilən binada yerləşmişdi. O, həm də kənd adamlarına nəzarət edirdi. Alı çoyuşa xavar verillər kin, Qara Əhməddə çoxlu patron var. Alı çoyuş Qara Əhmədi çağırttırıb, deer kin, güllələri gətir, təhvil ver. Qara Əhməd and-aman eliyirkin, məndə güllə yoxdu. Alı çoyuş Qara Əhmədi zopalamağa başdıyır. Elə bu zaman kürən bayırdan Qara Əhmədin bağırtısına pəncərənin qarşısına gəlir. Qara Əhməd kürəni görüf, bağıra-bağıra deer:

- Oğlun ölsün, ay kürən, orta dirəyin yanında.

Alı çoyuş heş şey başa düşmür. Fasilə verir, kürən isə Qara Əhmədin evinə gedir, orta dirəyin yanını qazıb, güllələri aparır. Alı çoyuş genə də Qara Əhmədi çağırıf güllələri gətirməyi tələb edir. Qara Əhməd Alı çoyuşa yalvarır kin, evimdə güllə yoxdu. Alı çoyuş Qara Əhmədə "Qur'an"a and vermək isdəyir. Qara Əhməd "Qur'ana" əl basır kın,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mənim evimdə güllə yoxdu. Alı çoyuş evi gəzdirir, güllə tapmadığına görə, Qara Əhmədi buraxır. Qara Əhməd bu xatadan da belə qurtarır.

## BU Kİ, ÖZ DAĞARCIĞIMIZDI

Cılız Qulu çox çəpərsiz oğru idi. Oğurrux da hürriyət ilində bir dəb olmuşdu. Köhnə hökumət yıxılmış, təzəsi də hələ tam fəaliyyət göstərə bilmirdi, hərc-mərclik, oğurrux, yol kəsənnər, quldurlar yaman özbaşınalıq edirdilər. Amma cılız Qulu elə anadangəlmə oğru idi. Bu mansırrı tayfasında təkcə cılız Qulu oğruydu...

Xülasə, cılız Qulu hara getdisə də əlinə bir şey düşmədi. Yaman bikef hərrənirdi. Axşam düşdü, cılız Qulu gümanı gələn qapıları axtardı, genə bir şey ələ keçmədi. Evə əliboş gələn cılız Qulu öz damlarından bir dağarcıq un oğurruyuf, alaçığa gətirdi. Anası savax açılanda un dağarcığını alaçıxda görüf soruşdu kun, bunu kim gətirif? Cılız Qulu anasına dedi kin, mən oğurruyuf gətimişəm, haray salma. Anası gülərək dedi:

- Ay üsdünə su tökülsün, bu ki, öz dağarcığımız, öz unumuzdu.
- Ay ana, zərəl yoxdu, yenə evə əliboş gəlməkdən belə yaxşıdı.

## OĞRU NƏSİF

Oğru Nəsif Qaraqoyunnu dərəsində addı-sannı tayfadanıydı, amma yaman oğruymuş, həm də ulamçıymış.

Onun Qazax-Gəncə arasında çoxlu dosdarı da varıymış. Oğru Nəsif həm də yaman satıf hər şey gətirərmiş. Bir gün oğru Nəsif ölür. Dəmirri, Mehdilər tayfasının adamları oğru Nəsivin dəfninə axışıb gəlmişdilər. Ölünün dəfninə yaman adamlar yığılmışdı. Oğru Nəsivin dəfnində tanımadıqları yad adamlar da çoxuydu, həm də kişilər yamanca ağlaşırdılar. Mehdi oğlu Əhməd əyyar adam idi. Odu kun, bu adamlardan soruşdu kun, siz hansı qohumlardansınız, nə ürək yanğısıynan ağlıyırsınız? Ağlıyannar dedilər kin, oğru Nəsiv bizə yaman borşduydu biz borcumuzu ağlıyırıx. Mehdi oğlu Əhməd dedi:

- Ağlıyın, ağrınız alım, ağlıyın! O, ölü gorvagor olsun kun, onu öz əzizlərinnən çox borşduları ağlamasın.

Mehdi oğlu Əhmədin bu sözləri Qaraqoyunnu dərəsində atalar məsəlinə çevrilif dillərdə gəzdi.



## O, TƏKCƏ SİZİNMİ PARTİYANIZDI?

Rayon torpaq şö'bəsinin müdiri İdris Sadıqovun qılıncının dalı-qavağı kəsən vaxtıydı. Kəhər ata minif kənddərə gələndə onaçılanı hamı görsün deyə geyiminin üstünnən bağlardı. Hamıynan əda ilə danışardı.

Bir gün kənd camaatını kluba toplayıf iclas keçirirdi. Həmişəki kimi Sadıqov yenə də odlu-alovlu danışırdı: bizim partiya taxıl isdəyir - verməliyik, bizim partiya ət isdəyir - verməliyik, bizim partiya yağ istəyir - verməliyik. Bax budu bizim partiyamız. Sonra oturannardan soruşur kun, kimin sualı var?

Bu zaman Mansır oğlu İsə deyir:

- A yoldaş Sadıqov, siz partiyaya tək yiyələnibsiniz, bu partiyadan bizə pay düşmürmü?

Sadıqov belindəki onaçılanı göstərif deer:

- A kişi, dəəsən başın üsdünə ağırrıx eliyir.

İsə kişi:

- Yox, a qadan alım, elə söz gəlişi deyirdim.

## MOXOK VERİN

Bir ayrım ermənnərə əsir düşüfmüş. Əsirrikdə muna yalnız moxok verillərmiş. Moxok yeməkdən kişi zara gəlifbiş. Günün üç öynəsində kişiyə moxok verillərmiş. Moxok arpa kütünnən hazırlanırmış. Günnərin bir günü kişi macal tapıf, əsirrikdən qaçır. O, yolda gedərkən görür kün, bir neçə uşax yığılıf bir iti döyüllər. Kişi soruşur kun, ayə, iti niyə döyürsünüz? Uşaxlar cavaf verillər kin, it oğurrux eliyif, onöyrə döyürük.

Əsirrikdən qaçan kişi deer:

- Ə, a qadanız alım, əliniz hayıfdı, əlinizi incitməyin, moxok verin, özü öləjək.

## İÇİM SƏNNƏN DƏ SOYUQDU

Rayon icraiyyə komitəsinin sədri kənddə kolxozun hesabat yığın-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cağını keçirirdi. Mə'ruzəçi danışıb qurtarannan sonra Quluyev iclasdakılara çıxış etməyi tapşırır. Heç kəs danışmaq istəmir. Axırda Quluyev üzünü Pəri addı qadına tutuf, deer:

- Ay mənim namusdu Pərim, qeyrətti Pərim, bilmirəmkin, sən düzünü danışajaxsan, danış görüm kolxozun işi necədi?

Pəri isə belə cavaf verir:

- Ey, kiri, a Quluyev kiri, nə danışıram əə.

- A qız, niyə danışmırsan?

- Belə içim sənnən də buzdu. Keçən il mənə dedin kin, Pəri bajı, yer şumla, sənə darı toxumu verəjəm. Yeri əkdirdin, yaman da toxum verdin. Yer hələ də qarala qaldı.

## BURDA KOLXOZ OLMAZ

Kolxozlaşmanın ilk illəriydi, bir nəfər cütnən (xış) yer şumlayırdı. O, mal-qarasının, öküzlərinin alnıf kolxoza birrəşməsinə razı döyülüydü. Ona yörə deerdi:

- Öküz uxarı, burda kolxoz olmaz.

## İKİSİNİ DƏ BİR EŞAK BASIF

Hasanalı qardaşı Qulamalıynan meşədə odun hazırrıyırdılar. Bu zaman burya Malağanlar da gəlib işdiyirmiş. Hasanalı Malağana deer:

- Ay Malağan, sənə bir sualım var, tapa bilsən, bax bu ağı sənə verəjəm. Malağan deer kin, de görüm, nə deersən?

- De görüm, biz bir-birimizin nəyiyik?

Malağan qardaşdarın üzünə baxıf deer:

- Elə, ikisini də bir eşak basıf.

Hasanalı Malağanı vurmax isdiyəndə Qulaməli qavağına keçif qoymur:

- A qardaş, özün-özünə söz dedirdirsən, Malağanın günahı nədi?

## Ə, KƏSİN, GÜN QIZIF

Yayın isti günüydü. Qurvan müəllim qardaşlarıynan Mə'dən qayasında daş kəsillərdi. Müəllimin qardaşlarının üçü də keçəliydi. Bir az kənarda başqa həmyerliləri də daş kəsirdilər. Günorta vaxtı gün bərk



qızdı, müəllimin qardaşdarı özdərini kölgəliyə verillər. Qonşu işdiyənnər görüllər kin, Qurvan müəllim eləcənə tək işdiyir. Bunnar sözləşillər kin, qoy Qurvan müəllimi çağıraq, görək başa düşəjəkmi?

Elə bu zaman qonşu işdiyənnərdən biri: - Ay Qurvan müəllim, deyə çağırır. Qurvan müəllim işi başa düşüf, deer:

- Ə, nədi, a başına dönüm, görmürsənmi gün qızıf?

Qonşuları gülmək tutur, doğurdan da müəllimsən, hər şeyi bilirsən, deyillər.

## NEÇƏ CÜR CANAVAR VAR?

Kommunistdər rayon mərkəzinə hesabat seçki yığıncağına toplaşmışdılar. Kolxoz sədri Qurvan müəllim fasilədə rayon milis şö'bə rəisi və prokurorla söhbət edirdi. Kənardan bunu görən kolxoz sədri Ohan yanındakılara deer kin, ə, bu Qurvan kolxozun qoyunnarnı qırdı, qutardı. Bunun heç kefinə də deyil. Görün rəislə, prokurorla nə səmimi söhbət edir. Söz Qurvan müəllimə çatır, dərhal Ohanı yanna çağırıf, belə bir sual verir:

- Ohan, neçə cür canavar var?

- Ohan cavaf verir kin, bilmirəm.

Qurvan müəllim Ohanı başa salır kın, canavarrar iki cür olur: biri tək gəzən, tək yeyən- yalquzaq. Biri də yoldaşlarıynan gəzən - çoxquzaq. Bax sən yalquzaxsan, kolxoz əmlakını tək yediyün üçün səni tez-tez yoxlayır və incidirrər, mənsə çoxlux canavaram, kolxoz mülkünü yoldaşlarnan yediyim üçün mənim kefimə dəymirrər. Eşidənnər Ohana dedilər:

- Dasov, xırov, Qurvan uddu.

Ohan qızarıf, uzaxlaşdı.

## NƏVİİ AXTAREN

Kolxoz illəriydi, mal-qara bir yerdə saxlanır, qoyun-quzular bir yerdə otarılır, saman, ot da bir yerə yığılırdı. Qış vaxdıydı, maldarrar samanı səvətlərə dolduruf malın axurrarına töküllərdi. Abbas kişi, Nəvi də mala baxırdılar. Mal-qaranın axşam yemi idi, maldarrar samanı səvətlərə dolduruf malın axurrarna töküllərdi. Abbas kişi ilə Nəvi də mala baxırdılar. Abbas və Nəvi səvətlərini götürüf saman tayasının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yanna gəldilər. Samanı deşif səvətlərinə doldurdular. Malabaxan arvaddar da taanın o biri tərəfinnən saman aparıllardı. Birdən saman uşdu, Abbasnan Nəvi samanın altda qaldılar. Camaata hay tüşdü, hamı əli yavalı saman taasının yanna gəlif samanı daramağa başdadılar. Bu zaman samanın altında qalan Abbas kişinin səsi eşidildi:

- Ayə, mən salamatam, Nəvii axdaren.

Adamlar hər ikisini samanın altınnan salamat çıxartdılar. Sonralar Abbas kişini hər görəndə dəərdilər:

- Ə, mən salamatam, Nəvii axdaren.

## ÖZÜNƏ DƏ BORCUM VAR

Kasıflığın üzü qara olsun, adamın üzünü qara eliyir. Qəmbər kişinin kasıf vaxdıydı, uşaxları da çoxuydu, dolanmadan düşmüşdü. Borşnan dolanırdı, kimidən pul alır, kimidən taxıl alıf uşaxları dolandırırdı. Nəxərtən borc almışdı. Birini də qaytarmamışdı. Kişi borcun əlinnən itif batmışdı. Qaşı-qabağı açılmırdı. Bir gün qonşusu gəlif Qəmbər kişini axdarır. Qəmbər arvadınnan soruşur kun, ağız, ona da borcumuz varmı? Arvad deer kin, yoxdu. Qonşu içəri gəlif əhvalını soruşur. Qəmbər kişi:

- Allah kəssin mənim dolanmamı, a qonşu, borc xirtəyimə çatıf, borcun əlinnən başımı götürüf qaşmalı olmuşam.

Qonşusu ona ürək-dirək verif deerkin, a qonşu, Allah kərimdir, qorxma düzələr.

Qəmbər kişi deer kin, ə Kərimin öyü yıxılsın onun, özünə də borcum var.

## VƏ YAĞ HANI?

Qara İbrəhim kolxozçulardan yağ yığırdı. Şura hökumətinin kəsakəs vaxdıydı, hər ailə başçısınnan 48 kiloqram ət, 9 kiloqram yağ, 2 dəri, 150 manat subay pulu, 300-350 manat təsərrüfat vergisi, könüllü vergi və sairə. Əhalinin də çox kasıf vaxdıydı, nalox alannar da yaman insafsız adamlarıydı. Qara İbrəhimin də əzazıllığı hamıya bəlliydi. Mikeyl kişi bir sərniş yağ gətirif Qara İbrəhimə təfil verif deer:

- Ay İbrəhim, çekini verirsənmi, neçə kiloqram oldu?

Qara İbrəhim qaş-gözünü turşuduf kişiyə deer kin, ə, buki sərnişdi,



bə yağ hanı? Mikeyl kişi fağır-fağır İbrəhimin üzünə baxıf deer:

- Ə, ay İbrəhim, insafın olsun, yağı indijə gətirmədimmi?

- Ayə, a Mikeyl sənin yağın oldu 4 kiloqram, sərnicin də oldu 4 kiloqram yarım, deməli sən yarım kilo borcdu qalırsan.

- Ə, a İbrəhim, sərnic yağdan ağır gəldi, insafın yoxdumu?

İbrəhim:

- Ə, indi işin-güjün yoxdu, indi də duruf Şura hökumətinin işçisinə şər atırsan?

Mikeyl kişi səsəsiz-səmirsiz suyu süzülə-süzülə evə tərəf getdi. Bu hadisə də sonralar Qaraqoyunu dərəsində bir atalar misalına döndü. Qara İbrəhim sərnici yağdan ağır çəkdi.

## ƏHƏDƏ DƏ BİR FƏTİR, QƏHƏDƏ DƏ BİR FƏTİR

Əhədnən Qəhəd qardaşıydılar. Əhəd xırda, arıx, fərsiziydi, işə getmirdi. Qəhədiysə iri gövdəli, gejə-gündüz iş görən, çalışan bir cavanıydı. İllər çətin illəriydi, yoxsulluğuydu, hamı kimi kolxoz da kasıvıydı. Tarlada işdiyənnərə iş yerində çörək verillərdi. Çörək dəəndə hər bir işçiyə bir fətir verdilər, Qəhədə də. Qəhəd briqadirə baxıf dedi:

- Ay briqadir, sən bu bölgünü kimnən öyrənifsən, ay insafsız, Qəhədə də bir fətir, Əhədə də. Bax bu fətir mənim bir loxmamdı, deyif fətiri dürmələyif ağzına soxdu.

"Əhədə də bir fətir, Qəhədə də bir fətir“ kəlamı belə yaranıb.

## ÇOVAN DANIŞ, MÜƏLLİM, SUS

Kənd adamlarının qoyun-quzularını şəxsi bir çoban otarırdı. Bir gün müəllimlərdən birinin bir qoyunu itir müəllim çobana neçə dəfə xəbər verir ki, qoyunumu ya tap, ya da ödə. Çoban isə qulaqardına vurur, müəllimə əsaslı cavaf vermir, axırda müəllim çobanı məhkəməyə verir. Çobana çağırış vərəqi gələndə gedif məhkəmənin sədrin "görür". Məhkəmə iclası başlıyır, məhkəmə sədri ilk sözü müəllimə verir. Müəllim deer kin, qoyunumu çovanın qavağına qatmışam, itirif vermir. Mən indi qoyunumu tələb edirəm. Məhkəmənin sədri sözü çobana verir. O, bəyan edir ki, müəllim yalan danışır, mən onun qoyunnu otarmıram; müəllim dayana bilmir, məhkəmənin sədrinə bildirir kin, çovan yalan danışır. Məhkəmənin sədri isə:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Çovan danış, müəllim, sus.

Çovan danışığını davam etdirib buyurur kun, müəllimin şahidi varmıkın, mən həqiqətən onun qoyununu otarıram. Məhkəmənin sədri buyurur kun, yoxdu. Çovan deyir:

- Bəs, müəllim nəyə əsasən mənnən qoyun tələb edir.

Müəllim yenə də yerindən söz atır. Məhkəmənin sədri genə də deyir:

- Çovan danış, müəllim, sus.

Beləliklə, müəllimin iddiası əsassız sayılır, onun tələbi ödənilmir. Qaraqoyunnu dərəsində bu hadisə də atalar sözünə çevrildi, hamı tərəfinnən işləndi: "Çovan danış, müəllim sus".

## ÇOVANIN QƏZƏBİ

Yol ətrafında qoyun otaran bir çovan gördü kün, bir nəfər erməni xaç olan bir daşın qarşısında dayanıf ona səcdə edir. Yalvarır, tez-tez xaçı öpüb sitayiş edir. Çovanı qəzəb götürdü. Ayə, bu xınzır oğlu xınzır mənim torpağımda yaşaya-yaşaya, hələ də xaça sitayiş etsin. Çovan çomağını əlinə alıb erməninin yanına enir. Hirsli-hirsli xaçlı daşı qoparıb yerə salır, erməniyə məcbur edir ki, xaçı bula. Erməni yalvarır ki, elə qadası aldığım, bə bu bizim müqəddəs xaçımızdı. Bunu bulamaq olmaz axı. Çovan çomağı çəkib erməninin belinə bir-beş zollayır. O, ağrıya dözəmməyib, ha qadası öldürmə, elə sən deyəni edəcəyəm. Çovan əlini atıb şalvarını aşağı saldı, yenə çomağı çəkib məcbur etdi ki, di başla. Erməni əlacsız qalıb xaçın üzərinə oturub buladı. Bu xəbər ermənilərə çatdı, onu tapıb, tənbeh etdilər. Dedilər ki, sənə cəza verəcəyik. Erməni dedi:-

- Ya qadası, orda musurman mana cəza verir, burda da siz. İndi man hara gedim?

Dedilər, səni nə məcbur etdi ki, xaçı buladın? Hə, başınıza dönüm, qoyun deyim. Belə oldu. Mən xaça sitaiş edirdim, elə bu vaxt bir zalım çoban üsdümü kəsib emr etdi ki, xaçı bula.

Çovan idi, zalım idi.
Qabırğası qalın idi.
Çomaq idi, dalım idi,
Vurdu mana... sana
Qurban olum xaç-xaç,
Aç gözünü aç, aç

Bax belə oldu. Kim də olsa o çomağın qarşısında nə edə bilərdi?

## ÖLÜM DEMƏDİM HA?

Dünya görmüş bir qocadan soruşdular:

- Siz dünyagörmüş, dünyanın hər cür əzabına qatlaşan adamsınız. Sizdən öyrənmək istərdim.
- Ən çətin, ən ağır iş hansıdı?
- İnsanlar üçün ən ağır iş daş daşımaqdı. Buna görədir ki, çox yorğun adama deyirik, nə oluf, daş daşımayıbsan ha.
- Ay müdrük qoca, bəs kərənti çəkmək nejə?
- Ay canım, mən ağır işdən danışdım. Ölüm ha demədim.

## QOLLARI BİRİNDƏN, AYAQLARI BİRİNDƏN OLAN

Qonşu öz qızını qonşu arvaddan bir vedərə ayran gətirməyə göndərir. Qız gəlib qonşu arvadını haraylayıb, deyir:

- Ay keçəl, xondulu xala, anam deer ki, bir vedərə ayran versin.

Qadın qıza deer:

- Gəl apar, ay qolları birinnən, qışları birinnən olan.

Qız ayranı aparır və anasına deyir kin, ay ana, qonşu xala mənə dedi ki, "Gəl apar ay qolları birinnən, qışları birinnən olan!" Ay ana, bu nə sözdü, onu mənə başa salsana. Arvad başı alovlu özünü qonşuya çatdırıb, buyurur:

- Ay mürvətsiz, o nə sözdü, qıza deyibsən? Bir məni başa sal görüm o sözün mə’nası nədi?
- Ağız, mən nə pis söz demişəm, yəni qolları atadan, qıçları anasından olan gəl apar. Burda nə eyibli iş var ki? Qonşu ajıxlı gələn qonşusunu könlünü alıb, beləcə yola salır.

## İSDƏYİRƏM, ÖKÜZÜN BİRİNİ KƏSƏM

Yaz yenicə açılmışdı. Əkinçilər əkinə başlamışdılar. Tat Məmməd də bir boyun öküz cütlə yer əkirdi. Elə bu zaman tat Abbas bura gəlib çıxır. Tat Məmməd tat Abbasın ağlını yoxlamaq üçün cütə qoşduğu öküzlərdən birini göstərib deyir:

- Ay Abbas kişi, istəyirəm bu öküzlərdən birini kəsim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abbas kişi sevincək deyir:

- Ə, qadan alem, bir pay da bizə böl.

Tat Məmmədi gülmək tutur. Tat Abbas tat Məmmədin niyə güldüyünü soruşur. Tat Məmməd gülərək deer:

- Ə, bə sənin ağlın kəsirmi kin, əkinin belə vaxdı öküzü kəsmək olmaz?

## ÇIX GÖR YAĞIŞ YAĞIRMI?

Dünəndən yağan şıdırğı yağış Əliş kişinin əkin işini yarımçıq qoymuşdu. Gecə idi, aylə üzvləri yatmağa hazırraşırdılar. Əliş kişi yağışın yağmağınnan narahat idi. Oğluna buyurdu ki, oğul, bayıra çıx, gör yağış yağırmı?

Bu zaman oğul qapını açıb "Qızıl ho, Qızıl ho" deyə iti içəri çağırır. Əliş kişi, oğluna deyir:

- Ə, iti içəri niyə çağırırsan?

Fərsiz oğul cavab verir kin, ata, itin tükləri islanıf, deyəsən yağır.

Əliş kişi fərsiz oğlunun cavavına ağız buruf yatağına girir.



## NİYƏ BELƏ DEYİRİK?..

*Xalqımız uzun əsrlərdən bəri elə kəlamlar, elə ifadəli sözlər, deyimlər yaradıb ki, bu kimi sözlər dünyada heç nə, heç bir qüvvə onların bədii qüdrətini, məna və əhəmiyyətini qətiyyən azalda bilməyib. Əksinə zaman onların təsir imkanlarını və dəyərini qat-qat artırıb. Bu tarixi əbədiyyata qovuşduran, onlarda yaşadan mətləblərdir. Aqillərimiz bə'zən bir cümlə ilə elə geniş, elə ibrətamiz, mə'nalı ifadələr işlətmişlər ki, onu izah etmədən çox böyük mətləbləri anlamaq mümkün olur. Bu cür sözlərin hamısının özünəməxsus yaranma tarixi var. Bu deyimlər, mə'nalı ifadələr uzun müddət sınaqlardan çıxmış, müdriklik zirvəsinə ucalmışdır.*

## BALIQ BİLMƏZ, XALIQ BİLƏR

İnsan gərək hər hansı yaxşılığı edəndə onu başa qaxmıya. Atababalarımız öyrədiflər ki, birinə yaxşılıx eliyəndə o işin savavını Allahdan gözləmək lazımdı, yə'ni sən yaxşılıx elə, yaxşılıx elədiyin adam yaxşılığı bilməsə də buna qətiyyən əhəmiyyət vermə. Bircə onu düşünkün, hər yaxşılığın mükafatını Allah verir. Buna görə də belə deyirlər: sən balığı at dəryaya, balıx bilməz, Xaliq bilər.

## OĞRU ELƏ BAĞIRDI KIN...

Allah göstərməsin, bir də gördün adam quruca şərə düşdü. Oğurrux eliyən, haxsız davranan, yalançının, fırıldaqçının biri elə hücuma keşdi kin, görənnərin, eşidənnərin ayağı yerdən üzüldü. Həmin şəxsin elədiyi qələt bir yana dursun, qarşısındakına böhtan və iftira atmaxdan da çəkinmir. Belə yerdə deyillər: "Oğru elə bağırdı kin, doğrunun bağrı yarıldı".

## BOLLUCA DİLİN OLSUN...

Bu deyimin də mövzusu və məqsədi əvvəlkinə uyğundu. Hər hansı yaramaz iş görəni, yalannan ara vuranı, satqınlıx eliyəni ona aid şəxs tənbeh eliyəndə, elə dinir, elə dil tökürkün, doğru adam dediyinə peşiman olur. Ona görə belə yerdə deyillər: "Oğru ol, quldur ol, bolluca dilin olsun".



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## YALANÇININ YADDAŞI...

Yalançı hər dəfə bir yalan danışır. Özü də dünən danışdığının yalan olduğunu bildiyi üçün çalışırkın, tez unutsun. Ona görə də yadında bir şey saxlamaz. Belə olan halda biri qalxır "Sən dünən başqa şey danışmışdın" deyərsə, o bunu heç boynuna almaz. Deyərkin, xatırlamıram, yadıma düşmür. Ona görə də müdrik atalarımız belə deyir: "Yalançının yaddaşı olmaz" .

## MALXARA MƏSSƏF QORUMA

Malxarrı Gölkənd kəndində fağır, məzlum bir tayfadı. Bunnar heş kəsnən işi olmuyan, nə xeyirin nə şərin yerini bilməyən, təsifkeş olmayan, qonşunun hoyuna çatmayan bir tayfadılar. Bir gün bunnardan birini kənddə bir varrı ailənin uşağı döyür. Bunu görən başqa birisinin ona yazığı gəlir,onu döyəni, təhqir edəni dannıyır. Bu zaman döyülən şəxs də onu döyənin tərəfində durur və ona deyir kin, sənin nəyinə gərək, döyür yaxşı eliyir. Bunu görən kənd adamları belə deyillər: “Malxara məssəf qoruma“.

## VƏLƏNNİN ATI KİMİ...

Vələnni Gölkənddə məşhur tayfadı. Bu tayfanın nümayəndələrinnən biri də Vələndir. Vələnin yeddi oğlu varıymış, bir də bir atdarı. Atı yemləmək və suvarmax bunnarın heş birinin yadına düşməzmiş. Bir neçə gün at komada aj-susuz qalır. Kişi soruşanda yeddi oğlunun hamısı deyirkin, sulamışıx. Susuzluxdan, ajdıxdan at ölür. Hamı bunu bilir. Ona görə kənd adamları deyir: “Vələnninin atı kimi“.

## ÖZ GÖZÜNDƏ TİRİ GÖRMÜR...

Bizim əxlaqımızda başqalarının əleyhinə danışma, qeyvatını qırmax, qüsurunu açıf- ağartmax düzgün sayılmır. Çünki hamımızın qüsuru var. Amma dərd burasıdırkın, özü qüsur içində olduğu halda başqasının qüsurunu ürəkdən, utanıf-qızarmadan açıf söylüyür. Belələrinə haxlı olaraq deyillər: "Öz gözündə tiri görmür, özgənin gözündə tük seçir".



## BƏY DEDİYİN NƏDİ...

Bir şeyi əvvəlcə tə’rifləyif, sonra da mız qoyanda eşidib-bilən çaşıf qalır. Həm də belə adam yüksək mənsəb sahividisə, daha doğrusu, vəzifəlidirsə, demək, bəyənmiyə bilməzsən. Bu zaman belə kəlam yaranır:

- "Bəy dediyin nədi, bəyənmədiyin nədi?"

## KEÇƏL QIZI SAŞLI DEYƏ AXDARIR...

Əldən çıxan bir şeyi mataha mindirmək üçün adına cürbəcür şeylər qoşullar: ay belə gözəliydi, ay belə dəyərriydi, ay uzunuydu, köküydü və s. itmiş hər hansı şeyə uyğun olmayan tə’riflər deyillər. Bu münasibətlə aqillərimiz yaxşı deyiflər: "Keçəl qızı saşlı deyə axdarır".

## AĞZINNAN QUŞ TUTUR

Bu kəlam da ən çox işlədilən kəlamlardandır. Bajarıxlı, hətta özünnən güjdülərə qalib gələn, söznən, sözün sehrinnən qarşısındakına üstün gələn şəxslərə el arasında "qoçaq adamdı", "vuran-tutandı" kəlamları ilə yanaşı, həm də belə deyillər: "Ağzınnan quş tutur".

## İNANMIRSAN, KƏRTƏ BAX

Savadsızlığın hökm sürdüyü zaman, yazı-pozu bilmiyən, qoyunu çox adamlar qoyunun hesavını nazik uzun bir çuvuğu kərt-kərt eliyif qoyununun sayını orada qeyd edirdilər. Qoyun sahibi çovana pis baxanda, onun əməyini düz hesavlamıyanda istədiyi qədər kərtdən say kəsirdilər. Sahibkarnan hesavlaşanda sahibkara deyərdilər: "İnanmırsan, kərtə bax". Sahibkar da kərtdəri hesabladarmış, deməli hesav düzdür.

## BİR DAŞ ALTDA, BİR DAŞ ÜSTDƏ...

Bir adam hər hansı bir pis iş görürsə, ya oğurrux eliyərkən qəflətən ona rast gələn və onu görən adama iş görən adam belə deyir: "Bir daş altına qoy, bir daş üsdünə, qoy səsi çıxmasın".



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AĞZININ KƏSƏRİ YOXDU

Adamlar  sözü keşmiyən, göndərilmiş hər hansı işi yarıtmayana, söznən onu üstəliyən adamın cavavını verməyən fərsiz adama "Ağzının kəsəri yoxdu" deyəllər.

## QARĞA, MƏNDƏ QOZ VAR

Bir adama aid olmayan, başqa şəxsdər qarşılıxlı özdərinə aid məsələlər danışır, tələb edirlərsə, onu müdafiə edib "onnan bizdə də var, mən də kömək edə bilərəm" deyən adamlara aqillər haxlı olarax belə deyillər: "Qarğa, məndə qoz var".

## QƏMİŞ QOYMA

Xalq arasında bu məsələ də  çox işlədilir. Bu məsələ ən çox rəhbər şəxlərnən aparılan şərtdər, hesavlar zamanı üçüncü şəxsin həmin məsələyə öz iradını bildirənə rəhbərnən danışığa girən adam bu misalı çəkir: "Qəmiş qoyma".

## QULAĞI DARI DƏLİR

Bu ifadə qədimi mə’nasında deyil, yalnız birmə’nalı işlədilir. İki nəfər onnardan bir qədər aralı olan dosdları haqqında astadan onun qeybətini qırır və ya onun haqqında danışıllar. Bu zaman həmin şəxs onun haqqında danışannara belə deyir: "Deyəsən, mənnən danışırsınız". Danışannar  isə deyillər: "Deyəsən, qulağı darı dəlir".

## QURDU ULUYUF

Çox qədim mifik inamlarımızla səslənən bu ifadə Qaraqoyunnu ərazisində çox geniş yayılmışdır. Bir adamın baxtı açılanda, əli gətirəndə, ardıcıl olaraq xeyirnən qarşılaşanda, varrananda deyillər: "Qurdu uluyur".



## QUŞU QONMAQ

Bir adamın hər hansı bir adama sədaqəti, sevgisi məhəbbəti yaranırsa bu, çox zaman belə ifadə olunur: "Mənim ona quşum qondu".

## ÇARDAĞI YATDI

Adamların bir-birinə yumoristik mə’nada işlətdiyi ifadədi. Bir şəxsin evinə çox qonax gələndə ev sahibi zarafatnan deyir: "Desənə, kişinin çardağı yatdı".

## QUŞ QANADNAN UÇAR

Bu ifadə el arasında xalqı birriyə çağıran bir öyüd-nəsihət mə’nasında işlədilir. Böyüklərimiz bir-birini eşitmiyən, əlbir işdəmiyən, qarşı durmaya yol verən adamlara bu misalı çəkərək deyillər: "Quş qanadnan uçar".

## QUŞQUNU BOŞDU

Əslən Qaraqoyunlu dərəsinin kənddərində işlədilən ifadədi. Dediyinin üstündə durmuyan, prinsipsiz, oddu-alovlu e’tirazlarla çıxış eliyif, tez qızıf, tez soyuyana adamlara belə deyillər: "Quşqunu boşdu, dediyinə baxma, elimiyəjək" .

## QUYRUX DOĞDU

Qaraqoyunnu kənddərində avqustun ilk həftəsini quyruğun doğması günü addanır. “Quyruq doğdu“ ifadəsi yayın istisinin nisbətən soyuq hava ilə əvəz olunması mə’nasında işlədilir. Aqillərimiz təcrübədən keçiriflər ki, bu vaxt qoyun yağı donur. Ancaq xalq arasında bu ifadə "quyrux dondu" yox, "quyrux doğdu" kimi işlədilməkdədir.

## QUYRUĞU ƏLƏ VERMİR

Mə’cazi mə’nada işlədilən bu ifadə çətin işlə qarşılaşan, onun haqqında həmişə fürsət axtarıb onu yıxmağa çalışanlara qarşı ayıq, təd-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

birli olan adamlara belə deyillər: "O, hər zaman quyruğu ələ verməz".

## NUH-NƏVİDƏN QALIF

Bu qədim ifadə xalq arasında çox işlədilir. Qoja, yaşdı olan hər şeyə aid edilməkdədir. Onun yaşını soruşarkən belə deyillər: "Nuh-Nəvidən qalıf".

## ƏL ƏLİ YUYAR, ƏL DƏ ÜZÜ

Bu ifadə də el arasında çox işlənir. Mə'cazi mə'nada işlədilir. Əsas mə'nası birləşmiş, birgəliklə edilən kömək deməkdir. Aqillərimiz buna aid belə də deyillər: "Tək əldən səs çıxmaz", "Güc birlikdədir".

## USUVALININ SAVAĞINA DÖNDÜ

Qaraqoyunnuda  Usuvalı adında bir çovan olur. Kənd adamlarının qoyununu otarırmış. Hər qapıya gedəndə "Savax", "Savax" deyə qoyunnarı yığırmış. Kimnən nə alıfmış, kimə boşdu qalıfmışsa eləcənə "Savax", "Savax" vədəsinnən başqa heş bir cavabı olmurmuş. Sonralar borcunu savax-savağa salannara el arasında belə deyəllərmiş: "Eyy, bu Usuvalnın savağına döndü".

## BURNUNU SOXMA

Xalq arasında ən çox yayılmış ifadədi. Başqası qarşısında olan adamların  hər hansı iş haqqında mübahisə edəndə, razılıq olması mümkün olmuyan iş haqqında ziddiyyət olanda üçüncü şəxsin hadisəyə müdaxilə etməsi zamanı işlədilir. Bu ifadənin "sənnik deyil; sana aid deyil" kimi sinonimi də var.

## DÖNƏRGƏSİ DÖNÜF

Qaraqoyunnu kəndlərində çox işdənən ifadədir. Bu ifadə əvvəllər yaxşı dolanan, hər şeyə malik olan, heş kəsə möhtac olmuyan adamların birdən birə kasıflaması, tez-tez bədbəxt hadisələrnən rastdaşması zamanı işdədilir.



"Bədbəxtin dönərgəsi dönüf, işi rast gətirmir". Bu ifadənin "çardağı yatıf", "taleyi qara gəlif" kimi qarşılıqları da işlədilir.

## KƏLƏYİNİ KƏSMƏK

"Kələyini kəsmək", "kələyini kəsdi" ifadəsi qədimi ifadədir. Konkret mə'nası hədsiz dərəcədə incitmək, döymək, hətta öldürmək mə'nalarında işlədilir: "Dədəm Hasanın laf kələyini kəsdi", yə'ni çox döydü. Uşaxlar vuruşarkən də bu ifadə işlədilir: "Ayə, kələyini kəs". Ancax "Kələyi kəsilif" ifadəsi ölüb, həyatdan köçüb mə'nasında işlədilir.

## KƏLƏK GƏLMƏK

Qaraqoyunnu kənddərində bu ifadə bir mə'nada işlədilir: mana yalan satmax, aldatmax, mana fırıldaq gəlmək mə'nalarında işlədilir. Bu cür adamlara "kələkbaz", "tətələvaz", "fırıldaxçı" adamlar da deyilir.

## DİLOTU YEMƏK

Bu ifadə çox danışan, qarşısındakı şəxsin danışmasına imkan verməyən adamın iti sür'ətlə, fasilə vermədən danışığı zamanı işlədilir. Çox zaman qarşıdakı şəxs belə adamın danışığına cavaf olaraq deyir: "hüdüllədi tökdü", "dilotu yemisən, bir ara versənə".

## HÜRMƏLƏK QOYDUMU...

Bu ifadə Çaykənddə sovet sədri işləmiş çavuş Orucun işlətdiyi ifadədən götürülmüşdür. Oruc sovet sədri işləyərkən ona bir neçə qadın şikayətə gəlir. Bu zaman Hürmələk addı bir qadın da burada olur. Şikayətçi qadın şikayətini Oruc kişiyə söylüyür. Bu zaman Hürmələk arvad Oruc kişiyə məhəl qoymadan şikayətçinin şikayətinə müdaxilə edir. Şikayətçi Orucdan cavab istiyəndə Oruc kişi belə deyir: "Hürmələk qoydumu, fikrimi deyəm". Bu ifadə başqasının sözünü kəsən adama münasibəti bildirir: yə'ni, başqasının sözünü kəsmə, bu işə qarışma mə'nasında işlədilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DİL KİRƏSİ

Biri bir nəfərdən başqa bir şəxsə müəyyən bir sifarişin çatdırılmasını xahiş edir. Həmin şəxs razılaşmır kı, yox mən deyə bilmərəm. Bu zaman sifariş göndərmək istiyən adam ona belə deyir: "Ayə, niyə deyə bilməzsən, dilinnən dil kirəsimi isdiyirsən"?

## DİŞİNƏ VURMAQ

Çoxları tərəfinnən işlənən ifadədir, ancaq vəzifə möhtacları daha çox işlədillər. Vəzifəyə gələn yeni adamın bacarığını, qabiliyyətini yoxlamaq, öyrənmək üçün ona yaltaqlanan adamların işlətdiyi ifadədir: "Dişimə vurmuşam" -yə'ni sınamışam, öyrənmişəm.

## ÖZ ÇIRAĞIMI KEÇİRİF, SƏNİNKİNİ YANDIRRAM

Birisinin inəyi xəstəymiş, hər gecə çırağı yandıraraq inəyi yoxlamağa gedirmiş. Bir gün qarıya inək alıcısı gəlir. Kişi deyir ki, məndə satdıx inək var. Müştərilər soruşur ku, necə inəkdi. İnək satan deyir:

- Vallah, billah, öz çırağımı keçirif, səninkini yandırram.

İnək alan belə səmimi cavava görə inəyi alır. Bir neçə günnən sonra qayıdıf gəlir.

Kişiyə deyir:

- A kişi, məni niyə allatdın, sənin inəyin xəstəymiş.

İnək satan deyir:

- Ay Allah bəndəsi mən sana demədim "Öz çırağımı keçirif, səninkini yandırram", mən hər şeyi düz demişəm. Günah məni başa düşməyəndədi.

## SÜMÜYÜNÜ İT SÜMÜYÜNƏ CALAMAQ

Əslini, nəslini öyrənmədən ailə qurannara aid edilən ifadədi. Əslini, nəslini, ailəsini yaxınnan tanıyan bir ailənin qızını oğluna almağı məsləhət görənnərə cavaf olaraq işdədilir: "Mən sümüyümü it sümüyünə calamaram". Yaxud evlənən oğlun yeni gəlmiş gəlinnən tez aralanması zamanı da deyilir: Mən nə bilirdim bunların belə bəd xasiyyət olduğunu. Demə, "Sümüyümü it sümüyünə calamışam".



## SAQQALIM YOXDU, SÖZÜM KEÇMİR

Elimizdə, günümüzdə qədimdən bəri ağsaqqala hörmət edilif, sözü tutulufdu. Bu mə'nada ağsaqqal sözü həmişə müdrik kəlam kimi qəbul edilir, hamı ağsaqqala inanıf onun dediyinə əməl eliyif. Saçı ağarmayan, cavan adamın haqlı, xeyirli sözünə bə'zən əməl etmirlər. Edilmiyəndə belə deyilir: "Saqqalım yoxdu, sözüm keçmir".

## AYAĞINA YAZMAQ

Bu ifadə də canlı xalq dilində işlədilən ifadədi. Onun hesabına yazmax mə'nasında işlədilir. Kolxozlaşma dövründə işliyən adamların əmək gününə düşən naturadan bə'zən narazı qalan adamlar belə deyirdilər: "Hər kəsin borcunu öz ayağına yaz, mənim ayağımnan çıx, onun ayağına yaz. Bunun müqabilində bə'zən hesablamalardan razı qalmayanlar belə ifadə də işlədirlər: "Keçiyi keçi ayağınnan, qoyunu da qoyun ayağına".

## AYDAN ARI, SUDAN DURU

Bu ifadə təmiz, halal, pak mə'nasında işlədilir. Mə'cazi mə'nada işlədilən bu sözün ay və su ilə müqayisə edilməsi haqqında söhbət açılması təmizliyinə, düzlüyünə, paklığına işarədi. Özünün təmizdiyinə, düzdüyünə inanan adam özü haqqında belə işlədir: "Aydan arıyam, sudan duruyam". Bu ifadənin "un da vursan yapışmaz" sinonimi də var.

## MADYANNIQ ELƏMƏ...

Bu ifadə də mə'cazi mə'nadadır. Adətən qoçaq, mərd adamlara el arasında ər kişi, nər kişi, köhlən kişi deyilir. Ara vuran, namərd, haqsıza haqlı deyən kişilərə isə el arasında "madyan oğlu madyandı" deyirlər. Belə adama təklikdə deyirlər: "Madyannıq eləmə".

## QAN TULUĞU

Həmişə davakün, ara vuran, mərdiməzar, dava qızışdıran adamlara deyilir. Mə'cazi mə'nada işlədilən bu ifadə daha çox mənfi məna



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

daşıyır. Pis, riyakar adamlara xalqımız haqlı olaraq belə deyir: "Bunun ağzınnan qan iyi gəlir", "Bu başdan–başa qan tuluğudur", "Bu bir qannıx söz danışır".

## SAMAN ALTDA SU YERİDİR

Mə'cazi mə'nada işlədilən, elin sınağından çıxan sözdü. Bə'zi adamlar gizlincə olarax başqasının ünvanına çox ustalıxla böhtan qarışıx işdər görür. O, bu işləri özünü dost kimi göstərdiyi adamlara qarşı törədir. Belə adamlara haqlı olaraq "Saman altda su yeridir" ifadəsi işlədilir.

## SAMAN ÖZÜYÜN DEYİL, SAMANNIX KI ÖZÜYÜNDÜ

Qaraqoyunnu kənddərində yaşlı adamların işlətdiyi ifadədir. Xırmanda əzilmiş, döyülmüş kövşənə saman, saman saxlanan binaya isə samanlıq deyilir. Bu ifadə qarınqulu, tamahkar adamlara aid işlədilir. Tamahına bəsdi deməyif, qarnı götürmüyən, çox yeyən, çox içən, axırda yediyini qusan adamlara deyilir.

## QURUÇANAXLIQ ETMƏK

Heç bir iş görməyən, daimi iş yeri olmayan adamlar haqqında belə ifadə işlədirlər, "Heç, quruçanaxlıqdı" - yə'ni boşluqdur, xeyir gətirməyən işdir.

## GÖY ADAMDI

Bu ifadə inadcıl, dediyinnən dönməyən, özünnən razı olan adamlara deyilir. Həm də mənfi mə'nada işlədilir. O, "çox göy adamdı", söz eşidən deyil. Bu ifadədə işlədilən göy sözü göyərmək, göyərdi sözlərinin sinonimidir. Birisinin hirsi tutanda hirsdi-hirsdi dediyi sözlərə qarşı deyilən sözdür: "Göyərmə, niyə göyərirsən?"



## BƏXTİNƏ GÜN DOĞUF

Bu ifadə ailə həyatında uğurlar qazanan adamlar haqqında deyilir. Əvvəlləri kasıb dolanan, sonradan ardıcıl olaraq güzəranı yaxşı keçən şəxsdərə el arasında "Bəxtinə qün doğub" deyirlər.

## QAZAN AŞMASI

Qaraqoyunnu dərəsinin kənddərində toy mərasimlərində toyun iştirakçıları üçün xörək hazırranarkən xörəyin paylanması zamanı aşpaz tələb eliyir ki, qazanın qapağı açılmasın. Bəyin özü və ya yaxın qohumları nəmər verməlidilər ki, qazan açılıb xörək paylanılsın. Bu hadisə "qazan aşması" addanır.

## QAPI BASMASI

Toyun axırıncı günü gəlinin köçürülməsi zamanı gəlinin bəzəndiyi evdən çıxarmağa gələnnərə gəlini vermillər. Gəlinin soldışı qapıyı aşmır, qapının açılması üçün nəmər tələb edirlər. Buna, "qapı basması" - deyilir.

## BEŞİK KƏSMƏSİ

Müxtəlif ailələrin birində eyni vaxtda birinin oğlu o birisinin isə qızı olur. Bu zaman həmin ailə başçıları sözdəşillər ki, mənim qızımnan sənin oğlun beşik kəsməsi oldu. Onlar böyüyəndə ailə qurmalıdırlar. Buna "beşik kəsməsi" deyilir.

## DUZ GÖRMƏSİ

Bişirilən xörəyin duzunun normal olmasını yoxlamaq məqsədi ilə başqa bir şəxs belə bir ifadə işlədir: Bir qab xörək ver "duz görməsi"nə baxax, görək duzdudumu, duzsuzdumu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TAPMACALAR

Beş hərfli sözü var,
Əyrisi var, düzü var.
O nədir kin, bir ağzı,
İki dənə gözü var?
(Qayçı)

Axşam oldu, qırıldıx,
Səhər oldu, dirildik.
(Yuxu)

İki tülkü balası,
Üç anası,
Dörd atası,
Neçə eylər hamısı?
(Dörd)

Çöldə yox tağda bitir,
Tağı uzanır, aşır.
İçi qırmızı, çölü yaşıl,
Ləzzəti aləmə manşır.
(Qarpız)

Bir divarın dörd küncü,
Hər küncün üç üzü,
Üçü birinin üzü,
Bunnar neçədi, düzü?
(Dörd)

O yanı pərçim,
Bu yanı pərçim.
Vurnuxar içində,
Bir şah göyərçin.
(Göz)



Evimiz altı baxçalar,
Sürməli sandıxçalar.
Nənəmin bir donu var,
Gah geyər, gah boxçalar.
(Göy qurşağı)

Torpaxdan qida alır,
Evə yaraşıx salır.
O, hansı meyvədir kin,
Ağacda bir il qalır.
(Limon)

Yarpaxları ləçəkdi,
Həm gözəl, həm qəşəngdi.
O, min dənə məhsulun
Açdığı bir çiçəkdi.
(Günəbaxan)

Bir balaca mit daşı,
Dolanır dağı, daşı.
Özü çökəkdə bitif
Axtarmaynan sən başı.
(Göz)

Ay doğdu axtalandı,
Gün doğdu taxtalandı.
Bazara bir nər çıxdı,
Qırx yerdən noxtalandı.
(Qatar)

Atam-anam var mənim,
Sudan qanım var mənim.
Bir atadan olmuşam,
On iki anam var mənim.
(İl)

El bilir, bircə daşıx,
Parçalama dördcə daşıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir anadan olmuşux,
Düz on iki qardaşıx.
(İl)

Qara dağ, qara dağ,
Qara dağın altda aşıllar.
Şıllanın altda mışıllar,
Mışıllanın altda qımıllar.
(Qaş, göz, burun, ağız)

Dağdan gəlir dağ ala,
Qolları budağ ala.
Barmaqlarım deşiyinə,
Ağzı aralı qala.
(Qayçı)

İlim-ilim düyməsi,
İlim xatın düyməsi.
Hər kəs onu tapmasa,
Yeddi ilin xəsdəsi.
(Üzərrik)

O nədir kin, sayı bir,
Həftəsi bir, ayı bir.
Hamıdan hündürdədi,
İşığı bir, boyu bir.
(Günəş)

Göyün üzü damar-damar,
Yerə düşər halqa dəmir.
Qırılmasa yeyilməz,
Daş başına vur, gəmir.
(Qoz)

O, nədir kin, doymadım,
Yenə yedim, doymadım?
Yüz illik ömür sürdüm,



Bir gün sandım doymadım?
(Ömür-həyat)

Aşdı yola, qaşdı yola,
İki qardaş qaşdı yola.
Biri gedər, biri gələr,
Qalan gedər, gedən qalar.
(Ayaqlar)

Adam əlində,
Şeytan fe'lində.
Təkər ayaqlı,
Qaytan belində.
(Tərəzi)

Ana, mənə yağ göndər,
Əsirgəmə, var göndər.
Doğmamış düyədən,
Ərinməmiş yağ göndər.
(Bal)

Bağda üç qardaş,
Biri un satır,
Biri daş satır,
Biri də paltar.
(İydə)

Əynimdə kürküm qalın,
Ayaqlarımdı yalın.
Qışda yıxılıf yatıram,
Yazda oyanıf qalxıram.
(Ayı)

Mən meşədə gəzərəm,
Yamacları bəzərəm.
Başımda qoşa ağac,
Axşamları dincələrəm.
(Maral)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir torvam var,
İpdən döy qadası.
Əl ilə toxunmur,
İçində yüz balası.
(Hörümçək toru)

O nədir kin, yayma xatun,
Özü yerdə, teli göydə,
Qızı ellər gözəli,
Oğlu ellər dəlisi?
(Üzüm)

Tat tatı götürər,
Tat oğlunu götürər.
Oğlu yarpax götürər,
Qızı torpax götürər.
(Dam)

Mar mara, dar dara,
Beş öküz, bir dana.
(Soba-borular)

Xırdaja daşdar sanammaz,
Comuş gönü qatdammaz.
(Səma, ulduz)

Qara toyux, qarnı yarıx,
Kənar dur, a zatı qırıx.
(Buxarı)

Gedər yelvək, gələr yelvək,
Davanı üstə durar yelvək.
(Qapı)

Bişməsə, yeyilməz,
Dadlıdı, deyilməz.
(Qavax)



Aydan aya, gündən saya,
Hey yanır göydə yan-yana.
(Ulduz)

Meşə başında, qaya döşündə,
Yüzcə yaşında, hey deyər uşağam.
(Arı)

Boyu bir qarış, saqqalı iki qarış.
(Yun darağı)

Uzun sapax, dəyirmi papax.
(Günəbaxan)

O nədir kin, həm bilirsən, həm bilmirsən?
(Ölüm)

Atdım atana, dəydi kotana,
Dəryada balığa, düzdə ceyrana.
(Tüfəng)

Sarı saqqal, uzun hoqqar.
(Qarğıdalı)

Yarı ağac, yarı dəmir,
İnsaf etmir, yazıx demir.
Özü uzaxda durur,
Gördüyün vuruf yıxır.
(Tüfəng)

Ağaşdan oydular,
Kəndə koxa qoydular.
(Çanax)

Nə əti var, nə qanı,
Gəzir bütün dünyanı.
Heş kəsə ziyan verməz,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tabe edər insanı.
(Saat)

Əzizinəm, daş daşı,
Get bağlardan daş daşı.
Yediyin ələ gəlməz,
Yeməsə daş daşı.
(Dəyirman)

Eləmi, kəsən ağlar,
Kəsilən yox, kəsən ağlar.
Mənə dəymə, toxunma,
Kəsərsən, kəsən ağlar.
(Soğan)

Sənə  deyim bir beyit,
Kənar durma, a seyit.
Meyvədən nə meyvədi,
İçi sümük, çölü ət
(Xurma)

Qurması dəmirdən,
Köynəyi dəridən.
Halğası ağac,
Sarğısı qulac,
Vuranı əlidi,
Deməyin dəlidi.
(Dəf)

Ağaş başında yaşıl,
Meyvə deyil zəhərdi.
Daşlaşıf yeyiləndə,
Baldı, şəkərdi.
(Qoz)

Yaz olanda çıl-çılpaq,
Budağında  bala papaq.



Yay olanda bollanır
Tez bazara yollanır.
(Meyvə)

Bir qonaxdı otaxda,
Əyləşifdi yataxda.
Gejə oldu yatırıx,
Qonax hələ oyaxdı.
(Saat)

İnsafsız şəhər gördüm,
Dumansız da dağ gördüm.
Meşəsiz kənd, susuz göl,
Dayaz suyu ağ gördüm.
(Xəritə)

Daddı etdi aşımı,
Kiftəmi, bozbaşımı.
Bir tərəvəz doğradım,
Axıtdı göz yaşımı.
(Soğan)

Boyu özü boydaca,
Di gəl hamıdan uca.
(Papaq)

Yolda duruf bir qoca,
Qıçı özünnən uca.
(Çəyirtkə)

Yayda ələfdən doymaz,
Qışda çöp də qoymaz.
(Qoyun)

Saj üstündə çatdayar,
Ovuşdan-ovuca atdanar.
(Qovurğa)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yerdən çıxar ağappax,
Başında yumru papax.
(Göbələk)

Yerə düşər şaqqıldamaz,
Evə girər taqqıldamaz.
(Günəş işığı)

Atılar, düşər,
Qırmızı bişər.
(Qovurğa)

Cavannıxda ağsaqqal,
Qojalıxda qara saqqal.
(Qarğıdalı)

Su üstündə gümüş kəmər.
(Buz)

O nədi kin, bədəni var başı yox,
Evi torpaxdandı, daşı yox?
(Soxulcan)

Dərvişdər, ay dərvişdər,
Bu gün bizə gəlmişdər.
Oxərtən oynamışdar,
Xurd-xəşil olmuşdar.
(Düyü)

Mən atamın vəznəsiyəm,
Civinin xəznəsiyəm.
Atam mənim öz oğlum,
Mən onun yeznəsiyəm.
(Xoruz)

Aşıq, mən çoxusu,
Yə'qin bilmir çoxusu.



Aşıx bir dağa çıxdı,
Azı quru, çoxu su.
(Yer kürəsi)

Mən aşığam, azalmaz,
Xotkar payın az almaz.
Aşıx bir şamı görüf,
Yanar yağı azalmaz.
(Günəş)

Mən aşığam, aralar,
Fəzli kasad ar olar.
Aşıx bir hikmət gördü,
Yüz səs birdən aralar.
(Qulaq)

Adım vüqar rəmzidi,
Əyilməklə yox aram.
Bir hərfimi dəyişsən,
Xörəyə dad olaram.
(Dağ-yağ)

Özüm qışda gələrəm,
Üşüdərəm hər kəsi.
Gözəl ne'mət olaram,
Dəyişdirsən ilk səsi.
(Qar-nar)

Üç hərfdən ibarət,
Çalğı alətiyəm mən.
Bir səsimi dəyişsən,
Quş da ola bilərəm.
(Saz-qaz)

Adıma nifrət edir,
Uşaxlar , böyüklər də.
Bir səs artırsan mənə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sevilərəm hər yerdə.
(Oğru-doğru)

Həm hal şəkilçisiyəm,
Həm sözləri bağlaram.
Yaxşı diqqət etsəniz,
Çox misralarda varam.
(Da-də)

Formamız eyni cürdü,
Mə'namızsa bir deyil.
Gah isim tək işlənir,
Gah da oluruq fe'l.
(Yaz)

Yaxın sözlər olsax da,
Məzmunumuz deyil bir.
Birimiz hökm edəndə,
Birimiz şəfa verir.
(Hakim-həkim)

Aralıqda heyvan gəzər,
Səs-səmir kəndi bəzər.
(İt)

Adam deyil hey qaçır,
Meşə deyil, səs salır.
Torpağa o can verir,
Adamlara qan verir.
(Su)

Qanadı var uçmağa,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Odur kun, var hörməti.
(Arı)



Gəzir göydə qalaq-qalaq,
Gah tutqundu, gah rəngi ağ.
(Bulud)

Bostanda var bir arvad,
Paltarı qalaq-qalaq.
(Kələm)

İşarə tək işlənərəm,
Adımı tap düşün bir az.
Bir hərfi dəyişdirsən,
Mənsiz heç cür həyat olmaz.
(Bu-su)

Kökü əmək sözüdü,
Cəmisi yeddi səs var.
Hansı şəkilçi yazsan,
Fəxri ad alınar.
(Əməkdar)

Ot üst-üstə yığılır,
Sanki yumağa dönür.
Uzaqdan sarı-sarı,
Qayalar tək görünür.
(Taya)

Hansı evə getsəniz siz,
Məni orda görərsiniz.
Həvəs ilə aram-aram,
İşləyirəm səhər-axşam.
(Saat)

Qırmızı rəngində
Min bir dənim var.
Dənləri bükməyə
Ağdan kəfənim var.
(Nar)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoja deyil var saqqalı,
Gəzir həm dağı, aranı.
İki ağacı var başında,
Gah düzdə, gah ağac başında.
(Keçi)

İnsanda var qoşa,
Yarayır hər işə.
Açılanda ondu,
Büküləndə ondu.
(Əl)

Bir il əkirlər,
Yeddi il biçirlər.
(Yonca)

Göy üzündə düzülür,
Uzaxdan tez seçilir.
Gün çıxanda yox olur,
Gün batanda çox olur.
(Ulduz)

Çöldə deyil, evdədi,
Nə yerdə, nə göydədi.
Gedir, gəlir öz səmtinə,
Yenə öz yerindədi.
(Qapı)

Mavidi, bəyazdı,
Bəzəkli, bəzəksiz.
İpək tək gözəldi.
Tikilmir, kəsilmir,
İkilənmir, əksilmir.
(Göy-səma)

Canı var,qanı yox,
Bir sürüdü sanı yox.



Yer üstündə gəzər,
Yer altda gizlənər.
(Qarışqa)

Quşlara bax, quşa,
Daş, kəsəkdən ev qurur.
Onun qurduğu qurğu,
Me'marı utandırır.
(Qaranquş)

Bircə ağacam mən,
Min bir yarpağım var.
Bə'zən ajı, bə'zən şirin,
Bax belə novrağam mən.
(Kitaf)

Qarşıdan dörd qardaş gəlir:
Birinin beli bükülü,
Birinin əli bükülü,
Birinin əli güllü
Biri də dilli, felli.
(Fəsillər)

Əzizinəm, buz bağlar,
Qışda çaylar buz bağlar.
Deyin görək o nədi:
Od içində buz bağlar?
(Qaymaq)

Ata atlandı
Qayış qatlandı.
Qumu ələndi,
Suya bələndi.
(Un)

Əziziyəm, üsdədi,
Elə əlim üsdədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Meyvələrdən hasıdı:
Çərdəyi lap üsdədi?
(Çiyələk)

Mən aşığam bir bəndi,
Qızdar bağlar bir bəndi.
Bir baba bağban oldum,
Yüz arxı var, yüz bəndi.
(Bulaq)

Dağdan gəlir səkə-səkə,
Qara üzüm tökə-tökə.
(Keçi)

İçini kavav etdim,
Çölünü corav etdim.
İldə bir dəfə kəsdim,
Böyük bir savav etdim.
(Qurvannıx qoç)

Başa kələm bağlıyar,
Ürəyi vərəm bağlıyar.
Balasın başına yığar,
Sızıldaşıf ağlıyar.
(Samovar)

Qutu-qutu içində,
Qutu sandıq içində.
Babamın ağ yaylağı,
O da onun içində.
(Şavalıd)

Gedər-gələr ayağı yox,
Adam öldürər əli yox.
Geyimi var tikişi yox
Bala salar tükü yox.
(İlan)



Nar da var, nar da var,
Nardan şirin narda var?
Əl tutmaz, pıçax kəsməz,
Onnan şirin harda var?
(Yuxu)

Gejə-gündüz gedirəm,
Düz, əyri yolları mən.
Keçirəm kolları mən,
Yenə öz yerimdəyəm.
(Çay)

Bir quşum var canı yox,
Qanadı var, qanı yox.
Uçar uzaq ellərə,
Elə çoxdu sanı yox.
(Təyyarə)

Bostanda var bir arvat,
Paltar geyif qat-qat.
Hamı ona heyrandı,
Hey baxıllar mat-mat.
(Kələm)

Bir quşum var suda oynar,
Dönüf-dönüf birdə oynar.
Bir kişi gəlif ürküdər,
Qala qapısın bərkidər.
(Plovun bişməsi)

O nədirkin, qarnı toxdu,
Amma kölgəsi yoxdu?
(Quyu)

O nədirkin, dişdəri var
Uzun-uzun şişləri var
Hər gün də işləri var,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma heç nə yemir?
(Darax)

O nədirkin, başı var,
Tikilməmiş dağarcığı,
Üyüdülməmiş unu,
Yonulmamış daşı var?
(İydə)

Uzun qızın kölgəsi yox,
Müştərisi hamıdan çox.
Nə yatmır, nə dincəlmir,
İşlətməsən olmur.
(Çay)

Giləmi qapaqlaram,
Dayrəsin saçaxlaram.
Hər gün məni gəzdirir,
Mən onsuz olammaram.
(Göz)

Bağlaram, gedər, açaram – dayanar,
Yağlamasam tez-tez ağlayar.
Onu özümnən gəzdirərəm,
Torpağı, düzü əzdirərəm.
(Ayaqqabı)

Yerdən çıxar alaca,
Quyruğun dolar ağaca.
Qucaqlayıf dırmaşar,
Yoruluf yolda yatar.
(Sarmaşıx otu)

Xalanın dörd yanı bürcü bədəndi,
Yaşıl əkdim, qırmızı çıxdı.
Tap görüm o nədəndi?
(Xına)



Eləmi, yolu yoxdu,
Yolçunun yolu yoxdu.
Bir yol var kəndə gedir,
Bir kənd var, yolu yoxdu.
(Qəbristan)

Bir qollu çanağım var,
Qolunda xeyli bağı var.
Əl vuranda ağlıyır,
Sinəmizi dağlayır.
(Saz)

Əziziyəm, nədəndi,
Külfəsi kül bədəndi.
Kötüyünə od düşüf,
Onun odu nədəndi?
(Qəlyan)

Onun dörd qardaşı var,
Canı, sirdaşı var.
Biri yaşıl, biri al,
Biri sarı, biri ağ.
(Fəsillər)

Çoxluca quşum var,
Uçar havada hər yana.
Qanadı yox, dayana,
Torpax yetir hoyuna.
(Damcı)

Burda bir atım,
Qaçar, çapar hər yanı.
Nə əli var, nə ayağı,
Qırar qapı, bajanı.
(Külək)

Yarpağı bizdən üzərrər,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yığıf iflərə düzərrər.
Acı yarpax odda yanar,
Tüstüsü ağza axar.
(Tütün)

Yaşılca tağlarım var,
Sarı saçaxlarım var.
Barımı tez dərəllər,
Bazara göndərəllər.
(Xiyar)

Yarpaxlarım yaşıldı,
Ağ, sarı çiçəklərim.
Meyvələrim torpaxda,
Yeyəllər ağ otaxda.
(Kartof)

Bir tumdan cücərərəm,
Dörd ayda bar verərəm.
Meyvələr yekə-yekə,
Doğrallar tikə-tikə.
(Qarpız)

Kal olanda yeyəllər,
Yetişir, saralıram
Yeməyə yaramıram
Yığar, sandığa qoyallar.
(Xiyar)

Əl-ayağı bəstədi,
Qolları qəfəsdədi.
Nə yerdədi, nə göydə,
Çərxi-fələk üsdədi.
(Qapı, pəncərə)

Əzizim saçdan olsun,
Donu qumaşdan olsun.



Mənə bir silah verin,
Gülləsi daşdan olsun.
(Sapan)

Əzizim, bir anası,
Hərənin bir anası.
Quşdardan hansı quşdu,
Yüz bala, bir anası.
(Arı)

Öydə duruf bir kişi,
Anamnandı hər işi.
Təkərrəri yeriməz,
Olmasa da kirişi.
(Cəhrə)

Boz öküz gedər, gəlməz,
Qırmızı öküz yatar, durmaz.
(Tüstü, köz)

Altı haça, üstü haça,
İki üzük, iki qılça.
(Qayçı)

Hajılar haja gedər,
Cəhd edər gejə gedər.
Bir yumurta içində
Bir sürü cütə gedər.
(Nar)

İynəsi çox, tikəni yox,
Əti dərman, özü heyvan.
(Kirpi)

Əvvəl meşədə idi,
Bircə peşədə idi.
İndi yarax olufdu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bavama dayaq oluydu.
(Çəlik)

Ələk boyda üzü var,
Laf bolluja gözü var.
Ağzı yuxarı baxar,
Ağzınnan ayran axar.
(Aşsüzən)

Səmada bir xalı var,
Yeddijə qurşağı var.
Nə sərilir,nə qatdanır,
Onun öz halı var.
(Göy qurşağı)

Bir atım var dərində,
Arpa yeyər sərində.
Gejə-gündüz yol gedər,
Genə durar yerində.
(Dəyirman)

Alaca, hay alaca,
Yarpax gəldi yamaca.
Yarpaxdan ev tikdim,
Nə qapı qoydum, nə baja.
(İpək qurdu)

Dili iki, canı birdi,
Ya ağac, ya dəmirdi.
Hamı onu gəzdirir,
Ərzi-halın yazdırır.
(Qələm)

Külüngü yox, beli yox,
Yer qazır hamıdan çox.
(Ekskavator)



Dəmirdəndi gövdəsi,
Şüşədəndi giləsi.
Qolları da qısadı,
Ucadan gəlir səsi.
(Robot)

Bap-balaca cırtdandı,
Gəzdirmək çox asandı.
Nə simi var, nə teli,
Danışdırır hər eli.
(Mobil telefon)

Özü əkmir, özü biçir,
Götürüf dəni seçir.
Nə çörək yeyir,
Nə də su içir.
Quruda gəzir,
Sudan keçir.
(Kombayn)

Gejə yatar, günüz qalxar,
Günüz yatar, gejə qalxar.
Biri gejə, biri günüz
Hər tərəfə işıx saçar.
Bajı qardaşdan qaçar,
Qardaş da bajıdan.
(Ay-gün)

Maşınım var balaja,
Bəndlənifdi ağaca.
Nə nefti var, nə suyu,
İşləyir il uzunu.
(Saat)

Gündüz yatar, gejə otdar,
Gah hoppanar, gah da qaçar.
Kolda qabıx, bağda kələm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yeməyidi: bilir aləm.
(Dovşan)

Gəzir dağda, aranda,
Həm istidə, boranda.
Zirzəmidi məskəni,
Toyuxların düşməni.
(Tülkü)

Çox iti qaçışı var,
Dal-dal yatışı var.
Qoyunnarı məhv edir,
Mallarnan da işi var.
(Canavar)

Məskən salıf aranda,
Gəzir alatoranda.
Pusun, gedir ovuna,
Gejə adam yatanda.
(Çaqqal)

Qayalarda yataram,
Yamaclarda otlaram
Balalarım yanımda,
Adam görcək qaçaram.
(Kəklik)

Ağacların qoynunda,
Meşələrin kolunda,
İlin hər fəslində,
Puçur yeyif yataram.
(Qırqavul)

Çoxluca tikanım var,
Qoruyuram özümü.
Harda gördüm bar qorxunu
Topa döndərrəm özümü
(Kirpi)



Ağaşda dam qura ram,
Balımı uçuraram.
Heç kimə dəyməz xatam,
Sehirlidi öz atam.
(Alabaxta)

İki göz yatağım var,
Əyri olanda qaçır,
Düz olanda qaçır,
Düz olanda dayanır.
(Tərəzi)

Bir darca otağım var,
İçi yaman soyuxdu.
Birləşdirrəm cərayana,
Qızmır, yenə soyuxdu.
(Soyuducu)

Kol divində bitir,
İyi ətirdi, ətir.
Bədəni düz olsa da,
Boynu əyri bitir
(Bənövşə)

İki qardaş, iki qol,
Biri sağdı, biri sol.

Baş başda başcı olur.
Çöçələ də axır olur.
(Qollar)

Bir xallı kilimim var,
Nə ərişi, nə arğacı var,
Yunu suya qatallar,
Döyəcləyif atallar.
(Keçə)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anamın var sobası,
Odunu yox, nefti yox.
Yanır, olur istisi,
Niyə yoxdu tüstüsü?
(Elektrik sobası)

Çölü var, içi yox,
Təpik yeyir, suçu yox.
(Top)

Bizim evdə xalı var,
Xalının əhvalı var.
Göydə uçan bir quşun,
Ayağında nalı var.
(Ayı)

Çölü göndü, içi un,
Qoy ağzına, tezcə yum.
(İydə)

Alçaq dağdan qar yağar,
Qırağı taxta divar.
(Ələk)

Gedən leylək, gələn leylək,
Dabanı üsdə duran leylək.
Həm taxtadı, həm də dirək,
Gejə gedif yatan leylək.
(Qapı)

Evdən evə qızıl yaylıq.
(Od)

Göydə körpü var, yeddi rəngi var,
Kim tutsa, ətəyi qızıl olar.
(Göy qurşağı)



Qojalmayıfdı hələ,
Saqqalı var bir şələ.
Hələ desən, yeri də
Qabaxdadı sürüdə.
(Keçi)

İnsan deyil, nəfəsi var,
Pələng deyil, nə’rəsi var.
Yeriyir dəmir üstə,
Gah iti, gah ahəstə.
(Paravoz)

Ağacınnan tutmaq olmaz,
Ətrinnən doymaq olmaz.
(Qızılgül)

Özü yoxdu yanımda,
Sandığı var evimdə.
Baxıram sandığa,
Eşidirəm sözünü,
Görürəm lap özünü.
(Televizor)

Boyum ucadır qarğı tək,
Nazik boğma boyum sarı.
Yayda yaşıl dona girərəm,
Payızda özüm dənim sarı.
(Qarğıdalı)

Gözə görünmürəm mən
Zərbə enəndə göydən.
Dağıdılır dağ, dam, daş,
Gurultuma tablamaz,
Meşə, qaya, nə də daş.
(İldırım)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üç rəngli parçayam,
Müqəddəsdi adım.
Asılıram hər yerdə
Məktəbdə, idarələrdə.
(Bayrax)

Səkkizguşəli binayam,
Vətəndaşlara inamam.
Ölkəmizin rəmziyəm,
Adamların əziziyəm.
(Dövlət rəmzi-ulduz)

Yarım ayparayam,
Əllərdə gəzərəm.
Göylərdən ayrılıf,
Bayrağa düzüldüm.
(Bayrax rəmzi)

Ağacdan olan təkərəm,
İki dirəkdə səkərəm.
İpnən iypəni fırladıf,
Yunu çözüf ip edərəm.
(Cəhrə)

Səhərlər çıxır tezdən
Gəzir eli-obanı.
Bircə gün gejikəndə
Kədər bürüyür obanı.
(Günəş)

Özü aladır, yeri taladır,
Para-para, qəlbi qaradı.
(Lalə)

Uzaxdan vurullar qılıncı,
Burdan çıxır qığılcımı.
(Şimşək)



Balaları torvada
Gəzdirir hər bir yana.
Yolda torva cırılır,
Balaları dağılır.
(Hörümçək)

Çayın üsdündə yatır,
Böyük savaba çatır.
(Körpü)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BAYATILAR

Əzizinəm, qardaşdar,
Yağış yağar, qar başdar.
Nə qardaşsız bacı olsun,
Nə bajısız qardaşdar.

Eləmi yaxşı meylər,
Yaxşı söz, yaxşı meylər.
Qonşunu bədnam edən
Özünə yaxşımı eylər?

Qədəkçinin çörəyi,
Evi saxlar dirəyi.
Dizinin üstündədi,
Nanəcivin çörəyi.

Mən aşıx, dalda sına,
Qonşunu dalda sına.
Müxənnətə güvənif,
Sığınma daldasına.

Əzizim dağda qalar,
Dərd üsdə dağ da qalar.
Xəyalım ərşi gəzər,
Ürəyim dağda qalar.

Yar meyli xəlvətdəydi,
Dərd qəmi xəlvət əydi.
Yalanım xoşa gəldi,
Düz sözüm qəlbə dəydi.

Mən aşıx suda yanar,
Sel axar, su dayanar.
Dərdimdən halı olsa,
Alışar su da yanar.



Eləmi, üzə düşməz,
Birçəyin üzə düşməz.
Sirr var hamıya bəlli,
Fitnə var, üzə düşməz.

Mən aşığam dal-dala,
Qaç özünü daldala.
Cüt iyid ordu basar,
Əyər dursa dal-dala.

Eləmi, səngəridi,
Gün qarı ləng əridi.
Çox bilif, az danışmax
İyidin ləngəridi.

Ovçu maralı qoyma,
Gözü qaralı qoyma.
Canım sana sadağa,
Öldür, yaralı qoyma.

Əzizinəm, dur burdan,
İnci burdan, dürr burdan.
Məclisdə yerin tanı,
Deməsinnər dur burdan.

Dağlar, varlı dağlar,
Axar-baxarrı dağlar.
Ölməyəydim, görəydim,
Sizi, a qarrı dağlar.

Bu dağdan qaya getdi,
Üz tutdu, çaya getdi.
Məni sənnən ayırdı,
Günnərim zaya getdi.

Əzizim, hara ceyran?
Gözləri qara ceyran.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayıx gəz, ayıx dolan,
Düşərsən dara, ceyran.

Mən aşıx qara olmaz,
Aj olmaz, qara olmaz.
Eldən ayrı düşənin,
Dərdinə çara olmaz.

Budaxdan bar ələndi,
Dağlardan qar ələndi.
Ömrümün çağı getdi,
Başıma qar ələndi.

Cantəpə mənim olsun,
Yurdum, məskənim olsun.
Odur odum, ürəyim,
Düşmənə qənim olsun.

Qojalıx, binəvalıx,
Yoxdu daha ucalıx.
Mən səni axtarıram,
Harda qaldın, cavanlıx?

Dağ başı qala yeri,
Gəz, dolan qala yeri.
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

Yarım mənim oluncan,
Yada qənim oluncan.
Ömrümə Günəş doğar,
Vətən mənim oluncan.

Kəndimizin dağları,
Çiçək açıf bağları.
Heç kəs döndərə bilməz,



Ötüf keçən çağları.
Qardaşım qaladadı,
Payı piyaladadı.
Qır qalanın bürcünü,
Gör bajın haradadı?

Şəklimi qara çəkin,
Daşa, divara çəkin.
Elimnən doydum desəm,
Bədənnən dara çəkin.

"Ax" , "of" deyib ağlaram,
Qəm də yeyif ağlaram.
İllərdir qəriflikdə,
Vətən deyif ağlaram.

Eləmi, oda yansın,
Pərvanə oda yansın.
Bizi eldən ayıranı,
Od tutsun, oda yansın.

Bir günüm ildi, neylim?
İşim müşgüldü, neylim?
Əlim Vətənə çatmır,
Ürək üzüldü, neylim?!

Eləmi fənar gedər,
Od tutuf, yanar gedər.
Dar günümdə namərd dost,
Sıpıxıf kənar gedər.

Mən aşığam, qar gedə,
Yazda sına tar gedə.
Bitə nərgiz, bənövşə,
Gəlif burdan yar gedə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Otlaq, qorux qalıfdı,
Kolda morux qalıfdı.
Ellər köçüf yurdunnan,
Boynuburux qalıfdı.

Qartal göydə süzər hey,
Öz-özünə gəzər hey.
Varrı baxıf kasıva,
Ağızını büzər hey.

Bu ilmə, nə ilmədi,
Toxuyanı bilmədi.
Vətənnən ayrı düşdük,
Heç üzümüz gülmədi.

Bu dağlar, qəlbi dağlar,
İncitməz qəlbi dağlar.
Haqsızlığın sitəmi,
Üsdündə qəlbi dağlar.

Mən aşıx, ulu dağlar,
Bulaxlı, sulu dağlar.
Eli köçmüş divinnən,
Başında bulud ağlar.

Dumannı dağ olaydım,
Çiçəkli bağ olaydım.
Görəydim Vətəni mən,
Ölməyif sağ olaydım.

Qamətim yaya döndü,
Göz yaşım çaya döndü.
İtirdim gül Vətəni,
Ümidim zaya döndü.



Əziziyəm, ay mələr,
Bulud mələr, ay mələr.
Vətənnən ayrı düşən,
Vətən deyif, hey mələr.

Tüfəngdə qoşa güllə,
Açılar boşa güllə.
Girginən daş dalına,
Qoy dəysin daşa güllə.

Arxın suyun sel əydi,
Üzdə teli yel əydi.
Qürbətdən qazancım var,
Saç ağartdı, bel əydi.

Ana getsə, nar qalar,
Arvad ölsə, ər qalar.
Yad ellərdə qəribi,
Dərd üsdünnən dərd alar.

Eləmi, daşdı dağlar,
Qayalı, daşdı dağlar.
Ayrılığa dözürsən?
Ürəyin daşdı, dağlar.

Eləmi, boz dağları
Basıfdı toz dağları.
Yadına düşər, ağlar,
Qəribin öz dağları.

Ayrılıx yalan, yalan,
Ömrümə saldı talan.
Ayrılsın, dili yansın,
Bizə ayrılıx salan.

Əzizim, hey ağlaram,
Dərdimə dərd bağlaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qürbət cənnət olsa da,
Vətən deyib ağlaram.

Əzizim, irax mənəm,
Bu yanan çırax mənəm.
Qul tək əllərə düşdüm,
Vətənnən irax mənəm.

Əzizim, yaş ağacı,
Kəsməzlər yaş ağacı.
Sənki düşmənə qaldın,
Töksün qan-yaş ağacı.

Qapıdan biri gəlir,
Üzünün nuru gəlir.
Bu arxı kim düzəldif?
Suyu dupduru gəlir.

Eləmi, bulax sənnən,
Düşmüşəm uzaq sənnən.
Sən düşmən əlindəsən,
Mən isə uzax səndən.

Əzizinəm, qıy bağlar,
Qıy bağçalar, qıy bağlar.
Nərgizdən köynək geyif
Bənövşədən qıy bağlar.

Bu qaya, qəlvi qaya,
Kölgəsi düşdü çaya.
Zulumnan bar yetirdim,
Əməyim getdi zaya.

Eləmi, kimə gedim?
Kimim var, kimə gedim?
Dərddərim həddən aşıf,
Dərmana kimə gedim?!



Qəriblər yavaş olu,
Yeri quru daş olu.
Hərdən danışıf gülsə,
Yenə gözü yaş olu.

Qərib, elə bir də gəl,
Qayıt elə bir də gəl.
Könlüm qalıbdı səndə,
Qayıt, elə bir də gəl.

Bu gələn el olaydı,
Saçı tel-tel olaydı.
Basaydım bağrıma mən,
Göz yaşım sel olaydı.

Əzizim, bir-bir düşər,
Atdanan bir-bir düşər,
Sənnən keçən günnərim,
Yadıma bir-bir düşər.

Gədikdən çıxa qardaş,
Əynində çuxa qardaş,
Tez gördüm, gej tanıdım,
Gözdərim çıxa, qardaş.

Bu dağlarda ot bitər,
Yağış yağar, ot bitər,
Ellər dağdan köçəndə
Yurddarında ot bitər.

Qəriblik yaman olu,
Sovrulub saman olu,
Əğyara bel bağlama,
Axırım yaman olu.

Mən aşıq dərin oldu,
Dərmədik dərin oldu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qürbətdə ömür sürdük,
Aramız sərin oldu.

Əzizinəm, qar yağar,
Boran eylər qar yağar.
Eli əldən gedənin,
Ürəyinə qar yağar.

Eləmi, qara bağlar,
Dərdlilər qara bağlar.
Eldən ayrı düşənin,
Ürəyi yara bağlar.

Qəribəm, yoxdu arxam,
Qıy vuram göyə qalxam.
Çıxam dağlar başına,
Vətənə doğru baxam.

Əzizinəm, sim sarı,
Aşıq, saza sim sarı.
Dostdar dosdu axtarar,
Simsarlar da simsarı.

Mən aşığam, gözüm yox,
Ojağım yox, közüm yox.
Qırılıf sazın simi,
Deməyə də sözüm yox.

Ağam gəl, ay ağam gəl,
Ölməmişəm, sağam gəl.
Çiynimdə qəhər yükü,
Qapında dustağam, gəl.

Eləmi, ağa qaynım,
Sallan gəl bağa qaynım.
Qoçum yox, qurvan kəsəm,



Canım sadağa, qaynım.
Əzizinəm, düz mənəm,
Gülü bağdan üzmənəm.
Dərdə, qəmə dözmüşəm,
Ayrılığa dözmənəm.

Əzizim, dolu gözdər,
Dağ başın dolu gözdər.
Məndə iman qoymadı,
Səndəki dolu gözdər.

Əzizim, meydana var,
Min atın meydana var.
Mən özüm ney çalanam,
Bilmirəm neydə nə var?!

Əzizinəm, qoy qala,
Doldur qəlyan, qoy qala.
Sözün ötmüyən yerdə,
Ürəyində qoy qala.

Əzizinəm, dustağam,
Nə sayrıyam, nə sağam.
Eşqiyin kəməndinnən,
Çıxammaram, dustağam.

Əzizinəm, burda mən,
Qalmışam darda mən.
Heç eytivar görmədim,
Bu bivəfa yarda mən.

Eləmi, şadarası,
Xalvırı şadarası.
Qaynanıynan gəlinin,
Heç olmaz şad arası.

Eləmi, başa çalı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çalmanı başa çalı.
Yemə namərd çörəyin,
Axırda başa çalı.

Eləmi, dən düşdü,
Qoyma yerə dən düşdü.
Həsrətini çəkməkdən,
Saqqalıma dən düşdü.

Eləmi, az adamda,
Qulam da, azadam da.
Dostlux hamıda olar,
Eytivar az adamda.

Eləmi, ta İrağa,
Yol gedər ta İrağa.
Dost dostun qədrin bilməz,
Düşməsə ta irağa.

Eləmi, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan kəm aldım.
Nə dərdə yanan qaldı.

Eləmi, nələr oldu,
Ürəyim dələr oldu.
Ağlıma gəlmiyən iş,
Başıma gələr oldu.

Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü.
Ölüm Allah əmridi,
Ayrılıq nə zülümdü?

Qardaş, mana qar göndər,
Əsirgəmə var, göndər.
Düşdüm qəm dəryasına,



Üzgüçüynən tor göndər.
Qardaş, azala dərdim,
Dönüf xəzələ dərdim.
Sənnən əlac olmasa,
Hardan azala dərdim?!

Qardaş gəlir ellərdən,
Başa sancıf güllərdən.
Qardaşı Allah saxlasın,
Yaxşı-yaman dillərdən.

Bulax olub bulannam,
Dörd bir yanı dolannam.
Yönüm Vətənə düşsə,
Dağ başına dolannam.

Quşdar gəldi o başdan,
Bir xavar ver qardaşdan.
Qardaş bajıdan doysa,
Bajı doymaz qardaşdan.

İşim düşdü divana,
Axır gəldim mən cana.
Heç vaxt sən bel bağlama,
Nə mollaya, nə xana.

Əzizim, gülə-gülə,
Bülbül muştaxdı gülə.
Namərd evimi yıxdı,
Üzümə gülə-gülə.

Hər gün ağlamax olmaz,
Gözü dağlamax olmaz.
Xoş gün üçün Tanrıya,
Ümid bağlamax olmaz.

Yatıfsan, oyan, dağlar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Al-yaşıla boyan, dağlar.
Bura zülmətxanadı,
Nejədi o yan, dağlar?

Tənha qalasız, dağlar,
Gülsüz, lalasız dağlar.
Yamanca həsrət qaldıx,
Ana, balasız dağlar.

Aşıq, yolun çaş gələr,
Gözdərinnən yaş gələr.
Yoxsul yağış gözdüyür,
Göydən yerə daş gələr.

Dağlarda qar qış gələr,
Könlümə xar qış gələr.
Sonsuzun şirin sözü
Tanrıya qarğış gələr.

Dumandı, başın dağlar,
Bilinmir yaşın, dağlar.
Mən qəribliyə düşdüm,
Sökülsün daşın, dağlar.

Bağımda var gavalı,
Başım oluf havalı.
Əzrayıl ova çıxdı,
Məni vurdu zavalı.

Kababçıyam, şişim yox,
Qojalmışam dişim yox.
Bu dünyada kef çəkək,
O dünyaynan işim yox.

Dağdan bir qaya düşdü,
El-oba vaya düşdü.
Tarda toyux bannadı,



O da Mollaya düşdü.
Eləmi, yanana yan,
Düşən bir yanana yan.
Nə yanırsan boş yerə,
Səninçün yanana yan.

Eləmi, yan gözəlim,
Alış, bir yan, gözəlim.
Mən çox yandım, sən nejə?
Sən də bir yan, gözəlim.

Aşıx deyər o yar da,
Bayqu oldu o yar da.
Çox yar gördüm, ötürdüm,
Gözüm qaldı o yarda.

Eləmi, ay qanan yar,
Eşq atəşin qanan yar.
Çox aradım cahanda,
Tapmadım bir qanan yar.

Eləmi, nə düyündü?
Sinəm düyün–düyündü.
Nə vaxtı səni görsəm,
O günü toy-düyündü.

Aşıx deyər, sən yara,
Bu dərdimə sən yara.
Malım, dövlətim yoxdu,
Nə verəydim, sən yara.

Eləmi, sən gülümsən,
Süsənimsən, gülümsən.
Dünya mənə bəs deyil,
Baharımsan, gülümsən.

Aşıx deyər, o yanan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bax, bu yatan, oyanan.
Axır muradsız qalar,
Gej yuxudan oyanan.

Mən aşiqəm bu daşdan,
Bu qayadan, bu daşdan,
Nə atam var, nə anam,
Zühur oldum bu daşdan.

Əzizim, ha var, ha var,
Ölürəm havar-havar.
Biz köçürük dünyadan,
Bu dünya ha var, ha var.

Yox, əzizim, halalam,
Sənsən gülüm, halalam.
Yadlara haram olsam,
Sənin üçün halalam.

Aşıx sevər qara qaş,
Sürmə sevməz qara qaş.
Qadına yaraşıxdır,
Uzun hörük, qara qaş.

Aşıx deyir, görəndə,
Yana baxma görəndə.
Canıma od qalanır,
Səni mə'lul görəndə.

Ustad deyər qojaya,
Hörmət etdin qojaya.
Gəl döşünə döymə sən,
Dur cavab ver qojaya.

A söhbətim, a sazım,
Yolunda qaldı gözüm.
Dağ da olsa dayanmaz,



Nə cür dayanım özüm.
Aşıx, sazın çal indi,
Köklə sazın, çal indi.
Bəmin də öz yeri var,
Zilə oxu, çal indi.

Oğul, dərdim oyandı,
Canım oda yandı.
Yadlar nə bilir bunu,
Halım sizə əyandı.

Əzizim, soyuq bulaq,
Çökək yurd, Soyuqbulaq.
Kərəmə dayaq oldu,
Gülləli, Soyuqbulaq.

Ana həsrətdi canım,
Ata həsrətdi canım.
İndi Vətən itirdim,
Üzü həsrətli canım.

Əzizinəm, yaralı,
Yar qadasın yar alı.
Öldür canım qurtarsın,
Məni qoyma yaralı.

Eləmi, ana torpax,
Qurbanam sana torpax.
Yer üzündə sülh olsun,
Boyanma qana, torpax.

Əzizinəm, bu dağlar,
Məskənimdi bu dağlar.
El üstünnən köçəndə,
Mə'lul qalar bu dağlar.

Əzizinəm, yaxşı de,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağır otur, yaxşı de.
Yüz namussuz dostdan
Mərd düşmənə yaxşı de.

Eləmi, Bəryabada,
Yol gedər Bəryabada.
Vətən düşmən əlində,
Ömrünü verdin bada.

Qohum-qardaş qul imiş,
Hamısı pula qul imiş.
Hardan biləydim ki, mən,
Axır günüm bu imiş.

Dərdə düşdüm, bilən yox,
Göz yaşımı silən yox.
Hamı təskinlik verir,
Çarəsini bilən yox.

* * *

Eləmi, ağı Göyçə,
Ürəyimin yağı, Göyçə.
Mən sənnən ayrılmazdım,
Ayırdı yağı, Göyçə.

Qışda yazıx, Dəlməli,
Soyux, sazax Dəlməli.
Bircə yay gəzməlisən,
Binəsi az Dəlməli.

Quzu, güney dərəsi,
Yaz, yay kefdi dərəsi,
İyidlərin bərəsi,
Yağıya qaldı bərəsi.

Ey yurdum, Qazandüşən,
Zirvəsi duman, çən.
Qaytar qoyun, quzunu,



Aparar yağı düşmən.
Bax bura Yalvanadı,
Qarşısında Vanadı.
Həsrətdən qovruluram,
İşlərim fənadı.

Bu dərə çınqıllıdı,
İçi dolu fındıqlıdı.
Yolum sizə düşərmi?
Ürəyim çınqıllıdı.

Bu bulax Şəkər bulax,
Möhnətim çəkər bulax.
Mən sənə qonaq gəlsəm,
Yoluma su səpər bulax.

Oylağımız Əyri su,
Bulaxları qeyri su.
İçsəm səni içərəm,
İstəmirəm qeyri su.

Ey səfalı Cantəpə,
Qurban sənə, can təpə.
Ellər binəsi idin,
İndi alış, yan təpə.

A Murğuzum, Murğuzum,
Sinəsi qoyun–quzum.
Çox uzaxlarda qaldım,
Qala bilmirəm özüm.

Eləmi, Daş bulax,
Dərələrdən aş bulax.
Biz sənnən ayrıldıx,
Qaldı gözdə yaş bulax.

Çətin dərə Acnabad,
Gözəlləri sağ Nabad.
Səndə kimlər yaylayır?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çəkirsənmi ah, Nabad?
Bu dərə Cöyüzlüdü,
Marallı, cüyürlüdü.
Ovun bərədə qaldı,
Ovçular zəncirlidi.

Elimin adı, Göyçə,
Ağzımın dadı, Göyçə.
Mənnən üz döndərəsən,
Tutaram yası, Göyçə.

Gözdən çaya, gözləyir,
Darda maya gözləyir.
Perik düşüf obası,
Bezif, aya gözləyir.

Bu dərə Yağlı dərə,
Ətirri, yağlı dərə,
Köçümüz yasaq oluf,
Yolumuz bağlı, dərə.

El bulağı Noyludu,
Sakini nə soyludu?
İstərəm içəm sənnən,
Ayağım buxovludu.

Çıxdım Yalvanaya mən,
Baxdım sola, sağa mən.
Gözüm kəndi görmədi,
Düşdüm yaman hala mən.

Mən aşıx Ağbulağa.
Yol gedir Ağbulağa.
Düşmənə girov qalan,
Ağla sən Ağbulağa.

Dağlar başı Tikdaşdı,



Çalmalıya yoldaşdı.
İstədim ayıram sizi,
Dedi: -Onnar qardaşdı.

Eləmi, Arxac çaya,
Otları qaxac qaya.
Gəl, harayla məni,
Qoltuxda qoltux qaya.

Yaylağım Soyuqbulax,
Yıxnağım Soyuqbulax.
Ürəyim ol, gözüm ol,
Oylağım Soyuqbulax.

Əzizinəm, Çökək yurd,
İyidlərə sökək yurd.
Səni alan düşmənin
Daş başına tökək yurd.

Yaylağımız, Çalmalı,
Otdar orda el malı.
Düzündə, yamacında,
Otdar indi yad malı.

Əzizinəm, a Vətən,
Sağ gözümsən, a Vətən.
Qərib səni arzular,
Hey çağırar, a Vətən .

Əzizinəm, yaş indi,
Gözdə yanar yaş indi.
Yadıma Vətən düşdü,
Axacaqda yaş indi.

Əzizinəm, ana torpax,
Qurbanam sana, torpax.
Qəriblikdə ölsəm də,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Borcluyam sana, torpax.

## AĞILAR

Ay mənim fağır balam,
Qul balam, sağır balam.
Dönəlgən yaman oldu,
Yasdığın ağır balam.

Fələk quşum apardı,
Ağlım, huşum apardı.
Özgədən biri getdi,
Mənnən beşin apardı.

Sözümüz o yan oldu,
Səfərin o yan oldu.
Nə bir dərdim bilindi,
Nə sirrim əyan oldu.

Qara nər noxtalandı,
Qan qusdu laxtalandı.
Ay bajı, can evinin,
Qapısı taxtalandı.

Müşküm vay, ənbərim vay,
Çalış vay, çəmbərim vay.
Bajı-qardaş yığılıf,
Bir oyan, Qəmbərim vay.

Küçədən xonça gedir,
İçində nimçə gedir.
Aləmin gülü getsə,
Bizimki qönçə gedir.

Mən aşiq yasəməni,
Açıfdır ya securing.
Fələyə neyləmişdim,
Batırdı yasa məni.



Eləmi, yaman bala,
Olmasın yaman bala.
Rəvamı yarım ölə,
Yerində yaman qala.

Eləmi, baxar ağlar,
Ulduzdar çaxar ağlar.
Ölünü özün ağla,
Yadlar baxar ağlar.

Dəryada zəmim qaldı,
Biçmədim zəmim qaldı.
Arzun gözündə qalsın,
Elə ki mənim qaldı.

Dərdə düşən mənəm, mən,
Zülmə dözən mənəm, mən.
Qəni itgili canım,
Ağı deyən mənəm mən.

Görünürmü o dağlar,
O zirvələr, o dağlar?
Səndə gəzən iyidi,
Oğul deyif ağallar.

Çəmənnər, ay çəmənnər,
Gəzənnər, ay gəzənnər.
Qoç iyidin köçüfdü,
Ağlayın, ay gəzənnər.

Dağların lalasıyam,
Dərdlərin bəlasıyam.
İtirdiyim iyidi,
Harada tapasıyam.

Eləmi, ağlaram mən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ürəyim dağlaram mən.
Ağ günüm qara gəldi,
Yas tutuf ağlaram mən.

Bu gülləri dər indi,
Qavır üsdə sər indi.
Dindirmə mən qərivi,
Yaram yaman dərindi.

Eləmi, gözüm ağlar,
Ocağım, gözüm ağlar.
Hər dağlara baxanda,
Çəkilmir gözüm ağlar.

Niyə qaldım darda mən,
Boranda mən, qarda mən.
Ağlamax peşəm oldu,
Aranda mən dağda mən.

Fələk məni dağladı,
Yollarımı dağladı.
Uçdu tülək tərlanım,
Qəm sinəmi dağladı

Əzizim, bəlan budu
Dərdin bu, bəlan budu.
Bəla görmüyən canım,
Çək, indi bəlan budu.

Dağlar, otun qurusun,
Bağlar, tutun qurusun.
Əlim əldən üzüldü,
Matın-mutun qurusun.

Eləmi, qanan dağlar,
Ürəkdən yanan dağlar.
Anama xavar olsun,



Öz oğlun yaman ağlar.
Mən aşıx, yağı gəlməz,
Dolanar, dağı gəlməz.
Bir bala itirmişəm,
Səsi-sorağı gəlməz.

Yaşım üzümdə qaldı,
Axdı gözümdə qaldı.
Hər nə dilək dilədim,
Hamsı gözümdə qaldı.

Ey fələk, nə fələksən,
Sən ki, ərşə diräksən.
Yıxdın atam evini,
Sən nəyimə gərəksən.

Ördək, gölə bir də gəl,
Ceyran, çölə bir də gəl.
Küsüf çıxıf getməsən,
Bizim elə bir də gəl.

Tufan qopar, el ağlar,
Çaylar daşar, sel ağlar.
Qəriblikdə ölənin,
Yasın tutar, el ağlar.

Eləmi ağlar qoydu,
Sinəmi dağlar qoydu.
Yıxdı atam evini,
Qapısın bağlar qoydu.

Bu dərədən xan gedər,
Yaram açma qan verər.
Neyləsin təbib, cərrah,
Əcəl gəlif, can gedər.

Gözdəri ağlar qoydun,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qolları bağlar qoydun.
Evin dağılsın, düşmən,
Sinəmi dağlar qoydun.

Bu dağlara çən düşdü,
Yel əsdi duman düşdü,
Balamı öldürdülər,
Canıma talan düşdü.

Əzizinəm, ay qardaş,
Qaşı-gözü yay qardaş.
Ölür, bajılar ölsün,
Deməsinnər, vay qardaş.

Eləmi, dili azar,
Bülbül azar, dil azar.
Qardaşı ölən bajının,
Ağlı gedər, dili azar.

Eləmi, sarı qardaş,
Dəvənin aysarı qardaş.
Sənin bajın ölüfdü,
Saracam sarı, qardaş.

Şalım qara boyandı,
Üstü yerə dayandı.
Bir ustufca ah çəkdim,
Göydə fələk oyandı.

Göydən ulduz şeş keçdi,
Cavan ömrüm boş keçdi.
Fələk, mana dərs verdin,
Hansı günüm xoş keçdi.

Qəlbim qara qazandı,
Dilim ərzə yazandı.
Fələyə bel bağlama,



Fələk nizam pozandı.
Fələyin ay əlinnən,
Heç düşmür yay əlinnən.
Öləydim, qurtaraydım,
Dünyada vay əlinən.

Bu dünya, fani dünya,
Qarğaram səni dünya.
Uddun, ata-anamı,
Göz dikdin mənə, dünya.

Ay ana, təzə qaldı,
Bu dərdim sənə qaldı.
Almışdım toy paltarı,
Geymədim təzə qaldı.

Əzizinəm, qana mən,
Boyammışam qana mən.
Acal-macal vermədi,
Bircə dedim: - Asta mən!

Ana, məni az ağla,
Bu dərdimə döz, ağla.
Qışda sənə qıymaram,
Gül açanda yaz ağla.

Eləmi, anam ağlasın,
Qıymazdım, anam ağlasın.
Oğul bayatı yazsın,
Oxusun, anam ağlasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## LAYLALAR

Atıban tutdum səni,
Əcəf oyutdum səni.
Ömür üzdüm, cəfa çəkdim,
Şükür böyütdüm səni.
Balam laylay, a laylay
Gülüm lay-lay, a laylay.

Lay-layı dərin, bala,
Yuxusu şirin, bala.
Tanrıdan əhdim budu,
Toyunu görüm, bala.
Lay-lay, a çörəyim, lay-lay,
Lay-lay, a ürəyim, lay-lay.

Beşiyin bəzəmişəm,
İçinə gül çitəmişəm.
Tezcə yuxuya getsən,
Keşiyin çəkmişəm
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

Ata, analı böyü
Göldə sonalı böyü.
Anan toyunu görsün,
Teli xınalı böyü.
Balam lay-lay, a lay-lay,
Gülüm lay-lay, a lay-lay.

Bağın baxcası sənsən,
Qoşa xonçası sənsən.
Ümidim, diləyimsən,
Gülün qonçası sənsən.
Tanrı sənə yar olsun,
Atan, anan sağ olsun.



Yat, a quzu balam!
İlimin yazı balam!

Anan sənə yat dedi,
Qızıl gülə bat dedi.
Bədnəzərdən uzaq ol,
Dərdi-qəmi at dedi.
Yat, yuxun şirin olsun!
Yat, cənnət yerin olsun!

Ananın ümidisən,
Gejəsi, gündüzüsən.
Keşik çəkən ananın,
Elə bil ki, özüsən.
Şirin-şirin yat, bala!
Boya-başa çat, bala!

Arzumsan, diləyimsən,
Gülümsən, çiçəyimsən.
Bizim öydə hamıdan,
Mənim ən göyçəyimsən.
Ömrüm, günüm, a lay-lay,
Şirin sözüm, a lay-lay.

Bağçamızın gülüsən,
Evin şirin dilisən.
Ata, ana istəyi,
Uşaxların gülüsən.
Balam lay-lay, a lay-lay,
Gülüm lay-lay, a lay-lay.

Çörəyimsən, duzumsan,
Mənim bəxd ulduzumsan.
Evin körpə balası
Oğlum, həm qızımsan.
Yat, a mənim qeyrətim!
Yat, a sözüm, şöhrətim!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şirin-şirin yat, bala!
Murazına çat, bala!

Aranımsan, dağımsan,
Baharımsan, yazımsan.
Qəriv eldə, qürvətdə
Sən arxam, dayağımsan.
Lay-lay, beşiyim, lay-lay!
Evim-eşiyim, lay-lay!

Dağ başında lalasan,
Sularımda sonasan.
Öpüşün nə şirindi,
Tər ətirli lalasan.
Ananın qoçax oğlu,
Gözlərə bıçaq oğlu.
Balam lay-lay, a lay-lay,
Gülüm lay-lay, a lay-lay.

Payızımsan, yazımsan,
Həm çoxum, həm azımsan,
Sən mənim vuran qəlvim,
Çiçək açan yazımsan.
Mışıl-mışıl yat, bala!
Hər muraza çat, bala!



## NAZLAMALAR

Vuran əlim, görən gözüm,
İki gözümə, ötgün sözüm,
Həm yoxuşum, həm də düzüm,
Arxam, dayağımdı oğul.

Oğlanların yaraşığı,
Evimizin gur işığı.
Məhəbbətdə haqq aşığı,
Mərdlərin gözüdü oğul.

Günnərin göyçəyidi,
Lalənin ləçəyidi.
Çöllərin çiçəyidi,
Öz günüm, qönçəm qızım.

Görüm tez boy atasan,
Hər muraza çatasan.
Tənbəlliyin hər yerdə,
Sən daşını atasan.

Ay mənim qoçax balam!
Telləri saçax balam.
Böyü, igid bir ər ol,
Ol cəsur, qoçax, balam.

Balam tezcə dil açsın,
Şəfəq oluf nur saçsın.
Əzizlənsin hər yerdə,
Xata, bəladan qaşsın.

Dəsmalı göyçək balam,
Saçağı ipək balam.
Cavannarın içində,
Hamıdan göyçək balam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay dağların lalası,
Ay suların sonası,
Mənim bu gül balama,
Qurvan olsun xalası.

Bağçamızın alması,
Qonşumuzun heyvası,
Qarıların çalması
Qurvan olsun balama.

Evimizin dirəyi,
Hamımızın gərəyi.
Bajısının diləyi
Balama qurvan olsun.

Qərənfilsən, qoxaram,
Döşünə gül taxaram.
Qarannıxlı yolunda,
Şimşək oluf çaxaram.

Bir könlümün yarpağı,
Astanalar torpağı.
Kim balamı istəmir,
Olsun ellər qınağı.

Balaların göyçəyi,
Çəmənnərin çiçəyi.
Balama qurvan olsun
Yad elin ağbirçəyi.

Mən gülləri dərərəm,
Dərif yerə sərərəm.
Mən bu şirin canımı
Öz balama verərəm.

Balam mənim gülümdü,
Gülümdü, bülbülümdü.



Mən balamın gülüyəm,
O, mənim bülbülümdü.

Qızım solmaz çiçəkdi,
Qızım qara birçəkdi.
Bütün qızlar içində,
O, hamıdan göyçəkdi.

Əzizimsən, gözümsən,
Şəkərimsən, sözümsən.
Mənim qərif canıma
Dayağımsan, özülsən.

Əzizim, dağda sən,
Aranda sən, dağda sən.
Dayanasan ucada,
Qalmayasan darda sən.

Bajımsan, baharımsan,
Ömrümün çırağısan.
Balalaların əzizi,
Könlümün novrağısan.

Qönçələrin ağısan,
Ürəyimin yağısan.
Elimin yaraşığı,
Könlümün çırağısan.

Balam geyif tər-təmiz,
Balam hər güldən əziz.
Mən balamı sevirəm,
O də əzizdən əziz.

Bağımda üzüm,
Bu iki gözüm,
A körpə quzum,
Mən sənə qurvan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağların qarı,
Bağların barı.
Çox qoja qarı,
Balama qurvan.

Düzün çəməni,
Lalə, yasəməni.
Alnımın təri
Balama qurvan.

Qoşa otaqlar,
Yaşıl yarpaqlar,
Bala oğlaqlar
Balama qurban.

Bu dümdüz yollar,
Meşədə kollar,
Ötən qumrovlar
Balama qurvan.

Evimin malı,
Divarda xalı,
Arımın balı
Balama qurvan.

Meşə talası,
Qoyun balası,
Qızın xalası
Balama qurvan.

Göydə ulduzdar,
Çaydakı qazdar,
Göldəki buzdar
Balama qurvan.

Tüstüsüz damlar,
Tənbəl adamlar,



Sarı badamlar
Balama qurvan.

Ara qatannar,
Vətən satannar,
Darda qaçannar
Balama qurvan.

Dinim, imanım,
Yaxşı, yamanım
Bu şirin canım
Balama qurvan.

Arsız arvaddar,
Çöldəki otdar,
Çəməndə atdar
Balama qurvan.

Gejəm, gündüzüm,
Söhbətim, sözüm,
Çörəyim, duzum
Balama qurvan.

Dalımın dağı,
Ürəyimin yağı,
Qolumun sağı
Balama qurvan.

Arzum, diləyim,
Göydə mələyim,
Duzum, çörəyim
Balama qurvan.

Gedən ermәni,
Gələn ermәni,
Vuran ermәni
Balama qurban.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərdim, əlacım,
Canım, illacım.
Qana cüt bajım,
Balama qurvan.

Bu arsız haylar,
Bağda arılar,
Qoja qarılar
Balama qurvan.

Bağçamızın gülüsən,
Gülüsən, bülbülüsən.
Zəmilərin çiçəyi,
Dərilməmiş gülüsən.



DÜZGÜLƏR

Bir qarıcıq varıydı,
Tumancığı darıydı.
Canınnan bezarıydı.
Afdafa aldı ələ,
Getdi buz üstə belə.
Buz üstə yoruldu,
Afdafası qırıldı.
Ahu-fəğan eylədi,
Buza salam söylədi:
- A buz, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Gün məni əritməzdi.
- A gün, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Bulut qavağımı kəsməzdi.
- A bulut, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Yağış mənnən yağmazdı.
- A yağış, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Göy ot mənnən bitməzdi.
- Ay ot, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Qoyunnar başım üzməzdi.
- A qoyunnar, siz nə zalımsınız?
- Biz zalım olsaydıq,
Canavarrar  bizi yiməzdi.
- Canavar, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Qara köpək məni boğmazdı.
- Qara köpək, sən nə zalımsan?
- Mən zalım olsaydım,
Siçannar çörəyimi yiməzdi.
- A siçan, sən nə zalımsan?
- Mən zalım olsaydım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pişiklər bizi yiməzdi.
- A pişiklər, siz nə zalımsınız?
- Biz zalımıx-zalımıx,
Yük üstü yaylağımız,
Kürsü üstü qışlağımız.

Diri-diri diringə,
Gəlin gedək Firəngə.
Firəng yolu nəmişdi,
Dörd tərəfi qəmişdi.
O qəmişdən üzəydim.
Çətir deyif düzəydim.
Çətiri düzün, gəlsin,
İpini üzün, gəlsin.
İpin ucu çatılı,
Bəzirgana satılı.
Bəzirgan, xan bəzirgan,
Gözləri qan bəzirgan.
Bəy dadaşım gəlməmiş,
Qara bağrın dəlməmiş
Sür atını, getginən,
Gözlərimdən itginən.
Gözlərimdən getməsən,
Samannıxda yatginən...

Dili-dili dilavar,
Əsdi, keçdi gilavar.
Gilavarda yataydım,
Bal yuxuda yataydım.
Bal yuxunun yarısı,
İnci-minci darısı.
İnci-minci üzərdim,
Boş qapıda gəzərdim.
Sap ucunda tel bacı,
Tel bacının gül bacı.
Gül bacını bəzərəm,



Bəy dadaşın toyunda,
Bax beləcə süzərəm.

Gülü-gülü gülöyşə,
Dörd tərəfi bənöyşə.
Bənöyşəni üzərəm,
Telbağıma düzərəm.
Abdal dərviş kəşgülü,
Kəşgül dəvə belində,
Dəvə Şirvan yolunda
Şirvan yolu zər kimi,
Gülləri məxmər kimi.
O gülləri dərəydim,
Bəy dadaşa verəydim.

Pulun oldu on,
Tikdir özünə don.
Pulun oldu əlli,
Adın oldu bəlli.
Pulun oldu yüz,
Gir içində üz.
Pulun oldu min,
Pulunu ver inəyə,
Bağla bağda dirəyə.
Vermə heş nə qoyuna,
Özün salma oyuna.

Şap elə bilir Şupdadı,
Şup elə bilir Şapdadı.
Nə şapdayam, nə şupda,
Çayda şarap-şupdayam.
Şatır uğur gətirmədi,
Getdi xəbər  gətirmədi.
Şatırçı şatır satdı,
Qoduq şıllax atdı.
Qoduğu şatıra atdılar,
Şatırı qoduğa qatdılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zəhrə, Ziveydə,
İkisi bir öydə.
Zəhra dalaşdı,
Ziveyda qaşdı.
İtdər hürüşdü,
Tülkü bürüşdü.

Ay fil-fili,
Gəl oxu bizim dili.
Bizim dilin gülü var,
Gül üstə bülbülü var.
Bülbülə dil verənnər
Ənbiyalar, ərənnər.
Ərənnərə varaydım,
Pişnamaza duraydım.
Hər duranda səhd elə,
Pişnamazda əhd elə.
Əhdini xuda versin,
Gəlsin yuxuda versin.

Əli, Vəli, Pirvəli,
Yeddisi ondan irəli.
Gəlir dağdan bəy Vəli,
Yatdı, qaldı Pirvəli.
Pirvəlini oyatdılar,
Naxıraca qatdılar.
Naxırçı naxır bəndə,
Pirvəlini gətdi kəndə.
Pirvəli kənddə yatdı,
Başı palçığa batdı.
Durdu, qalxdı ayağa,
Vurdu bir axsax qarğa.
Pirvəlini tutdular,
Qarğanı tez atdılar.
Qarğa da uçuf getdi,
Pirvəli gözdən itdi.



A vəlli, vəlli, vəlli,
De gəlsin qaravəlli.
Qaravəlli qara dana,
Çıxıf divara dana.
Danacığı ürkütdüm,
Qapı-bajanı bərkitdim.
Qapı-baja dəvərə göz,
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Çıxdım Urum yoluna.
Urum yolu kirişdi,
Vurdum Təbrizi keşdim.
Təbriz demə, min xana,
Xərac verməz hər xana.
Xanım Türkman içində,
Qılıncı qan içində.

Ay qara qız, toyun gəlir,
Kəsilməyə qoyun gəlir.
Aparmağa sultan gəlir,
Hər dərədən bir xan gəlir.
Dəvə yükü xurman gəlir,
Tıbbıdıynan zurnan gəlir.
Şappa–şupnan anan gəlir,
Yanında da atan gəlir.
Bəyin atası yekəpər,
Elə bil kotan gəlir.
Qayınnarın nə’rə çəkir,
Nər meydanı tutan gəlir.
Yengələrin alqış deyir,
Hər dərdinə yetən gəlir.
Baldızdarın ara qatır,
Öz qəlbinə yatan gəlir.
Toy babası papax atır,
Tüfəng əldə atan gəlir.
Qonşuların əldə kasa,
Lap gecədən yatan gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəyzadələr yallı gedir,
Ortaya şarlatan gəlir.
Çağırırlar cavan bəyi,
Bir qolundan tutan gəlir.
Aparırlar bəy evinə,
Ay oğlan, butan gəlir.

Həsənağa,
Doldu yarağa,
Mindi ulağa,
Sürdü bağa.
Bir quş vurdu,
O da qurbağa.
Verdi qonağa,
Qonaq yemədi.
Saldı yağa,
Özü tələdi.
Bizə vermədi,
Yedi qurbağa,
Düşdü yatağa.
Hədiydi, hüdüydü,
Sənin yerin dədiydi,
Al başına, kül başına,
Ət taxtasın vur başına.

Gülü-gülü gülöyşə,
Dörd dövrəsi bənöyşə.
Bənöyşəni üzərəm,
Tel başıma düzərəm.
Abdal dərviş kəşgülü,
Kəşgül dəvə belində,
Dəvə Şirvan yolunda.
Şirvan yolu zər kimi,
O gülləri dərəydim,
Bəy dadaşa verəydim.



## CIRNATMALAR

-Adın nədi?
-Vəkil.
-Dur, burdan əkil.

-Adın nədi?
-Məşədi.
-Qulaxların meşədi.

-Adın nədi?
-Məlik.
-A papağı dəlik.

-Adın nədi?
-Bala.
-Yat, qal dala.

-Adın nədi?
-Rəşid.
-Çeşidsən, çeşid.

-Adın nədi?
-Nəzər.
-Qapılar gəzər.

-Adın nədi?
-Dilənçi.
-Hər şeydən xəbərçi.

-Adın nədi?
-Vəfadar.
-Dünya başına dar.

-Adın nədi?
-Vəzir.
-Canından bezir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

-Adın nədi?
-Dadaş.
-Başına bir daş.

-Adın nədi?
-Nadir.
-Boynuna sal kəndir.

-Adın nədi?
-Qədir.
-Bəbirsən, bəbir.

-Adın nədi?
-Əli.
-Anadangəlmə dəli.

-Adın nədi?
-Hajı.
Ağzı zəhrimardan ajı.

-Adın nədi?
-Mələk.
-Başımızda kələk.

-Adın nədi?
-Yetər.
-Kolluqda itər.

-Adın nədi?
-Əminə.
-Su tökülər gəminə.

-Adın nədi?
-Məleykə.
-Hara gedirsən səkə-səkə?



-Adın nədi?
-Bənövşə.
-Salma məni təşvişə.

-Adın nədi?
-Nərgiz.
-Çıx kolluqda süz.

-Adın nədi?
-Dilşad.
-Heç olmadın şad.

-Adın nədi?
-Sabit.
-Dur, burdan it.

-Adın nədi?
-Gülgəz.
-Tikanlığa gir, gəz.

-Adın nədi?
-Sabir.
-Başına dəysin xəlbir.

-Adın nədi?
-Pəri.
-Bir sümüksən, bir dəri.

-Adın nədi?
-Hürü.
-Gəl qapını kürü.

-Adın nədi?
-Dilən.
-Durma, qapılarda dilən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

-Adın nədi?
-Aynur.
-Doğrudan, nursan, nur.

-Adın nədi?
-Rəşid.
-Birini de, birin eşit.

-Adın nədi?
-Mayıl.
-Əşi, zayılsan, zayıl.

-Adın nədi?
-Madar.
-Dünya başına dar!

-Adın nədi?
-Tatar.
-Get, quzunu qaytar.

-Adın nədi?
-Qabil.
-Qabil yox, zibil.

-Adın nədi?
-Xanqulu.
-Bambılısan, bambılı.

-Adın nədi?
-Həsənqulu.
-Borclusan, ver bizim pulu.

-Adın nədi?
-Şəkər.
-Sən ha zəhərsən, ha gülməşəkər.



-Adın nədi?
-Banı.
-Bə qeyrətin  hanı?

-Adın nədi?
-Bəstəgül.
-Bəstəgül yox, xəstəgül.

-Adın nədi?
-Ələmdar.
-Dünya olsun başına dar.

-Adın nədi?
-Dursun.
-Dilin, ağzın qurusun.

-Adın nədi?
-Süsən.
-Xörəkdən küsən.

-Adın nədi?
-Fatma.
-Yerində şıllaq atma.

-Adın nədi?
-Məlik.
-Hardan gəlirsən, a papağı dəlik?

-Adın nədi?
-Məsim.
-Bığlarını kəsim.

-Adın nədi?
-Həsrət.
-Yar sənə həsrət,
Sən ona həsrət.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## YANILTMACLAR

Ayə, ay Ojaxqulu, ojağı qığılcımlandırma, qığılcımlandırsan da səni vurajam, qığılcımlandırmasan da səni vurajam.

Ay Dursun, dur, kəsməyi kəsginən, sən kəsməyi kəssən də, kəsəjəm, kəsməsən də kəsəjəm.

Qara Musa qara qarğanı qarmağa saplamamış, qara qarğa Qara Musanın qarmağını qaçırtdı.

Qara qarğa "qarr-qarr" qarıldaya-qarıldaya “qarr-qarr“ qarıldayan qapqara qarğaların qarasınca gedirdi.

Toxtanı öküzdəri toxmaxlıya-toxmaxlıya aparırdı.

Çil-çal xoruz çarhovuza girif çıxır,
Çil-çal xoruz çarhovuzdan kirli çıxır.
Süprüşənnər süpürüşə-süpürüşə gəlif süpürülən yerə süpürgə çaldılar.

Xörəyi sarımsaxlasan da, yəəjəm, sarımsaxlamasan da yəəjəm.

Ay axsax aşpaz Aşır, aşpazlar aş pişirir. Sən də onnara qoşul, aş pişir, ay axsax aşpaz Aşır.

Ay qılquyrux qırqovul, gəl bu kola gir, ay qılquyruq qırqovul, orda üç qılquyruq qırqovulsunuz, burda da olax dörd qılquyrux qırqovul.
Cəfgözün cəfgözünə çəf baxma,
O çəfgözünnən dünən bir ceyran oyluyuf.

Boz atın boz torvasını,
Boş as başınnan.
Apar islat gətir,
Yaş as başınnan.

Aşbaz Abbas aş asmış,
Aşmışsa da, az aşmış.



Tülkünün kürkü söküldü,
Kürkün türkü töküldü.

Çəpərdən aşdı çəpiş,
Dağa dırmaşdı çəpiş.
Anasının itircək
Yolunu çaşdı çəpiş.

Körpüdən keşdi keçi,
Çaydan su işdi keçi.
Meşədən buynuzunnan
Putağa ilişdi keçi.

Cücüləri cücələrə,
Tapşırdılar cücülər.
Cücüləri bircə-bircə,
Aşırdılar cücələr.

Gəl gedək qohum-qardaşnan çərşənbələşək, qohum-qardaşnan çərşənbələşsən də, çərşənbələşək, çərşənbələşməsək də, çərşənbələşək.

Qalayçı qazanı qalaylaya-qalaylaya qonağını qaldırıf qoyurdu.

Dəyirmana girdi köpək,
Dəyirmançı vurdu kötək.
Bilmirəm, kötək yedi, köpdü köpək,
Yoxsa, kəpək yedi, köpdü köpək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QUL VƏLİ
## DÜNYADA (MÜXƏMMƏS)

Heç kim olmaz mənim kimi,
Halı pərişan dünyada.
Zülfi-ruyim pərişan oldu,
Soldu zimistan dünyada.
Qadir Allah, imdad eylə
Qalmadı insan dünyada.
Özü birdi, ismi min bir,
Elmi mabəyan dünyada.
Həqdən qeyri kimlər edər,
Dərdlərə dərman dünyada.
Zərrə qədər gəlsin rəhmin,
Qədri sübhan dünyada.

Bu dünyanın şən etməyə,
Daha gəlməz Adəm, Həvva.
Əli qoynunda qan ağlayır,
Mə'lul-müşgül çox binəva.
Ey ağalar, agah olun,
Qətlə yetib ali-əba.
Yığılsa cəmi hesabdarlar,
Qırılanlar gəlməz hesaba.
Adəm zühr olandan bəri,
Kim görübdür belə dava.
Sərlər tökülüb zəminə,
Misali leysan dünyada.

Görmədim belə hökumət,
Əvvəlcə yığdılar atı.
Qəhət oldu nanunamən,
Yetişdi əcəl baratı.
Bir ah çəksəm, ay ağalar,
Ahım yıxar yeddi qatı.



Əcəlcədən tükançılar,
Qopartdılar qıyamatı.
Kasıb olan, yoxsul olan,
Qaldılar üryan, dünyada.

Tifil olan nalə çəkər,
Həsrət qalıbdı tirinə.
Katib olan guş yetirər,
Baxmaz zəbəri-zərinə.
Didəm yaşı sel-sel oldu,
Qarışdı xudam pirinə.
Aləmdəki padşahlar,
Dəydilər biri-birinə.
Yerlərə düşdü zəlzələ,
Oldu nə tüfan dünyada.

Zülmkarlar hökm eylədi,
Gör neçə min can yeridi.
Babılar əncumə oldu,
Dağıldı İran yeridi.
Hər tərəfə qoşun çəkdi,
İngilis-Amerikan yeridi.
Uydu german fe'linə,
Axmaq Alosman yeridi.
Açılanda düyməli top,
Dərya kimi qan yeridi.
Qadir Allah, imdad eylə,
Dönsün bu dövran dünyada.

Zəmidə toplan açıldı,
Bürcləri çıxır asmanın.
A bimürvət padşahlar,
Nədir günahı insanın.
Naləsi Alosmana yetər,
Qana batan Novcavanın.
Əlləri qoynunda qalıb,
Qul Vəli tək binəvanın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Budur sözün müxtəsəri,
Qəhət oldu nan dünyada.

## DAĞLAR

Gedəndə zimistan, gələndə bahar,
Bulbul məskən saldı gülündə, dağlar.
Yar odunu yar da çəkər ahu-zar,
Zülfündə şana çəkər teli də dağlar.

Səndə yaylayanın xoş olu baxtı,
Gözəllər köksündə qurallar taxtı.
Qızıl üzəngili, gümüş iraxdı,
Köhlən at yorulu yolunda, dağlar.

Gözəllər köksündə gəzərlər peydar,
Çırpınır göllərdə qubalar, qazlar.
Bəy nişan oğlanlar şahzadə qızlar,
Əcəb seyran edər belində, dağlar.

Axdı-axdı köksüm seli duruldu,
Könlümün şişəsi sizdə qırıldı.
Nizama çəkildi, plan quruldu,
Qaldınız tərsalər əlində, dağlar.

Buz bulağıdı gözəllər yığnağı,
Hurilər kimi gözəllər oynağı.
Marallıxa, maymaq, bir də Pir dağı,
Cənnətə bənzəyir Meydanda, dağlar.

Bahar çağı əksilməyir yığnağın,
Yay fəslində azalmayır qonağın.
Dəhanə şərbətdi yağın, qaymağın,
İsmi Qul Vəlinin dilində, dağlar.



## YENƏ

Ay ağalar, ay paşalar,
Dərd başımdan aşdı yenə.
Açıldı tanrının gözü,
Sellər, sular daşdı yenə.

Dəyişdi şahların adı,
Dünya rahat oturmadı,
İnsan oğlu dinc durmadı,
Düz yolunu çaşdı yenə.

Sinəmə töksələr barı,
Quzeylərdə saxlanan qarı,
Talan oldu elin varı,
Aralıq çaxnaşdı yenə.

Heç gülmədi şair Vəli,
Haqqa müsafir gələli.
İmamların kömək əli
Bizdən uzaqlaşdı yenə.

## NƏSİHƏT

Ey əzizim, uyma bu puç dünyada,
Axır salar səni yaman sövdaya.
Nazı-ne'mətinə çox həris olma,
Aldanma dövlətə, gəzginən sayə.

Təhtani[1], fövqani[2] qəsrinə baxma,
Xəz xirqəsinə[3] su kimi axma.
Qızıl eynəkləri fəxr edib taxma,
Mübahat[4] eləmə zərrin əbayə.

Bunlarmıdır, gözüm, insana ziynət?
Bunlarla insanlıq olmaz həqiqət.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lazımdır insana bil ki, mə’rifət,
Mə’rifətsiz vermə ömrün fənayə.

Adını soruşsaz, Şair Vəliyəm,
Axtarmayın ağıllı, ya dəliyəm.
Nə Bakı, şirvanlı, nə gəncəliyəm,
Hardan olsam, bir bəndəyəm xudayə.

Qul Vəlinin Qaçaq Kərəmə qoşduğu
"Kərəm-Zalı xan" dastanından:

## KƏRƏM XANNAN ZALI XANIN DEYİŞMƏSİ

Kərəm:

Mən ki gəldim bu dünyaya,
Aləmi saldım ay-vaya.
Səfərim var Kərbəlaya,
İncitmə məni, Zalı xan!

Zalı xan:

Namərd igiddə ar olmaz,
Qovaq-söyüddə bar olmaz.
Bu libasda zəvvar olmaz,
Söyləyirsən yalan, Kərəm!

Kərəm:

Mənəm iyidlərin xası,
Neylərəm qeyri libası?
Mən igidə olma ası,
İncitmə məni, Zalı xan!

Zalı xan:

Sən bura gəldin bir başa,
Əlimdən gələrsən haşa.
Apararam padşaha,
Eylər özü divan, Kərəm.



Kərəm:

Qaban tək üstümə gəlmə,
Hərcayı danışıb gülmə.
Çox da məni aciz bilmə,
İncitmə məni, Zalı xan’

Zalı xan:

Gör nə çıxır dəhanından,
İçib doyaram qanından.
Əl çəkmərəm damanından,
Sən dağsan, mən duman, Kərəm!

Kərəm:

Kərəməm döndüm aslana,
Sədam çıxıb Alosmana,
Gəldim sığınam İrana,
İncitmə məni, Zalı xan!

Zalı xan:

Tə’rifim əllidə, yüzdə,
Adımı söyləyərlər sözdə.
Eşitməyibsən Təbrizdə,
Deyərlər Zalı xan, Kərəm?!

Qul Vəli:

Qul Vəli deyər dastanı,
Görməz sən tək igid canı.
Öldürübsən Zalı xanı,
Əllərin qızıl qan, Kərəm!

## İLYAS TALIBOVUN MÜƏLLİFLİ BAYATILARI

İlyas döyər döşünə,
Sığın mərdin döşünə.
Durma namərd yanında,
Arxası nə, döşü nə?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlyas deyər düz ilqar,
Düz e'tibar, düz ilqar.
Ölənətən itirmə,
Duz  çörəklə, düz ilqar.

İlyas, nə barı gördüm,
Nə hasar,, nə barı gördüm.
Bağbanı ölən bağda,
Nə gül, nə barı gördüm.

İlyasam, bu yara məni,
Saldın diyara məni.
Nə toyda, nə nişanda,
Gəzmsin de yara məni.

İlyasam, yara məni,
İncidir yara məni.
Bəlkə bir şəfa tapam,
Yetirin yara məni.

İlyas, nə yara gör,
Nə dərd, nə yara gör.
Əgər məhəbbətin varsa,
Məsləhətini yara gör.

İlyas deyər oda mən,
Tikdirmişəm oda mən.
Dedim şad günüm oldu,
Qəfil düşdüm oda mən.

İlyasam, muraz gözdə,
Tələsmə, bir az gözdə.
Fələyin peşəsidi,
Qoyur çox muraz gözdə.

İlyas deyər, balasına,
Ana qıymaz balasına.



Nahaq qana susama,
Düşmə, onun balasına.

İlyas deyər, yox işi,
Namərd ilə yox işi.
Elə vaxtın varıydı,
Düz gedərdim yoxuşu.

İlyas deyər, mənə dar,
Köynək tikdir, mənə dar.
Dərdin dəlisi oldum,
Dünya oldu mənə dar.

İlyas deyər, öir də yar,
Vur baltanı bir də yar.
Başını uca eylər,
Yaxşı övlad, bir də yar.

İlyas baxmaz harama,
Halal qatma harama.
Halal olan qoy desin,
Haram olsun harama.

İlyas deyər, döz indi,
Bircə dayan döz indi.
Fələk vuran qılıqca,
Gücün çatsa döz indi.

İlyas deyər, qaş indi,
Göz olmasa qaş nədi.
Ondakı ağıl yoxdu,
Üstündəki baş nədi.

İlyas deyər, gəlməsən,
Hər məclisə gəlmə sən.
Gələndə ağır otur,
Artıq kəlmə kəsmə sən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlyas deyər, daşa mən,
Həsrət qaldım qaşa mən.
Şəklim həkk olubdu,
Ata oldum daşa mən.

İlyas deyər, gəz indi,
Dolan indi, gəz indi.
Məcnun Leyli axtarıb,
Səhralarda gəz indi.

İlyas deyər, bir üzə,
Bir gözə bax, bir üzə.
Məclisdə hər söz olar,
Birini vermə biruzə.

İlyas deyər, elindi,
Şanə istər tel indi.
Mərd oğul, mərdanə qız,
Yə'qin bilin elindi.

İlyas deyər, yara yar,
Kəs sinəmdən yara yar.
Bu dərd məni öldürər,
Həsrət qaldı yara yar.

İlyas deyir: yar, a yar,
Sirdaş olsun yara yar.
Vəfalı dost itirmə,
Dar günündə yarayar.

İlyas deyər, yar yara,
Yaraşıqdı yar yara.
Həyatı hədər gedər,
Kəc baxanda yar yara.

İlyas deyər, yar indi,
Kəs bağrımı yar indi.



Tələsimə, Əzrayıl,
Gəlib çıxar yar indi.

Ay İlyas, gözdə yanar,
Kabab çəkdin, közdə yanar.
Ucundvn oda düşdüm,
Qaş alışar, göz də yanar.

İlyas deyər, tər məni,
Yarım görməz tər məni.
Deyən əcəl gəlibdi,
Yaman basır tər məni.

Ay İlyas, məzara məni,
Qoysunnar məzara məni.
Yerimi sənə deyərəm,
Az axtar, az ara məni.

İlyas deyir, vaya döndü,
Göz yaşım çaya döndü.
Toya tədarük gördüm,
Axırı vaya döndü.

İlyas deyir, dərindi,
Yaralarım dərindi.
Qanımla bağ suladım,
Zalım fələk, dər indi.

İlyas deyər, dər indi,
Öz barını dər indi.
Düşmə eşqin bəhrinə,
Üzmək olmaz dərindi.

İlyas deyər, sərindi,
Dər gülünü, sər indi.
Gəl dilinə qıfıl vur,
Yoxsa gedər sər indi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlyas deyər, dağlayar,
Bu sinəmi dağla, ar.
Yüz yerimdə yaran var,
Təbib gəlsə dağlayar.

İlyas deyər, tanıyar,
Göz gördüyün tanıyar.
Gözüm yollarda qaldı,
Niyə gəlmir, hanı yar?

İlyasın öz yeri var,
Şəyirdin yüz yeri var.
Həldir-hüldür danışma,
Hər sözün, söz yeri var.

İlyas deyər, qazanı
Zəhmət çəkən qazanı.
Hər elm bir dəryadı,
Kim öyrənsə qazanı.

İlyas deyər, ana səni,
Qalan istər, ana səni.
Dostunu onda tanı,
Dar günümdə ana səni.

İlyas deyər, budağa,
Bülbül qonar budağa.
Mum kimi əriyirəm,
Doyammıram bu dağa.

İlyas deyər, güləsən,
Gəl toxunma, gülə sən.
Özünə vərdiş eləmə,
Çox danışıb güləsən.

İlyas, yaza nə qaldı,
Qışdı, yaza nə qaldı?



Yaşı tökən gözlərdi,
Axdı üzə nə qaldı?

İlyas deyər, göz ağlar,
Qaş çatılar, göz ağlar.
Sinəmdəki bu dərdi,
Dil danışar, göz ağlar.

İlyas deyər, ay hayıf,
Necə deyim vay hayıf!
Cavan məzara getdin,
Mən etmədim toy, hayıf!

İlyas deməz bivəfa sən,
Çox çəkmisən cəfa sən.
Qanlı fələk qoymadı,
Bir sürəsən səfa sən.

İlyas, canan yaxşıdı,
Dərdin qanıan yaxşıdı.
Yadlara bel bağalma,
Doğma ana yaxşıdı.

İlyas, canana can de,
Oda yanana can de.
Bı ilqardan yar olmaz,
Nə yalvar, nə də can de.

İlyas gördü mar yatır,
Qaz oyaqdı, mar yatır.
Aldanma şirin dilə,
Altında mar yatır.

İlyas gedir Qazağa,
Yolu düşüb uzağa.
Qeyrətdə Kərəm kimi,
Qaçaq gəlməz Qazağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay İlyas, dərman otu,
Loğmana dərman otu.
Bizim dağlarda bitir,
Min dərdə dərman otu.

İlyas deyər, Göybulaq,
Göy talada Göybulaq.
Suyunnan içən xəstə,
Şəfa tapar, Göybulaq.

İlyasam, yaralı canım,
Dərdli, yaralı canım.
Belə qəmgin baxanda,
Dedim yar alı canım.

Qərənfil əsdi neylim?
Ömrümün qəsdi neylim?
Dili dost, qəlbi tüşman,
Mən belə dostu neylim?

Çaya getdim-buz oldu,
Şəkər aldım-duz oldu.
Gör mənim qara baxdım,
Dərdsiz dərdim-yüz oldu.

Gejələr keşdi qərəldən,
Səni seşmirəm Maraldan,
Nə dərdim var, nə qəmim,
Sənsən məni saraldan.

Dəryamda çıra yanır,
Çıra gör nə rəng yanır.
Hərə bir tərvət paylıyır,
İşdikcən ürək yanır.

Çay ollam, bulağ ollam,
Axmaram dumağ ollam.



Gəldiyin yolu bilsəm,
Ora göz-qulağ ollam.

Qaşım var, aşım yox,
Ağlamaxnan işim yox.
Bu dünyada kef çəkək,
O dünyada işim yox.

Bu dağlar-daşdı dağlar,
Yol sənnən aşdı dağlar.
El sənnən üz döndərdi,
Vəhdəhin keşdi dağlar.

Başı bəlgəli dağlar,
Divi kölgəli dağlar.
Qəribəm, yol gözdərəm,
Havaxd el gəli dağlar.

Gözəl gəzər gözədə,
Kəklik otdar gözədə.
Qurban olum qaşına,
Mənə baxan gözə də.

Bitibdi dağda lala,
Oxşur gül üzdə xala.
Sidqiynən sevən ürək,
Axır çatar vüsala.

Nərgizdi dərə billəm,
Dəribən sərə billəm.
Yar bizə gəlmiş olsa,
Ölü olsam dirilləm.

Ay doğub batarmola?
Ülkər çatarmola?
Ana baladan ayrı,
Dincəlib yatarmola?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağda biyan varmola?
Gülə ziyan varmola?
Sonsuzun bu gününə,
Yayıx deyən varmola?

Dağlarda qar varmola?
Yollarda tar varmola?
Yorulub yolda qalsam,
Yar mənə qarğarmola?

Qara atın kəkili,
Tel-tel olub tökümü.
Hər yetənə yar desəm,
Yar bağadan tökülü.

Eləmi çatar gələr,
Yəhərə yatar gələr.
Kərəm qaçaq olsa da,
Haraya çatar gələr.

Güllə kimi üç oğul,
Bərkdən boşdan keç, oğul.
Köhlənnən köhlən törər,
Qoç igiddən qoç oğul.

Hər gün ağlamaq olmaz,
Gözü dağlamaq olmaz.
Xoş gün üçün tanrıya,
Ümid bağlamaq olmaz.

Hər ne'mətin adınnan,
Doymax olmaz dadınnan.
Mollaya halva gösdər,
"Yasin" çıxsın yadınnan.

Su götürdüm hovuzdan,
Suyu çıxıbdı dizdən.



Düşmən öz Vətənimi,
Zorla ayırdı bizdən.

Əzizim, dad əlinnən,
Fələyin dad əlinnən.
Canım cəzana gəldi,
Hər gün fəryad əlinnən.

Bağlamışam şələ mən,
Yük altdayam hələ mən.
Düşmən çəkən bu dağa,
Dözəmmirəm belə mən.

Razıyam doğrudan mən,
Qaçıram oğrudan mən.
Göz görə rüşvət alır,
Qorxuram "doğrudan" mən.

Mən aşiqəm sac qalar,
Ocaq sönər sac qalar.
Müdirin qarnı doysa,
Gözü doymaz, ac qalar.

Aşıq yolun çaş gələr,
Gözlərinnən yaş gələr.
Kasıf yağış isdiyər,
Göydən yerə daş gələr.

Dağdan bir qaya düşdü,
El-oba vaya düşdü.
Elimdən ayrı tüşdüm,
İşim qəzaya düşdü.

Kababçıyam, şişim yox,
Qocalmışam dişim yox.
Bu dünyada qəm çəkdim,
O dünyada işim yox.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tənha qalan, a dağlar,
Dərdə dalan, a dağlar.
Sənsiz yaşayan qərib,
Edir nalan, a dağlar.

Dumandır başın dağlar,
Bilimmir yaşın dağlar.
Qənimin haqdan olsun,
Söküldüm, daşın dağlar.

Danış, dərdini bilim,
Ağla göz yaşın silim.
Düşmanın dili yansın,
Doğransın dilim-dilim.

Mənəm ellər ayrısı,
Bülbül güllər ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər yarısı.

Eləmi nəsə gəlsin,
Yollarv kəsə gəlsin.
Sülhün səsi ucalsın,
Ellərdə səsə gəlsin.

Mən aşıq, nə yamandır,
Dərd canda nə yamandır.
Sevmən el adətidir,
Ayrılıq nə yamandır.

Eləmi, suda yandı,
Sel gəldi, su dayandı.
Eşq oduna tutuldum,
Alışdı, su da yandı.

Eləmi, məzələndi,
Ay doğdu, məzələndi.



Vəfalı yarı gördüm,
Ömür-gün təzələndi.

İzləyir tufan məni,
Gözləyir canan məni.
Düşmən nə karədir ki,
Saxlaya yoldan məni.

Əzizim, baxtı yarım,
Baxtımın taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı yarım.

Tez düzülün sıraya,
Bəyi çəkin araya.
Sən bütövü qamarla,
Yaxın durma,paraya.

Dünya atəş rənginə,
Boyandım atəşinə.
Sular söndürəmmədi,
Su yandı atəşinə.

Qərənfiləm, al xaram,
Açılmağa qorxaram.
Camalını, görsəm yar,
Xəstə olsam qorxaram.

Çaya baxdım, çay hanı?
Aya baxdım, ay hanı?
Düşdüm yar sorağına,
Eldə sənə toy hanı?!

Qəriblik yaman olur,
Sovrulur saman olur.
Nə bir haraya çatan,
Nə də bir anan olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Su gələr axar gedər,
Qayalar yıxar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

Eləmi, gül anbarı,
Aşiqi gül an barı.
Hicran qoymur göz açam,
Dərd qoymaz güləm barı.

Eləmi, keçdi mənnən,
Ox dəydi, keçdi mənnən.
Mərdə körpü oldum,
Namərd də keçdi mənnən.

Araba bizim olyadı,
Təkəri qızıl olaydı.
Girəydim yar qoynuna,
Gecələr uzun olaydı.

Əzizinəm, nar daşı,
Nər dığırlar, nər daşı.
Qırılır qoy qırılsın,
Sən aşağıdan, nər daşı.

Eləmi, şələ səni,
Tanımıram hələ səni.
Əzrayılın gücü çatmaz,
Öldürəcək şələ səni.

Eləmi,Qazan ağlar,
Qav sızıldar, qazan ağlar.
Qürbətdə ölənləri,
Qəbrin qazan ağlar.

Eləmi, keçən ağlar,
Bu yoldan keçən ağlar.



Vətənnən ayrı düşən,
Elinnən köçən ağlar.

Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Ovçu, qolun qurusun,
Maral vurduğun yerdə.

Burda bir maral sızlar,
Boyanıf qana sızlar.
Namərdin gülləsinən,
C an verəni maral sızlar.

Eləmi, maral azdı,
Ovçu çox, maral azdı.
Qəm çəkmə, yaralı könül,
Ölmərəm, yaram azdı.

Əzizim, aralandım,
Ox dəydi, yaralandım.
Bala qədrin bilmədim,
Ox dəydi, aralandım.

Eləmi , sal daş altda,
Torpax altda, daş altda.
Cavan ömrüm çürüdü,
Torpax altda, daş altda.

Maralın gözü qannı,
Dizi qan, üzü qannı.
Oğlumuz əldən getdi,
Tutmadı özü qannı.

Eləmi, mə’murlardı,
O gələn mə’murlardı.
Əzrayıl, adım beddam,
Can alan mə’murlrdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləmi  bir üzü,
Ördək göldə bir üzə.
Bağban yad qoyma bağa,
Bir sındıra , bir üzə.

Aşıq deyər, ay ağa,
Möhrü göynər, ay ağa.
Dağların sinəsinnən,
Çaylar gedər ayağa.

Aşıq deyər, yayını,
Çək oxunun yayını.
Ay ilnən gərdiş eylər,
Bahar verər yayını.

Aşıq deyər yamanə,
Bu yol gedər Yamənə.
Yaxşılara can qurban,
Baş əymərəm yamana.

Aşıq deyər: nə qara,
Qəhr eyləyər, nə qara.
Xoş günün tərsə dönüb,
Heç olmaya nə qarə.

Aşıq deyər: nə yazdı,
Nə payızdı, nə yazdı.
Vəfalı dostu görmək,
Böyük nəzir, niyazdı.

Yox aşıq, nadanam,
Doğru sözü nə danam.
Hamı deyir, aliməm,
Heç demirlər, nadanam.

Aşığam elçi məni,
Gözəldir elçi məni.



Öz sevdiyim bir qıza,
Göndərin elçi məni.

Burdan dörd bacı keçdi,
Baxdı qıyqacı keçdi.
Ömrüm bəhərsiz oldu,
Günnərim acı keçdi.

Torpax da ac olmaya,
İnsannan bac olmaya.
Elə dünya yarana
İnsannar qocalmaya.

Şana saçdı olaydım,
Sürmə qaşdı olaydım.
Sinnim geri dönəydi,
On beş yaşda olaydım.

Mən aşiqəm, ay Xumar!
Gecə sərxoş. ay xumar.
Sevgilim cavab verməz,
Ha yatır xumar-xumar.

Aşıq nə gözəl yazdı,
Mirzələr gözəl yazdı.
Qumru kimi danışan,
Sevgilim telli yardı.

Mən aşiqəm dərindi,
Gülü bağdan dərindi.
Bələdçim, kor taleyim,
Düşdüm, quyu dərindi.

Xəbər verin, o yara,
Geyinməsin gül-xara.
Aşiqi nakam getdi,
Qismət oldu, gül xara.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq, adın şirindi,
Fərhad dostu Şirindi.
Dostdan dosta gələn pay,
Beçə baldan şirindi.

Mən aşiqəm, üz barı,
Canan gəldi üzbarı.
Azad bağda gül açıb,
Nazlı Dilbər, üz barı.

Aşıq deyər: nə danə,
Sirin verмə nadana.
Axtardım nə gül tapdım,
Viran bağda nə danə.

Mən aşiqəm, alimdir,
Zaman mənə alimdir.
Gözüm gördü, şad oldum,
Azad ana elimdir.

Aşıq, bax işini gör,
Bağa bax, işini gör.
Sən yatma, kamil ovçu,
Maralın baxışını gör.

Mən aşiqəm, sənə yar,
Vəfa verdim, sənə yar.
Qərib aşıq, qürbət el,
Canım aldın, sən a yar!

Aşıq deyər: görüncə,
Siyah telin görüncə.
Get bir mərdə qul ol sən,
Namərd üzün görüncə.

Aşıq deyər: evinə,
Xanəsinə, evinə.



Yığıb qəmlər yağışı,
Viran könlüm evinə.

Aşıq deyər: avara,
Məcnun gəzər avara.
Uyma namərd fe'linə,
Səni qoyar avara.

Aşıq deyər: üzhaüz,
Sonam göldə üzhaüz.
Qarı düşmən dost olmaz,
Yalvarsan da yüzhayüz.

Aşıq deyər: dərində,
Dayazında, dərində,
Sidqi, qəlbi düz olan,
Hərgiz qalmaz dərində.

Aşıq deyər: can deyər,
Vəfalıya can deyə,
Görmədim nanəciblər,
Cananına can deyə.

Aşıq deyər: ay hayıf!
Elim oldu, ay hayıf.
Sənə könül verdim,
Ayrı düşdüm, ay hayıf.

Aşıq, nə danə gördüm,
Xalın nədanə gördüm.
Tülən tərlan, tuş oldum,
Axır nadanı gördüm.

Aşıq deyər: yasına,
Namərd boynu ya sına.
Nanəcibə söz demə,
Ya inciyə, ya sına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarşıda ağarmasın,
Rəqiblər ağarmasın.
Ölsəm,tək mən ölüm,
Dost zülfü ağarmasın.

Yol düşdü belə dağa,
Bu zülmə, belə dağa.
Ey sevgilim,məndən qeyri,
Kim dözər belə dağa.

Qarşıda sarı gördüm,
Tərlanı sarı gördüm.
Yarım qaş-göz atar,
Rəqibə sarı gördüm.

Qarşıda yaman bala,
Dil vurma yaman bala.
Görüm bəlaya düşsün,
Yamana yaman bala.

Eləmi, yara bağlar,
Bayqular yara bağlar.
Yaramı yar bağlasın,
Yar yaxşı yara bağlar.

Eləmi,  belə bağlar,
Kəmərin belə bağlar.
Üzmədik yar qönçəsin.
Viran olsun belə bağlar.

Əzizinəm, gül səndə,
Danış sən də, gül sən də.
Mən sənə vurulmuşam,
Dodaq büzüb, gül sən də.

Əzizinəm, qara sal,
Borana sal, qara sal.



Qoyma dürüst baxmağa,
Dəm gəl, gözə qara sal.

Aşiq oldum yara bir,
Yar qovuşsun, yara bir.
Eldən ayrı dolanma,
Xeyrə, şərə yara bir.

Mən aşiqəm, bir xala,
Üzündəki bir xala.
Kaş əhdimiz tuş ola,
Bir hədəfə, bir xala.

Əzizim, dağ yeridi,
Sinəmdə dağ yeridi.
Adam var toz tərpətməz,
Adam var, dağ yeridi.

Aşiqəm, o da yaxşı,
Pərvanə oda yaxşı.
Yaman arvad pis oğul,
Olmaya o da yaxşı.

Qapıdan huri gəldi,
Gözümün nuru gəldi.
Arxı kim təmizlədi,
Suyu duru gəldi.

Aşiqəm, çəkən dərdi,
Çəkdikcə çəkəm dərdi.
Yüz dəvə çəkə bilməz,
Bir canım çəkən dərdi.

Aşiqəm handa mələr,
Urumda, Şamda mələr.
Yaxasız köynək geyən,
Bacasız damda mələr.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən aşiqəm, yaman at.
Çəkib oxun, yaman at.
İnsanı tez qocaldar,
Yaman arvad, yaman at.

Aşiqəm, o da yaxşı,
Pərvanə oda yaxşı.
Bir ayrılıq, bir ölüm,
Olmaya o da yaxşı.

El köçdü, binə qaldı,
İmanə, dinə qaldı.
Mənim sənlə görüşməm,
Qiyamət günə qaldı.

Mən aşiqəm, o yan gül,
Oyan, bülbül,oyan, gül.
Gec açıldın, tez soldun,
Məni ağlar qoyan gül.

Aşiqəm, çaranı yaz,
Qələm al, çaranı yaz,
Əzəl dəftər başına,
Mən bəxti qaranı yaz.

Aşiqəm, mən qara yaz,
Bülbül oxur, qara yaz.
Əlinə al qələmi,
Ağ üstünə qara yaz.

Mən aşiqəm bir ata,
Bir oğuldur, bir ata.
Səksən qatır, bir dəvə,
Yüklənibdir bir ata.

Ağlayan yaş ğalayar,
Gözünən, çaş ağlayar.



Mənim dərdimi duyan,
Cigəri daps ağlayar.

Dağları qar qucar yatar,
Sananı sar qucar yatar.
Cəfanı bülbül çəkər,
Gülü xar qucar yatar.

Aşiqəm gül əsəndə,
Danışıb güləsən də.
Bülbülün bağrı çatdar,
Yel dəyib, gül əsəndə.

Mən aşiqəm bir yerdə,
Bir gbydədir, bir yerdə.
Haqq yaratdı, görmədi,
Mən görmüşəm bir yerdə.

Ağlaram bilən olmaz,
Gözyaşım silən olmaz.
Dəli könül, ah çəkmə,
Haraya gələn olmaz.

Ağlaram, tellər ağlar,
Yaş tökər, sellər ağlar.
Qəminin dərdin duysa,
Özgələr, ellər ağlar.

Aşiqəm, dərdi yarə,
Xəstənin dərdi yarə.
Billah, cana doymuşam,
Demərəm dərdi yarə.

Aşiqəm, yüz də dönər,
Əlli də yüzdə dönər.
Məhəbbət gözdə olar,
Yar baxar, gözdə dönər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq so deyib ağlar,
Sünbül su deyib ağlar.
Dəryada bir gül bitmiş.
O da su deyib ağlar.

Əzizim, bu dağınnan,
Sallan gəl budağınnan.
Sənə yaxşılıq deyəllər,
Mən ölsəm bu dağınnan.

Aşiqəm, o diyarə,
Yol gedər o diyarə.
Zülfünü kəmənd eylə,
Məni çək o diyarə.

Aşiqəm bir dəm ara,
Neştər vur bir damara.
Məni zülfün vurubdur,
Sən vurma, bir də mara.

Aşiqəm yara məndə,
Dərd məndə, yara məndə.
Cəfa çəkdim, yetmədim,
Sevgili yara  mən də.

Aşiqinəm, oyan, dağlar,
Al qana boyan, dağlar.
Bu yan zülmət görünür.
Necədir, o yan dağlar?

Aşiqəm, yaz məməni,
Qələm al, yaz məməni.
Olaydım qış quzusu,
Əməydim yaz məməni.

Əzizinəm, neylim sənə,
Düşübdür meylim sənə.



Mən dösəm üzüm dönsün,
Sən dönsən, neylim sənə.

Əzizinəm ağ daşı,
Ağ düyüsü, ağ daşı.
Namərd öldü, iş oldu,
Tək desinlər ağ daşı.

Aşiqəm, mən də bunun,
Nəyi var məndə bunun.
Çox bəlalar çəkmişəm,
Yolunda mən də bunun.

Aşiqəm yüz gün ağlar,
Qaş-gözü süzgün ağlar.
Yarınnan ayrı düşmən,
Bir gün yox, yüz gün ağlar.

Aşiqəm, çimən yerdə,
Gül bitər çimən yerdə.
Yara köynək olaydım,
Soyunub çimən yerdə.

Aşiqəm, qara gözlər,
Qara qaş, qara gözlər.
Yıxıbdır dədəm evini,
Səndəki qara gözlər.

Aparar tatar məni,
Qul eylər satar məni.
Bir vəfalı dost olsa,
Axtarar, tapar məni.

Mən aşıq, təzə nəm var,
Təşnəm var, təzənəm var.
Öpülüfsənmi, a sevgilim,
Üzündə təzə nəm var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzizim, necə yazım,
Qələm yox, necə yazım.
Sənsiz keçən günümü,
Ömrümə necə yazım.

Aşiqəm, belə qandır,
Didəm bax, belə qandır.
Baş yastıqda, göz yolda,
Get, yara belə qandır.

Aşiqəm, quraq oldu,
Yar mənnən iraq oldu.
Gözdən axan qannı yaş,
Çöllərdə bulaq oldu.

Aşiqəm, ərdivana,
Ayaq bas nərdivana.
Sənin qədrin mən billəm,
Nə bilər hər divana.

Əzizim, üzdə donar,
Əllidə yüzdə donar.
Məhəbbət gözdə olar,
Görməsə, üz də donar.

Aşiqəm, mənəm sənsiz,
Şad olub gül mənəm sənsiz.
Burada ceyran mələsə,
Bil ki, o mənəm sənsiz.

Aşiqəm, yana gördüm,
Qəlyanı yana gördüm.
Səksən oğul, qırx ana,
Yüz əlli ana gördüm.

Dərd belə canda olu,
Cəsəddə, canda olu.



Yar gəlif seyr etməyə,
Açmışam canda yolu.

Eləmi, təzə yaydır,
Kamandır, təzə yaydır.
Yarım daldan çıxanda,
Deyirlər təzə aydır.

Aşiqəm, od adamı,
Cənnətin od adamı.
Yandırsa yar yandırar,
Yandırmaz od adamı.

Aşiqəm mən, ac arı,
Yuyulmamış acarı.
Hər kim yara pis desə,
Dilin vursun ac arı.

Aşiqəm mən, yüz yalvar,
Yüz oxu, yüz yalvar.
Fələk bildiyin eylər,
Sən istəsən yüz yalvar.

Əlim ayrı, üz ayrı,
Doxsan ayrı, yüz ayrı.
Mən ki, sənnən dömərrəm,
İstərsən dön yüz ayrı.

Aşiqəm, köhnə dağı,
Gəzirəm köhnə dağı.
Yeni bir dağ tapdım,
Unutdum, köhnə dağı.

Uçan ördək, necəsən?
Neçə göllər keçəsən.
Yolunda ollam duzax,
Bəlkə6 burdankeçəsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən aşiq o da yandı,
Yar yarsız o da yandı.
Ayrıldıq, qəm dalınca,
Mən getdim, o dayandı.

Bulaq başında pıtraq,
Ayar gəl çıx, oturaq.
Birin sən de, birin mən,
Bu sevdadan qurtaraq.

Əlimdə ləngəri dürr,
Sini dürr, ləngəri dürr.
Sənə gələn qadanı,
Mən alım, sən geri dur.

Su axar, düzə gələr,
Üzü gündüzə gələr.
Yarım çıxar gəzməyə,
Dolanar bizə gələr.

Mən aşıq, sarı qaldı,
Gün gedif sarı qaldı.
Sən görüşə gəlmədin,
Gözümdə sarı qaldı.

Dağ ayrı, duman ayrı,
Qış ayrı, kaman ayrı.
Həmişə cüt gəzirdik,
Gəzdik bir zaman ayrı.

Ceylannar düzə çıxıf,
Lalələr dizə çıxıf.
Ceyranımın elçisi,
Doxsana, yüzə çıxıf.

Durnam saralı getməz,
Bağrı yaralı getməz.



Dəstəsinnən yan düşər,
Eldən aralı getməz.

Eləmi, qıyma mənə,
Yaram var, qıyma mənə.
Məni bir namərd vurub,
Sən mərdsən, qıyma mənə.

Bağada qora dərdim,
Üzüm yox, qora dərdim.
Qorxuram vaxtsız ölüm,
Aparam gora dərdim.

Əzizinəm, tikəni,
Qara günnər tükəni.
Bu dərdi kimə satım,
Könlüm olub tükəni.

Teşt altında dələmə,
Qaşın bənzər qələmə.
Mən səni gizli sevdim,
Niyə yaydın aləmə.

Eləmi, necə dağlar,
Qarşıda neçə dağlar.
Yetim yanağı bilir,
Göz yaşı necə dağlar.

Əkin əkdim, zəmi bir,
İldə gəlir dəmi bir.
İstərəm sizə gəlim,
Dərya iki, gəmi bir.

Araz axar sini-sini,
Asta deər nəğməsini.
Köynək altda yaram var,
Yavaş aç düyməsini.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əziziyəm Böləli,
Açıq olur el əli.
Burda bir dağımız var,
Çağırırlar Böləni.

Araza gözüm düşüf,
Üstünə izim dühüf.
Suyuna qulaq asın,
Səsminə sözüm düşüf.

Araz axar lilinən,
Dörd bir yanı gülünən.
Qismət ola danışam,
Uzaq düşmüş elinən.

Arazım gülər keçər,
Suyunu ələr keçər.
Ürəyimdə olanı,
Sevgilim bilər keçər.

Araz suyu sərindi,
Yazın gəlmə dərindi.
Ümid var yara çatam,
Yarın evi göründü.

Arazın körpüsü var,
Çaylapda çarpısı var.
O ceyrana dəyməyin,
Südəmər körpəsi var.

Arazım dayanmadı,
Dağlara doyammadı.
Sürünü qurd apardı,
Çobanım oyammadı.

Araz axar çöllərə,
Səsi düşər ellərə.



Dərdimi gizli dedim,
Hardan düşdü dillərə.?

Arazım qurumasın,
Azmasın, qurumasın.
Səni mənnən eliyən,
Ömrünən yarımasın.

Arazınam sərinəm,
Məhəbbətdə dərinəm.
Yüzü yüz söz söyləsə,
Yenə də mən mən səninəm.

Əzizinəm, gül ağlar,
Bülbül ağlar, gül ağlar.
Yardan ayrılan könlüm,
Aylar deyil, il ağlar.

Əzizinəm, arı şanda,
Kirpiklər qovuşanda.
Mələklər şadlıq eylər,
İki yar barışanda.

Tut ağacı buruldu,
Su dibində duruldu.
Hamının yarı gəldi,
Mənim boynum buruldu.

Əzizinəm, gül üstə,
Elin gözü gül üstə.
Bülbül fəğan eyləyər,
Bir üzülmüş gül üstə.

Əzizinəm, qar yağar,
Qara saça qar yağar.
Yar gəlməsə, evimizə,
Buz döşənər, qar yağar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ceyran otlar yol üstə,
Bülbül qonar kol üstə.
Kaş tərlanım olaydım,
Gəzdirəydim qol üstə.

Əzizinəm, Gəncə haray!
Şirvan hay, Gəncə haray!
Sevgilim küsüf getdi,
Mənə bir əncam haray!

Suya denən axmasın,
Aşiqini yaxmasın.
O gözlərə tə'lim ver,
Mənə bikar baxmasın.

Kirdivanı buz aldı,
Əyri su da düzəldi.
Qəriblikdə can keçdi,
Ömrüm xeyli azaldı.

Dağ başın qar aldı,
Sınıq qəlbim daraldı.
Bu qışdan çıxa bilsəm,
Yaxşı günə nə qaldı?

Əzizinəm, xan eylər,
Xan divanın xan eylər.
Bir başa iki yumruq,
Onu ancaq iki yumruq,
Onu ancaq xan eylər.

Mən aşıq ahu-zarda,
Canım dərddə, azarda.
O günnənkin qul oldum,
Satıldım hər bazarda.



Əzizinəm, sürən olmaz,
Bir xoş gün sürək olmaz.
Şahın zülmü yüz olar.
Rəhmini görən olmaz.

Eləmi, qamçı mənnən,
Dolandı qamçı mənnən.
Daha yoxdu taqətim,
Əl çək a qamçı mənnən.

Coşuf çağladı sellər,
Şimaldan əsdi yellər.
Azadlığı almışıq,
Bərk dayanın, ay ellər.

Aşıq, dolaq altına,
Sarı dolaq altına.
Yaşa üç rəngli bayraq,
Biz də dolaq altına.

Əzizim, bəzən, yeri,
Key, sallan, bəzən, yeri.
Dərd-qüssə gələ bilməz
Azadlıq gəzən yeri.

Qara baxtım, o yandı,
Dərdim ona əyandı.
Haqq-ədalət yetişdi,
Qara baxtım oyandı.

Bu dağdan nəsə gəldi,
Yığıldı səsə gəldi.
Ucaldı sülhün səsi,
El-oba səsə gəldi.

Arx üstdən yarpızı dər,
Bostannan qarpızı dər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bulaqda qız çələngi,
Əl uzat, bir qızı dər.

Yuxuda gəmi gördüm,
Sən getdin, qəmi gördüm.
Davalaşdım, qan tökdüm,
Oyanıb, səni gördüm.

Qoşa təpəni aşdım,
Düzlərində dolaşdım.
Sinəm od tutub yandı,
Bulala sevdalaşdım.

Nənəmin bağçası var,
Sandığı bağçası var.
Çil toyuğa xoş gələn,
Bağı var, taxçası var.

Dağ döşündə lalələr,
Ləçəyində jalələr.
Hər yerdə toy-düyündür,
Əllərdə piyalələr.

Əzizinəm qana dağlar,
Verib baş-başa dağlar.
Yarım səndə çox gəzib.
Səni yüz yaşa, dağlar.

Bu yola yol salaydım,
Karvanı bol salaydım.
Bileydim ayrılıqdı.
Boynuna qol salaydım.

Qəlyanı mən  çəkərəm,
Səninlə tən çəkərəm.
Dərdin qoy dərdim üstə,
Onu da mən çəkərəm.



Kürəyim dağa verrəm,
Dağa qadağa verrəm.
Eşitsəm yarım gəlir,
Canım sadağa verrəm.

Dərdin dərmanı ollam,
Gülün xırmanı ollam.
Sən boyda, sən buxunda,
Yarın qurbanı ollam.

Aşıq biriylə gərək,
Kəhər diriylə gərək.
Dünyada gözəl çoxdur,
İlqar biriylə gərək.

Gedirdim Kür yaxası.
O qız mənə baxası.
Bənövşədən köynəyi,
Qızılgüldən yaxası.

Əzizinəm gözə də,
Ceyran gəzər gözədə.
Sənə də qurban olum,
Sənə baxan gözə də.

Yatmış idim, oyandım,
Dərdə-qəmə boyandım.
Daş olsam əriyərdim,
Torpaq idim, dayandım.

Eləmi, baxsam aya,
Qayadan baxsam aya.
Zərrəcə üzün görsəm,
Namərdəm baxsam aya.

Eləmi, dağı dannar,
Zülfü üzə dağınnar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Naşı ovçu ov vurmaz,
Qayıdar dağı danlar.

Eləmi, gün düzələ,
Günorta gün düzələ.
Gecə gördüyüm yuxu,
Düşəydi gündüz ələ.

Eləmi, sarı bağlar,
Gözəllər sarı bağlar.
Gözlərim gözlərini,
Yadına salıb ağlar.

Yeri, daldalan, yeri,
Ləbi bal dadan yeri.
Dili şad, könlü qəmgin,
Adam alladan yeri.

Eləmi, yüz qanadı,
Tərlanın yüz qanadı.
Bad əsdi, zülf pozuldu,
Tel dəydi, üz qanadı.

Bir quş idim uçdum, gəl,
Dost bağına düşdüm, gəl.
Ovçu, yatdığın bəsdi,
Tərlanın odu keşdi.

Əzizim, dolu gözlər,
Dağ başı, dolu gözlər.
Yarı yadıma saldı,
Səndəki dolu gözlər.

Ağrı, çəkil başımnan,
Kirpiyimnən, qaşımnan.
Ay yar, əlini gəzdir,
Qəm dağılsın başımnan.



Qayalar dirəm dirəm,
Suyu hardan endirəm.
Quşlar dilbilməz oldu,
Yara salam göndərəm.

May getdi, iyun gəldi,
Qəlbimə düyün gəldi.
Yaylağa gedən yarın,
Sorağı bu gün gəldi.

Əzizim, taxtımı gör,
Geri dön, bəxtimi gör.
Elə sallandı getdi,
Heç geri baxdımı gör.

Qayadan atdım qarı,
Xonçaya düzdüm narı.
Küsdürüb yola saldım,
Ürəyi sınıq yarı.

Əzizinəm o taya,
Bu xırmandı, o taya.
Zülfünü kəmənd eylə,
Məni çək o taya.

Boyda bir qarış mənəm,
Hər işə qarışmanam.
Əkil, dindirmə məni,
Küsmüşəm barışmanam.

Meyvəsiz bağda nə var?
Bəhrəsiz tağda nə var?
Məcnun xəyallı könlüm,
Leylisiz dağda nə var?

Əziziyəm, lək də var,
Sarı yemiş ləkdə var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

A cüt gəzən bəxtəvər,
Heç demirsən, tək də var.

Aşıq tapar mən zamın,
Atın çapar, mən zamın.
Yara şəfa dərmanı,
Könlüm, apar mən zalım.

Əzizim, haray çəmən,
Carçı mən, harayçı mən.
Yar bu gün seyrə çıxıf,
Haray çöl, haray çəmən.

Eləmi, mülayım,
Bir kimsəyəm, mülayım,
Hər məclisdə söylərəm,
Mən sözümü mülayım.

Əzizinəm, Səfalı,
Bağlarda gül səfalı,
Bu gün bir gözəl gördüm,
Tərsinəsi səfalı.

Əziziyəm, qoymayın,
Cəllad, dərim soymayın,
Vətən deyib ölürəm,
Məni qəbrə qoymayın.

Əzizim, üzü qanlı,
Ayağı, dizi qanlı,
Ölən biz, qırılan biz,
Tutdular bizi qanlı.

Eləmi, balan ağlar,
Ah çəkib balan ağlar,
Ahı ərşə dirənər,
Körpəcə balan ağlar.



Əzizinəm qanad ağlar,
Qəlb titrər, qanad ağlar,
Bülbül yaralı uçdu,
Boyandı qana dağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## IV. DİGƏR ÖRNƏKLƏR

### YUXUYOZMALAR

A

Ağaş görmək - öydə, qohumlarda dünyaya uşax gələcəyini bildirir.

Ağlamax - tərsinə, sevinməkdi,

Ağ paltar görmək pisdi.

Alma görmək şirinnikdi.

At görmək ucalıxdı, fərəhlənəjəksən.

Arava görmək –yaxşı əlamət sayılmır, hardasa ölü düşəcəyi gözlənilir.

Açar tafmax – nəsə müşgül bir işin asanlıxnan düzələcəyi gözlənilir.

Açar itirmək –işlərin dolaşığa düşməsidi.

Açarla qapı bağlamax çətinə, dara düşməyin əlamətidi.

Axar su görmək – çimmək, aydınnıx, işdərin uğurru olmasını bildirir.

B

Bağ görmək – bərəkət deməkdi, belə yuxunu kim muraz üsdə görüfsə murazına çatajax.

Bal görmək – varranmax deməkdi.

Balıx görmək – yaxınnarda xoş bir mətləvə bağlı istəyə çatajaxsan.

Balta görmək – qarşıya qoyduğun məqsədə çatajaxsan.

Baş qırxdırmaq – azar – bezardan qurtarmax deməkdi.

Beşik görmək – uşax olmağa çatajax.

Bağda – ruzunun artmasına işarədir.

Bıçax görmək – hamilə qadın yuxuda bıçax görüfsə, oğlu olajax.

Bəhməz – şaddıx yığnağı olajax.

Boyunbağı – qanı qaraçılıqdı, qəmdi, xəsdəlik olmasına işarədi.

Buynuz - yaxşı əlamət sayılmır. Dava-dalaşa rast gələcəyini bildirir.

C

Camış görmək - Əzrayıldı.

Coraf görmək – darrıxdı.



Ç

Çuval - sirli bir hadisə olduğunu xəbər verir.

Çomaq - qüvvət yuxusudu. Sənə çomax vuruflarsa, nəsə sənə bir zərbə dəyə biləjək.

Çoban - gümrahlıq, tutarlılıq əlamətidi.

D

Yuxuda görsən kin, divar uşdu, tar düşdü, dişin düşdü - sənə zərəl dəyəjək, adamın öləjək.

Yuxuda daraxnan başını darayırsansa, nəyinsə qayğısını çəkəjəksən.

Yuxuda dağ görmüsənsə, ujalajaxsan, sorağın ürəkaçan işlərdən gələjək.

Yuxuda dağdağan görüfsənsə, xata-baladan uzaq olajaxsan.

Yuxuda dava-dalaş görüfsənsə, canın bərk olajaq, ağrı-acı görməyəjəksən.

Daş görmək çətinliyə düşmək deməkdi.

Dovşan görmək – dedi-qoduya səbəb olajaxsan.

Durna görmək səfərə çıxmaq əlamətidi.

Duz görmək mehribançılıq əlamətidi.

Duz tökülmək yaxşı deyil.

Dərviş görmək - muştulux kimi yozulur.

Ə

Yuxuda ət görürsənsə, ağlayajaxsan.

G

Gün görmək - sevgi əlamətidi.

Göl görmək – arxayınnıx, rahatdıx, asudəlikdi.

Güllə atmaq - qüvvətlənmək, güjlənməkdi.

Gülmək - qəmlənmək əlamətidi.

X

Xalça görmək – yoldu.

İ

İlan görmək - günah əlamətidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlan öldürmək - günahdan qurtarmaxdı.
İlan çalırsa - günaha batajaxsan.
İt görmək – səni it kimi çeyniyillər.

K

Kabab görmək - azar-bezardı, naxoşduxdu.
Kömür görmək - kasıflaşmax, xərcə düşməkdi.
Kötük görmək - bəddi, özünə zəfər toxuyajax.

Q

Qızıl - qəm əlamətidi, səsdi.
Qan - qovuşuqdu, qəriflikdə olan adamına qovuşajaxsan.
Qənd - şaddıx əlamətidi.
Qoyun – urzunun artmasıdır.
Qapı - bərəkətə işarədi.
Qatıq - bərəkətə yozulur.
Qoyun – quzuya duz vermək – düşərli yuxudur.
Qarpız - yaxın vaxda şaddanajaxsan.
Qəbiristan - varranmaq əlamətidi.
Qurd - sağlamlıq, gümrahlığa yozulur.
Quş - əlini nəyə atsan asannıqnan düzələr.
Quyu - qarannıx quyuya düşmək dara düşmək, daraşmağa yozulur. Belə yuxunu suya söyləmək məsləhət görülür.

L

Lampa görmək ışıxlıxdı.

M

Muncux - ürəkaçan bir hadisə olajax.

N

Nal- yaxşıdı, kiməsə xeyrin dəyəjək.
Nar - istək yuxusudu, istəyinə qovuşajaxsan.
Nərdivan - ucalmaq, yüksəlməkdi.
Nurani qoca görmək - uğur üstündə olajaxsan.



O

Ov - yaxşı əlamət sayılmır, itgi verəjəksən.
Oğurrux etmək - canındakı azarın çıxmasıdı.
Ot çalmax - güc, qada-baladan uzaq olmaxdı.
Oxlov - kimsə səni möhkəm danlayajax.
Ojaq, aloy - qalmağal olajağ, xata baş verəjək.

Ö

Ölmüş bir adam sənə nə versə, xeyirlidi.
Özünü ayaqyalın görsətsə demək dar günün qurtarır.
Yuxuda öpüşmək – ayrılıxdı
Yuxuda ölü sənnən nə istəsə, ziyanlıdı.

P

Papax görmək – adamın vəzifəsini böyüdəjəklər.

S

Yuxuda savaşmax – barışmaxdı.
Yuxuda saç görmək – yoldu, qonax gələjək.

Ş

Şal, dəsmal - ayrılıxdı.
Şaxta - çətinniyə düşməkdi.
Şəkər - şadlıq yuxusudu.
Şəkil - nigarançılıqdı.
Şir - təhlükə, qara-qorxu olacağına işarədi.
Şum - bərəkət, xeyirxahlıqdı
Şüşə - aydınlıqdı

T

Tut yemək - xeyirridi, əlinə xeyir gələjək.
Toy görmək – sıxıntıdı.
Toyux-cücə-bərəkət, yüngüllük əlamətidi.
Təndir görmək – qəbirdi.

U

Uşax görmək - səsdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ü

Üzüm görmək - ağlamaxdı.

Y

Yağış görmək - aydınlıqdı.
Yəhər görmək – yaş, darrıx əlamətidir.
Yarpız görmək - şəfa tapmaq, sağlam olmax əlamətidi.
Yumurta görmək - azar-bezar əlamətidi.
Yun görmək - rahatlıq, dinclik deməkdi.
Yoxuşa qalxmax - ucalmax, yüksəlmək deməkdi.
Yorğan-döşək - xəstəlik, azar-bezardı.

Z

Zəmi görmək - bərəkətdi.
Zəng görmək - ayrılıq, səfərə çıxmaxdı.
Ziyarətə getmək - xeyirlidi. Belə yuxu görənnər nəzir-niyaz verməlidi.
Zərgərlik əşyaları görmək-qəmli hadisə olacağı gözlənilir.



## TÜRKƏÇARƏLƏR

İtburnunun – Dərgülün qabığından, cavan gövdəsinnən çay dəmləyib soyuqdəymədə işlədillər.

Qurudulmuş itburnu meyvələrinnən çay dəmləyib sidikqovuculuğuna görə içillər.

İtburnunun meyvələrinin qaynadılmış məhlulunu qıc olmuş ələ yaxıllar, bu zaman qıc olma qurtarır.

İtburnunun meyvələrinnən hazırlanmış kompotu, mürəbbəni və şirəni qızıl yelə, qan azlığına, vərəm, sidik və öd kisələri yollarındakı xəstələrə xeyir vermək üçün işlədilməsi məsləhət görülür.

İtburnunun meyvələrinnən dəmlənmiş çaynan tərləməni əldə etmək olur.

Boymadərən otunnan çay dəmləyib içmək böyrək və sidik yollarındakı xəstəliyi qurtarır.

Boymadərən otunnan dəmlənən çayla qanın təmizlənməsinə və qanı artırmağa nail olunur.

Boymadərən otunnan dəmlənən çayı içən yorğun adam öz yorğunnuğunu aradan qaldırır.

Bağırsaqlarda olan ağrıları kəsmək üçün qurudulmuş kəcəb otunnan dəmlənmiş çay içmək xeyirridi.

Qan təzyiqi yuxarı olan adam adi yabanı çay otunnan dəmlənən çay içməlidi. Bu üsul qan təzyiqini normallaşdırmağa kömək edir.

Yaşıl böyürtkən yarpağını əzib ağrıyan dişə qoyanda ağrı azalır.

Adamlarda olan dəmrovu qurtarmaq üçün dovşan alması bitgisinin ağacını və qabığını yandırıb əmələ gələn qurusunu yaraya sürtmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lazımdı.

Böyrəkdə olan ağrıları illik turp yeməklə azaltmaq olur.

Yemiş tumunun şirəsini şəkər ilə içmək sidiyi qovur, böyrəkdə olan ağrını sakitləşdirir.

Ürək-damar xəstəliyinə tutulan adamlar badımcan yeməyinnən istifadə etməlidi.

Ürək xəstəliyi olan adamlar zanbağın yarpaqlarınnan və kökünün xırdavari hissələrinnən çay dəmləyib içsələr, ağrının qarşısını almaq olar.

Quru öskürəyi olannar innab mürəbbəsinnən istifadə etməknən sinəni yumşaldır, öskürəyin qarşısını alıllar.

Diabet xəstəliyinin yüngül formasında qurudulmuş zanbaq köklərinnən dəmləmmiş çay içmək faydalıdı.

Günəbaxanın çiçəkləri və yarpaqlarınnan hazırlanan dərmannan iştahaartırıcı və mə'dənin həzm fəaliyyətini qüvvətləndirmək olur.

Ardıcın qurudulmuş meyvələrinnən sulu bişirmə hazırlamaqnan böyrək ağrılarına və sidikqovuculuğa nail olmaq olur.

Qan təzyiqinin aşağı düşməsini əldə etmək üçün innab qurusunnan istifadə etmək lazımdı.

Qıcqırmanın qarşısını almaq və həzmə kömək etmək üçün darçın bitgisinnən istifadə etmək faydalıdı.

Yemişan meyvələrindən istifadə edən körpəli anaların südü artar və durulaşar.

Ardıc bitgisinin meyvələrinnən dəmlənən çay bədəndə olan söyuqdəyməni tərlədib çıxarır, həm də bədəndə olan qurddarı tökür.



Qan təzyiqinin normallaşması üçün müntəzəm olaraq yemişan meyvələrinnən istifadə etmək lazımdı.

Baş ağrısını kəsmək üçün yemişan meyvəsinnən çay dəmləyib içmək xeyirlidi.

Böyrəyin şişi zamanı əməköməci yarpağını bitgi yağında qaynadıb böyrək və sidik kisəsi nahiyəsinə qoymaq faydalıdı.

Kəklikotunun dəmlənmiş çayı tər gətirir, təzyiqi endirir, bədəni yüngülləşdirir.

Şirin yaranı sağaltmaq üçün çay qurbağasını diri-diri şirin yaranın üstünə bağlayırlar. Bu üsulla bir neçə dəfə bağlanan qurbağa şirin yaranı müalicə edir.

Böyrəkdəki şişləri, böyrəyin böyüməsinin qarşısını almaq üçün qırqovul, kəklik, turac, cavan toyuq əti yemək və pəhriz saxlamaq ən yaxşı müalicə üsuludu.

Göy öskürək tutan uşağa göy qarğa əti yedizdirmək kömək edir.

Ciyər xəstəliyinə tutulan xəstəyə kirpi və porsuq ətinnən istifadə etmək çox faydalıdı. Bu tədbir ilin iyul-dekabr aylarında vaxtaşırı həyata keçirilir.

Güclü zərbədən bədənin müəyyən hissəsi yüksək dərəcədə əzilir, əzilən hissə ağır ağrı verir. Buna qoyun quyruğunun və təzə mal ətinin döyülmüş hissəsi yaxşı tə'sir göstərir.

Böyrəkdəki daşları təmizləmək üçün əmənkömənci, qatırquyruğu və quşəppəyinin qatışıq dəmlənməsi və onu gündə üç dəfə içməklə 2-3 ay qəbul edəndə daşlar xırdalanır, tökülür.

Mə'də yarasını dəvədabanı bitgisinnən bişirilən bişmişi 40 gün hər səhər ac qarına yeməklə tamam qurtarmaq olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göy öskürək tutan uşağı hər səhər tezdən söyüd ağacının altında gəzdirmək, xəstəni 1-2 saat saxlamaq öskürəyin qurtarmasına müsbət tə'sir göstərir.

Soyuqdəymədən sinənin tutulmasının qarşısını almaq üçün ən əlverişli müalicə üsulu keçi piyinin döş qəfəsinə yağlanmasıdı. Ancaq bunu, xüsusən qış vaxtı, soyuqdan gözləmək lazımdı.

Öd kisəsinin şişi nəticəsində öd kisəsinin daralmış yollarını solmaz çiçəyinin dəmlənmiş çayı ilə müalicə etmək olur. Bu müalicə tədbiri hər gün ağrının qurtarmasına qədər davam etdirilməlidi.

Qabaq mürəbbəsinnən müəyyən müddətdə istifadə etmək qanı duruldur, xəstədə olan qurdları tökür.

Xəstədə olan qurddarı tökmək üçün hər səhər tezdən ac qarına qabaq tumlarını yemək faydalıdı.

Yel tutmuş xəstəni ayı yağı ilə müalicə etmək faydalıdır. Bu üsulla iki günnən bir dəfə yel tutan hissə masaj edilir, yağlanır. Müalicə vaxtı xəstə isti yatağa uzanır, və 2-3 saat yatır. Belə müalicə zamanı xəstə soyuqdan qorunmalı və müalicə bir ay davam etdirilməlidi.

Bağırsaqlarda olan qurdları təmizləmək üçün ayıdöşəyi adlı bitgini əzib, bala qatıb, ac qarına iki xörək qaşığı ilə yemək lazımdı. Dərman qəbulundan üç saat sonra nahar etmək olar.

Adamlarda baş vermiş qarın ağrısını ayıdöşəyi otunnan dəmlənmiş çayla müalicə etmək olur.

İştah artırmağın ən gözəl müalicəsi – sumaqdan xörəyə bir xörək qaşığı qatmaq lazımdı.

Göz xəstəliyini yaxşılaşdırmaq üçün razyana bitgisinnən hazırlanmış məhlulu vaxtaşırı gözə sürtmək lazımdı.

Astma və qadın xəstəliklərini andız çiçəyinnən hazırlanan məhlul-



larla müalicə etmək faydalıdı. Bu hazırlanmış məhluldan hər gün ac qarına bir xörək qaşığı qəbul etmək lazımdı.

Böyrək xəstəliyi - ağrısı üçün şaftalı tumunnan hazırlanmış yağı içmək çox faydalıdı. Bu məhlulu hər dəfə ya səhər tezdən, ya da axşam yeməyindən sonra bir xörək qaşığı içmək lazımdı.

Böyrəklərdə qalmış daşları əritmək üçün armud yarpaqlarınnan sulu dəmlənən məhlulu içmək fayda verir.

Sidikqovucu müalicə tədbirlərinnən biri də yemiş şirəsinnən istifadə etmək üsuludu.

Öd qovucu, böyrəklərdəki daşları əritmək üçün qan kəsici xüsusiyyətə malik olan müalicəvi əhəmiyyətə malik qarğıdalı saçaqlarınnan hazırlanmış duru məhluldan istifadə etmək lazımdı.

İştahartırıcı və həzm fəaliyyətini yaxşılaşdırmaq üçün ajqovuq bitgisinin qurudulmuş kökünnən dəmlənən çayı içmək xeyir verir.

Vərəm xəstəliyinin müalicəsi üçün kələm, çuğundur, yer kökü və turpdan birlikdə alınmış qatışıq şirədən istifadə etmək çox faydalıdı. Bu şirəni fasilələrlə hər dəfə səhər tezdən ac qarına üç xörək qaşığı içmək məsləhətdi.

Öskürəy və sinə ağrıları zamanı gülxətmi yarpaqlarının, çiçəklərinin və köklərindən dəmlənmiş çayı içmək faydalıdı.

Radikulit xəstəliyini çöl bənövşəsi ilə qurtarmaq olur. Bu zaman yaz fəslində çöl bənövşəsini yığıb beş litrlik balonda olan ağ neftə qatmaq lazımdı. Bu qatışığı on gün qaranlıq yerdə saxlayarlar. On günnən sonra həmin məhlulu radikulit olan hissəyə yağlamaq lazımdı. Hər il on-on beş gün bu cür müalicə davam etdirilməlidi.

Soyuqdəymədə müxtəlif doşablardan və məlhəmlərdən başqa çobanyastığı, andız kökü, yarpız, kəkotu, qantəpər otlarından qaynadıb yatanda içmək, başı yaylıqla bağlamaq da faydalı müalicə vasitəsidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quru öskürkdə ağ tutun bəhməzi heç ələ düşməz. Onca qram iç, sinəni tamam açsın.

Qara ciyər və öd kisəsinin iltihabını müalicə etmək üçün ən faydalı dərman biyan kökünnən hazırlanmış məlhəmdi. Həftə müddətində hər gün səhər tezdən bir xörək qaşığı içmək lazımdı.

Mə'də ağrısını kəsən yeganə ot nanədi. Çeynəyib ud, mə'dəndəki ağrı kəssin.

Qotur və ekzema kimi dəri xəstəliyini sağaltmaq üçün fındıq ağacını yandırıb, külünü kərə yağla qarışdırıb məlhəm edir və hər gün yara qurtarana qədər yaraya yaxırlar.

Qanlı qusmalarda qurudulmuş cin-cinlindən çay dəmləyib içmək lazımdı.

Saçın tökülməsinin qarşısını almaq üçün saçı əvəlcə təmiz su və sabunla yuyub qurutduqdan sonra, ayran və çümürüklə yumaq çox faydalıdı.

Saçlarda əmələ gələn kəpəkləri, qovu yox etmək üçün gicitikan kollarını göy yarpaqları ilə suda qaynadıb onun suyu ilə başı təmiz-təmiz, bir neçə dəfə yumaq ən əlverişli müalicədi.

Qan azlığından şikayət edən zəif adamların "qoz halvası" (qoz ləpələrindən hazırlanmış) yeməsi xeyirlidi.

Həzm prosesini yaxşılaşdırmaq, susuzluğun qarşısını almaq üçün bolluca ərik meyvəsi yemək kifayətdi.

İshal və dizenteriyanın qarşısını almaq üçün nar meyvəsinin qabığınnan hazırlanmış bişirmədən istifadə etmək əhəmiyyətlidi.

Gecələr rahat yatmaq üçün qatıq içmək xeyirlidi.

Yarada olan irini yetişdirmək üçün bağayarpağı bitgisini yaranın



üzərinə qoyub sarıyıllar. 2-3 gün bu üsuldan istifadə etməklə yara deşilir, irin axır, yara sağalır.

Allergeyaya tutulmuş adama qurudulmuş yarpız bitgisinnən çay dəmləyib içirmək xeyirlidi.

Çivan yarasını soğanla müalicə etmək olur. Yenicə çıxmış çivana soğan bölümünü ocaqda bir qədər isidib yaranın üzərinə qoyub sarımaq lazımdı. Soğan yaranı yetişdirir, irinlədir. Bu zaman irini çıxarır və yaranı yenidən sarıyırlar, yara tez sağalır.

Bağırsaqların təmizlənməsində ən əhəmiyyətli vasitələrdən biri kığ adlanan bitgidi. Baldırqana bənzər bitginin qabığını soyub çiy yemək kifayətdi.

Baldırğanı çiy yemək bağırsaqların təmizlənməsinə kömək edir.

Zökəm və soyuqdəymə zamanı çökə çiçəyinin qurudulmasınnan çay dəmləyib içmək xeyirridi.

Zop, astma, revmatizmi müalicə etmək üçün andızın köklərini təmiz-təmiz yuyur, sonra həmin kökləri əzir, yumşaldır və 0,5 litrik spirtlə qarışdırıb, ağzını möhkəm bağlayıb, on gün qarannıq yerdə saxlayıllar. On günnən sonra həmin məhluldan on gün müddətində hər gün 50 qram töküb içmək lazımdı.

Öskürəyi və sinədə olan ağrıları yox etmək üçün çəmən adlı bitginin qurudulmuşunnan çay dəmləyib içmək faydalıdı.

Bədənin hər hansı hissəsində bıçaqla və ya hər hansı kəsici alətlə kəsilmiş hissənin qanaxmasının qarşısını almaq üçün qara yoncanı əzib yaranın üstünə yaxmaq lazımdı. Bu zaman qanaxmanın qarşısı alınır.

Radiqulit və revmatizm zamanı dovşan alması adlı meyvəni əzib ağrı olan yerə yaxmaq lazımdır. Yaxını gecə edir, sarıyır, səhər açıllar. Yaxı həmin hissəni yandırır, dərini açır. Bu zaman həmin hissəni



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yağlayır və sarıyırlar. Bir neçə gün fasilədən sonra bu tədbir yenə də təkrarlanır. Bu üsulla həmən xəstəliyi müalicə etmək olur.

Diabet xəstəliyinə tutulan adamların yabanı - meşə armudunun qurusunnan istifadə etməsi faydalıdır.

Qan təzyiqinin yüksək olmasını normal hala salmaq üçün zirnic meyvəsinnən hazırranmış kompotdan, mürəbbədən və sadəcə zirnic qurusunnan istifadə xeyirridi.

Şəkər xəstəliyinin şiddətlənməməsi üçün müntəzəm olaraq zoğal, andızkökü, palıd qozasınnan hazırlammış məlhəmdən istifadə etmək lazımdı.

Arı sancan adamın arı sancdığı yerə dərhal pas sürtməklə şişin qarşısı alınır, ağrı kəsilir.

Arı sancan adamın arı sancdığı yeri dərhal duz qarışıqlı qatıx yaxsan həm ağrı yox olur, həm də şiş olmur.

Boymadərən otunnan dəmlənən çay həm qanı artırır, həm də qanı təmizləyir.

Sarılıq və böyrək xəstəliklərində qaymaqçiçəyinin köklərinnən hazırlanmış sulu bişirmədən istifadə edilir.

Hiportoniya xəstəliyində tütünün qurudulmuş meyvələrinnən çay dəmləyib içmək fayda verir.

Mə’də-bağırsaq xəstəliklərində məryəmnoxudunun yarpaq və çiçəklərinnən çay dəmləyib içmək xeyir verir.

Sinqa xəstəliyində böyürtkən yarpaqlarının qaynadılmış məhlulunnan içmək xeyir verir. Böyürtkən yarpaqları təmiz yuyulur, təmiz bulaq suyu ilə qaynadılır, sonra süzülüb 5-6 saat saxlanılır. Alınmış məhluldan hər gün 50 qram ac qarına içilir. Bu, bir həftə davam etdirilir.



Tut meyvəsinin şirəsini kərə yağla qarışdırıf hazırlanan məlhəmlə dəri xəstəliklərini, xüsusən irinli yaraların sağalmasında istifadə edilir.

Daxili qanaxmaya qarşı işlədilən müalicə üsulundan biri də məryəmnoxudu otunun çiçəyinnən dəmlənmiş çayın işlədilməsidi.

Boğaz ağrılarında, diş ətinin və ağız iltihabının sağalmasında qurudulmuş söyüd qabığından hazırlanmış məlhəmnən qarqara edilməsi və içilməsi çox xeyirlidir.

Üzdə əmələ gələn sızanaqların qurtarması üçün böyürtkən yarpaqlarınnan qaynadılıb hazırlanmış məlhəmi işlətmək çox faydalıdı.

Şəkər xəstəliyinə tutulannar böyürtkənin kal meyvəsinin qurudulmuşunnan çay dəmləyib içməlidirlər, bu, xəstəliyin yüngülləşməsinə kömək edir.

Daxili qanaxmanı kəsmək üçün bağ armudunun çiçəklərinnən və yarpaqlarınnan hazırlanmış məlhəmdən istifadə edilir.

Yemişin şirəsinnən yüngül işlədici maddə kimi istifadə edilir.

Qarpızın tumlarınnan bağırsaqlarda olan qurdları təmizləmək üçün istifadə edilir.

Qanazlığında işlədilən ən əhəmiyyətli vasitələrdən biri ajqovuğun köklərinnən hazırlanmış məlhəmin işlədilməsidi.

Bağayapağının qurudulmuş yarpaqlarınnan alınmış şirələr ilə xroniki kastritdə, bağırsaq yaralarında, mə’də-bağırsaq xəstəliklərinin sağalmasında istifadə edirlər.

Sidiyini saxlaya bilməyən uşaqlara qoyunda olan qızıl özən adlı (yemə gedən bağırsaq) bağırsağı bişirib yedirtmək xeyirlidir.

Dizenteriya və qarın ağrılarının qarşısını almaq üçün meşə gilasının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qurudulmuş meyvələrinnən hazırlanmış çaydan istifadə etmək məsləhətdi.

Yabanı meşə gilasının mürəbbə və kompotunnan istifadə etmək soyuqdəymənin də qarşısını alır, xəstəni tərlədir.

Kələm köklərinin sulu bişirilməsinnən istifadə böyrəklərdə olan daşbağlamanın qaşısını alır.

Sidiyini saxlaya bilməyən uşaqlara palıdın yarpaqlarınnan və qozalarınnan qurudulmuş halda alannarınnan qatışıq halda çay dəmləyib içirtməklə sidik buraxmanın qaşısını almaq olur.

Vərəm xəstəliyinə tutulan xəstlərə palıdın qozalarınnan hazırranmış bişmiş südlə qarışdırıf içmək məsləhət görülür. Bu müalicə bir həftənin hər günündə səhər tezdən acqarına iki çay qaşığı xəstəyə içirdilməlidi.

Ürək zəifliyini qüvvətləndirmək üçün müntəzəm olaraq reyhan bitgisinnən hazırlanmış çaydan istifadə etmək məsləhət görülür.

Diabet-şəkər xəstəliyi olannara andsız yarpaqlarının və köklərinin qurudulmuşunnan çay dəmləyib içmək xeyirlidi.

Dəmrovu saxlatmaq üçün gərməşov adlanan bitgini ocaqda yandırır onun qabığınnan əmələ gələn yağlı qurumayları kərə yağla qarışdırıb məlhəm hazırlayırlar. Hazır məlhəmi yaranın üzərinə yaxırlar. Bir neçə dəfə belə edəndə dəmrov qurtarır.

Ödqovucu xassəyə malik olan zirnic yarpaqlarını qurudub çay dəmləmək və istifadə etmək ürəkbulanmanın qarşısını alır.

Sinə ağrılarında və soyuqdəymədə böyürtkən mürəbbəsi və kompotunnan istifadə etmək sinəni yumşaldır.

Qanın təmizlənməsində, beynin qüvvətlənməsində, ürək döyüntüsünün azalmasında çiyələk qurusunnan və çiyələk çiçəyinnən dəm-



lənən çay çox faydalıdı.

Zoğal yarpaqlarının qurudulmuşunnan çay dəmləyib içmək qarın ağrısının qarşısını alır.

Soyuqdəyməyə və sinə ağrılarına moruq yarpaqları və gövdəsinnin qurudulmuş halından çay dəmləyib içmək xeyir verir.

At əvəliyini suda bişirib, yağda qovurub yemək mə’də-bağırsaq xəstəliyinin sağalmasına kömək edir.

Başdan-beyinnən yorğunnuğu çıxartmaq üçün dam otunu əldə əzib iyləmək kifayət edər.

Zehnin möhkəmlənməsi üçün ən əhəmiyyətli vasitələrdən biri quzu beyninin yağda qovrulub yeyilməsidi. Bunu müntəzəm edənlər zehincə möhkəm olur, yaddaşları da möhkəmlənir.

Dam otunun qurudulmuşunnan hazırlanmış çaydan istifadə etmək adamı sakitləşdirir.

Səhləbin kökünnən və çiçəyinnən dəmlənmiş çay sinə sətəlcəmini sağaldan yeganə üsuldur.

Suda bişirilən əncir, heyva yarpaqları, əncir şirəsi, əncir doşabı qan azlığı və ürək çatışmamazlığına ən yaxşı kömək edən müalicə üsuludu.

Böyrək və sidik yollarındakı xəstəlikləri gicirtkan yarpaqları, kökləri və çiçəklərinnən dəmlənmiş çayla müalicə etmək faydalıdı.

Təzə soğan şirəsinnən istifadə etmək qripi qurtarır. Kəkotu çayınnan dəmlənmiş çaydan istifadə etmək sidikqovuculuğu artırır, həzmə kömək edir, zehni qüvətləndirir.

Qıc olmanın qarşısını almaq üçün baldırğan yarpaqlarının qurudulmasınnan hazırlanan çay xeyirlidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Soyuqdəyməni qurtarmaq, sinəni yumşaltmaq, damarları möhkəmləndirmək üçün qantəpər çiçəklərinnən (sarı çiçək) hazırlanmış çaydan istifadə etmək lazımdı.

Gərməşov meyvələrinin qurudulmasınnan dəmlənən çaydan istifadə etmək soyuqdəymədə çox əhəmiyyətlidi.

Zirnic qurusundan və mürəbbəsinnən istifadə etmək ciyər zəifliyinin möhkəmlənməsinə kömək edir.

Böyürtkən yarpaqlarını çeynəmək damağ yarasını sağaldır, ağızda olan qoxunu aparır.

Böyürtkən meyvəsini və yarpağını qaynatmaqla alınan su məhlulu ilə saçı yuyanda saçı qaraldır.

Zoğal ağacının qabığını yandıranda alınan qabıq çürüntülərini quyruq yağı ilə qarışdırıb dəri yaralarına sürtüb sağaldırlar.

Soyuqdəymə, vərəm xəstəliyinə tutulannarı andız çiçəyinnən hazırlanmış çayla müalicə etmək olur.

Uşaqlarda tez-tez baş verən mə'də xəstəliklərində gülxətminin qurudulmuş çiçəklərinnən hazırlanmış çayla müalicə etmək olur.

Təzə dərilmiş əmənköməci yarpaqları ilə dəri yaralarını müalicə edirlər.

Çöl bənövşəsinin yarpaqlarınnan dəmlənən çayla dizenteriyanın qarşısını almaq mümkündü.

Sarılıq xəstəliyini, revmatizmi çöl bənövşəsinin yarpaq və köklərinnən dəmlənmiş çayla müalicə etmək olur.

Qəliz yeldən olan böyrək və sidik kisəsi ağrısına qarşı şüyüd toxumu işlətmək faydalıdı.



Həzmin yaxşılaşması və iştahın artması üçün qurudulmuş ardıc meyvələrinin sulu dəmlənməsinnən istifadə etmək çox xeyrlidi.

Babasıl xəstəliyinin müalicəsində məryəmnoxudu bitgisinin sulu dəmlənməsinnən istifadə etmək məsləhətdir.

Soyuqdəymədə hərarətin azalması üçün söyüdün yarpaqlarını və cavan budaqlarını su buxarında qızdırmaq yolu ilə hazırlanan məhlulardan istifadə etmək faydalıdır.

Malyariya xəstəliyinə tutulannarı yanğısını söndürmək üçün çöl armudunnan işlətməsi məsləhət görülür.

Quru öskürəyə, sinə yumşaldıcı və bəlğəm gətirici dərman kimi işlətməkdə yemiş köklərinnən çay dəmləyib içmək çox faydalıdı.

Yemişin tumlarınnan istifadə etmək bədəndə olan qurdların tökülməsində çox xeyir verir.

Zirnicin spirtli cövhərinnən istifadə etmək sidik kisəsinin və qaraciyərin iltihabının sağalmasına çox xeyir verir.

Qara ciyər xəstəliyinə tutulanın ajqovux otunnan çay dəmləyib istifadə etməsi çox faydalıdır.

Təzə kələm və yer kökünün şirəsinnən içmək mə'də xorası, qəbizlik, qaraciyər xəstəliyinin sağalmasına kömək edən ən dəyərli müalicə üsuludur.

Gülxətmi çiçəklərinin qızıl ləçəklərini və şüyüdlə qarışdırıb, çay kimi dəmləyib içmək quru öskürəyi aradan qaldırır.

Uşaqlarda baş vermiş soyuqdəymələrdə gülxətmi çiçəklərini suda pörtlədib ağrıyan yerlərə qoymaq lazımdı.

Yaman şişlərin müalicə edilməsində əmənkömərcinin köklərinin sulu bişirməsini buğda unu ilə qarışdırıb məlhəm düzəldirlər. Düzəl-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dilmiş məlhəmi şişin üzərinə yaxırlar.

Qaraciyər, öd yolları xəstəliyində əmənköməci çiçəklərinnən və köklərinnən dəmlənmiş çaydan istifadə edirlər.

Çöl bənövşəsinin qurudulmuş köklərinnən və otunnan hazırlanmış çayla dizenteriyanı qurtarmaq olur.

Diabet-şəkəri olannar meşə armudunun qurusunnan müntəzəm istifadə etmələri xəstəliyi şiddətləndirmədən qoruyur.

Qəbiz olannar meşə armudu meyvəsinnən çox istifadə etməklə çətinliyi aradan qaldırırlar.

Qaymaqçiçəyinin təmizlənmiş və qurudulmuş köklərinnən çay dəmləyib istifadə etmək yaxşı tə’sir göstərir.

Böyrəkdə daş bağlayan vaxtı qarpızın qurudulmuş qabıqlarınnan və toxumlarınnan çay dəmləyib istifadə etmək faydalıdı.

Mə’də-bağırsaq xəstəliklərində təzə dərilmiş zirnic meyvələrinnən hazırlammış kompot, mürəbbə və şirədən istifadə etmək xeyirlidi.

Göyöskürüyün qarşısını almaq çün kələmin yarpaqlarını bişirib arı balı ilə qarışdırıb yemək məsləhətdi.

Açıq yaraları və dəri xəstəliklərini gülxətmi otu və çiçəyini kərə yağı ilə qarışdırıb alınmış məlhəmlə müalicə etmək olar.

Tut bəhməzi soyuqdəymə və iştahartırmada çox əhəmiyyətlidi.

Qarpızın şirəsinnən, qabığınnan və köklərinnən sidikqovucu vasitə kimi istifadə etmək faydalıdı.

Qan təzyiqinin aşağı salınmasında ən əhəmiyyətli müalicə üsulundan biri zirnic meyvələrinnən və mürəbəsinnən istifadə etməkdi.



Zirnicin təzə dərilmiş meyvələrinnən sinqa, raxit, isitmə xəstəliklərində istifadə etmək faydalıdı.

Qara ciyər xəstəliyində ajqovux otunnan çay dəmləyib içmək xeyirlidi.

Mə’də-bağırsaq xəstəliyində gülxətmi köklərinin təmiz yuyulub əzilmiş köklərinnən dəmlənmiş çaydan istifadə xeyir verir.

Ürək ağrısı zamanı yarpız bitgisinin qurudulmuşunnan çay dəmləyib 10 gün müddətində hər gün nahardan əvvəl yarım stakan içmək lazımdı.

Bronxitə tutulannar gülxətmi bitgisinin dəmlənmiş çayından gündə 3 dəfə istifadə etməklə xəstəliyin qarşısını ala bilərlər.

Qanaxmanın qarşısını almaq üçün boymadərəni dəmləyib içmək məsləhət görülür.

Adamlarda baş vermiş köpü söndürmək üçün çobanyastığı ilə boymadərənin qarışığından dəmlənmiş çaydan istifadə etmək lazımdı.

Mə’də xəstəliyində bağayarpağı bitgisinin toxumlarını qurudub un kimi əzib üç həftə müddətində hər gün nahardan əvvəl bir xörək qaşığı qəbul etmək faydalıdı.

Dalağın şişməsinin qurtarması üçün qatırquyruğu kökündən dəmlənmiş məhluldan gündə üç dəfə içmək lazımdı.

Yel tutan adamı gicirtkanın, ayı baldırğanı və əvəliyin köklərini əzib qurutmaq lazımdı. Qurudulmuş qarışıq xammaldan dəmlənmiş məlhəmi ağrıyan hissəyə yaxmaqla xəstəliyi yüngülləşdirmək olar.

Göz qızararsa və ya yaş gələrsə yumurtanın ağını çalxalayıb, yaxı hazırlayıb, onu gözə yaxmaq lazımdı.

Böyrəklərin ağrısı zamanı almanı təmizləyib, döyüb əzdikdən son-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ra, yarım litr arağa qatıb 40 gün ağzı bağlı halda qaranlıqda saxlamaq lazımdı. Qırx gündən sonra hazır məhluldan gündə üç dəfə bir xörək qaşığı qəbul etmək lazımdı.

Şirin yarasını qurtarmaq üçün qazan qarasını sarımsaqla qarışdırıb əzmək və sarı yağla məlhəm hazırlamaq lazımdı. Hazır məlhəmi yaranın üzərinə yaxıb sarımaqla yaranı qurtarmaq olur.

Baş ağrısı zamanı gülxətmi ilə kəkötunu qaynadıb başı onun buğuna vrmək məsləhət görülür.

Qadın xəstəliyində gülxətmi bitgisilə qoyun qanını qurudub, qarışdıraraq gül yağı ilə yaxı hazırlayır və hazır yaxını qarın nahiyəsinə yaxıb sarımaq lazımdır.

Qara yaranın qurtarması üçün iyli ot deyilən bitgini əzib qurutmaq, sonra ondan məlhəm hazırlayıb yaranın üzərinə yaxmaq lazımdı.

Ağız və diş yarasını qurtarmaq üçün ağ zəyi əzib, suya qatıb, ağızı qarqara edirlər.

Zədə nəticəsində baş verən ağrını kəsmək üçünü qoyunun quyruğunun zəylə qarışdırıb yaxı hazırlayıb ağrıyan hissəyə yaxmaq və sarımaq çox xeyirlidi.

Adamlarda baş vermiş köpü qurtarmaq üçün odunnan hazırlanmış kömürü narın əzib su ilə qarışdırıb tənzifdən keçirib içmək lazımdı.

Kürəklərdə bərk ağrı varsa, oranı möhkəmcə masaj eləmək, sonra isə qalın kərpici və duzu qızdırıb həmin hissəyə yataq şəraitində işlətmək lazımdı. Ancaq iş qurtaranda yenə ehmallı masaj etmək və soyuqdan qorumaq məsləhət görülür.

Soyuqdəymə zamanı yer sarmaşığı adlı otun qurudulmuşunnan çay dəmləyib içmək ağrının qarşısını alır.

Gicirtkanın çiçəyindən dəmlənmiş çayı içmək soyuqdəymənin



qarşısını alır.

Qarın ağrısını qurtarmaq üçün gülxətmi ilə sarı çiçəkdən hazırlanmış məlhəmi içmək xeyirlidi.

Qulaq ağrısı zamanı yovşan tüstüsünnən istifadə etmək xeyirlidir.

Təzə yaraları zəhərri mikroblardan qorumax üçün həmin yaranı sidiklə yumaq lazımdı.

Qızılca tutan uşağı qırmızı rəngli parça ilə sarımaq və ona müntəzəm olaraq şirin şey yedirtmək xəstəliyi qurtarır.

Boğazdan asılan və biləklərdəki kəhrəba muncuqlar qan təzyiqinin azalmasına, normal hala düşməsinə kömək edir.

Qan təzyiqi olannar bibər, eləcə də acı şeyləri yeməməlidi.

Şəkəri olannar yağlı qoyun ətinnən istifadə etməməlidi.

Zəhərrənmə vaxtı qatıq atlaması içmək çox xeyirridi.

Boğaz ağrısı olannar yumurta sarısınnan yaxı hazırrayıf boğazına sarımaladı. Bu tədbir bir həftə davam etdirilməlidi.

Zəhərrənmə zamanı bir stəkan duzlu suyu məməköy ilə qarışdırıb içmək çox xeyirlidir.

Qara ciyərin iltihabı və öd kisəsinin iltihabı xəstəliklərində dağtərxunun çiçəklərini bir stəkan qaynar suda dəmləyib, süzgəcdən keçirif, alınan dəmlənmiş suyu gündə 3-4 dəfə 3 xörək qaşığı içmək xeyirlidi.

Sarılıq xəstəliyində quşarmudunnan hazırrammış şirəni 3-4 dəfə yeməkdən əvvəl içmək gözəl səmərə verir.

Qara ciyər ağrısı zamanı kartofu qabıqlı bişirif və isti halda qara ciyər nahiyəsinə yaxmaqla ağrını sovuşdurmaq olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qara ciyər xəstəliklərində ardıc meyvələrini bişirif əzmək və onu bala qatıf yemək çox faydalıdı.

Boğaz iltihabı zamanı bir stəkan təmizlənmiş moruğu bir stəkan qaynar suda əzişdirib ağızı qarqara etsəniz çox xeyir verər.

Angina xəstəliyinə tutulannar hər gün sarı kök şirəsi ilə boğazı qarqara etməlidi.

Anginanın başlanğıc formasında ağızı limon şirəsi ilə gündə üç-dörd dəfə qarqara etmək də xeyirlidi.

Arı ailəsində əmələ gələn bərəmumunu ağızda çeynəmək anginaların bütün növlərinin müalicəsi üçün çox xeyirlidir. Yaxşı olar ki, gecələr yatanda bərəmumunu ağızda saxlayasan. Bu, anginanın tezliklə sağalması üçün çox əhəmiyyətlidir.

Dəvədabanı bitgisinin zoğlarını 40 gün müddətində hər səhər nahardan qabaq yeməklə mə'də yarasını qurtarmaq olar.

Zəyərək yağı bədəndə əmələ gələn şişdərin müalicəsində əvəzolunmaz dərman hesab edilir. Unla qarışdırıf zəyərək yağı ilə xəmir hazırlanır, həmən xəmir şiş yerinin üzərinə yaxılır. Bu zaman xəmir şişləri ya dağıdır, ya da yetişdirif deşir. Yaradan irin tamam çıxdıqdan sonra bir-iki dəfə həmin dərmanın yenidən yaraya qoyulması onu sağaldır.

Zökəmə yoluxmamaq üçün soyuq havada 3-4 ədəd sarımsaq və soğanı doğrayın, onu açıq havada qabda saxlayın. Onnardan çıxan iyli mehləri burun boşluğu ilə çəkmək lazımdı. Bu tədbiri bir-iki dəfə təkrar etdikdə zökəmə tutulmaqdan qorunarsan.

Qan təzyiqini tənzimləmək üçün hər gün on ədəd üzərrik toxumunu çeynəmək lazımdı.

Qara ciyər xəstəliklərində ac qarına yarım stəkan təzə meşə moruğunun şirəsini içmək lazımdı.



Qara ciyər, öd yollarının xəstəliklərində hər gün iki çay qaşığı balı bir stəkan qaynanmış isti suda həll edib gündə 2-3 dəfə içmək lazımdı.

Hərarətin yüksəlməsi zamanı duza qoyulmuş kələm yarpaqlarını alın və gicgah nahiyəsinə qoymaqla hərarəti normal vəziyyətə salmaq olar.

Sarılıq xəstəliyi zamanı gündə üç dəfə yüz qram quşarmudu meyvəsini yeməkdən 30 dəqiqə əvvəl hər gün istifadə eləmək xeyirlidi.

Sarılıq müalicə etmək üçün təzə hazırlanmış kələm şirəsini hər dəfə bir stəkan olmaqla gündə 2-3 dəfə içmək faydalıdı.

İt tutmuş adamın yarasını qurtarmax üçün dağ olmuş nefti unla qarışdırıf xəmir etmək və həmin xəmiri yaranın üstünə yaxmaq lazımdı.

Bir qədər duz qızdırıb qoymaq qulaqdakı ağrıları yox edər.

Bağırsaqları yumşaltmaq üçün nehrə yağını südlə içmək çox xeyirlidir.

Uzun müddət davam edən, güclü öskürəyi kəsmək üçün bir neçə ədəd turpu çox narın doğrayıf üzərinə şəkər tozu səpin, 10-12 saatdan sonra onun şirəsi çıxacaq. Həmin şirəni hər saatdan bir xörək qaşığı ilə için. Tezliklə xeyrini görəcəksiniz.

Baldan mə'də, bağırsaq, ciyər, baş ağrısında istifadə olunur. Bir qədər qaynadılmış suya bir-neçə qaşıq təbii bal töküf şərbət hazırramax və hər gün ac qarına içmək fayda verir.

Təzə başlanan zökəm zamanı yarım stəkan suya 5 damcı yod salıb içmək lazımdı.

Əziklərin müalicəsi üçün duzla qaynadılmış keçədən geniş istifadə olunur. Bunun üçün duzlu suya keçəni atıf qaynadırlar. Bir müddət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həmin keçəni əzilmiş yerdə saxlamaq lazımdı, sonra isə onu sarıyıf yatmaq xeyrlidi.

Qaşınma xəstəliyi zamanı (qotur, ekzema) çöl yovşanını avqust, sentyabr aylarında yığıb suda qaynadır, onun suyu ilə bədəni, yaxud da qaşınan yeri vanna eləyirlər. Bir həftə müddətində bütün bədəni bu cür vanna etmək çox faydalıdı.

Bərk sətəlcəmə tutulan adamı təzə heyvan dərisinə büküf hər tərəfinə möhkəmcə örtmək lazımdır. Bir sutkadan sonra dərini çıxarıf xəstəni otların qaynadılmış suyu ilə çimizdirif yenə də örtükdə yatırtmaq lazımdı.

İlan çalan adama tə'cili yardım etmək lazımdı. Əgər ilan qıçları və ya qolları çalıfsa tezcə oranı möhkəmcə sıxmaq-bağlamaq, ilan çalan yeri isə neştərləyif zəhərri qanı axıtmaq lazımdı.

Yel xəstəliyində ayı yağı, eləcə də porsuq yağınnan geniş istifadə edilir. Bu tədbiri fasiləsiz olaraq aparmaq lazımdı.



## QARAQOYUNNULARIN SƏPƏLƏNDİYİ REGİONLAR

Didərginlik vaxtı Qaraqoyunnu dərəsinin 12 kəndinin əhalisi Azərbaycan Respublikasının müxtəlif şəhər rayon və kəndlərinə səpələndilər. Bu ağır illər idi; kəndlərin hamısı yay vaxtı uca dağlara köçürdü. Cəmi 4-8 kilometr uzaqlıqda olan dağa köçdüyümüz zaman nəyisə itirirdik. İndi təsəvvür edin ki, yüz kilometrlərlə uzaq olan regionlara əliboş, bütün sərvətlərdən məhrum olan bu günahsız didərginnər nələr itirmədilər. İtirdilər ömrü boyu qazandıqlarını, sərvətlərini, qan-tərlə qurduqları binaları, hər şeydən artıq itirdikləri ata-baba qəbirlərini; ancaq itirmədilər inamlarını, səbrlərini, qeyrət-namuslarını.

Babalarının, atalarının çəkdikləri əzab-əziyyətləri gözləri qarşısına gətirərək onların ruhunu incitmədilər, dözdülər.

Qaçqınlarımızın ən böyük məsləki dözüm oldu, dözdük tarixin bu qanlı faciəsinə.

Qaraqoyunlu dərəsinin ən çox məskunlaşdığı iri şəhərlər:

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərləri oldu. Bundan başqa aşağıdakı rayonlar və kəndlərdə məskunlaşmışlar:

1. Qazax rayonu - şəhərin özü, Musakoy, Çaylı, Komuna, Ağköynək, Daş Salahlı
2. Ağstafa: şəhərin özü, Yeni gün, Eynallı
3. Tovuz: şəhərin özündə, Girzanda
4. Şəmkir:şəhərin özündə, Kür qəsəbəsində, Çardağlı Çənlibeldə, Bada, Günəşli, Aşağı və Yuxarı Çaykənd
5. Gədəbəydə-rayonun özündə və kəndlərində.
6. Daşkəsən rayonun özündə və kəndlərində.
7. Goranboyun özündə və kəndlərində.
8. Balakəndə və kəndlərində
9. Şamaxıda və kəndlərində
10. Ağsuda və kəndlərində
11. Xırdalanda və kəndlərdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

### I. İLKİN NÖV VƏ JANRLAR

İnanclar: Sınamalar: Yasaqlar: Ovsunnar – Tanrıverdiyeva Bəsti Qorçü qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (70 yaşlı). Pirverdiyeva Navat Yolçu qızı – Krasnoselo rayonu. Çaykən kəndi (76 yaşlı), Mustafayeva Almadərən Həsən qızı – İcevan rayonu, Salah kəndi (80 yaşlı), Həsənov Həsən Məhəmməd oğlu – İcevan rayonu, Haqqıxlı kəndi (78 yaşlı), Məmmədov Qafar Teymur oğlu – İçevan rayonu, Polad kəndi (70 yaşlı), Abbasov Əziz Oruc oğlu – İçevan rayonu, Polad kəndi (70 yaşlı), Əfəndiyev Rasim Yusif oğlu – Krasnoselo rayonu, Qaraqaya kəndi (72 yaşlı), Süleymanov Oruc Mahmud oğlu – Krasnoselo rayonu, qaraqaya kəndi (75 yaşlı).

Əmək nəğmələri – Hacıyeva Leyli Bədir qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (76 yaşlı), Qazayeva Çimnaz Mansur qızı – İçevan rayon, Salah kəndi (70 yaşlı).

Alqışlar: Alqış bayatıları – Əsgərova Böyükqız Mehralı qızı – Krasnoselo rayonu. Çaykənd kəndi (80 yaşlı), Süleymanova Nərgiz Məhəmməd qızı – Krasnoselo rayonu, Gölkənd kəndi, (70 yaşlı), Abdullayeva Dihara Şahnəzər qızı – Korasnoselo rayonu, Yanıxtəpə kəndi (80 yaşlı), Kazımova Ülkər Hacı qızı – İçevan rayonu, Haqqıxlı kəndi (75 yaşlı), Qarayeva Çimnaz Hamza qızı – İçevan rayonu, Salah kəndi (70 yaşlı), Tağıyeva Sona Əli qızı – İçevan rayonu, Polad kəndi (82 yaşlı).g

Qarğışlar: Qarğaş bayatıları – Ayqız Balakişi qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (80 yaşlı), Alıyeva Gülavatın – Krasnoselo rayonu, Gölkənd kəndi (85 yaşlı), Məmmədova Şərəf Niftalı qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (75 yaşlı), Əhmədova Mələk Alı qızı – Krasnoselo rayonu, Yanıxtəpə kəndi (70 yaşlı), Mustafayeva Nəzəvət Murğuz qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (75 yaşlı), Hacıyeva Bafta Hümmət qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (80 yaşlı), Kazımova Aşa Hacı qızı Krasnoselo rayonu, Haqqıxlı kəndi (73 yaşlı), Qarayeva Urquya Paşa qızı – Krasnoselo rayonu, Salah kəndi (80 yaşlı).

Andlar: Yalvarışlar – Mahmudova Xədicə Yolçu qızı – Krasnoselo



rayonu, Əmirxeyir kəndi (70 yaşlı), Alıyeva Sürməli Əli qızı – İçevan rayonu, Salah kəndi (65 yaşlı), Məmmədova Qızyetər Həsən qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (70 yaşlı), Əliyeva Məleykə İsrafil qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (75 yaşlı).

### II. ƏNƏNƏVİ JANRLAR

Əfsanələr: Rəvayətlər – Mehdiyev Rəsul Muxtar oğlu – Krasnoselo rayonu, Qaraqaya kəndi (76 yaşlı), İsayev Hacan Daşdı oğlu – Krasnoselo rayonu, Qaraqaya kəndi (75 yaşlı), Quliyev Qulu Albaba oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (80 yaşlı).

Nağıllar: Heyvanlar haqqında nağıllar – Kərimova Gülsüm Ocaqqulu qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (80 yaşlı), Budaqova Zeynab Nəcəf qızı – İçevan rayonu, Haqqıxlı kəndi (75 yaşlı), Allahverdiyeva Zeynab Həşim qızı – İçevan rayonu, Haqqıxlı kəndi (70 yaşlı).

#### Sehrli nağıllar

Qıllıca – Məmmədova Aşa Veyis qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (70 yaşlı).

Çal at, qonur at – Hacıyeva Sitarə Hümbət qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (75 yaşlı).

Sehrli köynək – Məmmədova Şərəf Niftalı qızı – Krasnoselo rayonu, Yanıqtəpə kəndi (76 yaşlı).

Sehrli üzük – Əhmədova Saçlı İbrahim qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (80 yaşlı).

Qızıl-gümüş içində – Hacı Tanrıverdiyev Məhəmməd oğlu – Krasnoselo rayonu, Çaykən kəndi (85 yaşlı).

Ağıllı pəri ilə yeddi qardaş – Pirverdiyev Mustafa Həmid oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı).

Şahzadəylə əmisi – Məmmədova Aşa Veyis qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (70yaşlı).

#### Məişət nağılları

Tafq – Dostumalı Əhmədov Mehdi oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (82 yaşlı).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tacir Mehdinin nağılı – Orucov Cəlal Malagedən oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (72 yaşlı).

Keçəlin nağılı – Məmmədova Aşa Veyis qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (70 yaşlı)

Əsgərlə padşahın nağılı – Məmmədov İsa Rüstəm oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı).

Xəzinə – Pirverdiyev Mustafa Həmid oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı).

Vəfalı dostlar – Məmmədova Aşa Veyis qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (70 yaşlı).

Atalar sözləri və məsəllər – Kərimov Alxan Tanrıverdi oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı), həsənova Böyükqız Mehralı qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (80 yaşlı), Məmmədova Qızyetər Həsən qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (78 yaşlı), Kərimov Komissar Müseyib oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (72 yaşlı), Abdullayeva Dinarə Şahnazar qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (70 yaşlı), Əfəndiyev Məmməd Usuf oğlu – Krasnoselo rayonu, Qaraqaya kəndi (67 yaşlı), Məmmədova Aşa Veyis qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (70 yaşlı).

Deyimlər: Öyüd-nəsihətlər – Hacıyeva Leyla Bəbir qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (76 yaşhlı), Qarayeva Çimnaz Mansur qızı – İçevan rayonu, Salah kəndi (70 yaşlı), Qağıyeva Suğra Oruc qızı – İçevan rayonu, Polad kəndi (70 yaşlı), Hacıyeva Qafta Hümbət qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi, evdar qadın (76 yaşlı).

Gülməcələr: Niyə belə deyirik? – Əyyubov Əli Abdulla oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (65 yaşlı), Kərimov Alxan Tanrıverdi oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı), Hacıyev Hacı Bəbir oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşhlı), İsgəndərov Şirin Məhəmməd oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı0, Mehdiyev Saleh Muxtar oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (65 yaşlı), Pirverdiyev Mustafa Həmid oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı), İsgəndərov İsmixan Məhəmməd



oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (80 yaşlı), Ləzimov Valeh Xəlil oğlu – Krasnoselo rayonu, Bəryabad kəndi (65 yaşlı).

Tapmacalar – Mustafayeva Əsli Həmzə qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (75 yaşlı), Qarayeva Simuzər Yahya qızı – Krasnoselo rayonu, Gölkənd kəndi (70 yaşlı), Rzayeva Tehran Məhəmməd qızı, İçevan rayonu, Haqqıxlı kəndi (73 yaşlı), Abdullayeva Mədinə Oruc qızı – İçevan rayonu, Salah kəndi (76 yaşlı), Əhmədova Kəklik Balaəfəndi qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (71 yaşlı), Yahyayeva Bilqeyis Qafar qızı – İçevan rayonu, Haqqıxlı kəndi (70 yaşlı), Abdullayeva Dilavər Şahnəzər qızı – Krasnoselo rayonu, Yanıxtəpə kəndi (75 yaşlı).

Bayatılar: Ağılar – Abdullayeva Dinarə Şahnəzər qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (70 yaşlı), Orucov Cəlal Malagedən oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (65 yaşlı), Səmədov Ələsgər Dəmir oğlu – Krasnoselo rayonu, Əmirxeyir kəndi (65 yaşlı), Mahmudov Əmiraslan Pirməmməd oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı), ialıbov İlyas Abdulla oğlu – Krasnoselo rayonu, Yanıqpəyə kəndi (80 yaşlı), Həsənov İbrahim Bəkir oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı), Məmmədov Oruc – Krasnoselo rayonu, Qaraqaya kəndi (70 yaşlı), məmmədova Aişə Veyis qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (70 yaşlı), Əhmədova Rahilə Abıqızı – Krasnoselo rayonu, Çaykənd kəndi (60 yaşlı).

Lalalar: Nazlamalar: Düzgülər: Cırnatmalar: Yanıltmaclar – Süleymanova Nərgiz Məmməd qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı), İsgəndərova Xanım Alı qızı – Krasnoselo rayonu, Gölkənd kəndi (80 yaşlı), Kazımova Aşa Hacı qızı İçevan rayonu, Haqqıxlı kəndi (75 yaşlı), Məmmədova Məhəmməd İzzət qızı – İçevan rayonu, Salah kəndi (65 yaşlı), Hacıyeva Leyli Bəbir qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (76 yaşhlı), Qarayeva Çimnaz Mansur qızı – İçevan rayonu, Salah kəndi (70 yaşlı), Tağıyeva Suğra Oruc qızı – İçevan rayonu, Polad kəndi (70 yaşlı).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

III. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

Qul Vəli – Mahmudov Əmiraslan Pirməmməd oğlu – Krasnoselo rayonu, Çaykənd kəndi (75 yaşlı).

IV. DİGƏR ÖRNƏKLƏR

Yuxuyozmalar – Əfəndiyev Rasim Yusif oğlu – Krasnoselo rayonu, Qaraqaya kəndi (72 yaşlı), Süleymanov Oruc Mahmud oğlu – Krasnoselo rayonu, Qaraqaya kəndi (75 yaşlı), İbrahimov Tapdıq Mansur oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (73 yaşlı), Kərimov Şövkət Manaf oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (70 yaşlı), Hacıyev Yaşar Qafar oğlu – Krasnoselo rayonu, Gölkənd kəndi (80 yaşlı).

Türkəçarələr – Məmmədova Aşa Veyis qızı – Krasnoselo rayonu, Əmirxeyir kəndi (743 yaşlı): kazımova Aşa Hacı qızı – İçeva rayonu, Haqqıxlı kəndi (75 yaşlı), Abbasova Zərifə İmran qızı – Krasnoselo rayonu, Çaykənd kəndi (70 yaşlı), Mustafayeva Əsli Həmzə qızı – Krasnoselo rayonu, Qaraqaya kəndi (75 yaşlı), Qarayeva Simuzər Yahya qızı – Krasnoselo rayonu, Gölkənd kəndi (70 yaşlı), Rzayeva Tehran Məhəmməd qızı – İçevan rayonu, Haqqıxlı kəndi (73 yaşlı).



# GÖSTƏRİCİ

## 1. Şəxs, mifoloji və folklor obrazları

**A**
Axır çərşənbə
Adına axşamı
Allahverdi
Ataş qarı
Allahverdi
Alı kişi
Aşır
Asdalılar Qurban
Alaxançalar İsgəndər oğlu
Aşıq Bəsdi
Ağı
Adəm
Ay
Abdulla
Ağı Əhmədov
Arıx Əhməd
Afdandil
Alxan Kərimov
Aşıx Qurban
Arazalı
Abbas kişi
Aynur
Avqust

**B**
Bədnəzər
Boz ay
Binnət
Bayram kişi
Bilal
Bulud



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bənövşə
Bəstəgül
Biləndər

**C**

Cin
Cümə axşamı
Cənabı-Əmir
Cənnət
Cəhənnəm
Cahan

**Ç**

Çilə
«Çərəkə»
Çoban oğlu Bayram
Çita Təxrət
Çavzavadze

**D**

Daşdəmir
Dövlətxan
Dursun
Dilən
Dilşad

**Ə**

Əhlət daşı
Əyə
Əzrayıl
Əmirverdi
Əsgər oğlu
Əlqəzəb
Əbdüləzim
Əhmədcan
Əsgər
Əşrəf



Əhməd
Əliş kişi
Əhəd
Əli
Əminə
Ələmdar
Əlyaş kişi

**F**

Fərzail
Fatı
Fəxrət
Fatma
Fələk

**G**

Güləndam
Gülsənəm
Gülbadam
Gülcamal
Gülməmməd
Gülgəz
Günəş

**H**

Həzrəti Əli
Həzrəti Abbas
Hays Əfəndi
Hays Mirzə
Həmid Pirverdi oğlu
Hacı Suxan
Hasanxan
Hasan
Hasan
Hambaloğlu
Hacı Məmməd
Həvva



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hacı Əhməd
Hənifə
Hacı Nadir
Hacı İbrahim
Hayq
Hasanoğlu
Hürmələk
Həsənağa
Həsənqulu
Həsrət
Hilal

**X**
Xidir Nəbi
Xidir İlyas
Xalil Ağa

**İ**
İmam Əli
İmam Həsən
İmam Hüseyn
İsə Qağa
İsmayıl
İdris Şadiqov
İvraham
İmam Ehsani

**K**
Kərə Kərəm
Koroğlu
«Kəlmeyi-Şəhadət
Koxa Əhməd
Kalvayı İbrahim
Keçəl
Keçəl Usif
Keçəl Əhməd
Kosa



**Q**
Qur'an
Qaçaq Kərəm
Qafar
Qara Əhməd
Qançeli
Qandal Naği
Qaçaq Tanrıverdi
Qasım
Qələndaroğlu Cəli
Qurbanov Kayi
Qıllıca
Qul Cəli
Qaçaq Dövlətxan
Qələndar
Qara
Qaçay
Qurvan müəllim
Qulaməli
Qəşəm Avdulla oğlu
Qəmbər kişi
Qara İbrəhim
Qəhəd
Qara Musa
Qərənyil
Qədir
Qəbir

**Y**
Yətif
Yoğman Qulu
Yenin

**M**
Mələklər
Mir Yaqub
Mirəli Ağa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd Peyğəmbər
Molla Nəbi
Molla İvrahım
Molla Hasan
Məhəmməd
Mikayıl
Molla Süleyman
Müxdər İsmayıl
Molla Nəbi
Mügdər kişi
Musa kişi
Musuq
Mehralı Koxa
Mələk
Məleykə
Mahmud
Mehdi
Mehtəroğlu
Maral
Mustafa
Miğdat
Milis
Mustafa Mahmudov
Məsmə Arvad
Milağan
Matvey
Mansuroğolu İsə
Mineyl kişi
Madar
Məşədi
Məlik
Mayıl
Məsim
Məşədi Məcid



**N**

Nazdı
Namazlı
Nəsib
Nəsavət
Nuh Peyğəmbər
Nəvi
Nəzər
Nadir
Nuru
Nərgiz
Navad

**O**

O dünya
Omar
Oğru Nəsif
Ohan
Oruc
Oyaxqulu

**P**

Pirvəli
Pirməmməd
Pəri
Piri
Pərzad arvad

**R**

Rüstəm kişi
Ramazan
Rəşid

**S**

Seyid Bayram
Səfxan
Səməd Vurğun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Saçlı Arvad
Sayad müəllim
Seyid
Sabit
Sabir
Süsən
Səma
Sultan
Sayad müəllim
Seyid
Sabit
Sabir
Süsən
Səma
Sultan

**Ş**

Şeytan
Şər vaxtı
Şeşə Əhməd
Şəmsəddin
Şair Vəli
Şelənən
Şahzadə Əlişir

**T**

Tat Məcid
Tatar
Topal Rza
Talıf
Tavad
Tacir Həsən
Tırtaq Nağı
Tat Məhəmməd
Toxtan
Qatır



**U**

Usuf əfəndi
Usufalı
Ulduz

**V**

Vəli
Vəli Əfəndi
Vəkil
Vəzir
Vəfadar
Vəhmiş

**Y**

Yel baba
Yeylər
Yığan
Yalımı Mustafa
Yetər
Yer kürəsi
Yalançı Mustafa

**Z**

Zeynaf
Ziyaddın
Zorba Pəhlivan
Zalı xan

## 2. YER, TAYFA, VƏ BAYRAM ADLARI

**A**

Ağnavad (Axnavan)
«Axtamar» restoran
Ağstafa
Aran
Arxaç çayı
Ayrım



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan
Ağköynək kəndi
Aşağı çaykənd
Ağsu
Ağbulaq

**B**
Bakı
Böləli
Bəryabaz çayı
Bəryıbax
Bəryabad
Bada
Balakən

**C**
Cantəpə yaylağı
Ceyrançöl
Cələ

**Ç**
Çıvuxlu
Çaykənd
Çayqarışan
Çəmbərək-Tofaşan
Çaykənd-Krasnoselo yolu
Çölkənd
Çökək yurd
Çalmalı yurdu
Çaylı kənd
Çardaxlı
Çənlibel
Çuvuxlu

**D**
Dilican
Dəlməni



Daş bulax
Daş salahlı
Daşkəsən

**E**
Ermənistan
Eynallı

**Ə**
Əmirxeyir kəndi
Əmrixeyir-taziçan yolu
Əyrisli sahəsi

**G**
Göyçə
Göyçə qolu
Gülləli
Gədəbəy
Gürcüstan
Gəncə
Göyüzlü
Günəşli
Gözəldərə

**H**
Həss
Haqqıxlı kəndi
Hoppbadan
Hatı Abbası

**X**
Xinna dərəçi
Xırdalan

**İ**
İcevan
İran



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İraq

**K**
Kəbə
Kərbala
Kərəm qayağı
Karvansara
Karvan
Krasnasel-Gədəbəy yolu
Komuna kəndi
Kür qəsəbəsi

**Q**
Qiblə
Qara Əhmədli tayfası
Qazax-Dilican şose yolu
Qazax mahalı
Qərbi Azərbaycan
Qarı Qayası
Qaraqoyunlu dərəsi
Qafqaz
Qıraq Kəsəmən
Qaraçöp
Qaraqaya kəndi
Qarayöküş
Qarayazı
Qazandüşən
Qurbanlıx bayramı

**M**
Murquz irisəm
Məkkə
Mədinə
Mir İsmayılın oylağı
Molla qayası
Marallıca yaylağı
Murquz



Musasoy kəndi
Mehdilər tayfası
Mehdi oğlu Əhməd
Mehrallar tayfası
Mələnni tayfası
Mingəçevir

**N**
Noylu bulağı
Novruz bayramı

**O**
Oruşdux bayramı.

**S**
Soyuxbulax yaylağı
Salah kəndi
Savadquq
Səngər dağı
Suyuxbulax
Sumqayıt

**Ş**
Şəmkir
Şəkər qalası
Şəkər bulax
Şirvan
Şamaxı

**T**
Tovuz
Toxluca
Tapaşan
Tərşəçay-çayı
Tili
Türkiyə
Torpaq şöbəsi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tikdaş
Təbriz
Türkmən

**U**
Uzum yolu

**V**
Vənəlli tayfası

**Y**
Yaralı dağ
Yağlı dərə
Yanıxtəpə kəndi
Yalvana
Yuxarı çaykənd
Yaz bayramı
Yeni gün kəndi

## 3. BİTKİ, AĞAC, HEYVAN VƏ QUŞ ADLARI

**A**
Alma
Ağcadaraq
Arı
Ayı
Armud
Ağ tut
Aycan
At əvəliyi
At
Alabaxta
Andız
Ardıc



**B**
Buğda
Bayquş
Bəbir
Böyürtkən
Bağayarpağı
Baldırqan
Bənövşə
Bülbül

**C**
Canavar
Cökə
Cincilim
Camil

**Ç**
Çəpiş
Çaqqal
Çobanyastığı
Çiyələk
Çəyirtkə

**D**
Dağdağan
Dovşan
Darçın
Damoti
Durna
Divir
Düyü
Dəvə

**Ə**
Ərik
Əncir
Əvəlik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmənkömənci

**F**
Fındıq

**G**
Gərməsov
Günəbəxan
Göbələk
Göy qarğa
Gülxətmi
Gilas

**H**
Hörüm
Heyva
Hoppor quşu

**X**
Xərçək
Xoruz
Xiyar
Xına
Xurma

**İ**
İt
İlan
İnək
İtburnu
İyob
İnnab
İpəkqurdu

**K**
Keçi
Kirpi



Kəklikotu
Kəklik
Kirpi
Kələm
Kərtənkələ
Kaçtof
Köpək
Kəl

**Q**
Qurd
Qaradağ
Qoyun
Qarğa
Quzu
Qaranquş
Qızılgül
Qırqovul
Qaymaq çiçəyi
Qarpız
Qantəpər
Qurbağa
Qızılquş
Qoz
Qarğıdalı
Qarışqa
Qatıqquyruğu
Quş armudu

**L**
Limon
Lalə

**M**
Maral
Maydan
Madyin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**N**
Nanə
Nur
Nərgiz

**Ö**
Öy ilan
Öküz

**P**
Pambıx
Pələng
Palıd
Porsuq

**R**
Reyhan

**S**
Siçan
Səməni
Sağsağan
Sarımsaq
Soğan
Sarımsağ
Səhləb

**Ş**
Şam
Şabalıd

**T**
Tülkü
Toyüq
Toz ağacı
Tülkü
Turunç



**Ü**
Üzərlik
Üzüm

**Y**
Yasəmən
Yemiş
Yarpız
Yerkökü
Yemişan

**Z**
Zirinc
Zoğal

## 4. PEŞƏ-SƏNƏT, ALƏT, SİLAH ADLARI VƏ DİGƏR ANLAMALAR

**A**
Axar su
Ayaqqabı
Ağ neft
Ayran
Aşsüzən
Arıçılıq

**V**
Bərəkət
Balta
Beşik
Bal
Bulaq
Brama
Bazarkom
Bəzirqan
Boyaxçı
Buxanı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bayrax
Bulduz

**C**

Cüt
Cəhrə

**Ç**

Çirax
Çaxmax daşı
Çəlik
Çörək
Çuval
Çömçə
Çanax

**D**

Duz
Doşab
Dəryaz
Dirrik
Dükançı
Dəyirmaçı
Dəyirman daşı
Dəyirman
Dəf
Daraq
Dərviş
Darğa
Dəmirçi
Dəmir

**Ə**

Ələk
Əmlak
Əmanət



**F**

Fal
Falçı

**G**

Gözmuncuğu
Güzgü
Gümüşü
Göy qurşağı

**X**

Xatakün
Xamur
Xamralı
Xəritə
Xəncər
Xəlbir
Xırman
Xalça
Xidmətçi

**İ**

İynə
İldırım

**H**

Hədik
Hodax

**K**

Kümbəz
Kotan
Kömür
Kabab
Kömürçü
Köynək
Kürəkən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kərt
Kəmər
Kərə yağı

**Q**
Qazan
Qayçı
Qovuq
Qovurqa
Qazıx
Qar
Qamçı
Qılınc
Qızıl
Quldur
Qəlyan
Qamış
Qaymaq
Qoç
Qor
Qırov

**L**
Lampa

**M**
Muncuq
Meşəbəyi
Milis

**N**
Nehrə
Nehrə yağı
Nal
Nur



**O**
Oyax
Oyax ilanı
Oğru

**O**
Oruş

**P**
Piçax
Papaq
Padşah

**S**
Süpürgə
Sərnic
Soba
Saz
Samavar
Səngər

**Ş**
Şam
Şaman
Şimşək

**T**
Tonqal
Tüfəng
Təndir
Tövlə
Tacir
Tərəzi
Taya

**U**
Un
Un çuvalı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MÜNDƏRİCAT

Çoxcildli «Azərbaycan folkloru antologiyası»nın (AFA) nəşr olunmuş kitabları....3
Ön söz....4

**I. İLKİN NÖV VƏ JANRLAR**
İnanclar ....9
Sınamalar....20
Yasaqlar ....29
Ovsunnar ....34
Əmək nəğmələri ....38
Alqışlar (Dualar) ....39
Alqış bayatıları ....46
Qarqışlar (Bəddualar) ....48
Qarğış bayatıları ....58
Andlar ....59
Yalvarışlar ....63

**II. ƏNƏNƏVİ JANRLAR**

**ƏFSANƏLƏR**
Molla qayası ....66
Qarı qayası....66
Daşa dönmüş çobanla qoyunnar ....67

**RƏVAYƏTLƏR**
Kərəm cələsi....69
Kərəm qayası, Gülləli....70
Kərə Kərəm....70
Qəbrə sancılmış xəncər....72
Əlinə bərkcə dəydimi....73
Hələ doymayıfsan?....73
Ağnavad (Ax navad)....74
Axtamar....75
Künbəz....76
Gəlinboğan ....77
Cantəpə....78
Yaralı....78



Daşdəmirin qətli ....79
Molla hasanını duası....82
Aşır dəli oldu ....83
Bir gecədə ağaran saçlar ....83
Rüstəm kişi boğazını kəsdi ....84
Radşah özünə vəzir seçirdi....85
Səfxanın hiyləsi ....86
Lətif qızıl tapır ....87
Oğrununu kəraməti ....89
Görerəm, a Fərzili....90
Loğman Qulu ....92
Qandal Nağıynana Hacı Saxan....93
Məhəmmədin koxanı döyməsi ....96
Hacı Mirzəynənə Səməd Vurğun ....98
Molla Nəvi....99
Molla Süleymanın qətli....102
Hasanxanın vurulması ....103
Zeynafla Nəsivin vurulması ....104
Xinna dərəsində ....104
Yenidən vətənə....106
Biz də vətəndən qovuldux ....106
Elə elə ki, mənə rəhmət oxusunlar ....107
Dovşanın suyununu suyudu ....108
Hambal oğlu dua yazır ....109
Düanını hikməti....110
A qarı, niyə ağlayırsan....110
Gəlin ölünüzü basdırın ....111
Çarığı bir otaq tikin....112
Hajıyla Məşədi Məcid....113
A Hajı çoxdan başına sadağa olub ....114
Avı torpaq amanatı....114
Axırı yaxşı olar ....115
Mən gedirəm, sən bacar gəlmə....116

**NAĞILLAR**

**HEYVANLAR HAQQINDA NAĞILLAR**
Tülkünün hiyləsi ....117
Tülkü ilə canavar ....118



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tülkü, dovşan, xoruz ........................................................119
Tülkünün tövbəsi ..............................................................120
Kəndli, ayı, tülkü ..............................................................121
Kəndliynənə pələng ..........................................................123
Pişik, xoruz, tülkü..............................................................124
Xoruzun ölümü ..................................................................125
Ayı ilə qız...........................................................................127

**SEHİRLİ NAĞILLAR**

Qılıca ..............................................................................129
Çal at, qonur at .................................................................134
Sehrli köynək .....................................................................138
Sehrli üzük..........................................................................142
Qızıl gümüş içində..............................................................151
Ağıllı pəri ilə yeddi quldur ................................................154
Şahzadəylə əmisi ...............................................................160

**MƏŞİƏT NAĞILLARI**

Fatı ...................................................................................168
Tacir Mehdinin nağılı ........................................................172
Keçəlin nağılı .....................................................................177
Əsgərlə padşahın nağılı .....................................................181
Xəzinə.................................................................................185
Vəfalı dostlar .....................................................................188
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR .................................. 192**
Deyimlər ............................................................................221
Öyüd-nəsihətlər, məsləhətlər ...........................................226
Gülməcələr.........................................................................232
Hambaloğlu bazarda .........................................................232
Bədxasiyyət olduğun üçün .................................................233
Oxxəy.................................................................................233
Sən gejə kimə oxşuyursan?................................................234
Koxamız kovxadı ..............................................................234
Qarnım götürmüş ..............................................................234
Hənifənini cavabı ..............................................................235
Ayrıseçkilik .......................................................................235
Apğacı tulla ........................................................................236
Ə, sən də adamsanmı?.......................................................236
Avı şura hökuməti pul kəsmirmi? .....................................237
Ya tanrı, qaç harava səni basar .........................................237
Ay dədə, canım sağ olsun! .................................................237
Arısıdı özü kimi dəlidi .......................................................238
Ayrım deer ..........................................................................238
Ayrım oruc tutur ................................................................238
Qılma deersən, qılmeem.....................................................239
Kimdən danışırsan, ay kişi!.................................................239
Ə, adam aldığını verməzmi?...............................................240
Ə vurmayın qızıl belimə batdı ............................................240
Quyruğu qırxıx olmasa ......................................................241
Sizdə ölünü neçə-neçə basdırırlar........................................241
Özümüz görməsək inanmarıx ...........................................241
Gör mən neyliyəjəm............................................................242
Ağlı var, ancax...................................................................242
Getsəydi gedərdi ................................................................243
Ə, kəs özümüzünkülərdi! ...................................................243
Ölənin qanı batır................................................................243
Şindi-mindinin portu gəldi..................................................244
Dədəm də üzünü nə ucuz qırxırdı ......................................244
Ölünü yedik .......................................................................245
Atayın ehsanında olsun .....................................................245
Düşmən evimi partlatdı ......................................................246
Doğrama yeyirdi.................................................................246
Muğdat qatdığın hamısın içir..............................................247
Başına manşır qoysana ......................................................247
Tülkü vuruf, xoruz isdiyir...................................................248
Ə, bə dana? .........................................................................248
Adımı ver, işin düzələjək.....................................................248
O, mənim dayım döy .........................................................249
Ay əmi, o səninimişmi? .....................................................249
Ə,mən fəxr eliərəm.............................................................250
Yaman əysiyim var ...........................................................250
Dediyiniz nooldu?...............................................................250
Xaşıl yemişəm.....................................................................251
Göydən gələndə daş gördüm...............................................251
Bir dəfəyə 20 litr süd verir..................................................252
Mənim adıma yaz ..............................................................252



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dana boğazdı ....................................................................253
Qəbirstanlıqdadı ..............................................................253
İnəyə bax gör boğazdırmı?...................................................254
Alaq otu çəkillərmi?..........................................................254
İncitmə, qoy yatsın ...........................................................254
Eşşəyin qohumları ............................................................255
Qəmsərdə ikisi var ............................................................255
Tez qayıt indi.....................................................................256
Keçəl Əhməd, Çita Fəxrət, bir də mən...............................256
Öz meyvəmdəndi ...............................................................257
Ziyaddinini «həkimlii».......................................................258
Hambaloğlu və pərzad "həkim" ........................................259
Öpərik, dayna ....................................................................259
O mənim boynuma ............................................................260
İki ehsannan da olduq .......................................................260
İnanmirsan, kərtə bax........................................................261
Tüfəng oğrusu....................................................................261
Qara Əhməd öküzü oğurruyur ..........................................262
Oğlun olsun, ay kürən .......................................................262
Bu ki, öz dağarçığımızdı ...................................................263
Oğru Nəsif .........................................................................263
O, təkcə sizinmi partiyanızdı? ..........................................264
Moxok verin.......................................................................264
İçim sənnən də soyuqdu.....................................................264
Burda kolxz olmaz.............................................................265
İkisinidə bir eşək basıf ......................................................265
Ə, kəsin, gün qızıf .............................................................265
Neçə cür canavar var ........................................................266
Nəvii axtarer.......................................................................266
Özünədə borcum var..........................................................267
Və yağ hanı?.......................................................................267
Əhədə də bir fətir, Qəhədə də bir fətir...............................268
Çovan danış, müəllim sus ..................................................268
Çovanın qəzəbi ..................................................................269
Ölüm demədim ha?.............................................................270
Qolları birinnən,ayaqları birindən olan ..............................270
İsdəyirəm, öküzün birini kəsəm .........................................270
Çıx gör yağış yağırmı? .......................................................271



Niyə belə deyirik?..............................................................272
Balıq bilməz, xaliq bilər .....................................................272
Öğru elə bağırdı kin ............................................................272
Bolluca dilin olsun ..............................................................272
Yalançının yaddaşı.. ...........................................................273
Malxara məssəf qoruma .....................................................273
Vələnnin atı kimi.................................................................273
Öz gözündə tiri görmür ......................................................273
Bəy dediyin nədi ................................................................274
Keçəl qızı saçlı deyə axtarır................................................274
Ağzınan quş tutur ...............................................................274
İnanmırsan, kərtə bax..........................................................274
Bir daş altda, bir daş üsdə....................................................274
Ağzının kəsəri yoxdur .........................................................275
Qarğa, məndə qoz var..........................................................275
Qəmiş qoyma.......................................................................275
Qulağı darı dəlir...................................................................275
Qurdu uluyuf.......................................................................275
Quşu qonmaq ......................................................................276
Çardağı yatdı.......................................................................276
Quş qanadnan uçar..............................................................276
Quşqunu boşdu....................................................................276
Quyrux doğdu.....................................................................276
Quyruğu ələ verməz ...........................................................276
Nuh Nəvidən qalıf ..............................................................277
Əl əli yuyar, əl də üzü ........................................................277
Usuvalının savağına döndü.................................................277
Burnun soxma .....................................................................277
Dönərgəsi dönüf .................................................................277
Kələyini kəsmək .................................................................278
Kələk gəlmək ......................................................................278
Dilotu yemək .......................................................................278
Hürmələk qoydumu.............................................................278
Dil kirəsi .............................................................................279
Dişinə vurmaq .....................................................................279
Öz çırağımı keçirif, səninkini yandırram.............................279
Sümüyünü it sümüyünə calamaq ........................................279
Saqqalım yoxdur sözüm keçmir..........................................280



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayağına yazmaq ....................................................................280
Aydan arı, sudan duru..........................................................280
Maydannıq eləmə ..................................................................280
Qan tuluğu.............................................................................280
Saman altda su yeridir ..........................................................281
Saman özünün deyil, samanix ki özü1ündü.........................281
Quruçanaxlıq etmək..............................................................281
Göy adamdı ...........................................................................281
Bəxtinə gün doğuf.................................................................282
Qazan aşması ........................................................................282
Qapı basması ........................................................................282
Beşik kəsməsi .......................................................................282
Duz görməsi..........................................................................282

**Tapmacalar .........................................................................283**
**Bayatılar .............................................................................311**
**Ağılar..................................................................................331**
**Laylalar ...............................................................................337**
**Nazlamalar...........................................................................340**
**Düzgülər..............................................................................346**
**Cırnatmalar..........................................................................352**
**Yanıltmaclar.........................................................................357**

**III. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ**
**QUL VƏLİ**
Dünyada (müxəmməs)...........................................................359
Dağlar...................................................................................361
Yenə ......................................................................................362
Nəsihət..................................................................................362
Kərəm xannan Zalı xanın deyişməsi ....................................363
İlyas Talıbovun müəllifli bayatıları ..................................... 364

**IV. DİGƏR ÖRNƏKLƏR**
Yuxu yozmalar .....................................................................403
Türkəçarələr..........................................................................408
Qaraqoyunların səpələndiyi regionlar..................................428
Söyləyicilər haqqında mə'lumat............................................429
Göstərici ..............................................................................434



Azərbaycan folkloru antologiyası,
VII kitab, (Qaraqoyunlu folkloru),
Bakı, “Səda“ nəşriyyatı, 2002.

Nəşriyyat direktoru:
Elşən Hətəmzadə

Kompüterdə yığdı:
Ruhəngiz Əfəndiyeva
Xalidə Şəmmədova

Korrektorları:
Tahir Orucov
Elçin Ramazanov

Kompüter tərtibçisi və
texniki redaktoru:
Baxşəli Süleymanov

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 30 ç/v
Tirajı: 500
Qiymәti müqavilә ilә.

Kitab “Səda” nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com